**Rövşən Novruzoğlu**

**Beynəlxalq terrorizm silsiləsindən Erməni terrorizmi**

# GENOSİD......ECOCİD

## I KİTAB

**“Adiloğlu Bakı - 2006**

Az
V 49

**Buraxılışa məsul: ZAKİR QARALOV;** I dərəcəli Dövlət ədliyyə müşaviri, Azərbaycan Respublikasının Baş Prokuroru

**Elmi redaktor: XANLAR VƏLİYEV;** Ədliyyə general-leytenantı, Azərbaycan Respublikasının Hərbi Prokuroru, hüquq elmləri namizədi

**Rəyçilər:** **XAQANİ MƏMMƏDOV;** tarix elmləri doktoru

**RÖVŞƏN MUSTAFAYEV;** siyasi elmlər doktoru

**TEYMUR ƏHMƏDOV;** filologiya elmləri doktoru

**Redaktorlar:** **MUSA QULUZADƏ;** tarix elmləri namizədi

**HƏVVA MƏMMƏDOVA;** tarix elmləri namizədi

**CƏBİ BƏHRAMOV;** tarix elmlər namizədi

V 49 Rövşən Novruzoğlu. GENOSID... ECOCID.
Bakı, «Adiloğlu» nəşriyyatı-2006, 544 səh.

Bu kitab Azərbaycanın erməni terroruna məruz qalmasından və Ermənistanın təcavüzkar siyasəti nəticəsində işğal olunmuş Qarabağ bölgəsinə həsr olunub. Kitabda on altı ildə əldə olunmuş materialların, fakt və sənədlərin ən lazımlısı və gərəklisi verilib. Kitabda toplanmış faktlar, sənədlər və tədqiqat materialları beynəlxalq terrorizmin bir qolu olan erməni terrorizminin və onun tərəfdarlarının əsl simasını açıb göstərir. Kitab «Qarabağ düyünü»nü və terrorizmin köklərini araşdıran diplomatlar, siyasətçilər, hərbi ekspertlər, politoloqlar, hüquq mühafizə orqanları, o cümlədən təhlükəsizlik xidmətinin əməkdaşları üçün böyük əhəmiyyət kəsb edən sənəddir.

İSBN: 978-9952-408-27-0

© R.Vəliyev, 2006

V 0612110919 qrifli nəşr
121-2006

# İŞĞAL OLUNMUŞ AZƏRBAYCAN ƏRAZİLƏRİ

1813-1828-ci illərə qədər Azərbaycan dövlətinin sahəsi təxminən 410 min kv. km olub.

1813-1828-ci illərdə işğal edilmiş Azərbaycan əraziləri: İran əsarəti altındakı Cənubi Azərbaycan - sahəsi təxminən 280 min kv.km.

Rusiya əsarəti altındakı Şimali Azərbaycan - sahəsi təxminən 130 min kv.km.

1918-ci ildə Rusiyanın təzyiqi ilə ermənilərə verilmiş İrəvan xanlığı - sahəsi 9 min kv.km.

Rusiya əsarəti altına alınan Dərbənd xanlığı - sahəsi 7 min kv.km.

1918-1920-ci illərdə Azərbaycan Demokratik Respublikasının malik olduğu əraziləri - sahəsi təxminən 114 min kv.km.

1920-ci ildə Azərbaycan Demokratik Respublikasınm ərazilərini işğal edən rus imperiyasının bölüşdürdüyü Azərbaycan əraziləri; Zəngəzur, Göyçə, Şərur, Dərələyəz, Dilican Ermənistan Sovet Sosialist Respublikasının, Borçalı isə Gürcüstan Sovet Sosialist Respublikasının nəzarətinə verildi. Birlikdə sahəsi təxminən 27,4 min kv. km.

1920-1991-ci illərdə SSRİ əsarəti altında qalmış Azərbaycan Sovet Sosialist Respublikasının ərazisi - 86,6 min kv. km.

## Azərbaycanın 1988-1994-cü illərdə ermənilər tərəfindən işğal edilmiş əraziləri - cəmi 17.610 kv.km –

**Dağlıq Qarabağ Muxtar Vilayəti** (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut) - 1988-1994-cü illər - ümumi sahəsi - 4388 kv. km.

**Şuşa** - 8 may 1992-ci il - 289 kv.km.

**Laçın** - 18 may 1992-ci il - 1835 kv. km.

1923-cü ildə yaradılıb. İnzibati rayon kimi 1930-cu ildən təşkil edilib. 1992-ci il mayın 18-də işğal edilib.

**Kəlbəcər** - 3-4 aprel 1993-cü il - 1936 kv. km.

İnzibati rayon kimi 1930-cu ildə təşkil edilib. 1993-cü il aprelin 3-4-də işğal edilib.

**Ağdam** - 23 iyul 1993-cü il - 1094 kv. km.

1828-ci ildə yaradılıb. İnzibati rayon kimi 1930-cu ildə təşkil edilib. 1993-cü il iyulun 23-də işğal edilib.

**Cəbrayıl** - 23 avqust 1993-cü il - 1050 kv. km.

1873-cü ildə Yelizavetpol quberniyasının tərkibində Cəbrayıl qəzası kimi yaradılıb. İnzibati rayon kimi 1930-cu ildə təşkil edilib. 1993-cü il avqustun 23-də işğal edilib.

**Füzuli** - 23 avqust 1993-cü il - 1386 kv. km
İnzibati rayon kimi 1930-cu ildə təşkil edilib. 1959-cu ilə kimi Qaryagin adlanıb. 1993-cü il avqustun 23-də işğal edilib.
**Qubadli** - 31 avqust 1993-cü il - 802 kv. km
İnzibati rayon kimi 1933-cü ildə yaradılıb. 1963-cü ildə ləğv edilərək ərazisi Zəngilan rayonu ilə birləşdirilib. 1964-cü ildə isə yenidən ayrılıb. 1993-cü il avqustun 31-də işğal edilib.
**Zəngilan** - 30 oktyabr 1993-cü il - 707 kv. km.
İnzibati rayon kimi 1930-cu ildə təşkil edilib. 1957-ci ilədək Pirçivan adlanıb. 1993-cü il oktyabrın 30-da işğal edilib.

Son iki əsrdə tarixi torpaqlarımızın işğalı və ilhaqı xalqımıza qarşı vaxtaşırı soyqırımı ilə müşayiət olunmuş və bu zaman iki milyondan çox soydaşımız qətlə yetirilmişdir.

## AZƏRBAYCANLILARIN SOYQIRIMI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif edilmiş hadisələr özünün əsl qiymətini alır.

Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqınmı da tarixin açılmamış səhifələrindən biridir.

1813-cü və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu. Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Soyqırımı Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildi.

İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq, öz havadarlarının himayəsi altında «erməni vilayəti» adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular. Belə süni ərazi bölgüsü ilə, əslində, azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyuldu. «Böyük Ermənistan» ideyaları təbliğ olunmağa başlandı. Bu uydurma dövlətin Azərbaycan torpaqlarında yaradılmasına «bəraət qazandırmaq məqsədilə» erməni xalqının tarixinin saxtalaşdırılmasına yönəlmiş genişmiqyaslı proqramlar reallaşdırıldı. Azərbaycanın, ümumən Qafqazın tarixinin təhrif

olunması həmin proqramların mühüm tərkib hissəsini təşkil edirdi.

«Böyük Ermənistan» yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirdilər. Ermənilərin Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki Azərbaycan kəndlərini əhatə etdi. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə yeksən edildi, minlərlə Azərbaycanlı vəhşicəsinə qətlə yetirildi. Bu hadisələrin təşkilatçıları məsələnin mahiyyətinin açılmasına, ona düzgün hüquqi-siyasi qiymət verilməsinə maneçilik törədərək azərbaycanlıların mənfi obrazını yaratmış, özlərinin avantürist torpaq iddialarını pərdələmişlər.

Birinci dünya müharibəsi, Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail oldular. 1918-ci ilin mart ayından etibarən əksinqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı Kommunası tərəfindən ümumən Bakı quberniyasını Azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirilməyə başlandı. Həmin günlərdə ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuşdur. Minlərlə dinc Azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə məhv edilmişdir. Ermənilər evlərə od vurmuş, insanları diri-diri yandırmışlar. Milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıtmış, Bakının böyük bir hissəsini xarabalığa çevirmişlər.

Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqlarla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilmiş, kəndlər yandırılmış, milli mədəniyyət abidələri dağıdılıb məhv edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirmişdir. Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədilə fövqəladə istintaq komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırdı. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradıldı. 1919 və 1920-ci ilin mart ayının 31-i iki dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir. Əslində bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasınma imkan vermədi.

Zaqafqaziyanın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra torpaqlarını Ermənistan SSR-in ərazisi elan etdilər. Sonrakı dövrdə bu ərazilərdəki azərbaycanlıların deportasiya edilməsi siyasətini daha da genişləndirmək məqsədilə yeni vasitələrə əl

atdılar. Bunun üçün onlar SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il «Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında» xüsusi qərarına və 1948-53-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə deportasiyasına dövlət səviyyəsində nail oldular.

Erməni millətçiləri öz havadarlarının köməyi ilə 50-ci illərdən etibarən Azərbaycan xalqına qarşı kəskin mənəvi təcavüz kampaniyasına başladılar. Keçmiş sovet məkanında müntəzəm şəkildə yayılan kitab, jurnal və qəzetlərdə milli mədəniyyətimizin, klassik irsimizin, memarlıq abidələrimizin ən nəfis nümunələrinin erməni xalqına mənsub olduğunu sübut etməyə çalışırdılar. Eyni zamanda onlar tərəfindən bütün dünyada azərbaycanlıların mənfi obrazını formalaşdırmaq cəhdləri də güclənirdi. «Yazıq, məzlum erməni xalqı»nın surətini yaradaraq əsrin əvvəlində regionda baş verən hadisələr şüurlu surətdə təhrif olunur, azərbaycanlılara qarşı soyqınm törədənlər soyqırım qurbanları kimi qələmə verilirdi.

Əsrin əvvəlində əksər əhalisi azərbaycanlı olan İrəvan şəhərindən və Ermənistan SSR-in digər bölgələrindən soydaşlarımız təqiblərə məruz qalaraq kütləvi surətdə qovulur. Azərbaycanlıların hüquqları ermənilər tərəfindən kobudcasına pozulur, ana dilində təhsil almasına əngəllər törədilir, onlara qarşı repressiyalar həyata keçirilir. Azərbaycan kəndlərinin tarixi adları dəyişdirilir, toponimika tarixində misli görünməyən qədim toponimlərin müasir adlarla əvəzolunma prosesi baş verir.

Saxtalaşdırılmış erməni tarixi gənc ermənilərin şovinist ruhunda böyüməsinə zəmin yaratmaq üçün dövlət siyasəti səviyyəsinə qaldırılır. Böyük humanist ideallara xidmət edən Azərbaycan ədəbiyyatı və mədəniyyəti ruhunda tərbiyə olunmuş yeni nəslimiz ekstremist erməni ideologiyasının təqiblərinə məruz qalır.

Azərbaycan xalqının mənəviyyatına, milli qüruruna və mənliyinə yönəlmiş böhtanlar siyasi və hərbi təcavüz üçün ideoloji zəmin yaradırdı. Xalqımıza qarşı aparılan soyqırım siyasəti özünün siyasi-hüquqi qiymətini tapmadığı üçün tarixi faktlar sovet mətbuatında ermənilər tərəfindən təhrif olunur və ictimai fikir çaşdırılırdı. Ermənilərin sovet rejimindən bəhrələnərək həyata keçirdikləri və 80-ci illərin ortalarında daha da güclənən antiazərbaycan təbliğatına Azərbaycan Respublikasının rəhbərliyi vaxtında lazımi qiymət vermədi.

1988-ci ildən ortaya atılan qondarma Dağlıq Qarabağ konfliktinin ilkin mərhələsində azərbaycanlının öz tarixi torpaqlarından qovulmasına da respublikada düzgün siyasi qiymət verilmədi. Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-in tərkibinə daxil edilməsi haqqında ermənilərin qeyri-konstitusion qərarını və Moskvanın əslində bu vilayəti Xüsusi İdarəetmə Komitəsi vasitəsilə Azərbaycanın tabeliyindən çıxarmasını xalqımız

ciddi narazılıqla qarşıladı və mühüm siyasi aksiyalara əl atmaq məcburiyyəti qarşısında qaldı. Respublikada keçirilən mitinqlər zamanı torpaqlarımızın işğalı siyasəti qətiyyətlə pislənsə də, Azərbaycan rəhbərliyi öz passiv mövqeyindən əl çəkmədi. Məhz elə bunun nəticəsi olaraq 1990-cı ilin yanvar ayında getdikcə güclənən xalq hərəkatını boğmaq məqsədilə Bakıya qoşunlar yeridildi, yüzlərlə Azərbaycanlı məhv və şikəst edildi, yaralandı, digər fiziki təzyiqlərə məruz qoyuldu.

1992-ci ilin fevralında ermənilər Xocalı şəhərinin əhalisinə misli görünməyən divan tutdu. Tariximizə Xocalı soyqırımı kimi həkk olunan bu qanlı faciə minlərlə azərbaycanlının məhv edilməsi, əsir alınması, şəhərin yerlə yeksan edilməsi ilə qurtardı.

Millətçi-separatçı ermənilərin Dağlıq Qarabağda başladığı avantürist hərəkətin nəticəsi olaraq bu gün bir milyondan artıq soydaşımız erməni qəsbkarları tərəfindən öz doğma yurd-yuvalarından didərgin salınmış, çadırlarda yaşamağa məhkum edilmişdir. Ərazimizin 20 faizinin erməni Silahlı Qüvvələri tərəfindən işğalı zamanı minlərlə vətəndaşımız şəhid olmuş, xəsarət almışdır.

Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin Azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə - 1918-ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırım hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir.

Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırım faciələrini qeyd etmək məqsədilə qərara alıram:

1.31 mart Azərbaycanlıların soyqırımı günü elan edilsin.

2. Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə olunsun ki, azərbaycanlıların soyqırımı ilə bağlı hadisələrə həsr olunmuş xüsusi sessiyanın keçirilməsi məsələsinə baxsın.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 26 mart 1998-ci il

## XOCALI SOYQIRIMININ İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR AZƏRBAYCAN XALQINA MÜRACİƏT

Əziz həmvətənlər!
Hörmətli soydaşlar!

Bu gün mən Sizə insanlığın tarixində ən qəddar və amansız kütləvi terror hadisələrindən biri olan Xocalı soyqırımı münasibətilə müraciət edirəm.

Xocalı faciəsi iki yüz ildən çox müddətdə davakar erməni millətçiləri tərəfindən xalqımıza qarşı aparılan etnik təmizləmə və soyqırımı siyasətinin qanlı səhifəsidir. Müxtəlif vaxtlarda fərqli şəkildə, xüsusi incəliklə yeridilən bu mənfur siyasət və düşmənçilik heç zaman dayanmamış, gah açıq qarşıdurma və qanlı toqquşmalar şəklini almış, gah da dövrün tələblərinə uyğun ideoloji forma ilə pərdələnmişdir.

15 il əvvəl təcavüzkar erməni şovinistlərinin irəli sürdükləri ərazi iddiaları azərbaycanlıların qədim torpaqlarından kütləvi deportasiyasına, çoxsaylı terror aktlarına və tammiqyaslı amansız müharibəyə səbəb oldu. Nəticədə on minlərlə insan həlak oldu, əlil vəziyyətinə düşdü, yüz minlərlə soydaşımız qaçqın və məcburi köçkünə çevrildi. Dağlıq Qarabağ və onun ətrafında olan 7 rayonumuz erməni hərbi birləşmələri tərəfindən işğal edildi. Lakin 1992-ci il fevralın 26-da qədim Xocalı şəhərinin misli görünməmiş qəddarlıqla məhv edilməsi bu faciələrin ən dəhşətlisi oldu. Erməni hərbi birləşmələri 366-cı sovet alayı ilə birlikdə qadınlara, uşaqlara, qocalara aman vermədən yüzlərlə insanı xüsusi vəhşiliklə qətlə yetirdi, onlan hərb tarixində analoqu olmayan işgəncə verməklə öldürdü, təhqirlərə məruz qoydu. Öz amansızlığına, vəhşiliyinə, kütləviliyinə və törədilən cinayətlərin ağırlığına görə Xocalı faciəsi insanlığın tarixində qara ləkə kimi qalacaqdır.

Xocalı soyqırımını törətməkdə erməni şovinistlərinin məqsədi xalqımızı qorxutmaq, vahimə içində saxlamaq, onun mübarizə əzmini qırmaq, işğal faktı ilə barışmasına nail olmaq idi. Lakin düşmən öz məkrli niyyətlərinə çata bilmədi.

Xocalı müdafiəçiləri təpədən dırnağa qədər müasir silahlarla təchiz olunmuş düşmən qarşısında özünü itirmədi, əyilmədi, qəhrəmanlıq və rəşadət nümunələri göstərdi. Onlar qeyri-bərabər döyüşdə igidliklə vuruşaraq, əsl fədakarlıq və vətənpərvərlik nümayiş etdirdilər.

Xocalı faciəsindən danışarkən o zaman Azərbaycana rəhbərlik edən şəxslərin və xalqa rəhbərliyə iddialı olan qüvvələrin siyasi və mənəvi məsuliyyətini ayrıca qeyd etmək lazımdır. Öz vəzifə borcuna görə vətəndaşların asayişini və təhlükəsizliyini qorumalı olan dövlət orqanları şəhərin müdafiəsini təşkil etmək üçün heç bir əməli tədbir görməmiş, şəhər sakinlərini taleyin ümidinə buraxmışdılar. Uzun müddət mühasirə şəraitində qalan, güclü düşmənlə mərdliklə vuruşan şəhərin müdafiəçilərinə heç bir kömək göstərilməmişdir. Respublikanın rəsmi rəhbərliyi baş vermiş ağır cinayət və soyqırımı aktının miqyasları və ağırlığı haqqında dünya dövlətlərinə və beynəlxalq ictimaiyyətə məlumat vermək, həqiqəti çatdırmaq əvəzinə, real vəziyyəti gizlətməyə cəhd etmiş, tam fəaliyyətsizlik, məsuliyyətsizlik və xalqın taleyinə biganəlik nümayiş etdirmişdi. Sonradan da Xocalı soyqırımının mahiyyətini açmaq, onun təşkilatçılarını və icraçılarını ifşa

etmək üçün heç bir iş görülməmişdir. Xalqımızın faciəsi, yüzlərlə insanın məhv olmuş həyatı o zamankı hakimiyyət və müxalifət tərəfindən yalnız siyasi mübarizədə qarşılıqlı ittihamlar üçün vasitə rolunu oynamışdır.

1994-cü ildən başlayaraq Azərbaycan hökuməti və parlamenti Xocalı soyqırımı və bütövlükdə erməni şovinist-millətçilərinin azərbaycanlılara qarşı törətdiyi cinayətlər haqqında həqiqətləri olduğu kimi bütün miqyası və dəhşətləri ilə dünya dövlətlərinə, parlamentlərinə, geniş ictimaiyyətə çatdırmaq, bütün bunların soyqırımı siyasəti kimi tanınmasına nail olmaq xətti yeridir. Bu, Xocalı şəhidlərinin, Vətən müdafiəçilərinin ruhu qarşısında bizim vətəndaşlıq və insanlıq borcumuz olmaqla bərabər, həm də faciənin beynəlxalq hüquqi-siyasi qiymət almasına, onun ideoloqlarının, təşkilatçılarının və icraçılarının layiqincə cəzalandırılmasına yönəlmişdir.

Azərbaycanın dövlət rəhbərliyi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq prinsiplərinə uyğun ədalətli həlli, ərazilərimizin işğaldan azad edilməsi üçün məqsədyönlü və ardıcıl iş aparır. Haqq-ədalət, beynəlxalq hüquq bizim tərəfimizdədir, zaman bizim xeyrimizə işləyir. Bu gün dövlətimiz və xalqımız iqtisadi, siyasi və mənəvi cəhətdən müqayisəolunmaz dərəcədə güclənib, müstəqil Azərbaycan dövləti dünya siyasətinin mühüm faktoruna çevrilib. İnanıram ki, Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmlənməsi, sərhədlərinin toxunulmazlığının və ərazi bütövlüyünün təmin edilməsi Xocalı şəhidlərinə və xalqımızın bütün qəhrəman övladlarına ucaldılan möhtəşəm abidə olacaqdır!

Bu milli matəm günündə Xocalı şəhidlərinin və qəhrəmanlarının müqəddəs ruhu qarşısında baş əyərək, Allahdan onlara rəhmət diləyir, onların yaxınlarına, bütün xalqımıza başsağlığı verirəm!

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 25 fevral 2003-cü il

Haqq anı gəlib çatmışdır. Terrorizmi birbaşa və ya dolayısı ilə dəstəkləyən hər bir ölkə və ya təşkilat beynəlxalq birlik tərəfindən məsuliyyətə cəlb olunmalıdır. Azərbaycan terrorizmdən çox əziyyətlər çəkmişdir. Ermənistanın təcavüzü başlandığı andan erməni terrorçu qrupları tərəfindən Azərbaycana qarşı 32 terror aktı törədilmişdir. Erməni terrorçularının Azərbaycan xalqına qarşı törətdiyi terror aktları Ermənistan silahlı qüvvələrinin Azərbaycana genismiqyaslı təcavüzünün əsas elementlərindən biridir. Bu terrorizmin nəticəsi kimi on minlərlə azərbaycanlı öldürülmüş, bir milyon adam qaçqın vəziyyətinə düşmüş, Azərbaycan ərazisinin 20 faizi Ermənistan tərəfindən iş-ğal olunmuşdur.

**İlham ƏLİYEV,**

**Azərbaycan Respublikasının Prezidenti**

«...Mən bir neçə dəfə demişəm, bir də demək istəyirəm, biz informasiya hücumuna keçməliyik. Biz Ermənistanın işğalçı siyasətini ifşa etməliyik. Çünki reallıq da bundan ibarətdir. Ermənistan Azərbaycan torpaqlarını zəbt edibdir və Ermənistanın təcavüzkar, etnik təmizləmə siyasəti nəticəsində bizim 1 milyondan çox soydaşımız qaçqın, köçkün vəziyyətinə düşübdür».

**Azərbaycan Prezidenti cənab İlham Əliyevin**
**Xarici İşlər Nazirliyində diplomatlarla**
**görüşündəki nitqindən (14 avqust 2006-cı il)**

Tarixin acı həqiqətlərinin ibrət dərsi ondan ibarətdir ki, azərbaycanlılara qarşı iki yüz il davam edən soyqırımı həmin faciələrin əsl səbəbkarlarının kölgədə, cəzasız qalması sayəsində mümkün olmuşdur. Buna görə də xaricdə təbliğat işimizin bütün gücü və əsas istiqaməti azərbaycanlıların soyqırımı tarixinin tam təfərrüatı ilə dünya ictimaiyyətinə çatdırılmasına yönəldilməlidir. Bu məqsədlə Birləşmiş Millətlər Təşkilatını, ATƏT-i, dünyanın bütün nüfuzlu təşkilatlarını tarixdə ən amansız milli qırğın olan azərbaycanlıların soyqırımı haqqında məlumatlandırmaq istiqamətində genismiqyaslı tədbirlər sistemi həyata keçirilməlidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu istiqamətdə gördüyü işlər təqdirəlayiqdir və çox böyük əhəmiyyət dasıyır. O, diplomatiyamızın bu sahədəki fəaliyyətini istiqamətləndirmiş, soyqırım və işğal faktları ilə bağlı həqiqətlərin ən yüksək tribunalardan səslənməsinə nail olmuşdur.

Bizim ziyalılar, bütün vətəndaşlarımız Azərbaycan xalqının haqq səsini dünya ictimaiyyətinə çatdırmaq üçün səylərini daha da artırmalıdırlar.

**Ramiz Mehdiyev,**
**Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbəri,**
**fəlsəfə elmləri doktoru, professor**

## ERMƏNİ GENOSİDİ HAQQINDA YENİ YÜZİLLİYƏ MƏKTUB (ÖN SÖZ ƏVƏZİ)

Mən bu məktubu XXI əsrin yaradıcı, qurucu insanına, vətən torpağı uğrunda, ədalət və insanlıq naminə şəhid və həlak olan minlərlə, milyonlarla bəşər övladının, o cümlədən sevimli Azərbaycan balalarının müqəddəs ruhuna, keşməkeşli olduğu qədər qədim və şərəfli illəri özündə əks etdirən Azərbaycan tarixindən xəbərdar olan dünya dövlətlərinə, onların həqiqəti hər şeydən üstün tutan, səsi hər yerdə eşidilən, hörmət və ehtirama layiq humanist adamlarına

ünvanlayıram.

Meydanlara atılaraq döyüşlərdən, qanlı çarpışmalardan, alovlardan adlayan, keçilməz sədləri fəth edən, fırtınalardan çıxan Azərbaycan xalqı öz istiqlaliyyəti, haqq-ədalət sevgisi, azadlıq istəyi uğrunda qədim zamanlardan böyük şücaət və qəhrəmanlıqla mübarizə aparmış, XX əsrin sonları - XXI əsrin əvvəllərində böyük xilaskarlıq missiyasını şərəflə yerinə yetirmiş ulu öndər, millət atası, dünya şöhrətli Heydər Əliyevin rəhbərliyi ilə ən yeni tarixinin qızıl hərflərlə həkk olunmuş zəfər səhifələrini yazmışdır.

Çar Rusiyası və Sovetlər İttifaqı dönəmində erməni millətçiləri XVIII əsrin sonlarından başlayaraq Türkiyə, XIX əsrdən isə Azərbaycanın torpaqları hesabına «Böyük Ermənistan» yaratmaq xülyasına düşmüş və bundan sonra məqsədlərinə çatmaq üçün müxtəlif yerlərdə milli zəmində qırğınlar törətmişlər. Rusiya və İran arasında bağlanan Gülüstan və Türkmənçay müqavilələrindən sonra ermənilər kütləvi şəkildə Azərbaycan torpaqlarında məskunlaşdırılmışlar. Azərbaycan torpaqlarında ermənilər tərəfindən azərbaycanlılara qarşı 1905-1907-ci illərdə, 1918-ci ildə qırğınlar törədilməklə soyqırımı siyasəti həyata keçirilmişdir. Bundan sonra isə, Stalin tərəfindən imzalanmış SSRİ Nazirlər Sovetinin «Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında» 23 dekabr 1947-ci il tarixli 4083 saylı və həmin köçürülmənin tədbirlər planı haqqında 10 mart 1948-ci il tarixli 754 saylı qərarları ilə bu məsələ artıq SSRİ-nin dövlət siyasəti səviyyəsinə çatdırılmış, yüz minlərlə azərbaycanlının Ermənistandan deportasiyası Ermənistan ərazisindəki azərbaycanlıların qədim məskənləri olan dədə-baba torpaqlarının boşaldılması üçün nəzərdə tutulmuşdur. SSRİ Nazirlər Sovetinin bu qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı olmuşdur. 4083 saylı qərarda 3 il ərzində (1948-50) Ermənistan SSR-dən 100 min nəfər azərbaycanlı əhalinin köçürülməsi planlaşdınlırdı. Bu isə Ermənistanda yaşayan azərbaycanlıların 60%-i demək idi. Bu qərarlar əsasında 1948-1953-cü illərdə yüz əlli mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunmuşdur. Ən adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar. Hadisələrin təhlili göstərir ki, deportasiyalararası dövrlərdə də azərbaycanlılar tarixi-etnik torpaqlarından kütləvi məcburi miqrasiyalara məruz qalmışlar. Bu haqsızlığa uzun müddət heç bir siyasi qiymət verilməmişdi. Yalnız Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin «1948-53-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında» 18 dekabr 1997-ci il tarixli Fərmanı ilə həmin ədalətsizliyə hüquqi qiymət verilməsinə çalışdı, bunun üçün dövlət komissiyası

yaradıldı.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 26 mart 1998-ci il tarixli «Azərbaycanlıların soyqırımı haqqında» Fərmanı ilə ilk dəfə olaraq müxtəlif illərdə azərbaycanlılara qarşı törədilmiş soyqırımına siyasi qiymət verilmiş, bu faciələr obyektiv şəkildə xalqımıza, dünya ictimaiyyətinə çatdırılmışdır. Fərmanda deyilir: «Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edibdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif edilmiş hadisələr özünün əsl qiymətini alır. Azərbaycan xalqına qarşı törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqırımı da tarixin açılmamış səhifələrindən biridir».

Dövlət başçısı Azərbaycan xalqının tarixi keçmişini arayaraq, XIX əsrdə həyata keçirilən müstəmləkəçilik siyasətinin son nəticəsi kimi meydana çıxan faciələrimizin ümumi mənzərəsini xalqa bəyan etmişdir. Bu Fərman dünya miqyasında öz mövqelərini getdikcə möhkəmləndirən müstəqil Azərbaycan dövlətinin haqq səsidir, ədalət harayıdır, bütün dövlətlərlə bərabərhüquqlu münasibətlər qurmağı və öz maraqlarını müdafiə etməyi bacaran dövlətin Milli Manifestidir.

1988-ci ildən başlamış Ermənistan-Azərbaycan müharibəsi dövründə Azərbaycan xalqına qarşı törədilmiş ən amansız cinayətlərdən biri də Xocalı soyqırımı idi. Min illərlə formalaşmış mənəvi-milli dəyərlərə, hərb mədəniyyətinə və əxlaqına zidd olan, dinc əhaliyə qarşı yönəldilmiş Xocalı soyqırımı ötən əsrin sonlarında bəşəriyyətin ən böyük və ən dəhşətli faciəsidir. Xocalı hadisəsi əks-sədası tarix boyu qulaqlarda dəhşətlə səslənəcək soyqırım aktıdır. Xocalı faciəsi erməni millətçilərinin xalqımıza qarşı apardıqları etnik təmizləmə və soyqırımı siyasətinin qanlı nəticəsidir.

Xocalının zəbt olunması zamanı azərbaycanlı sakinlərə qarşı ağlasığmaz vəhşilik törədənlər və Cenevrə Konvensiyasının, «İnsan hüquqları haqqında» ümumi Bəyannamənin (BMT Baş Məclisi tərəfindən 10 dekabr 1948-ci ildə qəbul olunmuşdur) 2,3,5,9 və 17-ci maddələrinin, «Hərbi münaqişələr və fövqəladə hallar zamanı qadın və uşaqların müdafiəsi haqqında» Bəyannamənin (BMT Baş Məclisi tərəfindən 14 dekabr 1974-cü ildə qəbul olunmuşdur), «Soyqırım cinayətlərinin qarşısının alınması və cəzalandırılması haqqında» Konvensiyanın (9 dekabr 1948-ci ildə BMT Baş Məclisi tərəfindən qəbul olunmuşdur) tələblərini kobud surətdə pozanlar indiyədək cəzalandırılmamışdır.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Xocalı faciəsinin 10-cu ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciətində deyilir: «Bu qəddar və amansız soyqırım aktı insanlığın tarixinə ən dəhşətli kütləvi terror hadisələrindən biri kimi daxil olmuşdur. Bu gün Azərbaycan hökuməti və xalqı qarşısında Xocalı soyqırımı və bütövlükdə ermənilərin Dağlıq Qarabağda

törətdikləri vəhşiliklər haqqında həqiqətləri olduğu kimi bütün miqyası və dəhşətləri ilə dünya dövlətlərinə, parlamentlərinə, geniş ictimaiyyətə çatdırmaq, bütün bunların əsl soyqırımı aktı kimi tanınmasına nail olmaq vəzifəsi durur. Bu, Xocalı şəhidlərinin ruhu qarşısında bizim vətəndaşlıq və insanlıq borcumuzdur. Digər tərəfdən, faciənin əsl beynəlxalq hüquqi-siyasi qiymət alması, onun ideoloqlarının, təşkilatçılarının və icraçılarının layiqincə cəzalandırılması bütövlükdə insanlığa qarşı yönəlmiş belə qəddar aktların gələcəkdə təkrarlanmaması üçün mühüm şərtdir».

Xarici kütləvi informasiya vasitələri də bu vandalizm faktına biganə qalmamış, erməni terrorçularının və quldur birləşmələrinin Xocalı şəhərində törətdikləri soyqırım faktını təsdiq etmişdir.

Xocalı faciəsinin tarixdə bir daha təkrarlanmaması üçün onun başvermə şəraitinə yenidən nəzər salmaqla beynəlxalq ictimaiyyətin bu hadisəyə hüquqi-siyasi qiymət verməsinə nail olmaq lazımdır.

Məşhur şotland tarixçisi Edison Fleminq «Tarix sizi nədən sevdi?» kitabında yazır: «...Mən Azərbaycanda şəhid olmuş, itkin düsən ailələrin qonağı oldum. Bu insanların hər birinin gözlərinin dərinliyində düşmənə, ədalətsizliyə, vicdanlarını itirmiş ləyaqətsiz və şərəfsizlərə qarşı amansız bir üsyanın alovlarını gördüm. Torpaqların işğalı (mən Qarabağdakı yaşayış məntəqələrini nəzərdə tuturam), gətirilən müsibətlər, öldürülmüş, yandırılmış adamlar və dağıdılmış yurd yerləri heç kəsi sındıra bilməyib. Mən Azərbaycan xalqını həmişə başı kesməkeşlərdə olan, torpağını, millətini qorumaq üçün əlləri od püskürən qılıncda dayanmış xalqın taleyi ilə, tarixi ilə eyni gördüm...».

Azərbaycanın zəngin təbii sərvətlərində, düşünən beyinlərində, ingilis genetiki, professor Martin Braydın təbirincə desək, XXI əsrin immunitet baxımdan ən qüvvətli və güclü genetikalarından sayılan gen kodlarımızda həmişə düşmən nəzəri olub.

Bu gün Ermənistandakı ictimai-siyasi təşkilatların böyük bir qrupu, siyasi partiya və beynəlxalq hüquq təşkilatlarının liderlərinin bir qismi ölkələrinin işğalçı dövlət olduqlarını artıq etiraf edirlər. Tarixçi A.Asadyan, E.Araz, B.Saatyan, D.Xaçaturov uzun müddət diplomatik korpuslarda çalışan diplomat A.Aruşenbekov, S.Sardaryan, istefaya çıxan general O.Dallakyan, D.Arutunyan, B.Qriqoryants artıq etiraf edirlər ki, Ermənistan Azərbaycan torpaqlarını işğal edib. Məsələn, hüquqşünas M.Danielyan adları çəkilənlərdən daha sərt mövqedə dayanır. İsveçdə bir neçə dildə nəşr olunan «CENTRAL ASİA AND THE CAUCASUS» jurnalının rus variantında o bu fikirlərini şərh edərək göstərir: «...если формирования национальной армии Армении располагаются, а следовательно, контролируют территории. Другого государства, то это - ОККУПАЦИЯ. Другого слова пока нет. И, так гражданин Армении, я обязан первым говорить об этом...» (2002-ci il, № 1, s. 111).

Zənnimcə, şərhə ehtiyac yoxdur. Bu acı və inkarolunmaz həqiqətdir ki, Azərbaycan torpaqları, onun zəngin insan və təbii resursları erməni separatçılarının təqibinə və təcavüzünə, terroruna məruz qalmışdır.

Ermənilərin bu işğalçılığını Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyev 2005-ci il martın 25-də «31 mart azərbaycanlıların soyqırımı günü münasibətilə Azərbaycan xalqına müraciət»ində çox məntiqi bir şəkildə ifşa etmişdir: «...Tarixi Azərbaycan torpaqları olan Qarabağ və Zəngəzura XIX əsrin əvvəllərindən başlayaraq erməni əhalisinin yerləşdirilməsi, demoqrafik vəziyyətin zorla dəyisdirilməsi, 1905, 1918-ci illərdə azərbaycanlı əhalini qorxutmaq və qovmaq məqsədi güdən kütləvi qırğınlar, 1920-ci illərdə Zəngəzurun Ermənistana verilməsi, 1948-53-cü illərdə yüz minlərlə azərbaycanlının indiki Ermənistan ərazisindəki əzəli yurdlarından köçürülməsi xalqımıza qarşı erməni təcavüzünün qanlı səhifələridir. 1988-ci ildə isə erməni şovinist millətçiləri xarici havadarlarının və erməni lobbisinin dəstəyi ilə Dağlıq Qarabağı Azərbaycandan güclə qoparmaq məqsədi güdən yeni hücum dalğasına başladılar. Hərbi münaqişə nəticəsində Dağlıq Qarabağ və ona bitişik ərazidə yerləşən Azərbaycan rayonları erməni birləşmələri tərəfindən işğal edildi. 1992-ci ildə ermənilər qədim Azərbaycan torpağı olan Xocalını dağıdıb məhv etdilər, onun müdafiəçilərinə və dinc sakinlərə qarşı misli görünməmiş vəhşiliklər edildi. Elan olunmamış müharibə nəticəsində bir milyona yaxın azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düsdü, on minlərlə insan həlak edildi. Xalqımıza qarşı təcavüzkar erməni millətçilərinin törətdiyi cinayətlərin tam olmayan siyahısı belədir...».

Ermənistanı elementar hüquq normalarına əməl etməyə, reallıq hissini itirməməyə, məqbul həll variantları istiqamətində addımlar atmağa çağıran Azərbaycan Prezidenti İlham Əliyev bəyan edib ki, danışıqlar prosesi sonsuza qədər davam edə bilməz: «Biz azərbaycanlılara qarşı ermənilərin törətdiyi təcavüz və soyqırımının dünya dövlətlərinin parlamentləri, beynəlxalq təşkilatlar tərəfindən tanınmasına və pislənilməsinə çalışmalıyıq. Biz sülh şəraitində yaşamaq, ölkəmizi inkişaf etdirmək, tarixi ədalətin və həqiqətin bərpa olunmasını, işğal və soyqırım siyasəti həyata keçirənlərin tanınmasını və ifşa olunmasını istəyirik».

XXI əsrdə terrorçuluq Ermənistan dövlətçiliyinin strategiya və taktikasının bir nömrəli siyasətinə, metodologiyasından ideologiyasına çevrilib. Şübhə etmirik ki, yaxın illərdə bu məsələ beynəlxalq aləmin ən mötəbər kürsülərində açıqlanacaq, beynəlxalq terror təşkilatları sırasında Ermənistan terror təşkilatlarının adları və törətdikləri bəşəri cinayətlər sadalanacaq.

Azərbaycan Respublikasının ümummilli lideri Heydər Əliyevin tarixi hadisələrə siyasi qiymət verilməsi istiqamətində atdığı qətiyyətli addımlar tarixi həqiqətlərin üzə çıxarılması və hər şeyin olduğu kimi xalqa çatdırılmasına zəmin yaratdı. Ulu öndərin yürütdüyü daxili və xarici siyasət nəticəsində saxtalaşdırılmış tariximizin yenidən araşdırılması, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması

istiqamətində məqsədyönlü fəaliyyətə başlanıldı. Tariximizin dünənin və bu gününün mühafizə olunduğu arxivlər açıldıqca çox şeylərə aydınlıq gətirildi, bir əsr yanından bəri dünyanı bürümüş erməni terrorunu əks etdirən həqiqətlər dilə gətirildi.

Həm Azərbaycanda, həm də onun hüdudlarından kənarda tanınmış siyasətçi, politoloq-ekspert Rövşən Novruzoğlunun sizə təqdim olunan «Genosid...Ecocid» kitabı olduqca ciddi axtarışların, araşdırmaların məhsuludur. Zəngin tarixi fakt və sənədlərə söykənmiş, güclü məntiqdən, inkarolunmaz məlumat və informasiyaların toplanaraq, ümumiləşdirilmiş təhlilini özündə əks etdirən «Genosid...Ecocid» kitabı da xain xislətli ermənilərin xalqımızın başına açdıqları müsibətləri, faciələri beynəlxalq ictimaiyyətə çatdırmaq missiyasını özündə əxz etdirən nəşrlər sırasındadır. Kitabda toplanmış faktlar, sənədlər və tədqiqat materialları beynəlxalq terrorizmin bir qolu olan erməni terrorizminin və onun tərəfdarlarının əsl simasını açıb göstərir.

Müəllifin kitaba «Genosid...Ecocid» adını qoyması təsadüfi deyildir. Rövşən Novruzoğlunun Azərbaycanın ictimai-siyasi mühitinə gətirdiyi və ilk dəfə hələ XX əsrin ortalarında amerikalı alimlər Mörrey Feşbaxın və Alfred Frendlinin əsərlərində rast gəlinən «Ekosid» ifadəsi Azərbaycanın ayrılmaz və füsunkar Qarabağ ərazilərində ermənilərin apardığı ekoloji terrora, flora və faunaya qarşı törədilmiş vəhşiliklərə və dağıntılara açılan sərrast atəşdir. Erməni terrorizmi öz yırtıcı xisləti ilə yurd yerlərimizin, təbii sərvətlərimizin talanmasına, ekoloji tarazlığın pozulmasına geniş meydan açmışdır. İşğal nəticəsində ermənilər Dağlıq Qarabağda nüvə tullantıları üçün zona yaratmış, narkoplantasiyalar salmış və bütün bunlara xarici şirkətlərin investisiya qoyması üçün qanunsuz imkanlar açmışlar. Torpaqlar yadellilərə icarəyə verilmiş, meşələr, kəhrizlər, biçənəklər satılmışdır. Ekoloji terror - quruyan şəfalı bulaqlar, məcrasını dəyişən çaylar, zəhərlənmiş sular Dağlıq Qarabağı qara günlərə düçar etmişdir. Müəllifin bu kitabı ermənilərin törətdikləri işğalçılıq, etnik təmizləmə, insanlara və təbiətə qarşı soyqırım cinayətlərini sübut və dəlillərlə, fotoşəkillər və xəritələrlə beynəlxalq miqyasda ifşa edən ciddi bir sənədlər toplusudur.

Zənn edirəm ki, erməni terrorizmi və faşizminin insanlığa və təbiətə, min illər boyu bəşəriyyətin yaradıb-yaşatdığı insani münasibətlərə, o cümlədən müharibə zamanı əsirlərlə və girov götürülmüş şəxslərlə davranış qaydalarına və qanunlarına qarşı törədilmiş, vəhşiliyi hədd-hüdud tanımayan müdhiş cinayətləri ifşa edən bu əsər vətənini, xalqını və dövlətini sevən, bütövlükdə insanlığa, bəşəriyyətin humanist ideallarına hörmətlə yanaşan hər bir insan tərəfindən yalnız xüsusi maraqla oxunmaqla qalmayacaq, həm də bu kitab onlarda belə bir iblisanə əməlləri törədənlərə qarşı ikrah və nifrət hisslərinə əsaslanan mübarizə ruhu yaradacaqdır. Yaradacaqdır, ona görə ki, belə dəhşətli faciələr bir daha təkrar olunmasın.

İndi Azərbaycanın iqtisadi potensialı, hərbi qüdrəti, siyasi nüfuzu günbəgün yüksəlməkdədir, Dağlıq Qarabağ problemi ilə bağlı aparılan siyasət öz bəhrəsini verməkdədir. Belə bir tarixi məqamda bu ümummilli məsələnin həllində hər bir vətəndaşımız yardımçı olmalı, əlindən gələni etməlidir. Ümidvarıq ki, bu müdhiş faktların əks olunduğu bu toplu Xatın, Sonqmi, Lidse kimi insanlıq tarixinə düşmüş qanlı olaylarla bir sırada duran Xocalı faciəsi haqqında, eləcə də Ermənistanın Azərbaycan Respublikasına təcavüzünün qurbanları haqqında geniş oxucu auditoriyasına, o cümlədən beynəlxalq ictimaiyyətə çatdırılması baxımından böyük əhəmiyyət kəsb edəcəkdir.

Bəli, bizim şəxsi maraqlarımızın, ayrı-ayrılıqda hər birimizin maraqları arxasında daha əhəmiyyətli bir məfhum dayanır: Azərbaycan, onun müstəqilliyi, toxunulmazlığı, suverenliyi. Bütün bunlara sabitlik və siyasətimizin qətiyyəti sayəsində nail olmuşuq. Biz buna təhlükəsizliyimizə və müstəqilliyimizə təminat verən müdafiə vasitələrinin yaradılması istiqamətində səylərimiz sayəsində nail olmuşuq. Yalnız nəyə doğru getdiyini bilən xalq tarixin yanşında qalib gəlir.

Torpaqlarımızı geri alacağıq. Buna əminəm. Çünki bizim kökümüz, tariximiz var.

Həyat, tarix, yaşadığımız illərin gerçəkliyi bizi bu qənaətə gətirir ki, Yer kürəsinin hansı cəhətində, hansı ölkəsində yaşamağından, hansı dinə tapınmasından, hansı dildə danışmasından asılı olmayaraq, terrora məruz qalan hər bir xalqın ağrısı-acısı, düçar olduğu bəlalar dünyanın ən müxtəlif guşələrində məskunlaşmış bütün xalqların övladlarını ağrıtmalı, göynətməli və onlar da insanları və təbiəti soyqırıma məruz qalmış xalqın dərdinə-oduna yanmalı, bu dəhşətli fəlakətin qarşısını almaq uğrunda mübarizədə birləşməlidirlər.

**Xanlar VƏLİYEV, hüquq elmləri namizədi**

## AZƏRBAYCAN RESPUBLİKASININ HƏRBİ PROKURORLUĞUNUN QOVLUĞUNDAN

-Ermənistanın hərbi separatçı birləşmələri, Dağlıq Qarabağın silahlı quldur dəstələri Xankəndidəki 366-cı rus Alayının hərbçiləri ilə birlikdə beynəlxalq miqyaslı, ağır və qanlı cinayət törətdi. Bu Müstəqil Azərbaycanın genefonduna qarşı açılan ən böyük atəş idi. Nəticədə regionda Birləşmiş Millətlər Təşkilatının Baş Məclisinin «Soyqırım cinayətinin qarşısının alınması və ona görə cəzalandırma haqqında» 9 dekabr 1948-ci il tarixli Konvensiyasının, eləcə də 1949-cu il 12 avqust tarixli «Döyüşən silahlı qüvvələrdə yaralıların və xəstələrin vəziyyətinin yaxşılaşdırılması haqqında», «Hərbi əsirlərlə rəftar haqqında» və «Müharibə zamanı mülki əhalinin qorunması haqqında» Cenevrə Konvensiyalarının tələbləri pozuldu. Azərbaycan xalqı erməni genosidinə məruz

qaldı.

* * *

1988-ci ildə ermənilər Xankəndidə yaşayan azərbaycanlılara qarşı kütləvi hücumlar təşkil edib, onların evlərini yandıraraq şəhərdən məcburən çıxarmış, azərbaycanlılara qarşı zor tətbiq edərək, onların əmlaklarını qarət etmişdilər. Xankəndidə yaşayan 15 min nəfərdən çox azərbaycanlı şəhərdən məcburən köçürülmüşdür.

1988-1991-ci illərdə Ermənistan tərəfindən Dağlıq Qarabağ ərazisinə qanunsuz yolla silahlı dəstələr yeridilərək həmin ərazidə yaşayan azərbaycanlı əhaliyə qarşı mütəmadi olaraq terror aktları həyata keçirilirdi.

1991-ci ilin sentyabrından başlayaraq ermənilər tərəfindən azərbaycanlıların yaşayış məntəqələrinə edilən basqınlarda keçmiş SSRİ-yə məxsus, Xankəndidə yerləşən 366-cı motoatıcı alayın komanda heyəti və hərbi texnikası da iştirak etmişdir.

Ermənilər Dağlıq Qarabağda yaşayan azərbaycanlı əhalini son nəfərinə kimi qırmaq məqsədilə kənd və şəhərləri mühasirəyə alaraq, dinc əhaliyə qarşı müxtəlif çaplı odlu silahlardan istifadə etməklə, ağır hərbi texnika vasitəsilə hücum edir, mühasirədən çıxıb qaçmağa cəhd edən şəxsləri isə yollarda, meşələrdə pusqu quraraq məhv edirdilər.

24.09.1991-ci ildə erməni silahlı dəstələri 366-cı Alayın hərbi texnikasının köməyi ilə əhalisi ancaq azərbaycanlı olan Ağdərə rayonunun İmarət Qərvənd kəndinə basqın etmiş, kənd əhalisinin bir hissəsini xüsusi amansızlıqla qətlə yetirmişlər. Azərbaycanlıların bütün əmlakları qarət olunmuş, evləri yandırılaraq xarabalığa çevrilmişdir. 30.10.1991-ci ildə Tuğ və Səlakətin kəndləri, 12.11.1991-ci ildə Axullu, 19.11.1991-ci ildə Xocavənd, 15.12.1991-ci ildə Cəmilli kəndləri də erməni silahlı qüvvələri tərəfindən 366-cı Alayın hərbi texnikası və komanda heyətinin iştirakı ilə işğal olunmuşdur. Həmin kəndlərin azərbaycanlı əhalisinin bir hissəsi məhv edilmiş, bir hissəsi isə bütün əmlaklarını ataraq qaçmağa məcbur olmuş, evləri yandırılmışdır.

Erməni silahlı qüvvələri və terrorçu dəstələri 1991-ci ilin dekabrından başlayaraq Dağlıq Qarabağın azərbaycanlılar yaşayan kəndlərinə amansız və ardıcıl hücumlara başladılar. Bütün bu kəndlərin işğalı zamanı azərbaycanlılar vəhşicəsinə, xüsusi amansızlıqla öldürülmüş, kəndlər isə yandırılmışdır.

Xocalı Dağlıq Qarabağda Şuşadan sonra azərbaycanlıların yaşadıqları ikinci böyük yaşayış məntəqəsidir. 1990-cı ildə şəhər statusu almışdır. 1991-ci ilin məlumatına görə əhalisinin sayı 7 min nəfər idi. Dağlıq Qarabağdakı yeganə təyyarə meydanı Xocalıda yerləşirdi. Erməni separatçıları, silahlı muzdlu dəstələr, terrorçu qruplar Xocalıda 7 min nəfər silahsız azərbaycanlıya ən dəhşətli və amansız divan tutdu.

* * *

Erməni silahlı birləşmələri Xocalını hər tərəfdən mühasirəyə almışdılar, yolları, keçidləri tutmuşdular. Elektrik enerjisi yox idi. Xocalının xarici aləmlə əlaqəsi 1991-ci ilin noyabrından etibarən ancaq radiotelefonla və mülki vertolyotlarla idi. 28.01.1992-ci ildə ermənilər tərəfindən Dağlıq Qarabağ üzərində Azərbaycan Hava Yolları Dövlət şirkətinə mənsub Mİ-8 markalı mülki vertolyot vurulduqdan və vertolyotda xeyli azərbaycanlı həlak olduqdan sonra Xocalı şəhəri ilə hava əlaqəsi də kəsilmişdi.

25.02.1992-ci il tarixdə saat 22 radələrində erməni silahlı qüvvələri Xocalı şəhərinə 366-cı motoatıcı Alayının komanda heyəti və hərbi texnikası ilə birgə hücuma keçmişdi. Mayor Ohanyan Seyran Muşeqoviçin komandası (bu gün işğal olunmuş Dağlıq Qarabağdakı separatçı rejimin müdafiə naziridir) altında 366-cı Alayın 2-ci batalyonu, Yevgeni Nabokixin komandası altında 3-cü batalyonu, qərargah rəisi Çitçyan Valeriy İsayeviçin rəhbərliyi ilə isə həmin Alayın 1-ci batalyonu Dağlıq Qarabağda ağır cinayətlər törətmiş, etnik təmizləmə siyasəti aparılmışdır.

* * *

İstintaqla müəyyən edilmişdir ki, erməni silahlı qüvvələri Xocalı şəhərinə quldurcasına gecə saat 22 radələrində basqın etmiş, əvvəlcə şəhəri şiddətli artilleriya atəşinə tutmuş, sonra isə çoxsaylı ağır tanklar, PDM və zirehli transportyorlar vasitəsilə şəhərə daxil olmuş, evlərində yatmış dinc əhalini vahiməyə salaraq onları vəhşicəsinə məhv etməyə başlamışlar. Bu zaman qadın, uşaq və ya qocaya aman vermədən qarşılarına çıxanı atəş yağışına tutaraq tank, PDM və digər texnika altına salaraq əzmiş, məhv etmişlər.

Azğınlaşmış ermənilər azərbaycanlıları xüsusi amansızlıqla işgəncə verərək öldürürdülər. Onlar mühasirədən çıxıb qaçmağa müvəffəq olmuş azərbaycanlıları da yollarda, keçidlərdə, meşələrdə pusqu quraraq tutur, vəhşicəsinə məhv edir, meyitlərə od vurub yandırırdılar.

* * *

Meyitlərin xarici müayinəsi, məhkəmə-tibb ekspertizalarının rəyləri, mühasirədən çıxmağa müvəffəq olmuş Xocalı sakinlərinin ifadələri ilə ermənilərin və 366-cı Alayın hərbi qulluqçularının azərbaycanlılara qarşı törətdikləri ağlasığmaz işgəncə, vəhşilik faktları: baş dərisinin soyulması, qulaq, burun, cinsiyyət üzvlərinin kəsilməsi, erməni qəbrinin üstündə azərbaycanlı başının qurbanlıq kimi kəsilməsi faktları müəyyən edilmişdir. Silahlı quldurlar qadına, qocaya və uşağa da fərq qoymadan hamıya işgəncə vermişlər. Qadınların döşlərinin kəsilməsi adi hal olmuşdur.

Müəyyən edilmişdir ki, 1956-cı ildə anadan olmuş Orucov Telman Ənvər oğlu Xocalı şəhərindən mühasirədən çıxıb qaçarkən, 26.02.1992-ci ildə Naxçıvanik kəndi yaxınlığında ermənilər onu güllə ilə vurub öldürmüş və başının dərisini soymuşlar.

1963-cü ildə anadan olmuş Mustafayev Vidadi Şəfa oğlu, 1962-ci ildə anadan olmuş Nuriyev Hafiz Yusif oğlu, 1968-ci ildə anadan olmuş İlyasov Əhməd Məmməd oğlu və başqalarının başı kəsilmişdir. Bakıdan olan Bədəlov Tofiq, 1961-ci ildə anadan olmuş Rəcəbov Cəbrayıl Mehti oğlu tankın tırtılları altına atılmış, gözləri çıxarılmış, qulaqları kəsilmişdir.

Məmmədova Tamara Səlim qızı, Dadaşova Əsli Bəbir qızı, Əmirova Mahı Bəbir qızı, Hümbətova Ənahət Eldar qızı, Nuralıyeva Dilarə Oruc qızı və başqalarının gözləri çıxarılmış, döşləri kəsilmişdir. D.O.Nuralıyevanın qızıl dişləri isə öldürüldükdən sonra çıxarılmışdır.

Səlimov Bahadır Mikayıl oğlu, Aslanov İqbal Qulu oğlunun cinsiyyət üzvləri kəsilmiş, gözləri çıxarılmış, diri-diri yandırılmışdır.

Səlimov Arzu Bahadır oğlunu tutaraq, körpə övladının gözü qarşısında dəmir dəyənəklə işgəncə verərək döyüb öldürmüşlər.

Kərimova Firəngül Məhəmməd qızının bədəni tam doğranılmış, gözləri çıxarılmış, qulaqları və döşləri kəsilmişdir.

Erməni separatçılarının terrorçuluğu ilə bağlı 27.02.1992-ci il tarixdə Qarabağ üzrə rayonlararası prokurorluq tərəfindən Azərbaycan Respublikası CM-nin 70-ci maddəsi, 94-cü maddənin 4, 6-cı bəndləri, 255-ci maddənin «v» bəndi ilə cinayət işi qaldırılmışdır.

* * *

1992-ci il fevralın 28-də Vyanada (Avstriya) nəşr edilən «Kudir» qəzeti belə bir məlumat dərc edir: «...Keçmiş Sovetlər İttifaqının məkanlarından birində baş verən dəhşətli yanğınlar fevralın 25-dən davam edir. Ermənilər bir yerə yığışaraq, rusların köməyi ilə Qara şəhəri (Qarabağı - R.N.) viran etdi. Moskvanın Vyanadakı diplomatlarından olan Oleq Aleksandrviç Ayvazyan iddia etdi ki, onun heç nədən xəbəri yoxdur» (?).

İspaniyada nəşr edilən «Levante» qəzeti isə 1992-ci ilin martın 3-də Valensiyadakı erməni icmasının başçısı Leon Toroyanın müsahibəsini dərc edir. O deyir: «...Ucqar bir yerdə torpaqlarımız uğrunda vuruşduq. İnsan azadlıq uğrunda vuruşa-vuruşa özünü dərk edir. Biz ermənilər indi-indi ayağa qalxırıq. Hər yerdə torpağımızı əlimizdən alıb, bizi qovublar...» (?).

1992-ci il martın 26-da isə eyni qəzetdə Kanada ermənisi, hüquqşünas Vaskel Sitaryan çıxış edərək göstərir: «...Biz ermənilər özümüz-özümüzü dünyada rüsvay etdik. Bizim üçün ağır olan Beynəlxalq məhkəmələr qurulacaq. Kimdir erməni millətini məhkəmə qapılarına sürükləyən?...».

* * *

Törədilmiş cinayətlərin nəticələri ağır, miqyası genişdir. Yaradılmış «Xocalı İstintaq Qrupu» bütün baş verənləri hələ də araşdırır, yeni fakt və sənədləri üzə çıxarır.

Qrupun üzvləri Tbilisi şəhərinin Vaziani stansiyasında cinayət törətmiş 366-

cı Alayın komandiri Y.Y.Zarviqorovu və alayın digər zabitlərini dindirməyə səy etsələr də, Xankəndi hərbi qarnizonunun keçmiş prokuroru Lazutkin, Zaqafqaziya Hərbi Dairəsi Qoşunları Komandanının müavini general Ohanov (milliyyətcə ermənidir) müstəntiqlərə maneçilik törədib dindirmələrə imkan vermədi.

* * *

Müəyyən edilmişdir ki, Xocalıda erməni quldurları vəhşicəsinə, xüsusi amansızlıqla 339 nəfər azərbaycanlını öldürmüş, 371 nəfəri əsir götürmüşlər. Onlardan əksəriyyəti müxtəlif vasitələrlə azad edilmişdir. 30 nəfər Xocalı sakini isə indiyədək ermənilərin əsirliyində qalmaqda davam edir. 421 nəfər Xocalı sakini müxtəlif dərəcəli bədən xəsarətləri alaraq, məhv olub sıradan çıxıb. Aparılan istintaq zamanı müəyyən edilmişdir ki, Xocalı hadisələri zamanı 120 nəfər də itkin düşüb.

* * *

Xocalı Beynəlxalq terrorizmin və separatizmin qurbanı oldu. Bu işğalçılıq siyasətinin də başında erməni silahlı birləşmələri, cinayətkar qruplar dayanırdı. İndi onların üzvlərinin bir qismi Ermənistanda və işğal olunmuş Azərbaycan torpaqlarında müxtəlif vəzifələrə təyin edilib.

İstintaq zamanı müəyyən edilmişdir ki, Ermənistan Respublikası Yuxarı Qarabağda münaqişənin ilk günlərindən silah, döyüş sursatı, hərbi texnika ələ keçirərək silahlı dəstələr yaradılması sahəsində güclü fəaliyyətə başladığı, respublikamızın ərazisinə təxribatçı qruplar göndərdiyi bir vaxtda respublika rəhbərliyi müdafiə qüvvələrinin yaradılmasını ləngitmiş, gözləmə mövqeyi tutmuşdur.

31 avqust 1991-ci il tarixdə SSRİ-in müdafiə naziri Şapoşnikov Azərbaycan Respublikası Prezidenti Ayaz Mütəllibova məktubla müraciət edib, müttəfiq respublikalarda Milli Qvardiya və ya Müdafiə Nazirliyi yaratmaq təklifi irəli sürmüşdür.

Mərkəzin bu təşəbbüsündən sonra respublika prezidenti 334 №-li 5 sentyabr 1991-ci il tarixli Fərmanla Azərbaycan Respublikası Müdafiə Nazirliyi yaratmış, müdafiə naziri vəzifəsinə Bərşadlı Valeh Əyyub oğlunu təyin etmişdir və bununla da işini bitmiş hesab etmişdi. Faktiki olaraq ordu quruculuğu işi ilə heç kim məşğul olmamışdır. Müdafiə Nazirliyi və Silahlı Qüvvələr yalnız kağız üzərində yaradılmışdı.

* * *

Respublika ərazisində yerləşən SSRİ Silahlı Qüvvələrinin 4-cü Ordu hissələri respublika Ali Sovetinin 09 oktyabr 1991-ci il tarixli qərarı ilə milliləşdirilərək, respublika prezidentinin sərəncamına verilməsinə baxmayaraq, ordu komandanlığı hissələrin inventarlaşdırılıb, respublika tabeçiliyinə keçirilməsinə imkan verməmiş və Azərbaycan Respublikasının o vaxtkı rəhbərliyinin qorxaqlığından, cəsarətsizliyindən və habelə Azərbaycan Xalq

Cəbhəsinin keçirdiyi ağılsız tədbirlər nəticəsində hər şey pozulmuşdur. Faktiki olaraq Azərbaycan dövləti başsız qalmışdı. Onun dağılması, parçalanması labüd idi.

Altı ay ərzində dörd Müdafiə Nazirinin dəyişdirilməsi respublika Silahlı Qüvvələrinin qoşun kontingentinə böyük psixoloji, mənəvi ziyan vurmuşdur (V.Bərşadlı 05.09.1991-ci ildən 11.12.1991-ci ilə kimi, T.Mehtiyev 12.12.1991-ci ildən 11.02.1992-ci ilə kimi, Ş.Musayev 11.02.1992-ci ildən 24.02.1992-ci ilə kimi, T.Əliyev 24.02.1992-ci ildən 07.03.1992-ci ilə kimi müdafiə naziri işləmişlər).

* * *

Oktyabr-dekabr aylarında keçirilməli olan həqiqi-hərbi çağırış üç ay gecikdirilmişdi (çağırış barədə fərman Respublika Prezidenti tərəfindən 05 dekabr 1991-ci ildə verilmiş, çağırış kompaniyası isə 1991-ci ilin dekabrından 1992-ci ilin 1 martına kimi keçirilmişdir). Halbuki: qüvvədə olan hərbi təlimatlara görə bir döyüşçünün hazırlanmasına üç ay vaxt tələb edilir. Kurslara görə gənc döyüşçünün hazırlıq proqramı 72 saat, döyüş hazırlığı proqramı 120 saat, mütəxəssis hazırlanması proqramı 520 saat olduğu nəzərə alınarsa, çağırışın üç ay gecikməsi nəticəsində respublikamızın Silahlı Qüvvələri yaradılması prosesinə hansı həcmdə ziyan vurulduğu aydın olur.

* * *

O vaxt ordu sıralarına çağırış da yarıtmaz təşkil olunurdu. Müdafiə naziri və respublikanın hərbi komissarı vəzifəsini eyni vaxtda icra edən T.Mehtiyev bütün çağırışçıların ordu sıralarına aparılmamasının səbəbini 4-cü Ordunun kazarmaları təhvil verməməsində görürdü.

Halbuki, istintaq zamanı müəyyən edilmişdir ki, respublikamızda kifayət qədər çağırışçı qəbul edib, döyüşçü hazırlamaq üçün baza var idi. Bu hərbi-təlim bazalarında 30 min döyüşçü hazırlamaq imkanı olub. Eyni zamanda 1992-ci ilin yanvar-fevral aylarında təşkil olunmuş hərbi hissələrə də biganə yanaşılırdı.

* * *

İstintaqla müəyyən edilmişdir ki, müdafiə naziri, general V.Bərşadlının 19.11.1991-ci il tarixli əmri ilə respublikanın Ermənistan və Dağlıq Qarabağla sərhəd olan 22 rayonunda, o cümlədən də Xocalı şəhərində ərazi özünümüdafiə batalyonları yaradılmışdır. Xocalı şəhər özünümüdafiə batalyonu əsasən Xocalı əhalisindən təşkil olunmuşdu. Batalyonun komandiri Xocalı şəhər orta məktəbində hərbi təlim üzrə müəllim, ehtiyatda olan baş leytenant Tofiq Mirsiyab oğlu Hüseynov təyin edilmişdir. Batalyonun şəxsi heyəti 237 nəfər zabit və əsgərdən ibarət idi.

* * *

Xocalı şəhəri uzun müddət ermənilərin mühasirə vəziyyətində olmuşdur. Xocalı şəhərinə gediş-gəliş hərbçilərin müşayiəti ilə və ya hava yolu ilə həyata

keçirilirdi.

1991-ci ilin noyabrında keçmiş SSRİ DİN-in qoşunları Dağlıq Qarabağdan çıxarıldıqdan sonra Xocalıya quru yolla gediş-gəliş tam kəsilmişdir. Xocalı ilə əlaqə ancaq Zabrat xüsusi aviasiya birliyi «Azalaero»nun vertolyotları vasitəsilə həyata keçirilmişdir. 28.01.1992-ci ildə Ağdam-Şuşa marşrutu ilə uçan vertolyot ermənilər tərəfindən vurulduqdan sonra, Xocalı şəhəri ilə vertolyot əlaqəsi də kəsilmişdir.

* * *

Faciəsi baş verən ərəfədə yalnız bir dəfə Xocalı şəhərinə Mİ-26 markalı nəqliyyat vertolyotu uçmuş və 300 nəfərdən çox sakin Xocalıdan çıxarılmışdır. Sonralar vertolyot üçün dəfələrlə müraciət edilməsinə baxmayaraq MDB hərbi vertolyot eskadrilyasının komandiri Zolotuxin Xocalı şəhərinə vertolyot göndərilməsindən imtina etmişlər. Bu məsələ ilə əlaqədar müraciət edən şəxslərə isə Zaqafqaziya Qoşunları Hərbi Dairəsi komandanının müavini Qrekov və başqa yüksək rütbəli zabitlər Azərbaycanın MDB-yə daxil olması zərurətinə işarə etmişlər.

Müəyyən edilmişdir ki, Xocalının mühasirədə olması əhalinin çıxılmaz vəziyyətə düşməsi, Xocalı şəhərinin ermənilər tərəfindən işğal olunacağının labüd olduğu respublikada hamıya: hakimiyyətdə, eyni zamanda müxalifətdə olan qüvvələrə məlum idi. Dağlıq Qarabağda hadisələrin inkişafı bunu göstərirdi. Lakin fərasətsizliyi, səriştəsizliyi və qətiyyətsizliyi bir yana qalsın, özünün birbaşa konstutision səlahiyyətlərini icra etmək fikrindən uzaq, xalqın düçar olduğu və baş verəcəyi açıq-aşkar görünən fəlakətə biganə yanaşan, onun qarşısını almaq haqda düşünmək belə istəməyən respublika Prezidenti Ayaz Mütəllibov və başqa rütbəli məmurlar, Təhlükəsizlik Şurasının üzvləri sanki qəflət yuxusunda idilər.

* * *

Qarabağ zonasında vəziyyətin ağırlaşması ilə əlaqədar olaraq respublika prezidenti 02.01.1992-ci il tarixli Fərmanı ilə Xankəndi şəhəri, Şuşa, Ağdərə, Xocavənd, Xocalı, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçm, Kəlbəcər, Xanlar, Goranboy və Tərtər rayonlarını əhatə edən ərazidə Prezident İdarə Üsulu tətbiq etmiş, ərazinin idarə olunmasını prezident müvəkkili M.S.Məmmədova tapşırmışdır.

21.01.1992-ci il tarixdə prezident müvəkkili M.S.Məmmədov Qarabağ zonasında vəziyyət və onun sabitləşdirilməsi üçün lazım olan tədbirlər barədə respublika prezidentinə arayış təqdim etmişdir. Arayışda ermənilərin hərbi gücünün həm canlı qüvvə, həm də texnika cəhətdən azərbaycanlılardan üstün olduğu göstərilir, eyni zamanda vəziyyəti sabitləşdirmək üçün təkliflər irəli sürülürdü. Birinci təklif Qarabağda olan pərakəndə silahlı qüvvələrin vahid komandanlıq altında birləşdirilməsi olmuşdur.

* * *

10.02.1992-ci il tarixdə Prezidenti Ayaz Mütəllibov Qarabağ ərazisində olan silahlı qüvvələrin üzərində vahid komandanlıq yaradılması barədə 2 və 3 №-li əmrlər vermişdir.

2 №-li əmrdə vahid komandanlıq Azərbaycan Respublikası daxili işlər nazirinin müavini, Qarabağ zonası üzrə Daxili İşlər idarəsinin rəisi T.Əliyevə tapşırılmışdır. Elə həmin əmrdə Goranboy ərazisində müdafiənin təşkili respublika müdafiə nazirinin müavini D.Rzayevə həvalə olunduğu göstərilir. Əmrin başqa bir bəndində Qarabağ zonasına daxil olan Şuşa şəhərinin müdafiəsi R.Qazıyevə həvalə edilmişdir.

* * *

Hadisələrin sonrakı inkişafı göstərdi ki, prezident sərəncamları elə havada qalası kağız parçası kimi idi. Həmçinin T.Əliyev prezidentin 18.02.1992-ci il tarixli 577 №-li Fərmanı ilə üzərində olan üç vəzifə saxlanılmaqla Ağdam şəhərinin komendantı təyin edilmişdi. O, 21.02.1992-ci il tarixdə Bakıya, prezident iqamətgahına çağırılıb, 24.02.1992-ci il tarixli Fərmanla respublikanın müdafiə naziri təyin edilir.

T.Əliyev göstərilən vəzifələrə təyin edilərkən, əvvəllər tutduğu vəzifələrin heç birindən azad edilməmiş, həmin vəzifələrə heç bir şəxs təyin olunmamış, ancaq 28.02.1992-ci ildə Xocalı hadisələrindən sonra Qarabağ zonası üzrə Silahlı Qüvvələrə komandanlıq D.Rzayevə, Ağdam şəhərinin komendantlığı isə Ağdam rayon DİŞ-nin rəisi R.Məmmədova tapşırılması barədə Fərman verilmişdir.

* * *

İstintaqla müəyyən edilmişdir ki, Azərbaycan Xalq Cəbhəsinin liderlərindən biri olan Hacıyev Fəhmin Əhmədpaşa oğlu Nəsimi rayon Xalq Məhkəməsinin 11 yanvar 1983-cü il tarixli hökmü ilə Azərbaycan Respublikası CM-nin 147-ci maddəsinin 2-ci hissəsi ilə dələduzluq üstündə məhkum edilmişdir. 1989-cu ildə Biləcəri çağırış məntəqəsinin normal iş fəaliyyətini pozduğuna görə haqqında Azərbaycan Respublikası CM-nin 188-3-cü maddəsi ilə cinayət işi qaldırılmışdır. O,1990-cı ilin fevralında Sovet Ordusunun polkovniki rütbəsində - geyimində Qubadlı rayonu ərazisində saxlanılmış, üstündə qanunsuz gəzdirdiyi silah müəyyən edildiyindən həbs edilmişdi. Haqqında Azərbaycan Respublikası CM-nin 220-ci maddəsinin 1-ci hissəsı ilə cinayət işi qaldırılmışdır. Hər iki iş bir icraatda birləşdirilərək baxılmasından ötrü Bakı Şəhər Mməhkəməsinə göndərilmiş, 05.11.1990-cı ildə iş əlavə istintaqa qaytarılmışdı. Əlavə istintaq zamanı Hacıyev haqqında seçilmiş həbs-qətimkan tədbiri dəyişdirilərək, o, azadlığa buraxılmışdır. Haqqında olan cinayət işinə isə 08.07.1992-ci il tarixli qərarla xitam edilmiş, onun törətdiyi cinayət hərəkətləri respublikanın azadlığı uğrunda mübarizə kimi qəbul edilmişdir (?).

* * *

Prezidentin Fərmanı ilə 11.12.1991-ci ildə V.Bərşadlının yerinə T.Mehtiyev

müdafiə naziri təyin edildikdən sonra F.Hacıyev onun əleyhinə piketlər təşkil edərək istefasını tələb etmişdir. T.Mehtiyev piket təşkilatçılarını qəbul edərək, onlardan Müdafiə Nazirliyinin işinə maneçilik törətməməyi xahiş edərək, Müdafiə Nazirliyi ilə əməkdaşlıq etməyi təklif etmişdir. F.Hacıyev bu təkliflə razılaşdıqda, T.Mehtiyev 03.01.1992-ci il tarixli əmri ilə ehtiyatda olan serjant F.Hacıyevi tərbiyə işləri üzrə nazir müavini vəzifəsinə təyin etmişdir. Bundan üç gün sonra isə MN. müavini bu vəzifəyə təyin etmək hüququ prezidentin səlahiyyətlərinə aid olduğundan T.Mehtiyev 06.01.1992-ci il tarixli əmri ilə F.Hacıyevin müdafiə nazirinin müavini təyin edilməsi barədə öz əmrini ləğv etmişdir.

* * *

06.01.1992-ci ildən 01.02.1992-ci ilə kimi F.Hacıyevin Müdafiə Nazirliyində hansı vəzifədə işləməsi barədə heç bir əmr müəyyən etmək mümkün olmamışdır. Ancaq ifadələrlə müəyyən edilir ki, həmin vaxt ərzində F.Hacıyev Silahlı Qüvvələrin qərargahında işləmişdir. 01.02.1992-ci ildən isə müdafiə nazirinin vəzifəsini icra edən Ş.Musayevin əmri (törətdiyi ağır cinayətlərə görə bu gün axtarışda olan rus generalı) ilə F.Hacıyev leytenant rütbəsində hərbi qulluğa qəbul edilib, Əməliyyat İdarəsinin baş zabiti vəzifəsinə təyin edilmişdir (?).

15 fevral 1992-ci il tarixdə Ş.Musayev F.Hacıyevə müdafiə naziri əvəzi və baş qərargah rəisinin səlahiyyətli nümayəndəsi olması barədə vəsiqə verib onu Ağdama göndərmişdir (ona həmçinin qarşıya çıxan çətinlikləri (?) yerindəcə həll etmək hüququ da verilmişdi).

Azərbaycanın ərazi bütövlüyünə hərbi təcavüz edilib. Dağlıq Qarabağ işğal olunub. Yeni yüzillikdə müstəqil Azərbaycan Respublikasının hərbi sahədə milli təhlükəsizliyinin təmin olunması və qorunması əsas faktorlardan biridir.

Azərbaycan Respublikasının hərbi sahədə milli təhlükəsizliyinin təmin olunması isə Azərbaycan Respublikasının müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünə qarşı yönəlmiş hərbi xarakterli real və potensial təhdidlərdən müdafiə sahəsində tədbirlər kompleksinin həyata keçirilməsi və milli maraqların hərbi vasitələrlə qorunması qabiliyyətinin təmin edilməsidir.

* * *

Həmin gün Ağdama gələn F.Hacıyev Qarabağ zonası üzrə silahlı qüvvələrin vahid komandanı T.Əliyevin iş otağını zəbt etmiş, giriş qapılarını qorumaq üçün silahlı şəxslər təyin etmişdir. Az keçmir ki, o, özünü prezident tərəfindən göndərilən səlahiyyətli nümayəndə, bütün Silahlı Qüvvələrin komandanı elan edir.

* * *

17.02.1992-ci il tarixdə Ağdam rayon daxili işlər şöbəsinin rəisi kabinetində keçirilən, Ağdamda yerləşən bütün silahlı qüvvələrin komandirlərinin iştirak etdiyi müşavirədə Qarabağ zonası üzrə Daxili işlər idarəsi rəisinin müavini Ş.Cahangirov Xocalı əhalisinin mühasirədən çıxarmaq üçün D.Rzayev tərəfindən hazırlanmış əməliyyat planını təqdim edir. Müşavirədə özünü komandan kimi aparan

F.Hacıyev əməliyyatın həmin plan əsasında keçirilməsini qadağan edir və Xocalını mühasirədən çıxarmaq üçün əməliyyatın aparılmasına rəhbərliyi öz üzərinə götürdüyünü bildirir (bu fakt «Xocalı işi»ndə ətraflı şərh olunub - R.N.).

* * *

21, 22, 23, 24, 25 fevral 1992-ci il tarixlərdə, hər gün F.Hacıyev Xocalı şəhərini mühasirədən çıxarmaq üçün əməliyyatın başlama vaxtını təyin etmiş, hər dəfə də müxtəlif bəhanələr irəli sürərək əməliyyatın keçirilməsini Xocalı faciəsi baş verənədək başqa günə keçirmişdir.

23.02.1992-ci il tarixdə «Qrad» qurğularını səbəb göstərmədən Ağcabədi rayonunun aeroportuna apartdırmışdır. Xocalı faciəsi baş verərkən «Qrad» qurğuları Ağdamda yerləşdirilmədiyindən hücum edən ermənilərə qarşı həmin qurğulardan vaxtında istifadə etmək mümkün olmamışdır.

25.02.1992-ci il tarixdə axşam saat 22 radələrində erməni quldurları Xocalı şəhərinə hücum edərkən F.Hacıyev Ş.Mirzəyevin batalyonunda olmuş, Xocalı əhalisini qırğından qurtarmaq üçün nə o, nə də Ş.Mirzəyevin batalyonu heç bir tədbir görməmişdir.

* * *

Asif Məhərrəmov, Allahverdi Bağırov və Yaqub Rzayevin başçılığı altında Ağdam rayonunun özünümüdafiə dəstələri Xocalı şəhərindən qırğından canlarını qurtarıb qaçan əhalinin yolunu ermənilərdən təmizləmək üçün, erməni mövqelərinə hücum edib döyüşə atılanda F.Hacıyev gizlənmişdir. Ş.Mirzəyevin və X.Xudiyevin komandir olduğu batalyonlar isə gözləmə mövqeyi tutmuşdular. Səlahiyyətlərinin alındığını bəhanə edən F.Hacıyev isə onlara heç bir əmr verməmişdir.

Həmçinin, F.Hacıyev Xocalı əhalisinin gizli yollarla mühasirədən çıxarılmasından ötrü Qarabağ zonası üzrə Milli Təhlükəsizlik idarəsi tərəfindən ona təqdim edilən bələdçiləri yanından qovmuş, insanları qırğına vermişdir.

* * *

1991-ci ilin payızından başlayaraq ermənilərin Dağlıq Qarabağdan kütləvi surətdə qovduqları azərbaycanlılar əsasən Ağdam şəhərinə pənah gətirirdilər. 15.02.1992-ci il tarixdə Qaradağlı kəndinin işğalı Ağdamda hadisələri daha da şiddətləndirdi. On minlərlə qaçqın hər gün Ağdam şəhərinin mərkəzi meydanında mitinqlər keçirirdi. Qaçqınlar əhalinin təhlükəsizliyinin təmin edilməsi tələbi ilə Qarabağ zonası üzrə Daxili İşlər İdarəsinin binasına basqın edib, pəncərə şüşələrini sındırır, telefon xətlərini qırırdılar. Belə bir vəziyyətdə respublika daxili işlər nazirinin 18.02.1992-ci il tarixli əmri ilə Ağdam rayon DİŞ-in rəisi İslah Paşayev vəzifəsindən azad edildi. Onun yerinə Rəşid Məmmədov adlı bir zabit təyin edildi. Ayaz Mütəllibovun 21 fevral 1992-ci il tarixli Fərmanı ilə Ağdam rayon icra hakimiyyəti başçısı Səyyaf Verdiyev vəzifəsindən azad olundu. Bütün bu gülünc və həm strateji, həm də taktiki cəhətdən səhf olan yerdəyişmələr regionda yeni faciələrin başlanğıcını qoyurdu.

* * *

Xocalı hadisələri ərəfəsində Ağdam şəhərində əsl özbaşınalıq idi. Hakimiyyətsizlik, mənəm-mənəmlik, savadsızlıq və səriştəsizlik əhalini əldən salmışdı.

24 fevral 1992-ci il tarixdə saat 22 radələrində Ağdam-Əsgəran yolu ilə Xramort kəndinə kəşfiyyata gedən Xüsusi Təyinatlı Milis Dəstəsi ilə «Qarabağ» könüllülər dəstəsinin 18 üzvü yük maşınında naməlum səbəbdən qəzaya düşürlər. Nəticədə döyüşçülərdən üç nəfəri partlayış nəticəsində ağır bədən xəsarəti alaraq, ömürlük şikəst olur.

23-26.02.1992-ci il tarixlərdə Ağdam rayonu ərazisində yerləşən Uzundərə hərbi sursat anbarının və mühəndis-istehkamçı batalyonunun əmlakı zəbt edilir. Böyük miqdar döyüş və hərbi sursat hər necə gəldi dağıdılıb, sıradan çıxarılır.

İstintaq zamanı tam sübuta yetirilmişdir ki, 15-25.02.1992-ci il tarixlərdə Xocalı əhalisini mühasirədən itkisiz, hava yolu ilə, vertolyotlar vasitəsilə çıxarmaq üçün respublikamızda imkan var idi.

* * *

İstintaq zamanı aydın olub ki, Respublika müdafiə nazirini əvəz edən, insanları qırğına verən Baş Qərargah rəisi Ş.Musayevin bilavasitə öz tabeçiliyində 8 ədəd Mİ-24 markalı hərbi vertolyot olub. Sonra bu vertolyotlar Səngəçal ərazisindəki hərbi hissədən Zabrat aeroportuna gətirilib. Kimin üçün, nə üçün? Bütün bu sualların cavabları hələlik açıq qalıb.

* * *

Müəyyən edilmişdir ki, Xocalı hadisələri ərəfəsində «Azalaero» aviaşirkətin sərəncamında onlarla sərnişin daşıyan Mİ-8 markalı vertolyot uçuşa hazır vəziyyətdə olub. Doğrudur, 28.01.1992-ci il tarixdə Şuşaya uçan vertolyotlar ermənilər tərəfindən vurulduqdan sonra mülki vertolyotlarla uçuşlar dayandırılmışdı. Ancaq hərbi vertolyotların müşayiəti ilə sərnişin vertolyotlarının uçuşunu təmin etmək mümkün idi. Buna hər cür imkan var idi.

Şübhəsiz, Xocalı şəhər əhalisinin evakuasiyası barədə qərar hökumət səviyyəsində qəbul edilməli idi. Çünki belə göstəriş var idi. 1986-cı il DNQO-0014 №-li direktivinə görə, hər hansı bir yaşayış məntəqəsinin evakuasiyası barədə qərar Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən qəbul edilməli idi.

* * *

Törədilən cinayətlər nəticəsinə görə həm təəssüf doğurur, həm də bizi düşündürməyə bilmir. Səhlənkarlıq, etinasızlıq, səriştəsizlik və bir də ağılsızlıq (başqa cür demək mümkün deyil) insanların kütləvi şəkildə qırılmasına, yurd yerlərinin böyük dağıntısına, ağlagəlməz itkilərə səbəb oldu.

O vaxtkı Azərbaycan rəhbərliyinin buraxdığı bağışlanmaz kobud taktiki və strateji səhvlərdən istifadə edən erməni terror birləşmələri, silahlı separatçıları, muzdlu dəstələr Dağlıq Qarabağın yaşayış məntəqələrini viran qoydular,

Qaradağlıda, Meşəlidə, Xocalıda, Bağanis-Ayrımda əsl etnik təmizləmə siyasəti apardılar. Azərbaycanlılara qarşı erməni genosidinin yaratdığı faciələr artıq inkar edilə bilməz. Buna heç kəsin, heç bir beynəlxalq qurumun, erməni havadarlarının və qəyyumlarının gücü çatmaz. Fakt faktlığında qalır. Maraqlıdır ki, bu gün ermənilərin özləri də 1990-94-cü illərdə Azərbaycanın Qarabağ bölgəsində törətdikləri vəhşiliklərdən artıq qorxurlar. Qorxurlar ona görə ki, nə vaxtsa bütün bunların qisası alınacaq, işğal altında saxlanılan torpaqlar azad olacaq.

* * *

Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda xalqımıza, millətimizə qarşı aparılan soyqırımla bağlı, törədilən cinayətlərlə bağlı xüsusi kartotekalar tərtib olunub. Burada cinayətləri sübuta yetirilmiş, ermənilərdən ibarət böyük terrorçu qrupun üzvlərinin hər biri haqqında kifayət qədər material var.

Xocalı soyqırımı ilə bağlı 200 nəfərdən çox cinayətkar (erməni və rus millətindən olan) haqqında dəyərli fakt və sənədlər yığılıb. Əldə olunan videolentlər, sənədlər, dindirmə protokolları, foto-şəkillər, ifadələr təkzib olunmaz fakt kimi saxlanılır. Çünki Azərbaycan xalqına qarşı törədilən qanlı erməni faciələri ilə bağlı istintaq hələ bitməyib. İstintaq davam edir.

Tarix separatçıların liderləri olan Zori Balayanı, Arkadi Qukasyanı, Robert Köçəryanı, Serks Sərkisyanı, Seyran Ohanyanı ifadələri alınmaq üçün «həqiqət kürsüsü»nə «dəvət edəcək».

**Azərbaycan xalqına qarşı Dağlıq Qarabağda etnik təmizləmə siyasətinə başçılıq edən, genosid törədən qruplara yardımçı olan separatçı ermənilərin siyahısı**

| Sıra № | Adı, soyadı, atasının adı |
|---|---|
| 1 | İsrayelyan Boris İsraeloviç |
| 2 | Qriqoryan Andon Artsronikovç |
| 3 | Qaramyan Suren Nikolayeviç |
| 4 | Arakelyan Marat Borisoviç |
| 5 | Balayan Emil Vartanoviç |

| | |
|---|---|
| **6** | Qriqoryan Aleksandr Stepanoviç |
| **7** | Qayamayan Qabriel Gevorkoviç |
| **8** | Vartanyan Melik Yenokoviç |
| **9** | Cavaxyan Qriqoriy Eduardoviç |
| **10** | Akopyan Armais Yaşayeviç |
| **11** | Terzikyan Sergey Vanikoviç |
| **12** | Arutyan Movses Aşotoviç |
| **13** | Dulunts Movses Qaraşoviç |
| **14** | Saroyan Armais Vldaimiroviç |
| **15** | Saakyan Qrışa Sergeyeviç |
| **16** | Ayanyan Sarkis Taşisoviç |
| **17** | Gevorkyan Nikolay Mixakoviç |
| **18** | Safaryan Mixayil Abramoviç |
| **19** | Nolyan Aleksandr Robertoviç |
| **20** | Mejyan Albert Manveloviç |
| **21** | Akopoxvyan Melki Armaisoviç |
| **22** | Qriqoryan Karen Papikoviç |
| **23** | Markosyan Papik Ayxazoviç |
| **24** | Zarkaryan Daniel Vasilyeviç |
| **25** | Caqaryan Mixail Sarkisoviç |
| **26** | Akopxyan Sarkis Arutyunoviç |

| | |
|---|---|
| **27** | Qriqoryan Qevorq Vaqanoviç |
| **28** | Xaçatryan Valeriy Mövsesoviç |
| **29** | Saakyan Martik Aleksandroviç |
| **30** | Markosyan Nikolay Rantikoviç |
| **31** | Qurqazaryan Papik Arşakovıç |
| **32** | Ağacanyan Aşot Arşaviroviç |
| **33** | Markosyan Yurik Aykazoviç |
| **34** | Ayriyan Seyran Qriqoryeviç |

QEYD: Separatçıların ideoloqu Z.Balayanın, R.Köçəryanın, A.Qukasyanın adları, zaman gələcək, beynəlxalq qurumlarda dünyanın ən qəddar terrorçuları ilə eyni cərgədə çəkiləcək. X-XV əsrlərdə baş verən müharibələri, münaqişələri araşdıran, tədqiq edən müsəlman sərkərdəsi Əmir Saleh «Qiyamət günü» əsərində yazır: «...İnsanları diri-diri yandıranları, uşaqları, şikəst qocaları, hamilə qadınları əzib, məhv edən, öldürən, təhqir edən kəslərin əsl-nəcabətləri olmaz. Belələri ilə yol getmək, onlarla deyib-gülmək, kədərlənmək süfrələrində çörək kəsmək, onlara yardımçı olmaq bütün bunları mənsub olduğun millətə xəyanət sayıram...».

## ERMƏNİLƏR OLDUĞU KİMİ

Hər il növbəti görüşlər və sammitlər ərəfəsində bizdə ümid oyanır ki, nəhayət dünya bizim ərazinin beşdə bir hissəsini qəsb edən Ermənistanı işğalçı dövlət kimi tanıyacaq. Hər dəfə də bu beynəlxalq yığıncaqlardan sonra yenidən qənaətə gəlirik ki, işğal edilmiş torpaqları sülh yolu ilə qaytarmaq olmaz və biz ermənilərə qarşı müqəddəs müharibəni başlamağa borcluyuq. Biz ermənilərin həyasızcasına təbii sərvətlərimizi oğurlamalarından, mədəniyyət və tarixi abidələrimizi məhv etmələrindən, sülh rejimini pozmalarından, ölkəmizin təbii sərvətlərini oğurlamasından, su, torpaq və meşə fondlarına son dərəcə ciddi ziyan vurmalarından və s.-dən çox danışırıq. Eyni zamanda 12 ildən artıq atəşkəs dövrü olmasına baxmayaraq, indiyə qədər xeyli sayda əsirlərimizin taleyi naməlum olaraq qalır.

Bununla bərabər, bizim əsirlərin taleyi üzrə aparılan müxtəlif tədqiqatların nəticələri ilə tanış olarkən belə sual verməmək qeyri-mümkündür: insan da insanla bu cür rəftar edə bilər? Faşist hərbi düşərgələrinin cəlladları ermənilərlə müqayisədə mələk timsalındadırlar, daha doğrusu, insani görünürlər.

Bunun üçün sadəcə «Miatsum»un baş ideoloqu Zori Balayanın «Воскрешение души нашей» kitabına baxmaq lazımdır.

Bu kitabda Balayan özünün «Şərəfli hərbi cığırını» təsvir edir. Bu vəhşi, yırtıcı canavar (onun yazdıqlarını oxuduqdan sonra həmin şəxsi başqa cür adlandırmaq olmaz) dinc azərbaycanlılara işgəncə verilməsində necə iştirak etdiyini fəxrlə yazır. Heç bir şərh vermədən həmin kitabdan bir hissəni oxuculara təqdim edirik:

«Yalnız xalqının ürəyi çıxarılan və qəm-qüssə alovuna atılan erməni bu sətirlərdən böyük qürur duya və məmnunluq hissi keçirə bilər.

Biz Xaçaturla uşaqların saxlandığı zirzəmiyə enən vaxt, əsgərlərimiz artıq onlardan birini ovuclarından pəncərə çərçivəsinə mıxlamışdılar. Uşağın səs-küyünü azaltmaq üçün Xaçatur uşağın ağzına onun öldürülmüş anasının kəsilmiş döşünü soxdu. Sonra mən onun başının, döşünün və qarnının dərisini soydum. O, qan itirməsindən 7 dəqiqə sonra öldü. Birinci ixtisasıma görə həkim olduğum üçün humanistəm və ona görə də uşaqla edilən hərəkətlərdən sevinc duymadım. Lakin qəlbim şadlanırdı.

Xaçatur bədəni hissələrə böldü və onlan itlərə atdı. Axşam eyni şeyi biz daha üç türk uşağı ilə etdik. Mən erməni, vətənpərvər və vətəndaş kimi borcumu yerinə yetirdim. Xaçatur da xeyli tər axıtdı. Mən onun və digərlərinin gözündə intiqam və güclü humanizm mübarizəsi gördüm. Sonra isə mənim uşaqlıq dostum mayor Suren dedi: «Biz vəhşi deyilik, lakin soyuq ürəyimizi saxlamalıyıq...»

Sonrakı gün biz kilsəyə daxil olduq, dünən gördüyümüz və etdiyimiz yaramazlıqlardan ruhumuzu təmizləməyi xahiş edərək dua etdik...» («Воскрешние души нашей». Ванадзоар. 1996, стр. 260-262).

Bu kitabda həmçinin deyilir ki, «Dağlıq Qarabağın azad edilməsi» uğrunda mübarizədə ermənilərə canlı qüvvə maliyyə və «müqəddəs xaç gəzdirən» Fransadan, Livandan, İngiltərədən, ABŞ-dan, Rusiyadan, Kanadadan, Suriyadan olan şəxslər yaxından kömək etmişlər.

Məsələn, Kanada Hərbi Hava Qüvvələrinin mayoru Levon Sevants Xankəndində əsir uşaqlar üçün düşərgə yaradılmasında şəxsən iştirak etmişdir. Bu düşərgədə 9-dan 11 yaşına qədər olan 180 uşaq saxlanılırdı. Ermənilər izləri ört-basdır etmək üçün əsirləri kütləvi qətlə yetirdikdən sonra onları yandırıblar. Bəzilərinin «bəxti gətirir» - onları qul kimi işğal edilmiş Azərbaycan ərazilərində yerləşən qızıl və mis mədənlərində işləməyə göndəriblər.

«İş yerlərində» - Vəjnəli, Söyüdlü, Qızılbulaq, Zod və s. yataqlarda ölən əsirlərimizin sayı barədə biz heç vaxt dəqiq məlumat ola bilməyəcəyik. Bu ona

görədir ki, biz bu sahədə beynəlxalq monitorinqin keçirilməsini tələb etmirik. Belə beynəlxalq monitorinq keçirilməyənə qədər Vardinisdə, Rozdonda, Çermikda, Kəlbəcərdə olan xüsusi qadın həbsxanalarının fəaliyyəti barədə heç kim bilməyəcək.

Hətta ermənilərin özləri də azərbaycanlı əsirlərdən vəhşicəsinə istifadə etdiklərini gizlətmirlər. Xankəndi ərazisində verilişlər yayan «Artsax» kanalında 14 fevral 2006-cı ildə erməni zabiti Yefram «vətən buradan başlayır» hərbi verilişində bəyan etdi ki, onun rəhbərlik etdiyi qrup azərbaycanlı əsirlərlə çox «sakit» işləmişdir. Erməni zabitinin sözünə görə, o, Kəlbəcərdə 150 əsirin saxlanıldığını xatırlayır.

2006-cı ilin martından başlayaraq beynəlxalq monitorinqin mümkünlüyü barədə danışıqların sürətlənməsi anında bizim əsirlərin böyük bir qismini Ermənistana köçürməyə başlayıblar. Ermənilərin azərbaycanlı əsirlərdən müxtəlif təcrübələr üçün istifadə etməsi barədə də faktlar vardır. Məsələn, müxtəlif növ dərman preparatlarının sınağı azərbaycanlı əsirlər üzərində aparılır.

## XOLOKOST, RUANDA, XOCALI

(Biz faşist Almaniyası tərəfindən qırğına məruz qalmış yəhudilərin genosid olunması faktlarını - «Xolokost tarixi»ni xatırlamağı lazım bilsək də, onun haqqında danışmırıq. Çünki bu fakt artıq dünyanın təsdiq etdiyi faktdır. Ruanda və Xocalı arasında isə oxşarlıq daha çoxdur.)

1994-cü ilin aprelində Ruandada baş verən genosidin 10-cu ildönümü sadə və sakit keçdi. Bəşəriyyət tarixində ən müdhiş faciə kimi düşünülən tədbirlər ətraf dünyada, demək olar ki, əks-səda vermədi. Ruandalılar növbəti dəfə inandılar ki, Afrikada nə baş verirsə versin, afrikalıların əzabları neçə miqyaslı və dərin olursa olsun, qalan dünya, ən yaxşı halda, öz kədərini ifadə edəcək (bax: «Qarakənddə erməni terroru» yazısına nəzər salın. I kitab).

Kiqalidəki 3 günlük konfrans, orada memorialın açılışı, Ruanda səfirlikləri tərəfindən digər ölkələrdə aparılan bəzi tədbirlər - Xolokostla bir sırada XX əsrdə baş verən hadisələrin layiq görüldüyü tədbirlər sırasına daxildir. Hətta 7 apreli «Düşünmə günü» elan edən BMT özünün Noyrabi və Cenevrədəki mərkəzlərində normal mərasimlərlə kifayətləndi. Ruanda paytaxtına, bir neçə Afrika dövlətlərinin prezidenti ilə yanaşı, yalnız Belçikanın baş naziri gəldi. Qalan Qərb liderləri və BMT-in Baş katibi Kofi Annan hadisəni öz şəxsi iştirakları ilə şərəfləndirməyi lazım hesab etmədilər.

Milyonların həyatını silmiş qırğının dərslərinə Kiqali konfransında böyük maraq göstərməli olan dövlətlər - Belçika, Fransa, ABŞ, BMT - etinasız qaldılar. Məhz onlar dəfələrlə xatırlatmışdılar ki, vaxtında hadisələrə müdaxilə etməmək arzusu görünməmiş təhlükəli hadisələrə gətirib çıxara bilər.

İldönümü ərəfəsində Amerika ictimai təşkilatı Təhlükəsizliyin Milli Arxivi informasiya azadlığı aktına apellyasiya verərək məhkəməyə müraciət etmiş, Ruanda faciəsinə dair öz hökumətinin materiallarına giriş qazanmışdır. Onlardan aydın olurdu ki, Klinton administrasiyası genosid haqqında bilirdi, lakin müdaxilə etməməyi üstün tutdu. Bundan başqa Ağ ev məqsədəuyğun şəkildə və çox dəqiqliklə «genosid» sözündən istifadə etməkdən qaçırdı, lakin bununla belə daxili sənədlərdə ondan müntəzəm istifadə olunurdu.

Sənədlərə görə, qırğının başlanmasından sonra artıq iki həftə keçmiş Amerika hökuməti, müvafiq olaraq da prezident Ruandada törədilən hadisələrin dəhşəti, müdhişliyi barədə xəbərdar edilir. Hər halda, prezidentin, vitse-prezidentin və ali məmurların iş stolu üzərində olan Mərkəzi Kəşfiyyat İdarəsinin məlumatlarında Afrika ölkəsindəki hadisələr demək olar ki, hər gün xatırlanırdı. Məsələn, 23 apreldə, yəni qırğının başlanmasından 16 gün sonra verilən məlumatda Ruandanın «cənubuna doğru yayılan genosid barədə» danışılırdı. Dövlət katibi Yoppen Kristaferin aldığı Dövlət Departamentinin məlumatında 3 gündən sonra təkcə «genosid» haqqında xatırladılmırdı, həm də qırğını törədənlərin məqsədlərini dəqiq ifadə edən formulirovka (xülasə) vardı: «bütün tutsiləri məhv etməklə qəti qərara nail olmaq».

Buna baxmayaraq, Klinton administrasiyası ilk dəfə «genosid» terminindən rəsmi olaraq yalnız 25 mayda istifadə etmişdir. Həm də xarakterikdir ki, bu qorxulu sözün ictimaiyyəti narahat etməsindən və genosidin qarşısının alınması barədə beynəlxalq Konvensiyanın müddəalarının yerinə yetirilməsi çağırışından qaçmaq üçün «genosidin ayrı-ayrı aktları» formulundan istifadə etməklə onu yumşaltmağa çalışırdılar (Hadisələr eyniylə Xocalıdakı kimi davam edir).

Müstəqil ekspertlərin fikrincə, görünməmiş faciə qarşısında Amerika hakimiyyətinin hərəkətsizliyi, əsasən, üç amillə izah edilir. Birincisi, bir il əvvəl Somaliyə müdaxilənin uğursuzluğa düçar olması. Bir gündə 18 hərbi qulluqçu itirən Amerika ordusu yerli xaosda heç bir qayda yarada bilməyərək oranı tərk etdi. İkincisi, Vaşinqton üçün strateji maraq kəsb etməyən, qiymətli təbii ehtiyatlardan məhrum Afrika ölkəsində risk etməmək arzusu. Nəhayət, Ağ ev sahibi üçün kiçik xətanı total səviyyəyə çevirməyə qabil olan yanar seçki kampaniyası.

1998-ci ildə, ikinci prezidentlik dövrü vaxtı Klinton Afrikaya səfəri zamanı Ruandaya getdi və vaxtında hadisələrə reaksiya verməyi bacarmadığına görə üzr istədi. Bununla bərabər o və onun ətrafı həmişə təsdiq edirdilər ki, hərəkətsizlik müstəsna olaraq faciənin həqiqi miqyasının bilinməməsindən doğmuşdur. Məsələn, ABŞ prezidenti Kiqalidə dayandığı vaxt demişdir: «Sizin üçün, xüsusən də ailə üzvlərini itirən əksəriyyət üçün ola bilər ki, qəribə görünsün, lakin o dövrdə dünyanın hər yerində mənim kimi ofisdə oturan adamlar üçün hadisəni dərinliklərinə qədər tam səviyyədə qiymətləndirmək hədsiz çətin idi».

Eyni cür özünütənqid və səmimiyyət xilasedicilərin digər baş tutmayan

üzrxahlığında da səslənirdi. Ruanda faciəsi ilə bağlı irtihama Fransa xüsusilə ürək ağrısı ilə reaksiya verdi. Heç kim üçün sirr deyildi ki, ənənəvi olaraq hakim rejimə istinad edən Paris genosidi təşkil edən hökumətə fəal kömək edirdi və əməkdaşlıq onun hakimiyyətə gəlməsinin son gününə qədər davam etmişdir. Bundan başqa, ABŞ-dan fərqli olaraq, Fransa, oradan qərb ölkələrinin vətəndaşlarını çıxartmaq üçün Kiqaliyə ordu göndərmiş və ruandalılar üçün təhlükəsizlik zonası təşkil etməyə çalışmışdır. Lakin əksinə alınmışdır: bu zonada qırğın davam etmiş, fransız ordusu isə genosidi dayandırmağa, hökumət qoşunlarına qarşı hücumu genişləndirməyə çalışan Ruanda partizanlarının yolunda faktiki maneə olmuşdur.

Genosid vaxtından etibarən Ruanda və Fransa arasındakı münasibətlər, yumşaq desək, soyuq olmuşdur. İldönümü ərəfəsində yeni qalmaqal qopmuşdur. Fransa məhkəməsi elan etmişdir ki, Ruandanın hazırkı prezidenti Pol Kaqomenin 1994-cü ilin 6 aprelində Kiqaliyə qayıdan sabiq dövlət başçısı Juvenal Habiarmanın təyyarəsinin atəşə tutulmasında əli vardır. Təyyarə düz paytaxtın üstündə vurulmuşdur. J.Habiarman həlak olmuş və onun qohum-əqrəbası, yaxınları bundan qisas almaq üçün siqnal kimi istifadə etmişlər. Artıq bir neçə saatdan sonra tutsi xalqının nümayəndələrinin talan və qırğını başlanmışdır.

İttiham Kiqalidə hiddətlə qarşılanmışdır. Tutsilərdən gəlmə olan və 1994-cü ildə Ruanda üsyançı vətənpərvərlər cəbhəsinin rəhbəri P.Kaqomenin dəstələri xutu hökumətini devirmiş və genosidə son qoymuşdur. O da öz növbəsində Parisi genosid hazırlanmasında «birbaşa iştirak etmədə» ittiham etmişdir.

1994-cü ilin aprelində Ruandada BMT-in xeyli miqdarda «mavidəbüqəlilər» kontingenti yerləşmişdi. Sülhməramlıları əvvəlcədən hazırlanan qırğın barədə xəbərdar etmişdilər, missiyanın başçısı Nyu-Yorka məlumat vermişdi, lakin bütün bunlara baxmayaraq heç bir profilaktik tədbirlər görülməmişdi. Bundan başqa qırğın başlayan vaxtı BMT-nin sülhməramlı korpusu 90%, yəni 270 hərbi qulluqçuya qədər azaldılmışdı ki, bu da qatillərin əl-qolunu tamamilə açmışdı. Yeni kütləvi qətllər barədə təzyiq altında məlumatlar verilən vaxtı müdaxiləçi korpus formalaşdırılması və hadisələrə müdaxilə edilməsində gecikmələr yarandı. ABŞ, məsələn, zirehli maşınları hansı boya ilə rəngləməyi və buna görə pulun kimin ödəməli olması məsələsini müzakirə edərək, həmin maşınları dərhal vermədi.

Hətta tutsilərin harada gizləndiyi barədə məlumat verən və utanmadan qatilləri tərifləyən «Mintəpə» Ruanda radiostansiyasını susdurmaq üçün razılaşmaya belə nail olunmadı. Bunu tez və effektli eləməyə hər cür texniki imkanları olan Vaşinqton qeyd-şərt etdi ki, «Söz azadlığı haqqında» Qanun kütləvi informasiya vasitələrinin işinə mane olmağa imkan vermir.

1994-cü ildə K.Annan BMT-də sülhməramlı əməliyyata başçılıq edirdi. Faciənin qarşısını ala bilməmək qabiliyyətinə görə o da, üzr istəməsinə baxmayaraq ruandalılar daha çox şey gözləyirdilər. «Genosidin harada baş

verməsindən asılı olmayaraq, o, həmişə beynəlxalq birliyin iflasına dəlalət edir» fikrini P.Kaqome konfransda söyləmişdir. Daha sonra o bildirmişdir: - Bu iflası mən müəyyən məqsədli kimi səciyyələndirərdim. Milyonlarla ruandahların həyatının heç kim üçün belə əhəmiyyətsiz olduğunu necə düşünmək olardı. Doğrudanmı nəhəng ölkələrin hansısa gizli məqsədləri var? Düşünmək istəməzdim ki, bu məqsədlər nasist düşüncələrdən və ya dərinin rəngindən diktə olunur. Ümid edirəm ki, bu belə deyil».

Kiqali konfransının iştirakçılan qeyd etdilər ki, genosidin qarşısını almaq olardı, çünki o, əvvəlcədən düşünülmüş və təşkil edilmişdi, gözlənilməz, spontan çıxış deyildi (Xocalı genosidini yadınıza salın). Xutunun hakimiyyətində olan kütləvi informasiya vasitələri, ilk növbədə «Min təpə» radiostansiyası xutu və tutsilərin uyarsızlığını təbliğ etməklə bunun üçün uzun müddət səylə zəmin hazırlamış və tutsilərdən həmişəlik xilas olmanm zəruriliyini əsaslandırmışlar. Əvvəlcədən silah anbarları yaradılmışdı. Şovinist əhvali-ruhiyyəli xutular «İnteraxmve» dəstələrinə toplaşır və onların hazırlığı barədə ciddi şayiələr dolaşırdı. Xutu Prezidenti J.Habiarmanın təyyarəsinin vurulması ilə tutsilərin fiziki məhv edilməsi planı hərəkətə başladı.

Analoqu olmayan sayda adamların kütləvi məhv edilməsi Ruandanın tarixi xüsusiyyətləri hesabına mümkün oldu. Müstəsna olaraq Avropa müstəmləkəçiliyi sayəsində yaranan, özbaşına sərhədlərdə bərqərar olan, cəmi bir neçə 10 il yaşı olan Afrika ölkələrindən fərqli olaraq Ruanda əsrlərlə mövcud idi. Avropalıların gəlişinə qədər orada dəqiq sosial strukturlu, güclü mərkəzləşmiş feodal dövləti vardı.

Ölkəni müstəmləkəyə çevirmiş belçikalıların fikrincə, Ruandada formalaşan sistem ədalətsiz olmasına baxmayaraq effektiv və yaxşı idarə edilən idi. Dövlətin başında Ruandaya XVI əsrdə gəlmiş köçəri-maldar olan tayfa - tutsilər (milli azlıq) dayanmış və milli çoxluq təşkil edən - əkinçi xutuları özlərinə tabe etdirmişlər. Kolonial idarəetmə dövründə belçikalılar onlardan öz məqsədləri üçün istifadə etməklə bu ədalətsizliklə asan barışmışlar. Onlar yerli kral və tutsi zadəganlarının köməyi ilə idarə edirdilər. Lakin 1950-ci illərdə, üfüqdə müstəqillik işartıları görünən vaxtı, müstəmləkəçilər birdən demokratik normalar haqqında fikrə gəldilər. Onlar tərk etdikləri ölkəyə çoxpartiyalı seçkilər sistemi, hakimiyyətin bölünməsi və digər Avropa standartları daxil etdilər.

Nəzəri cəhətdən xeyirxah olan ideya qanlı etniklərarası toqquşmaların başlanğıcını qoydu. Əhalinin 15%-ni təşkil edən tutsilər seçkilərdə heç bir şansa malik deyildilər. Səs hüququ əldə edən xutular yerli, sonra da mərkəzi hakimiyyət orqanlarına öz tayfalarını gətirdilər. Tutsilərin monarxiyası ümumxalq referendumu ilə ləğv edildi. Həm də səciyyəvidir ki, Krala qarşı seçicilərin 83%-i səs vermişdir.

İlk qırğın hələ keçən əsrin 50-ci illərinin sonunda, müstəqillik elan edilmə

ərəfəsində baş vermişdi. Onda minlərlə tutsi, o cümlədən P.Kaqomenin valideynləri ölkədən qaçmış, qonşu ölkələrdə bərqərar olmuşlar. Onların uşaqları sonda 1994-cü ildə xutu rejimin devirmiş partizanların əsas özəyini təşkil edirdi.

Ölkəyə başçılıq edən xutular inamla avtoritar rejimin qurulmasına doğru irəliləyirdilər. Hökumətdə qalan az-çox azlıq nümayəndələri də qovulmuş, çoxpartiyalı sistem ləğv edilmişdi. Lakin ənənəvi olaraq hakimiyyətin, eləcə də silahlı qüvvələrin əsas özəyini təşkil edən tutsilər onlara məxsus olan hakimiyyətin həmişəlik itkisi ilə barışmağa hazırlaşmırdılar. Onlar hərbi çevriliş edərək statuskvonu bərpa etdilər.

İndi isə artıq hakimiyyətin dadını hiss etmiş xutu elitası cavab zərbələri vurmağa başladı. Belə ki, daimi sərt düşmənçilik şəraitində zaman-zaman minlərlə qurbanlara səbəb olan etniklərarası münaqişələr davam etdi. Müstəqilliyin 30 ildən artığı belə şəraitdə keçdi. Nəhayət, 1994-cü ilin aprelində xutu ekstremistləri qərara gəldilər ki, onlarm vaxtı çatıb. Xutu şovinistlərinin açıq surətdə elan edilən məqsədi birdəfəlik milli azlıqların mövcudluğuna son qoymaq, yəni bütün tutsiləri fiziki cəhətdən məhv etmək idi (Xocalı sindromu təkrar olur).

Növbəti dəfə ruandalılar sübut etdilər ki, digər afrikalılardan fərqli olaraq onlar yüksək dərəcədə təşkil olunmuş şəkildə hərəkət etməyi bacarırlar. Qurbanların siyahısının tərtibi, onların aşkar edilməsi, planauyğun olaraq qılıncla, kətmənlə, zopa ilə öldürmə (qənaət üçün odlu silahlar yalnız zəruri hallarda tətbiq edilirdi) məqsəd kimi qarşıya qoyulmuşdu. Ruandada o zaman fəaliyyət göstərən şahidlərin ölüm konveyeri haqqındakı danışıqları hətta faşist vəhşilikləri fonunda adamı heyrətə salır. Sürətinə və effektivliyinə görə bu dəhşətli konveyeri yalnız hitlerçilərin ölüm konveyeri ilə müqayisə etmək olar (Xocalı ssenarisi).

Genosid üç ay və ya 100 gün davam etdi. Bu gün, on ildən sonra, həmin dəhşətli tarixdə çoxlu ağ ləkələr var. Mahiyyətcə yalnız o mübahisəsizdir ki, birincisi ağılsız qızğın baş vermişdir, ikincisi isə onun qurbanları minlərlə adam olmuşdur. Qalan-şeylər isə qeyri-müəyyəndir.

Ondan başlayaq ki, milli barışıq siyasəti aparmağa cəhd edən ölmüş xutulu prezident J.Habiarmanın ölümünün səbəbləri indiyə qədər aydınlaşdırılmamışdır. Versiyaların birinə əsasən, onun təyyarəsini şovinist həmtayfalar vurmuş və bundan millətlərarası düşmənçiliyi qızışdırmaq üçün istifadə etməyə çalışmışlar. Digər versiyaya görə, təyyarəni böhran yaratma və hakimiyyəti ələ keçirmək üçün P.Kaqomenin yaxşı silahlanmış və təlim görmüş üsyançıları məhv etmişlər. Uçan aparata hətta neçə raket dəydiyi belə məlum deyil: bir, yoxsa iki.

Genosid qurbanlarının sayı haqqında dəqiq məlumatlar yoxdur. Rəsmi rəqəm milyondan bir az yuxandır. Bəzi müstəqil ekspertlər həlak olanların sayının yarım milyon olduğunu bildirirlər. Tarixçilərin bir hissəsi isə bu rəqəmin 800.000-i ötdüyünə üstünlük verir (Hadisələr Xocalı genosidinin eyni olaraq qalır).

Nəhayət, həlak olanların etnik tərkibi də mübahisə doğurur. Məsələn,

Merilend Universitetinin professoru İ.Kristian hesab edir ki, ölənlərin əksəriyyəti tutsilər deyil, öz şovinist əhvali-ruhiyyəli tayfalarının baxışlarını bölüşdürməyən dinc xutulardır. Belə, ilk baxışda təxribatçı fikir əsaslardan məhrum deyil. Əgər rəsmi rəqəmi götürsək - milyon nəfər öldürülən - sadəcə deyə bilərik ki, 1994-cü ildə ölkədə bu qədər sayda tutsi yox idi.

P.Kaqomenin şəxsiyyəti ilə bağlı çoxlu ziddiyyətlər var. Hüquq-mühafizə təşkilatları onun dəstələrini xuturlara münasibətdə genosid aktında günahlandırır. Hazırkı prezident milli barışıq kursu elan etmişdir, görünür hakimiyyətdə və orduda əsas postları tutsilər tutmuşdur. Dövlət başçısı siyasi rəqiblərinin öz fəaliyyət hərəkətlərinin istənilən cəhdlərinin qarşısını kəsməklə, onları lazımi məsafədə saxlayır.

Bununla bərabər P.Kaqomenin aydın məqsədi olmasına və siyasi iradəsinə yalnız həsəd aparmaq olar. Yeni hakimiyyət başçısı dövründə xutu ekstremistləri dağıdıcı zərbəyə məruz qalmışlar. Əvvəlcə xutu partizan dəstələri qonşu Zair ərazisindən Ruandaya daim basqınlar edirdilər. 1996-cı ildə Ruanda ordusu yerli üsyançı qruplaşmaların döyüşçüləri adı altında Zair ərazisinə daxil oldu və şərqdən qərbə qədər tropik meşələrlə örtülmüş ölkə ərazisini qələbə ilə keçdi. Ölkənin paytaxtı Kinşası tutdu və orada dostluq rejimi yaratdı. Zairin, Konqo Demokratik Respublikası (KDR) adlandırılan şərq sərhəd rayonlarını ruandalılar yalnız 2002-ci ilin sentyabrında tərk etdilər və əmin oldular ki, xutular alduqları zərbədən artıq özlərinə gələ bilməzlər.

Ruandanın özündə genosidə aidiyyəti olma ittihamı üzrə 120 minə yaxın insan həbsxanalara salındı. Onlardan 90 mini heç bir məhkəməsiz və istintaqsız həbsxanaya atılmışdır. Azadlığa çıxanların əksəriyyəti heç də günahsız olanlar deyil. Onlar əsasən amnistiya edilmiş qocalar, yetkinlik yaşına çatmayanlar, xəstələrdir. Belə geniş təqsirini boynuna alma (tövbə) hakimiyyətin könüllü etiraf edənlərə qarşı cəzanı yüngülləşdirməsi haqqında elan verməsi sayəsində mümkün oldu.

Belə taktika - P.Kaqomenin oğlunun praktiki istiqamətinə daha bir bariz sübutdur. Genosiddə günahlandırılanlar üzərində proseslərə 1996-cı ildə başlanılmışdır. İlk altı il ərzində 5 min hökm çıxarılmışdır. Bunun belə templər araşdırılmasına 100 ildən artıq zaman lazım gələcəyini və dustaqların böyük əksəriyyətinin məhkəməyə qədər yaşaya bilməyəcəyini fikirləşməyə əsas verir. Azadolmanın əvəzinə könüllü etiraf ağzına qədər dolmuş həbsxanaları qismən başlamağa və bununla da kütləvi tövbəyə nail olmağa imkan verdi.

Ədalət mühakiməsi icraatını sürətləndirmək və rəsmi tövbə etmək 2002-ci ildə işə başlayan «qaçaça» adlandırılan ənənəvi məhkəmələr keçirməyə imkan verir. Onların başlıca xüsusiyyəti ondan ibarətdir ki, günahkarları onların yerliləri mühakimə edirlər. Şübhələnilən şəxs doğma kəndinə göndərilir və orada sakinlərdən həm ittihamçı, həm də müdafiəçi yaradılır. Hamı talada (kinyaruand

dilində bu məhz «qaçaça» adlandınlır) toplanır və şahidlərin ifadəsi dinlənilir. Ağır cinayətlərə baxılması «qaçaça» məhkəməsinə etibar edilmir. «Qaçaça» qarşısında dayanan şəxslər təmizləyici tövbədən sonra, adətən, azad edilir və icmaya qaytanlır.

Azad mətbuata ciddi nəzarət edilir. Xutu rejimi, devrildikdən sonra yeni hakimiyyət özəl radiostansiyalara qoyulan qadağanları götürməyə qərar verməmişdir. Televiziya və radio 100% dövlətin sərəncamındadır. Yeganə özəl nəşr həftəlik «Umececo» qəzeti ciddi nəzarət altında idi. Onun jurnalistləri bir neçə dəfə Ruandada ən qorxulu ittiham olan - milləti parçalamaq cəhdində şübhəyə görə həbslərə məruz qalmışdır.

İcazə verilən radiostansiyalar da, həmçinin P.Kaqomenin informasiya rejimi inhisarından kənara çıxa bilməzlər. Onların elan etdiyi konsepsiya belədir: - Əyləncə, təhsil, din. Siyasi mübahisələrə yol verilmir. Bundan başqa, verilmiş rəhbərləri 2002-ci ildə qəbul edilmiş «Kütləvi İnformasiya Vasitələri haqqında» Qanunda təsbit edilən qaydaları əldə rəhbər tutmalıdırlar. O, «mülətlərarası qırğını təbliğ etməyə qabil olan bütün materialları qadağan edir. Faciənin mümkün təkrarlanmasına qarşı tədbirlərlə yanaşı Qanun hakimiyyətin tənqid olunmasını da, bunu tamamilə istisna etməsə də, xeyli məhdudlaşdırır.

Siyasi sistemi islah etməklə P.Kaqome, yəqin ki, kifayət qədər ehtiyatla hərəkət etmişdir. Yalnız genosiddən 5 il keçdikdən sonra, yəni 1999-cu ildə hakimiyyətin yerli orqanlarına gülməli seçkilər keçirilmişdir. Namizədlərə partiyalardan irəli sürülmək qadağan edilmişdir, seçicilər isə seçki qutusuna bülleten atmamalı, özlərinin seçdiklərinin arxasında düzlənməli idilər. Belə qaydalar zamanı hər kəsin üstünlük verdiyi şəxslər aşkar olurdu, rejimə yararsız adamların keçməsi prinsipcə qeyri-mümkün idi. Parlament əvvəldən razılaşdırılmış kvotaya müvafiq olaraq bəzi partiyalardan və ictimai təşkilatlardan təyin edildi. Ən böyük hissə hakim Vətənpərvərlər Cəbhəsinə çatdı. Yararsız siyasətçilər millətin parçalanmasında günahlandırılır və təcrid edilirdi.

Yalnız şəraitin mütləq nəzarət altında olduğuna əmin olduqdan sonra P.Kaqome çox partiyalılığa icazə verdi. Keçən ilin mayında Ruanda sakinləri referendumda partiyaların fəaliyyətinə icazə verən, lakin millətlərarası qırğının təkrar edilməsinin qarşısının alınmasına yönəlmiş tənzimedici müddəaları olan yeni Konstitusiyanı səs çoxluğu ilə qəbul etdilər.

Sənədə görə, heç bir partiya, hətta parlament seçkilərində mütləq əksəriyyəti qazansa da, hökumətdəki postların yarısından çoxunu əldə etmək hüququna malik deyil. Prezident, baş nazir və ikipalatalı parlamentin aşağı palatasının başçısı eyni bir partiyanın üzvləri ola bilməzlər. Seçicilər arasında partiyanın fəaliyyətinə məhdudiyyətlər var. Parlament fövqəladə hallarda konstitusion azadlıqların qüvvəsini dayandırmaq hüququ əldə etmişdir. Ali məqsəd kimi milli birliyin qorunması elan edilmişdir ki, bu da müəyyən şəraitdə

hakimiyyətə yararsız təşkilatların fəaliyyətinə qadağa qoyulmasına səbəb ola bilər.

Konstitusiyaya iki yeddillik prezident dövrü haqqında müddəa daxil etməklə, P.Kaqome 2017-ci ilə qədər ali postda qalmanı özünə təmin etdi. Həm də nəzərə almaq lazımdır ki, əgər dövlət gəmisi göstərilən ana qədər qəti olaraq lazımi kursu tutmasa onun sükanda qalması üçün üsul tapacağına heç kim şübhə etmir. Genosiddən sonra ilk beş il P.Kaqome yalnız vitse-prezident idi, lakin onda hamı gözəl bilirdi ki, ölkənin həqiqi sahibi kimdir.

2003-cü ildə keçirilən parlament və prezident seçkilərində P.Kaqame və onun Vətənpərvərlər Cəbhəsi əksəriyyət səsləri qazandılar. Liderlik rəsmi olaraq 95% səslə qanuniləşdirildi (yəni, demək olar ki, yekdil xalq iradəsi ilə). Avropa İttifaqı müşahidəçilərinin pozuntular qeydə almasına və tənqidlə çıxış etmələrinə baxmayaraq, bu Kiqalidə heç kimi narahat etmədi. ABŞ-da təhsil alan P.Kaqome hər şeydə Amerika administrasiyasını dəstəkləyir və Parisdən fərqli olaraq Vaşinqtonun hərəkət və ya hərəkətsizliyini heç vaxt şübhə altına qoymur: istər onun öz ölkəsində genosid dövründə və ya müasir İrakdakı hərəkətlərinə görə, Amerika administrasiyası da həmçinin özünün mətin Afrika müttəfiqini inkar etməməyə üstünlük verir. Həm də Ruanda hələ lazım gələ bilər.

Yaxın illərdə P.Kaqome rejiminə ciddi təhlükə görünmür. Onun müəyyən etdiyi davamlı hərbi və siyasi nəzarət iqtisadi uğurlarla möhkəmləndirilir. 1994-cü ildən etibarən ölkənin ümumdaxili məhsulu ildə təqribən 7% artmışdır. Əlbəttə, hesablama nöqtəsi çox kiçik idi, lakin başlıcası ondan ibarətdir ki, belə artım zamanı əhali yaxşılaşmanı hiss edir və onu aşkar görür.

Ruandanın əsas ixrac bitkiləri çay və kofedir. Onların yığımı 2003-cü ildə (müvafiq olaraq 15,5 min ton çay və 14,5 min ton kofe) genosid dövrünə qədər olan məhsulu xeyli ötmüşdür. Ruanda hərbi kontingentinin KDP-də olması izsiz keçmədi. Qonşu ölkənin, vətəndaş müharibəsi ilə Kinşos paytaxtından artıq çoxdan ayrılan nəhəng şərq rayonları Ruandaya doğru istiqamətləndilər. Konqaler Koltonu, mobil telefonlarda istifadə edilən minerallar, qızıl, qiymətli daşlar, qiymətli ağac növləri Kiqalidən keçməklə ixrac olunur. Hay-küylü tikinti gedir, sellülyar rabitə abonentlərinin sayı durmadan artır, yüzlərlə məktəb internetə qoşulmuşdur, ölkəyə, ilk növbədə zəngin, nadir heyvanat aləmi ilə maraqlanan turistlər axışır. Kiqali simasını dəyişir, mart ayında orada ilk beşulduzlu «İnterkontinental» mehmanxanası açılmışdır. Hökumət gələcək Ruandanı regional maliyyə və servis mərkəzi kimi təsəvvür edir.

«İdarəedilən demokratiya» genosidin nəticələrinin aradan qaldırılması resepti kimi - Ruandanın hakim rejimi bundan özünə dərs götürmüşdür - hələlik dayanmadan fəaliyyət göstərir. Xarici donorlar da köməklik göstərirlər. Onların hesabına dövlət büdcəsinin gəlir hissəsinin yarısı tamamlanır.

Lakin böyük əziyyətlər bahasına əldə edilmiş sabitliyi partlatmağa qabil olan yavaş, tədrici təsirli bomba da var. O özü haqqında ucadan deyir və bu

«əhalinin sürətli artımı» adlanır.

Əhali artımı problemi Ruanda qarşısında çoxdan dayanır. Məhz o, etniklərarası toqquşmanın əsas səbəblərindən biri idi. Hələ 50-ci illərdə xutu ekstremistləri inandırmaq istəyirdilər ki, «ölkə hamı üçün çatmayacaq». Hesab edilirdi ki, çoxlu insan itkisinə gətirib çıxaran müdhiş genosid bu məsələni uzun müddət gündəlikdən çıxaracaq, lakin bu baş vermədi. 1991-ci il siyahıya almasına əsasən ruandalıların sayı 7,2 milyon nəfərə çatırdı. 2001-ci ildə, yəni 10 ildən sonra aparılan siyahıyaalma ruandalıların sayının 8,162 milyon nəfərə çatdığını göstərdi.

Təəccüblü göstəriciyə emiqranttutsilərin qayıdışı hesabına nail olunmuşdur -bu fenomeni Ruanda statistikləri belə izah etməyə cəhd göstərirdilər. Lakin bu belə deyil. Ruandada doğum səviyyəsi hədsiz yüksəkdir. Ruanda kəndli ölkəsi olaraq qalır. Şəhərlərdə yalnız 1,4 milyon və ya bütün əhalinin 16,6%-i yaşayır. Bunlardan 608 min nəfəri Kiqalı paytaxt şəhərinin sakinləridir.

Nəticədə Ruanda əhalisi ən sıx olan dünya ölkələrindən birinə çevrilmişdir. Onun hər 25 min kvadrat kilometr ərazisinə 300-dən çox adam düşür, Təəccüblü deyil ki, torpaq sahəsinin orta miqdan cəmisi 0,7 ha təşkil edir. Hökumət sübut edir ki, Ruandada Nil deltasına nisbətən məhsuldar torpaqlar daha çoxdur və ağıllı torpaq islahatı bu problemin kəskinliyini uzun müddət götürə bilər. Lakin əhalinin sayı bu templə artmaqda davam edərsə, 2015-2020-ci illərdə artıq bu rəqəm iki dəfə artacaq. Bununla isə hətta ən yaxşı islahatın bacarması çətin ki, baş tutsun.

Əhalisinin etnik tərkibi Ruandanı təkrarlayan qonşu Burundidəki vəziyyət optimizm üçün əsas vermir. 6 aprel 1994-cü ildə Kiqali üzərində vurulan təyyarədə Ruanda Prezidenti J.Habiarmandan başqa Burundi Prezidenti Siprian Niaryamir də uçurdu. Onun da həlak olmasına baxmayaraq, Burundidə genosiddən qaçmaq mümkün oldu. Lakin keçmiş on illər ərzində daim etniklərarası toqquşmalar nəticəsində orada da 200-300 min adam həlak olmuşdur. Toqquşmalar davam edir və indi də yeni həyatlara son qoyulur, yeni köçkünlər yaranır. Xutu və tutsi siyasi partiyalarının barışması, koalision hökumətin yaradılması cəmiyyətə qəti sakitlik və stabillik gətirmədi. (Bu hadisəyə görə ABŞ-ın eks-prezidenti B.Klinton Ruanda xalqından üzr istədi. Bəs Xocalı genosidinə görə Azərbaycan xalqından kim üzr istəyəcək?). Nəzarət edilən demokratiya yolunu seçən Ruanda uçurumdan çıxmağı bacardı. Hələlik onun vəziyyəti aşkar yaxşıdır, lakin bu o demək deyil ki, gələcəkdə də onun vəziyyəti münaqişələrdən sarsılan Burundiyə nisbətən həsəddoğurucu olacaq. Ölkənin tutulan yoldan geri çəkilməyəcəyinə, genosidin və ya irimiqyaslı etniklərarası qırğının təkrar olunmayacağına heç kim təminat verə bilməz.

## MƏXFİ ARAYIŞ

Ermənistan Milli Təhlükəsizlik Nazirliyinin mətbuat xidmətinin başçısı, polkovnik Armaik Mamukyan iddia edir ki, Xankəndidə, ümumən Dağlıq Qarabağ

ərazisində, eləcə də Yerevanda heç bir azərbaycanlı əsir yoxdur. 2000-ci ilin dekabrayının 16-da isə Rusiya Federasiyasının Baş Kəşfiyyat İdarəsinin polkovniki, cənab Vladimir Romanoviç Savelyevin Birləşmiş Millətlər Təşkilatına ünvanlanmış məktubunda isə Ermənistan ərazisindəki əsirlərin sayından, düşərgə zonalarından bəhs olunur.

«Jmanak» qəzeti (Türkiyə erməni diasporunun qəzeti) 1992-ci ilin fevral hadisələrini, qanlı qırğını şərh edərək yazır: «...Biz vəcdə gəldik. Ermənilərə öz dədə-baba torpaqları uğrunda vuruşmaq üçün güc və qüvvət verilmişdi. Bu işdə Allahın razılığını görürdük. Və vuruşurduq. Azərbaycanlılar isə bizim qədər torpaq istəyə bilmədi. Məhəbbət və Vətən sevgisi olduğu üçün biz qalib gəldik. Bakıdan da xəbərdarıq. Orada torpaq uğrunda yox, sülalə və vəzifə, səltənət və şöhrət uğrunda daha çox güc sərf olunur. Çünki Bakıda da bilirdilər ki, bu torpaqlar bizimdir, bizim dədə-babalarındır. Bu barədə rus zabiti Vladimir Savelyev adlı birisi meydanda atılan topların yanında bizdən sorğu etdi. O, bizim müxbirdən tələb edirdi ki, bu yerlərdən çıxıb getsin...» (1992-ci il, 24 fevral).

Vladimir Savelyev 366-cı Alayda yerləşən 02270 nömrəli (Dağlıq Qarabağda) hərbi hissənin əks-kəşfiyyat şöbəsinin rəisi olub. Xocalı faciəsinin ilk məlumatlarını toplayan, hadisələrin şahidi olan polkovnik 1992-ci il noyabr ayının 26-da, 1994-cü il mart ayının 19-da, 1998-ci il avqust ayının 22-də və nəhayət, 2000-ci ilin iyul və dekabr aylarında BMT-yə, Avropa Şurasına sonda Baş Kəşfiyyat İdarəsinə «Məxfi Arayış»ını təqdim edir. O, son arayışlarını «zabit Puqaçov» imzası ilə göndərib.

Polkovnik erməni terror təşkilatları ilə Rusiya qoşun birləşmələrinin Dağlıq Qarabağda keçirdikləri hərbi əməliyyatları izləyərək, fakt və sənədlərdə, «Agentura» gücü ilə əldə etdiyi informasiyalarda bütün olub keçənlərin şərhini verib etiraf edir: «...Mən bütün bunları yazmaya bilmərəm. Hər şey gözlərim önündə baş verib. İnsanların, uşaq və qadınların, hamilə gəlinlərin güllədən keçmiş bədənlərini unuda bilmirəm. Qoy azərbaycanlılar məni bağışlasınlar ki, bütün bu qanlı və amansız sonluğu olan hadisələrdə əlimdən heç nə gəlmədi. Təkcə on doqquz səhifəlik məxfi arayışı həm Kremlə, həm də MN-ə, BKİ-nin generallarına göndərdim. Oxuyun - dedim. Biz rusların zabit şərəfi görün necə ləkələndi. Mən Bakıdakı hadisələri də izləyirdim. Hiss olunurdu ki, Prezident Ayaz Niyazoviçi aldadıb tora salıblar. O, kələfin ucunu itirmiş, hər şeyi nəzarətdən çıxarmış, qarşıdurmanın mərkəzində dayanmış, nüfuzunu itirmiş Ali Baş Komandandır. Azərbaycan hərbi əks-kəşfiyyatına gəlincə belə bir qurum iflic olub. Aldığımız məlumata görə, bu qurumun əməkdaşları orduda kartof kisələrinin, soğan və ətin oğurlanıb-oğurlanmaması ilə maraqlanır, əsas məsələlərə girişə bilmirdilər. Prezident Xocalıda nəyin baş verməsini dərk etmirdi. Azərbaycan ordusunun BQ-də hamı özünü qərargah rəisi kimi aparırdı. Dördüncü ümumordu qoşun birləşmələrində isə gərginlik genişlənirdi. Bu qoşun birləşmələrində hər şey

Azərbaycan əleyhinə idi. Vəziyyət nəzarətdən çıxmışdı. Zabitlər başlarını itirmişdilər.

Məlumat aldıq ki, Azərbaycanda Prezident Aparatında və güc nazirliklərində ikitirəlik var. Məqsəd və fikirlər bir-birini tamamlamırdı. Hamı siyasi məqsədləri üçün «Müharibə kartından» yapışmışdı. Bu kartı paylayanlara gəlincə, onların bir qismi Azərbaycanın Ali Baş Komandanının, bir qismi də müxalifətin və nəyə xidmət etdiklərini anlamayan savadsız və küt generalların yanını kəsdirmişdilər...».

Fransada çıxan «Frans katolik-ekklezia» - aylıq jurnalında «Hücumdan öncə» yazısını çap etdirən erməni jurnalisti Berain Siracyan yazır: «...Xocalını gözlərimlə gördüm. Döyüşən, hər qarış torpaq uğrunda vuruşan artsaxlıların igidlikləri məni valeh etdi. Amma mən torpaq uğrunda gedən vuruşmanın bu tərzdə aparılmasının tərəfdarı deyildim. Hər yerdən qan iyi gəlirdi. Qar üstündə qalaqlanmış buz üstündəki kimsəsiz, sahibsiz cəsədlərdən qorxdum. Qorxdum ki, bu qan üçün heç vaxt Azərbaycan tərəfi, sabahkı nəsillər susmasın. Bu gün ruslar bizimlədir. Bəs sabah?.. Biz tənha qala bilərik. Digər tərəfdən, Xocalıda vuruşanların, erməni qardaşlarımın gözlərindəki alovun sönməyəcəyinə də şübhəm yoxdur. Bu alov vətən torpağı üçün yandırılmış ocağın alovlarıdır. Belə alovlar isə heç vaxt sönmür...» (1992-ci il, 12 mart).

Halbuki 1992-ci ilin yanvar ayında Paris yaxınlığında qeyri-leqal məxfi təlim düşərgəsi yaratmış «ASALA» erməni terrorçu təşkilatının bir qrup üzvü - 26 nəfərlik dəstə, mayor Aşin Simonyanın başçılığı ilə Xankəndiyə təşrif gətirmişdi. Onlar başlı-başına buraxılmış 366-cı alayın içərisində asanlıqla öz dayaqlarını qura bildilər. Polkovnik Yevgeni Zarviqarova nağd 36 min ABŞ dollarını tanışlıq üçün «hədiyyə» etdilər. Məlumata görə, 23-cü diviziyanın komandiri, general-mayor Boris Budeykin polkovnik Zarviqarovu buna görə ittiham da edib. Dördüncü Ordu komandanlığı qarşısında onun «zabit şərəfinə xəyanəti» üstündə azad olunmasını, qovulmasını tələb edib.

Lakin bütün bu ittiham və tələblərə baxan yox idi. Çünki qanunlar artıq işləmirdi.

Polkovnik V.Savelyev yazır: «...Əslində millətlərarası münaqişəyə cəlb olunmuş 366-cı polk ətrafında həmin problemlər daha qabarıq nəzərə çarpır. Hərbi əməliyyatlarda polkun ermənilər tərəfinə keçib azərbaycanlıları qırması, hərbi texnika və silahları ermənilərə verməsi məsələsi artıq siyasi əhəmiyyət daşıyırdı...».

Polkovnik 1992-ci ilin aprel ayının 12-də MN-ə göndərdiyi məktubda isə bunu yazır: «Öldürülmüş, məhv edilmiş adamların bir qisminin şəxsiyyətlərini təyin edən sənədlərdən 46-sını nömrələyib, Azərbaycanın MN-inə, Prezident Aparatına göndərdim. Mənə cavab gəldi ki, biz həmin sənədləri araşdırırıq. Onda mən Tbilisidə idim və məktubu da oradan yola salmışdım. Amma dərk edə

bilmirdim ki, Azərbaycan hərbi kəşfiyyatı nəyi araşdırır...».

1992-ci il fevral ayının 19-da isə İrəvanın Teatr meydanında Firdos Ərəbyan adlı bir erməni emissarı (Livan) Dünya ermənilərinin «iqtisadi gəlir mənbəyi» kimi ad çıxarmış «Qaragin» erməni mərkəzində on üç nəfər varlı ermənin imzaladığı məktubu oxudu: «...Oyanmış xalqa eşq olsun! Müdrikliyini, ağıl və idrakını dərk edən, babalarımızın, əcdadlarımızın külünü təzədən alışdıran erməni qəhrəmanlarını alqışlamaqla yanaşı, onlara dünya ermənilərinin salamlarını yetirirəm. Parisdə, Kölndə, Romada, Vaşinqtonda, Küveytdə, Londonda, Moskva və Ankarada, Tehran və Latın Amerikasında ayağa qalxan ermənilər sizinlədir. Biz sizə hər cür yardıma hazırıq...».

İki milləti qarşı-qarşıya qoyan bu «millət qəhrəmanları» bir məsələni dərk etmirdilər. Dərk etmirdilər ki, heç kəsin qanı yerdə qalmır. Edilən cinayətlər üçün, tökülən qanlar üçün cavabdehlik və məsuliyyət nə Vaşinqtonun, nə Londonun üstündə qalırdı. Bütün bu vəhşiliklərin cavabdehliyi İrəvanın üstündə idi. Bunu isə sadəcə dərk etmək lazım idi. Necə ki, kəşfiyyatçı V.Savelyev bunları görür və dərk edirdi.

Polkovnik Zarviqarov və başqa vəzifəli şəxslər isə polka atəş açan döyüş nöqtələrinin ləğvi haqda ordu və dairə komandanlığının rəsmi icazəsilə Xocalı istiqamətində gedən əməliyyatlarda ermənilərlə birləşdi. Nəticədə bir gün ərzində 49 nəfər azərbaycanlı meydanlara yığılıb güllələndi. Qərargah rəisi, podpolkovnik Sergey Kraulenin verdiyi tapşırığa əsasən, birinci motoatıcı batalyonun komandiri, polkovnik Arkadi Moiseyev, 2-ci batalyonun komandiri mayor Serj Ohanyan, 3-cü batalyonun komandiri mayor Qavril Nabokix, kapitan İshaq Lixodeyin. Xankəndini atəşə tutmaqla yanaşı, ayrıseçkilik edir, dinc əhalini zonalarından uzaqlaşdırarkən ermənilərlə daha çox məşğul olurdular. Köçürmə zamanı (bu yarımçıq qaldı) 58 nəfər azərbaycanlı öldürüldü.

Öldürülən azərbaycanlılar isə adəti üzrə dəfh olunmuşdular. Onları yarım metr qazılmış çalalara atıb, üstünü torpaqlayırdılar. Polkovnikin qeydlərinə görə, axşamlar belə çalaların ətrafından «itlərin və çaqqalların səs-küyündən, dartışmalarından» qulaq tutulurdu, adam vahimələnirdi. Hər yerdən laxtalanmış qan və ölmüş cəsəd iyi gəlirdi.

Bu arada Livanda fəaliyyət göstərən erməni diasporu tərəfindən radikal mövqeyi ilə seçilən «Ramkavar» partiyasının liderlərindən olan Rafael Messayan (Qriqoryan) Beyrutda çıxan «Zartunk» («Oyanma») qəzetində «Bir erməni yardımı» yazısında qeyd edir: «...Xocalı uğrunda vuruşan, döyüşə atılanları unutmaq, yaddan çıxarmaq biz ermənilərə yaraşan iş deyil. Onlara - o igidlərə yardım edin. Məlumatımız var ki, dünyanın 24 ölkəsində varlı və zəngin erməni iş adamları «Artsax yardım fondu» təsis ediblər. O fond həm də bizim gələcək nəsillərin taleyi üçündür. Londonda erməni iş adamı satdığı villasının dəyərini, Vaşinqtonda erməni biznesmeni Araz Süleyman öz ticarət mərkəzindən gələn illik

gəliri, Parisdə «Erməni ana dili» cəmiyyətinin üzvləri topladıqları ianələri, Xocalı qəhrəmanları üçün ayırdılar...» (1992-ci il, 24 mart).

Bakıda isə boş qalmış kreslolar üstündə adamlar dəstələrə bölünür, qruplarda cəmləşir, hakimiyyətə can atırdılar. Ali Baş Komandanın buraxdığı strateji səhvləri isə nə siyasi mühitdən ayrı düşmüş, başını itirmiş millət, nə də ayrı-ayrı siyasi liderlər dərk etmirdilər. Düşdükləri burulğandan çıxmaq üçün heç kəs bir-birinə əl uzatmırdı, yardım etmirdi. Xocalı isə qan içində can verirdi. Ordudakı xəyanətlə Prezident Aparatındakı xəyanətlər üst-üstə düşdüyündən hamı çaşıb qalmışdı. Bütün bu çaşqınlıqları araşdıran kəşfiyyatçı V.Savelyev Kremlə, Bakıya üst-üstə 18 eyni məzmunlu teleqram göndərir. Amma heç kəs onun teleqramlarını oxumurdu.

1992-ci ilin fevral ayının 4-də isə Roma Papası II İohanın Dağlıq Qarabağ özünümüdafiə dəstələrinə (!) və rus qoşun birləşmələrinin generallarına məxfi məktubu daxil olur. Roma Papası erməni müdafiə dəstələrinə «Allahdan aldığı gücü» (?) göndərirdi. Ruslara isə bu vuruşmanın «dini bir vuruşma» olduğunu xatırladır, onlara dua edəcəyini açıqlayırdı. Roma Papası Dağlıq Qarabağ uğrunda vuruşmanı «Dini vuruşma. Din uğrunda vuruşma» kimi qiymətləndirib, yazır: «...İmkan olarsa, Xocalıya gəlib orada həlak olan erməni qardaşlarımın vuruş və döyüş məkanlarında baş əyəcəm...» (2003-cü ilin sentyabrın 21-də Roma Papası Ermənistana gəlir. Qarabağın işğalı zamanı öldürülən ermənilərin məzarlarını yad edir).

Polkovnik V.Savelyev daha sonra yazır: «...Xocalının işğalında, ölüm və kütləvi qırğın hadisələrində azərbaycanlı zabitləri də günahlandırıb ittiham edirəm. Bu necə Vətəndir? Bu necə ordudur?.. Bütün bunları anlaya bilmirəm. Bu oyunlara rus zabitlərini qoşmaqla onları alçaltdılar, şərəfinə lənət damğasını vurdular.

Mən on addımlığımda güllə yarasından can verən səkkiz-doqquz yaşlı qızcığaza heç cür kömək əlimi uzada bilmədim. Allahın mənə lənət edəcəyi gündən qorxuram...» Lənətlənmiş günlər isə bir-birini əvəz edirdi. Həmin ərəfədə Fransadan gəlmiş «Operator-II» özəl studiyasının erməni əməkdaşları isə (Jül Barelyan, Şerin Sitaryan) Xocalı ətrafında qalaqlanmış meyitlərin yandırılmasını lentə köçürürdülər. Rusiyanın 2-ci batalyonunda vuruşan zabit İvan Karabelnikovun verdiyi məlumata görə bu yer «...Xocalının şimal-şərq hissəsində kiçik təpəcikləri olan bir yer idi...»

Xocalı faciəsini «işıqlandırmaq» (ermənilər buna qəhrəmanlıq deyirlər) üçün Xankəndiyə dünyanın 32 ölkəsindən 47 nəfər erməni jurnalisti gəlmişdi. Onların bir qismi polkovnik Y.Zarviqarovun ayırdığı zirehli maşınların gözlüklərindən, qərargah mərkəzlərindən hadisələri izləyir, qeydlər götürür, bəziləri də operativ çəkilişlər aparırdı. Dağılmış, viranə qalmış yerləri dünyaya göstərir və acı bir təəssüflə qeyd edirdilər: «...Azərbaycanlılar günahsız erməniləri qırırlar...»

Bizim təbliğat maşınımız isə Prezident Aparatından kənara çıxmırdı. Bakıdakı adicə diplomatik korpusların nümayəndələrinə həqiqəti deməkdə çətinlik çəkirdik. Susmağımız isə erməni təbliğatı üçün qol-qanad verirdi. Ermənilər Xocalı ilə bağlı Azərbaycanı «qan tökməkdə günahlandıran» bir materialı, əllərinə keçən hər hansı bir faktı və yaxud sənədi təkrar-təkrar çap edirdilər. Tutalım «Azərbaycanlılar Xocalını yandırıb, getdilər...» foto-reportajını ermənilər 49 dəfə dünya mətbuatında çap etdiriblər (Bu bizim təqribi hesablamalarımızdır).

Xocalının işğal edilməsi planının strateji tərəflərini ermənilərlə yanaşı, ruslar da «...çox düşünüblər». Nəticədə birinci batalyonun qərargah rəisi, mayor Abram Çitçiyan mayor Ə.Nabokix və kapitan İ.Lixodey hərbi əməliyyatlarda bilavasitə vuruşublar. Zabit İ.Karabelnikovun məlumatına görə, A.Çitçiyan 13 nəfərlik «Babayevlər ailəsini... güllədən keçirib...». Ona 1993-cü ildə Fransa Erməni Diasporu tərəfindən 150 min ABŞ dolları mükafat və ən böyük «Kilsə mükafatı» verilib. A.Çitçiyan 1994-cü ilin sentyabr ayının 2-də Fransaya mühacirət edib və orada yaşayır.

366-cı Alayın sıravi qulluqçusu, rabitəçi Afik İsbeliyevin məlumatına görə isə, o, fevralın 24-də (1992) kapitan İ.Lixodeyin komandasında topçu dəstəsində vuruşub və Xocalının işğalında iştirak edib.

- Siz necə vuruşurdunuz? - sualına belə cavab verib:

- Biz həm də qorxurduq. Ölümdən qorxurduq. Əlimizə keçənləri məhv edirdik. Bəzən küləkdən tərpənən ağaclar, xışıldayan yarpaqlar da bizi qorxuya salırdı. Mən bilmirəm, Azərbaycan xalqı məni bağışlayarmı? Anam azərbaycanlılara qarşı ermənilərlə əlbir olub vuruşduğum üçün məndən imtina edib. Mən artıq evə gedə bilmirəm, hamı məndən üz döndərib. Amma məni məcbur etdilər. Əmr verdilər. Biz isə əmrə tabe idik. Məni artıq heç kəs bağışlamır. («Bir erməni məzarı» - Müəllif: Əbdül Fateh. «Beyrut» nəşri. 1994-cü il).

A.İsbeliyev bunu da deyir ki, ermənilər ruslara məxsus hərbi texnikanı satın almışdılar. Bir avtomat «Kalaşnikova» 1500 ABŞ dolları verilirdi...

Fevral ayının 25-dən 26-sına keçən gecə Xocalı yandırıldı, işğal edildi. Qoşun isə sakitləşmək bilmirdi. Polkovnik V.Savelyev «Məxfi arayışında» qeyd edir:

«Üçüncü batalyon Xocalı işğal olunan gecə müharibə zonasından çıxarıldı, amma oranı tərk etmədi. 366-cı Alay isə ərazidən çıxarılmadı. Ordu tərksilah olundu. Zabitlər satqınlıq etdilər. Silahlara gəlincə, işlənməmiş silahları ermənilər üçün ayırdılar. Qərara alındı ki, ermənilərdən bunun müqabilində pul və zinət şeyləri alınsın. «Böyük Ermənistan» adlı bədnam və rüsvayçı plan uğrunda vuruşanlara gəlincə, bu, hələlik açıq qalmış bir məsələdir».

1992-ci ilin mart ayının 19-da (müsəlman təqvimində bu gün Novruz günü, bahar bayramı idi) Xocalıda öldürülmüş azərbaycanlılar üçün kiçik bir qəbiristanlıq salındı. Orada əlli dörd nəfər öldürülmüş günahsız azərbaycanlı dəfn

edildi. Ermənilərin Fransa Diasporunda telekanal müəllifi Surik Şaqenyan bu mənzərəni elə həmin günün axşamı İranın, Türkiyənin, Moskvanın, Yerevanın, Vaşinqtonun, Londonun, Parisin, Bonnun telekanallarına çıxartdı. Ermənilərin öldürülmüş azərbaycanlıların meyitlərinə etdikləri «hörmət və ehtiramdan...» (?), təşkil olunmuş dəfn mərasimindən danışdı.

Bakıda isə əslində hələ heç kəs hadisələrin, Xocalıda baş vermiş faciənin səbəblərini araşdıra bilmirdilər. Yaradılmış deputat komissiyasından tutmuş, müxalifət partiyalarınadək hamı iflic vəziyyətində idi, hakimiyyət çat vermişdi. Təhlükəsizlik orqanları öz informasiya mənbələrinin əsas dayaqlarını itirmişdi. Təhlükəsizlik sisteminin böyük bir qrupu müxalifətlə, necə deyərlər, «əhd-peyman» bağlamışdılar. A.Mütəllibov hakimiyyəti cəmiyyətdə və dövlətdə siyasi gücünü artıq itirmişdi. O, öz ehtiraslarının, komandasındakı fitnə-fəsadın qurbanı olmuşdu.

Həmin ərəfədə rus kəşfiyyatçısı V.Savelyev Azərbaycan hakimiyyətini təsvir edib, yazırdı: «...Xocalı işğalından sonra A.Mütəllibov hakimiyyəti öz yaşamaq hüququnu itirdi... Nazirlər isə Baş nazirin ətrafında dövlət daxilində dövlət yaratmışdılar...»

Polkun çıxarılmasında hərbi sursatların ermənilərə verilməsində bilavasitə iştirak edənlərə baxın:

- General-polkovnik Qromov.
- General-leytenant Qrekov.
- General-leytenant Ohanyan.
- İ.Andronov - deputat.
- Polkovnik Y.Zarviqarov (sonra general oldu).
- Polkovnik O.Kraule. Dördüncü Ordu 23-cü motoatıcı Diviziya nümayəndələrinin Xocalı əməliyyatında iştirak etmələri üçün şərait yaratdı. 23-cü motoatıcı Diviziyanın komandan müavini A.Babukov və K.Yermolayev isə erməni yaraqlılarına verilmiş hərbi texnikanın geri qaytarılmasını tələb edirdi. Onları isə kim idi eşidən?!».

RF hərbi əks kəşfiyyatının rəisi işləmiş polkovnik V.Savelyev məsələləri şərh edərək, qeyd edir: «...1992-ci ilin fevral ayının 23-də hərbi şəhərcik «Qrad» qurğulatından atəşə tutulduqdan sonra polkovnik Y.Zarviqarov polkun daimi dislokasiya məntəqəsindən ehtiyat bölgəyə keçirilməsi haqqında qərar verib. Qərar isə erməni silahlı dəstələrinin heç bir müqavimәti olmadan həyata keçirilib. Dislokasiya yerinin dəyişdirilməsi heç də zərurətdən irəli gəlməyib. Bu zaman bir sıra bölmələrin döyüş texnikaları çıxarılmayıb. Həmin günlərdə Xankəndi şəhərinə gələn general-leytenant İ.Ohanyan (mayor Ohanyanla qarışdırmayın) təkid edib ki, artilleriya diviziyası, zenit artilleriya diviziyası, tank rotası, texnikası saxlanılsın. Nəticədə ermənilər heç bir maneə ilə rastlaşmadan 23 ədəd «PDM», 3 ədəd «ZSU-23-4», 8 ədəd «D-30» və xeyli digər döyüş texnikası ələ keçirdilər...».

Həmin gün ermənilərin özünümüdafiə dəstəsi adı ilə vuruşan, əslində «ASALA» terror təşkilatının Xankəndidə yaradılmış özəyinin başçısı kimi tanınan İllarion Allaverdiyan 24 nəfər rus zabitinə və əsgərinə pul mükafatlarını elan etdi. Məsələn, dəstənin önündə çıxarılmış rus zabiti Yevgeni Qolubevə üstündə «ASALA» yazılmış 25 qramlıq qızıldan tökülmüş orden və beş min ABŞ dollarını təntənəli surətdə təqdim etdi. Və yaxud həmin gün sıravi Anastas S.İvanova 10 min ABŞ dolları təqdim etməklə İrəvanda onu gözləyən «Hunday» markalı avtomobilin sənədlərini verdi.

Nəticədə erməni silahlı dəstələrilə rus zabitləri arasında şəxsi bağlaşmalar «Döyüş müqavilələri»də imzalanırdı.

Azərbaycanda isə əsgərlərimiz üçün, ordumuz üçün kəndlərdən, şəhərlərdən, ayrı-ayrı iş adamlarından göndərilən maddi yardımların nə dəftəri var idi, nə də hesabı. Sənədlərə gəlincə, o artıq yox idi, bir qismi yandırılmışdı, bir qismi də it-bata salınmışdı. Aldığımız məlumata görə, təkcə Xocalı işğalı günlərində ordunun xəzinəsindən (yardımlar) 793 min ABŞ dolları oğurlandı. Adamlardan yardım üçün yığılan 368 milyon manatın aqibəti bilinmədi. Cənubi Azərbaycandakı qardaşlarımızın göndərdikləri 46 milyon 436 min rial isə, necə deyərlər, qeybə çəkildi. Ermənilərlə rus zabitlərinin müqavilələri isə getdikcə şaxələnirdi.

Yadınıza salım ki, bütün bunlar, yəni ermənilərlə ruslar arasında olan bu hərbi bağlaşmaların bir qismi şifahi sərəncamlarla edilirdi. Bunun üçün hər sərəncamın, general sözünün öz qiyməti var idi. Məsələn, Xankəndi şəhərindəki 463-cü Əlahiddə Kimyəvi Mühafizə Batalyonu və 909-cu Əlahiddə Kəşfiyyat Batalyonunun döyüş planları ilə bağlı, ermənilər tərəfdən vuruşması barədəki əmrin qiyməti 18 min ABŞ dolları idi.

Polkovnik V.Savelyev bütün bunlara toxunaraq yazır: «...Birinci batalyon ehtiyat bölgəyə keçirilən zaman polkovnik İvan Moiseyev texnikanı və şəxsi heyəti dağlar arasındakı Çapar dərəsində saxlayıb, gözləmə mövqeyi tutub. Sonra onun batalyonu Çixani yaşayış məntəqəsinə daxil olub. Ermənilərin mühasirəsinə düşüb. Nəticədə batalyon könüllü surətdə öz döyüş texnikasını ermənilər üçün qoyub. İvan Moiseyevə və şəxsi heyətə pul təklif edilərək, birlikdə vuruşmağa çağırılıblar...»

Qeyd edim ki, Xocalının ətraf yaşayış məntəqələrini də dağıdan, külünü göyə sovuran elə İvan Moiseyevin batalyonu olub. Və bu batalyon da ermənilər arasında «İvanın vəhşi batalyonu» kimi tanınıb.

Araşdırmalarımıza görə, 366-cı Alaydakı hərbi texnika və silahların 85%-i ermənilərin əlinə keçib. Üstəlik, Fransadan göndərilən 142 ədəd avtomat, 7 min 600 ədəd güllə, 460 ədəd bronijilet, 11 ton konservləşdirilmiş yemək, min iki yüz cüt ayaqqabı (altı cür ölçüdə), 146 ədəd tapança ermənilərin istifadəsinə verildi. Amerikada istehsal olunmuş 149 ədəd ratsiya da ermənilərə paylanıldı.

Fransa senatı isə Xocalı ilə bağlı heç bir məlumatın olmamasından gileyləndi və bütün günahları Azərbaycanın Fransadakı diplomatik korpusunda gördü. Və 2001-ci ilin fevral ayının 14-də bu da məlum oldu ki, Fransada «Xocalı faciəsini» ermənilərin faciəsi kimi təbliğ edib tanıdıblar. Bizim səfarətxanaya gəlincə, onları sadəcə geri çağırıb ittiham etməkdən başqa ayrı heç nə qalmırdı. Digər tərəfdən, erməni diplomatı O.Ter-Qriqoryan 1992-ci ilin aprel ayında İrəvanın Teatr meydanındakı çıxışında deyirdi: «Erməni təbliğatı Bakının diplomatik mərkəzlərində artıq özünə istənilən mövqeyi tutub» (?) Bunun isə ətrafında düşünmək lazım idi.

Diplomat çıxışının bir yerində isə xatırladır ki, ermənilərlə rusların dostluğunun sınmayan sütunları var. Diplomat Ter-Qriqoryan deyir: «Hələ 300 il bundan qabaq ermənilər I Pyotrdan xahiş edirlər ki, yadelli işğalçılara qarşı vuruşanda onlardan da istifadə etsinlər. Əgər Moskvada (təkcə şəhərin özündə) 1959-cu ildə 18,4 min nəfər erməni var idisə, indi bu rəqəm 47 min nəfərdir. RF-in xaricdəki diplomatik korpuslarında çalışan ermənilərin sayı 142 nəfərdir. Onların 59 nəfəri jurnalist kimi fəaliyyət göstərir.

Sıravi əsgər Qriqori Voroşilovun məlumatına görə, Xocalı ilə bağlı ermənilərin ruslarla əlaqələrinə dair sənədlərin bir qismi 1992-ci il mart ayının 1-də Zaqafqaziya Hərbi Dairəsinin aviasiya komandanı general-mayor S.Lukaşovun əmrilə yandırıldı. Polkovnik V.Savelyev xatırladır: «...Ermənilər ruslara məxsus «02-19-MM» nömrəli «KAMAZ»la ərazidəki azərbaycanlı meyitləri yığıb Xocalıda tonqal qurdular. İnsanın insana olan nifrəti burada həddini aşmışdı. Kim yaratmışdı bunu, dərk edə bilmirdim. Mən sizə ermənilərə qoşularaq əsir alınmış azərbaycanlıları sıraya düzərək tək-tək məhv edən və bundan həzz alan rütbə sahiblərini tanıtmaq istəyirəm:

1. Polkovnik B.Baymukov - arxa cəbhə üzrə polk komandirinin müavini.
2. Polkovnik İ.V.Moiseyev - birinci batalyonun komandiri.
3. Mayor S.İ.Ohanyan - ikinci batalyonun komandiri.
4. Mayor E.A.Nabokix - üçüncü batalyonun komandiri.
5. Mayor V.İ.Çitçiyan - birinci batalyonun qərargah rəisi.
6. Mayor V.Q.Hayriyan - polkun kəşfiyyat rəisi.
7. Baş leytenant O.V.Mirzaxayzarov - rota komandiri.
8. Baş leytenant S.V.Xrinxua - kəşfiyyat bölməsinin rəisi.
9. Baş leytenant V.N.Qarmaş - tank rotası komandiri.
10. Baş leytenant N.T.Hakopyan - rota komandiri.
11. Baş leytenant V.İ.Valilovski - rota komandiri.
12. Baş leytenant A.B.Lısenko - bölmə komandiri.
13. Baş leytenant V.A.Azarov - batereya komandiri.
14. Baş leytenant İ.SAbraimov - tank əleyhinə batereya komandiri.
15. Leytenant O.V.Balezni - üçüncü tank rotasının komandiri.

16. Leytenant A.V.Smakin - tank bölməsinin komandiri.
17. Leytenant S.İ.Raçkovski - mühəndis-istehkam rotası komandiri.
18. Leytenant V.İ.Bondaryev - kəşfiyyat rəisinin müavini.
19. Leytenant A.İ.Kulov - radio kimyəvi bölmənin rəisi.

(eləcə də 41 nəfər milliyyətcə erməni olan kiçik rütbəli şəxslər)...».

1992-ci il fevral ayının 24-də saat 21:15 dəqiqədə general rütbəsi almış Y.Zarviqarov zabitlər önündə belə bir çıxış edir ki, regiondakı müharibə torpaq müharibəsi yox, islamın xristianlığa qarşı müharibəsidir. O, çıxışında göstərirdi: «...Dünyanın islam ölkələrinin nümayəndələri, hərbi müşavirlər Bakıya (?) yığışıblar ki, bizim xaçı necə sındırıb, əzsinlər. Xristianlığa qarşı bir yürüş var. Bu yürüşdə ya dinimizi, şərəfimizi qorumalıyıq, ya da şərəfsizliyi qəbul edib tabe olmalıyıq».

V.Savelyevin - vicdanlı rus kəşfiyyatçısının «Məxfi arayışı» səriştəli, haqsızlıqlarla barışmayan bir zabitin ən böyük etirafıdır.

## XOCALI: MƏLUM OLMAYAN HƏQİQƏTLƏR

Terrorizmə qarşı ən yaxşı mübarizə yollarından biri qanunsuz zonaların ləğv edilməsidir. Məlum olduğu kimi, bu zonalar terrorçuların gizlənməsi, düşərgələr və bazalar yaradılması üçün ən əlverişli ərazilərdir.

Bu qanunsuz zonaların biri özünü «respublika» elan etmiş Dağlıq Qarabağ ərazisidir ki, onu da beynəlxalq icma tanımayıb.

Dağlıq Qarabağ ərazisi uzun müddət müxtəlif terrorçu təşkilatlar tərəfindən istifadə edilmişdir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Heç kəs etiraf etmək istəmirdi. Torpaq əldən verilmişdi. Amma hamı özünü qəhrəman sayırdı, - kimisi erməni başı kəsməsindən (?), kimisi tankın tırtılları altında muma döndərdiyi düşmən zabitlərindən, kimisi də ermənilərlə rusların birgə işlədiyi məxfi planı - ələ keçirdiyindən (?) danışırdı. Qəribə burası idi ki, nə Azərbaycanın itirilmiş torpaqlarının səbəblərini, nə də baş verən hərc-mərcliyi araşdıran oldu. Amma qəhrəmanlıqdan dəm vurmağı üstün tutanlar çox idi. Bundan sonra kimisi «cihad» elan etdi, kimisi «deputat toxunulmazlığı» üçün dəridən-qabıqdan çıxdı (törətdiyi əməllərin üstünü ört-basdır eləmək üçün), kimisi də çiynindəki ulduz üçün yarındı. Yenə də mərkəzdə «qəhrəmanlıq» dururdu.

Həmin anlar isə ermənilər «Böyük Ermənistan» uğrunda həlak olan qəhrəmanlarının poçt markalarında əks olunmuş şəkillərini dünyanın meridianlarından keçirir, «Artsax qəhrəmanları» kimi təqdim edirdilər. Biz isə öz

içimizdə qəhrəman olaraq qalırdıq, necə deyərlər, heykəl davası edirdik.

Respublika Prezidenti Aparatında isə vəziyyət belə idi:

Birinci mərtəbə: (1992-ci il fevralın 16-sı. Saat 17:20 dəqiqə). Qarabağdan qan içində, ac-susuz pənah gətirən qız-gəlinlər, qocalar. Gözləmə otağının qapısına kəfənindən qan daman, doqquz-on yaşlı bir qız uşağının meyiti gətirildi. Qoca Qarabağdan təkcə bunu götürüb gətirmişdi. Hər şeyini itirmiş bu qoca Prezident Aparatının gözləmə otağında öldürülmüş, neçə yerindən güllə yarası aldığından dünyasını dəyişən nəvəsi ilə tənha idi. Biz isə yenə də ayılmadıq. Gələn bəlanı, qapımızın ağzını kəsdirən bu faciəni görmədik.

Beşinci mərtəbə: Gözləmə otağı uğuldayırdı. Orada hamını görmək olardı. Hamı da danışırdı. Yenə də hər kəs özünün «millət üçün» qəhrəmanlıq səhifələrini vərəqləyirdi. Aşağıdakı meyitin lal harayını isə heç kəs eşitmək istəmirdi. Kimsəsiz Qarabağda öldürülmüş bu uşağın gələcək ünvanı da məlum idi: məscid, qəbiristanlıq (Bu uşaqla da biz hansısa bir qəbiristanlığın başlanğıcını qoyduq).

* * *

«Mişa» ləqəbli şəxs onu Bakıya dadandıran, neft və kimya sənayesi üzrə qurulmuş Elmi Tədqiqat Mərkəzlərinə olan gediş-gəlişlərinə sərbəstlik yaradan, «viza» verən Dağlıq Qarabağın o vaxtkı ideoloqu Boris Gevorkova nəzərlərini salıb, razılığını bildirdi. 1992-ci ilin yanvar ayının 14-də Mixail Poqosyan - «Mişa» Bakı ilə, onun ictimai-iqtisadi durumu ilə, Xankəndinin geosiyasi vəziyyəti ilə bağlı «təəssüratları»nı yığıb, Moskvaya - Rusiyanın MN-də qərar tutan «makinaçı» Larisa Suderenkonun yanına yollandı.

Vaxtilə Novosibirsk şəhərində (həmçinin İrkutskidə) «Suxoy» hərbi-sənaye kompleksində (sexlərdə həmçinin bombardmançı təyyarələr üçün bombalar da hazırlanır) baş konstruktor işləyən Mixail Poqosyan Rusiya MN-nin Baş Qərargahında məsləhət verirdi ki, ixtira etdiyi yeni mərmilərin radiusunu, hədəfə dəymə məqamlarını sınaqdan çıxarmaq üçün ən gözəl, coğrafi cəhətdən dəyərli yer-məkan Azərbaycanın Qərb zonasıdır. O, hələ o vaxt yerin adını çəkmirdi. (Yerin adını isə Baş Qərargahın «Xüsusi müşavirə»sində çəkəcəkdi). Həmin müşavirə də iki gündən sonra - yanvar ayının 16-da (saat 18:30-da) axşam saat yeddinin yarısında başlandı. O, müşavirədə iştirak etmək üçün Xankəndidə yerləşdirilmiş ruslara məxsus 366-cı Alayın komandiri - Yuri Zarviqarov da təşrif gətirmişdi. «Xüsusi müşavirə»dən sonra polkovnik başçısı olduğu Motoatıcı Alayda hərbi sirlərin qorunmasına nəzarət edən «xüsusi şöbə»nin rəisi, polkovnik Pyotr Maslennikovu konstruktor Mixail Poqosyanla tanış edir. Yenidən Xocalıya qayıdırlar. Bu vaxt onların yanında Serj Babayan adlı «professor» ləqəbli birisi də olur. O da Vaşinqtondan Erməni Strateji Araşdırmalar Mərkəzinin başçısı Hayk Astarcanyanın nümayəndəsi kimi Xocalıya göndərilmişdi. Əslində maliyyə məsələləri onun boynunda idi. Xocalıda terror (qırğın) aktı ilə bağlı həmin illər Mərkəzilə sıx təmasda olan (Vaşinqtondakı Erməni Araşdırmalar mərkəzi)

ixtisasca kimyaçı olan Mahmud-Ənvər Çayan 1992-ci ilin yanvar ayının 19-da Bakıda - Prezident Aparatında, 21-də Ali Sovetdə, 22-də AXC qərargahında olur, baş verəcək terror aktları ilə bağlı məlumatlarını verir. O, 1992-ci ilin yanvar ayının 24-də isə Tehrana yola salınır.

Hayk Astarcanyanın «müşavir»i rolunu ifa edən Serj Babayana gəlincə, o da Xankəndidə 366-cı Alayın üçüncü batalyonuna rəhbərlik edən Yevgeni Nabokixə beynəlxalq terrorizm tarixində özünün qanlı izlərini qoyan «Haydad» - erməni terror təşkilatının səlahiyyətli nümayəndəsi kimi təqdim olunur. Həmin ilin yanvar ayının 23-də 366-cı Alayda Rusiyanın (belə demək daha düzgündür) MN-nin (Baş Qərargahda) rəhbərliyi ilə razılaşdırılmış bir sərəncam hazırlandı. O, 93/5 nömrəli sərəncama (saxta sərəncam) əsasən 366-cı Alayda xidmət edən əsgərlərin bir qismi tərxis olunmalı idi. Nəticədə Alayın daxili möhürü ilə hazırlanmış sərəncama əsasən 194 nəfər ordudan - xidmətdən tərxis olundu (366-cı Alaydakı gürcülər, tatarlar, beloruslar, türkmənlər, qazaxlar, ləzgilər evlərinə buraxıldılar). Yola salınan əsgərlərə yol haqqını, əlavə geyim pulunu (?) Serj Babayan ödəyirdi, daha doğrusu, «Haydad»a məxsus, üstündə «201» rəqəmi yazılmış sənədə hər alınan pul üçün imza qoydururdu. «İmza haqqı»nı alan əsgərlər isə ləngimədən Yerevana göndərilir və oradan da yola salmırdı.

1992-ci ilin yanvar ayının 29-da isə bir-birinin ardınca Fransadan, Livandan, Nyu-Yorkdan, Moskvanın «Domodedova» - Beynəlxalq hava limanına təyyarələr Yerevana start götürür. Elə həmin gün də Yerevanı - Xankəndi əvəz edir. Xankəndidə isə Qarabağa təşrif gətirən «Haydad»çıları «müşavir» Serj Babayan, polkovnik Pyotr Maslennikov qarşılayırlar.

Xatırladım ki, bütün bu məxfi missiyaları Rusiya MN-nin BQ-yə tabe olan hərbi kəşfiyyat idarələrinin Fransada, Livanda, Amerikadakı rezidenturaları yerinə yetirirdilər.

Xankəndidə «məskunlaşmış» 366-cı motoatıcı Alaydan tərxis olunmuşların yerini xüsusi təlim keçmiş «Haydad»çılar tutdular. Alaydan ayrılmış, milliyyətcə erməni olan iki komandir də «ekspert» adı ilə gələn erməni dəstəsinə hücum obyekti kimi seçilmiş Xocalı haqqında operativ məlumatlar verirdi. Zabit Suren Ohanyan (o, həm Samvel idi, həm Sirdak idi, həm də Seyran), Vartan Çitçiyan (o, həm Valeri idi, həm də Varqaş) isə Xocalının Şimal-Qərb hissəsindəki Bodora yaşayış məntəqəsində ayrılmış təlim düşərgəsində gələn «qonaqlar»la ardı-arası kəsilməyən məşvərətlər keçirirdilər. Məşvərətlərin planları isə gah Yerevandan gəlirdi, gah da Moskvadan. 1992-ci ilin yanvar ayının 30-da isə «Mİ-8» hərbi vertolyotundan Xocalı-Şuşa istiqamətindəki yaşayış ərazilərinə üstündə «Böyük Ermənistan» xəritəsi cızılmış vərəqələr atıldı. Həmin vərəqələr də Alayın «Səhra mətbəəsi»ndə çap edilmişdi.

Belə ki, 366-cı alayın zabiti Sergey Daniloviç Tuşovun ifadəsinə görə, 366-cı Alay Xocalı hadisələri ərəfəsində:

- 3 motoatıcı batalyondan,
- 1 artilleriya divizionundan,
- 1 polkun minomyot batareyasından
- 1 zenit divizionundan,
- 1 tank rotasından,
- 1 kəşfiyyat rotasından,
- 1 mühəndis-sapyor rotasından,
- 1 təmir rotasından,
- 1 kimyəvi müdafiə rotasından,
- 1 maddi təchizat rotasından ibarət idi. Alayda
- 62 ədəd piyadaların döyüş maşını - BMP-1 tipli,
- 30 ədəd BMP-2,
- 3 ədəd BRV (hərbi kəşfiyyat maşını),
- 3 ədəd BREM,
- 5 ədəd BMP-2K,
- 10 ədəd BRDM,
- 1 ədəd BTR,
- 10 ədəd T-72 tipli tank,
- 18 ədəd 122 mm qaubitsa,
- 9 ədəd 120 mm minomyot,
- 4ədəd ZUS-23,
- 3 ədəd 82 mm minomyot,
- 18 ədəd MTLB olmuşdur.

MTN-in prokurorluğa verdiyi və cinayət işinə əlavə olunmuş məlumata əsasən 366-cı alayın tərkibində:

- 3 motoatıcı batalyon,
-1 artilleriya divizionu,
-1 tank rotası,
-1 HHM batareyası «Strela-10»,
-1 kəşfiyyat rotası,
-1 rabitə rotası,
-1 komendant vzvodu (şəxsi heyəti 600 nəfərə yaxın).

Alayda:

-10 ədəd tank T-72,
- 130 ədəd BMP,
- 12 ədəd BRDM,
- 4 ədəd BTR,
- 16 ədəd MTLB,
- 18 ədəd top D-30,
- 4 ədəd 120 mm minomyot,

- 28 ədəd 82 mm minomyot,
- 4 ədəd «Strela-10»,
- 3 ədəd ZSU-23,
- 100 ədəd müxtəlif modifikasiyalı qranotomyotlar,
- 800 ədəddən çox avtomat və pulemyotlar, zabitlər üçün pistoletlər;
- Radiostansiya R-142.

Azərbaycanın isə nömrəsiz, qeydsiz yaradılmış, Ali Baş Komandan tərəfindən xeyir-duası verilmiş «Xocalı batalyonu»:

-Bir batalyon (Şəxsi heyət cəmisi 237 nəfər);
- 96 ədəd AKM silahı (onun da 14-ünü dəyişmişdilər);
- 4 ədəd əl pulemyotu;
- 2 ədəd qumbaraatan;
- 3 ədəd tapança («marka»sı bilinmirdi);
- 10 ədəd «TOZ-8» markalı tüfəng;
- Könüllü-silahlı birləşmələr.

1992-ci il yanvarın 31-də Bakıda Milli Təhlükəsizlik Şurasının iclası keçirildi. Bu iclasda, nə qədər qəribə də olsa, hərbi kəşfiyyatın, eləcə də əks-kəşfiyyatın materiallarına toxunulmamışdı. Əslində heç yox idi də. Hərbi kəşfiyyat və əks-kəşfiyyat strukturları iflic vəziyyətində idi. Ali orqan saydığımız Milli Təhlükəsizlik Şurasında isə həmin vaxt elan edilirdi: «Erməni yaraqlıları əməliyyatı Xocalı rayonunun Xramort, Fərrux və Naxçıvanik kəndlərində keçiriblər. Lakin Azərbaycanın özünümüdafiə qüvvələri hərnləyə keçmiş, nəticədə erməni muzdluları (?) və terrorçu qrupları (?) həmin kəndlərdən sıxışdırılıb çıxarılmış, onların əsas istehkamları (?) məhv edilmişdir...».

Milli Təhlükəsizlik Şurası elə bil xalqla, qulağı səsdə olanlarla gizlənpaç oynayırdı.

Elə həmin günsə Sankeşiş yaşayış məntəqəsindəki (Xocalının şimal hissəsi) «Alaverdi» kilsəsində «Vartan cəngavərləri»nin bir qrupu «Böyük Ermənistan» himnini oxuyub, and içirdilər. 1992-ci ilin yanvarın 29-da Xocalıya təşrif gətirən bu qrup Xocalının qərb hissəsini araşdırır, operativ-məxfi məlumatlar əsasında planlar tərtib edirdilər.

Əslində həmin ilin yanvarın 29-da Xankəndiyə təşrif gətirən çağırılmamış qonaqlar Xocalı-Şuşa istiqamətində iş görmək üçün Şimal, Cənub, Şərq və Qərb istiqamətlərində operativ «Çevik» qruplara bölündülər.

366-cı Alay komandirinin göstərişi ilə erməni qruplaşmalarına ruslara məxsus isti geyim paylanıldı. Onlar üçün rotalarda ayrıca məşq zonaları-meydançaları ayrıldı:

1. Xocalı-Şuşa istiqamətində hazırlanmış «Haydad» qrupu:

Bu terror qrupuna Suren Paşayan adlı birisi başçılıq edirdi. Qrup «16+97» kodu ilə (yəni, 16 nəfər «Haydad» təşkilatından, 97 nəfər isə 366-cı Alaydan) ayrı-

ayrı dəstələr şəklində İrək, Mon, Vənli, Piçonıs, Dığ, Cecimli, Ardaşava yaşayış məntəqələrində qərar tutmuşdular. Bu dəstələr öz aralarında «Artsax», «Sunc», «Vano» - «pozivnoyu» ilə - məxfi çağırışlarla güclü rabitə əlaqələri yarada bilirdilər. Digər tərəfdən, həmin ərazilərdəki kilsələr bir nömrəli qərargah elan olunmuşdu. Suren Paşayan 1953-cü ildə Ermənistanın Zəncirli kəndində anadan olub (Yerevanın cənub-şərq yaşayış məntəqəsi). O, iki yaşında ailəsi ilə Livana mühacirət edib. Beyrutdakı «Ermənistan Mübarizə İttifaqı»na üzv olub. Həmin təşkilatın hərbi qanadında Livan «Hezbullah»çıları ilə təlim məşqləri keçib. On yeddi yaşında isə Fransaya (atası ilə) gedir. İki il erməni icmasının yaratdığı «Krunk» təşkilatının Fransa bölməsində çalışır. Bir neçə ildən sonra isə «Haydad»ın məktubu ilə («Haydad»çılar ona «Tanıtma məktubu» deyirlər - R.N.) - «Ağayan» imzası qoyulmuş məktubla təşkilatın Baş Qərargahına keçir.

Xatırladım ki, bu həmin «Haydad» beynəlxalq erməni terror təşkilatı idi ki, Azərbaycanın görkəmli şəxsiyyətlərinə, tanınmış nəsillərə, ümumən türk dünyasına qarşı «Ölüm hökmü» çıxartmışdı. Və acınacaqlı olanı da bu idi ki, onlar Azərbaycanda keçiriləcək terror aktlarında yerli məmurlardan, rütbə sahiblərindən, müxalifətdə dayanmış qüvvələrdən sərbəst istifadə edə biləcək gücə və imkanlara malik olduqlarını etiraf edirdilər (?).

Suren Paşayan mükəmməl hərbi təhsil görmüş, türklərə qarşı terror aktlarında iştirak edən «Canavar» ləqəbi ilə tanınırdı. Bölünmüş dəstələrə Qurgen Amiryan, Tomris Asadyan, Şarl Balayan kimi qəddar və amansız terrorçular da daxil idilər.

Bu dəstələrin qarşısında Rusiya MN-nin Baş Qərargahı, Səhiyyə Nazirliyi (?) də vəzifələr qoyurdular:

A: a) Azərbaycan hərbi birləşmələrində türklərin - türk əsgərlərinin öyrənilməsi;

b)Ərazidə əfqan mücahidlərinə məxsus düşərgələrin, dəstələrin öyrənilməsi;

c)Xocalının hərbi-inzibati mərkəzlərinin ərazi dairəsinin öyrənilməsi.

B: a) Erməni ailələrindən olan uşaqların alınmasını, «təhlükəsizliyi»ni təmin etmək.

b) Azərbaycan hərbi könüllü birləşmələrin arasındakı ziddiyyətlərdən maksimum istifadə etmək.

c) «Böyük Ermənistan» hərəkat proqramının birinci fazasını təmin etmək.

ç) Xocalı-Şuşa istiqamətində hüquq-mühafizə orqanlarını iflic vəziyyətə salmaq.

«Haydad»çıları təmsil edən bu qrup Daşbulaq və Xanabat istiqamətlərində iki hərbi bloklara ayrıldılar. Daşbulaq hərbi erməni blokuna Qurgen Amiryan, Xanabat hərbi erməni blokuna isə Şarl Balayan başçılıq edirdilər (əlavə olaraq 366-cı Alayın rus əsgərlərindən ibarət «vzvod»ları). Xocalı-Şuşa istiqamətində, yaşayış məntəqələrində qanlı terror aktları da məhz belə birləşmələrin planları ilə həyata

keçib.

2-ci qrup isə: Xocalı-Şuşa istiqamətindəki Şərq qrupu. «Vartan cəngavərlər»i qrupu (bu terror qrupunun Vaşinqton bölməsi 1998-ci ilin iyun ayının 4-də ABŞ konqresinə məktubla müraciət etmişdi. Orada onlar konqresmenləri Azərbaycana tətbiq edilmiş 907-ci qərarın ləğv edilməməsinə çağırırdılar).

1992-ci il fevral ayının 3-də polkovnik Pyotr Maslennikov, konstruktor Mixail Poqosyan «Vartan cəngavərləri»nin Vyana bölməsindən gəlmiş Qabriel İşxanyanla Xankəndidə hərbi qərargahda görüşürlər. Onlar müştərək planı müzakirə edirlər. Bu planın da mərkəzində Gülablı, Pircamal, Naxçıvanik, Abdal, Malıbəyli yaşayış məntəqələrinin strateji nöqtələri dururdu.

Əslində Qabriel İşxanyanın da kökü Yenikənd yaşayış məntəqəsindən idi. «Usta Simon» kimi tanınan Murad Simonyanın ailəsində doğulmuşdu. Ümumiyyətlə, «Simonyan»lar tayfası 1987-ci ildə Yenikənddən mühacir adı ilə Brüsselə, oradan da Vyanaya getmişlər. Qabriel İşxanyanın (bu familiyanı Vyanada götürdülər) əmisi Fərhad Simonyan isə Kanada vətəndaşlığını qəbul edir. «Böyük Ermənistan» ideyası uğrunda meydana atılan bu adamın rəhbərlik etdiyi «Yaddaş» qrupu 1988-ci ilin aprel ayının əvvəllərində Ermənistandan qovulan azərbaycanlılara qanlı divan tutmuş və buna görə də «Mesrop» ordeninə layiq görülmüşdür (Fransa erməni icmasının təsis etdiyi qızıl orden). «Vartan cəngavərləri»nin qarşısında isə iki mühüm məqsəd dayanırdı.

A: a) Xocalıda əhali arasında 1988-ci il sindromundan istifadə etmək. «Xüsusi Proqram»ların tərtibi. Xocalı ətrafında qorxu xofunu yaratmaq.

b) Gözlənilməz hərbi hücumlardan əvvəl çevik terror aktları.

B: a) Yolların, keçid məntəqələrinin öyrənilməsi, Xocalıya giriş və çıxışı əhatə edən ərazilərdə dayaq dəstələrinin - əlaqəçi «vzvod»ların hazırlanması.

Qabriel İşxanyanın Şərq qrupu isə «14+64» kodu ilə hərəkət edirdi (yəni, 14 nəfər «Vartan cəngavərləri», 64 nəfər isə rus əsgər və zabit).

1992-ci il fevral ayının 9-da Rusiya MN-dən BQ-dən general İlya Zarviqarovun adına telefonoqram gəlir. Saat 16 (yəni, 4-də) radələrində alınmış bu telefonoqramda Alayda xidmət edən əsgərlərə ayrı-ayrılıqda mükafat əvəzi (?) maaş verilməklə yanaşı, zabitlərin də Rusiyanın istənilən ərazisində yeni mənzillərlə təmin ediləcəyi xəbəri verilirdi.

Generalın aldığı telefonoqramda daha sonra göstərilirdi ki, Alayda «operativ» tədbirlərin keçirilməsi üçün Səhiyyə Nazirliyinin həkim briqadası göndərilir. Briqada Alayın şəxsi heyəti arasında «Sibir yazvası»na və vərəm iltihabına qarşı vaksinlərin vurulmasını təmin edir. İki gün sonra Alayın hərbi sursatına yeni texnika əlavə olunur. Hərbi «ekspert», polkovnik Nikolay Medvedyevin başçılığı ilə istehsalı nəzərdə tutulan - «T-80» tanklarında istifadə olunacaq mühərrik «dəstləri», mərmilər, AK üçün yeni millimetrli güllələr.

Xankəndiyə, oradan da Xocalıya gətirilərək, Alayın komandanlığına təqdim edildi. Bütün bunlar ayrılmış zonada sınaqdan çıxarılmalı idi. Sınaq zonası da artıq aydın idi; Xankəndidən 14 kilometr şimal-qərb istiqamətində yerləşən Xocalı şəhər ərazisi.

Və maraqlı cəhət bu idi ki, həmin ərəfədə 366-cı Alaydan Moskvaya - Baş Qərargaha ünvanlanmış telefonoqramda bildirilirdi ki, Xanabat, Pircamal ərazilərində vərəm xəstəliyi kütləvi bir həddə çatır. Həm də general İlya Zarviqarovun bu göndərişinin bir nüsxəsi Səhiyyə Nazirliyinə çatdırılmışdı. Bu da «Böyük Ermənistan» hərəkatının azərbaycanlılara qarşı aparılan planlı cinayətin tərkib hissəsi olaraq qalırdı.

Həmin anlar Bakıda isə əsl mənada «Bölünmə», «Parçalanma», «Birləşmə», «Yenidən parçalanma» kodları ilə minlərlə insanın taleyi həll olunurdu. Amma bu talelərə düyün üstündən düyün vurulurdu. Bir düyün Prezident Aparatında vurulurdu, o biri düyün Nazirlər Sovetində (Kabinetində), bir düyün Daxili İşlər Nazirliyində, o biri düyün də Müdafiə Nazirliyində. Hər şeyin kələfi itmişdi. Azərbaycan Xalq Cəbhəsi də hakimiyyət üçün «Qapı kəsdi» elan etmişdi.

Cəbhə bölgəsində isə həmin ərəfədə (Ağdam-Əsgəran istiqamətində, Xramort kəndi) kəşfiyyat aparmaq üçün ayrılmış on səkkiz nəfər döyüşçü öldürülür. Uzundərənin (Ağdam rayonu) hərbi sursat anbarı viran edilir, «Qrad» qurğuları oğurlanıb lazımsız istiqamətlərə aparılır. Əlinə silah götürən özünü «qəhrəman» elan edir, vicdanla döyüş meydanlarına atılan özünümüdafiə könüllü silahlı birləşmələrinə mane olur, onların planlarını pozur, Bakıda onlarla sıx əlaqəsi olanlar şayiələr yayırdılar. Görünür, hər şey planlı şəkildə davam edirdi. (Ehtimal olunurdu ki, «ordumuz»da silahlı birləşmələrimizdə erməni terrorçularına xidmət edən, rus kəşfiyyatı tərəfindən «verbovka» edilmiş adamların bəzilərinə «xidmətlərinə görə» xüsusi mükafatlar ayrılmış, bank hesabları açılmışdır, sığınacaqlar ayrılmışdı.)

Belə olanda vahid komandanlıq ideyası ortaya atıldı. Ali Baş Komandana (A.Mütəllibova) «Vahid komandanlıq» proqramı təklif edildi. (?) Nəticədə 1992-ci il fevral ayının 10-da respublika prezidentinin 2 saylı əmri oxundu. Əmrə görə Azərbaycan Respublikası daxili işlər nazirinin müavini, Qarabağ zonası üzrə daxili işlər idarəsinin rəisi Tahir Əliyevə Vahid Komandanlıq tapşırıldı. (?) Bu, prezidentin strateji səhvlərindən biri idi. Taktiki gedişlər isə tamam unudulmuşdu. Elə həmin günün səhəri prezident 3 saylı əmri imzaladı. Və bu əmrə görə də Goranboy ərazisində müdafiənin təşkili respublika müdafiə nazirinin müavini Dadaş Rzayevə, Şuşa şəhərinin müdafiəsi isə Rəhim Qazıyevə həvalə edildi.

Onların planları da, ordu haqqında, döyüş haqqında düşüncələri gümana, ehtimallara və yalanlara söykənirdi. Hər şey yalan üzərində qurulmuşdu. Düşmən mövqeləri, onun qurduğu planlar, hərbi texnikanın sayı, şəxsi heyət haqqında məlumat yox dərəcəsində idi. Hər şey sadəcə fərziyyələr üzərində qurulmuşdu. Bu

üçlük mənə rus təmsilçisi Krılovun məşhur «Ördək, Balıq və Xərçəng» təmsilini xatırladırdı.

Erməni tərəf isə özlərinin həm Xankəndidə, həm Yerevanda və həm də Xocalıda (məxfi) qərargahlarını yaratdılar. Nəinki Bakıda, hətta ayrı-ayrı «ordu» birləşmələrində baş verən hadisələr açıq-saçıqlığı ilə ermənilər arasında müzakirə edilirdi. Azərbaycan cəbhəsində, Bakıda - yuxarı eşalonda məxfilik prinsipi pozulmuşdu. Nəticədə 1992-ci il fevral ayının 12-də Malıbəyli, Yuxarı və Aşağı Quşçular ərazisi, həmin ayın 15-də isə Qaradağlı kəndi işğal olundu. Respublika MN-də Baş Qərargah bilərəkdən öz vəzifəsini iflic bir vəziyyətə saldı. Çünki artıq hər bir silahlı birləşmənin öz qərargahı var idi. Bütün bunlar azmış kimi, 1992-ci il fevralın 1-də müdafiə nazirinin vəzifəsini icra edən RF MN Baş Kəşfiyyat idarəsinin agenti Şahin Musayev əmr verdi ki, Fəhmin Hacıyev adlı birisi (görünür Azərbaycan MN-nin Baş Qərargahının dağıdılması, onun kəşfiyyat və əks-kəşfiyyatla məşğul olan xüsusi şöbələrinin viran edilməsi elə Rusiya MN-yi, Baş Kəşfiyyat İdarəsinin ssenarisi əsasında qurulmuşdu) Baş Qərargahın səlahiyyətli nümayəndəsi olsun. Ona üstəlik polkovnik rütbəsi də verildi. Nəticədə qondarma polkovnik Fəhmin Hacıyev özünü Ağdama yetirər-yetirməz Prezidentin səlahiyyətli nümayəndəsi, bütün Silahlı Qüvvələrin komandanı kimi elan etdi.

1992-ci ilin fevral ayının 16-da isə Xankəndidə - 366-cı Alayın nəzdində «Gizli erməni cəbhəsi» deyilən bir rota yaradıldı. Bu rotanm da özəyini Livandakı, Amerikadakı, Kanadadakı, İrandakı, İsveçdəki, Türkiyədəki, İtaliyadakı, Hollandiyadakı erməni icmalarını təmsil edən, başlarının üstündən «Böyük Ermənistan» xəritəsi asılmış silahlı erməni birləşmələri təşkil edirdi. Fevral ayının 17-də isə «Şuşanik» adlı qızlardan ibarət snayperçilər dəstəsi həmin cəbhəyə qoşuldu. Yüksək hərbi hazırlıq görmüş, atıcılıq göstəriciləri yüksək olan bu erməni qızları Livandan təşrif gətirmişdilər. Artıq hərbi əməliyyatlar 366-cı motoatıcı Alayın komandanlığına da bəlli idi. Az itki verməklə Xocalını, Xankəndini, Şuşanı işğal etmək, həmin ərazilərdə, «Böyük Ermənistan» strateji planının birinci fazasını tamamlamalı idi.

«Gizli erməni cəbhəsi»nə isə komandanlıq Xaçik Vartanyana tapşırıldı. Bu vaxt 36 məşhur erməni firmasının başçıları (onların arasında silah istehsal edən erməni firmalarının rəhbərləri də var idi) kütləvi şəkildə yardım adı ilə «Gizli erməni cəbhəsi»nə 470 min ABŞ dolları «yardım etdi»lər. Bakıda isə «Yaz», «Yay», «Qış», «Payız» villaları tikilirdi.

Vaxtilə Kanadanın HHQ-də xidmət etmiş, istefaya çıxmış mayor Xaçik Vartanyan Xankəndi ətrafında məskunlaşan erməni cavanlarını «Böyük Ermənistan» proqramına cəlb etdi. Cəbhəyə üzv yazdırdı. Beləliklə, işsiz-gücsüz cavan ermənilər maddi yardımlarla təmin olundular. Hərbi qüvvələrimizin boşluğundan istifadə edən Xaçik Vartanyan Qacar, Veysəlli, Zərislu və Çanaxçı yaşayış məntəqələrində özünün dayaq dəstələrini yaratdı.

1992-ci il fevral ayının 18-də Prezident A.Mütəllibov növbəti strateji səhvini edir. Prezidentin 577 nömrəli Fərmanı ilə Tahir Əliyevə üç müxtəlif hərbi vəzifə icra etməsinə baxmayaraq, Ağdam şəhərinin komendantlığı da tapşırılır. 1992-ci ilin fevral ayının 24-də isə elan olunmuş Fərmana əsasən Tahir Əliyev Respublikanın müdafiə naziri təyin olunur. (Bununla da Xocalının işğal möhürü basılır).

Elə həmin günün axşamı kütləvi informasiya vasitələri belə bir xəbəri yayırlar: «...Şənbə günü Xocalı və Umudluda qızğın döyüşlər olub. Ermənilərin Xanabad, Naxçıvanik, Əsgərandakı strateji obyektləri darmadağın edilib». Ondan bir gün sonra isə fevral ayının 25-də Yerevanda çıxan «Azq» qəzeti yazır: «...Biz dədə-baba torpaqlarımızı işğalçı türklərdən azad etdik. «Böyük Ermənistan» uğrunda birləşənlərə və ölənlərə eşq olsun...» (?).

«General» Rəhim Qazıyev isə ertəsi gün Xocalıdan erməniləri qovduğunu deyirdi (?). Şuşadan Bakıya zəng edən «general» daha dərk etmirdi ki, ermənilər artıq onun on addımlığında dayanıb. Hər şey beləcə yalanların qurbanı olurdu.

1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə (Yanvar ayının 19-dan 20-nə keçən gecəni unutmaym - R.N.) Xocah yaşayış ərazisi işğal olundu. Beynəlxalq miqyaslı erməni icmalarının birgə hazırladıqları «Böyük Ermənistan» planının birinci fazası, hərəkatın birinci bəndi icra olundu. Rusiya, Ukrayna MN-nin hərbi sənaye komplekslərində möhtəşəm yer tutan «T-80» tankının mühərriki, tərkibində kimyəvi silahlara məxsus başlığı olan mərmiləri, avtomat «Kalaşnikov»a məxsus yeni «Dairəvi» güllələr, vərəm və «Sibir yazvası» əleyhinə vaksinlər, «broni-jiletlər» sınaqdan çıxarıldı. Xocalı həm də sınaq poliqonu oldu. Atılan mərmilərdən sonra 6 yaşından 9 yaşınadək uşaqlar, eləcə qan qusur, iflic olub ölürdülər. Zəhərlənmələrə onların ciyərləri tab gətirmir, partlayırdı. Yaşlılar arasında isə bir baş sinir sistemi iflic olurdu, gözlər tutulur, qan damarları sıradan çıxırdı. Qadınlar isə ana südündən məhrum olur, kütləvi şəkildə zəhərlənib tələf olurdular. «Dairəvi» avtomat güllələri isə hədəfə dəyən kimi, o hədəfdə qalmırdı, dövr edib yenidən çölə çıxırdı. Bu güllə heç kəsi sağ buraxmırdı.

«Haydad»ın Fransada çap etdirdikləri «Hesabat»ında isə yazırdılar (müəllifi: A.Akopyan. 1993-cü il Paris). «Biz öz əqidə qardaşlarımızla çiyin-çiyinə «Böyük Ermənistan» uğrunda döyüşə atıldıq. Türklər vaxtilə bizləri qılıncdan keçirtmişdi. Biz isə zəhərdən güllələrdən».

7 mindən artıq azərbaycanlı yaşayan Xocalı şəhəri talan edildi. Və heç vaxt unudulması mümkün olmayan hadisələrdən də biri budur ki, zəhərlənmələrdən sonra həlak olanların hamısı kütləvi şəkildə güllələnib. Bu da 366-cı Alaym komandiri İlya Zarviqarovun məxfi əmri idi.

Dörd yaşayış məntəqəsini (Xocalı, Qaladərəsi, Dərələyəz, Həsənabad kəndlərinin bütöv ərazisi) əhatə edən Xocalı şəhərinin yeddi min silahsız əhalisi məhv edildi. Bu, beynəlxalq erməni terrorizmin ən böyük, qanlı nümunəsi olaraq

qalır. Amma nə etmək ki, həm beynəlxalq məhkəmələr susur, həm Qərb, həmdə Şərq.

## QARADAĞLI QAN İÇİNDƏ

Tarixdə, həmçinin dünyanın siyasi lüğətində «Ermənizm» ifadəsi və yaxud anlayışı yoxdur. Amma fakt və sənədlərin tutuşdurulmasına, araşdırılmasına, törədilən qanlı cinayətlərin nəticələrinə görə «Ermənizm» anlayışı «Faşizm» anlayışının davamıdır. XXI əsr üçün «Ermənizm» xəstəliyi sağalmaz bəla olduğundan bəşəriyyət artıq dərk edəcək ki, nəyin bahasına olursa-olsun, onu islah etsin, yer üzündən silib təmizləsin. «Ermənizm» artıq həm də metastas anlayışıdır. Yandırılan meyitlərin tüstüsünə, kəsilən başların, öldürülən körpələrin, boynu vurulan, qolları, ayaqları kəsilən insanların, gözlərinə mil çəkilən adamların naləsinə, harayına o dirilir, dirçəlir. Amma «Ermənizm» yaddaşlarda qəddarlığın, amansızlığın nişanəsi olaraq qalır.

Xocavənd rayonunun Qaradağlı yaşayış məntəqəsində törədilmiş cinayətin nəticələri haqqında təəssüf ki, dünya susur. Heç kəs danışmaq istəmədi. Amma fakt bu idi ki, Qaradağlı erməni separatçılarından yaradılmış «And» və «Kilsə uğrunda» silahlı birləşmələrin girovuna çevrilmişdi.

2002-ci ilin mayın 16-da Moskva vilayətində yaradılmış erməni icmasının başçısı L.Markaryan Bakıya açdığı telefon zəngində iddia edir ki, bu, müharibədir. «İtirilmiş torpaqlar uğrunda» müharibədir (?). Bu müharibənin öz qanunlan var.

**Telefon danışığı:**

«**Mən:** Sizi məcbur edən nədir ki, Bakıya telefon açırsız?

**L.Markaryan:** Sizin materiallar bizi narahat edir. Axı bilirsiz, bu müharibədir. Müharibənin də öz qanunları var. Məsələn, mən istəməzdim Qaradağlıda, Xocalıda baş verən hadisələri dərindən təhlil edəsiz. Biz işğalçı deyilik (?).

**Mən:** Bəs nəsiz? Kimsiniz?

**L.Markaryan:** Siz çalışırsız ki, biz erməniləri dünyaya işğalçı kimi tanıdasınız.

**Mən:** Dünyada sizin işğalçı kimi tanınmağınız üçün bizə ehtiyac yoxdur. Siz özünüz özünüzü tanıdıbsız. Törətdiyiniz əməllər, işğala və terrora məruz qoyduğunuz Azərbaycan torpaqları sizi artıq işğalçı dövlət kimi tanıdıb. Xudahafiz.

**L.Markaryan:** Dayanın... Alo... Alo... Mənə qulaq asın. Biz bu məsələləri araşdırmaq üçün masa arxasında əyləşə bilərik? Alo... Alo...».

Qaradağlı yaşayış məntəqəsində beynəlxalq hüquq normaları pozulub. İnsanlar erməni terrorunun qurbanına çevrilib, qətllər törədilib.

Yaşayış məntəqəsində insan nəsli tamam sıradan çıxıb. Azərbaycan

millətinin genefonduna tuşlanmış bu qəsd planlarının nəticələri artıq ermənilıri də çaş-baş qoyub. Erməni separatçıları əyləşib söhbətləşmək üçün (?) masa axtarır.

Fikrimizcə, «Ermənizm» anlayışı metodologiyadan artıq ideologiyaya çevrilib. «Ermənizm» Ermənistanda getdikcə formalaşan dövlət siyasətinin tərkib hissəsi kimi fəaliyyət göstərir. Bu gün o, qorxu içindədir.

1992-ci il fevralın 15-dən 16-na keçən gecə viran edilib, yandırıldı. İnsanlar üçün dar ağacları quruldu. Əsir və girovlar diri-diri torpağa basdırıldı. Fevralın 17-də isə kənd yandırıldı. Hamı güllələndi. «Bəylik bağı» deyilən ərazidə 59 nəfər azərbaycanlı qətlə yetirildi.

15-17 fevral 1992-ci il tarixdə Qaradağlı kənd sakinlərindən Rüstəmova Zibər Alıhüseyn qızı (öz evinin həyətində qətlə yetirilmiş və cəsədi də orada qalmışdır), Zeynalov Nobil Əliş oğlu (kənd qəbiristanlığının yanında qətlə yetirilmiş və Ağdam şəhəri «Uzun dərə» Şəhidlə Xiyabanında dəfn edilmiş), Həsənov Altay Məhəmməd oğlu (qəbiristanlığın yanında qətlə yetirilmiş, «Uzun dərə» Şəhidlər Xiyabanında dəfn edilmiş), Hüseynov Xanalı Həbib oğlu (qəbiristanlığın yanında qətlə yetirilmiş, «Uzun dərə» Şəhidlər Xiyabanında dəfn edilmiş), Bayramov Rəşid Həşim oğlu (çayın qırağında qətlə yetirilmiş və cəsədi də orada qalmışdır), Hüseynov Əsgər Səməd oğlu (həyətində qətlə yetirilmiş, «Uzun dərə» Şəhidlər Xiyabanında dəfn edilmiş), Bayramov Arif İbrahim oğlu (Qaradağlı kəndindəki N.Nərimanov adına kolxozun inzibati idarə binasının yanında qətlə yetirilib, «Uzun dərə» Şəhidlər Xiyabanında dəfn edilmiş), Dadaşov Manaf İslam oğlu (idarənin yanında qətlə yetirilmiş, «Uzun dərə» Şəhidlər Xiyabanında dəfn edilmiş), Kərimov Əliqismət Qara oğlu (idarənin yanında qətlə yetirilmiş, «Uzun dərə» Şəhidlər Xiyabanında dəfn edilmiş), Hüseynov Şahmurad Alıhüseyn oğlu (kənddəki pirin yanında qətlə yetirilmiş, «Uzun dərə» Şəhidlər Xiyabanında dəfn edilmiş), Dadaşov Eldar İsa oğlu (kənddə pirin yanında qətlə yetirilmiş, «Uzun dərə» Şəhidlər Xiyabanında dəfn edilmiş), Hüseynov İbiş Həbib oğlu (kəndin 2 km-liyindəki «Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cəsədi oradakı silos (mal-qaranın qış qidası) quyusunda qalmışdır), Hüseynov Niftalı Bakir oğlu («Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cəsədi oradakı silos quyusunda qalmışdır), Quliyev Nəbi Mütalif oğlu («Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cəsədi oradakı silos quyusunda qalmışdır), Əliyev Xaliq Məhərrəm oğlu («Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cəsədi oradakı silos quyusunda qalmışdır), Dadaşov Uğur Eldar oğlu («Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cəsədi oradakı silos quyusunda qalmışdır), Abbasov Sərvər İldırım oğlu («Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cəsədi oradakı silos quyusunda qalmışdır), Mustafayev Qərib Həsrət oğlu («Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cəsədi oradakı silos quyusunda qalmışdır), Əzizov Alov Əfqar oğlu («Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cəsədi oradakı silos quyusunda qalmışdır), Nağıyev Aftandil Xanlar oğlu («Bəylik bağı» adlanan

ərazidə qətlə yetirilmiş, cəsədi oradakı silos quyusunda qalmışdır), Əliyev Zahid Zeynal oğlu («Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cəsədi oradakı silos quyusunda qalmışdır), Məmmədov Ədalət Şahmar oğlu («Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cəsədi oradakı silos quyusunda qalmışdır), Məmmədov Məmməd Əmirxan oğlu («Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cəsədi oradakı silos quyusunda qalmışdır), Rəhimov Məhi Surxay oğlu («Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cəsədi oradakı silos quyusunda qalmışdır), Kazımov Nəsimi Kazım oğlu («Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cəsədi oradakı silos quyusunda qalmışdır), Məmmədov Ərastan Ağalar oğlu («Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cəsədi oradakı silos quyusunda qalmışdır), Tağıyev Zakir Gülüm oğlu («Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cəsədi oradakı silos quyusunda qalmışdır), Tağıyev Telman Tevon oğlu («Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cəsədi oradakı silos quyusunda qalmışdır), Dolxanov Rəhim Möhkəmə oğlu («Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cəsədi oradakı silos quyusunda qalmışdır), Tağıyev Fayaq Həsrət oğlu («Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cəsədi oradakı silos quyusunda qalmışdır), Hüseynov Nahid Adil oğlu («Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cəsədi oradakı silos quyusunda qalmışdır), Əzizov Atəş Əfqar oğlu («Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, «Uzun dərə» Şəhidlər Xiyabanında dəfn edilmişdir), Hüseynov Fehruz Mahmud oğlu («Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, «Uzun dərə» Şəhidlər Xiyabanında dəfn edilmişdir), Vəliyev Mobil Mürsəl oğlu («Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, «Uzun dərə» Şəhidlər Xiyabanında dəfn edilmişdir), Mustafayev Talıb Yaqub oğlu («Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, Dünyamalılarda dəfn edilmişdir), Quliyev Mirzəli Müslət oğlu («Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, «Uzun dərə» Şəhidlər Xiyabanında dəfn edilmişdir), Hüseynov Fədail Zülfüqar oğlu («Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, «Uzun dərə» Şəhidlər Xiyabanında dəfn edilmişdir), Hüseynov Dəmir Musa oğlu («Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, «Uzun dərə» Şəhidlər Xiyabanında dəfn edilmişdir), Dadaşov Mikayıl İslam oğlu (Xankəndidə qətlə yetirilmiş və cəsədi də orada qalmışdır), Axundov Hafiz Elmaz oğlu (Xankəndidə qətlə yetirilmiş və cəsədi də orada qalmışdır), Əliyev Vətən Əmirxan oğlu (Xankəndidə qətlə yetirilmiş və cəsədi də orada qalmışdır), Vəliyev Füzuli Cavad oğlu (Xankəndidə qətlə yetirilmiş və cəsədi də orada qalmışdır), Hüseynov Əbülfət Mehman oğlu (Xankəndidə qətlə yetirilmiş və cəsədi də orada qalmışdır), Xəlilov Zahid Əyyub oğlu (Ningi erməni kəndində qətlə yetirilmiş, «Uzun dərə» Şəhidlər Xiyabanında dəfn olunmuş), Hüseynov Həbib Həmzə oğlu (Ningi erməni kəndində qətlə yetirilmiş, Ağdam Şəhidlər Xiyabanında dəfn edilmiş), Bayramov Elmidar Rəşid oğlu (Ningi erməni kəndində qətlə yetirilmiş və cəsədi orada qalmışdır), Quliyev Kamal Bəylər oğlu (Xankəndi türməsində qətlə yetirilmiş, Ağcabədi qəbiristanlığında dəfn edilmiş), Quliyev

Əlaslan Nəriman oğlu (Xankəndi türməsində qətlə yetirilmiş, «Uzun dərə» Şəhidlər Xiyabanında dəfn edilmiş), Vəliyev Fazil Cavad oğlu (Xankəndi türməsində qətlə yetirilmiş, «Uzun dərə» Şəhidlər Xiyabanında dəfn edilmiş), Hüseynov İmran Əhməd oğlu (Xankəndi türməsində qətlə yetirilmiş, Beyləqan r-n Peyğəmbər ziyarətgahında dəfn edilmiş), Nazarov Şura İbad oğlu (Xankəndi türməsində qətlə yetirilmiş, «Uzun dərə» Şəhidlər Xiyabanında dəfn edilmiş), Hüseynov Şura Hüseynalı oğlu (Xankəndi türməsində qətlə yetirilmiş, «Uzun dərə» Şəhidlər Xiyabanında dəfn edilmiş), Şirinov Böyükkişi Ləb oğlu (Xankəndi türməsində qətlə yetirilmiş, Beyləqan Peyğəmbər ziyarətgahında dəfn edilmiş), Tağıyev Kamil Sərdar oğlu (Xankəndi türməsində qətlə yetirilmiş, Beyləqan Peyğəmbər ziyarətgahında dəfn edilmiş), eləcə də xüsusi dəstə üzvlərindən Quliyev Heydər Qurban oğlu («Bəylik bağı»nda qətlə yetirilmiş, cəsədi orada qalmışdır), Həsənov Xəyal Zeynal oğlu («Bəylik bağı»nda qətlə yetirilmiş, cəsədi orada qalmışdır), Rüstəmov Azad Həsənqulu oğlu («Bəylik bağı»nda qətlə yetirilmiş, cəsədi orada qalmışdır), Arazov Eldar Kamal oğlu (kolxozun inzibati binasında qətlə yetirilmiş, Bakı şəhəri Şəhidlər Xiyabanında dəfh edilmiş), Əlişov Həsən Sədaqət oğlu («Bəylik bağı»nda qətlə yetirilmiş, cəsədi orada qalmışdır), Abdullayev Abdulla Habil oğlu («Bəylik bağı»nda qətlə yetirilmiş, cəsədi orada qalmışdır), Mahmudov Akif Məhəmməd oğlu («Bəylik bağı»nda qətlə yetirilmiş, cəsədi orada qalmışdır), Mirzəyev Məhəmməd Hüseyn oğlu («Bəylik bağı»nda qətlə yetirilmiş, cəsədi orada qalmışdır), Hacıyev İbrahim Çərkəz oğlu (Xankəndi həbsxanasında qətlə yetirilmiş, cəsədi orada qalmışdır), Mustafayev Malik İslam oğlu («Bəylik bağı»nda qətlə yetirilmiş, cəsədi orada qalmışdır), Əmrahov Nasir Nurəddin oğlu (Xankəndi həbsxanasında qətlə yetirilmiş, cəsədi orada qalmışdır), Abbasov Ayaz Əkbər oğlu (Xankəndi həbsxanasında qətlə yetirilmiş, cəsədi orada qalmışdır) və Kərimov Firdovsi Azay oğlu («Bəylik bağı»nda qətlə yetirilmiş, cəsədi orada qalmışdır) ermənilər tərəfindən qətlə yetirilmişdir.

Aparılmış istintaq zamanı, eləcə də, Hüseynov Xandəmir Qədir oğlu (Qaradağlı qəbiristanlığı), Bayramov Soltan Rəşid oğlu (Qaradağlı qəbiristanlığı), Quliyev Ələkbər Məmməd oğlu (Qaradağlı qəbiristanlığı), Hüseynov Zülfüqar Dəmir oğlu (Qaradağlı qəbiristanlığı), Hüseynova Məxmər Məcid qızı (Qaradağlı qəbiristanlığı), Əliyeva Səbiqə Mürsəl qızı (Qaradağlı qəbiristanlığı), Məmmədov Təhid Cəlil oğlu (Qaradağlı qəbiristanlığı), Tağıyev Bakir Qaçay oğlu (Qaradağlı qəbiristanlığı), Şirinov İltifat Əjdər oğlu (Qaradağlı qəbiristanlığı), Şirinova Qaragöz Həbil qızı (Qaradağlı qəbiristanlığı), Babayeva Validə Həmid qızı (Qaradağlı qəbiristanlığı), Quliyeva Nazənin Rəşid qızı (Qaradağlı qəbiristanlığı), Quliyev Əloğlan Əlaslan oğlu (Qaradağlı qəbiristanlığı), Hüseynova Gülzəndə Bakir qızı (Qaradağlı qəbiristanlığı), Hüseynova Qənirə Həmid qızı (Qaradağlı qəbiristanlığı), Hüseynova Rahib Şahmar qızı (Qaradağlı qəbiristanlığı), Hüseynova Rəxşəndə Bayram qızı (Qaradağlı qəbiristanlığı), Quliyev Gündüz

Əlqəmə oğlu (Qaradağlı qəbiristanlığı), Quliyev Qasım Hüseyn oğlu (Dünyamalılar qəbiristanlığı), Tağıyev Elsevər Teyyub oğlu (Qaradağlı qəbiristanlığı), Süleymanov Elçin Möhübbət oğlu (Yevlax qəbiristanlığı), Kazımov Səlim Kazım oğlu (Mahrızlı qəbiristanlığı), Əzizov İltifat Yelmar oğlu (Sabunçu qəbiristanlığı) və Məmmədova Sürəyya Cavad qızı (cəsədi meşədə qalıb) 14-17 fevral 1992-ci il tarixdəki Xocavənd rayon Qaradağlı kənd faciəsindən əvvəlki və sonrakı illərdə Ermənistan silahlı dəstələri tərəfindən şəhid olmaları müəyyən edilmişdir.

## YANDIRILMIŞ MEYİTLƏRİN KÜLÜNÜ BMT-YƏ GÖNDƏRMƏK İSTƏYİ

Alman tədqiqatçısı Albert Şneyder Ermənistanın Azərbaycandan etdiyi ərazi iddialarına, separatçı rejimin Qarabağ torpaqlarında törətdikləri cinayətlərə işarə edərək yazır: «...Mən baxdığım filmlərə, oxuduğum kitab və sənədlərə həmişə hörmətlə yanaşmağa çalışmışam. Çünki bütün bunlarda bir insan ömrünün izi var. O yerdəki bəziləri öz yazdıqları və yaxud çəkdikləri əsərlərlə aldatmağa çalışır, o yerdə mən deyirəm: - məni aldatdın, bəs tarix necə olsun? Tarixi aldatmaq mümkündürmü?.. Qarabağdan həmişə azərbaycanlı ətri gəlib. Məni heç kəs aldatmasın» (Bax: A.Şneyder: «Воспоминание...». M., «Наука», 2000. c. 81).

Amma bir parça torpaq həmişə hiylə və məkrin tələsində çırpınıb. 1992-ci il fevral ayının 15-dən 16-na keçən gecə həmişə dumanlı və çisginli Qaradağlı kəndi erməni silahlı birləşmələri tərəfindən mühasirəyə alınır. 119 nəfər mühasirəyə düşür.

O gün heç kəs əsir və girova çevrilmək istəmədi. Qaradağlılar bəlkə də dünyanın yeni tarixində öz torpaqları və yurd yerləri uğrunda vuruşan, döyüşlərdə igidlik göstərərək, şəhid olan ən qüdrətli insanlardan biri olaraq hələ çox tədqiq olunacaq.

Hadisələri müşahidə edən iran ermənisi Maqsud Mehriyan yazır: «...Azərbaycan torpaqlarında müharibə idi. Bu müharibə planlarında mən iştirak etmirdim. Qoy bunu tarixçilər, siyasətçilər araşdırsınlar. Mən ədəbiyyatçıyam. Mənşəcə də erməniyəm. Azərbaycanlılar vuruşurdular. Onlar vuruşduqca onlardakı cəsarət və hünərə həsəd aparırdım. Mən ölən, qan içində boğulan azərbaycanlıları gördükcə, qorxurdum. Qan içindən çıxan, qan içindən dirilib gələn azərbaycanlıdan qorxurdum. Nəticədə Qaradağlını tərk etdim. Bir daha o yerlərə getməyəcəyimə söz verdim...» (Bax: M.Mehriyan: «Ermənilər». İsfahan, 1999, səh. 33).

**Axundov Əmir Qoşunəli oğlu:** (Qaradağlı qırğınlarının şahidi): «Ermənilər kəndimizin fermasına hücum etdilər. Bəkir Qaçay oğlu Tağıyevi, Tohid Cəlil oğlu Məmmədovu, Məxmər Məcid qızı Hüseynovanı, Səbiğə Mürsəl qızı Hüseynovanı, Qaragöz Nəbi qızı Şirinovanı, İltifat Əjdər oğlu Şirinovu diri-

diri yandırdılar» (Bax: Azərbaycan Respublikası Hərbi Prokurorluğu. 80377 saylı qovluq).

Araşdırmalarımıza görə, bu kadrlar - zorakılıqla ermənilər tərəfindən öldürülmüş meyitlərin yandırılmasını təsvir edən kadrlar həm Fransanın, həm Kanadanın, həm də ABŞ-ın erməni icmalarında nümayişə çıxarıldı. Milliyyətcə erməni olan Armen Akopoviç Ohanyan Parisdə baxdığı bu kadrlardan sonra erməniliyini dandı. 1992-ci il fevralın 22-də Qaradağlıdan çəkilən kadrlar Türkiyənin TQRT telekanalında nümayiş etdirildi. Fransa vətəndaşı olan Armen Akopoviç Ohanyan verdiyi müsahibədə qeyd edir: «...Mən özümə nifrət etməyə başladım. Təəssüf edirəm ki, erməniyəm. Bunun üçün əzab çəkirəm...» (Bax: Türkiyənin TQRT telekanalında 1992-ci il fevralın 22-də, saat 24-də ekrana çıxarılan verilişdən).

Məlumata görə, ümumən MDB məkanında baş verən qarşıdurmalarda, müharibə və milli zəmində törədilən cinayətlərdə ilk meyit alverini edənlər də ermənilər oldu.

Qaradağlıda qətlə yetirilmiş azərbaycanlı Xəyal Həbib oğlu Hüseynovun meyiti erməni zabiti Sirac Siracyan tərəfindən «bazara» çıxarılır. (Nəticədə 1994-1995-ci illərdə işğal olunmuş Azərbaycan torpaqları boyunca 14 məntəqədə ermənilərdən ibarət meyit alveri ilə məşğul olan qrupun fəaliyyəti qeyd olunur. Bu qruplara da Ermənistan Hərbi Prokurorluğunun şöbə müdiri, polkovnik Erik Saakoviç Qriqoryan başçılıq edirdi.)

Bu, təhqir idi. Azərbaycanlı təhqir olunurdu. Torpaqları işğal olunmuş, ocaqları viran edilmiş azərbaycanlı üçün bundan böyük təhqir yox idi. Həm Prezident Aparatı, həm Nazirlər Kabineti, güc srukturları susurdu. Ali Baş Komandan Ayaz Mütəllibov kimin yandırıldığından, kimin satıldığından xəbərsiz idi. Bakıda Qan içində boğulan Qaradağlını unutmuşdular. Əslində Qaradağlı şəhid olmuşdu.

Prezident Aparatının qarşısında dərdini demək üçün gələn Murad İmam oğlu Quliyev isə haray çəkirdi.

- Açın qapını, cənab Prezident, açın. Sizə Qaradağlıda yandırılmış qardaşımın, bacımın külünü gətirmişəm. Baxın... Qaradağlı yanır...

Prezident Aparatından heç kim çıxmadı. Səsə səs verən olmadı. Sonra Qaradağlıdan gələn Murad kişi iddia etdi ki, ona imkan versinlər, ona yardım etsinlər ki, gətirdiyi külü Birləşmiş Millətlər Təşkilatına göndərsin.

Amma ona «dəli» deyib, qapıdan qovdular. Heç kəs onu dərk etmək istəmədi. Qaradağlı od içində çırpınırdı. Bakı da susurdu, Ali Baş Komandan da (Bütün bu hadisələrin şahidi idim. Çünki Murad kişini qarşılayan elə özüm olmuşdum.)

O vaxt içimdən bir ağrı keçirdi. Yandırılmış meyitlər haqqında dünyaya səs çatmadı. Səsimiz sərhəddən o yana keçə bilmədi. Amma keçməli idi. Qaradağlıda

yandırılmış onlarla günahsız, əli silahsız insanların külü BMT-yə səpilməli idi. Bu mümkün idi. Dünyanı ayıltmaq üçün, yatan başlan diriltmək üçün bu lazım idi. Hələ də ermənilərlə qardaş olacağımıza ümid edənlər (?) bu cəsarətə çəpər çəkdilər. Amma yaddan çıxarıldı ki, bizim od içindən cücərən, qalxıb boy verən cəsarətimiz var...

* * *

**O.Q. Adamyan (erməni tarixçisi):**

"...Bizim tarixdə işğalçı millət kimi yaşamağa haqqımız yoxdur. Biz özgə torpaqlarını işğal etmişik..." (Bax: O.Q.Adamyan: "Dünua ermənilərinin tarixi". İraq "Əl-Fikr, əl-Cədid" qəzetinin nəşriyyatı. 1999. s. 72.

## «ÇÖL QUŞLARI» - MUZDLU SNAYPERÇİLƏR

Araşdırmalarımıza görə erməni separatçıların Cənubi Amerika əyalətlərindən dəvət olunmuş muzdlu qrupları Qarabağ ərazəsində bir-birindən fərqli amansız qətllər törədib. Məsələn, 1990-cı il aprelin 24-dən 1991-ci ilin aprelin 24-dək nəşr olunan «Berd xəbərləri» qəzetinin (Kanada) hərbi müxbiri istefada olan mayor Suren Vartanyan yazdığı xəbərdə qeyd edir: «...Berddəki 01261 saylı hərbi qrup artıq hazır idi ki, Dağlıq Qarabağa yola düşsün. Bu azadlıq mücahidlərinə (?) Argentinadan gələn qızlar da qoşulmuşdu. Bu snayperçi qızların hamısı muzdla tutulmuşdu. Onlar hara gəldiklərini, nə üçün vuruşduqlarını anlamırdılar. Onlar din uğrunda, kilsələrin azadlığı uğrunda vuruşmaq üçün gəlmişdilər. Bu qızların maliyyə xərcləri Kanadada öz işini quran «Erməni Mərkəzi»nə aid idi (?). Onlar yaxşı vuruşurdular. Mən onların Əsgəranda, Meşəli ərazisindəki döyüşlərinin şahidi oldum. Mən bütün bunlar haqqında əlavə olaraq Axalkalakidəki «Ermənilərin birlik konfransı»nda məlumat verdim...» (Bax: Gürcüstan. «Cavaxeti xəbərləri» qəzeti. S.Vartanyan. 1991-ci il, 16 oktyabr).

Meşəli kəndinə basqın edən bu vəhşi qrup heç kəsə aman vermədi. Məlumata görə Meşəlidə snayperlərini işə salan bu «Çöl quşları» (qrup özünə ad qoymuşdu) 25 nəfərin qətlinə fərman verdi:

1. 1927-ci ildə anadan olmuş Nurməmmədov Hüseyn Rza oğlu; 2. 1936-cı ildə anadan olmuş Nurməmmədova Pakizə İslam qızı; 3. 1967-ci ildə anadan olmuş İbadullayev Nadir Nəbi oğlu; 4. 1964-cü ildə anadan olmuş Mehralıyev Əli Mürsəl oğlu; 5. 1937-ci ildə anadan olmuş Novruzov Novruz Məhərrəm oğlu; 6. 1937-ci ildə anadan olmuş Novruzova Adilə Məhərrəm qızı; 7. 1971-ci ildə anadan olmuş Novruzov Allahverdi Novruz oğlu; 8. 1977-ci ildə anadan olmuş Novruzova Rübabə Novruz qızı; 9. 1975-ci ildə anadan olmuş Novruzova Rahilə Novruz qızı; 10. 1936-cı ildə anadan olmuş Quliyev Qənimət Əli oğlu; 11. 1969-cu ildə anadan olmuş Quliyeva Ruba Nağı qızı; 12. 1969-cu ildə anadan olmuş Quliyev İsmayıl Qənimət oğlu; 13. 1963-cü ildə anadan olmuş Quliyev Mətləb Qənimət oğlu; 14.

1937-ci ildə anadan olmuş Hümbətov Bəhlul Müseyib oğlu; 15. 1938-ci ildə anadan olmuş Kazımov Xəlil Mahmud oğlu; 16. 1977-ci ildə anadan olmuş Allahverdiyev Vidadi Müsül oğlu; 17. 1925-ci ildə anadan olmuş Qasımov Ənvər Bahadur oğlu; 18. 1936-cı ildə anadan olmuş Mahmudova Sürəyya Alış qızı; 19. 1929-cu ildə anadan olmuş Sadıqov Əvəz Alış oğlu; 20. 1937-ci ildə anadan olmuş Sadıqova Qönçə Məmmədbağır qızı; 21. 1970-ci ildə anadan olmuş Rüstəmov Hidayət Eldar oğlu; 22. 1969-cu ildə anadan olmuş Ağayev Faiq Alış oğlu; 23. 1961-ci ildə anadan olmuş Əzimov Tahir Eyyub oğlu; 24. 1964-cü ildə anadan olmuş Mehralıyev Əli Şükür oğlu; 25. 1940-cı ildə anadan olmuş Orucov Miryusif Kərim oğlu; eləcə də, Milli Ordunun əskərləri olan Kamil və Musa adlı şəxslər xüsusi amansızlıqla öldürüldü.

Araşdırma materiallarına görə, muzdlu snayperçilərə vasitəçi və yaxud bələtçi olaraq insanların güllələnməsində iştirak edən ermənilərdən - Əsgəran rayonu, Badara kənd sakinləri Ernest Baxşiyeviç Sərkisyan, Armais Baxşiyeviç Sərkisyan, Benik Aslanoviç Kasparyan bu gün beynəlxalq axtarışdadır. Başqa bir məlumatda bildirilir ki, Armais Sərkisyan Kanada parlamentində çalışır (?).

* * *

“**Müxbir:**

- Cənab Xaçikyan, sizin Dağlıq Qarabağda gedən proseslərə münasibətinizi bilmək istərdik.

D. Xaçikyan (Suriya HHQ-nin polkovniki):

- O torpaqlar Azərbaycana məxsusdur. Ermənilər o torpaqlardan çıxmalı, mehriban qonşuluq şəraiti üçün düşünməlidirlər”. (Bax: Suriya (Dəməşq), "Əs-Saura" qəzeti, 2001.VI.21

## AVROPA ŞURASINA MƏKTUB: «DAĞLIQ QARABAĞ İŞĞAL OLUNDU»

Beynəlxalq qurumların rəsmi sənədlərindən aydın olur ki, Ermənistan rəsmiləri artıq «işğalçı» sözündən qorxuya düşüblər. Bu gün onlar nəyin bahasına olursa-olsun çalışırlar ki, «Dağlıq Qarabağ və Azərbaycanın işğal edilmiş digər əraziləri» ifadəsini və yaxud söz birləşməsini AŞ-ın, ATƏT-in, BMT-nin, AB-nin, NATO-nun eləcə də digər xarici siyasətlə, beynəlxalq hüquq normaları ilə məşğul olan qurumların rəsmi sənədlərindən çıxartsınlar. Məsələn, AŞ-da erməni deputat korpusunun başçısı Tiqran Torasyan «A1+» informasiya agentliyinə açıqlamasında iddia edirki, bu, onların «milli məsələsi»dir. Ermənistanın Milli Strateji Araşdırmalar Mərkəzinin eksperti Stepan Safaryan «Tareqir» elektron qəzetinə verdiyi müsahibədə isə bütün bunları ölkəsinin xarici siyasətinin ən böyük məğlubiyyətlərindən biri hesab edir. O deyir: «...Bizim diplomatiya Dağlıq Qarabağ məsələsində bütün çərçivəni itirib. Ermənilər bu istiqamətdə xarici

siyasətlərində məğlubiyyətə uğradılar». (Bax: «Tareqir». Ermənistan, 2004, 24 yanvar).

Azərbaycan torpaqlarının erməni separatçılar tərəfindən işğala və terrora məruz qalması, ola bilsin, çoxları üçün dərk olunmayan həqiqətdir. Dərk olunmayan həqiqət isə həmişə dərdə çevrilir. Necə ki, bu həqiqət erməni siyasətçisi T.Torasyan üçün dərdə çevrilib.

Ermənilərin işğalçılıq siyasətini isə heç bir yüzillik unuda bilməz. Torpaqlarımız işğal olunub.

* * *

Araşdırma materiallarına görə, Dağlıq Qarabağın işğalında bombalanmasında, yaşayış yerlərinin viran qoyulmasında Tsxinvali və Telavi (Gürcüstan) vertolyot bazaları da yaxından iştirak edib. Zaqafqaziya Hərbi Dairəsinin generalı Valeri Pasrikyevin 1992-ci il noyabrın 2-də imzaladığı sərəncama əsasən, Telavidə hərbi vertolyotları idarə edəcək milliyyətcə erməni olan 16 pilot hazırlandı. Məlumata görə, pilot kurslarının maliyyə xərcləri Ermənistan Milli Azadlıq Hərəkatının Krasnodarda qeyri-leqal fəaliyyət göstərən «Sevan» şöbəsi (Adler yaşayış ərazisi. Adler küçəsi 93.) tərəfindən ödənilib. Şöbə müdiri, «Doktor» ləqəbli Frunze Həzaryan qəribə məlumat verir: «...Kursa qəbul olunmuş ermənilərə əvvəlcədən elan edilmişdi ki, onlar «Böyük Ermənistan» uğrunda vuruşacaqlar. 1992-ci il yanvarın 9-da isə Beyrutda yaşayan Rafiq Aqabekoviç Qraynyan (o, Livana 1988-ci ildə mühacirət edib) da pilotlar hazırlayan kursda müəllim kimi işə başlayır. 32 yaşlı, milliyyətcə ərəb olan, «Həmas» təşkilatından qovulmuş Zahid Əl-Məhəmməd (Nahiz) adlı birisi də kursda göründü. O, erməni dilində çətinliklə danışsa da, məhəbbət və ehtiramını əsirgəmirdi. Ona 45 nömrəli vertolyot həvalə edildi. Biz artıq döyüşə hazır idik». (Adler. «Sevane» bülleteni. 19 yanvar 1992).

1992-ci il fevralın 12-də və 16-da Rusiya Prezidenti B.N.Yeltsin Telavi vertolyot bazasında kursu bitirmiş erməni pilotlarına yeni və dəqiq hərbi uçuşa malik olan «Mİ-24P» markalı vertolyotların verilməsi haqqında (7-ci ordunun Baş komandanı) general-mayor Reuta göstəriş verir (Telavi. «Eskadrilya» qəzeti. 1992-ci il 20 fevral. № 8). Polkovnik Leonid Kapralovun başçılığı ilə iki «Mİ-8» vertolyotu Gəncə vertolyot zavodunda təmirə göndərilir. Xocalı istiqamətində hərbi hazırlığın təməli belə qoyulurdu.

Dağlıq Qarabağ istiqamətində döyüşə hazır vəziyyətdə dayanmış vertolyotlar üçün Bakıdan 200 ton yanacaq da alınmışdı (!). Polkovnik Raqib Mühəmmədcanov yanacağın bölünməsi və döyüş vertolyotları arasında paylanması məsələlərinə nəzarət üçün ayrıldı. Daha doğrusu, Zaqafqaziya Hərbi Dairəsinin Baş Qərargahından ezam olundu.

1992-ci il fevralın 17-də Telavi hərbi bazasında ermənilərlə görüşən yazıçı-daşnaq Zori Balayan özünün «Ocaq» kitabını vərəqləyir və döyüşmək üçün

silahlanmış ermənilərə başa salır ki, kim «Böyük Ermənistan» uğrunda vuruşursa, o, tarix yaradır - millətin və nəslin tarixini.

1992-ci il fevralın 19-da isə general Reutun Moskvadan aldığı 17 fevral tarixli, general A.N.Kovalyovun imzaladığı «201/4 AK» nömrəli sərəncama əsasən, 16 erməni üçün 9 müxtəlif markalı (əsasən «Mİ-24P») hərbi vertolyot ayrıldı. Fevralın 22-də isə vertolyot eskadrilyası 366-cı Alayın tərkibinə keçirildi (vahid komandanlıq üçün).

Beləliklə, 1992-ci il fevralın 25-də Dağlıq Qarabağ səmasında hərbi planlarını quran vertolyot eskadrilyasının siyahısı belədir:

- 39 nömrəli vertolyot. Pilot: Qalaqçiyan Romb Arutunoviç (Livan ermənisi. İxtisasca inşaatçı);
- 40 nömrəli vertolyot. Pilot: Razdan Alekseyeviç Minoyan (Suriya ermənisi. İxtisasca mühəndis);
- 29 nömrəli vertolyot. Pilot: Zahid Əl-Məhəmməd (Livan müsəlmanı «Həmas» təşkilatı);
- 17 nömrəli vertolyot. Pilot: Ararat Qrekoviç Saracyan (Yerevan. Hərbçi);
- 45 nömrəli vertolyot. Pilot: Pirimyan Suren Alekseyeviç (Yerevan. Polis işçisi).

Bu, ancaq Xocalı rayon ərazisinə havadan zərbələr endirən vertolyotların siyahısıdır. O da məlum oldu ki, fevralın 25-i saat 16:00-dan gecə 00:00-dək Xocalıya bu vertolyotlardan 89 raket atılıb.

Xocalı istiqamətində raket buraxan ilk vertolyot 29 nömrəli olub (Mühəmmədcanovun İ.Zarviqarova raportu. 28 fevral 1992-ci il. Arxiv ZakVO. Qovluq № 467).

«Hərbi pilotlar arasında maaşlar da bölünmüşdü. Məsələn, Livan müsəlmanı Zahid Əl-Məhəmmədə 4.450 ABŞ dollar aylıq əmək haqqı ayrılmışdı. «Müsəlman qardaşımız» Xocalı ərazisinə atdığı hər bir raket üçün 280 ABŞ dolları məbləğində mükafatlandırılırdı».

Həmin ilin həmin günündə döyüşdə fəallıq göstərdiklərinə görə, Zahid Əl-Məhəmmədə və Suren Alekseyeviç Pirimyana «Qızıl xaç» ordeni verildi. Martın 3-də isə 29 nömrəli vertolyotun pilot salonunda yanğın baş verir və Zahid Əl-Məhəmməd həlak olur. Müdafiə naziri Serj Sarkisyanın göstərişi ilə onun cəsədi Yerevana gətirilir, Erablur hərbi qəbiristanlığında basdırılır.

Bu, Dağlıq Qarabağ səmasında «vurnuxan», Xocalını viran qoyan bir pilotun taleyi.

Fevralın 25-i saat 19:15-də vertolyotlar Zaqafqaziya Hərbi Dairəsində start götürdü və Xocalıya vertolyot hücumu başladı. General-leytenant Yuri Qrekovun məlumatında göstərilir ki, Xocalı ərazisi Azərbaycan «boevikləri»ndən təmizləndi və bunun üçün «Qrad», «Uraqan» raketlərindən də istifadə edildi. Xocalı istiqamətində bu raketlərin 39-u atıldı. Həmin ərəfədə Ermənistandan Kremlə,

B.N.Yeltsinin adına belə bir qızışdırıcı teleqram vurulur: «...Президенту Б.Н.Ельцину. Высокопоставленный сотрудник службы безопасности республики, утверждает, что в последние дни отмечается большая концентрация турецких войск вдоль всей границы Турции с Арменией. По его словам, 3-я полевая армия Турции, состоящая из 4 полных дивизий и 7 отдельных бригад, развернута до штатов военного времени, в том числе и ее полевые штабы. Армия приведена в боевую готовность, что не наблюдалось со времен второй мировой войны...» (general O.Sarkisyan, polkovnik Ter-Qriqoryan. 25 fevral 1992-ci il).

Həmin teleqram bilavasitə B.N.Yeltsinin özünün başçılıq etdiyi Təhlükəsizlik Şurasının fevralın 26-da Kremldə keçirilən iclası üçün hazırlandı. İclasa Ermənistan prezidentinin təhlükəsizlik məsələləri üzrə müşaviri Aşot Manuçaryan da dəvət olundu. A.Manuçaryan həmin müşavirədə belə bir fikir vurğuladı: «...В ближайшее время Турция по просьбе Азербайджана может прийти ему на помощь в решении Карабахского конфликта. Сделать это возможно, не нарушая границ с Арменией, только через 9-километровый участок ее общей границы с азербайджанской Нахичеванью. А дальше не исключается возможность прорыва через территорию Армении» (26 fevral, 1992-ci il RF BQ-nin arxiv sənədi: US-11, səh. 9)

Fakt və araşdırmalarımızın məntiqi nəticəsi bunu da göstərir ki, 1992-ci ildə MN-nə tabe olan hərbi kəşfiyyat və hərbi əks-kəşfiyyat xidmətlərinin işi yarıtmaz təşkil edilmişdi. Kəşfiyyat mərkəzləri iflic olmuşdu. Kadrların təyini məsələsində dostbazlıq, yarınmaq və yaltaqlıq əsas meyar idi. İş o yerə çatmışdı ki, mənzil-istismar idarəsinin sıravi işçisinə birbaşa mayor hərbi rütbəsi verilir, şöbəyə bölmə müdiri kimi qəbul olımurdu. Yaxud, həbsdən yenicə çıxan adamlar hərbi kəşfiyyata daxil olurdular.

Ermənistan Müdafiə Nazirliyinin hərbi kəşfiyyat xidmətinin təlimatçı-müşavirlərinin bir qismi Fransadan gəlmişdi. Yəni, bu adamlar vaxtilə ayrı-ayrı illərdə Fransa SQ-də təhlükəsizlik və kəşfiyyat işləri ilə məşğul olmuşdular. Bu gün Xankəndidə «Böyük Ermənistan» xəritəsi önündə gəzinib, düşünən qondarma «DQR»-in hərbi əks-kəşfiyyat xidmətinin özünün («Qaracanyan proqramı») xüsusi strateji proqramı var. Proqramın tərtibçiləri 2001-ci ilin avqustunda DQ-nin terrorçu lideri A.Qukasyana «Goranboyla bağlı xüsusi hərbi-kəşfiyyat proqramı»nı müzakirə üçün təqdim edib. 6 noyabr 2001-ci ildə «Röyter» agentliyinə verdiyi müsahibədə polkovnik Matevos Matevosyan maraqlı və ciddi bir məsələyə toxunur: «Bizim qurum (yəni, əks-kəşfiyyat xidməti) Şaumyan rayonu ərazisində (Goranboy), eləcə də ona yaxın ərazilərdə gedən ictimai-siyasi prosesləri, hərbi durumu, əsgərlərin psixoloji məqamlarını yaxşı bilir. Hətta gələcəkdə Şaumyan rayonunda işləmələri nəzərdə tutulan şəxsləri də tanıyır. Onlar haqqında ilkin məlumatlar. verilib. Rayonu idarə edəcək qurumun inzibati binası, orada

çalışacaqları nəzərdə tutulan adamlar da müəyyənləşib. Biz heç bir hüquq normalarını pozmuruq. Əksinə, «Böyük Ermənistan»ın qoparılmış tikələrini bir yerə yığırıq...».

## İNKAR OLUNMAZ FAKT

Sağ qalan xocalılara ilk humanitar yardım «Beynəlxalq xristian əməkdaşlığı» təşkilatı tərəfindən edildi ki, bunun da arxasında ayrı məqsədlər dayanırdı. Ermənipərəst ingilis Kerolayn Koks isə ermənilərə veriləcək dərslərlə maraqlanırdı.

Məlumatlara görə, Xocalı faciəsində Yunanıstanın bir neçə şəhərində özəyi yaradılmış «17 noyabr» terrorçu təşkilatının üzvləri də iştirak ediblər. Milliyyətcə ermənilərin olduğu silahlı birləşmə «Tiqran»çılar Xocalı ərazisində «Fosgen» kimyəvi silahından geniş istifadə ediblər. Beynəlxalq konvensiyalara görə isə kimyəvi silahlardan istifadə qadağandır.

Məsələn, Xocalıda «zarin» və «zaman» qazlarından, fosgendən istifadə nəinki insanlara, həm də flora və faunaya ciddi zərbə endirib. Yerevan toksikoloji mərkəzindən 1996-cı il iyulun 14-də Xankəndiyə gələn qrupun başçısı Faina Melikyants ölkənin müdafiə naziri S.Sarkisyana (169/024-1002-9.1) göndərdiyi məktubda qeyd edir (tərcümə): «...Xocalı ərazisində apardığımız elmi tədqiqatlar və araşdırmalarımızın nəticələri qənaətbəxş deyil. Xocalı ərazisindən əsir götürülən uşaqların təqribən 9 faizinin dalaq və qaraciyərləri sıradan çıxıb. Zəhərli qazlardan istifadə isə uşaqların baş-beyin funksiyasını iflic edib...». Erməni həkiminin qeyd etdiyi bu 9 faizin içərisində 16 nəfər 9-10 yaşlı uşaqların (qızların) taleyi artıq bəlli idi. Nə qədər acınacaqlı da olsa, bu faktları da açıqlayaq. Belə ki, ölümə məhkum olmuş qızların artıq dünyanın bir sıra elmi-tədqiqat institutlarının mikrobiologiya və virusologiya institut və yaxud şöbələrinə göndərilməsi qərara alındı. Sınaq və təcrübə mənbəyi kimi bu qızlardan 4-ü Fransaya, 6-sı Argentinaya, 2-si Suriyaya, 1-i Yerevana, 2 nəfəri Almaniyaya aparıldı. Həkim Faina Melikyants Ermənistan MN BQ-na, polkovnik Tiqran Lazareviç Adamyana yazırdı: «...Mən öhdəmə düşən məsələni həll etdim...» (Moskva toksikoloji mərkəzlə - Yerevan toksikoloji mərkəzin yazışması: «Vestnik-zdorova» 1996, № 6, səh. 40).

Araşdırmalarımızdan bu da aydın oldu ki, Faina Melikyantsın 6 nəfərlik qrupu Xocalıdan əsir götürülən qız uşaqlarının bədənində «L-Z-21A» və «L-Z-19A» vaksinlərini sınaqdan çıxarıb. Nəticədə 4 nəfər 8 yaşlı qız uşağının taleyinə qələm çəkilib. Heç biri sınaqdan sağ çıxa bilməyib.

Bonnda nəşr olunan «Bundesver» qəzeti 1992-ci il mayın 7-də Yerevandan aldığı məlumatı çap edir. Həmin məlumat mayın 13-də Rusiyada yayılır: «...Армянские власти Ханкенди (Степанакерта) наконец-то признали наличие в Нагорном Карабахе химического оружия. На складах, оставленных

войсками СНГ, находится 500 тонн химических веществ. Ранее российская и армянская стороны отрицали факт хранения в Нагорном Карабахе химического оружия. Хотя 25 февраля азербайджанский город Ходжалы был обстрелян со стороны Ханкенди 122 мм снарядами, начиненными цианидом...» («İzvestiya» qəzeti, 13 may 1992-ci il).

Elə bil dünya bunların qarşısında aciz qalmışdı. Heç kəs danışmaq istəmirdi. 1993-cü il noyabrın 3-də Avropa ictimaiyyətinə Dağlıq Qarabağla əlaqədar bəyanat qəbul olundu.

Sənədin bir yerində qeyd olunur.

«...Заявление в Европейское Сообщество. Сообщество и его государства-члены осуждают наступление местных армянских сил Нагорного Карабаха, которые все глубже и глубже вторгаются на азербайджанскую территорию. Они отмечают с сожалением, что подобные действия расширяют границы вооруженного конфликта, охватывающего все больше азербайджанских территорий и создают очень серьезную проблему беженцев в Азербайджане, втягивая тем самым соседние страны, с постоянно нарастающей опасностью для региональной безопасности...»

Amma buna da bir reaksiya verən olmadı.

Qurani-Kərimin «Qələm» surəsində belə bir hikmət var: «And olsun qələmə...» Bu andın hikməti bundan ibarətdir ki, nə yazılırsa haqdan yazılmalı, haqdan deyilməlidir. Haqdan və hünərdən kənar nə yazılırsa, onda şeytan nəfəsi, şeytan ayəsi var. Bibliya, Tövrat və İncildə eləcə də digər dini kitablarda, risalə və deyimlərdə qələm haqqında heç nə deyilmir.

Dağlıq Qarabağın «Şeytan məclisi»nə, yəni qondarma parlamentinə xidmət edən «Pro-Armeni» agentliyinin ideoloqlarından olan Ovanes Kazaryan 2001-ci il iyulun 14-də Kaliforniyada «Hayastan» cəmiyyətinin keçirdiyi «Böyük Ermənistan» adlı diaspor-yığıncağında qeyd edir: «...В нашем перо...только правда...». Yəni, «Pro-Armeni» agentliyində həqiqətdən başqa heç nə yoxdur.

1992-ci il martın 4-də isə «Pro-Armeni» yazırdı: «...Боевые действия продолжались недолго, и в самом поселке среди мирных жителей азербайджанской национальности погибших не было...»

Martın 5-də isə agentlik özünü təkzib edir: «...Погибли от 30 до 40 солдат азербайджанской армии, свыше 100 были взяты в плен. Что касается трупов мирных жителей, они лежали на дороге из Ходжалы до Агдама...» («DQR» «Ali Soveti»nin bülleteni. Mart 1992-ci il, səh. 9-11).

Araşdırdığımız materialların içərisində Dağlıq Qarabağ müharibəsini qələmə alan erməni Daud Xeyriyanın Beyrutun «Əş-Şərq» («Şərq») nəşriyyatında çapdan çıxan (bu adda qəzet də var) «Xaç uğrunda» kitabı da maraq doğurdu. Müəllif kitabının 19-cu səhifəsindən 76-cı səhifəsinədək Xocalı uğrunda gedən döyüşlərə həsr edib. Kitabın 24-cü səhifəsində yazır: «...Bəzən çaşıb ayağının

meyitlərin üstünə qoyaraq, keçib gedirdik. Daşbulaq tərəfdəki bataqlıqdan keçmək üçün ölənləri yanaşı düzüb yol düzəltdik. Ayağımı ölənlərin üstünə qoyub getmək istəmədim. Polkovnik Ohanyan mənə işarə etdi ki, qorxmayım. Müharibənin qanunlarından biri də budur. Mən ayaqlarımı sir-sifəti qana bələnmiş 9-10 yaşlı bir qızın sinəsinə sıxıb irəli addımladım. Ayaqlarım, fotoaparatım qan içində idi...»

Bunu erməni Daud Xeyriyan adlı bir jurnalist yazır. O, daha sonra qeyd edir: «...Martın 2-də ermənilərin «Qaflan» qrupu (qrup meyitləri yığıb yandırmaqla məşğul idi) 100 nəfərdən çox türk meyitini yığıb Xocalıdan təqribən bir kilometr qərb istiqamətində yandırdı. Sonuncu maşında təqribən 10 yaşında olan bir qız uşağı da gördüm. O, alnından və qollarından yara almışdı. Sir-sifəti göyərmiş bu uşaq hələ ölməmişdi. Aclığa və soyuğa, aldığı yaralara baxmayaraq ölməmişdi. Asta-asta nəfəs alırdı. Ölümlə çarpışan bu uşağın gözlərini unuda bilmirəm. Bir azdan onu da «Qaflan»çıların səyyar ölüm ocaqları»ında yandıracaqdılar. Heysiz-hərəkətsiz uzanmış, dırnaqlarından qan süzülən bu uşağı Tiqranyan çağırılan bir əsgər tolazlayıb, qalaqlanmış meyitlərin üstünə atdı.

...Sonra bu insan qalağına od vurdular. Bu zaman elə zənn etdim ki, yanan meyitlərin içərisində kimsə qışqırr. Aman və imdad diləyir. Mən bütün bunlardan sonra daha irəli gedə bilmədim. Amma fikrim var idi ki, Şuşanı da görüm. Geri qayıtdım. Onlar isə xaç uğrunda döyüşlərini davam etdirirdilər» (Səh. 62-63).

1992-ci il martın 10-da isə Rusiya Federasiyasının Prezidenti Boris Yeltsinin poçtuna daxili işlər naziri Viktor Yerinin imzası ilə məktub qoyulur (məktubda qeyd edilir ki, məzmunu haqqında şəxsi görüşdə açıqlama veriləcək. Məktubla təqdim olunmuş videokassetə baxılması xahiş olunur). Məktuba əlavə olaraq, prezident poçtuna daxil edilmiş videokassetdə 1.890 nəfər şəxsi heyəti olan 366-cı Alayın fəaliyyəti və Xocalı faciəsindən kadrlar var idi. General V. Yerin prezidentə yazırdı: «... В Ходжалы расстреливали женщин, детей и стариков, с трупов снимали скальпы. Об этом свидетельствует фильм, снятый азербайджанскими кинодокументалистами. Камера сняла несколько детей с отрезанными ушами. У пожилой женщины вырезали кожу с левой половины лица. У мужчин снимали скальпы. Трупы с явными признаками ограбления... Многие тела оказались в еще более обезображенном состоянии. По данным военной разведки, об этом рассказывает какой-то Мустафаев-кинодокументалист, который в случившемся обвиняет 366-ой Полк расположенный в НК...» (Н.Гаврилов: «Военные ведомости». Изд. С - Пет. 1998, стр. 96).

Prezident B.N.Yeltsin videokassetə baxdıqdan sonra bu istiqamətdə işləmək üçün xüsusi sərəncam imzalayır (0219./21.- OD - 12 mart 1992-ci il), rus əsgərlərinin şərəf və ləyaqətinə xələl gətirən belə kadrların çəkilməməsini hərbi kəşfiyyatçıların qarşısında vəzifə kimi qoyur. Həmin vəzifələrdən birincisi müharibə gedən zona və ərazilərdə agentura şəbəkələrinin fəallığının təşkili idi.

# YANDIRILAN MEYİTLƏR

Dünya Xocalının yanan meyitlərinə tamaşa edirdi. Bu auditoriyada dost da vardı, düşmən də. Heç kəsdən səs çıxmırdı. Yanan və yaxud yandırılan meyitlərin tüstüsünə heç kəs boylanmaq istəmirdi. 1992-ci il martın 14-də Fransa xarici işlər naziri Rolan Düma və Türkiyənin analoji idarəsinin rəhbəri Hikmət Çətin belə bir fikrə gəlirlər ki, atəşin dayandırılması istiqamətində iş görülsün Martın 15-i saat 19:20-də Hikmət Çətin ABŞ-ın o vaxtkı dövlət katibi Ceyms Beykerdən xahiş edir ki, «Amerikanın ermənilərə olan maraqlarından istifadə edərək...» bu işə kömək etsin.

Hər şey yalan olaraq qalırdı. Qələm də yalan yazırdı: Rolan Düma martın 14-də tərəfləri müharibəyə son qoymağa çağırırdısa, martın 16-da Parisdə erməni diasporunun «Mesrop gecəsi»ndə bütün bu bəlalara bais olan akademik Aqanbekyanın və Zori Balayanın sağlığına badə qaldırır, «Böyük Ermənistan» uğrunda atılan bütün addımları alqışlayırdı (S.Bablumyan. «Показывает Антенна-3». Oçerklər. Yerevan, səh. 91, 1996-cı il). Əldə etdiyimiz digər məlumata görə isə, 1992-ci il martın 18-də Əsgərandakı vertolyot eskadrilyasının başçısı, mayor Leonid İvanoviç Kravtsev Bakıya, Ali Sovetə - millət vəkillərinə ünvanladığı məktubda yazırdı: «Депутаты! Я сам видел около двухсот тел убитых, разбросанных по склону, среди которых бродили люди с оружием. Мы пытались забрать трупы. Я видел четырехлетнего мальчика с раздробленным черепом и тронулся рассудком. У другого ребенка, которого мы успели подобрать, прежде чем нас стали обстреливать, оказалась отрублена голова. Измученные тела женщин, детей, стариков я видел повсюду.

Хочу обратиться к Вам. Очнитесь! Помогите своему народу...»

Məktuba cavab almayan mayor Kravtsev eyni məzmunlu məktubla «İzvestiya» qəzetinə müraciət edir (18 mart 1992-ci il).

Həmin ərəfədə Bakıda ilişib qalan ermənilər Şaumyankənd istiqamətindən silah keçirməklə məşğul idilər. Həmin vaxt Bakının mərkəzində, Mərkəzi Komitənin yaşayış evlərindən birini kirayələmiş zabit Aleks Qarunoviç Yeqizaryan silah alış-verişi üçün Bakıda yerləşən hərbi hava hücumundan müdafiə alayı ilə əlaqə yaratmış, zabit Oleq Deyçukovla silahların alınması və daşınması ilə bağlı xüsusi proqram tərtib etmişdi. Oleq Deyçukov alayın radio-mühəndislərindən biri idi. Məhz buna görə hava hücumu əleyhinə hərbi qüvvələrin baş komandanı, general-mayor Valeri Çirkov Bakıya gəlir. Məlum olur ki, O.Deyçukov 29 ədəd «AK» silahını və 7 min patronu, 40 bronijileti, erməni A.Yeqizaryana satıb və həmin silahlar da fevralın 19-da Xocalıya ötürülüb (Bakı şəhər Hərbi Prokurorluğunun sənədlər qovluğu. 1992-ci ilin istintaq materialları. «O.D.Deyçukovun işi üçün arayış»). Amma O.Deyçukova istintaq qovluğu

açılmadı.

Məlumata görə, Xocalı ərazisində, daha dəqiq desək, Xanabadla Daşbulaq kəndləri arasında ilk «səyyar ölüm ocaqları» 1992-ci il fevralın 28-i saat 14:00-da salınıb. Birinci dəfə 46 meyit yandırılıb. Ertəsi gün isə 28 uşaq və hamilə qadının meyitlərindən tonqal qalanıb. 1988-ci ildən 1989-cu ilədək Çuvaşiyanın Çeboksan şəhərindəki Çapayev qəsəbəsində yaşayan və V.İ.Çapayev adına hərbi zavodun dəftərxanasında çalışan, ixtisasca filoloq olan Akop Arakilov (zavod Qarabağ istiqamətində erməni hərbi terrorçu birləşmələrinə «Alazan» raketləri satmaqla məşğul idi. Təkcə 1992-1993-cü illərdə bu zavoddan Xankəndinə 98 ədəd «Alazan» raketləri satılıb) 1998-ci ildə Parisdə dərc etdirdiyi «Qarabağ qeydləri» kitabında yazır: «...Meyitləri yandırmaq haqqında təsəvvürüm yox idi. Mən zavodda işləyərkən yanıma gələnlər danışırdılar ki, Xocalıda qəbiristanlıq deyilən ərazi yoxdur. Dəfn olunmuş adamları gecə çaqqallar və itlər eşib çıxarırdılar. Hərbi həkim Sambat Mirzoyanın tapşırığı ilə meyitlərin yığılıb yandırılması qərara alındı. Mən «Alazan» üçün zavoda gələn zabitə sual verdim: Bəs yaralılar? Bəs əsirlər? Çebotaryan soyadlı ellim mənə anlatdı ki, yaralılar da öldürülmədən tonqallara atılır. Bundan sonra mən daha zavodda qala bilmədim. Erməniləri və Ermənistanı, Dağlıq Qarabağı bir daha görməmək üçün oranı tərk etdim...» («Mazorin» nəşriyyatı, 1998, səh. 42).

Araşdırmalarımıza görə, öldürülən azərbaycanlıların yandırılmasında, əsirlərin təhqir edilməsində polkovnik, 366-cı Alayın komandanı Yuri Zarviqarovun da başçılıq etdiyi əsgər və zabitlər iştirak edib. 1992-ci il mayın 26-da Ermənistanın Moskvadakı daimi nümayəndəliyinin məsullarından olan Nikita Kazaryan açıqlama verir ki, bu, mümkün deyil. Erməni xalqı «torpağını və millətini» sevən bir xalqdır. Onun ardınca isə Zaqafqaziya Hərbi Dairəsinin polkovniki Aleksandr Lukin yazır: «...Полк, который дислоцируется в Ханкенди, якобы полностью демобилизован... занимается плановой боевой учебой и ни о какой демобилизации не может быть и речи. В боевых действиях на чьей-либо стороне он не участвует...».

Məlumatlanmızda isə ayrı bir mənzərə var. Məsələn, milliyyətcə özbək olan serjant Ümidcan Ziyautdinov, Kərimbayem Sadullayev, Sverdlovskdan gəlmiş Pavel Zuyev, Knmdan gəlmiş Yuri Lyaxoviç, Penzadan orduya çağınlmış Aleksey Bondarev Kremlə və Bakıya ünvanladıqları məktublarda iddia edirlər ki,

«...Onlar 366-cı motoatıcı Alayın tərkibində erməni hərbi-terror qruplarına bütün işlərdə yardım ediblər...».

Məsələn, Ümidcan Ziyautdinov yazır: «...Армянские боевики (там их называют пидаинами) чувствовали себя в нашем подразделении, как у себя дома. Они спокойно передвигались по месту дислокации полка, были, как говорится, на короткой ноге с нашим комбатом-майором Оганяном...

Практически каждый вечер бронетранспортеры и БМП полка

«сдавались в аренду» боевикам. Причем делалось это с ведома командования полка. Боевики с помощью нашей бронетехники обстреливали город Шуша, под ее прикрытием армянские вооруженные формирования захватывали Мешали, Малыбейли, Кяркиджахан... город Ходжалы...».

Kiçik çavuş Şukrat Tanqırov isə açıqlamalarını belə izah edir: «...Управляли этими смертоносными машинами не только боевики, но и прапорщики-армяне из подразделения полка. Особую активность проявлял капитан Михаил Арутюнян, которого мои сослуживцы за жестокость и грубость называли «капитан Джексон»... Многие тяжело раненные и убитые так и остались там у села. Мы не смогли их вынести, ведь надо было самим спастись. Был факт: по ночам они выводили БТР-ы с полным боекомплектом и уходили в так называемые «ночные дежурства». Утром они возвращались «пустыми» - все боекомплекты были израсходованы...» (366-cı Alayın əsgər və zabitlərinin Daşkənd Təhlükəsizlik Komitəsinə yazdıqları məktublar. 16 aprel 1992-ci il).

1992-ci il aprelin 19-da yazılmış məktuba əsasən, Ermənistan Dövlət Təhlükəsizlik Komitəsi Məşvərət Şurasının rəhbəri, 1978-ci ildən 1988-ci ilədək respublika DTK-nın sədri işləmiş Marius Yüzbaşyan və birinci şöbənin müdiri Rudolf Qriqoryan Moskvaya, Müdafiə Nazirliyinə məktubla müraciət edirlər və göstərirlər ki, agent «Ruben» guya Xocalı qırğınının nəticələri haqqında əvvəlcədən rayondakıları xəbərdar edib (məktub RF MN-nin arxivində saxlanılır. Moskva, MO. QŞ-216/1. A.F. PAP. N-216).

Bu, erməni uydurmasıdır. Çünki erməni polkovniki Rudolf Qriqoryan Fransada çap olunmuş «Erməni nəzəriyyəsi...» kitabında yazır: «...Ermənilər öz torpaqları uğrunda vuruşurdular. Bəzi ermənilər türklərlə qohumluq əlaqələrinə görə əvvəlcədən ayrı-ayrı ailələri, kəndləri xəbərdar etmişdilər ki, vuruşmaq əbəsdir. Xocalıda da biz bunu planlı şəkildə etdik. Türklərə başa saldıq ki, gedin. Bizimlə oynamaq olmaz. Biz onlara dərs verdik» (Paris. «Stok» nəşriyyatı, 1995, səh. 37-38).

Araşdırmalarımıza görə, Xocalıda vuruşan erməni hərbi-terrorçu birləşmələrinə təkcə 1992-ci il yanvarın 10-dan fevralın 4-dək indiki MDB çərçivəsində yaşayan və məskunlaşan erməni diasporları adından 4 milyon 1368 rubl dəyərində yardım göndərilib.

Məşhur Amerika araşdırıcısı, jurnalist Tomas Qolts «Nyu-York tayms» və Londonda nəşr edilən «Sandi tayms» qəzetlərində yazırdı: «Güman etməyin ki, ermənilər güclüdür yox, siz azərbaycanlılar informasiya müharibəsində zəif və gücsüzsünüz. Bu, bir həqiqətdir».

Jurnalist 2001-ci il fevralın 12-də Birləşmiş Millətlər Təşkilatına və Xocalı faciəsində erməni terrorçularına fəal yardım etmiş 366-cı motoatıcı Alayı ilə bağlı Rusiya prezidentinə ünvanladığı məktubda yazır: «Я - американский журналист,

довожу информацию об Азербайджане, минуя армянские каналы, так как это действует на них весьма раздражающе. Так, группа армян в письме, адресованным в комиссию по правам человека Конгресса США выразила недоумение по поводу того, что комиссия принимает во внимание мои информации о событиях в Азербайджане. Аргументы были своеобразные: и то, что я, якобы, мусульманин, и то, что я «на короткой ноге» с президентом Азербайджана. Конечно же, не обошли вниманием и то, что моя супруга турчанка, комиссия, естественно, отвергла все аргументы «борцов за справедливость». Мне кажется, для того, чтобы создать у жителей моей страны объективную картину об Азербайджане, сегодня надо использовать все имеющиеся каналы и возможности. Если их нет, надо создавать, потому что сегодня Америке нужна правда об Азербайджане...».

Belə bir məlumat da var ki, 1992-ci il martın 29-da Ballıca kəndini öz gözləri ilə görməyə gələn general-mayor Aleksandr Çindarov MDB üzrə ümumqoşun qüvvələri Bakı komandanı marşal Şapoşnikova ünvanladığı məktubda qeyd edir: «...Dağlıq Qarabağ və Xocalı ərazisində ermənilərlə birgə ərəb ölkələrindən gəlmiş muzdlu əsgərlər də iştirak ediblər. Öldürülmüş adamlar arasında ərəb mənşəli terrorçuların meyitlərinə rast gəldim. Bunlar ermənilər tərəfindən azərbaycanlılara qarşı vuruşan adamlardır. Sənədlərə, eləcə də hərbi kəşfiyyatın məlumatlarına görə, bu muzdluların bir qismi Fələstin Milli Azadlıq Təşkilatından gələn könüllülərdir (Al-Fatah, Aİ-Fatn, Narakat Al-Tahrir Al Watani Al-Filastini.). Qrupun əsl adı isə «Qara sentyabr»dır.

Məlumata görə, dəstənin üzvləri 366-cı Alayın komandiri Yuri Zarviqarovun köməyilə Rusiyanın hərbi-sənaye komplekslərindən yığılan 3 kq uranın Livana ötürülməsində fəallıq göstəriblər. Bunun üçün dəstənin üzvləri İran ərazisindən istifadə ediblər...» (Письмо Главкому ОВС СНГ маршалу авиации товарищу Шапошникову Е.И. 3 may 1992-ci il general-mayor A.İ.Çindarova: Архив ОВС СНГ. Москва, 1992, N 1201-V.) Araşdırdığımız digər materiallardan isə aydın olur ki, Ermənistan Dağlıq Qarabağ torpaqlarında nüfuzunu qorumaq üçün 1992-ci il avqustun 18-də Təhlükəsizlik Şurasının müzakirəsindən keçən «Vətən üçün ölənlər şəhid olanlar» adlı 520 nəfərlik könüllü dəstənin yaradılması məsələsini yenidən ortaya atıb.

## ERMƏNİ «AYPARASI»

1999-cu il dekabrın 24-də, saat 16-00 da İrana məxsus «Peykan» avtobusu Cəbrayıl sərhəd məntəqəsini asanlıqla keçərək Xankəndidə qərar tutdu. Nə qədər qəribə də olsa, avtobusu qarşılayanlar içində qondarma «respublika»nın qondarma diplomatı, «Hayastan» erməni xeyriyyə təşkilatının Ermənistan təmsilçisi Naira Melkumyan da var idi.

Ertəsi gün Xankəndidə ermənilərin xeyriyyə təşkilatı kimi ad qazanmış, «Advantis»in liderlərindən olan Serqo Ovanesyana qondarma «respublika»nın «XİN»-də çalışan fransız müşaviri Jirak Aİbertyan adlı politoloq «xeyriyyə cəmiyyəti»nin yardımı adı ilə 28 min ABŞ dollarını «hədiyyə» edir və «yük»ün Yerevana yola salınmasında iştirak edən qrupa qoşulur (Yerevan. «Advantis» xeyriyyə təşkilatının icmalı. 29 dekabr 1999, səh. 14. İcmal dörd dildə çıxır).

2000-ci il fevralın 21-də Ermənistan prezidenti Robert Köçəryan ölkənin milli təhlükəsizlik, müdafiə, daxili işlər nazirlərinə, Hərbi Xüsusi İdarənin başçısına xarici işlər nazirinə və Yerevan şəhər merinə göstəriş verdi ki, «Advantis» beynəlxalq mədəni və xeyriyyə cəmiyyətinə və cəmiyyətin nümayəndəsi S.Ovanesyana ciddi yanaşsınlar, istənilən yardımı etsinlər («Армянский вестник», 2000-ci il, 3 mart, səh. 9).

Bu işlərə nəzarət etmək üçün səlahiyyət Ermənistan Müdafiə Nazirliyinin generallarından olan Avik Xaçaturyan adlı bir rütbə sahibinə verildi. Uşaqlara nazirlik xətti ilə ərzaq, maşın, isti geyim-yatacaq ayrıldı. Bu, zahirən belə idi. Çünki bütün işlərə nəzarəti S.Ovanesyan özü edirdi, maliyyə məsələlərindən tutmuş danışıqlaradək hər şeyi özü müəyyənləşdirirdi. Əlil və şikəst uşaqlar üçün Yerevan hərbi hospitalından dörd nəfər də ayrıldı. Lella Baqdasarovna adlı orta yaşlı bir həkim-cərrah bu dayələrə başçı təyin edildi. Ona maaş ayrıldı. Gündə 75 ABŞ dolları (A.Xaçaturyan. «Erməni xeyirxahlığı», 26 mart 2000-ci il, Moskva. «Советская Россия» qəzeti, səh. 2).

Normal həyata qayıdıb insan kimi yaşamaq hüquqlarını itirmiş bu uşaqları irəlidə Lella Baqdasarovnanın «Amputasiya otaqları» gözləyirdi. «Amputasiya» latın sözüdür. Cərrahiyyə əməliyyatının bir qolunu təşkil edir. Barmaqların, əlin, qolun, qıçın, qulağın kəsilib atılması bədənin istənilən hissəsində lüzumsuz və gərəksiz, lakin məqsədli cərrahiyyə işlərinin görülməsi əməliyyatlarını əhatə edir.

Lella Baqdasarovna üçün «mədəni proqramlar» da hazırlandı. Martın 4-də hərbi hospitalm ikinci mərtəbəsində işlər dayandırıldı. Şikəst və əlil uşaqlar növbə ilə «Amputasiya otaqları»ndan keçirildi. Bu prosesdə özünü Ermənistanın «Vətən» cəmiyyətinin üzvü kimi təqdim edən 55 yaşlı Alik Mansyeviç Arsenyan, Fransa və Suriyadan gəlmiş «emissar»lar, «doktor» ləqəbli, 1948-ci il təvəllüdlü Jan Franses Klod, şəhərsalma işləri ilə məşğul olan (biznes sahəsi üzrə) 63 yaşlı Saleh Qasim Abdullah da iştirak edirdi. Yenidən sənədləşmə aparılırdı. Çünki uşaqların sayı 22-dən 38-ə çatmışdı. Ycrevanda o qrupa qoşulan 16 nəfərin də yaş həddi 9 yaşından 12 yaş arasında idi. Bu uşaqlar isə «Ararat» və «Erməni ayparası» qeyri-leqal təşkilatları ilə bir neçə il bundan əvvəl Qubadlı, Zəngilan, Füzuli, Cəbrayıl, Ağdam istiqamətindən valideynlərinə qoşulub müharibədən, erməni gülləsindən xilas olmaq üçün İranın Kəleybər yaşayış məntəqəsinə gedən uşaqlar idi. Bu uşaqların bir qismi qorxudan nitqini və ağlını itirmişdi. Bir qismi sərhədi keçərkən döyülməkdən, bir qismi ac və susuzluqdan, soyuqdan yarımcan olmuşdu. Bəziləri

valideynlərinə qoşulub dilənir, Şərqi Azərbaycanın (İran) Hurənd, Xumarlı, Təzəkənd, Vərzəcan, Əhər, Germi yaşayış məntəqələrini gəzir, çörək pulu qazanırdılar. Yetim uşaqlar isə ərazi məscidlərinə pənah aparır, ölməmək üçün bu şikəstlərə sığınırdılar. Həmin uşaqların 16 nəfəri Yerevana gətirilmişdi. (Tehran. «İran» qəzeti, 4 mart 2000-ci il, səh. 3.)

Maraqlı faktlardan biri də budur ki, ermənilərin Azərbaycanın şikəst və əlil övladlarına olan bu qəribə və «humanist maraqları» haqqında 2000-ci il martın 26-da Azərbaycandakı müxtəlif ünvanlara məktub yazıldı. Məktubları İranda xırda ticarət işləri ilə məşğul olan Əyyub Xatımecat, Firdovsi Mərəndi imzalamışdılar. Bundan sonra, İranda hər iki iş adamına Yerevan və Bakı ilə ticarət əlaqələrinə qadağalar qoyuldu.

## AMPUTASİYA OTAQLARI

Araşdırmalarımızın nəticəsi olaraq, Yerevanda «Amputasiya otaqları»ndan keçirilən əlil və şikəst edilən övladlarımızdan bəzilərinin adlarını əldə etdik:

l. Zəhra Mürşid qızı Həsənova (Qubadlı)
2. Elçin Babayar oğlu Qəhrəmanov (Qubadlı)
3. Həsən Almurad oğlu Zehniyev (Zəngilan)
4. --------------- Səfərova Aytəkin (Qubadlı)
5. Xurşid Əflatun oğlu Nağıyev (Cəbrayıl)
6. Canişin Əhmədağa oğlu Balabəyov (Zəngilan)
7. Zərintac Sakitağa qızı Məmmədova (Zəngilan) Bu uşaqların toplanmasında, bir yerə yığılmasında qeyri-leqal «Erməni ayparası», onun lideri, keçmiş hərbçi Yeqo Saaktyan xüsusi canfəşanlıq göstərib (İsfahan. Erməni icmasının «Ararat» qəzeti, 3 aprel 2000-ci il). «Amputasiya otaqları»ndan keçirilən, sifətləri və bədənləri tanınmaz hala düşmüş, nitq və görmə, eşitmə qabiliyyətlərini itirmiş, ölənədək əlil arabalarında sürünməyə məhkum edilmiş bu uşaqların taleyi hələlik qeyri-müəyyəndir.

Əldə etdiyimiz digər məlumatlara görə, Ermənistanın Nairi rayonunun (təqribən 1,5 km şimal istiqamətində) Lusoker qəsəbəsində (Sevan gölü yaxınlığında), Dilican ərazisində 1992-1993-cü illərdə əsir alınmış qadın və qızlarımızın, şikəst edilmiş, əlil arabalarına «qoşulmuş» uşaqlarımızın xarici iş adamlarına satılması, bağışlanması üçün xüsusi qul bazarları var.

Hər şey hələ ki, diqqətdən yayınmışdı, sakitliklə ötüb keçirdi. Rəsmi Azərbaycan qalan əsirləri tələb edirdi. Ermənilər isə heç bir əsir olmadığı, hamısının qaytarıldığı iddiasında israrla dayanırdılar. Erməni eksperti Afik Aşotyan 2000-ci il fevralın 16-da Artsax (Xankəndi) radiosuna belə bir müsahibə verir ki, Azərbaycanın iddialarında heç bir sənəd və sübut yoxdur. MN-nin mətbuat katibi, polkovnik Seyran Şahsuvaryan isə «Mond» (Fransa) qəzetində yazır:

«Azərbaycanlı əsir» mövzusunu unutmaq lazımdır» (24 sentyabr 2000-ci il, səh. 3).

2000-ci il martın 19-da Novruz bayramı gecəsi general Avik Xaçaturyan Serqo Avanesyanla birgə Yerevanın ruhi xəstələrin müalicə mərkəzində yerləşdirilmiş əlil və şikəst uşaqlara bayramlıq aparır. Dünyanı unudan, adlarını belə xatırlamayan, yaddaşlarına min cür iynə vurulmuş, gündə üç dəfə lazımsız və zərərli preparatları, dava-dərmanları qəbul edən bu uşaqlar üçün «Novruz, bahar bayramı» anlayışı çoxdan ölmüşdü.

Martın 23-də Yerevan-Paris axşam reysi ilə Fransaya uçan general Avik Xaçaturyan, həkim-cərrah Lella Baqdasarovna «Advantis»in Yerevan şöbəsinin işçiləri, «Erməni ayparası», «Ararat» qeyri-leqal «xeyriyyə cəmiyyətləri»nin nümayəndələri Paris yığıncağında iştirak edirlər.

Araşdırmalarımıza görə, uşaqları Parisə buraxmırlar. Onları elə hava limanındaca əvvəlcədən nəzərdə tutulmuş (bu işləri Parisdə qeyri-leqal fəaliyyət göstərən «Eçmiədzin» qrupu görürdü) qaydalar əsasında dörd qrupa ayırırlar. Həmin axşam uşaqların 23-ü Paris-Dəməşq reysilə iş adamı Saleh Qasim Abdullahın başçılığı ilə Suriya istiqamətinə aparılır. Dəməşqdə isə uşaqlar Türkiyə və Almaniya qruplarına bölünürlər.

Hələ fevral ayında Moskvada çap olunan «Kriminal xronika» qəzeti yazırdı: «...Milli münaqişələr zamanı yüz minlərlə uşaq ata-anasını, ev-eşiklərini, isti ocaqlarını itirdi. Onlar kimsəsiz və tənha qaldılar. MDB məkanında bu faciənin əlamətlərinə Azərbaycanda, Tacikistanda, Moldovada, Gürcüstanda, Qazaxıstanda, Özbəkistanda, Qırğızıstanda daha çox rast gəlinir. Atılmış və yaxud əsir alınmış uşaqlar müxtəlif qrup və birləşmələr tərəfindən satın alınır, amputasiya edilir, «dilənçilik biznesbmdə və yaxud üzv orqanlarının kəsilib satılması sahəsində fəaliyyət göstərən cərrah otaqlarında əsl gəlir mənbəyinə çevrilir.

Moskvada və Krasnodarda «dilənçilik biznesində «işləyən», milliyyəti bilinməyən şikəst və əlil uşaqların hər biri «xozeyn»ə gündə 200 ABŞ dolları və yaxud 400-450 min əlavə rubl verir. Onların «Amputasiya otaqları» isə Çexov rayonunun sanatoriyalarındadır...» («Kriminal xronika» qəzeti. 4 fevral 2000-ci il, səh. 2).

## «CƏNAB SƏFİR!... ƏFƏNDİM, QARDAŞIM...»

Almaniya Federal Kəşfiyyat Xidməti (BND) 2000-ci il noyabrın 16-da ölkə başçısına altı səhifəlik hesabat göndərir. «Həyəcan təbili» çalan bu hesabatda göstərilir: «...Almaniya ərazisində Rusiya və digər MDB ölkələrinə məxsus «həkim-cani» qrupları haqqında məlumatlar, sənədlər əldə etmişik. Bu qruplar

qadağan olunmuş yollarla uşaqların və yaşlı adamların sağlam orqanlarının alqı-satqısı ilə məşğuldur. Bu uşaqların bir qismini Almaniya ərazisinə erməni, gürcü və çeçen «iş adamları» gətirir. Onlar müharibə şəraitində itkin düşən və əsir alınmış şəxslərdi. RF-nın, eləcə də digər MDB ölkələrinin kəşfiyyat xidmətləri bu işdə acizlik və gücsüzlük göstərirlər». (Berlin. «Morqen» qəzeti, 16 noyabr 2000, səh. 4).

Bu materialdan sonra Qazaxıstan, Moldova və Qırğızıstanda 2000-ci il dekabrın 13-də «Müştərək operativ qrup» yaradıldı. Milli təhlükəsizlik məsələləri ilə məşğul olan parlament komissiyaları xüsusi qanunlar hazırladılar. Özbəkistan Təhlükəsizlik Şurası bununla bağlı xüsusi müşavirəsində qərar qəbul etdi.

Qeyri-leqal «Erməni ayparası» təşkilatının fəaliyyətini araşdırarkən qəribə bir mənzərə ilə rastlaşdıq. Livanda, Dəməşqdə, Şuşada, Ankarada, İsfahanda, Kölndə, Marseldə fəaliyyət göstərən «Erməni ayparası» daimi «əməkdaşı» hələbli Abdullaha ayırdığı hər oğlan uşağı üçün 470, hər qız uşağı üçün isə 530 ABŞ dolları alır. Abdullah isə hər uşaqdan gündə 75-90 ABŞ dolları götürür. Onun qruplarına gəlincə, bu qruplardan ikisi Beyrutda, biri Bakıda, biri də Diyarbəkirdə «Abdullahın uşaqları» kimi fəaliyyət göstərir, yerli köməkçilər vasitəsilə «biznes» işlərini qururdular. Hər köməkçisinə Abdullahın «naibləri» 110-120 ABŞ dolları ayırırdı.

Hələbdə ərəb dilində nəşr olunan gündəlik «Əl-Cəmahir-Əl-Ərəbiyyə» qəzetində «Hələbli Abdullahın uşaqları» adlı redaksiya yazısı çap olunur. Yazıda qeyd edilir: «...Şeyx Abdullahın övladı yoxdur. Amma Dəməşqin rəngli bazarlarından tutmuş, Hələb küçələrinədək xeyli şikəst və əlil uşaq səpələnib, onların bir adı var: «Abdullahın uşaqları». Kimisi əl arabasında yatır, şikəst, barmaqları kəsilmiş əlini gələn-gedənə açıb dilənir, kimisi kəsik qolunu, topal ayaqlarını göstərib, imdad diləyir. Bunların yanından rahat ötüb keçmək olmur. İstər-istəməz könlündən yardım etmək keçir...» (Hələb. «Əl-Cəmahir-Əl-Ərəbiyyə» qəzeti. 20 dekabr 1994-cü il, səh. 4).

Feliks Türkiyədə nadir adlardandır. Bu adın sahibini axtarmaq üçün elə də böyük zəhmət tələb olunmur. Atatürk limanından azca aralı (təqribən 100-150 metr cənub tərəf) 16 nömrəli ikimərtəbəli binanın bir küncünə qısılıb çəkmə silən «usta» ləqəbli Əşrəf İpəkçidən soruşsan, başını qaldırmadan pıçıldayar: «...O, çox qəddar adamdır. Mən bütün polislərə (usta günün çoxunu limanın ətrafında gəzişən polislərə xidmətdə keçirir - red.) deyəndə ki, onu tutub aparır, heç kəs məni eşitmir. Hamı üzümə baxıb gülür. Mən gülmək üçün söz demirəm, əfəndim. O, mənim qardaşımı döyüb öldürdü».

Bu sözləri çəkməçi 2001-ci il fevralın 11-də saat 13-də (Bakı vaxtilə saat 15-də) hava limanı keşikçilərinin başçısına verdiyi məktubda da yazıb və həmin məktublardan birini Azərbaycanın Türkiyədəki səfiri cənab M.Novruzovun da adına ünvanlayıb: «...Cənab səfir! Əfəndim... qardaşım (məktubdakı ifadələri

dəyişmirik), Feliks Ağayan adlı bir erməni uşaq alveri ilə məşğul olur. O uşaqların bir qismi şikəst edilib küçələrdə, yollarda dilənməyə məhkum olunub. Siz heç soruşmursunuz ki, o uşaqlar kimdir? Onlar bir erməninin - türk polisinin gözlərini bağlayan bir zalımın Azərbaycandan girov etdiyi, satın alıb gətirdiyi uşaqlardır, şikəst və əlil övladlardır...»

Vaxtilə babasının öyüd-nəsihətlərini, «Millətim... vicdanım...» kitabını vərəqləyən (Dəməşqdə 1908-ci ilin noyabrında çap olunub. Ermənilərdən bəhs edir) nəvə Feliks Ağayanın həyat yolu da maraqlı olub. Məsələn, nəvə Feliksin babası Feliks Ağayan 70-ci illərdə İrandakı erməni icmasının nümayəndəsi kimi ölkə parlamentinə seçilib. Azərbaycan əleyhinə ilk söyüş və ittihamı parlament kürsüsündən o deyib.

Feliks Ağayan (nəvə) 1946-cı ildə İsfahanda anadan olub. 1974-cü ildə ermənilərin «Qardaşlıq» cəmiyyətinə başçılıq edib. Təşkilat qeyri-leqal fəaliyyət göstərdiyindən (Tehran təhlükəsizlik xidmətinin köməyilə) İsfahanda Baş Qərargahı dağıdılıb, fəaliyyəti qadağan edilib. 1983-cü ildə F.Ağayan «Babayan və onun kompaniyası» tikinti şirkətinin İstanbul filialında işləmək üçün göndərilib. Bu zaman o, artıq dünyanın səkkiz ölkəsində qeyri-leqal fəaliyyət göstərən və müntəzəm maliyyə yardımlan alan «Erməni ayparası» təşkilatının həmsədrlərindən biri idi.

Bu təşkilat isə, öz növbəsində, 1992-ci ildən «Advantis» erməni mərkəzilə müştərək proqram haqqında müqavilə imzalayır. Ağayan-Ovanesyan münasibətlərinin əsas məqsədi aydın idi: «Azərbaycan və azərbaycanlılar». Məlumata görə, nəvə Ağayan az müddət ərzində Ankaradakı erməni icmasının fəallarından olan Şahi Danisyanın köməyilə Türkiyənin hökumət və dövlət strukturlarında ermənipərəst məmurlarla işgüzar əlaqələr qurur, bu yolla həm də təhlükəsizliyini təmin edir.

1999-cu il iyulun 26-da Ağayan Diyarbəkirdə, İstanbulda, Adanada «Erməni ayparası» adlı separatçı, əsl məqsəd və məramı gizli qalan təşkilatlar yaratdı.

Diyarbəkirdəki mərkəzə 1983-cü ildən 1986-cı ilədək Yerevanda milis idarəsində azyaşlı və yeniyetmələrlə iş şöbəsinin istefada olan mayoru Qleb Daniloviç Bədəlyan başçılıhq edirdi. Keçmiş zabit 1984-cü ildə Bakıda keçirilən (DİN-nin xətti ilə) elmi-nəzəri konfranslarda iştirak edib. Azərbaycan dilini bilən bu şəxs, təşkilatın həm də «Böyük Ermənistan» ideoloqudur. Hazırda «Erməni ayparası»nın «Bədəlyan qolu»ndan geniş istifadə olunur. 1999-cu il noyabrın 2-də Q.Bədəlyan Diyarbəkirdə məskunlaşan, 1989-cu ildən Bakıdan köçüb gedən, iş üçün orada «ilişib qalan» Fazilə Sadıqova adlı bir qadınla tanış olur. Həmin vaxt Fazilənin qeyri-qanuni bir uşağı da doğulmuşdu. Maddi çətinlik, mənəvi sıxıntı Fazilənin bütün ümidlərini qırmış, onu dilənməyə məcbur etmişdi. Yollarda döyülüb, təhqir olunan, sifətinə, boyun-boğazına bıçaq çəkilmiş, hörükləri

qayçılanmış bu qadını Türkiyənin döngələri, keçilməz dalanları tanınmaz etmişdi.

1999-cu il noyabrın 19-da Qleb Bədəlyan «xeyirxah adam kimi» Fazilənin uşağını (iki yaşlı Nigarı) satın alır. Bu zaman Bədəlyan ona cəmi 20 ABŞ dolları verir və deyir ki, yenə doğsa, yenə uşağı almağa hazırdır (Diyarbəkir. 1999-2000-ci illərdə gəlmələrlə bağlı ayrılmış «Polis qovluğu», səh. 114).

O gündən Nigar erməni Bədəlyanın yetimlərinə qoşulur. «Bədəlyanın yetimləri»nə (əslində içərisində bir nəfər ermənin də olmadığı bu təşkilatın üzvlərinə) İstanbulun, Ankaranın küçələrində bu gün də tez-tez rast gəlmək olur. Onları axtarmaq lazım deyil. Çünki özləri adamın qarşısına çıxır. Kimisi əl arabasında, kimisi sürünə-sürünə, kimisi də əl ağacına söykənib, pul üçün ağlayır, yaşamaq üçün dilənir.

İstanbul Bələdiyyə İdarəsi məmurlarından birinin 2001-ci il iyunun 14-nə olan məlumatına görə, «Erməni ayparası»na başçılıq edən Qleb Bədəlyanın «yetimləri» təkcə şəhərin cənubunda 19 yerdə dilənir. Onların 12-si azərbaycanlı, 5-i çeçen, 2-si isə rusdur (2001-ci il mayın 2-də iş adamı Yavuz Yapıncının İstanbul Bələdiyyə İdarəsinə yazdığı şikayət məktubuna əsasən hazırlanmış məlumatdan). Satın alınmış bu uşaqların əksəriyyəti Ermənistanın özəl «Amputasiya otaqları»ndan keçirilib. Şikəst və əlil olan, danışmağa, söz deməyə taqəti qalmayan diri gözlü ölülər - «Bədəlyanın yetimləri» haqqında İstanbuldakı diplomatik korpusların da xəbəri var. Bu barədə Rusiya səfirliyindən 3 (2001-ci il), Almaniya səfirliyindən 2 (2001-ci il), Qazaxıstan səfirliyindən 4 dəfə (2001-ci il) Türkiyə Xarici İşlər Nazirliyinə sorğu edilib.

«Dilənçilik biznesi» erməni zabiti Qleb Bədəlyanın Türkiyənin «İmpaş»dakı bank hesabında məbləği xeyli artırdı. Məlumata görə, 2000-ci il yanvarın 5-də Qleb Bədəlyan «Erməni ayparası»nın xətti ilə 13 min 680 ABŞ dolları, 2001-ci ilin dekabrında isə 17 min ABŞ dolları «Adventis» erməni xeyriyyə təşkilatmın Tehran və Artsax (Xankəndi) şöbələrinə köçürür.

Üç ay ərzində (noyabr, dekabr 1994-cü, yanvar 2001-ci il) Qleb Bədəlyan Türkiyədə alverə, çörək pulu üçün axışıb gedən və sonradan Vətənə qayıtmağa üzləri olmayan, xırda oğurluqlara cəlb olunmuş və bununla da polis idarələrində qeydiyyata düşən Əsmət Süleyman qızı Cavadovanm (Şəmkir) iki yaşlı oğlunu, Zemfira Qulammirzə qızı Abuşovanın 6 yaşlı qızını (Tovuz), Əfsanə Dadaş qızı Dadaşovanın qüsurlu doğulan üç yaşlı qızını (Lənkəran), Arif Sabutay qızı Şiriyevanın beş yaşlı şikəst oğlunu (İmişli) «Erməni ayparası»na - bələdiyyə və mətbuat sənədlərində «xeyriyyəçi» kimi tanınan təşkilata cəlb etmişdi. Bu vaxt o, bütün bunlar üçün 1.890 ABŞ dolları xərclədiyini də «Advantis» təşkilatına yazır.

Məlumata görə, 2000-ci il yanvarın 21-də Qleb Bədəlyana əslən türk olan, 1986-89-cu illərdə Türkiyənin Dəniz Donanmasında xidmət etmiş və sonradan istefaya çıxan zabit Dəmir Osmanoğlu qoşulur. O, uşaqları bir yerdən başqa yerə köçürmədə, daxili qayda-qanunların nizamlanmasında iştirak edirdi. Qleb

Bədəlyan isə ayrı-ayrı məhəllə və döngələrdən, vağzal və bazarlardan şikəst, lal və kar olan, əl arabalarına pərçimlənmiş uşaqların topladıqları, yalvarıb, ağlayıb-sızlayıb yığdıqları ianələri toplamaqla məşğul idi. Hər uşaq gündə 80 ABŞ dollarıdan 85 ABŞ dollarına qədər haqq verməli idi. Bu, onların yaşamaq haqqı idi. Bu haqqı verməyən təhqir, kötək yeyirdi.

Fevralın 24-də Türkiyədə erməni dilində çıxan «Jamanak» qəzetində yarıçılpaq bir qadın meyitinin şəkli dərc edilir. Meyit 2000-ci il fevralın 22-də məhəlləarası avtobus dayanacaqlardan birinin yanından tapılmışdı. Qəzet məlumat verirdi ki, şəkildə gördüyünüz bu qadın Bakıdan öz qardaşlarının yanına çörək və iş üçün gəlmiş Fazilə Əmircan qızı Sadıqovadır. Sonra bu şəkil Yerevan mətbuatında göründü. Martın 20-də isə həmin şəkil Beyrutda - «Azq» qəzetində verildi. Bir ömrə də beləcə son qoyuldu.

## AZƏRBAYCANA QARŞI «GECƏ YIĞINCAĞI»

Qarabağ torpaqlarında - Azərbaycanın qüdrətli və tarixi bir parçasında yanğınlar hələ də davam edir. Genefondumuza ağır bir zərbə vurulur. Müharibə dövründə 92 azərbaycanlı nəsli tamam kəsildi. Ərazi bütövlüyümüzə qəsd edən erməni separatçıları, işğalçı və terrorçu qrupların törətdikləri cinayətlər isə NATO-da, BMT-də, AŞ-da, AB-də beynəlxalq konfranslarda, simpozium və görüşlərdə bu gün də ört-basdır edilir. Halbuki o vaxt hadisələrin canlı şahidi olan rusiyalı akademik A.Aleksandrov 1999-cu il aprelin 2-də Moskvadan yayımlanan Mərkəzi Televiziyanın müxbiri H.Boroviklə müsahibəsində bildirirdi: «Карабахский вопрос может рассматриваться в Гаагском суде... Существует более реальная перспектива этого вопроса: Совет Безопасности или Генеральная ассамблея ООН могут обратиться в Гаагский суд с запросом дать заключение по поводу продолжающейся оккупации азербайджанских земель и выполнения резолюции ООН. Такой прецедент уже однажды был. В 1974 г. СБ ООН обратился в Международный суд по поводу неисполнения ЮАР резолюции СБ ООН» (Bax: «Советская Россия» qazeti (Moskva) müsahibəni 1999-cu ilin aprel sayında dərc edib).

Müstəqil Dövlətlər Birliyi çərçivəsində Ermənistan qədər ziddiyyətli region yoxdur. «Burada qorxu və sədəqə üzərində qurulan hökmranlıqdan savayı nəzərə çarpan elə bir ciddi şey gözə dəymir. Burada hər hansı kiçik bir hadisəyə düyün üstündən düyün vurulur. Bütün bunlar haqqında Ermənistan Konstitusiyasının yaradıcısı, professor Vladimir Nazaryandan soruşdum. O isə cavab vermədi» (professor O.Voskopulos. Yunanıstan).

«Böyük Ermənistan: hüquqi və fəlsəfi araşdırmalar» kitabına müəlliflik etmiş (1994-cü il. Yerevan, «Ambarsum + Mon» nəşriyyatı) hüquqşünas Vladimir Nazaryan Kaliforniyada çapdan çıxan (San-Fransisko, 2002-ci il, «Kinq fiçerz»

nəşriyyatı) 235 səhifəlik «Ölüm hökmü lazımdırmı?» kitabının da redaktoru və ön söz müəllifidir. Erməni hüquqşünası ön sözdə iddia edir: «...Ermənistan öz milli qanunları çərçivəsində ölüm hökmünə riayət etməlidir. Amma bu hökm erməni millət üçün nəzərdə tutulmamalıdır. Bu ölüm hökmü bizə qarşı həmişə düşmənçilik mövqeyində dayanan türk və türk dünyasına şamil edilməlidir» (səh. 101).

Vladimir Nazaryanın həm Ermənistan, həm də işğal olunmuş Qarabağ ərazilərində fəaliyyət göstərən separatçı terror təşkilatlarının nizamnamə və proqramlarının işlənilməsində də xüsusi xidməti olub. 2000-ci il sentyabrın 22-də V.Nazaryan özünün hazırladığı, heç bir beynəlxalq hüquq normalarına sığmayan «Dağlıq Qarabağ Respublikasının Konstitusiyası» sənədini Ermənistan Təhlükəsizlik Şurasına baxılmaq üçün təqdim edir. Oktyabrın 1-də Xankəndidə qondarma «DQR»in «prezidenti» Arkadi Qukasyanın iştirakı ilə kitabın ilk variantının müzakirəsi keçirilir. Terrorçulara qoşulmuş erməni yazıçısı Zori Balayan 1996-cı ildə Moskvada çap olunmuş «Ermənistanın bəşəri qanunları» qeydlərində həmkarlarına məsləhət bilir ki, Ermənistanın məşhur və tanınmış hüquqşünası Vladimir Nazaryanı «Qanun Nazaryan» kimi çağırsınlar (Moskva, «Литературная газета». 1996-cı il 4 aprel, səh. 26). Çünki o, həm də 1995-ci il iyulun 5-də referendum yolu ilə qəbul olunmuş ölkə Konstitusiyasının «xaç ataları»ndan biridir. Digər bir məlumatda isə göstərilir ki, V.Nazaryan 1991-ci ilin iyul ayından regiona, yəni Ermənistan ərazisinə və eləcə də, Dağlıq Qarabağın işğal olunmuş yaşayış məntəqələrinə silah və hərbi sursat daşınmasını təşkil edən «Tiqran» və «Sxem-16» qruplarının başçılarından olub. Bu barədə keçmiş daxili işlər naziri, «Ermənistan Ümummilli Hərekatı»nın lideri (təşkilat 1992-ci il yanvarın 16-da Ermənistan Ədliyyə Nazirliyində qeydə alınıb), Dağlıq Qarabağ ərazisində işğalçılıq siyasətilə tanınan, yüzlərlə adama təcavüz edən, hazırda Livanda yaşayan general Vano Siradeqyan Beyrutda çap olunan «Ararat» qəzetinə verdiyi müsahibədə deyib (9 aprel 2002-ci il, səh. 2).

«Tiqran» isə (1988-ci il iyulun 14-də yaradılıb) Bakı ermənisi Tiqran Moiseyeviç Xaçenyanın adı ilə bağlıdır. 1989-cu il fevralın 3-dək Sumqayıtda, Bakının Nəsimi və Nizami rayonlarında «Tiqran+Moisey» xeyriyyə təşkilatı kimi fəaliyyət göstərib. Bakıda yaşayan ermənilər təşkilata oktyabr, noyabr, dekabr ayları ərzində 692 min manat yardım köçürürlər («Tiqran». RF, Stavropol, xeyriyyə təşkilatının bülleteni. Noyabr 2000-ci il, № 81).

1991-ci il martın 13-də «Tiqran» qrupu Azərbaycan ərazisindən RF-nın Kursk vilayətinə köçür. 1991-ci il mayın 8-də qrupun 11 üzvü Yerevana gəlir və mayın 19-da Ermənistan Ədliyyə Nazirliyi tərəfindən qeydə alınır («Армянская община». RF Kursk, 4 mart 1999-cu il. «Наш национальный герой Хаченян...» səh. 9).

1991-ci il iyulun 2-də Tiqran Moiseyeviç Levon Eranosyan adlı bir

polkovniklə Livana gedir. İyulun 9-da Əş-Şimal yaşayış məntəqəsində keçirilən «Axşam konqresi»ndə iştirak edir. «Axşam konqresi» Braziliyada, Kolumbiyada, Suriyada, Sudanda, İraqda, İranda, Çin və Yunanıstanda silah alverilə məşğul olan qrup başçılarının iştirak etdiyi yığıncaqdır, bu barədə Sudan SQ-nin orqanı olan həftəlik «De Kuwwat al-Mussallaha» jurnalı hərbi kəşfiyyatın icmalında məlumat verir (1992-ci il, № 8, səh. 10).

Dağlıq Qarabağın işğalında ermənilərə silah yardımının ilk təşkilatçıları da məhz «Tiqran»çılar olub. Tiqran Moiseyeviçin başçılıq etdiyi digər bir qrup «Sxem-16»nın adı isə ABŞ Dövlət Departamentinin sənədlərində bilavasitə regionda, yəni Ermənistan ərazisində nüvə materiallarının və texnologiyasının daşınmasında, narkotik maddələrin alış-verişində hallanır («Bülleten-icmal» - İnternational Criminal Police Orqanization - Leon, 1992-ci il, № 6).

1992-1994-cü illər arasında «Tiqran» qrupunun üzvləri Livandan Dağlıq Qarabağ ərazisinə 19 adda silah və hərbi sursat daşıyıblar. 1993-cü ilin avqustunda Razdan ərazisində silah anbarında baş vermiş partlayışa görə «Tiqran»çıların dörd üzvü - Abram Alekseyeviç (hərbçi), Qauar Robertoviç Avanesyan (vəkil), Papan Aradiyeviç İgityan (kəşfiyyatçı) və Rimma Sergeyevna Raçikyan (jurnalist) həbs olunur. Dörd gündən sonra general Vladimir Nazaryanın səyi ilə hər şey öz axarına düşür. Məlumatlardan bu da aydın olur ki, Ermənistanda 1993-cü il fevralın 14-də (ilk iclas Yerevanda, general Baqramyan küçəsindəki 216 nömrəli binada keçirilib) Azərbaycana qarşı «Qafqaz cəbhəsi» deyilən hərbi-siyasi, bilavasitə iqtisadi kəşfiyyatla məşğul olan (mövcud infrastrukturlara qarşı) bir təşkilatın əsası qoyulur. 1994-cü il dekabrın 2-dən isə bu təşkilat öz fəaliyyət dairəsini təkcə Azərbaycanla bitmiş hesab etmir. Cəbhənin qapıları həm də bütövlükdə Türkiyə dövlətinə tərəf açılır. Tiqran Moiseyeviç Xaçenyan Yerevanla Afina və Tehran arasında əlaqələndirmə şurasının başçısı təyin edilir. Professor Vladimir Nazaryan isə «Qafqaz cəbhəsi»nin nizamnaməsini yazır. Bu arada Türkiyə MİT-nın (xüsusi xidmət orqanı) topladığı sənədlərə əsasən, Yunanıstanın İstanbuldakı baş konsulluğunun idarə işləri üzrə attaşesi Elestratnos Horolombus ifşa olunur. PKK kürd separatçıları və erməni terror təşkilatı olan «ASALA»çılarla məxfi əlaqələr quraraq Yerevan və Afina istiqamətində kəşfiyyat materialları ötürməklə məşğul olub. Bir qədər sonra erməni terrorçuları ilə iş qurmağa cəhd edən hərbi attaşe polkovnik Konstantin Balanos ölkəni tərk edir («Cümhuriyyət» qəzeti, Türkiyə. 12 iyun 1995-ci il).

«Tiqran»çıların işğal olunmuş zonaya - Qarabağ ərazisinə silah və hərbi sursat daşınmasını nizamlayan və «Qafqaz cəbhəsi»nin aktiv üzvlərindən olan polkovnik Levon Eranosyana 2001-ci il noyabrın 4-də Ermənistan prezidentinin sərəncamı ilə general-mayor rütbəsi verilir və Birinci Ordu Korpus komandanı təyin edilir («Армянский вестник» Yerevan variantı. 6 sentyabr 2001-ci il, səh. 11).

2001-ci il noyabrın 19-da Tiqran Moiseyeviçə «Qızıl xaç» ordeni təqdim edilir. İşğal olunmuş ərazinin terrorçu «prezidenti» Arkadi Qukasyanın, üzdəniraq diplomat Naira Melkumyanın iştirak etdikləri bu yığıncaqda Tiqran Moiseyeviçə polkovnik rütbəsi də verilir və ona hərbi kəşfiyyat idarəsində aparıcı şöbələrdən biri həvalə olunur. Polkovnik Tiqran Moiseyeviçin başçılıq etdiyi şöbənin əsl adı isə noyabrın 26-da Xankəndidə keçirilən hərbi məşvərətdə açıqlanır: «Kütləvi qırğın silahlarına qarşı mübarizə aparan strateji şöbə» («Artsax» qəzeti. Xankəndi, 28 noyabr 2001-ci il, səh. 1).

Nəzarətsiz qalan Qarabağ ərazisində silah alverindən tutmuş terror təşkilatlarınadək hər şey rəsmiləşdirilirdi.

Bütün işlər yazılmamış qanunlar çərçivəsində görülürdü. Qeyri-qanuni əldə olunmuş silahların, nüvə texnologiyasının, uran və plutonium materiallarının, narkotik qaçaqmalçılığın marşrutları, keçid və daşınma istiqamətilə bağlı ilkin nəticələrimiz də var. Xatırladaq ki, Ermənistanın üst-üstə ümumilikdə 1254 km quru sərhəd zolağı var. Bunun Naxçıvan da daxil olmaqla 787 kilometri Azərbaycanla, 35 kilometri İranla, 268 kilometri Türkiyə ilə, 164 kilometri isə Gürcüstanladır.

Təkcə Gürcüstanla sərhəd zonasında 2001-ci ildə 14 dəfə nüvə texnologiyası materiallarının oğurluğu, daşınması ilə bağlı insident baş verib. On dörd cinayət işindən cəmi ikisi ilə bağlı istintaq işləri aparılıb. Nəticəsi hələlik yoxdur.

İranla sərhəd zolağında isə 2000-ci il avqustun 4-də 59 kq heroin aşkar edilmişdi. 2001-ci il iyulun 2-də İranın sərhəd qoşunlarının əməkdaşları Ermənistan ərazisindən İrana keçən «narkokuryeri» həbs edərək, ondan 32 kq müxtəlif adda narkotik maddələr müsadirə ediblər. Nəticə yenə də yoxdur: tranzit yolları bu gün də nəzarətsiz və açıqdır («İran» qəzeti, Tehran. 14 noyabr 2001-ci il, səh. 6).

2001-ci il oktyabrın 19-da polkovnik Tiqran Moiseyeviç və hüquqşünas Vladimir Nazaryan Amerika Birləşmiş Ştatlarına səfər edirlər. Bu qeyri-rəsmi səfərlərin bütün xərclərini Amerika Erməni Assambleyasının hökumətlə əlaqələr üzrə direktoru C.Braun Erdouni çəkib. Oktyabrın 24-də ABŞ Konqresinin kitabxanasının məsul işçisi Levon Avdoyanın iştirakı ilə Tiqran Moiseyeviçin və Vladimir Nazaryanın ermənipərəst konqresmen Kristofer Smit və Frenk Polione arasında görüşü keçirilir. İki strateji məsələ müzakirə edilir:

l. Dağlıq Qarabağın statusu və gələcək taleyi;

2. Dağlıq Qarabağ torpaqlarının Amerika milli təhlükəsizliyi baxımından istifadəsi.

İkinci məsələ ilə bağlı ABŞ Senatının qəbul etdiyi qanun layihəsində Qarabağ münaqişəsinin (müharibəsinin - red.) tənzimlənməsi pərdəsi altında xüsusi yardım bankı da açılıb (ABŞ-ın Kaliforniya ştatındakı erməni icmasının nəşr

etdirdiyi «Политическая мысль» jurnalı. Dekabr 2001-ci il, səh. 29).

Həm Senatda, həm Konqresdə, həm də Dövlət Departamentində, eləcə də Kütləvi İnformasiya Vasitələrində çalışan erməni yazarların, erməni təəssübkeşlərinin qarşısında yeni, əslində isə mahiyyət etiban ilə köhnə olan strateji məsələ qoyulmuşdu: Dağlıq Qarabağ bütövlükdə dünyanın aparıcı dairələrində, siyasi birlik və təşkilatlarında «hüquqi dövlət» kimi təbliğ olunmalı idi. İşğal olunmuş ərazinin erməni icmasının ciddi nəzarətində qalması, adamların beynəlxalq hüquq normaları çərçivəsində yaşamalarının təmin olunması haqqında beynəlxalq miqyaslı rəylər alınmalı idi.

«Dağlıq Qarabağ haqqında müstəqil konsepsiya» adlı siyasi sənədin ilkin nüsxələri yayılmalı idi. Tarixi baxımdan, hələlik kənarda qalan, lakin lazım olan anlarda «ciddi bir mexanizm» kimi işə salınan bu sənəd, əslində 2000-ci il yanvarın 3-də hazırlanmışdı («Artsax» qəzeti. Xankəndi, 21 fevral 2000-ci il, səh. 2).

Belə bir konsepsiyanın ilkin variantı hələ 2000-ci il avqustun 9-da Xankəndidə müzakirə edilmiş və kiçik düzəlişlərlə ABŞ politoloqu Pol Qobla ötürülmüşdü. Konsepsiya 2000-ci il avqustun 14-də «Regional təhlükəsizliyin təmin olunması» mövzusunda Xankəndidə keçirilən müşavirədə səsləndirildi. «Regional» dedikdə Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ ərazisi nəzərdə tutulur. Bu barədə «Şuşa ərazi kəşfiyyat xidməti»nin məsul işçilərindən olan mayor Artaşes Nailyan məlumat verib. Bu haqda Şuşa hərbi dairəsi üçün nəzərdə tutulan 2000-ci il avqustun 21-də Şuşada nəşr olunan «Korpus - nasional» bülleteninin 12-14-cü səhifələrində material var.

Erməni terrorçularının işğalına məruz qalmış regionla bağlı «Dağlıq Qarabağ haqqında müstəqil konsepsiya»nın hazırlanmasında hüquqşünas Vladimir Nazaryan, ermənipərəst konqresmenlərdən Kristofer Smit (ABŞ Konqresinin ATƏT-lə əlaqələr komitəsinin həmsədri), Frenk Polione, Braun Erdouni da yaxından iştirak ediblər. (V.Nazaryan: «Dağlıq Qarabağ haqqında hüquqi sənəd». Yerevan. «MTİK» nəşriyyatı. Noyabr, 2000-ci il. Rus, ingilis və erməni dillərində.)

«Müstəqil konsepsiya»nın mahiyyətinə görə yaxın gələcəkdə (erməni ideoloqlarının fikrincə, 2005-ci ilədək) Dağlıq Qarabağın «müstəqil respublika» kimi hökumət və dövlət strukturları, kəşfiyyat mərkəzləri və beynəlxalq əlaqələri yenidən qurulmalı idi.

Bu arada Dağlıq Qarabağın «Yeni hökumət strukturu» adlı proqram-sənədinin də müzakirəyə çıxanlacağı haqqında ilkin məlumatlar yayılırdı. İyirmi dörd səhifəlik bu strateji proqramın 13-cü bəndində yazılır: «Dağlıq Qarabağın beynəlxalq hüquq normaları çərçivəsində hazırlanmış və Avropa standartlarına uyğun təşkil ediləcək hökumət strukturunda xaricdə yaşayan və tanınan ermənilər iştirak edə bilərlər» (Yenə orada, səh. 42).

Araşdırmalarımıza görə, 2000-ci il oktyabrın 1-dən 2001-ci il fevralın 4-dək

Dağlıq Qarabağ istiqamətində hazırlanmış sənədlərin hüquqi cəhətdən rəsmiləşdirilməsində və yayılmasında xüsusi rol oynayan Vladimir Nazaryan 2001-ci il fevralın 16-da Tehrana yola düşür. İlk günlər bu səfərin məqsədi açıqlanmadı. Lakin Ermənistanın həm Moskvada, həm Tehranda və həm də Vaşinqtondakı səfirliyində Dağlıq Qarabağ problemi ilə məşğul olan nümayəndəlik statusunda ayrıca bölmə fəaliyyət göstərir. Vladimir Nazaryan Tehrandakı erməni səfirliyinin «DQ üzrə nümayəndəsi» ilə görüşündə qeyd edir ki, o, 1988-1989-cu illərdə Dağlıq Qarabağ ərazisindən, eləcə də Azərbaycanın müxtəlif regionlarından İran İslam Respublikasına köçmüş erməni icmasının nümayəndələri ilə görüşəcək. 2001-ci il fevralın 21-də Vladimir Nazaryan 1990-cı ilin avqust-sentyabr aylarında Şuşadan İrana köçmüş və hazırda İsfahanda məskunlaşan «Şuşa erməni icması»nın başçısı Aleks Karaxanyanı qəbul edir. Fevralın 24-də isə 1990-cı ildən Bakıdan, Gəncədən və Naxçıvandan köçüb getmiş və hazırda Tehranda məskunlaşan «Azərbaycan erməni icması»nın nümayəndələri ilə görüşür. 1985-ci ilədək Azərbaycan Dövlət Universitetində işləyən Tolik Vardanyan, fizik Suren Çekoryan, alim Dadun Saradeqbekyan, vəkil Aleksey Çitçiyan da həmin görüşdə iştirak ediblər. Bu şəxslər İranda Dağlıq Qarabağın Ermənistana mənsubluğu haqqında 1990-cı il dekabrın 12-də, 1991-ci il iyulun 3-də, 2000-ci il avqustun 26-da, 2001-ci il martın 23-də İranın ermənipərəst diplomatları ilə birgə «hüquqi sənədlər»in hazırlanmasında iştirak ediblər. «Azərbaycan erməni icması»nın ictimai bir təşkilat kimi qeydə alınması artıq Tehran rəsmiləri tərəfindən təmin olunub (5 iyul 1992-ci il). General Vladimir Nazaryan 2001-ci il fevralın 28-də (Tehran, İmam Xomeyni xiyabanı, Hüseynabad meydanı) Azərbaycan ərazisindən, o cümlədən Naxçıvandan, Bakıdan, Gəncədən və Dağlıq Qarabağdan köçüb getmiş və hazırda Tehranda, İsfahanda, Təbrizdə və Ərdəbildə məskunlaşan erməni nümayəndələri ilə görüşündə inandırmağa çalışır ki, yerli ermənilərdən (yəni, İran ermənilərindən) fərqli olaraq, onlar 1992-1993-cü illərdə Dağlıq Qarabağdan İrana pənah gətirmiş azərbaycanlılarla, eləcə də bugünkü Azərbaycan dövlətinin siyasi kursunu tənqid etdikləri üçün İrana sığınmış şəxslərlə sıx təmasda olmalı, «incidilmiş azərbaycanlılar»ın təşkil etdikləri «Azərbaycanın Demokratik Hökuməti» adlı qurumda iştirak etməlidirlər və buna onların hüququ var. Çünki onların əksəriyyəti İran vətəndaşlığını qəbul etməyib və rəsmi dairələrdə, xeyriyyə və imdad təşkilatlarında Azərbaycan vətəndaşı kimi qeydiyyata alınıblar («Pegah» həftəlik qəzeti. Gilan. 9 mart 2001-ci il, səh. 6).

Erməni hüquqşünasının etiraf etdiyi kimi, belə bir qondarma və üzdəniraq hökumətin Baş Qərargahı ABŞ və Rusiya ərazilərində də fəaliyyət göstərir.

«Azərbaycanın Demokratik Hökuməti» adlı qurum 1999-cu il fevralın 14-dən martın 24-dək İranın Əhər yaşayış ərazisinin Reyhan məntəqəsində fəaliyyət göstərib. On bir nəfərin iştirak etdiyi bu «Kölgə hökuməti» Azərbaycanda mövcud quruluşu qəbul etmir. Onların fikrincə, Azərbaycan ərazisi zahirən müstəqildir.

Onun qanunları da, islahatları da, parlamenti də ümumən hökumət təmsilçiləri də regionda geosiyasi və geoiqtisadi maraqları olan NATO-ya üzv ölkələrin maraq dairəsinə salınıb. 2000-ci il sentyabrın 2-də «Kölgə hökuməti» Rəşt şəhər mərkəzinin cənub-qərb zonasına köçürülür. Qondarma hökumətin üç erməni, iki talış, iki kürd, dörd azərbaycanlı üzvü var. Başqa bir məlumatda isə bildirilir ki, «Kölgə hökuməti»nin tərkibində müstəqil «hərbi səhra məhkəməsi» deyilən bir qurum da fəaliyyət göstərir. Bu qurumun da dörd üzvü var. İki həftədən bir məşvərət keçirən qurumun üzvləri Azərbaycan ərazisində baş verən hüquqi dəyişiklikləri araşdırır, ayrı-ayrı şəxslər haqqında əldə etdikləri informasiya və məlumatları müzakirə edir, «gələcəkdə etdikləri əməllərə görə cəzalanacaq adamların siyahısına əlavə edirlər».

Quruma daxil olan üzvlərin hər birinin həm Rusiya, həm Orta Asiya və Ermənistanla, həm Azərbaycanla (Əsasən Naxçıvan MR-lə) və həm də Türkiyə ilə biznes və kommersiya əlaqələri mövcuddur. «Kölgə hökuməti»nin Rəşt Beynəlxalq İslam Bankında hesabı var. Araşdırmalarımızdan bu da məlum oldu ki, sərhəddən kənar qeyri-qanuni Azərbaycanın müstəqilliyinə və dövlətçiliyinə zidd fəaliyyət göstərən bu qurumun - «Əsl milli hökumət»in üzvlərinin bir qismi 2001-ci il oktyabrın 3-dən 9-dək Azərbaycanın ermənilər tərəfindən işğal olunmuş ərazilərinə baxış keçirib. Onlar Zəngilanın, Qubadlının, Laçının, Şuşanın yaşayış məhəllələrini gəzdikdən sonra Xankəndidə Naira Melkumyanla görüşüblər. Bundan sonra qondarma hökumətin üzvləri ABŞ Dövlət Departamentinə, Rusiya prezidenti Vladimir Putinə, Avropa Şurasma və Ermənistan Təhlükəsizlik Şurasına nəzarətdən kənar zona elan edilmiş Qarabağın yaşayış məntəqələrinin ictimai-siyasi, iqtisadi və hərbi durumu ilə bağlı hesabat məkrublarını hazırlayıblar. İran rəsmiləri isə onların hazırladıqları hesabat məktublarına möhür vurmaqdan imtina ediblər. 16 səhifəlik hesabat 2001-ci il noyabrın 21-də Ermənistan Təhlükəsizlik Şurasında müzakirəyə göndərilib. Noyabrın 29-da isə Tiqran Moiseyeviç «Əsl milli hökumət»in Dağlıq Qarabağdakı nümayəndəsi təyin olunub (Xankəndi ərazisindən yayımlanan «Artsax» telekanalının 2001-ci il noyabrın 26-da yayımlanan verilişi).

Yerevanın Prezident Aparatında müzakirəyə çıxarılmış sənədin mahiyyətindən aydın olur ki, guya «Dağlıq Qarabağ ərazisində hər şey qanun çərçivəsində həll edilir. Bu ərazi zorakılıq və təcavüzkarlıq siyasətindən uzaq bir ərazidir» («Pan Armenian». Yerevan. Dekabr, 2001-ci il).

Araşdırmalarımıza görə, Azərbaycanın müstəqil daxili və xarici siyasətinə qarşı ikinci «Kölgə hökuməti» Rusiya Federasiyası ərazisində qurulub. Tehran rəsmilərindən fərqli olaraq, bu hökumət bir qurum və yaxud hər hansı bir xeyriyyə təşkilatı kimi qeydə alınmayıb. 1998-ci il iyulun 2-dən formalaşan və ilk iclası Moskva Dövlət Universitetinin tətbiqi riyaziyyat fakültəsinə mənsub otaqlardan birində keçən bu qurumun 17 üzvü var. Məlumata görə, ilk iclasdan sonra qurumun

ayrı-ayrı üzvləri RF Federal Təhlükəsizlik Xidmətinin və Prezident Aparatının səlahiyyətli nümayəndələri ilə də əlaqəyə giriblər. Moskvada qeyri-leqal qurulmuş bu təşkilat İrkutskdakı «Təbriz-Azərbaycan Cəmiyyəti» (1992-ci il iyulun 16-da yaradılıb), Həştərxandakı «Xəzər» Cəmiyyəti (1992-ci il iyunun 3-də yaradılıb), 1990-cı il mayın 12-də Ulyanovskda qeydiyyata götürülmüş «Odlar Yurdu», azərbaycanlı mühacirlərin Samarada (1994-cü ilin 4 sentyabrında yaradılıb) təşkil etdikləri «Ozan» cəmiyyətinə də sorğu ilə müraciət edib («Region»... Müstəqil siyasi xəbərlər qəzeti. Moskva, 4 noyabr 1998-ci il).

Moskva vilayətində formalaşmaqda olan «Azərbaycan Milli Demokratik Hökuməti»nin tərkibində uzun müddət Bakıda yaşamış, bir müddət Səhiyyə Nazirliyi sistemində çalışan professor Hacıbəy Əmiryan, prokurorluq orqanlarında işləyən «Lyova» ləqəbli Qriqori Avakyan da var. Digər bir məlumatda bu da qeyd olunur ki, 2000-ci il aprelin 17-də «Dağlıq Qarabağ Respublikası Konstitusiyası»nın rus variantını Moskvaya gətirən və onun Rusiya Ədliyyə Nazirliyində kiçik müzakirəsini təşkil edən doktor Vladimir Nazaryan da bu qurumun erməni üzvləri ilə görüşlər təşkil edib («Армянский вестник» qəzeti, 6 aprel 1999-cu il).

Amerika Birləşmiş Ştatları ərazisində isə belə bir qurumun əsası 1999-cu il dekabrın 9-da qoyulsa da, bu gün də formalaşmayıb (O.Lalayan-Arutunyan: «Dağlıq Qarabağın xarici əlaqələri». Moskva «Hüquq ədəbiyyatı» nəşriyyatı. 1999-cu il). Ona görə formalaşmayıb ki, Vaşinqton ərazisində təməli qoyulan «Azərbaycan Milli Demokratik Hökuməti»ndə ayrı-ayrı neft şirkətlərinin, ermənipərəst konqresmenlərin və senatorların maraqları var. Məlumata görə, son üç il ərzində Azərbaycandan gedən 37 şəxs bu maraqlar baxımından sorğu-suala tutulub. Qeyd edək ki, iqtidar-müxalifət anlayışı Azərbaycan sərhədlərinədəkdir. Sərhəddən sonra bu anlayış heç bir Qərb dövlətində dərk olunmur. Məsələn, Amerikanın rəsmi sənədlərində iqtidar-müxalifət anlayışı yoxdur. Bu ölkədə bütün məsələlərə demokratik prizmadan yanaşırlar. Hələlik Amerika administrasiyası üçün «Bakı demokratları və islahatçıları» tam qəbul edilmir. «Azərbaycan Milli Demokratik Hökuməti»nin Vaşinqton ərazisində təkcə özəyi var. Onun üzvləri pərakəndə bir formada elə Azərbaycandadır. Bu qurumun üzvləri Tehrandakı qurumun üzvlərindən 2,5, Moskva ərazisindəki qurumun üzvlərindən isə 3 dəfə artıq maliyyə yardımı alırlar. Bu yardımlarda məlumata görə, şəxsi görüşlərdə, rəsmi yığıncaqlarda, diskussiya və müşavirələrdə nəzərdə tutulmuş ünvanlara ötürülür.

«Kölgə hökumətlərin ilə bağlı əldə etdiyimiz məlumatlardan biri də bu olub ki, Dağlıq Qarabağda açılan silah bazarının təşkilatçılarından olan, «Ermənistanın gələcəkdə nüvə silahına sahib olmasını» açıqca elan edən, ölkə Konstitusiyasının yaradıcısı və qondarma «Dağlıq Qarabağ Respublikası Konstitusiyası»nın ilkin variantlarını (bu variantlar dörddür) hazırlayan professor Vladimir Georgiyeviç

Nazaryan 2002-ci il iyunun 20-də saat 21:40 dəqiqədə özünü asaraq intihar edib. (Bax: «Azq» qəzeti. Ermənistan, 2002-ci il, 21 iyun).

* * *

**S.S.Bablumyan (erməni alimi-arxeoloqu):**

"Biz Dağlıq Qarabağa girməklə çox şeyi itirdik. Xarici həmfikirlərim qarşısında mənə olan inam xeyli azalıb. Bizi işğalçı kimi tanıyırlar. Bu bizə lazım idi?..". (Bax: Fransa. "Antenn 1" telekanalına verilən müsahibə. 2002. IV.26).

## GENOSİD ÜÇÜN «YARDIM AKTI»

Araşdırma materiallarında qeyd olunur ki, erməni işğalçıları Azərbaycan ərazilərində etdikləri terror əməlləri ilə bağlı dünya mətbuatı səhifələrinə çıxanla biləcək ən kiçik informasiyanın yayınmaması üçün «Qaranquş» adlı xüsusi qruplar yaradıblar. Təşkilatın üzvləri birbaşa xarici ölkələrdə məskunlaşmış erməni diaspor təşkilatları ilə, icma üzvlərilə, kilsə şurası ilə əlaqəyə girir. Qarabağ istiqamətində məlum olan erməni cinayətlərinin ört-basdır edilməsində xüsusi canfəşanlıq göstərirlər. Məsələn, erməni ideoloqları Los-Ancelsdə (ABŞ) Qarabağ həqiqətlərinin qarşısını almaq üçün 2002-ci ildə 370 min, 2003-cü ildə 400 min, 2004-cü ildə 440 min, 2005-ci ildə 460 min ABŞ dolları vəsait sərf ediblər. Ümumiyyətlə, Yerevan Azərbaycan istiqamətində antiazərbaycan siyasətini yürütmək üçün 2010-cu ilədək 19 milyon ABŞ dolları vəsait ayırıb. Bunun da 75 faizi İsveçrə, Kanada, Fransa, ABŞ-ın payına düşür (?).

Hələ 2000-ci ilin 25 iyununda Beyrutdakı Ümumerməni Kilsə Şurasınm çıxardığı «Erməni üçün bərabər pay bölgüsü» qətnaməsinin girişində yazılırdı: «Böyük Ermənistan torpağı uğrunda vuruşan və əsasən Dağlıq Qarabağda - Artsaxda (Xankəndi) düşmənə qarşı azadlığı və vətən sevgisi üçün meydanlara atılan «ASALA» ordusunun böyük əsgərlərinə hörmət və ehtiramla ayrılmış pay bölgüsünü qurtardıq. «ASALA» bizim nəzərimizdə «Vartan cəngavərləri»dir. «Vartan cəngavərləri» «ASALA»nm döyünən ürəyi və vuran əlidir. Düşünən beyni, eşidən qulağı, görən gözüdür» (Livan. «Aztaq» erməni qəzeti. Daşnaksütyun Partiyasının orqanı. 27 iyun 2000-ci il nömrəsinə əlavə, səh. 2).

2001-ci il fevralın 4-də isə Şuranın katibliyində beynəlxalq əlaqələrə baxan, 1964-cü ildən 1985-ci ilədək Sumqayıt şəhərində pasport qeydiyyatında olan mühəndis Qurgen Matesxoviç Seraqanyan Roma İlahiyyat Akademiyasının üzvü Xose Luisa Şaneyə göndərdiyi məktubda xahiş edir ki, «erməni mənəviyyatı və əqidəsi uğrunda vuruşan» «Vartan cəngavərləri»nin katolik kilsəsinin məxfi ordusu kimi qüdrət və güc sahibi olan «OPUS DEI» («Allahın ordusu») ordusu ilə əlaqələrində yardımçı olsun. Onun fikrincə, «yer üzündə elə bir millət tapılmaz ki, erməni milləti qədər atdığı addımlarda Allahın əmri və hökmü olmasın».

2001-ci il martın 9-da Livanın Sayda liman şəhərindəki Dini Mərkəzdə

Roma katolik kilsəsinin «Allahın ordusu» ilə «ASALA» erməni terrorçu hərbi korpusunun bir qolu olan «Vartan cəngavərləri» arasında «Yardım aktı» imzalandı və qəbul olunmuş müştərək bəyannaməyə əsasən qeyd olundu: «Biz ulduz kimi parlamaq, yerə və göyə sahib olmaq istəyiriksə, heç kəsə inanmamalı, heç kəsi özümüzə dost hesab etməməliyik. Qoy, hamı bizim dostumuz olsun. Məhəbbətimizi və istəyimizi bildirmədən əqidə və torpaq uğrunda vuruşmalıyıq».

«Allahın ordusu»nun məxfi «İcmal» bülletenində isə qeyd edilir: «Bizim ən böyük ambisiyalarımız özünü həyatın siyasi, dini, iqtisadi, mədəni sahələrində daha qabarıq göstərir. Biz bütün məsələlərə sivil qaydada yanaşırıq». (Yanvar, 2000-ci il. № 2, səh. 11).

Əslində «Vartan cəngavərləri»nin fəaliyyət prinsipinə Roma katolik kilsəsində yaxşı bələd idilər. «Vartan cəngavərləri» artıq «ASALA»nın ən möhtəşəm silahlı birləşməsi kimi özünü tanıda bilmişdi. Məsələn, Xocalıda həlak olanların bir qisminin ayaqlarında, sinə və sifətlərində belə işarələr var idi: «B», «A», «S», «M». Bütün bu hərflərin küt erməni bıçaqları ilə bədənə «yeridildiyi hiss olunurdu».

«Vartan cəngavərləri»nin «ASALA»nın bir qolu olması haqqında həm MKİ-də (ABŞ), həm «Mİ-6»-da (İngiltərə), həm «MOSSAD»da (İsrail), həm «MİT»-də (Türkiyə), həm «BND-5»-də (Almaniya), həm RTX-də (RF), həm «ET-TELAAT»da (İran) kifayət qədər informasiya var. Buna baxmayaraq, Beyrutda və Parisdə məxfi Baş Qərargahını yaradan (1986-cı il iyulun 4-də) «Vartan cəngavərləri»nin - terrorçu bir qurumun imzası Ağ Evdə (ABŞ) göründü.

«Vartan cəngavərləri»nin Dağlıq Qarabağla əlaqədar ilk məktubu 1998-ci il yanvar ayının 7-sində Prezident Bill Klintona təqdim edildi. Məktubu iş adamları və diaspor nümayəndələri (O.Babayan, S.S.Soleymanyan, T.Ş.Badamçıyan, Q.Qriqoryan, L.Şaqen, F.Petrosyan) imzalamışdılar. 2001-ci il martın 12-də isə həmin məktub bir qədər təzələndi. Bu dəfə «Vartan cəngavərləri» eyni adlı və eyni məzmunlu məktubu ABŞ Prezidenti Corc Buşa ünvanladılar. «Vartan cəngavərləri»nin imzaladıqları məktub da əvvəlki kimi, bədnam «907-ci düzəliş»lə bağlı idi. Üstündə əl gəzdirilmiş məktubda «cəngavərlər» yazırdılar: «Cənab prezident! Dağlıq Qarabağın öz müqəddəratını təyin etmək hüququnun alternativi yoxdur. Əsas hüquq - seçmək azadlığı olmadan möhkəm sülh ola bilməz. DQ xalqı bu hüququ ağlasığmaz qurbanlar bahasına qazanıb. Birləşmiş Ştatlar bu əsas hüquqdan dincliklə istifadə etməyə çalışan Qarabağ xalqının tərəfində durmalıdır.

Məhz həmin prinsiplə Birləşmiş Ştatlar köhnə xətt tutan, qonşulara qarşı iqtisadi blokadanı genişləndirən və müntəzəm dəstəkləyən, birliyə kömək etməyən, Ermənistan və Dağlıq Qarabağ xalqının başına olmazın müsibətlər gətirən, irqçilik şüarlarından istifadə edən Azərbaycan hökumətinə haqq qazandırmamalıdır. ABŞ Konqresi Azərbaycan hökuməti tərəfindən təcavüz siyasətinin əleyhinə olduğunu bir sıra hallarda bildirmişdir. Hökumət konqresin tutduğu prinsipial mövqeyi

dəstəkləmir. Azərbaycana və regionun basqa ölkələrinə dentək lazımdır ki, Dağlıq Qarabağın təhlükəsizliyi üçün yeganə təminat onun özgələcəyini seçmək hüququdur».

Məktubun məzmunu yəqin ki, sizə tanışdır.

## TERRORÇU QRUP: «VARTAN CƏNGAVƏRLƏRİ»

Terror təşkilatının Dağlıq Qarabağ istiqamətində nəzərdə tutduğu 28 səhifəlik strateji tədbirlər planına 1998-ci ildə 16 səhifə əlavə edildi. Terrorçular bu dəfə işğal olunmuş Qarabağda öz məqsədlərini dörd istiqamətdə yekunlaşdırdılar:

l. Nüvə terrorizmi (Həsənli, Ağdaban, Kuropatkin, Xanabad)

2. Bioloji terrorizm (Kiş, Aşağı Veysəlli, İstisu)

3. Kimyəvi terrorizm (Havıslı, Vejnəli)

4. Kompüter terrorizmi (Şuşa, Xankəndi).

Nüvə terrorizmi ilə bağlı ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin ekspertləri Yaxın Şərq və Cənub Şərqi Asiya Komitəsinin belə bir məsələsini çatdırıblar ki, Əfqanıstan, eləcə də MDB ərazisi narkobiznesin, silah alverinin, nüvə materialları qaçaqmalçılığının «körpüləri»dir. Bu həyəcanlı çağırışa ABŞ prezidenti 13.129 nömrəli sərəncamla cavab verdi.

(Presidential Documents Executive Order 13.129. Property and Prohibitinq Transactions With the Taliban - Federal Register. Vol. 64, № 13.129)

Nüvə terrorizminə 1986-cı ildən 1992-ci iləd ək Yerevan Fizika İnstitutunun əməkdaşı olmuş fizika elmləri namizədi Stepan Baqdasaroviç Əmiryanın qrupu başçılıq edirdi. Bioloji terrorizmlə isə kimya üzrə ixtisaslaşan və uzun müddət Yerevandakı 4, 8, 12 nömrəli əczaxanalarda işləyən doktor Tamara Saatovna Lepardian məşğul oldu. Kimyəvi və kompüter terrorizmləri isə bilavasitə Dağlıq Qarabağdakı ordu birləşmələrinin BQ-na keçirildi.

Qarabağ ərazisində yaradılmış və doqquz müxtəlif qrupa bölünmüş «Yardımçı» silahlı dəstələrin üzvləri isə 1999-cu il avqustun 3-dən etibarən öz silahlarını qondarma «respublika»nın «Müdafiə Nazirliyin»-də qeydiyyatdan keçirdilər. Bu doqquz qrupun üzvləri də əsasən işğal olunmuş ərazilərdən Azərbaycan istiqamətində fiziki, mənəvi və iqtisadi terror planlarının icrası üçün təlimatlandırıldılar: Şuşadan təqribən 2 km aralı qərb istiqamətindəki Xəlifəli yaşayış ərazisində, Cəbrayılın mərkəzindən 1,5 km aralıda yerləşən Xorovlu kəndində, Qubadlıda isə mərkəzdən şərq istiqamətdə.

Araşdırmalarımızdan bu da aydın oldu ki, 1999-2001-ci illərdə Atom Enerjisinə və Nüvə Tullantılarına Beynəlxalq Nəzarət Agentliyinin yüksək çinli məmurları dünyaya səs saldılar ki, MDB ölkələri ərazilərində «nüvə mafiyası»

yaradılıb. Tarixdə və siyasi həyatımızda ilk «nüvə ordusu» termini vətəndaşlıq hüququ qazandı. MDB məkanında bu adı da qazanan, bu adla çağırılan Atom (bu onun doğma adıdır) Abramoviç Melkonyan oldu.

1999-cu ildə ermənilər Kəlbəcərin Çaykənd yaşayış ərazisində rus mütəxəssislərinin köməyi ilə nüvə tullantıları anbarını inşa etdilər. Qəribə idi ki, bu anbara nəzarət 1999-cu il mayın 19-dan Ermənistan ərazisinə daxil olan bir qrup Əfqanıstan və Pakistan vətəndaşına həvalə edildi. Əslində bu adamların Ermənistana, oradan da işğal olunmuş Qarabağ ərazisinə «pənah gətirmələri»ndə heç bir dolanışıq və iqtisadi məqsəd yox idi. 1999-cu il martın 27-də əfqan qrupunda Ermənistana gələn və ölkənin fizika institutlarının birində təhsil almaq üçün «Vətən» cəmiyyətinə müraciət edən Məhəmməd Murad Yerevan Təhlükəsizlik Xidmətinin yüksək çinli məmuru tərəfindən «Armeniya» (Ermənistan) mehmanxanasının 5-ci mərtəbəsinin 59-cu otağına söhbət üçün dəvət edilir. Əfqan Məhəmməd Murad 1999-cu il sentyabrın 17-də «Wagt» («Zaman») qəzetinə (Lahorda nəşr edilir) verdiyi müsahibədə (səh. 3) Yerevan Təhlükəsizlik Xidmətinin polkovniki Serj Samvelyanın adını çəkir və iddia edir ki, təhlükəsizlik polkovniki nüvə materiallarının qeyri-qanuni satılmasında, qaçaqmalçılığında adına «Yusuf oba» deyilən qrupla əlbirdir. 1989-cu ildən Əfqanıstanın Pişavər yaşayış ərazisində əfqan ərəblərinin kəşfiyyat dəstəsində xidmət edən Məhəmməd bunu da etiraf edir ki, o, öz yoldaşları ilə Ermənistana və Dağlıq Qarabağa məhz nüvə materiallarından ötrü gəlmişdi. O, üç ay polkovnikin nəzarəti ilə «Yusuf oba»nın qrupunda İrana, traqa tərkibində 239 izotopu olan nüvə birləşməsini - plutoniumu aparıb.

«Əfqan ərəbi» bunu da qeyd edir ki, Yerevana bu nüvə materialı xüsusi təyyarə marşrutlarında, kompüter dəstlərinin və hərbi sursatların arasında gətirilir. O, müsahibəsinə belə yekun vurur: «Yerevanda «nüvə oğruları» deyilən bir dəstə mövcuddur. Onların geniş əlaqələri və imkanları var. Bu nüvə oğrularının 1999-cu il avqust ayının 28-dək baş qərargahları, məşvərət ocaqları elə Yerevanın özündə idi. Bütün qapalı söhbətlər və mənə edilən təkliflər MN-də, 14-cü otaqda baş verirdi. 1999-cu il sentyabrın 4-dən bu məşvərət ocağının bir hissəsi Artsax (Xankəndi) mərkəzinə keçirildi. Vyanada baş tutan konfransda atom enerjisinə və nüvə tullantılarına nəzarət beynəlxalq mərkəz belə bir bəyanat verdi: «Sənədlər təsdiq edir ki, Üsəma bin Laden nüvə silahı üçün nəzərdə tutulan texnologiyaya və materiallara malikdir».

Yerevan Təhlükəsizlik Xidmətinin polkovniki Serj Gevorkoviç Samvelyan da «Vartan cəngavərləri»nin bilavasitə «nüvə terrorizmi» qrupuna başçılıq edən Stepan Baqdasaroviç Əmiryanla eyni cərgədə, eyni siyahıda dayanırdı. Çünki təhlükəsizlik polkovnikinin əli artıq Rusiya Federasiyasının nüvə anbarlarınadək gedib çıxırdı.

Ermənistanda «nüvə məsələləri»lə (nüvə mafiyası ilə) məşğul olan şirkətlər

önündə «Razdanmaş», «Jak-Mak Metalz», «Arşavir», «Akopyan» (geyim istehsal edən fabriklə qarışdırmayın), «Vartanoyl» şirkətləri gedir. «Jak-Mak Metalz» (1947-ci ildən), «Akopyan» (1998-ci ildən) Qarabağda məxfi elmi-tədqiqat laboratoriyaları da açıblar. Hətta «Vartanoyl» qrupunun Naxçıvan zonasında 2002-2005-ci illər üçün nəzərdə tutduqları «Uran axtarışı proqramı» var.

«Jak-Mak Metalz» şirkəti işğal olunmuş Qarabağ ərazisində ötürücü və yaxud əlaqələndirici rolu icra edir. Məsələn, şirkət 2000-ci il noyabrın 16-dan 20-dək bu ərazidə Ukraynadan gətirilmiş və yaxud gizli yolla əldə edilmiş raket texnologiyası üçün lazımlı olan 650 heroskopun, 146 ədəd hərəkət-uçuş mexanizmi sistemində istifadəsi nəzərdə tutulan polad örtüyün və əyləclərin İrana və İraqa yola salınmasında Zəngilan, Cəbrayıl sərhəd keçid məntəqələrinin köməyi ilə birgə işləmişdir. Digər tərəfdən, Dağlıq Qarabağ ərazilərinə daşınmış «S-300» və «Tayfun» raketlərinin modernləşdirilməsi yolunda da maraqlı üçtərəfli tədqiqatlar aparılır. Bu raket texnologiyası istiqamətində 2000-ci il iyulun 23-də Moskva+ Pekin+Yerevan danışıqları da var. Bu istiqamətdə professor Kim Jen Sen +Viktor Mixaylov + Ter-Avakyan (Ermənistan) qrupu da öz işlərini davam etdirir. Kim Jen Sen Pekində nüvə tədqiqatları, eləcə də lazer istiqamətində araşdırmalar aparan mütəxəssisdir, Çin Müdafiə Nazirliyinin ETM-də çalışır. Viktor Mixaylov Saratov şəhərindəki nüvə mərkəzinin aparıcı elmi mütəxəssisidir. 2000-ci il iyulun 9-dan 12-dək İranın «Şüa» sənaye konserninin əməkdaşları da Qarabağda, eləcə də Yerevanda bu işlə məşğul olan şirkətlərlə iş birliyi qurmaq üçün bu regionlarda göründülər. Çünki Yerevanı da, Moskva və Tehranı da lazerlər vasitəsilə güclü enerjinin alınması məsələsi çox düşündürür. Onlar ABŞ mütəxəssislərinin «ABL», «Alrha», «Thel» raket texnologiyasında lazerdən istifadə proqramlarını araşdırdılar və birlikdə «High-Power Lasers in Energy Engineering» («Lazerdən güclü enerjinin alınması») proqramı irəli sürüldü, müştərək müqavilə imzalandı.

2001-ci ildə Xankəndidə Moskvadakı «VPK MAPO» - ETM-nin də filialı açıldı və filial işlərini güclü proqramla həyata keçirmək üçün «Razdanmaş» sənaye mərkəzilə əlaqələr qurdu. Xatırladaq ki, «VPK MAPO» mərkəzi reaktiv sərnişin təyyarələrinin layihələşdirilməsi və reallaşdırılması istiqamətində işlər görür. Məhz bu mərkəz ötən il Bağdadda reaktiv təyyarə mühərriklərinin istehsalı üçün 145 milyon ABŞ dollan dəyərində lisenziya satıb. Mühərrik raket texnologiyasında geniş istifadə edilir. Hazırda DQ ərazisində ermənilərin yeni dərman fabrikinin tikintisi məsələsi də meydana atılıb. Bu istiqamətdə hələ Ermənistan hökuməti 1996-cı ildə təkliflə çıxış etdi, lakin işlər yarımçıq qaldı. İşğal olunmuş ərazilərdə smeta dəyəri 14 milyon 650 min ABŞ dolları olması nəzərdə tutulan dərman fabrikinin inşasında Yerevan+Tokio+Tehran əməkdaşlığı 2001-ci il dekabrın 24-dən qüvvəyə mindi.

## QIRĞIN ÜÇÜN NÜVƏ TERRORU

Ermənistan Müdafiə Nazirliyinin Rusiya Dövlət Atoma Nəzarət İdarəsilə 1998-ci il 4 dekabr bağlaşması var. Bağlaşmaya əsasən Ermənistan işğal etdiyi ərazilərin müəyyən qismini Rusiya Federasiyasında nüvə texnologiyası ilə məşğul olan alimlərə və mütəxəssislərə ayırıb. Məsələn, 1998-ci il aprelin 3-də əldə olunmuş razılığa görə, Sankt-Peterburqdakı Nüvə Fizikası İnstitutunun laboratoriyalarından biri Xankəndinə köçürülməli, «professor Sumaçyov + doktor Ter-Akopyan» qrupu nüvə tullantılarından təbabətdə və iqtisadiyyatda dinc məqsədlər üçün birgə tədqiqat işləri aparmalı idi. 1999-cu ilin dekabrında isə Minsk və Xankəndi alimlərinin birgə tədqiqatları üçün Laçın meşələrində ikimərtəbəli elmi-tədqiqat mərkəzinin inşası qərara alındı. Son məlumatlara görə, həmin bina artıq hazırdır. 2000-ci il mayın 22-də bu binaya Belorus Dövlət Universitetinin nəzdindəki nüvə problemləri ilə məşğul olan Elmi-Tədqiqat İnstitutunun «Silenko tədqiqat qrupu»nun üzvləri baxış keçirib. 2001-ci il iyunun 13-də burada ilk laboratoriyalar quraşdırılıb. Həmin il sentyabrın 6-da Laçın rayon mərkəzindən cənub istiqamətində yerləşən Zabux deyilən ərazidə əsas binası Moskvanın Kurçatov meydanı 1-də olan Kurçatov adma Fizika İnstitutunun «Pr.Averyan qrupu»nun tədqiqat mərkəzi açıldı. İnstitutun pulu olmadığından bu mərkəzin bütün xərclərini (120 min ABŞ dollarılıq avadanlığı) «Vartan cəngavərləri»nin Xankəndidəki Baş Qəqargahının başçısı, ixtisasca bioloq olan Karen Karpoviç Sevastyan ödəyib.

Əldə etdiyimiz məlumatlara görə, Qarabağın erməni terrorçu korpus və birləşmələri tərəfindən işğal olunmuş ərazilərimizdəki nüvə tədqiqatı laboratoriya və mərkəzlərində 9 «əfqan ərəbi», Bağdad universitetinin üç məzunu, altı pakistanlı, iki nəfər İsfahandan gəlmiş riyaziyyatçı, 17 erməni və ərəb ölkələrindən gəlmiş (Səudiyyə Ərəbistanından və Suriyadan) 4 nəfər elmi axtarışlarını davam etdirirlər.

Nəticədə bizə bu da aydın oldu ki, ayrılmış ərazilərdə erməni və rus alimləri birgə sınaq təcrübələrinin ilkin nəticələrini də alıblar. 2002-ci il mayın 14-də RF-nin Dövlət Atoma Nəzarət İdarəsinin şöbə müdiri Yuri Volodin ciddi bir açıqlama verdi. O, Moskvada keçirilən konfransda etiraf etdi ki, 2000-ci ildə nüvə materiallarının oğurlanması ilə bağlı RF-da və ümumən MDB ərazisində onlarla hadisə baş verib. Nəticədə nüvə materiallarının bir qismi oğurlanıb xaricə daşınıb. RP MN Baş İdarəsinin rəisi, general-polkovnik İqor Volınknı isə (o nüvə obyektlərinin təhlükəsizliyinə cavabdehlik daşıyır) söhbətlərin birində RF-da, Ermənistan və Qazaxıstan ərazisində görünən əfqan ərəblərini, iş üçün gələn İraq və Pakistan vətəndaşlarını, onlara qoşulan yerli zabitləri lənətləyir.

Hələ 1994-cü il oktyabr ayının 21-də Rusiyanın eks-prezidenti Boris Yeltsinlə Ermənistan prezidenti Ter-Petrosyan arasında hərbi müqavilə imzalandı. Müqaviləyə əsasən Moskva öz hərbi bazasını Gümrüdə yerləşdirməli idi. 1997-ci il aprelin 18-də Dövlət Duması müqaviləni ratifikasiya edib qüvvəyə mindir.

Nəticədə bura 3 min hərbçi daxil oldu. «SU-27» təyyarələri, havadan müdafiə sistemi qurğuları gətirildi, «S-300» tipli raketlər quruldu. Bir az ötmüş Çindən «Tayfun» raketləri alındı. İlk nüvə oğurluğu da elə Gümrüdə baş verdi. Ərazidəki nüvə anbarından 28 qram uran oğurlandı. 2001-ci il iyun ayının 4-də tran sərhədini keçməyə cəhd edən əfqan vətəndaşı Gül Əhmədxan Sahib və milliyyətcə erməni olan Hamburq Arakeloviç Ayrinyan saxlanıldı. Araşdırmamız zamanı məlum oldu ki, 2001-ci il avqust ayının 7-də Gül Əhmədxan təhlükəsizlik polkovniki Serj Gevorkoviçin sərəncamına verilib. Hamburq Arakeloviç Ayrinyan isə «Vartan cəngavərləri»nin işğal olunmuş Cəbrayıl rayon ərazisindəki Dağ-Tumas təlim düşərgəsinə göndərilib.

Rusiya Təhlükəsizlik Şurasının nümayəndəsi Raisa Vdoviçenko 2001-ci il oktyabrın 10-da keçirilən yığıncaqda belə bir fikrin üstündə dayandı: «...«Taliban» emissarları fevral ayında nüvə məsələləri ilə məşğul olan institut əməkdaşlarına təklif ediblər ki, onlara yüksək qiymətə nüvə texnologiyası satsınlar və yaxud yüksək maaşla onlar üçün işləsinlər. Üç nəfər institutdan getdi. Hansı ölkəyə, bilmədik». Halbuki xanım Raisa Vdoviçenko bunu bilirdi. Onu da bilirdi ki, bu üç nəfərdən ikisi milliyyətcə erməni, biri isə rusdur. Beləliklə, nüvə mühərrikləri üzrə araşdırmalarını aparan Kurçatov adına İnstitutun elmi işçisi Aftandil Abakumoviç Ter-Akopyan, akademik Lavrentyev adma Lazer Fizikası İnstitutunun əməkdaşı Qriqori Martirosoviç Baralyan və Moskvadakı M.F.Salmax adına «Polyus» ETM-nin aparıcı mütəxəssisi Boris İvanoviç Şestakov 2001-ci il martın 26-da İrana, oradan da Əfqanıstana keçirlər.

2000-ci il aprelin 2-də Xankəndidə məskunlaşan «Vartan cəngavərləri»nin Baş Qərargahından Beyrutdakı Ümumerməni Kilsə Şurasına belə bir məktub yola salındı: «Biz artıq təşkilatlanmışıq. Bizə ayrılmış yardımları da aldıq. Qardaş və bacılarımıza kömək məqsədilə əlbir işləyirik. Nə üçün ehtiyat edək? Biz ehtiyat etmirik. Hər yerdən qayğı və ehtiramla əhatələnmişik». (Roma. «Bülleten». 2000-ci il, № 16, səh. 14).

«Vartan cəngavərləri» «təşkilatlanmışıq» deyəndə onlar üçün yaradılmış şəraiti nəzərdə tutmurdular. Əksinə, yəni bizə artıq istənilən tapşırığı verə bilərsiniz. Nəticədə «Vartan cəngavərləri» Azərbaycan ərazisində, eləcə də Naxçıvan regionunda mikrobiologiya, kimya, Kvant fizikası və nüvə araşdırmaları ilə məşğul olan strateji obyektlərdən informasiyalar toplamaq, videokassetlər almaq, sənəd və layihə-sxemlər əldə etmək üçün xüsusi planlar hazırladılar.

Ümumiyyətlə, «Vartan cəngavərləri»nin Beyrut bürosu hələ 1994-95-ci illərdə özlərinin Kennedi (ABŞ), Domodedova (RF), Şarl De Qol (Fransa) adına, eləcə də Türkiyə və İranın, Almaniya və Yaponiyanın, Çin və İsveçrənin, İngiltərənin hava limanlarında informasiya bölmələrini yaratmışdılar. Bu bölmələrə Azərbaycan dilində mükəmməl danışan, Bakını tanıyan və nə zamansa bu şəhərdə işləmiş şəxslər cəlb olunurdular. Onlar hava limanlarında ikən təyyarələrdə

azərbaycanlı ziyalılarla, xüsusən Azərbaycan hakimiyyətindən narazı olanlarla görüşür, əlaqələr qurur və yeri gələndə yardımlar da edirlər. Məsələn, 1995-ci ildə «Vartan cəngavərləri» təkcə ABŞ-ın hava limanlarında Bakıdan görüş və yığıncağa gedən şəxslər üçün 74 min ABŞ dolları xərcləmişlər. Əvəzində «Vartan cəngavərləri» həmin şəxslərlə dostluq əlaqələri yaratmış, ev və iş telefonlarını, ünvanlarını götürmüş, əlaqələr qurmuşlar. Beyrut «Bülleten»inin «İcmalçı yazır» xəbərlər toplusunda belə bir qeyd də diqqətdən yayınmadı: «Biz onların bəziləri ilə elə əlaqələr qurmuşuq ki, hər hansı demokratiya və insan hüquqları ilə məşğul olan qeyri-hökumət təşkilatları vasitəsilə istədiyimiz ölkəyə dəvət edə bilərik» (4 oktyabr 1995-ci il. Roma, № 20, «Bülleten», səh. 4).

## AZƏRBAYCANA QARŞI «AKOPYAN LAYİHƏSİ»

Bir faktı da xatırladaq ki, 2001 - ci il tarixə yeni bir mafiya - nüvə mafiyası ili kimi daxil oldu. Çünki hesablamalara görə, 2001-ci ildə daha çox nüvə materialları oğurlanaraq üçüncü ölkələrə daşınıb və bu tipli oğurluğun həcmi 20 faiz artıb. Məsələn, 2001-ci ilin 10 ayı ərzində MDB ölkələri ərazilərindən 12 kiloqram uran yoxa çıxıb. 2005-ci ildə isə bu rəqəm 28 faizə çatıb. Digər bir oğurluqda isə 6 kiloqram «Uran-235» qeydə alınıb. Səkkiz kiloqram «3 D 20» nişanlı plutoniumu asanlıqla sərhəddən keçiriblər.

ABŞ MKİ-nin sənədlərində, eləcə də Rusiya xüsusi xidmət orqanlarının materiallarında Qazaxıstan (Aktau), Ukrayna, Ermənistan əraziləri nüvə oğruları üçün sərhədsiz və nəzarətsiz zonalar kimi qeyd edilib.

## GÜLLƏLƏNMİŞ KÖRPƏLƏR

Azərbaycanın immunsistemi bütövlükdə Dağlıq Qarabağdır və bu gün həmin immunsistem iflic olub. Həm iqtisadi-siyasi, həm də mənəvi-psixoloji cəhətdən.

Meksika Milli Universiteti nəzdindəki Biotexnologiya İnstitutunun tədqiqatçıları sübut ediblər ki, hər bir ağacın və kolun, bitkinin özünəməxsus təhlükəsizlik sistemi var.

Molekulyar Biologiya Departamentinin direktoru Federiko Sançes Rodriqes bu barədə məlumat verir və qeyd edir: «Bitkilərdə təhlükəsizlik mexanizmi var. Bu sistemi aydınlaşdırdıq. Bitkilərdə və kollarda gedən reaksiyaları öyrəndik. Aydın oldu ki, müşahidə etdiyimiz bütün hissələrdə molekulyar baza və güclü immunsistem var».

Adlarını aşağıda açıqlayacağımız bədnam həkim qrupu Dağlıq Qarabağ ərazisində ilkin olaraq öz «sınaq təcrübələrinə» - immunsistemin iflicləşdirilməsinə

Laçın rayonundan başladı.
- Aida Nersesovna Saakyan (həkim)
- Ariya Avanesovna Qriqoryan (həkim-psixoloq)
- Arina Yeremovna Arutunyan (həkim-toksikoloq)
- Mixail Qevondoviç Arutunyan (həkim-cərrah)
- Lidiya Karapetovna Asratyan (həkim-mikrobioloq)
- Ruben Ayrapetoviç Baziyan (həkim-cərrah)
- Elmira Surenovna Stepanyan (uşaq həkimi)
- Georgi Aramoviç Narinyan (uşaq həkimi)
- Romik Rubenoviç Baqdasaryan (həkim)
- Laura Monovna İşxanyan (uşaq həkimi)

Bu «həkimlər» üçün hər şey adiləşmişdi. Məsələn, yerimə qabiliyyətini itirmiş, hər iki ayağından iflic olmuş 9 yaşlı Lətif Əbdüləli oğlu Qasımovun taleyi Arina Yeremovna Arutunyan adlı bir həkimə həvalə olundu. Məlumata görə, bu həkimlərin hər birinə işğal olunmuş Azərbaycan ərazisində - Laçında «övlad» və yaxud «mərhəmət» payı ayrılmışdı.

1993-cü il oktyabrın 19-da Sonasar yaşayış məntəqəsində (Laçın rayonunun qərb hissəsi) Nəcəf kişinin evini səyyar düşərgəyə çevirdilər. İkimərtəbəli evin dağılmış, uçulub tökülmüş divarlarına Gorusdan gəlmiş 216/01.VE nömrəli hərbi hissənin əsgərləri (kapitan A.D.Babayan) yenidən suvaq çəkdilər. Oktyabrın 21-dən başlayaraq bura döyüş zonasından əsir alınmış uşaqlar göndərildi. Üstündə hərbi hissələrə məxsus nişanı olan maşınlar əsir uşaqlar üçün ayrılmışdı. Oktyabrın 28-də «əsir maşınları» kimi tanınan «03-09.VRE» və «21-93-0VR» «QAZ-69» maşınları Gorusa sürülür.

«Sonasan» əsir düşərgəsinə bir həftə ərzində 16 şikəst, əlil uşaq daşınır. Noyabrın 14-də isə bu uşaqlar erməni həkimləri Arina Arutunyan, Laura İşxanyan, Ruben Baziyan və Lidiya Asratyan arasında bölünür. Noyabrın 22-də Laçında milliyyətcə ərəb olan beş əli silahlı döyüşçü görünür. Onlar Laçın qəbiristanlığından azca aralıdakı düzənlikdə ölən iki ərəbi dəfh edirlər. Noyabrın 28-də əsir götürülmüş uşaqlardan ikisi aclığa, xəstəlik və ağrılara dözməyib vəfat edir. Həmin uşaqlar muzdlu ərəblərin ayaqları altında dəfn olunurlar (İran. Tikmədaşlı Səyyah Hüseyn. «Laçın dəftəri» kitabı. Təbriz. «Morteza qardaşları» nəşriyyatı. 1995, səh. 47).

1994-cü il martın 26-dan «Sonasar» əsir düşərgəsi Yerevanda, Gorus və Razdanda «Sonasar bazarı» kimi tanındı. Bu bazarın qapıları «Sərhədsiz həkimlər»in, Qırmızı Xaç Cəmiyyətlərinin insan hüquqları ilə məşğul olan beynəlxalq təşkilatların üzünə bağlı idi. «Sonasar»a giriş Laçın rayon hərbi komendantı, polkovnik Qran Əmiryanm imzası və hərbi hissənin (209/10. V.O.X.) möhürü olmadan mümkün deyildi.

İlk muzdlu ərəblər Laçına 1989-cu ildə gəldilər. Həmin vaxt «Laçın» qəzeti

Malıbəy və Caqazur kəndləri ilə maraqlanan və orada həmişəlik yaşamağa meylli olan 21 yaşlı Saleh Mömün (Sudan), Cabbar əl-Farah (Misir), Yəhya Məhəmməd (Livan), Hüveys Zeytun (Iordaniya) haqqında ilkin məlumatları dərc etdi və göstərdi ki, bu adamlar Laçının tarix muzeyində oldular, Güləbird və Cicimli kəndlərində gecələdilər.

1990-cı il iyunun 12-də Sudanın Əl-Übeydə yaşayış məntəqəsində «Erməni icmalarının birgə mübarizə ittifaqı» deyilən ittifaq yaradıldı (İordaniyada, Misirdə, Liviyada, Əlcəzairdə və Sudanda fəaliyyət göstərən erməni icmaları nəzərdə tutulur). Bu ərazilərdə fəaliyyət göstərən erməni icmalarının hər biri ayrı-ayrılıqda həmin regionların təhlükəsizlik və yaxud kəşfiyyat xidməti ilə sıx əlaqədə olublar. Bu icmaların fəaliyyətlərinə nəzarət etmək üçün yerli xəfiyyə təşkilatlarından koordinatorlar da ayrılıb.

Məlumata görə, Laçına göndərilən Saleh Mömün Sudan kəşfiyyat xidmətinin, Cabbar əl-Farah Misir hərbi kəşfiyyatının, Yəhya Məhəmməd Livan xüsusi xidmət dəstəsinin, Hüveys Zeytun isə İordaniya krallığının təhlükəsizlik mərkəzindən olublar. Bu barədə İordaniyadakı «Erməni cəmiyyəti»nin ideoloqları Aram Yasaulyan və Harri Maratla (Ambarsumyan) Əmmandakı «Jordan press» Fondunda İordaniya təhlükəsizlik xidmətinin başçısı Səid Benonun 1991-ci il 21 noyabr görüşündə də qeyd olunub. Fondun «A1-Rai» («Fikir») qəzeti 1991-ci il dekabrın 26-da 2-ci səhifədə dərc olunmuş «Qafqaza münasibətimiz» adlı yazıda erməni Harri Maratın belə bir açıqlamasını dərc edir: «Dağlıq Qarabağ uğrunda erməni qardaşlarımıza həm mənəvi, həm iqtisadi və həm də hərbi yardım göstərmək üçün cəmiyyətin imkanı var. Biz bu imkanı Dağlıq Qarabağdakı qardaşlarımızla böldük. 1991-ci il oktyabrın 26-da ərəb ölkələrindəki icmalarımızın Əmmanda Mərkəzləşdirilmiş Erməni İcmalarının İttifaqı adlı mərkəzi yaradıldı. Bu ittifaqın dünyanın 11 ölkəsində bank hesabı var».

Mərkəz beynəlxalq erməni təşkilatı kimi məhz Kral Hüseynin göstərişi ilə elə 1991-ci il oktyabrın 29-da Əmmanda qeydə alındı. Bu, regionda kralın şəxsi göstərişi ilə qeydə alınan ikinci Qafqaz təşkilatı idi («Çeçen-inquş dostları cəmiyyəti»ndən sonra. Təşkilatın rəhbəri Şeyx Əbdül Camodur).

## TERROR ÜÇÜN MALİYYƏ

Erməni təşkilatının bank hesablarından biri Qafqaz İnvestisiya Bankı nəzdində açılır və bu bank da yanacaq və energetika sahəsində iş gördüyündən Qafqaz ölkələrinin Avropa və Yaxın Şərqlə ticarət əlaqələrini qurur. Nəticədə 1992-ci il mayın 14-də erməni Harri Maqat Ambarsumyan Qafqaz İnvestisiya Bankı»nın xətti ilə (bankın rəhbəri milliyyətcə Livan ermənisi milyonçu Adnan Haşoqiqir) Bakıda olur, Gəncə və Naxçıvana qısa səfərlər edir. H.M.Ambarsumyan Bakıda olarkən ölkə parlamentində, Prezident Aparatında rəsmi şəxslərlə görüşür.

Məqsəd strateji baxımdan diqqətdə olan, müharibə günlərini yaşayan Azərbaycanın əsas iqtisadi-strateji mərkəzlərini, infrastrukturlarını, bank sistemini öyrənmək idi. Digər tərəfdən, Harri Marat Ambarsumyan öz təşkilatlarına məxsus bank hesabını bankdan-banka keçirərək Bakıda saxlamağa cəhd edirdi. Bu bank hesabı Azərbaycan çevrəsində iş görmək üçün ona hökmən lazım idi.

Qafqaz İnvestisiya Bankının 1996-cı il üçün illik hesabatında belə bir açıqlama verilir ki, bank öz hesabından Yerevanda, Bakıda və Tbilisidə işlərini demokratik ruhda qurmağa səy edən bir neçə mətbu orqana, cəmiyyət və təşkilata əvəzsiz yardımlar edib. 1996-cı il avqustun 12-də Beyrutda nəşr olunan «Qafqaz İnvestisiya Bankı: - daxili məsələlər üçün illik hesabatı»nın 14-cü səhifəsində deyilir: «Qafqazda investisiyalar qoyduq. Bank bununla öz işini tamamlamır. Biz regionlarda strateji əlaqələrin qurulması naminə dayaqlarımızı da yaratdıq». Məlumata görə, başqa banklardan fərqli olaraq, bu bank strateji əlaqələrə dair informasiyaları 2006-cı ilədək qoruyub saxlayacaq. Yəni, bankın Azərbaycan ərazisində, eləcə də Qarabağ regionundakı fəaliyyəti ilə bağlı materialları əldə etmək mümkündür.

Araşdırmalarımıza görə, 1992-ci il yanvarın 14-dən etibarən bankın Gorusda və Qafanda da ofisləri və bu ofislərdə Mərkəzləşdirilmiş Erməni İcmaları İttifaqının Gorusda Oİ: BO11421-BANK.AR, Qafanda isə OI:B244001-BANK.AR nömrəli hesabları açılır. Nəticədə xarici ölkələrdən terrorçu qardaşlarına yardım üçün Dağlıq Qarabağa təşrif gətirən erməni təşkilatları, ilk növbədə, Gorusda və Qafanda açılmış banklarda qeydiyyatdan keçməli oldular. Gorus bankında nəzarətçi işləyən yerli erməni Halonis Arakelyanın fikrincə, bu bank çox mətləblərdə yardımçı olurdu. Orada rus və İran iş adamları da görünürdülər. Bu üzvlər bilavasitə Mərkəzləşdirilmiş Erməni İcmalarının İttifaqında qeydə alınan təşkilatlardan idilər. Beləliklə, məlumata görə, 1992-ci il martın 28-də əsasən Laçında qərar tutan və məxfi özəklərini yaratmağa səy edən təşkilatlar, o cümlədən:

- «Müqəddəs erməni vətən birliyi» Təşkilatı (Sudan. 3 dekabr 1989)
- «Katolikos» Təşkilatı (Misir. 26 iyun 1989)
- «Dağlıq Qarabağa yardım Mərkəzi» (Livan. 2 avqust 1990)
- «Ararat + Araz» Təşkilatı (İordaniya. 26 fevral 1990)
- «Böyük erməni ideyası» Təşkilatı (Suriya. 21 aprel 1989) bu ittifaqda fəaliyyətlərini rəsmiləşdirdilər.

Araşdırmalarımıza görə, «Müqəddəs erməni vətən birliyi» Təşkilatı 1989-cu il dekabrın 3-də iş adamı, erməni mühaciri Emin Aydınyanın təşəbbüsü ilə Xartumda yaranıb. Təşkilat Azərbaycanda yaşayan ermənilər arasında 1989-90-cı illərdə sadəcə «Birlik» adı ilə fəaliyyət göstərib. Bakının Nəsimi və Sahil (o vaxtkı «26-lar» rayonu) rayonlarında özəkləri olub. İxtisasca inşaat mühəndisi olan Emin Urabekoviç Aydınyanın başçılıq etdiyi təşkilat 1991-ci il noyabrın 4-də özünün

radikal qanadını yaradır və Nizamnaməsində dəyişikliklər edir. 1991-ci il noyabrın 20-də 12 nəfərlik könüllü dəstə ilə E.U.Aydınyan Xartumdan 0121 reysilə Beyruta gedir, noyabrın 23-də Beyrut-Yerevan reysilə Ermənistana uçur. Noyabrın 26-da Yerevanda ölkənin xarici işlər naziri Raffi Ovanesyanla və daxili işlər naziri, general Vanik Siradeqyanla görüşür. Dəstənin rəsmi sənədləri və xarici vətəndaşlığı göstərən və ya təsdiq edən pasportlar XİN-in konsulluq şöbəsinə verilir. Noyabrın 28-də dəstə Ermənistan DİN-nin Daxili Qoşunlarına qəbul olunur. Noyabrın 29-da isə E.U.Aydınyan Beyruta qayıdır. Könüllü mühacir dəstəsinə Ermənistan Daxili Qoşunlarının əməkdaşı, polkovnik Mark Ovsepyan başçılıq edir. Silahlı dəstə müstəqil bir qrup kimi 1992-ci ilin aprelin 19-da Laçın rayonunun Hacılar kəndində qərar tutur.

## GENERALA «QARA MƏKTUB»

Erməni ideoloqu E.Aydınyan «Generala məktub Siradeqyana salam » 114 səhifəlik kitabında yazır: «Laçın yaşayış ərazisinin kimə aid olması məni maraqlandırmır. Məni maraqlandıran və heç vaxt maraq dairəmdən çıxmayan XXI əsr erməni tarixinə necə düşməyimdir. Şübhə etmirəm ki, bizim təşkilatın əli silahlı dəstələri erməni tarixinin XXI əsrini yaratmaq iqtidarında olacaq» (Beyrut. 1996-cı ilin fevralı, səh. 42).

Araşdırmalarımıza görə, polkovnik M.Ovsepyanın mühacir dəstəsi 1992-ci il mayın 13-də Laçın istiqamətində hücuma hazırlaşır. Bu barədə isə Gorusda erməni və rus dillərində çap olunan «Front» («Cəbhə») qəzeti 1992-ci il 26-cı sayında məlumat verir. Bu arada beynəlxalq «Röyter» (Reuters Ltd) İnformasiya Agentliyi öz müxbiri Vanori Bennetin Laçın ərazisindən belə bir məlumatını açıqlayır: «...Официальные представители в Ереване заявили, что курды, живущие в Лачине, добровольно разрешили армянам использовать дорогу в качестве коридора для гуманитарной помощи до тех пор, пока по ней будет поставляться продовольствие и медицинское оборудование...

Но трупы все лежали в кюветах, когда через два дня я снова проезжала через Лачин... «Не смотрите, - сказал Мечи, местный журналист. - Есть вещи, на которые вам не следует смотреть и вопросы, которые вам не следует задавать. ..» («Röyter» Agentliyinin 1992-ci il 19 may tarixli məlumatı. İki qoşa səhifə. Əlavə məlumat: Moskva. «Независимая Газета». Həmin tarix, səh. 2.)

Laçın yolları və keçidləri öldürülmüş, güllədən keçirilmiş insanlarla dolu idi. İngilis jurnalisti V.Bennet bunu da deyir ki, ona əzab və işgəncələrlə öldürülmüş meyitlərə baxmaq qadağan olunurdu. «Onların bir qisminin başı kəsilmişdi» - deyən V.Bennet özünə bir daha «bu eybəcər vəhşilik və qəddarlıqla dolu olan yerə» gəlməyəcəyinə söz verir.

1992-ci il mayın 18-də saat 13:50 dəqiqədə Laçın ərazisindəki Qarıqışlaq

kəndində (qərb hissəsində) səkkiz qız uşağı güllələnir. Yaşı 9-la 11 arasında olan bu uşaqların dördü Hacılar kəndindən idi. Bütün bunlar, məlumata görə, V.Bennet tərəfindən lentə köçürülür. Lakin Londona qayıtdıqdan sonra həmin kaset İngiltərənin «Mİ-6» kəşfiyyat xidməti tərəfindən alınır.

«Dağlıq Qarabağa yardım Mərkəzi» 1992-ci il martın 13-də Sisiyan rayon ərazisindəki «V/ç-2101» nömrəli xüsusi dəstənin tərkibində məskunlaşır. Martın 16-da isə doqquz nəfərlik silahlı dəstə Xnatsax sərhəd məntəqəsinə köçür. Martın 22-də Xnatsaxla Verişen əraziləri arasındakı «Şimal» təlim düşərgəsində hərbi təlimlərə başlayır. 1992-ci il mayın 15-də hərbi hissənin mayoru Abram Arşakyanın komandanlığı ilə muzdlu rota Sadınlar kəndinə hücum edir. Mayın 16-da 13 kənd sakini əsir alınır. Məlumata görə, onların bir neçəsi hələ də Ermənistan Təhlükəsizlik Xidmətinin həbsxanasında saxlanılır. Ermənistan MTN-nin mətbuat katibi, polkovnik Araik Melkonyan isə bu faktı inkar etməklə işini bitmiş hesab edir.

1992-ci il mayın 19-da sağ qalan 7 əsir «Sonasar» əsir düşərgəsinə göndərilir. Bu düşərgədə hər şey satılırdı. Can üstündə olan əsirlərimiz dava-dərmandan məhrum edilirdi. Həkim Aida Nersesovna Saakyan üçün güllə yarası almış uşaq əsirlər diriykən ölümə məhkum edilmişdi. «Sonasar»da həkim-terrorçu Aida Saakyanın iynə və zəhərli preparatları ilə qətlə yetirilən uşaqlar üçün ayrıca qəbiristanlıq salınmışdı. Erməni muzdluların «Dərə» adlandırdıqları bu qəbiristanlıqda bir gündə 36 insan dəfn edildi. Bu barədə əldə etdiyi ilk məlumatı mayın 27-də BMT-nin Uşaq Fonduna diplomat Françesko Vendrell çatdırdı (BMT. «Uşaq Fondunun məlumat və hesabatı», 9 oktyabr 1992-ci il).

Araşdırmalarımıza görə, İngiltərənin, Amerika Birləşmiş Ştatlarının, İranın, Almaniyanın, Rusiya Federasiyasının və Fransanın dövlət arxivlərində, xüsusi xidmət orqanlarının qovluqlarında erməni terrorçu dəstələrin Azərbaycanın Dağlıq Qarabağ ərazisində törətdikləri cinayətlərə, vəhşilik və genosid siyasətlərinə dair kifayət qədər sənəd və lent yazıları var. Ermənistanı təcavüzkar və terrorçu bir dövlət kimi göstərmək, dünyaya tanıtmaq üçün 17 dəqiqəlik bu sənədli lent kifayət edərdi.

## HAMİLƏ QADINLAR ÜÇÜN DAR AĞACI

1992-ci il mayın 19-da Laçın rayonunun altı kəndində dar ağacı qurulmuşdu.

«...Dar ağacları məni vahiməyə salmışdı... Alxaslı kəndində qurulan qoşa dar ağaclarında iki qadın asılmışdı... Bəlkə də ana-balaydı, bilmədim... Amma bu mənzərə dünyanı sarsıda, ürəyi olan kəsləri düşündürə biləcək bir mənzərəydi. Xilas üçün əlimiz çatmadığından, Allahdan bağışlanmamızı istədik. İranda bu kadrları heç kəs çap etmədi...» (İran jurnalisti Səyyah Hüseyn. «Laçın dəftəri»

kitabı. «Morteza qardaşları» nəşriyyatı. 1995, səh. 52).

Ermənilərin dar ağaclarına çəkdikləri qadınlar, 1993-cü ilin araşdırmalarına görə, Hicar Əjdər qızı Əmirova (1948-ci il təvəllüdlü, pasport: XI-JQ N469214) və Rəbiyyə Aslan qızı Abdullayeva (1950-ci il təvəllüdlü, pasport: XI-JQ N312612) olub.

1995-ci ilin materiallarında isə bu adamların adları bir daha dəqiqləşdirildi:

1. Hicar Ələsgər qızı Əmirova (doğum sənədi eynidir).
2. Rəbiyyə Aslan qızı Abdulova (doğum sənədi eynidir).

Erməni terrorçuları həmin şəkilləri «Zartunk» (Livan), «Ararat» (Türkiyə), «Vcstnik» (RF), «Araz» (İran), «Verayeti» (Variety - ABŞ)... qəzet və jurnallarında çap etdirərək sənədli xronikanın faktları kimi öz mövqelərindən (1992-1993-cü illər) şərh edirdilər. Guya həmin qadınlar azərbaycanlılar tərəfindən Xankəndidə asılıblar. Məkan, təhlillər və toplanmış materiallar isə başqa səmtə aparıb çıxarırdı. 1995-ci ildə ermənilər Kaliforniyada keçirilən «Həvəskarların sənədli kadrları» sənədli kinofilmlər Festivalında bu kadrların nümayişinə görə gümüş, 1997-ci ildə isə Parisdə eyni adlı festivalda qızıl medala «layiq görüldülər»... («San Francuso Chronicle» («San-Fransisko xəbərləri»), 26 noyabr 1995-ci il. «Le Monde» («Dünya») 13 aprel 1997-ci il).

1992-ci ilin yanvar-iyun aylarında Qarabağ ərazisində terrorçuluq aktlarında iştirak edən «V2:216/43» nömrəli erməni-rus hərbi dəstənin üzvlərindən olan sıravi Usman Xocayev Sadulla Daşkənd Hərbi Komissarlığına yazdığı «Etiraf» məktubunda göstərir: «...Bu, müharibədən çox qəsdə oxşayırdı. Ermənilərlə ruslar yerli adamların qəsdinə durmuşdular. Əsir alınmışlara anket paylayırdıq. Onları məcbur edirdik ki, kağızın işarə olunmuş hissəsinə milliyyətcə erməni olduqlarını yazsınlar. Etiraz edənlər öldürülürdü. Bəzilərinə isə tələm-tələsik dar ağacı düzəldilirdi...» (Daşkənd HK-nın arxiv sənədləri. Qovluq N431).

Məktubun bir hissəsi «İzvestiya» qəzetinin 1992-ci il 4 sentyabr tarixli sayının 2-ci səhifəsində çap olunub.

Həmin ilin sentyabrında Nyu-Yorkda nəşr olunan həftəlik «NATİON» qəzetində jurnalist Dilip Hiro «The Question on Azerbaijan» («Azərbaycanla bağlı sual») yazısında qeyd edir: «...Народ не мог смириться с мыслью, что их республика, будучи в три раза больше Армении, вдвое превышающая ее по численности населения, богатая нефтью и газом, потерпела поражение не от регулярной армии, а от боевиков. Они приписали свои неудачи заговору, подготовленному проармянскими русскими офицерами в армии СНГ и политиками в Москве, богатой армянской диаспорой вкупе с дашнакскими экстремистами и фанатичными иранскими муллами в Тегеране, а также предательской азербайджанской «мафии», подозреваемой в продаже азербайджанского оружия армянам за высокие цены...».

Məlumata görə, 1992-ci il noyabrın 10-da Ümummilli Erməni Hərəkatının

lideri, Azərbaycan torpaqlarının işğalında fəal iştirakına görə «Müqəddəs Georgi» ordeni alan Aşot Beloyan Bakıya gəlir. Ondan bir qədər əvvəl isə, 1992-ci ilin iyulun 1-də Ermənistan Prezidenti Levon Ter-Petrosyan elan edir: «...Локальная война в Нагорном Карабахе может перерасти в крупномасштабную, и в этом случае она может иметь для Армении благополучный исход...» (Moskva, «Известия» qəzeti, 1 avqust 1992-ci il).

Güllələnmiş, yandırılmış və taleləri məlum olmayan uşaqlar haqqında məlumat:

1. Çinarə Nazim qızı Abışova 1982-ci ildə Xocalıda anadan olmuşdur. Çingiz Nazim oğlu Abışov 1986-cı ildə Xocalıda anadan olub. 1992-ci il fevralın 26-dan sonra onların nə dirisini, nə də ölüsünü görən olub.
2. Allahverdiyev Mahir Novruz oğlu 1974-cü ildə Xocalıda anadan olub. 1992-ci il fevralın 26-da 18 yaşında itkin düşüb. İndiyədək onun taleyindən xəbər yoxdur.
3. Yusifova Natavan Pənah qızı 1988-ci ildə Şuşada anadan olmuşdur. 1992-ci il fevralın 26-da 4 yaşında itkin düşüb. İndiyədək taleyi məlum deyil.
4. Usubov Elşad Kamran oğlu 1974-cü ildə Xocalıda anadan olub. 1992-ci ilin fevralın 26-da 18 yaşında qardaşları Zakir və Əliyarla birlikdə əsir götürülüb. İndiyədək taleləri məlum deyil.
5. Sevinc Əkbər qızı Quliyeva 1985-ci ildə Xocalıda anadan olub. 1992-ci ilin fevralın 27-də 7 yaşında qətlə yetirilib.
6. Məmmədov Zahir Ramiz oğlu 1975-ci ildə Xocalıda anadan olub. 1992-ci il fevralın 27-də 7 yaşında güllələnib.
7. Orucova Xəyalə Telman qızı 1986-cı ildə Əsgəran rayonunun Şuşukənd kəndində anadan olub. 1992-ci il fevralın 26-da 6 yaşında donub ölüb.
8. Cəfərov Nüsrət Fazil oğlu 1975-ci ildə Xocalıda anadan olub. 1992-ci il fevralın 26-da 17 yaşında itkin düşüb. İndiyədək taleyi məlum deyil.
9. Hüseynova Maral Kamil qızı 1986-cı ildə Xocalıda anadan olub. 1992-ci il fevralın 26-da 6 yaşında qətlə yetirilib.
10. Əzimov Natiq Abbasqulu oğlu 1986-cı ildə Xocalı rayonunun Həsənabad kəndində anadan olub. 1992-ci il fevralın 26-da 6 yaşında qətlə yetirilib.
11. Quliyev Samir Taleh oğlu 1990-cı ildə Xocalıda anadan olub. 1992-ci il fevralın 26-da 2 yaşında güllələnib.
12. Ələkbərov Səxavət Təvəkkül oğlu 1980-ci ildə Xocalıda anadan olub. 1992-ci il fevralın 26-da 12 yaşında qətlə yetirilib.
13. Xəlilova Lalə Tahir qızı 1988-ci ildə Xocalıda anadan olub. 1992-ci il fevralın 26-da 4 yaşında qətlə yetirilib.
14. Zeynalova Aynurə Tofiq qızı 1986-cı ildə Xocalıda anadan olub. 1992-ci il fevralın 26-da 6 yaşında qətlə yetirilib.
15. Hümbətova Simuzər Cəlil qızı 1976-cı ildə Əsgəran rayonunun Kosalar kəndində anadan olub. 1992-ci il fevralın 26-da 16 yaşında qətlə yetirilib.

16. Quliyev Mikayıl Zahid oğlu 1975-ci ildə Laçın rayonunun Piçənis sovetliyinin Xaçınyalı kəndində anadan olub. 1992-ci il fevralın 26-da 17 yaşında əsir götürülən zaman özünü öldürüb.
17. Hüseynov Emin 1975-ci ildə Xocalıda anadan olub. 1992-ci il fevralın 26-da 17 yaşında ölüb.
18. Aslanova Gülsabah Qəyyum qızı 1973-cü ildə Xocalıda doğulub. 1992-ci il fevralın 26-da 18 yaşında itkin düşüb. İndiyədək taleyi məlum deyil.
19. Həsənov Mehdi Ramil oğlu 1974-cü ildə Xocalıda anadan olub. 1992-ci il fevralın 26-da 18 yaşında qətlə yetirilib.
20. Nəzakət Tapdıq qızı Çobanova 1986-cı ildə Xankəndidə anadan olub. 1992-ci il fevralın 26-da 6 yaşında öldürülüb.
21. Səfiyev Sarvan Elxan oğlu 1991-ci ildə Xocalıda anadan olub. 1992-ci il fevralın 26-da 1 yaşında donub ölmüşdür.
22. Yeganə Təvəkkül qızı Əmirova 1985-ci ildə Xocalıda anadan olub. 1992-ci il fevralın 26-da 7 yaşında qətlə yetirilib.
23. Lətafət Həsən qızı Həsənova 1976-cı ildə Xocalıda anadan olub. 1992-ci il fevralın 27-də 16 yaşında donaraq ölüb.
24. Allahverdiyev Bəhram Hidayət oğlu 1976-cı ildə Ermənistanın Basarkeçər rayonunun Qaraqoyunlu kəndində anadan olub. 1992-ci il fevralın 26-da 16 yaşında qətlə yetirilib.
25. Hüseynov Vüqar Hilal oğlu 1974-cü ildə Xocalıda anadan olub. 1992-ci il fevralın 26-da 18 yaşında itkin düşüb. Taleyi indiyədək məlum deyil.
26. Ağayev Allahverdi Səttar oğlu 1982-ci ildə Xocalıda anadan olub. 1992-ci il fevralın 26-da 10 yaşında qətlə yetirilib. Məzan bəlli deyil.
27. Orucov Cavan Canan oğlu 1976-cı ildə Xocalıda anadan olub. 1992-ci il fevralın 26-da 16 yaşında əsir götürülüb. İndiyədək taleyi məlum deyil.
28. İsmayılov Vidadi Lətif oğlu 1973-cü ildə Xocalı rayonunun Həsənabad kəndində anadan olub. 1992-ci il fevralın 26-da 18 yaşında əsir götürülüb. İndiyədək taleyi məlum deyil.
29. Səlimov Xəzər Səyavuş oğlu 1985-ci ildə Xocalıda anadan olub. 1992-ci il fevralın 26-da 17 yaşında əsir götürülüb. İndiyədək taleyi məlum deyil.
30. Aslanova Elnarə Tofiq qızı 1978-ci ildə Xocalıda anadan olub. 1992-ci il fevralın 26-da 14 yaşında itkin düşüb. İndiyədək taleyi məlum deyil.
31. Orucova Məlahət Əli qızı 1976-cı ildə Ermənistanın Əzizbəyov rayonunda anadan olub. 1992-ci il fevralın 26-da 16 yaşında Xocalıda qətlə yetirilib.
32. Vəliyev Ağasif Zakir oğlu 1988-ci ildə Xankəndidə anadan olub. 1992-ci il fevralın 26-da 4 yaşında qətlə yetirilib.
33. Əbdülov Zahid Yelmar oğlu 1974-cü ildə Xocalıda anadan olub. 1992-ci il fevralın 26-da 18 yaşında itkin düşüb. Taleyi indiyədək məlum deyil.
34. Abbasova Səadət Qədim qızı 1974-cü ildə Xocalıda anadan olub. 1992-ci il

fevralın 26-da 18 yaşında qətlə yetirilib.

## QARABAĞDA MƏXFİ-HƏRBİ ƏMƏLİYYATLAR

Siyasi hadisələrin zaman və məkan daxilində bir-birini əvəzetmə və dəyişmə sürəti XXI əsrin ilk illərində - 2000-ci ilə nisbətdə 2001-ci ildə 2,5 dəfə artıb. 2002-ci ildə rəqəmin 3; 2003-cü ildə 3,8; 2004-cü ildə 5; 2005-ci ildə 5,8; 2006-cı ildə 6,1; 2007-ci ildə 7; 2008-ci ildə isə 7,5 dəfə artacağı qeyd edilir (Bax: «The Washington Post» (ABŞ). May, 2002-ci il). Bütün bunlar hər hansı bir dövlətin milli təhlükəsizlik konsepsiyasına mənfi təsirini göstərir və nəticədə hər şey dəyişir. Proseslərdən kənarda qalan və yaxud gecikən ölkə, xalq, millət və siyasət hesablamalara görə, 2010-cu ildə xəritədən silinməyə, parçalanmağa, məhv olub sıradan çıxmağa və yaxud məhv olmamaq üçün kiminləsə birləşməyə labüddür. ABŞ Mərkəzi Kəşfiyyat İdarəsini «Taliban»çıları təlimlərdə hazırlamaqda günahlandıran Misir generalı Rauf Əl Manou xatırladır: «...Siyasi hadisələrdən kənarda qalmaq və gecikmək ölümə bərabərdir. İnformasiya müharibələrindən salamat çıxan ölkə, xalq, millət və cəmiyyət həm yaşayacaq və həm də quracaq. Hər bir ölkə başçısı öz millətini informasiya uğrunda cihada səsləməlidir. Çünki kimdə informasiya varsa, hakimiyyət və hökm də ondadır...» (Misir. Hərbi-əks-kəşfiyyatının hesabatından. 19 aprel 2000-ci il).

Zamanın və dünyanın ikinci hökmü isə kütləvi qırğın silahlarındadır. Bu, ehtimal deyil, reallıqdır. «Rakst atlası»nda (London. 2000-ci il) hədəfəçatma məsafəsinə görə fərqlənən nüvə başlıqlı qanadlı raketlərdən tutmuş əsəb və sinirləri sıradan çıxaran, insanı başdan ayağadək çürüdən kimyəvi və genləri məhv edən bakterioloji silahlaradək hər şey haqda məlumat var. Bu təhlükə səngimir, əksinə artıb çoxalır.

Nüvə fizikası ilə məşğul olan məşhur türkiyəli professor Xeyrəddin Qılıc deyir ki, Türkiyə hökmən nüvə silahı istehsal etməlidir. AES-in tikilməsi bu məsələyə xidmət edəcək. Çünki bu, Türkiyənin enerjiyə olan ehtiyacının 4 faizini verəcək. Birincisi, Türkiyə AES 2800 MqV güclü mərkəz olacaq. AES Aralıq dənizi sahillərində, Meroin şəhərciyində tikiləcək və birinci bloku 2005-ci ildə təhvil veriləcək. Bu təbiidir. Çünki NATO-ya üzv ölkələr nüvə, eləcə də kimyəvi, bakterioloji silahlarla əlləşən və bilavasitə Türkiyə sərhədlərini ələk-vələk edən Ermənistana qarşı başlanılan informasiya müharibəsində Ankaranı müdafiə edə bilmir. Nəticədə Türkiyə öz ölkəsinin erməni fitnəsindən qorunması üzərində düşünür. Bu da başa düşüləndir. Ona görə ki, NATO-ya üzv ölkələrin hər birinin hərbi sənaye komplekslərində, parlament və departamentlərində, kəşfiyyat mərkəzlərində, bank və şirkətlərində potensial imkanı ən azı 20-25 faiz olan milliyyətcə erməni siyasətçiləri var. Təhlillərimizə görə, nəinki Türkiyənin, eləcə də bir-birindən ayrı düşən türk dünyası xalqlarının informasiya müharibəsində

Qərbin dəstəyinə ehtiyacı var.

Gəlin təhlil edək. Türkiyə SQ BQ rəisi, general Hüseyn Qıvrıqoğlunun Ermənistanda kütləvi qırğın silahlarının olması faktını, harayını dəstəkləyən hansı NATO-ya üzv ölkəsi oldu? Halbuki 1994-cü il iyunun 14-də erməni fizikləri ilə birgə bədnam Zori Balayanı və prezident Ter-Petrosyanı qəbul edən Rusiyanın keçmiş «qayğıkeş» prezidenti B.N.Yeltsin belə bir sual vermişdi: «...İndi sizin nəyiniz çatmır?...» Bədnam Zori Balayan həya etmədən demisdi: «...Boris Nikolayeviç, etdiyiniz yaxşılığa görə minnətdarıq. Ermənistanın bir dövlət kimi yaşaması və türk dünyasından qorunması üçün ona nüvə silahı hökmən lazımdır...» Boris Nikolayeviç: «...Vaxt və zamana ehtiyac var. Şübhə etmirəm ki, o da olacaq...» («Artsax» qəzeti. 26 iyun 1994-cü il. Xankəndi. N 43, səh. 2. «Boris Nikolayeviç vəd verdi...»).

## ERMƏNİ TERRORÇULARININ «TOKSİKOLOJİ ARXİPELAQI»

Dünya kütləvi qırğın silahları önündə acizdir. Məhz bu səbəbdən ABŞ-da kütləvi qırğın silahları əleyhinə tədbirlər üçün yeni hərbi-strateji qurum yaradıldı. «Hərbi-məxfi əməliyyatlar» adlı yeni quruma briqada generalı Bryus Loulor başçılıq edir. Qurumun Baş Qərargahı isə Norfolke şəhərində (Virciniya ştatı) yerləşdirildi. İllik büdcəsi 4 milyon dollar olan bu hərbi-siyasi təşkilatın 28 eksperti var.

Fikrimizcə, bütövlükdə türk dünyasının irili-xırdalı xalqları artıq «Regional Vahid Təhlükəsizlik Doktrinası»nın yaradılması uğrunda çalışmalıdırlar. Maraqlıdır ki, ərəb ölkələri artıq belə bir birləşmənin istəyi ilə çıxış edir. Birləşmiş Ərəb Əmirliklərinin generalı, BQ rəisi Şeyx Məhəmməd bin Zahid əl-Nahayyan təklif edir: «...Təcili birləşmək vaxtıdır. Təhlükəsizlik doktrinasını yaratmaq lazımdır. Xarici silahlı qüvvələr müvəqqətidir. Ərəblərin mənafeyi naminə İraqı da bu birliyə dəvət etmək lazımdır... Birləşmək... Birləşmək... Birləşmək...»

Bu, dünyanın infrastrukturlarını neftlə hərəkətə gətirən ərəb aləminin kütləvi qırğın silahları hazırlayan və ya istehsalı üçün düşünən xristian dünyasına, məkrli düşmənə qarşı strateji proqramıdır.

Nefti, zəngin yanacaq resursları olan Xəzərətrafı ölkələrinsə belə bir strateji proqramı yoxdur və sabah buna da şübhə etməyək ki, kütləvi qırğın silahları üçün çalışan Ermənistan ayrı-ayrılıqda bu dövlətlərin (Xəzəryanı dövlətlərin) hər birinə meydan oxuyacaq. Artıq Nyu-Yorkdakı Henri Stimson Araşdırmalar Mərkəzi kimyəvi və bakterioloji silahlarla bağlı 20 dekabr 2000-ci ildə «Toksikoloji Arxipelaq» adlı strateji hesabatının yeni variantını Ağ Evə təqdim edib və bu hesabatın 14-cü səhifəsində - «MDB ölkələri» paraqrafında Ermənistanın adı çəkilir. Göstərilir ki, Yerevan yaxın beş ildə bakterioloji və kimyəvi silahların potensial bazasına çevriləcək.

Araşdırmalarımıza görə, nə qədər qəribə də olsa, Ermənistanın Naxçıvanla sərhəd ərazilərində - Armaş, Rind, Zəritap, Aqdui, Kəcəran yaşayış məntəqələrindəki quru qoşun birləşmələrində, sərhəd dayaq dəstələrinin tərkibində 9 xüsusi təyinatlı qrup kimyəvi və bakterioloji müharibədə təhlükəsizlik məsələlərini icra edəcək (hər dəstədə 18 nəfər xidmət edir).

Moskvada belə bir ünvan var: Leninqrad prospekti, ev 80 (ora radiocihazlarla bağlı saxta bir lövhə də vurulub). Araşdırmalar aparարkən maraqlı faktlardan biri də bu oldu ki, altı mərtəbəli bozumtul binada tam məxfi şəraitdə kütləvi qırğın silahları, eləcə də radarların hazırlanması üzrə təcrübələr aparılır. Bu qruplardan birinə doktor Ambarsum Georgiyeviç Muradyan başçılıq edir. 1988-90-cı illərdə Ermənistan MEA-nın Toksikoloji İnstitutunda çalışan bu şəxsin doktorluq dissertasiyasının mövzusuna fikir verin. «Qafqaz genlərində toksikoloji proseslər və immunitetli preparatlar». Erməni tədqiqatçı bu istiqamətdə ilk araşdırmalarını 1994-cü il iyul ayının 22-dən 1995-ci il iyunun 14-dək Azərbaycanın işğal olunmuş ərazilərində, əsir düşərgələrində, xüsusən Şuşa həbsxanasında saxlanılan azərbaycanlı dustaqlar üzərində aparıb. 1995-ci il iyulun 21-də A.Muradyan Radiocihazların Hazırlanması üzrə Elmi-Tədqiqat İnstitutunun katibliyinə ünvanladığı hesabatında yazır: «...Mən sınaq təcrübələrimin ilkin variantından razı qaldım. Mənim üçün ayrılmış sınaq palatasında altı nəfər «könüllü»dən üçü preparatlara dözə bilmədi. Qalan üç nəfər isə artıq sağalıblar. Özlərini yaxşı hiss edirlər. Sifətlərində müşahidə olunan səpgilər keçib. Qan dövranları normaldır...».

Maraqlı cəhətlərdən biri də bu idi ki, institutun direktoru, general Boris Vinoqradov bu hesabatı imza və möhürlə təsdiqləyib.

Araşdırma zamanı aydın oldu ki, mərkəzi bazası Vaşinqtonda yerləşən Qafqaz İnvestisiya Bankının livanlı başçısı Adnan Haşoqqi tərəfindən erməni aliminə 147 min ABŞ dolları dəyərində texniki avadanlıq yardım edilib.

Başqa bir erməni alimi Anastas Qurgenoviç Karpov isə 2002-ci ilin sentyabr ayından başlayaraq, Tehrandakı Mikrobiologiya Elmi Tədqiqat İnstitutunda öz təcrübələrini fars alimləri ilə aparmaq üçün dəvət alıb. Halbuki İran İslam Respublikasında kimyəvi və bakterioloji silahlardan əziyyət çəkənlərə yardım assosiasiyasının baş katibi doktor Abdulla Mazandarani 2001-ci il 3 dekabr tarixli parlament hesabatında qeyd edir: «...İraqla müharibədə 25 min iranlı əsgər və zabit kimyəvi və bakterioloji silahlardan ölüb. 65 min nəfər isə iflic vəziyyətindədir». Digər tərəfdən, «Aştarak-2»-də çalışan (Ermənistan MEA-nın ərazisi) erməni mikrobioloqlarından olan E.Aşkinazyan, D.Davidyan, O.Ohanesyan Şimali Koreyada da sınaq təcrübəsində olacaqlar. Maraqlı və ciddi məsələdir. Çünki Şimali Koreya dünyada məhz kimyəvi və bakterioloji silahların hazırlanması və istifadəsi yönümündə ən böyük arsenala malikdir. Şimali Koreyada gündə 15 ton kimyəvi-zəhərləyici maddələr və bakterioloji viruslar

hazırlamaq gücündə olan səkkiz müəssisə var. Ölkənin şimal-şərqindəki dörd elmi tədqiqat mərkəzindən biri tam məxfi qaydada işləyir. Ölkədə altı müxtəlif anbar var. Həmin «Umfi-3» tipli, tutumu 25 ton olan anbarlardan birinin 2003-cü ilin ortalarında DQ ərazisində tikilməsi də artıq planlaşdırılıb.

Nyu-York politoloqu Cudit Millerin məlumatına görə («New York times» qəzeti, 16 aprel 2000-ci il), Rusiyada «Noviçok» adlı yeni kimyəvi silah istehsal edilib. İki kimyəvi element birləşərək, ölümsaçan silah yaradır. Həmin birləşmələr mərmilərdə də istifadə edilir. 2001-ci il fevralın 2-də Moskvada çap olunan «Sintez» jurnalında isə erməni alimi L.M.Teroyants qeyd edir: «...«Noviçok» adlı silah «binar» silahıdır. Orada silahın istehsalında və hazırlanmasında mənim xidmətimə qiymət verən rus alimlərinə minnətdaram. Biz əsəb sistemini iflic edib «insanı əridən» bu silahı «Şuçe» poliqonunda sınaqdan çıxartdıq...».

Vaşinqtondakı Henri Stimson Mərkəzinin baş elmi işçisi Ami Smitson göstərir: «Ruslar bu silahları heç vaxt könüllü məhv etməyəcəklər. Əksinə, öz müttəfiqlərinə və partnyorlarına da satacaqlar. Amerika bu haqda ciddi düşünməlidir». (ABŞ. Pentaqona hazırlanmış hesabat. 16 oktyabr 2001-ci il).

Yerevandakı Orbeli küçəsi 22-də yerləşən əsəb sistemləri üzrə fiziologiya laboratoriyası əməkdaşlarından V.A.Toqosyanın və A.V.Arşakyanın 1998-ci il noyabrın 4-də DQ-a ezam olunmaları və orada bu laboratoriyanın filialını yaratmaları nəzərdən qaçmamalıdır. Çünki alimlər ilk sınaq təcrübələrini də məhz Qarabağda «Hayastan» Xeyriyyə Cəmiyyətinin dəstəyi çərçivəsində əsirlərimiz üzərində aparıblar.

## ZƏNGİLAN TORPAĞINDA BİOLOJİ MƏRKƏZ

MDB ölkələrindəki bakterioloji və kimyəvi silahları ləğv etmək üçün ildə 18,6 milyon dollar lazımdır. Ermənistanda Azərbaycanın işğal olunmuş ərazilərində 2001-ci ildə altı müxtəlif elmi-tədqiqat laboratoriyası tikilib. Məsələn, 2001-ci ilin martında Xankəndidə tikilən laboratoriya insan orqanizmi üzərində fizioloji və ekoloji tədqiqatlar aparır. Şuşada isə professor Adamats Danisloviç Qriqoryanın başçılıq etdiyi alimlər qrupu Biotexniki və Molekulyar Biologiya İnstitutunda genlərin öyrənilməsi, diferensial təsirlər, genetik nəsildəyişmələr araşdırılır. Bilavasitə Ermənistan MN-nin «21504-A-VS-04» lisenziyası ilə ordu üçün orqanizmin zəhərli maddələrdən qorunması fonunda preparatların hazırlanması işi görülür.

Müşahidələrimizdən bu da aydın olur ki, MDB ölkələrinin hamısı həmişə gözlənilən bioterrorizm qarşısında aciz və gücsüzdürlər.

Amerikanın Səhiyyə və Sosial Xidmət Nazirliyinin biotenorizm və kimyəvi silahlar üzrə aparıcı mütəxəssisi Marqaret Xemberq yazır: «Bu, real təhlükədir. Bu

təhlükəni dəf etmək lazımdır».

Con Hopkins Universitetinin nəzdində əhalinin biomüdafiə problemlərini öyrənən mərkəzin direktoru Con Henderson isə yazır: «Yaxın 10 ildə belə hücum mümkündür. Bu hücum da ola bilsin İraq tərəfdən, Şimali Koreya tərəfdən, İran və Livan tərəfdən olsun. Eləcə də MDB ölkələrindən birinin bu aksiyada iştirak etməsi vacibdir».

Rusiyaya məxsus «Vektor» bioloji laboratoriyasının iki elmi-tədqiqat şöbəsi işğal edilmiş Xocalı və Zəngilan ərazisində yerləşir. Laboratoriya müdirinin müavini, professor Sergey Netesovun 2000 və 2001-ci illərin əvvəllərində və sonlarında Qarabağ ərazisinə ezam edilməsi, erməni alimlərindən olan S.T.Petrosyan və Ş.O.Mikoyanla görüşməsi də maraqlıdır.

«Vektor»da dörd min adam işləyir və bu sayın 15 faizini milliyyətcə ermənilər təşkil edir. Burada - «Vektor» mərkəzində 4-cü dərəcəli bioloji zəhərli mikroblar öyrənilir, yeniləri hazırlanır. Mütəxəssislər bunu da öyrəniblər ki, bu mikroblarla lazım olan ərazinin 50 faizini məhv etmək olar. Bunun da qarşısını ala biləcək heç bir vaksin yoxdur. «Vektor»da laboratoriyaların 4-ü ölüm halları yarada bilən mikroblar hazırlayır. Burada milliyyətcə erməni olan altı nəfər çalışır.

Bunun üçün də heç bir vaksin yoxdur. Məsələn, «Ebola» virusu haqqında yeni nəticələr əldə edilib. «Elqefalit» virusunun yeni növləri hazırlanıb. «Vektor»un bir nömrəli binasında çoxlu soyuducular var. Nömrələnmiş bu soyuducular güclü enerji ilə təmin olunurlar və burada təqribən trilyon bakteriya saxlanılır. ABŞ-ın bioloji silahlar üzrə mütəxəssisi, Vaşinqtondakı Beynəlxalq Tədqiqatlar və Strateji Araşdırmalar Mərkəzinin eksperti Entoni Kordesman deyir: «Ora girmək mümkün deyil. Hər tərəfdən yoxlanılırsan».

Ermənistanın toksikoloji sahə üzrə tədqiqatçısı, hərbi həkim Q.O.Babayan isə Beyrut alimləri ilə (2001-ci ilin avqust müşavirəsi. Moskva. «Bioloji məlumatların ən yenisi üzərində düşüncələr» mövzusunda) söhbətində vurğulayıb ki, «təcrübə mübadiləsi üçün biz ora asanlıqla girib-çıxırıq». Araşdırmalarımız zamanı bu da aydın oldu ki, Rusiyada 47 belə mərkəz var. Ermənistan ərazisində isə 14 belə laboratoriya fəaliyyət göstərir. Ötən il noyabrın 21-dən başlayaraq, «Vektor»dakı bakteriyaların qorunması, sınaq-təcrübə meydanlarında istifadəsi üçün 4 soyuducu texniki nasazlıq adı ilə dayandırılmış və Qarabağa daşınmışdır. Bu isə hər şeydən əvvəl nəzarətsiz qalan torpaqlarımızın başı üzərində dolaşan növbəti fəlakətdən xəbər verir. Həmin soyuduculardan ikisi Türkiyə sərhədinə, biri Naxçıvanla sərhəd istiqamətinə, digəri isə Cəbrayıl rayonuna aparılıb. Soyuducular əvvəlcə nəzərdə tutulmuş yerlərdə quraşdırılarkən rus və erməni sərhədçiləri tərəfindən xüsusi mühafizə dəstələrinə müəyyən texniki məsələlərdə ehtiyatlı olmaq tapşırılıb. Bütün bu müşahidələrdən sonra Pentaqonun polkovniki Dennis Deplanter hesabatında qeyd edir: «Biz hələ ki, öyrənməyə çalışırıq».

Erməni professoru V.S.Qevandyan isə Rusiyanın Mikrobiologiya və

Virusologiya İnstitutunda (Moskva vilayəti, Pokrov şəhəri) işğal olunmuş Qarabağda, xüsusilə Zəngilan və Qubadlı rayonlarında təcrübə aparmaq üçün mikrobioloji xəritə hazırlayır. Professor Varonik Qevandyan öz elmi işini əsasən qarayara xəstəliyi ilə bağlı aparır.

2001-ci il noyabrın 3-də Londonun hərbi ekspertlərinin rəyinə əsasən belə bir məlumat verildi ki, bir sıra ölkələrdə «etnik silah»ların ixtirası yönümündə işlər tamamlanıb. Bu ölkələr sırasında İraq, İran, Rusiya və bir neçə MDB-yə üzv ölkələrin adları çəkilirdi. Araşdırmalarımız zamanı məlum olur ki, bu silah növünü, məsələn, Rusiya kimi ölkə üçün araya gətirmək elə də çətin deyil. Bu silahın hazırlanmasında qırmızı şam ağacından istifadə olunur. 2000-ci ilin məlumatına görə isə, Rusiyanın mülki geyimli qrupları Laçın və Kəlbəcər meşələrindən 12 hektarlıq cavan qırmızı şam ağacını kəsib aparmışlar (Dağlıq Qarabağda ekoloji məsələlərlə məşğul olan qrupun üzvü, həkim-ekoloq Aruşan Ciqarxanyan. Xankəndi. «Ararat» qəzeti, 4 dekabr, 2000-ci il).

Məlum olur ki, bu etnik silahların yaradıcılarından biri də Ermənistan MEA-nın professoru Serj Hasakulyandır. Bu silaha qarşı da hələlik heç bir əks-vaksinlər ixtira edilməyib. Artıq bu da məlum olub ki, Fars körfəzindən İraq istiqamətində vuruşan bəzi əsgərlər bu silahların yaydığı xəstəliklərə düçar olaraq «sıradan çıxıblar». Nəticədə İngiltərə Səhiyyə Nazirliyi ölkənin baş nazirinə və SQ-nin komandanlığına 2000-ci il oktyabrın 4-də göndərdiyi «N» nömrəli məxfi hesabatlarda göstərir ki, belə bir virus var.

## AZƏRBAYCANA QARŞI ERMƏNİLƏRİN «SİBİR XORASI»

Araşdırmalarımız zamanı belə bir məlumat da əldə etdik ki, mikrobiologiya üzrə tanınmış erməni alimlərindən olan doktor Burgen Aqurenoviç Şakaryan və Artunen Saakoviç Artunen rus alimlərinin köməyilə qarayara virusu üzrə həm Ermənistanda, həm də Azərbaycanın işğal olunmuş ərazilərində (Məsələn, Qubadlı) xüsusi laboratoriyalar yaradıblar. Lakin təhlükəni hiss edən erməni mütəxəssisləri 2001-ci il 2 iyul tarixində Yerevandakı laboratoriyanı Türkiyə sərhədi istiqamətinə köçürürlər. Məqsəd də bu olur ki, onların tədqiqatlarının nəticələrindən Ermənistanın Hərbi-Sənaye Mərkəzlərində bioloji silahların hazırlanmasında istifadə olunsun. İşin bir maraqlı cəhəti də var: Həm Yerevanda, həm də işğal olunmuş ərazilərimizdə bir nəfər tapılmadı ki, bu alimlərdən soruşsun: Siz nə edirsiniz? Məqsədiniz nədir?..

2000-ci ilin aprel ayında B.A.Şakaryanın və elmi işçi S.O.Kaçayanın qonağı olan Beyrut Bioloji Araşdırmalar Mərkəzinin əməkdaşı Feyzullah Yusif Livanda nəşr olunan «Aztaq» qəzetində (May, 2000-ci il, 26-cı nömrə) dərc etdirdiyi «Erməni alimlərinin axtarışları» adlı yol qeydlərində yazırdı: «Mən bir erməni qardaşımın elmi laboratoriyasında oldum. Gördüklərim, elmi nəticələr haqqında

biz də fikirləşməliyik. Çünki Livan üçün də Ermənistan qədər bir təhlükə var».

2000-ci ilin aprelində müşahidə edilən, 2001-ci ilin fevralın 3-dən artıq qarşısı alınması mümkün olmayan qarayara xəstəliyinin virusları Ermənistan ərazisində yayıldı. Lakin professor bu virusun ilk sınaq təcrübəsini Qarabağın işğal olunmuş hissəsindən Azərbaycanın SQ-nin yerləşdiyi Tərtər, Goranboy, Ağcabədi, eləcə də Naxçıvan istiqamətinə keçirmək niyyətində olub (Ermənistan MEA-nın 2000-ci il iyulun 21-ə olan hesabatı. Hesabat doktor O.D.Qalabekyanın imzası ilə hazırlanıb. Toksikoloji nəticələr iclasının yekun sənədi, səh. 9).

Təbii ki, Azərbaycan istiqamətində bu məsələnin reallaşması şansı az idi. Lakin erməni alimlərini qorxudan bu olub ki, Azərbaycan ərazisində əsən küləklər tez-tez istiqamət və sürətini dəyişdiyindən hər şey əksinə alına bilər. Onları, nə qədər də qəribə olsa, bu qənaətə Moskva Federal Elmi-Tədqiqat Mərkəzinin (mikrobiologiya üzrə) professoru A.Proxorov gətirib. Yerevan Toksikoloji Araşdırma Mərkəzinə bu addımın törədə biləcəyi əks-zərbələrin nəticəsini açıqlayıb (həmin sənəd, səh. 21). Lakin artıq Yerevanda «Sibir xorası»nın, yəni qarayara viruslarının oyanması üçün nəzərdə tutulan mexanizm «Akstark-2»-də quruldu. Bu isə ediləcək cinayətlərin başlanğıcı olaraq qalır. Bilavasitə insan orqanizmindəki «Sİ-Sİ-ER 2» və «Sİ-Sİ-TN 5» genlərini şikəst edən və insan ömrünə balta vuran «Sibir xorası» - qarayara viruslarının Ermənistan ərazisində olması, işğal olunmuş yurd yerlərimizdə elmi laboratoriyaların tikilməsi məsələni daha da ciddiləşdirir.

## İŞĞALÇILARIN ELEKTRON POÇTU

«Ekranlaşdırma» adicə söz birləşməsi və ya mücərrəd məfhum deyil. Bu sözün leksikonda öz yeri və mənası var. Fransız sözü kimi siyasi bir tutumu da bəllidir. ABŞ Məxfi Xidmət İdarəsinin direktoru Lyuis Merlettinin fikrincə, bütün məxfi xidmət idarələri, mərkəzləri, güc mərkəzləri «ekranlaşdırma» əməliyyatından keçməlidir. Belə olmazsa, həmin ərazidə və yaxud ərazilərdə heç bir məxfilik prinsiplərindən danışmaq olmaz. «Ekranlaşdırma» əməliyyatı imkan vermir ki, həmin ərazilərdən hər hansı bir məxfi informasiya və məlumat axını olsun. Bu texniki proseslərdən sonra kompüterlərə və telefon danışıqlarına, məxfi müşavirələrə və söhbətlərə, yazışma və elektron poçtlarına girmək mümkün olmur. «Ekranlaşdırma» anlayışı onlara sədd çəkir. Məsələn, Vaşinqtonla Yerevan arasında bağlanmış hərbi əməkdaşlığın (24 iyul 2000-ci il) bir qolunu Ermənistan xüsusi xidmət orqanlarının elektron şəbəkəsinin yenidən qurulması təşkil edirdi. Ayrılmış 300 min ABŞ dollarının 75 mini məhz bu məqsəd üçün xərcləndi. Ermənistanın hərbi kəşfiyyat və əks-kəşfiyyat idarələrinin texniki imkanları Pentaqonun sənəd və layihələrinə uyğun olaraq, yenidən quruldu. Azərbaycan və Gürcüstan istiqamətində, eləcə də Orta Asiya xəttində yeni kanallar - elektron poçt

kanalları açıldı. Enriko Apriamov bunlarla bağlı belə bir açıqlama verdi: «Bizim üçün vaxt gözləmir. Yerevan bütün mövcud texniki imkanlardan istifadə edərək istənilən saytlara girmək şansı qazanıb. İnformasiya əməliyyatlarının bizim üçün əhəmiyyəti böyükdür. Elektron poçtlarına gəlincə, Yerevan artıq informasiya texnologiyasının bu qolunu həm Orta Asiyada, həm də Azərbaycan və Gürcüstanda nəzarətə götürmək və həmin elektron poçtlarını araşdırmaq üçün güclü «Strateji informasiyaların təhlükəsizlik konsepsiyası»na malikdir». Deməli, erməni generalının fikrincə, Yerevan istənilən vaxt elektron poçt vasitəsilə Bakının idarə və müəssisələrində, məxfi təşkilatlarında, güc nazirliklərində gedən hər hansı bir məlumatın ən azı 70-75 faizini əldə edə bilər. Bu yolda isə birinci çıxış «provayder»ə olur. Azərbaycanda olan 7 «provayder»dən 3-ü ABŞ, 4-ü isə Rusiya Federasiyası üzərindən keçən kanallardan istifadə edir. Pentaqon layihəçilərinin Yerevanda yaratdıqları yeni texniki imkanlar da ermənilərin məxfi qruplarının asanlıqla bu kanallara qoşulmasına şərait yaradır. Nəticədə Yerevan kəşfiyyat xidməti hər hansı elektron poçtuna daxil olan məxfi informasiya və yaxud məlumatı, ümumilikdə e-mail poçtunu öz ofisinə istiqamətləndirir.

Araşdırmamız zamanı bir fakt da aydın oldu ki, Yerevan Müdafiə Nazirliyi ilk elektron yazışmalarını Ermənistanda 1999-cu il iyun ayının 2-də özünün ofisini açan «Əhmədcan Hacı Məhəmməd» şirkəti ilə qurdu. Bu elektron yazışmalarına erməni məmuru, kompüter biznesi quran zabit Qeqam Arutyunyan başçılıq edirdi. 2000-ci ilin aprel ayında isə Yerevana aydın oldu ki, «Əhmədcan Hacı Məhəmməd» şirkətinin Baş Qərargahı Pakistanın Ravalpindi şəhərində yerləşir və Üsəma bin Laden tərəfindən maliyyələşdirilir. Bu da aydın oldu ki, şirkətin Orta Asiyada, xüsusən Qazaxıstanda da güclü işgüzar ofisləri və bu ofislərin dördünün radioaktiv materialların satılmasında, oğurlanmasında, müxtəlif istiqamətlərə daşınmasında xüsusi rolu var.

Digər tərəfdən, Yerevan özünün hərbi və təhlükəsizlik sistemindəki elektron poçt kanallarına 2001-ci il fevralın 13-də «COMIT» texnoloji sistemini də qoşub. Bu, ona aşağıdakı vəzifələri icra etməyə imkan və şərait yaradır:

- «COMIT» vasitəsilə Azərbaycana daxil olan kod və siqnallarla radarların dislokasiyası və onun növlərinin aydınlaşdırılmasına;
- Radarların elektron şüalarını nizamlaya bilən kodların və şifrlərin elektron poçtlarına daxil olması. Bu elektron şüaları vasitəsilə raketlərin və təyyarələrin hərəkət istiqamətinin dəyişdirilməsi və itirilməsinə;
- Elektron poçtlarının iqtisadi kəşfiyyata vurduğu ziyan. Bu poçt vasitəsilə ayrı-ayrı diplomatik korpusların, neft şirkətlərinin aralarındakı yazışmalara, söhbətlərə, kommunikasiya əlaqələrinə asanlıqla müdaxilə etmək mümkündür. Elektron poçtu hər hansı mobil telefon əlaqələrinə girə bilir.

Pentaqonun kəşfiyyat və rabitə üzrə informasiya sisteminin təhlükəsizlik məsələləri ilə məşğul olan operativ dəstəsinin başçısı Riçard Şefferin fikrincə,

«Elektron poçtu kəşfiyyatda strateji informasiya və yazışmaların əsas təminat bazasıdır».

Məhz bu baxımdan, ayrı-ayrı dövlətlərdə elektron poçt və yazışmalar məsələsi ilkin olaraq, özünün qanuni hüququnu almaq üçün qanunverici orqanların müzakirəsinə çıxarılır. Məsələn, Şərqi Avropa ölkələri bir qayda olaraq, elektron poçt və yazışmalara milli təhlükəsizlik baxımından, məhdudiyyət və qadağalar qoyub. Özbəkistan, Qazaxıstan və Türkmənistan bunu ölkənin kəşfiyyat idarələrinə həvalə edib. Tacikistanda isə bu, tamamilə qadağan olunub. Düşənbə ilə Herat (Əfqanıstan) arasında qeyri-qanuni yolla qurulan elektron poçtu aşkarlanarkən 2002-ci ilin ilk üç ayı ərzində 67 müxtəlif məxfi informasiyanın olduğu aşkarlanıb.

«E.Kantriz» informasiya xidməti (Nyu-York) əməkdaşlarının isə elektron poçtu və informasiya axını haqqında düşündürücü qənaəti var. Xidmət bu il martın 4-də hazırladığı hesabatda göstərir: «Elektron poçtu vasitəsilə ötürülən, alınan və yaxud verilən strateji məlumat və informasiyalarla, kod və rəqəmlərlə danışıq və yazışmalarla istənilən dövlət strukturunu pozmaq və yaxud dağıtmaq mümkündür. Elektron poçtu istənilən infrastruktura təsir etmək gücünə malikdir».

## OĞURLANMIŞ KOD

Məlumata görə, ABŞ-da ticarətin 49, Almaniyada 12, Sloveniyada 8 faizi bu sistem üzrə kodlaşdırılıb və bu sistemlə fəaliyyət göstərir. Bunun üçün xüsusi qanunlar da hazırlanıb. Rusiya da özünün iqtisadi qanunları ilə elektron ticarətinə qoşulub. O da düzdür ki, bu ticarət növünün özünəməxsus üstün cəhətləri var. Məsələn, vaxt itkisinə qənaət və maya dəyərinin aşağı düşməsi, operativ iqtisadi əlaqələr. Lakin bütün bunlar o vaxt mümkün olur ki, güclü və hərtərəfli informasiya təhlükəsizliyi konsepsiyası olsun. Bunsuz elektron ticarət sisteminə, eləcə də elektron poçtuna qoşulmaq məcburiyyətdən başqa bir şey deyil.

Yerevan elektron ticarətinə qoşulmayıb, elektron poçtuna isə informasiya və məlumat verən, yazışmalar təşkil edən tərəf kimi yox, əksinə informasiya və məlumatlar qəbul edən tərəf kimi qatılıb. Erməni mütəxəssisləri Arustamyan və Poqosyan San-Fransiskoda elektron terrorizmi mövzusunda keçirilmiş simpoziumda iştirak ediblər. Bu simpoziumu da böyük İnternet şəbəkəsi olan məşhur «Ziff Devis» şirkəti təşkil edib.

Ermənilərin ciddi-cəhdlə öyrəndikləri və yaxud öyrənmək istədikləri elektron terrorizminin törədə biləcəyi fəlakət bombaların törədə biləcəyi dəhşətlərdən ağırdır. Çünki məhz bu yolla hər hansı ölkənin enerji sistemini pozub dağıtmaq mümkündür. Eləcə də nəqliyyat sistemi sıradan çıxa bilər, özbaşınalıq, xaos yaranar. Bank sistemi, elektron bazaları məhv olar. 11 sentyabr faciəsində faktiki olaraq Amerikada fiziki terrorla elektron terrorizmi eyni anda icra olundu və dünyanın bir-birilə bağlı olan infrastrukturlarına öldürücü zərbələr endirildi.

Erməni separatçılarının və işğalçılarının zəbt etdikləri Dağlıq Qarabağ əraziləri Azərbaycan Respublikasının Milli Təhlükəsizlik konsepsiyasının tərkib hissəsidir.

Azərbaycan Respublikasının milli təhlükəsizliyi isə, dövlətin müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün, konstitusiya quruluşunun, xalqın və ölkənin milli maraqlarının, insanın, cəmiyyətin və dövlətin hüquq mənafelərinin daxili və xarici təhdidlərindən qorunmasının təmin edilməsidir.

ABŞ Federal Təhqiqatlar Bürosunun Xuantikadakı kompüter laboratoriyasında məhz bu istiqamətdə maraqlı və ciddi araşdırmalar aparılır. Elektron texnologiyası şöbəsinin başçısı, polkovnik Marius Tomasın fikrincə: «Münaqişədə və müharibə ərəfəsində olan dövlətlərin kəşfiyyatının elektron şəbəkəsinə, o cümlədən elektron poçtuna olan maraq daha genişdir. Elektron poçtu «canlı agentura» şəbəkəsi ilə «elektron agentura» şəbəkəsinin əyani birləşməsidir».

Fransa kəşfiyyatı məlumatlarının 29 faizi, Suriya 41, Livan kəşfiyyatı məlumatlarının 47 faizi (Beyrut-Yerevan hərbi bağlaşması da) bu məsələyə həsr olundu (22 oktyabr 2001-ci il). Ermənistan müdafiə naziri Serj Sarkisyan və Livanın müdafiə naziri Xəlil Əl Xraun arasında imzalanmış müqavilədə hərbi kəşfiyyat əlaqələrində elektron texnologiyası, elektron poçt və yazışmaları haqqında da ayrıca bənd var. Ermənistan müdafiə naziri belə bir müqaviləni 2001-ci il oktyabrın 28-də Suriya ilə imzaladı. Almaniya kəşfiyyatı məlumatların 33%-ni, ingilis kəşfiyyatı 35%-ni, Yaponiya kəşfiyyatı 37%-ni elektron poçtlarından alır. Hərbi kəşfiyyata gəlincə, Rusiya elektron poçt vasitəsilə məxfi hərbi məlumatların 46, İran İslam Respublikası 31, Türkiyə isə 48 faizini əldə edə bilir. Bura bütün kommunikasiya, rabitə əlaqələri, mətbuat və yazışmalar da daxildir.

2000-ci ilin avqust-sentyabr aylarında Ermənistan kəşfiyyat mərkəzi, Müstəqil Dövlətlər Birliyi ərazisində məskunlaşan ermənilər (birlik və cəmiyyətlərlə, diaspor mərkəzləri ilə) birbaşa əlaqələrin zəruri olduğunu və bunun üçün xüsusi proqramların hazırlanması məsələsini ölkənin Təhlükəsizlik Şurasında qaldırdı. Məhz bundan sonra, avqustun 14-də Yerevandan Moskvaya, Xankəndinə, Dağıstana, Düşənbəyə, Daşkəndə, Astanaya, Tbilisiyə və Aşqabada «mütəxəssislər», «poçtalyonlar» və tədqiqatçılar ezam olundular. Məqsəd vaxtilə münaqişələr, müharibələr, etnik ziddiyyətlər zamanı yaşadığı məkanı tərk etmiş ermənilərlə əlaqələrin saxlanılması, onların müxtəlif işlərə cəlb olunması, Yerevanla birbaşa biznes və işgüzar əlaqələrin qurulması idi. Erməni «poçtalyon»ları Sumqayıtdan, Bakıdan, Gəncədən, Naxçıvandan köçüb getmiş ermənilərlə xüsusi əlaqələr yaratmaqdan ötrü «Böyük Ermənistan» ideyası ilə bağlı sorğu anketləri də paylamışdılar.

Yerevan elektron poçtları üçün Həştərxanda, Stavropolda, Saratovda, Moskvada, Alma-Atıda, Aşqabad və Mahaçqalada bir neçə özəlləşdirilmiş binaları da satın alıb və orada bilavasitə yerli erməni diasporlarının başçılığı ilə yeni

texniki, kompüter və elektron avadanlıqları quraşdırılır. Bütün elektron şəbəkəsinə erməni zabiti Manvel Qriqoryan başçılıq edir. Erməni diasporunun Stavropolda, Pyatiqorskda, Krasnodar və Soçidə, eləcə də Şimali Qafqazın digər regionlarında «Siz Dağlıq Qarabağa getmək istəyirsinizmi» sualı ilə keçirdiyi sorğuya ermənilərin 45 faizi «hə» cavabını verib. Sorğunu «Riçel» erməni şirkəti maliyyələşdirib.

## KƏŞFİYYAT PROQRAMI

Yerevan kəşfiyyat materiallarının toplanmasında, məxfi məlumatları gələcəkdə elektron poçtlarına yönəltməkdə dini icmalardan, cərəyanlardan və din pərdəsi altında fəaliyyət göstərən xeyriyyə təşkilatlarından, beynəlxalq hüquq və vicdan azadlığı ilə məşğul olan mərkəzlərdən də geniş istifadə edir. Bu məqsədlə Ermənistan Apostol kilsəsi regionlarda və diasporların tərkibində işləmək məqsədilə 2 min paster tələb olunduğunu bildirib.

Digər tərəfdən, müntəzəm olaraq, Bakıda yayılan və azad satışı təşkil olunan «Bxaqavat gita» (krişnaçıların) kitabları Yerevanda «Mitk» nəşriyyatında politoloq Stepan Danielyanın başçılığı ilə çap olunub (1999-cu ildə iki, 2000-ci ildə üç, 2001-ci ilin birinci yarısında iki dəfə 10-20 min tirajla).

Araşdırmalarımızdan bu da aydın oldu ki, hələ 1995-ci il aprelin 24-də Ermənistan MN-də Apostol kilsəsinə mənsub olmayanlar haqqında məxfi bir qərar hazırlandı. Bu qərarın əsas maddələrindən birini başqa ad və soyad altında MDB ölkələrində, o cümlədən Azərbaycanda yaşayan ermənilərlə əlaqələrin bərpası təşkil edirdi. 1999-cu il noyabrın 9-da bu maddə «Elektron kəşfiyyat proqramı»na daxil edildi.

2000-ci ilin dekabr ayında isə Ermənistan hökuməti ilə Apostol kilsəsi arasında memorandum imzalandı. Yerevanda fəaliyyət göstərən «İyeqova şahidləri» adlı dini mərkəzin lideri Rüstəm Xaçaturyanla MN-nin kəşfiyyat xidməti arasında informasiya mübadiləsi çərçivəsində bir sənəd də imzalandı. «Saxarov fondu»nun sədri Ağası Arşanyan isə MN-ə könüllü olaraq informasiya yardımı edəcəyini bildirdi. Artıq Qərbin bir sıra aparıcı dövlətlərinin xüsusi xidmət orqanları, diplomatik korpuslar İnternetdən istifadəni məhdudlaşdırıb. Bu da onların bu şəbəkəyə inamsızlıqları ilə bağlıdır. Hazırda ABŞ və İngiltərə məxfi mərkəzləri «İnterlink» adlı ciddi elektron proqramına keçib. Elektron poçtlarına gəlincə, bu istiqamətdə də tam məxfi proqramların işlənib hazırlanması məsələsi hələlik diqqətdən yayınmır.

Elektron poçtu müasir kəşfiyyatın tərkib hissəsi olduğundan ABŞ təhlükəsizlik xidməti, ümumiyyətlə, İnternet şəbəkəsində ciddi rejimə keçdi. Çünki ölkədə baş verən son terror aktlarının törədilməsinin günahının 63 faizi, Harvard Universitetinin Strateji Araşdırmalar və Tədqiqatlar Mərkəzinin məlumatına görə,

nəzarətdən çıxmış elektron poçtlarının üzərinə düşür.

Diplomat, Milli Təhlükəsizlik Agentliyinin analitiki Styuart Beykerə görə, elektron poçtları və onun büroları ciddi nəzarətə götürülməlidir. Çünki elektron poçtları terrorçuların fəaliyyət dairələrinin genişləndirilməsi, qaçaqmalçılıq, silah və narkobiznes məsələlərində nüvə materiallarının çıxarılmasında və oğurlanmasında ən etibarlı mənbədir, daha dəqiq desək, «elektron xəritə»dir.

Məhz bu baxımdan, Amerikanın Federal Təhqiqatlar Bürosu ölkənin əsasən strateji mərkəzində fəaliyyət dairələrini genişləndirən informasiya mərkəzlərinə və elektron poçtlarına nəzarət üçün «Garnivar» adlı kommunikasiya-nəzarət sisteminin tətbiqinə keçib.

Elektron poçtlarının bürolan texniki sisteminə görə, regionun və yaxud ərazinin strateji nöqtələrinin bütün qütblərində yerləşdirilir.

2000-ci il dekabrın 13-də («İravunk» qəzeti. Yerevan) Ermənistan MN-də elektron və telekommunikasiya məsələləri ilə bağlı yığıncaqda nazirliyin kəşfiyyat bölməsində aparıcı zabitlərdən olan polkovnik Artur Ağabekyan Azərbaycan və Türkiyə istiqamətində qurulacaq kəşfiyyat kommunikasiya sistemindən geniş danışır və bu ciddi məsələnin bir neçə mərhələdə həyata keçirilməsini təklif edir. Kəşfiyyat polkovnikinə görə, bu nazirlik elektron poçt məsələsini üç mərhələdə başa çatdırmalıdır.

**Birinci mərhələ - 2001-2003-cü illər;**
**İkinci mərhələ - 2003-2005-ci illər;**
**Üçüncü mərhələ - 2005-2008-ci illər.**

## «AKOPYAN» FİRMASININ «MƏXFİ BÜROSU»

Türkiyə və Azərbaycan, işğal olunmuş Qarabağ sərhədlərində hərbi mövqelərini möhkəmləndirən beşinci ordu korpusu komandanı, polkovnik Aykaz Bəhmanyana, birinci ordu korpusu komandanı, polkovnik Levon Yeronosyana, ikinci ordu korpusu komandiri, polkovnik Seyran Saroyana strateji informasiyaların toplanmasında və işlənməsində komandanlığın tərkibindəki elektron poçtlarının şəbəkəsinin genişləndirilməsi işi tapşırılır. Azərbaycan və Türkiyə istiqamətində qurulan elektron mərkəzlərinə də nəzarəti bilavasitə müdafiə naziri, general Serj Sarkisyan edir. Elektron kəşfiyyat məsələlərinə dərindən bələd olmaq üçün 2002-ci ilin aprel-may aylarında Yerevandan və Xankəndidən ayrılmış 56 nəfərlik zabit qrupu Rusiyaya, Çin Xalq Respublikasına, İrana, Livan və Suriyaya gedib. 2001-ci il iyunun 19-da Amerika Erməni Demokratik Şurası (Armenian-American Democratic Leadershin Council) tərəfindən (Maxdesyanın qrupu) Dağlıq Qarabağın «özünümüdafiə dəstələri»nə 30 adda müxtəlif kompüter və elektron avadanlığı «hədiyyə» edilib. Səkkiz nəfərlik mühəndis qrupu da

Ermənistanın Türkiyə və Azərbaycan sərhədləri istiqamətində həmin elektron avadanlıqlarının quraşdırılmasında, elektron poçtlarının qurulmasında iştirak edib.

Ermənistanın Azərbaycan istiqamətində planlaşdırdığı elektron hücumunun birinci mərhələsində (2001-2003-cü illər) qütblərdə strateji məntəqələrin müəyyənləşdirilməsi və həmin dairələrdə elektron poçtlarının - büroların yaradılması əsas məsələdir. Bu məqsədin planlı və ardıcıl həyata keçirilməsi üçün erməni kəşfiyyatı təkcə «daxili resurslar»dan deyil, eləcə də xaricdəki erməni diaspor mərkəzlərindən ciddi istifadə edir və əlaqələri genişləndirir. Məsələn, Fransa, Suriya, Yerevan və Xankəndi ilə güclü əlaqələri olan Tehranda kök salmış «Akopyan» erməni firmasının nəzdindəki internet şəbəkəsinin, elektron poçtu və rabitə-kommunikasiya mərkəzinin Təbrizdə, Ərdəbildə, Culfada, Biləsuvar və Parsabadda yaradılmış bürolarını araşdıraq. Bilavasitə İrandakı erməni diasporu ilə iş birliyi quran «Akopyan» firmasının geniş texniki imkanlara malik olması və bu imkanların Azərbaycan istiqamətinə yönəlməsi araşdırılması vacib olan məsələ kimi diqqətdən yayınmamalıdır. Bu bürolarda qurulan və Azərbaycanın sərhədləri istiqamətinə «start» götürən güclü «Armenia» ötürücüləri, elektron poçtları Astara-Lənkəran, Biləsuvar-İmişli bölgələrini asanlıqla əhatə edir. Dağıstan ərazisində fəaliyyət göstərən və eləcə də öz emissar-müxbirlərini «Araz» erməni cəmiyyətində (Mahaçqala, Şamil küçəsi 14) təlimatlandırıb şimal rayonlarına - Şəki, Zaqatala, Balakən, Qusar ərazilərinə istiqamətləndirən ermənilər elektron poçtlarının bir qismini ayrı-ayrı şirkət və firmaların (neft şirkətləri həmçinin), insan hüquqlarının müdafiəsini «təmin edən» cəmiyyətlərin, beynəlxalq xeyriyyə təşkilatlarının, KİV-in nəzdində asanlıqla qura bilirlər. Ermənilərin kəşfiyyat prinsipləri əsasında qurduqları «Azərbaycan ərazisindəki elektron poçtları»nın vəzifələrindən biri də, əsasən müxalifət mətbuatı vasitəsilə böhtan, tələb və təkid məzmunlu məktubların, xəbər və məlumatların göndərilməsi təşkil edir.

2001-ci il avqustun 9-da Xankəndidə ermənilərin qondarma lideri Arkadi Qukasyanın yanında keçirilən hərbi müşavirədə Kaliforniya ştatının keçmiş qubernatoru milyonçu erməni Edvard Cerecyanın məktubu oxunur. Edvard Cerecyana görə, Kaliforniyada erməni diasporunun müstəqil «Artsax» (Xankəndi) bölməsi yaradılıb və bu bölmənin də fəaliyyəti Xankəndinin ordu quruculuğuna yardımdan ibarət olacaq (Bax: Ermənistan. «Asun» informasiya agentliyi. 2001-ci il, 11 avqust).

Ermənistan 2001-ci il avqustun 2-də RF-nın FTX-nin nəzarətində olan «Qafqaz informasiya əməliyyatları»na qoşulmaq üçün müraciət edib. 2001-ci il avqustun 4-də Xankəndidən də belə bir müraciət eyni ünvana daxil olub. Rusiya Təhlükəsizlik Şurasında müzakirəyə çıxarılmış və qəbul olunmuş (19 aprel 2001-ci il) «İnformasiya Təhlükəsizliyi Konsepsiyası»ndan sonra onun xüsusi xidmət orqanlarında güclü texnoloji proqram təminatı sistemi yaradılıb. Bunun vasitəsilə ayrılmış kanalla «provayder»ə çıxış mümkündür.

## QARABAĞIN İŞĞALINDA XARİCİ KƏŞFİYYATIN PLANLARI

2002-ci il yanvarın 14-də Ermənistan Təhlükəsizlik Nazirliyi 1998-2000-ci illər ərzində ABŞ və İsraildə çalışan, hazırda istefada olan rus kəşfiyyatçılarından dördünü Yerevana işləmək üçün dəvət edib. Yanvarın 19-da sabiq rus kəşfiyyatçılarından polkovniklər Oleq İvanoviç Safanov, Yefim Boqdanoviç Suvorov, Valeri Aleksandroviç Popov, Sergey Trofimoviç Antonov Yerevana gəlmiş, müvəqqəti pasport qeydiyyatına salınmışlar. Yanvarın 24-də Sergey Trofimoviç Antonov və Oleq İvanoviç Safanov Xankəndi kəşfiyyat departamentinə yollanıblar.

Polkovnik Valeri Aleksandroviç Popov qeyd etdiyimiz illərdə İsrailin Nes-Tsiana şəhərində çalışıb. Şəhər strateji əhəmiyyətlidir. Təl-Əvivin cənub-şərqindən 24 km aralı yerləşir. Ölkənin məxfi Biokimya İnstitutu da bu ərazidədir. İnstitut ölkənin kəşfiyyat xidmətləri üçün kimya-biologiya sahəsində strateji planlar işləyir və bu planlar keçmiş baş nazir David Ben-Qurionun adı ilə bağlıdır.

Polkovnik Sergey Trofimoviç Antonov isə Livermorda çalışıb. Livermor ABŞ-ın strateji əhəmiyyətli şəhərlərindəndir. Lourens adına radiasiya üzrə milli laboratoriyalar bu şəhərdə yerləşir.

Yerevanın regionun «şahmat taxtası»ndakı bu siyasi gedişi ABŞ Prezidenti Corc Buşun İran İslam Respublikasına göndərdiyi ultimatumundan sonra (2002-ci il yanvarın 10-u, fevralın 9-u və 13-ü) daha da ciddiləşdi. 2002-ci il yanvarın 9-da Corc Buşun Konqresdə «Ölkədəki vəziyyətə dair» çıxışı dinlənildi. Çıxışda deyilirdi «İran nüvə silahlarının hazırlanmasında və yeni raket texnologiyasına yiyələnməkdə strateji maraqlarını genişləndirib. Tarix bizi və bizim müttəfiqləri bu istiqamətdə mübarizəyə çağırır (Azərbaycanın da müttəfiqlər cərgəsində olmasını yadda saxlayaq - red.). İran ərazisində terrorizmi ixrac edən ölkədir. Biz bu yönümdə mübarizə üçün ildə 1,5 milyard dollar xərcləyirik. Hər gün 30,2 milyon dollar bu mübarizəyə sərf olunur».

Amerika XXI əsrdə «Azadlıq korpusu» deyilən yeni strateji Proqrama keçib. Bu Proqram onun milli təhlükəsizliyinin təminatçısı olacaq. Çünki İran rəsmiləri birinci olaraq Amerikanın onu hədəf seçərkən Ermənistana üz çevirəcəklərini elan edirlər. Digər tərəfdən, bu, təbiidir. Ermənistanı bu ilin yanvarından başlayaraq, NATO-ya üzv ölkələrin bir qismi, MDB-yə üzv ölkələrin bir neçəsi və İraq, Əfqanıstan, Suriya, Livan, Liviya və İran güclü dövlətlər sırasında təbliğ edir, Yerevanın timsalında «güclü dövlətin güclü paytaxtı» mifini yaradırlar.

2002-ci il yanvarın 28-də Ermənistan Təhlükəsizlik Şurası ölkənin hərbi kəşfiyyat və əks-kəşfiyyat xidmətlərinin «inkişaf perspektivləri»ni nəzərə alaraq, İranın hərbi kəşfiyyat və əks-kəşfiyyat mərkəzləri ilə quracaqları əlaqələrin

sənədlərini müzakirəyə çıxartdı. General S.Sarkisyanın fikrincə, bu əlaqələr Ermənistan və Dağlıq Qarabağın hərbi kəşfiyyat işlərinin yenidən qurulmasında önəmli rol oynayacaq.

Məsələnin mahiyyətində isə Amerika təhlükəsinə qarşı «Yerevan+Tehran» sövdələşməsi dayanır. Digər tərəfdən, Yerevan-Tehran münasibətlərinin böyüməsində öncə Moskvanın maraqları var. Burada Çin, Livan, Yunanıstanın siyasi maraqları da mövcuddur.

Araşdırmalarımızın məntiqi və real nəticəsi onu deyir ki, Moskva özünün kəşfiyyat və hərbi planlarında Tehranı tək buraxmayıb və bu istiqamətdə Yerevanı ən etibarlı кörpü və region kimi mühüm mərkəz sayır. Faktiki olaraq, Tehran istiqamətindən Vaşinqtona açılan «atəş»də Moskva da iştirak edir. Bu, onun strateji məqamlarından biridir. Qubadlı, Füzuli, Zəngilan, Cəbrayıl istiqamətindən sərhədlərə (İranla), eləcə də Dağlıq Qarabağ istiqamətindən Azərbaycana nəzarət ruslara məxsusdur.

Məsələn, Rusiyanın Xarici İqtisad Kəşfiyyatının tanınmış fiqurlarından olan polkovnik İsay Lobov qeyd edir: «Rusların ermənilərə münasibəti həmişə yüksək olub və tarix boyu bu münasibət pillə-pillə qalxıb. Rus siyasətçiləri nəinki MDB çərçivəsində, eləcə də dünyada qərar tutan erməni diasporları ilə əlaqələr yaratmaqda, birgə strateji tədbirlər hazırlamaqda maraqlıdırlar» (İ.O.Lobov. «Üfüqi xətt» kitabı. M., 1999, səh. 61). İran İslam Respublikasının da mövqeyi aydındır. 2001-ci il dekabrın 13-də ölkənin xarici işlər naziri Kamal Xərrazi Tehrandakı erməni icmasının üzvlərinə açıqca bəyan edib: «Ermənilər bizim dostumuz, qonşumuz yox, qardaşımızdır. Onlarla qan qohumluğumuz haqqında çoxlu tarixi sənədlər var».

Afinada çıxan «Estiya» («Ocaq») qəzeti 2001-ci il noyabrın 10-dakı sayında «Redaktor sütunu»nda yazır (səh. 1): «Ermənistanla bağladığımız hər hansı sənəd tarixi sənəd kimi qiymətlidir. Dağlıq Qarabağ məsələsi isə onları tarixə yenidən baxmağa və buraxılmış səhvləri düzəltməyə məcbur edəcək. Afina Yerevana hərbi və təhlükəsizlik xidmətlərində yardımçı olacağını həmişə elan edir».

Yunanıstanın prezidenti Konstantinos Stefanopulos ABŞ-ın Yunanıstana yönəlmiş siyasətinə işarə edərək deyib: «Bu, dost siyasəti deyil».

«Vaşinqton tayms» qəzeti isə bu fikirdədir: «Dövlətlər var ki, onu terrorçular maliyyələşdirir və onlar həmin ərazidə azad, sərbəst dolanırlar. Bu dövlət Yunanıstandır». Təqribən 18 faizini milliyyətcə ermənilər təşkil edən «17 noyabr» terror qrupunun isə ölkədə az qala toxunulmazlıq statusu var.

Pekində nəşr olunan «Çayna deyli» qəzeti («Çin gündəlik qəzeti») isə ermənilərlə MDB məkanının, eləcə də dünyanın erməni diasporları ilə hər cür əlaqələrin qurulmasını vacib sayır: «Ermənistan müstəqil ölkə kimi Çinlə münasibət-lərini genişləndirməyə çalışır. Ermənilərin hərbi təlim dərslərini alması, bu sahədə əməkdaşlığın genişləndirilməsi üçiln Çin real təkliflər irəli sürüb. Çin

investisiya məsələsində də ciddi təkliflər irəli sürməyə hazırdır».

Livan isə Azərbaycan torpaqlarının işğalında ermənilərə bilavasitə yardımçı olub.

Sözügedən ölkələrin mətbuat səhifələrində, rəsmi dairələrində Azərbaycana belə yanaşılmır, ölkəmiz haqqında belə düşünülmür. Halbuki Azərbaycan geostrateji cəhətdən dünyanın həm siyasi, həm də iqtisadi maraqlarının diqqətindədir. Bu da maraqlıdır ki, NATO-ya üzv ölkələrin bir qismində Bakı Beyrut kimi səciyyələndirilir. Yəni, neft Bakısının Beyruta çevriləcəyi günün yaxınlaşdığı deyilir.

Şuşadakı bilavasitə Tehranın təklifi ilə yaranmış «Amerika planlarına qarşı kollektiv kəşfiyyat» blokunun təhlükəsizliyi Xankəndi Hərbi Əks-Kəşfiyyat Departamentinə həvalə edilib.

Ərazidə radiasiyanın səviyyəsi yüksək olduğundan 2001-ci il noyabrın 22-də yaradılmış bu strateji mərkəz işini ancaq bu il yanvarın 12-də gücləndirdi.

Dağlıq Qarabağ ərazisindəki radiasiya durumu haqqında Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin Texniki Əməkdaşlıq Departamenti Avropa şöbəsinin rəhbəri Məsud Səhmayi və agentliyin radiasiya və radioaktiv tullantıların təhlükəsizliyi departamentinin əməkdaşı Aleksandro Bilbao-Alfonso öz hesabatlarında (4 sentyabr 2001-ci il) məlumat verir. Göstərilir ki, regionda radiasiya durumu normal deyil. Radiasiya araşdırmaları ilə məşğul olan Aleksey Koltsov isə (RF) qeyd edir ki, Dağlıq Qarabağ, Dnestryanı, Abxaziya, Çeçenistan ərazilərində radiasiya həddini aşıb. Professor yazır: «Təkcə Dağlıq Qarabağ ərazisində 29 radiasiya mənbəyi var. Buna səbəb olan amillərdən biri «Metsamor» Atom Elektrik Stansiyasının (Ermənistan) radioaktiv tullantılarının bu əraziyə daşınmasıdır» (A.Koltsov: «Beynəlxalq Agentliyə hesabat», 3 dekabr 2001 -ci il. RF MEA).

Dağlıq Qarabağda nüvə tullantılarının basdırılması nəticəsində 80 min hektar kənd təsərrüfatına yararlı torpaq, 150 min hektar meşə ərazisi, 22 min hektar həyətyanı sahə, 2 qoruq məhv edilib. Məlumata görə, 2001-ci il oktyabrın 13-də Xankəndidə şərti olaraq, «Hərbi dairə» adlandırılan alimlər qrupu ermənilər tərəfindən işğal olunmuş Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı rayonlarının coğrafi xəritəsini Fransadakı «VIK Nuclears Lnc» Şirkətinin nümayəndələrinə təqdim edib. Şirkətin Paris ofisinin rəhbərliyi Avropanın beş ölkəsində yığılıb qalan (Əfqanıstan, Fransa, Belçika, Rumıniya, Avstriya) radioaktiv tullantıların Qarabağ ərazisində basdırılması üçün «Seyf-12» adlı məxfi planı reallaşdırıb. Nəticədə şirkət 28,5 milyon dollar vəsaiti Xankəndinin büdcəsinə keçirib. Qondarma «DQR»in «MN»-nin əməkdaşlarından olan polkovnik Artur Abramoviç Mnasakanyan və mayor Vartan Aşotoviç Arustamyan A.Qukasyanın şəxsi göstərişi ilə 2001-ci il iyulun 2-də Bernə yollanırlar (bu adamlar 1999-cu il avqustun 10-da da Berndə olublar). Onlar Trak və Keykos adalarında qeydiyyatdan keçmiş «CÜN

Energy YB» və Baham adalarında mərkəzi ofisi olan «Union Atomic Garbage Plc» Şirkətlərinin inşaat qrupu ilə danışıqlar apararaq, Qarabağda xüsusi «betonlaşdırılmış şaxtalar»ın tikintisi ilə bağlı razılıq alıblar («Eko» qəzeti. Dekabr, 2001-ci il, Paris).

Baş Qərargahı Şuşada yerləşən «Kollektiv kəşfiyyat»ın ilk yığıncağı isə, məlumata görə, 2002-ci il yanvarın 14-də qeyri-leqal keçirildi. Yığıncaqda Yerevandan, Afinadan, Pekindən, Moskvadan, Beyrutdan və Tehrandan gəlmiş nümayəndələr iştirak edirdilər («Artsax» qəzeti. 2002, №6, «Redaktor sütunu»). Bunu Yerevan-Tehran əməkdaşlığının yeni səhifəsi hesab etmək olar.

Yerevanla Tehran arasındakı birinci ciddi sövdələşmədə Naxçıvan ərazisi bölündü. Əslində, bu, hər iki ölkənin hərbi kəşfiyyat xidmətlərinin şərti bölgüsü idi. Həm Yerevanda, həm də Tehranda aparılan bu bölgü (1998-ci il aprelin 19-da) əsasında hərbi xəritələr də cızıldı. Məxfi bölünmə planlarını «Qriqoryan qrupu»nun üzvləri ilə 1998-ci ilin yanvarında Yerevan təhlükəsizlik xidmətində yaradılmış «Naxçıvan kəşfiyyat qrupu»nun (bölmə müdiri Aruşan (bek) Markaryan) üzvləri birgə işləyiblər.

İranın münasibətini isə Tehran Universitetinin professoru Rza İnayətullahinin 1998-ci il aprelin 29-da Yerevanda keçirilən simpoziumdakı «Ermənistana və Azərbaycana münasibətdə İran siyasəti» çıxışından bilmək və müəyyən etmək çətin deyil. Yaxud, Naxçıvanın bölünməsindən sonra onun işğal olunmuş Qarabağla birləşdirilməsi, sərhədlərin dəyişdirilməsi strateji plan kimi, «Böyük Ermənistan» ideyasının tərkib hissəsi kimi dayanır. İşğal planında Şahbuz rayonunun «Naxçıvan» adlandırılması, Babək rayonunun ləğv edilməsi, ümumilikdə «Artsax Muxtar Respublikası»nın yaradılması məntiqə sığmasa da, bu, xüsusi xidmət orqanlarının bağlı qapılar arxasında müzakirə obyektidir.

Bu arada İranın təklifi ilə Cənubi Kaliforniyada yaşayan erməni diasporunun nəzdində analitik qrupun yaradılması qərara alındı.

## ETNİK TƏMİZLƏMƏDƏ «ASTARCANYAN LAYİHƏSİ»

Amerikanın məşhur «New LOGIC INC» kompüter firmasının «ekran»lara çıxarıb İnternet şəbəkəsinə qoşduğu oyunlardan birini (2001-ci il martın 19-dan mayın 21-dək) Ermənistanın Azərbaycanla apardığı müharibə səhnəsi təşkil edir. Müharibənin sonuna yaxın erməni tərəfdən üstündə «Armenia» yazılmış qanadlı ballistik raketlərin Azərbaycana tuşlanması səhnəsi təsvir olunur. Ermənilər buna «Astarcanyan layihəsi» deyirlər (doktor Astarcanyan 1985-ci ildən Vaşinqtonda erməni lobbisi tərəfindən maliyyələşdirilən Erməni-Kürd Strateji Araşdırmalar Mərkəzinin rəhbəridir). Bu eybəcər layihənin hazırlanması üçün Kaliforniya erməniləri ötən il sentyabrın 19-da «Stepanovan» fonduna 386 min ABŞ dolları (sonradan bu fond «Hayastan» adlandırıldı) köçürdülər. 1985-ci ilin əvvəllərində

Yerevandakı Fizika İnstitutunda keçirilən müşavirədə professor Karen Egiyan məsələ qaldırır ki, ABŞ kompüter firmasının İnternet şəbəkəsinə qoşduğu məsələni reallaşdırmaq lazımdır. Müşavirədə K.Egiyan belə bir məsələni də açıqlayır ki, üstündə «Armenia» sözü yazılmış ballistik raketləri «həyatiləşdirmək üçün» (onun sözüdür) uran axtarışlarını Naxçıvan ərazisində aparmaq mümkündür.

Bu da məlumdur ki, ermənilərin «Araz» ekspedisiyasının İranla birgə Naxçıvan ərazisində 1985-ci ilin əvvəllərinə təsadüf edən ilk uran axtarışları yarımçıq qalır. Ona görə ki, ekspedisiyanın tərkibində olan Yerevan Dövlət Universitetinin fizika fakültəsinin tələbəsi Arşak Tiqranoviç Qaçikyan və Tehrandakı Nəzəri Fizika və Riyaziyyat İnstitutunun müəllimi Əhmədziya Mehdipur naməlum dəri xəstəliyindən vəfat ediblər. Həkim rəyindən aydın olur ki, onların hər ikisi şüalanmadan ölüb. Nəticədə 1985-ci il martın 28-də «Araz» ekspedisiyası işini yarımçıq qoyub, geri qayıdır. Lakin həm Ermənistan MN-nin strateji xəritəsində, həm də İranın hərbi kəşfiyyat planında («Sepahe-Pastaran» korpusunda) Naxçıvan ərazisi uran mənbəyi kimi dairəyə alınır.

Ekspedisiyanın fəaliyyətindən on beş il sonra, yəni 2000-ci il dekabrın 21-də vaxtilə «Araz» ekspedisiyasında tələbə kimi iştirak edən Rafik Dəmirçiyan Moskva Dövlət Universiteti nəzdindəki D.V.Skobeltsın adına nüvə fizikası üzrə ETM-də alim kimi çıxış edir (ünvan: RF, Moskva, «Vorobyevı qon». Moskva vaxtilə saat 16:00-da). Göstərir ki, guya «Böyük Ermənistan»ın bir parçası olan Naxçıvan ərazisində uran var. Həmin ilin dekabrın sonunda Rusiya Federal Təhlükəsizlik Xidməti üçün hazırlanmış 42 səhifəlik «nüvə icmalı»nda doktor Dəmirçiyanın fakt və rəqəmləri, «Ermənistan ərazisi Naxçıvan» fikri əksini tapır. 2001-ci il fevralın 14-də isə RF FTX-nin Kəşfiyyat İdarəsi ilə Ermənistan Təhlükəsizlik Xidməti arasında «Nüvə informasiyaları ilə bağlı» məlumat mübadiləsi haqqında sənəd imzalanır.

2001-ci il martın 13-də nüvə fizikası üzrə ixtisaslaşan R.Dəmirçiyan Tehranın şimal istiqamətindəki Şəhid Əkbəri küçəsinin 1/6 nömrəli binasında yerləşən MDB ölkələri ilə elmi-texniki əməkdaşlıq üzrə İran cəmiyyətində peyda olur, həmin il martın 19-da isə Tehranın Elm və Texnologiya Universitetində çıxış edir və belə bir fikir söyləyir ki, hər bir ölkə öz ərazisindəki nüvə tullantıları, onun qorunması və satılması haqqında ciddi düşünməlidir. Nə qədər qəribə də olsa, R.Dəmirçiyan «qonağı» olduğu ölkənin nüvə texnologiyası ilə məşğul olan alimlərinə və araşdırıcılarına bunu da məsləhət görür ki, İran öz nüvə tullantılarını qorumaq üçün anbarların böyük hissəsini ölkənin subtropik və az mülayim iqlimi olan zonalarında tikməyə üstünlük verməlidir. Onun fikrincə, nüvə tullantılarının subtropik şəraitdə reaksiya qabiliyyəti iki dəfə azalır.

## ZƏHƏRLİ SULAR

Erməni aliminin təklifindəki istiqamət aydındır. O, iranlı həmkarlarına Qərbi Azərbaycan əyalətlərini nişan verir, bu istiqamətdə, yəni layihələrin işlənməsində Ermənistanın da yardımçı olacağına işarə vurur.

Lakin açıq havada qalan və yaxud axar çaylara istiqamətləndirilmiş nüvə tullantılarının «suboğuculuq qabiliyyəti» var. Yəni nüvə tullantıları düşdüyü hər hansı su məcrasında buxarlanmaya güclü təsir edir. Məsələn, Araz çayında su tutumu, hesablamaya görə, 1999-2000-ci illərdə 36 faiz az olub. Nəticədə səkkiz növ balıq növü məhv olub. Əvəzində çayın sahillərində itidimdikli, iticaynaqlı nəsli kəsilmiş quşlar peyda olub. Gürcüstandakı RF-ya məxsus hərbi hissələrdən yönəldilən uran və volfram tərkibli tullantıların Kürə axıdılması nəticəsində çayın su tutumu 40 faiz azalıb, Mingəçevir su anbarında 15,7 mlrd. kubmetr əvəzinə 9,3 mlrd. kubmetr su yığılıb. Xəzərdə zəhərli maddələrin miqdarı 1,5 dəfə artıb. Bu, son on ildə görünməyən bir məsələdir və bütün bu bəlaların kökündə nüvə tullantılarının çəkisi dayanır.

R.Dəmirçiyanın mülahizələri əsasında 2002-ci il aprelin 10-da Ermənistan hökuməti «Strateji layihə» deyilən sənəd hazırladı ki, bunun da əsasında ölkənin AES-dən çıxan nüvə tullantılarının, eləcə də Yerevanın nüvə fizikası ilə məşğul olan elmi-tədqiqat mərkəzlərinin zəhərli qalıqlarının yaşayış zonasından - «Yaşıl zolaqlar»dan çıxarılması məsələsi dayanırdı. 1992-ci il iyulun 2-də qəbul olunmuş «Ermənistanın strateji layihəsi»ndə (bu layihə adətən ölkənin AES və nüvə materialları ilə bağlı olur) nüvə tullantılarının Zod (Şərqi Ermənistan), Qacaran (Qərbi Ermənistan), Tatel (Cənubi Ermənistan), Tex (Şərqi Ermənistan) yaşayış məntəqələrində basdırılması planlaşdırılmışdı və bunun üçün ABŞ 300 min dollar yardım da ayırmışdı (nüvə tullantılarının oğurlanmaması, daşınmaması və satılmaması üçün). Lakin 1993-cü il oktyabrın 30-da Ermənistan Təhlükəsizlik Şurası layihədə düzəlişlər etdi. Azərbaycan torpaqlarının işğalından sonra Yerevan «nüvə coğrafiyası»nı dəyişdi. Bu dəfə Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli zonaları seçildi. Doktor Dəmirçiyanın layihəsinə görə həm İranla sərhədlərimizdən, həm də işğal olunmuş ərazilərimizdən Azərbaycanın nüvə tullantıları ilə əhatə edilmə faktları çoxdur.

Bunu da xatırladaq ki, Ermənistanda artıq istifadəyə verilmiş, daha dəqiq, yenidən qurulmuş silah istehsalı zavodunda birləşmiş uran və urandan hazırlanmış döyüş sursatlarının hazırlanması yönümündə yeni layihələr planlaşdırılır. Ümumiyyətlə, ermənilərin urandan hazırladıqları döyüş sursatı nədir? Qeyd edək ki, yerin təkində təbii uranın miqdarı daha çoxdur, nəinki gümüşün və yaxud civənin. Demək olar ki, qranit dağ süxurlarının hər tonunda 25 qrama qədər birləşmiş uran var. O, iki uran izotopundan ibarətdir: a) U-238 (99,286%) və U-235 (0,72%).

Sonuncu izotop atom bombalarında əsas partlayıcı maddə kimi istifadə olunur. Bu silah müasir dövrün ən dəhşətli silahıdır. Bu, kimyəvi və bakterioloji

silahlardan, o cümlədən rentgen şüasından geri qalmır. Birləşmiş uran izotopu İ-238 alora radioaktiv metaldır, sıxlığı 18,7 q sm. kub olub, yarı sönmüş vəziyyətdə 4 milyard 510 milyon il qalır.

## «ASALA»NIN YENİ BÜROLARI

Ermənistanın azadlığı uğrunda erməni gizli ordusu (Armenian secret army for liberation of Armenia (ASALA)). Erməni diasporunun terrorçu təşkilatıdır. Formal olaraq Hnçak (zəng) Partiyasının hərbiləşdirilmiş qanadı hesab edilir. 20 yanvar 1975-ci ildə Ermənistanlı emiqrantların nəsilləri tərəfindən yaradılmış, hazırda ABŞ-da qərarlaşmışdır. Banisi - Mücahid Akop Akopyandır (1988-ci ildə öldürülmüşdür). Bəyan edilən məqsədi - Türkiyə tərəfindən erməni genosidi faktının etiraf edilməsi; reparasiyadan çıxan nəticələr; Qərbi Ermənistan dövlətçiliyinin bərpası və maksimum arealda tarixi Ermənistan ərazilərinin vahidliyi. Fəaliyyətinin ilkin mərhələsində formal olaraq marksist-leninçi mövqedən çıxış etmişdir. 1981-ci il proqramında milli konsepsiyaya keçid xülasə edilmişdir. İsrail hərbi qüvvələrinin 1982-ci ildə Livana təcavüzü nəticəsində əsas infrastrukturları məhv edildikdən və fəaliyyət metodlarına nəzərən ziddiyyət yarandıqdan sonra əsas təşkilatın tərkibindən bir neçə fraksiya ayrılmışdır (o cümlədən ASALA - RM). Operativ xronologiyası - strukturlaşma və genişlənmə (70-ci illərin ikinci yarısı); böhran (80-ci illərin ikinci yarısı); aktivlik zirvəsi (1981); parçalanma (1983); aktivliyin qismən bərpa edilməsi (1990-cı ildən etibarən). Vəziyyətə görə cari dövrdə təşkilat latent aktivlik rejimində fəaliyyət göstərir. Rəsmi registrləri - ABŞ Dövlət Departamentində xarici terrorçu təşkilat kimi registri (1999-cu ilə qədər).

Cari dövrün rəhbəri - Levon Karançiyan. Sayı - bir neçə yüz özək döyüşçüləri + bir neçə yüz onlarla fəal əməkdaşlıq edən tərəfdarlar. Təşkilati strukturu - müstəqil döyüşçü qruplar (humb). 90-cı illərin ortalarına olan vəziyyətə görə müxtəlif dövlətlərin ərazilərində 23-ə qədər döyüş qrupları fəaliyyət göstərmişdir. ASALA-nın əsas xarici rezidenturaları - Livan (Beyrut), Suriya (Aleppo, Damask), Misir (Aleksandriya). Təşkilat həmçinin ABŞ, Türkiyə, Fransa, Yunanıstan, İsveçrə, İspaniya, Avstraliya, Böyük Britaniya, İtaliya və İranda fəaliyyət göstərir. Döyüş hazırlığı üçün Livan (Bekaa vadisi) və Kipr (Trudos dağları) ərazilərində tutulmuş infrastrukturlardan istifadə edilir. Təşkilatın operativ parametrləri - xarici ölkələrdəki türk diplomatik korpusunun əməkdaşlarına qarşı fiziki terror (52 nəfər qətlə yetirilmişdir; girovların, obyektlərin və nəqliyyat vasitələrinin ələ keçirilməsi; uçuş idarəetmə aktları tətbiq etməklə terror aktları; siyasi kidnepinq. Əsas düşməni - Türkiyə. 1985-ci ildən Nizamnaməsində dəyişiklik edərək, Azərbaycanı da əsas hədəfə çevirdi. Həmçinin Qərb aviaşirkətlərinin, fransız və İsveçrə obyektlərinin (təbliğat məqsədi ilə diqqəti cəlb

etmək üçün və həbsxanalarda olan yaraqlıları azad etmək üçün hakimiyyətə təzyiq göstərməkdən ötrü) nümayəndələrinə, Livandakı erməni partiyalarının funksionerlərinə (siyasi ziddiyyət kontekstində) qarşı bir neçə əməliyyat keçirilmişdir. Qeydə alınmış terror aktlarının ümumi miqdarı 180-ə qədərdir. 70-90-cı illərdə ASALA-nın keçirdiyi əsas terror aktları nəticəsində 70 adam qətlə yetirilmiş, 534 nəfər yaralanmış, 105 nəfər girov götürülmüşdür. ASALA-nın operativ parametrlərinin xarakterik xüsusiyyəti operativ döyüşçü strukturun gesentralizasiyası və terror aktlarının həyata keçirilməsi zamanı dəyişən adlardan (birdəfəlik) istifadə edilməsi hesab olunur. 70-90-cı illərdə qeydə alınmış adları (bir sıra adlar davamlı struktur həlqələri tərəfindən uzun bir dövr ərzində istifadə edilə bilərdi): «Erməni inqilabi ordusu»; «Erməni azadlıq cəbhəsi»; «Erməni məhkəməsi (haydat)»; «Ermənistanın azadlığı uğrunda yeni erməni müqaviməti»; «Erməni azadlıq hərəkatı»; «Erməni azadlıq təşkilatı»; «Erməni genosidinə münasibətdə ədalət uğrunda döyüşçülər» («Yustice Commandas of the Armenian Genoside»); «9 iyun qrupu» (İsveçrə qrupu); «28 may qrupu»; «Orli qrupu»; «Van Kommandosu»; «Yaxın Şərqin siyasi dustaqları ilə həmrəylik Komitəsi (CSAMEPP) »; «Erməni genosidi intiqamçıları / Vrezh qrupu»; «Yeni erməni müqaviməti»; «3 oktyabr təşkilati» (qrupu); «Gənc ermənilər ittifaqı»; «Ölümə gedənlər Eskadronu». ASALA-nın əlavə operativ parametrləri - silahlı münaqişə zonalarında (1975-1990-cı illərdə Livanda vətəndaş müharibəsi; 1988-1994-cü illərdə Dağlıq Qarabağda erməni-Azərbaycan münaqişəsi) döyüş hərəkətlərində iştirak etmə. ASALA-nın pərdələnmə strukturları - Erməni Milli Assambleyası (Yerevandakı nümayəndə - Vazgen Petrosyandır); Demokratik Cəbhə (ASALA və Erməni hərəkatı Təşkilatının ABŞ-da, Kanadada, Qərbi Avropada birliyi). Təmasları - Ermənistan (müxtəlif dövlət və hökumət strukturları, xüsusi xidmətlər, silahlı qüvvələr); Suriya (Xüsusi xidmətlər); Livan qruplaşması (Kataib, Hezbollah); Fələstin qruplaşması (NFOP, NFOP-QK); Liviya (daha üstün olaraq).

Erməni inqilabi federasiyası - Daşnaksütyun (Armenian Revolutionary Federation Dashnaksution (ARFD)). Erməni diasporunun transmilli hərbi-siyasi təşkilatı. Elan edilmiş məqsədi - şərh edilən maksimal tarixi sərhədlərdə (o cümlədən Şərqi Türkiyə və Azərbaycan da daxil olmaqla) bütün tarixi erməni ərazilərində nəzarətin bərpası. İlkin strukturları XIX əsrin sonunda siyasi partiya formasında yaradılmışdır (təsis qurultayı 1890-cı ildə Tbilisi şəhərində keçirilmişdir). Sonrakı praktika qarşıya qoyulan məqsədlərin terrorçuluq və zorakılıq vasitələri ilə reallaşdırılmasına xidmət edilir. Yeniləşmiş siyasi proqram (Ermənistan Respublikası yarandıqdan sonra) erməni millətçiliyinin elementlərini və radikal sosialist konsepsiyasını inteqrasiya edir. Cari mərhələdə ARFD erməni döyüş strukturlarının pərdələnməsinin çətir strukturu kimi çıxış edir; eyni zamanda təşkilatın siyasi komponentinin aktivliyinin artması qeydə alınır. Lideri Vaan Ovanisyandır. Rəhbər strukturu - Ali orqandır. ARFD-nin erməni və xarici

qanadlarının mənzil-qərargahları müvafiq olaraq Yerevan və Afina şəhərlərində yerləşir. Regional bölmələri və nümayəndəlikləri Ermənistanda, Livanda, İranda, Suriyada, Misirdə, İordaniyada, İraqda, ABŞ-da, Avropa dövlətlərində fəaliyyət göstərir. Bir qayda olaraq, təkrar təşkilat strukturları tətbiq edilir (rəsmi və qeyri-rəsmi). Qeyri-rəsmi strukturların tərkibinə döyüş özəkləri (humb) daxildir ki, onlar latent rejimdə konservasiya edilirlər. Təşkilatın döyüşçüləri Livandakı vətəndaş müharibəsində (70-80-ci illər; iştirak məhdud xarakter daşımışdır), eləcə də 1988-94-cü illərdə Qarabağdakı döyüş əməliyyatlarında iştirak etmişdir. Nümayəndəli strukturları - Ermənistan və «Dağlıq Qarabağ Respublikası» parlamentlərində şəxsi deputat fraksiyaları. ARFD-nin Kilikiyaya / Erməni kilsəsinin Qərb katolikasatına mühüm siyasi təsiri müşahidə edilir (Mərkəz Beyrutdadır, Livanda, Suriyada, İordaniyada, İsraildə, Kiprdə, Yunanıstanda, İranda, Venesuelada, ABŞ-da, Kanadada yeparxiyaları vardır). Xarici təmasları - Yaxın Şərqin ekstremist qruplaşmaları; Qərbi Avropanın sol radikal hərəkatı. SSRİ-nin dağılmasına qədər təşkilat DTK ilə operativ əlaqələrə malik idi.

Erməni cinayətkar birliyi (Armenian Criminal Community). Ermənistandan çıxan etnik cinayətkar birlik RF ərazisində fəaliyyət göstərir. Moskva şəhərində, Şimali Qafqazda, Rusiyanın cənub regionlarında daha davamlı mövqeyə malikdir. Əsas özəkləri şimali Qafqazdadır: - Pyatiqorski, Mineralnaya voda, Rostov, Krasnodar. Operativ profili - reketçilik, bazarlara, kazinolara, restoranlara nəzarət, saxta alkoqol içkiləri istehsalıdır. Son dövrlərdə neft biznesi üzərində nəzarət yaratmağa intensiv cəhdlər edilir. Özəklərin miqdarı Moskva şəhərində 17-dir, sayı - ən azı 500 nəfərdir. Hərbi nümunə üzrə strukturlaşmışdır; sərt intizam və yüksək dərəcəli konspirasiya ilə xarakterizə edilir. Operativ profili - dələduzluq, reketçilik, qiymətli daş-qaşların və metalların qaçaqmalçılığı, kommersiya və maliyyə strukturlarına nəzarət.

Erməni etnik cinayətkar birlik daxili ziddiyyətlərə məruz qalmışdır; rəqabət aparan özəklər və sahibkarlıq strukturlarına münasibətdə aydan ifadə edilmiş zorakılıq təzahür edir. Fiziki terror nəticəsində Erməni cinayətkar birliyi 90-cı illərdə yalnız Qafqaz Minvodu regionu üzrə 100-dən yuxarı adamı qətlə yetirmişdir. Etnik cinayətkar birlik regional və federal səviyyələrdə dövlət və hüquq-mühafizə strukturlarında lobbiçilik imkanlarına və mühüm dərəcədə pərdələnmə qabiliyyətinə malikdir.

Bütün bu terror təşkilatları digər erməni separatçı birləşmələri ilə birgə Dağlıq Qarabağda etnik təmizləmələrdə, azərbaycanlılara qarşı törədilmiş genosid siyasətində aktiv rol oynamışlar.

Beynəlxalq erməni diasporunun (mərkəz Yerevan) Qarabağ ərazisində narko-biznesi, silah alverini və nüvə daşıyıcılarını tənzimləyən bürolan fəaliyyət göstərir. 1993-cü ildə Dağlıq Qarabağda Vardenis təlim düşərgəsindən gəlmiş «Tiqrançılar» terrorçu təşkilatının tərkibində, yəni beynəlxalq hərbi qanadında

vuruşan, milliyyətcə serb Koso Mitroviç (Kuçeva şəhəri) ərazidəki silah alverini tənzimləyən dəstənin başçısı olub. Bu gün də zabit Koso Mitroviç, məlumata görə, Robert Paşayan adı ilə Xankəndi ordu birləşməsində xidmət edir. Araşdırmalarımızdan bu da aydın oldu ki, Koso Mitroviç ilk dəfə Qarabağ ərazisinə üstündə ABŞ hərbi sənaye komplekslərinin nişanı və nömrəsi olan minaların, «M-16» tipli avtomat silahların, NATO ordusuna məxsus geyim dəstlərinin daşınmasında və gətirilməsində yardımçı olub. 1993-cü ilin avqust ayında Qarabağın oyuncaq hökumətini müdafiə edən dəstə üçün qaçaqmalçılıq yolu ilə 185 ədəd «M-16» Amerika istehsalı olan silah gətirildi. Koso Mitroviç bu malların daşınmasında Gürcüstan və İran ərazilərinin daha açıq olduğunu vurğulayır.

K.Mitroviç «Mən Artsaxda qaldım» kitabında yazır: «Biz Dağlıq Qarabağa Yuqoslaviyadan gəlmişdik. On bir nəfər idik. Beşi həlak oldu: Kapitan Slobodan Vukoviç (Şabats şəhəri), Antal İvaşeviç (Stremska şəhəri), Miloş Lozniç (Mladenovats şəhəri), Petro Kikin (Kuçevo şəhəri), Levtin Boykoviç (Brlojnik şəhəri). Mən isə qaldım. Dağlıq Qarabağda qaldım. Həm yaşamaq, həm də ölmək üçün» (Xankəndi, «Artsax» qəzeti, 1996, səh. 26. Redaktor: Q.Petrosyan, MN-nin polkovniki). K.Mitroviç daha sonra yazır: «Biz hər gün vuruş və döyüş taktikamızı dəyişirdik. Hərbi sursat və silah, geyim sarıdan problemimiz yox idi. İran və Gürcüstan tərəfdən aldığımız və yaxud keçirtdiyimiz yardımlardan dövlət xəbərsizdi. Bunu ermənilərin hərbi qüvvəsi olan «ASALA» daha çevik edirdi. «ASALA» həm İraq, həm də Gürcüstan ərazisində qeyri-leqal şəkildə özünün bürolarını qura bildi. Bu vaxt ona «Akopyan» Beynəlxalq Şirkəti yardım edirdi».

Ermənistanın Razdan şəhərində 1998-ci ildən (Sevan gölünün qərb sahilində) «Nüvə bürosu» qeyri-leqal fəaliyyət göstərir və bu məxfi büroya başçılığı Bağdad ermənisi, şəhərdən 35 km şimal-qərb istiqamətində dərman preparatları hazırlayan fabriki maliyyələşdirən Hüseyn Qəffur edir. İxtisasca kimyaçı olan Hüseyn Qəffur İsrail əleyhinə kəskin radikal mövqedə dayanan, islamçı təşkilat «Əsbat əl-ənsar» təşkilatının maliyyə dayağıdır. Təşkilatın təlimat qaynağı olan «SD-ROME» kitabı digər radikalların da təlimat mənbəyidir. Bu kitabın 8-ci səhifəsində yazılır: «Təşkilat vəhdətli bir təşkilatdır. Orada təkcə müsəlmanlar, yəni təkcə islamçılar birləşmir. Bu təşkilatda hüququ tapdalanmış adamlar birləşir və biryerdə mübarizə aparır».

Digər bir məlumatda bu da bildirilir ki, islam təşkilatları içərisində «Əl-Qaida»nı (Üsəma bin Laden) nüvə materialları ilə təchiz edən də elə bu qrupdu: «Əsbat əl-ənsar». Aprelin 14-də Sudanda «Əsbat əl-ənsar» Təşkilatının yerli şöbəsi «Əl-Qaida»da çalışan nüvə araşdırıcıları üçün «Təlimat, hikmət və hümmət» adlı bir kitab nəşr edir. Ərəb, puştu və urdu dillərində çap olunan bu kitabın üç müəllifi var: Pakistanlı alim Nazirxan Əhməd, ərəb Şeyx Cabbar Əl-Zahir, erməni (İraq) Arakel Stepanoviç Alanakyan. Sonuncu, yəni Arakel Alanakyan Ermənistan

Dövlət Universitetinin fizika fakültəsini bitirib. 1990-cı ildə Yerevandan Suriyaya, oradan da 1995-ci ildə İraqa köçüb. Bağdad hərbi-sənaye komplekslərinin birində - «Ter-Qriqoryan» qrupunda işə başlayıb.

## TERRORÇULARIN İKİNCİ CƏBHƏSİ

Üsəma bin Ladenin «nüvə araşdırıcıları» üçün buraxılan kitabın üz qabığında belə bir ifadə var: «Hər şey cihad üçün». Kitabın 11-ci səhifəsində yazılır: «Biz öz raketlərimizin, tərkibi uran olan mərmilərimizin üstündə bir imza yazmalıyıq: «Cihad üçün, İslam üçün». Bütün bu silahları düşünməyin ki, haradasa qurub, kiməsə yönəldəcəyik?.. Yox. Biz bütün bu raketləri elə Amerikanın öz ərazilərində quracağıq. Biz bu silahları Balkanlarda quracağıq. Biz bu silahları Orta Asiyada quracağıq. Biz bu silahları Zaqafqaziyaya nəzarət etmək üçün Gürcüstan şəbəkəsində quracağıq».

Məhz bundan sonra Üsəma bin Laden Balkanlarda ikinci cəbhəni açdı. Onun Kosovoda, Metoxiyidə, Makedoniyada, cənubi Serbiyada, Albaniyada, Bosniya və Hersoqovinada radikal dayaqları var. Üsəma bin Laden əslində Balkanlarda «Avropaya qarşı 2-ci cəbhə» açdı. Digər cəbhəni isə o, Orta Asiyada açdı, Güney Qafqaz üçün «Gürcüstan şəbəkəsi»ni yaratdı. Balkanlarda yaratdığı «Balkan mübarizə gücü» Təşkilatına misirli Əyman-əz Zəvahiri başçı təyin edildi. Tiranada qərargahı açıldı.

«Əl-Qaida»nın Cənubi Serbiyadakı koordinatoru milliyyətcə erməni olan, 1992-ci ildən Yerevandan mühacir etmiş İsfand Sərdaryandır. O, 1989-1991-ci illərdə Krasnodardan hərbi xidmətə çağırılıb.

Şeyx Əyman əz-Zəvahiri 18 yaşında olarkən Dağıstanda həbs olunub. O, Londonda öz radikallığı ilə seçilən, ölkənin «Mİ-6» kəşfiyyat idarəsi ilə əlaqələr quran «Müsəlman təşkilatı»nın üzvləri ilə də görüşüb. 2001-ci il avqustun 4-də baş tutan bu görüşün mahiyyəti açıqlanmasa da, bu Üsəma bin Ladenin başçılıq etdiyi «Əl-Qaida»nın ölkəyə mühacir etmiş MDB ölkə vətəndaşları ilə əlaqələrin qurulmasını təşkil etdiyi məlumdur. Üsəma bin Laden «Müsəlman təşkilatı»nın liderləri Əbu Həmzə Əl Məsri və Əbu Koutədin qarşısında əsasən iki vəzifə qoydu.

1. Nüvə texnologiyası və materiallarının MDB ölkələrindən daşınma yolları haqqında məlumatların toplanması.
2. Nüvə məsələləri və tədqiqatı ilə məşğul olan alimlərin, analitiklərin «Əl-Qaida» bürolarına cəlb edilməsi.

Avqust ayının 12-də Ermənistan vətəndaşı, AES-in sabiq işçisi, fizika elmləri doktoru Rudolf Ayvazxanoviç Manukyanın «Müsəlman təşkilatı»nın liderlərindən olan Rcda Hüseynlə görüşü təşkil olunur. Avqustun 14-də isə R.Manukyan Fransanın Londondakı səfarətxanasında Parisdən təşrif gətirən Xarici Təhlükəsizlik Baş İdarəsinin əməkdaşları ilə görüşür. Avqustun 17-də R.Manukyan Londonun «Fkisbern» və «Ricens» parklarında islamçılar üçün salınmış təlim

mərkəzlərində olur.

Bu görüşlərdə Londonun Paris Təhlükəsizlik Xidməti ilə üst-üstə düşən mövqeyinə heç olmasa, ABŞ MKİ-nin münasibəti açıqlanmalı idi. Kəşfiyyat ən azı «Fkisbern» parkında qurulan laboratoriyadan və eləcə də ora işləmək üçün (yüksək maaşla) cəlb olunmuş erməni aliminin məxfi planlarından xəbər tutmalı və lazımi açıqlamalar verməli idi. Həmin ilin sentyabrında təkcə «Ricens» parkındakı təlim düşərgəsinə Yerevandan 1962-ci il təvəllüdlü, Ermənistan Dövlət Universitetinin riyaziyyat fakültəsinin məzunu Aşot Odabekyan, Levon Soomoviç Sitafyan gəlib.

Apardığımız araşdırmalar bunu da göstərir ki, islam ekstremist dəstələrinin, eləcə də nüvə və digər kütləvi qırğın silahları axtarışında olan «Əl-Qaida»nın MDB ölkələrinin strateji obyektləri ilə maraqlanmaları Rusiya prezidenti V.Putinin başçılığı ilə keçirilən Təhlükəsizlik Şurasının iclasında (16 sentyabr 2001-ci il) müzakirəyə çıxarıldı.

## TERROR DÜŞƏRGƏLƏRİ

Araşdırmalarımıza görə, Ermənistan Respublikasının daxili yazışmalarında, dövlət və hökumət məmurlarının imzaladıqları protokol və məruzələrdə, xarici ölkələrdəki diplomatik körpü və ticarət palatalarında, diaspor, kilsə və icmalarda keçirilən yığıncaqlarda işğal olunmuş Dağlıq Qarabağ ərazisi «müstəqil bir respublikanın-Dağlıq Qarabağ Respublikası»nın ərazisi kimi qeyd olunur («Azq» qəzeti. Yerevan. 2001-ci ilin oktyabrından 2002-ci ilin may nömrələrinədək).

Məlumata görə, bu siyasi kampaniya dərc olunmuş materiallar toplusu əsasında 2002-ci il fevralın 16-dan etibarən aparılır. Fevralın 27-də isə Ermənistan XİN-in mətbəəsində, «Dağlıq Qarabağ - müstəqil və yeni respublika» adlı altı dildə (erməni, ingilis, ərəb, fransız, fars və rus dillərində) 140 səhifəlik yeni bir kitab çap edilir. On min nüsxə ilə çıxan bu kitab Ermənistanın xaricdəki diplomatik korpuslarına göndərilib. Başqa bir məlumatda isə bildirilir ki, Yerevanda, bilavasitə ölkənin Təhlükəsizlik Şurasına tabe olan, Dağlıq Qarabağın bugünkü ictimai-siyasi, iqtisadi və coğrafi durumunu tədqiq edən «Dağlıq Qarabağ» adlı Strateji Araşdırma Mərkəzi yaradılıb. Bu strateji-siyasi qurumun 16 işçisi var və 2002-ci il martın 3-də təsis edilib. Analitiklərin yeddisi Ermənistanın xüsusi xidmət orqanlarından müxtəlif illərdə istefaya çıxmış yüksək rütbəli zabit olub. Bu adamlar araşdırma mərkəzində kütləvi qırğın silahları və terrorizm məsələləri ilə məşğuldurlar (XİN-nin «Xüsusi bülleten»i. 19 mart 2002-ci il, səh. 4).

Ermənistan Strateji və Milli Araşdırmalar Mərkəzinin icraçı direktoru, professor Qrayr Hakopyanın fikrincə, «Burda qeyri-qanuni heç bir iş yoxdur. Biz, sadəcə, türklərin işğalı altında qalan torpaqlarımızı azad etmişik» («Səs». Kaliforniya erməni icmasının həftəlik qəzeti, 9 yanvar 2002-ci il).

Araşdırmalarımıza görə, Amerikanın Ermənistana olan iqtisadi və siyasi

münasibəti çoxşaxəli bir strateji proqram əsasında həyata keçirilir. Ekspertlərin fikrincə, faktiki olaraq, Azərbaycan həm geoiqtisadi, həm də geosiyasi baxımdan, Amerikanın blokadasındadır. Bu məsələ respublika Ticarət Nazirliyinin ekspertləri tərəfindən hazırlanıb və məxfi qrifi olan analitik hesabatda da öz əksini tapır. Bu hesabatdakı məsələlərdən birini Amerikanın «USAID» Beynəlxalq Humanitar Təşkilatın xəttilə (Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyi) edilən yardımlar təşkil edir. Bütün bu rəqəmləri Ermənistanla, Gürcüstanla müqayisə edəndə düşünməyə bilmirsən. Məsələn, Amerika bu humanitar təşkilatın xəttilə 1998-ci ildə Azərbaycana cəmi 34 milyon 291 min ABŞ dolları ayırıb. 1999-cu ildə bu rəqəm azalaraq 23 milyon 840 min ABŞ dolları olub. 2000-ci ildə 33 milyon 500 min ABŞ dolları, 2001-ci ildə isə bu yardımın məbləği 26 milyon 480 min ABŞ dolları təşkil edib. Müqayisə üçün Ermənistana olunan yardımlara nəzər salın. Amerika administrasiyası Ermənistana 1998-ci ildə 87 milyon 500 min ABŞ dolları, 1999-cu ildə 79 milyon 900 min ABŞ dolları, 2000-ci ildə 71 milyon 500 min ABŞ dolları, 2001-ci ildə 92 milyon 680 min ABŞ dolları və nəhayət, 2002-ci ilin altı ayı ərzində 180 milyon 440 min ABŞ dolları yardım edib. Yardımların təyinatı üzrə cədvələ nəzər salaq:

a) 103 milyon ABŞ dolları (2002-ci il mayın 13-də) Ermənistanın təhlükəsizliyinin təmin olunması məqsədilə;

b) 43 milyon ABŞ dolları (2002-ci il iyunun 11-də) hərbi məqsədlər üçün;

c) 25 milyon ABŞ dolları (2002-ci il iyun ayının 26-da) kütləvi qırğın silahlarının və narkotik maddələrin qaçaqmalçılıq yolu ilə daşınması əleyhinə keçirilən operativ tədbirlər üçün;

ç) 10 milyon 440 min ABŞ dolları (2002-ci il iyulun 4-də) isə ölkənin kəşfiyyat və sərhəd xidmətinin gücləndirilməsi məqsədilə yardım edilib.

Amerikanın Ermənistana etdiyi yardımları da hesablasaq, görərik ki, 1993-2001-ci illərdə və 2002-ci ilin altı ayı da daxil olmaqla bu məbləğ 1,2 milyard 750 milyon ABŞ dolları həcmindədir. Azərbaycanda isə bu rəqəm 357 milyon ABŞ dollarından artıq olmayıb («Ekspert Evrazii» jurnalı, Moskva, 4 avqust 2001-ci il, «Новая газета», Moskva, 20-26 may 2001-ci il).

Amerikanın ermənilər tərəfindən işğal olunmuş Qarabağ ərazisinə, ümumən Ermənistan - Azərbaycan müharibəsinə münasibəti ilə bağlı «Россия и мусульманский мир» jurnalı belə bir açıqlama verir: «Американский вариант урегулирования армяно-азербайджанского конфликта приведет к полной потере Нагорного Карабаха Азербайджаном, что неприемлемо для Баку. Азербайджан до сих пор является той страной, которой США не оказывает «режим наибольшего благоприятствования в торговле». К таким странам относятся стратегические «враги» Вашингтона: Северная Корея, Куба, Иран, Ирак и др. Таким образом, Азербайджан, хоть и неофициально, считается правительством США «враждебной» страной» (2002-ci il, №1, səh. 64).

Araşdırmalarımıza görə, Yerevan Vaşinqtondan aldığı 103 milyon ABŞ dollarının (2002-ci il mayın 13-də) 42 milyonunu ərazidə nüvə tədqiqatı məsələlərinə sərf etməyi planlaşdırıb. Vaşinqtonun diktəsilə Yerevan 1999-2000-ci illərdə Dubna Nüvə Tədqiqatlan Mərkəzindən və Yerevan Fizika İnstitutundan İran İslam Respublikasına işləməyə getmiş nüvə texnologiyası üzrə tədqiqatlarını aparan erməni alimlərinə regionda iş təklif edir.

2002-ci ilin iyununda 11 erməni alimi İrandan Ermənistana gəlib. Onların 4-ü (professor O.Ovquyan, B.Batum, S.Sərkisyan, Q.Petrosyan) işğal olunmuş Qarabağın strateji yüksəkliklərində elmi-tədqiqat mərkəzləri açıblar və maraqlıdır ki, Amerika ayrılmış yardımların təyinatları ilə hələlik maraqlanmaq istəmir. Ermənistanın nüvə silahları sorağında olması və bu istiqamətdə ilkin nəticələr əldə etməsi (Yerevan silah zavodunda nüvə başlıqlı güllələrin və mərmilərin istehsalma başlanılıb) bəziləri üçün xülyadan başqa bir şey deyil. Amma fakt və reallıqdan qaçmaq mümkün deyil.

## SEPARATÇILARIN TƏHLÜKƏSİZLİK KONSEPSİYASI

Ermənistan XİN-nin məsləhətçisi, diplomat Arsen Kasparyan isə «Ermənistan-Rusiya Federasiyası: XXI əsrin strateji əməkdaşlığı» adlı simpoziumda (Moskva, 9 oktyabr 2000.) belə bir fikri açıqlayır: «Особую геополитическую роль в регионе играет Армения, которая традиционно является союзником России на Кавказе. Национальная безопасность Армении, как и любого другого государства в современном мире, не может быть достигнута за счет исключительно собственных внутренних ресурсов. Даже при помощи мощного потенциала одного союзнического государства, но только при условии гармонизации ее национальных интересов с интересами других держав и прежде всего с интересами сопредельных государств-региональных лидеров. Как считает большинство армянских политиков, сегодня единственным залогом безопасности Армении являются ее собственные вооружение силы и российская военная база на ее территории» («Независимая Газета», Moskva, 17 oktyabr 2000-ci il, səh. 4).

Diplomat Arsen Kasparyan bunu da iddia edir ki, Ermənistan öz milli təhlükəsizlik konsepsiyasına yenidən baxmalı, onu RF-nın analoji adlı strateji sənədinə uyğun hazırlamalıdır. Diplomat A.Kasparyan fikirlərini yekunlaşdırarkən belə bir iddianı da irəli sürür ki, əslinə qalsa, qarabağlılar öz ərazilərini Rusiyanın ərazisi sayırlar. Çünki hələ 1813-cü ildə bu ərazilər İrandan qoparılıb Rusiyaya verilib. Bu ərazilər Rusiyanın maraq dairəsindən heç vaxt çıxmır (bu fikirlər tarixçi Aşot Manuçaryanın 1994-cü ildə söylədiyi fikirlərlə üst-üstə düşür).

Məlumata görə, RF FTX-nin başçısı, general Nikolay Patruşevin Yerevanda ölkə başçısı Robert Köçəryanla və Təhlükəsizlik Şurasının katibi, general Serj

Sarkisyanla, Kəşfiyyat Departamentinin rəhbəri, general Karlos Ter-Petrosyanla görüşlərində də bu məsələ geniş şərh edilmiş, qərara alınmışdır ki, hər iki dövlətin nümayəndə heyəti Dağlıq Qarabağın İran İslam Respublikası ilə sərhəd zolaqlarını gəzsinlər. («İTAR-TASS». 25 iyul 2002-ci il).

Araşdırmalarımıza görə, erməni terroruna məruz qalmış torpaqlarımızın İranla sərhəd zolaqları Rusiya Sərhəd Qoşunlarının nəzarətinə verilə bilər. Ermənistanın müdafiə naziri Serj Sarkisyanın 2002-ci ilin aprelində ABŞ-a səfəri zamanı Pentaqonun şefi, general R.Ramsfeldlə də bu məsələ ilə bağlı söhbətlər keçirilib. Nəticədə Pentaqon Ermənistanın təhlükəsizlik məsələləri üçün 103 milyon ABŞ dollan da ayırıb. Məlumata görə, Amerika administrasiyası işğal olunmuş ərazilərin (İranla sərhəd zolaqlarının) rus sərhədçilərinin nəzarətinə keçməsinə bu şərtlə razılıq verib ki, Amerikanın Yerevandakı səfarətxanasında kütləvi qırğın silahlarına və narkotik maddələrin qaçaqmalçılığına nəzarət edən xüsusi şöbə fəaliyyət göstərsin. Bu fakt da vurğulanır ki, həmin nəzarət qrupuna istənilən vaxt sərhəd məntəqələrində «yoxlama-baxış» reydlərini keçirmək səlahiyyəti də veriləcək.

Məlumata görə, 2002-ci il mayın 3-də Ermənistanda rəsmi səfərdə olan İranın «ETTELAAT» - kəşfiyyat naziri höccətül-islam, general Əli Yunisi və eks-müdafiə naziri, admiral Əli Şamxani Serj Sarkisyanla söhbətlərində bu məsələnin üstündə ayrıca dayandılar. Ola bilsin, «ETTELAAT»-ın eks başçısı Əli Yunisinin Azərbaycanda apardığı qapalı söhbətlərdə də bu məsələ vurğulanıb. Əldə olunan məlumata görə, tran kəşfiyyat rəhbərliyinə daha radikal bir general gətiriləcək. Qeyd edək ki, onun Bakıya gəlişilə RF FTX-nin başçısı Nikolay Patruşevin Yerevana səfəri üst-üstə düşür. Hər ikisinin səfəri iyulun 25-də başlandı.

İşğal olunmuş Qarabağla əlaqəli olan bütün siyasi gedişlərdə və açıqlamalarda Azərbaycan heç xatırlanmır da. Erməni terroruna məruz qalmış Qarabağ ərazisi Moskva-Vaşinqton-Yerevan-Tehran kontekstində həll olunur. Azərbaycanın ərazi bütövlüyü termini üstündən xətt çəkilir.

Məlumatlara görə, Qarabağ «yenidən qurulur». İşğal olunmuş ərazilərdə Azərbaycana məxsus bütün atributlar sökülüb dağıdılır, talan edilir. Ukrayna mütəxəssislərinin (18 nəfərdən ibarət mühəndis qrupu) iştirakı ilə Xankəndidə uzunluğu 436 metr olan tank təmiri zavodu qurulub. Argentinadakı «Kilsə» erməni cəmiyyətinin yardımı ilə (21 milyon ABŞ dollan) işğala məruz qalmış ərazilərdə hərbi məqsədlər üçün yollar çəkilir, körpülər qurulur. Məlumata görə, 2001-ci il dekabrın 23-də Ermənistanın Tarixi Abidələrinin və Sənət Nümunələrinin Mühafizəsi İdarəsinin rəisi Qarik Gürcyan və Dağlıq Qarabağ Tarixi Abidələr və Muzeylər İdarəsinin başçısı Serj Tatevosyanın «Armen press»ə verdikləri açıqlamalara görə, 2002-ci ilin mart-aprel aylarında İran mütəxəssislərinin (42 nəfərlik heyəti) bir qrupu regiondakı abidələrin bərpasına başlayıb. S.Tatevosyan bunu da vurğulayıb ki, Dağlıq Qarabağda «hər şey dəyişir, hər şey həqiqi adını

alır». Buna qədər iranlı bərpaçılar Tehrandakı Tadevos və Sorsor erməni kilsələrini təmir ediblər. Təbrizdə isə 120 hektarlıq ərazidə yeni erməni kilsəsinin əsası qoyulub («Armen press». 2 iyun 2002-ci il).

Araşdırmalarımızdan bu da aydın olur ki, işğal olunmuş Qarabağ ərazisində 2001-ci il sentyabrın 1-dən etibarən Yerevan-Tehran Birgə Müəssisələrinin əsası qoyulub. Ərazidə neft və qaz boru kəmərlərinin, elektrik xətlərinin çəkilməsi üçün 24 milyon ABŞ dolları vəsait ayrılıb. Bunun 16 milyon ABŞ dolları İranın hesabınadır. 2002-ci il yanvarın 14-də bağlanmış rəsmi müqaviləyə görə, tərəflər belə bir razılıq əldə ediblər ki, Mehri rayonunda neft emalı zavodu tikilsin. Bunun üçün ümumi dəyəri 89 milyon ABŞ dolları olan yeni tikintinin layihəsini də işləyiblər («Xəzər» jurnalı. Rəşt. 2002-ci il fevral, №7). Ümumiyyətlə, iranlı mütəxəssislər 2001-ci il oktyabrın 3-dən 2002-ci il mayın 19-dək Dağlıq Qarabağın Xankəndi, Şuşa, Əsgəran, Xocavənd ərazilərindən keçən, uzunluğu 186 km, dəyəri 48 milyon ABŞ dolları olan yeni qaz kəmərinin çəkilişini başa çatdırıblar. Bu işdə iranlı mütəxəssislərə «Artsaxqaz» (Xankəndiqaz) Səhmdar Cəmiyyəti yardımçı olub.

İranla Ermənistan arasında qaz kəmərlərinin çəkilişi ilə bağlı iki bağlaşma imzalanıb - 1992-ci il avqustun 14-də və 1995-ci il iyunun 9-da. Bağlaşmaya əsasən, birinci qaz kəmərinin uzunluğu 110 km, ikinci kəmərin uzunluğu isə 140 km olmalıdır. İranla sərhəddə qədər olan 120 km məsafə artıq tamamlanıb.

Ermənistan regionda öz strateji dairəsini genişləndirmək üçün beynəlxalq şimal-cənub dəmiryolu şəbəkəsinə qoşulmaq niyyətindədir. Maraqlıdır ki, bu strateji tədbirdə Ermənistana bilavasitə xarici ölkələrə səpələnmiş erməni diasporları yaxından yardımçı olur. Məsələn, Kaliforniyada yaşayan erməni milyonçusu, o, həm də beynəlxalq aləmdə tanınan, 1991-1993-cü illərdə «ASALA» erməni terror təşkilatının Dağlıq Qarabağ ərazisində fəaliyyəti zamanı maliyyə yardımı göstərən «Liney» Şirkətinin və bankının təsisçisidir, Kirk Kirkoryan Ermənistanın bu layihəyə qoşulması üçün 100 milyon ABŞ dolları ayırıb. Bu yolun həm iqtisadi, həm də siyasi əhəmiyyəti var. Regionda strateji-hərbi cəhətdən diqqətdən yayınmayan magistralın (İran-Rusiya-Azərbaycan yolu da adlanır) uzunluğu 355 km olacaq. İldə 260 milyon ABŞ dollan gəlir verəcək bu yol Qəzvinlə Astaranı birləşdirəcək və yüklərin İrandan və Fars körfəzindən daşınmasını təmin edəcək.

## POZULMUŞ HÜQUQLAR

Dağlıq Qarabağ və işğal olunmuş digər torpaqlarımız bu gün hərraca çıxarılır, icarəyə verilir. Məsələn, Kaliforniyada yaşayan erməni milyarderi Kirk Kirkoryan strateji məqsədləri həyata keçirmək naminə Laçın, Kəlbəcər, Şuşada yüz milyon ABŞ dollarılıq torpaq aldı. Qondarma «respublika»nın «millət vəkilləri»

Dağlıq Qarabağ torpaqlarının xarici ölkə vətəndaşları (şübhəsiz, ermənilər) tərəfindən asanlıqla alınıb-satılmasına zəmanət verdilər, qanun qəbul etdilər. Laçın-Kəlbəcər meşələrində isə «Nun» (Argentina), «Shnai» (Almaniya) özəl şirkətləri müasir silahlar üçün palıd və qoz ağaclarından qundaqlar, hərbi sursat üçün qutular və digər strateji materiallar hazırlayırlar. Təkcə Kəlbəcər faunasından ingilislərin heyvanxanaları üçün 36 adda nadir quş növü tutulub ki, bunun da dəyəri 51 min ABŞ dolları olub (funt-sterlinq ödənilməyib). Çin alimlərinin Şuşa torpağında bitən 42 növ gül və kol nümunələrindən qan xəstəliklərini tədqiq etmək və vaksinlər, eləcə də digər dərman preparatları hazırlamaq üçün xüsusi strateji proqramları var. Maraqlıdır ki, bu proqramda həmin gül və kol nümunələrinin sahələri də nişan verilir. Florida ştatının antibiotik istehsalçısı olan «Bablumyan» Şirkəti isə dərman preparatları hazırlayan «Kinrey» Şirkəti üçün yüksək dəyərli dəmirağacı və küknar tozunu təklif edib.

Rusiya və Ermənistan isə işğal olunmuş torpaqların bir qismini icarəyə götürsə də, əslində heç bir icarə haqqı ödəmədən zəbt ediblər, necə dəyərlər, özəlləşdiriblər. Beləliklə, Dağlıq Qarabağda «nüvə zonası» deyilən ərazilər yaradıldı. Tikanlı məftillərlə hasarlanmış bu zonalarda həm Rusiya, həm də Ermənistan özlərinin nüvə qalıqlarını yerləşdirməklə məşğuldurlar. Ermənistanda qablaşdırılmış, üstündə «A-TOOZ» sözləri yazılmış xüsusi qutularda yola salınan nüvə tullantıları əvvəlcədən nəzərdə tutulmuş kəndlərdə qazılan xüsusi çalalarda basdırılır. Apardığımız araşdırmalara görə, artıq Xocalı yaşayış ərazisinin şimal-qərb hissəsindəki Kolataq, Seyidbəyli və Almalı kəndlərinin həm faunası, həm də «iqlim zolağı» dəyişib. Ötən il təkcə Kolataqda Ermənistandan göndərilən nüvə tullantılarından ibarət 11 dəmir qutu basdırılıb. Seyidbəyli və Almalı kəndləri isə sözün əsl mənasında tikanlı məftillərlə əhatəyə alınmış «nüvə qəbiristanlığı»na çevrilib. Lakin ermənilər bununla kifayətlənmirlər. Digər bir məlumata görə isə, Rusiya nüvə tullantılarını (o, bu il iyunun 12-dən etibarən öz nüvə tullantılarını Almaniyaya və Yaponiyaya satır) Dağlıq Qarabağ ərazisində yerləşdirərkən bütün beynəlxalq hüquq normalarını pozur, özünəməxsus qanunlarla işləyir.

Məşhur politoq, yazıçı Frankis Fukuyama (Yaponiya) bunlara işarə edərək «Zamanın sonu» əsərində yazır: «Dünyanın axırıdır, qardaş. Amma deyəsən, bir qisim dövlət qalacaq ki, onlar da dünyanın son işığınadək bir-biriləri ilə vuruşacaq və bu vuruşmada onlar bilərəkdən Allahın və bəndənin acığına torpaqlara zəhər qatacaq, suları bulandıracaq, ağacları, gülləri yandıracaqlar. Bu da terrordur. Təbiətə qarşı, insanlığa qarşı, vicdan və əxlaqa qarşı terror. Bu terrora isə nə insanlıq davam gətirər, nə də təbiət. Yer kürəsini, zamanı məhv edən də elə bu terror olacaq».

Politoloq adını çəkməsə də, bunun nüvə terroru olmasına işarə edir.

## REGİONDA YENİ TƏHLÜKƏ MƏNBƏLƏRİ

Ermənistanla Rusiya Federasiyası özlərinin milli təhlükəsizlik və kəşfiyyat sənədlərində işğal olunmuş Qarabağ ərazisinə nüvə bazası kimi baxır. Ermənistanın və RF-nın nüvə proqramlarında bununla bağlı ayrı bəndlər var. Ola bilsin, Moskva və Yerevanın kəşfiyyat sənədlərində qeyd olunan bu məsələ ilkin olaraq 2005-ci ildə reallaşsın. Araşdırmalarımıza görə, Ermənistanın nüvə proqramı 2000-ci il dekabrın 14-də qəbul edilib. Təhlükəsizlik Şurasının Yerevanda keçirilən iclasında bu proqramı hazırlayanların adları da açıqlandı - professorlar Q.Ter-Akopyan, K.Ter-Martirosyan, S.Avakyan, R.Saakyan, K.Alanakyan. Otuz altı maddədən ibarət olan bu strateji proqramda dörd yerdə - 12-ci, 14-cü, 19-cu və 26-cı maddələrdə işğal olunmuş Qarabağın adı çəkilir, ərazilərin bir qismi «nüvə zonaları»na ayrılır.

1. Kəlbəcər rayon ərazisi (cənub-qərb hissəsindəki Başlıbel yaşayış məntəqəsi).
2. Şuşa rayon ərazisi (cənub-qərb hissəsindəki Göytala yaşayış məntəqəsi).
3. Laçın rayon ərazisi (şərq hissəsindəki Miğidərə, Malxələf, Aşağı Fərəcan yaşayış məntəqələrinin ərazisi). Yerevan Fizika İnstitutunun müəllimi, professor S.Stepanyan 2001-ci il aprelin 9-dan 11-dək institutda «Nüvə tədqiqatları və Ermənistan» mövzusunda keçirilən yığıncaqda bu yerlərin adını çəkib (YDU. «Xüsusi bülleten, 30 aprel 2001-ci il, səh. 4).

Ermənistan Silahlı Qüvvələrində yeni elmi-tədqiqat mərkəzlərinin açılması və yaxud genişləndirilməsi məqsədəuyğun hesab edilib.

Məlumata görə, işğal olunmuş Qarabağ ərazisinin üç müxtəlif nöqtəsində «ASALA» erməni terror təşkilatının yeni, radikal qanadı üçün təlim düşərgələri salınıb:

1. Şuşa rayon ərazisi (şimal hissəsindəki Xəlfəli yaşayış məntəqəsi);
2. Xocavənd rayon ərazisi (qərb hissəsindəki Kiş yaşayış məntəqəsi);
3. Xankəndi rayon ərazisi (şərq hissəsindəki Əsgəran yaşayış məntəqəsi).

Bu ərazilərin adı 2001-ci il avqustun 14-də Beyrutdakı «Qnqak» erməni partiyasının eyni adlı nəşriyyatında çapdan çıxan «Dağlıq Qarabağ» (№6) xüsusi bülletenində kəşfiyyat zabiti L.O.Gevorkyanın «Milli azadlıq cəbhələrimizin müdafiə strukturu» yazısında çəkilir. Bu təlim düşərgələri rəsmi sənədlərdə «Ermənistan Milli Azadlıq Cəbhəsinin müdafiə bazası» kimi qeyd olunur. Araşdırmalarımıza görə, «ASALA»nın Livanda fəaliyyət göstərən «Həmas» və «Hizbullah» silahlı-terrorçu dəstələri ilə də ciddi əlaqələri var. Bu istiqamətdə maraqlı nəticələr əldə edən Belorus tədqiqatçısı Yevgeni Kojuşko «Современный терроризм» kitabında (səh. 218) yazır: «...«ASALA» - это террористическая организация... Ее главная цель - восстановление независимости Армении не в современных, а в исторических границах. Это восток Турции (включая города Артвин, Каре, Эрзурум, Ван), часть Северного Ирана, Нахичеванская

область Азербайджана...» (Minsk. «Xarvest» nəşriyyatı, 2000-ci il). Başqa bir məlumata görə isə, «ASALA»çılardan ibarət xüsusi kiçik «mühafizə qrupları» təşkil edilib. Bu qruplar bilavasitə «Həmas» silahlı birləşmələri ilə sıx əlaqədə fəaliyyət göstərir. Bu dəstənin Xankəndi-Yerevan-Beyrut üçbucağında xüsusi təyyarə reysi var.

Tədqiqatçı Y.Kqjuşko daha sonra qeyd edir: «Одним из главной базой «АСАЛА» является Ливан, основным партнером - ООП (Организация Освобождения Палестины), она пользовалась широкой поддержкой армянской диаспоры во многих странах мира. Другая база по прежнему находится в Сирии, в том числе во Франции, в США, в Великобритании в Армении. Она поддерживает контакты с курдской «ПКК», палестинскими террористическими организациями НФОП, «Хамас»... т.д. (səh. 218-219).

Araşdırmalarımıza görə, işğal olunmuş Qarabağ ərazisində 2001-ci il noyabrın 21-də «ASALA»+«Həmas»+«Əl-Qaida» birləşməsi» deyilən vahid cəbhə yaradıldı. Bu cəbhənin fəaliyyət dairəsindən, strateji proqramlarından RF Təhlükəsizlik Xidmətinin də ilkin məlumatları var. Araşdırmalarımıza görə, vahid cəbhəçilər MDB ölkələri ərazisindəki NATO-ya üzv ölkələrin diplomatik korpuslarına, səfirlik və ticarət palatalarına, neft şirkətlərinə, xeyriyyə və humanitar yardım mərkəzlərinə qarşı təxribat planlarının «layihə»lərini işğal olunmuş Dağlıq Qarabağ ərazisində reallaşdırırlar. 2002-ci il iyulun 4-də Nyu-Yorkda çıxan «Boston qlob» qəzeti («Boston Globe») xatırladır: «Ядерное оружие, наиболее привлекательное для террористов, даже более ценное для них, чем ядерное топливо и значительно более портативное, чем боеголовки стратегических ракет. Господин Буш подчеркнул, что «Ал-Каида» стремиться заполучить ядерное оружие и средства его доставки для использования против США». (Devid Filipov. səh. 2). Topladığımız strateji materiallardan bu da aydın olur ki, Ermənistanda nüvə başlıqlı silahların (Yerevandakı iki min işçisi olan, 2002-ci il aprelin 13-də işə düşən silah zavodunu xatırlayaq) istehsalı və eləcə də Silahlı Qüvvələrin tərkibindəki «Skad» və «Tayfun» tipli nüvə başlıqlı raketlərin modernləşdirilməsi üçün kifayət qədər imkan var. Bir müddət ABŞ MKİ-nin rəsmi sənədlərinə görə, «Uran-238» materialını qaçaqmalçılıq yolu ilə əldə edib Dağlıq Qarabağ ərazisi ilə İrana və İraqa ötürən Yerevan bu gün özü nüvə texnologiyasına ehtiyac duyur.

Ermənilər iddia edirlər ki, «Metsamor» Atom Elektrik Stansiyasının hələ 15 il işləməsi mümkündür. Stansiyanın «B-230» mühərriki 30 il müddətinə hesablanıb və 2016-cı ilədək etibarlıdır (lakin bu mənbədən Araz çayına tökülən zəhərli kimyəvi birləşmələrin, tullantıların nəticəsidir ki, hövzədə qızılbalığın kökü kəsilmək üzrədir). Hesablamalara görə, bu stansiya 10 bal gücündə zəlzələyə davamlıdır. Lakin stansiyanın enerji bloklarında artıq çat əmələ gəlib və ətrafda şüalanmanın dərəcəsi artıb. Məlumata görə, təkcə ötən il Atom Elektrik

Stansiyasında çalışan 14 işçi şüalanmadan ölüb, 26 nəfər isə Yerevan hərbi xəstəxanasında müalicə olunur. Odur ki, «Metsamor» Atom Elektrik Stansiyasına ərazinin enerjiyə olan tələbatını ödəyəcək enerji mənbəyi kimi deyil, nüvə materiallarını araşdırma mənbəyi kimi baxmaq lazımdır. Çünki Ermənistanın enerjiyə, yanacağa olan ehtiyacını həm Rusiya Federasiyası, həm İran, həm də Gürcüstan ödəyir.

Erməni politoloqu Armen Xanbabyan belə bir açıqlama verir: «Баку вновь актуализировал вопрос об Армянской атомной электростанции, которая, как утверждают в Азербайджане, «представляет угрозу для окружающей среды». По словам члена Азербайджанской делегации в ПАСЕ Гюльтекин Гаджиевой, Баку постарается вынести этот вопрос на обсуждение Комитета по Сельскому Хозяйству и Экологии. Азербайджанские парламентарии рассчитывают на понимание европейских коллег, поскольку «Европа очень чутко относится к экологическим проблемам. Ясно, однако, что это проблема не экологическая, а политическая...» («Независимая Газета», Moskva, 14 aprel 2002-ci il). Araşdırmalarımızın nəticələrindən biri belədir ki, həqiqətən «Metsamor» Atom Elektrik Stansiyası bu gün ekoloji məsələ deyil, sırf siyasi məsələdir (Kitab çapa hazırlanarkən «Metsamor» AES-in müvəqqəti olsa da, bağlanmasına qərar verildi - red). 2001-ci ilin noyabr-dekabr aylarında ermənilərin Axalkalaki qruplaşmaları - «Pediani» üzvlərinin (Kvant fizikasından Tbilisi universitetində dərs deyən doktor Aşot Arakesyan və laboratoriya müdiri Ermik Sasunyan) başçılığı ilə Gürcüstanın Mtsexet yaşayış məntəqəsindən «Uran-238» materiallarının və tədqiqat üçün ayrılmış (əslində sınaq üçün) nüvə mühərriklərinin oğurlanması planlı şəkildə həyata keçirilir. Məlumata görə, ərazidən təqribən 2 kiloqram «Uran-238» materialı oğurlanıb. Üstəlik Suxumi Nüvə Tədqiqatları Mərkəzindən çox da böyük olmayan üç mühərrik aparılıb. Amerikadakı beynəlxalq məsələlər və elm üzrə «Belfer» mərkəzinin (Harvard Universiteti nəzdində) nüvə tədqiqatları üzrə məsləhətçisi Metyu Bann Gürcüstan ərazisindən oğurlanmış nüvə materiallarına işarə edərək yazır: «Terrorçular bütün imkanlardan istifadə edirlər ki, bu materiallardan heç olmasa, bir qismini əldə etsinlər. Biz də bunun müqabilində bütün gücümüzü ortaya qoymalıyıq ki, onlar bu qırğın silahlarını ələ keçirməsinlər» («Vaşinqton post» qəzeti. 3 iyun 2002-ci il. Müəllif Cobi Uorrik) Harvard Universitetinin «nüvə təhlükəsi» ilə bağlı MKİ-yə ünvanladığı hesabatda isə göstərilir: «Kim atom bombası üçün material axtarırsa, o, çalışıb tapacaq. Oğurluq yolla da olsa, tapacaq, qaçaqmalçılıq yolu ilə də olsa. Milli təhlükəsizlik naminə ciddi addımlar atılmalıdır».

«Nüvə laboratoriyaları», mühərriklər və nüvə texnologiyasının Gürcüstan ərazisindən oğurlanmış komponentləri Ermənistan ərazisindən kənara çıxarılmayıb. Nüvə materiallarının bir qismi Livan ermənilərinə satılıb. Həmin materialların bir hissəsinin «Həmas» terrorçu qrupunun əlinə keçməsi də

həqiqətdir. «İslam bombası»nın hazırlanması da ehtimaldan çox reallıqdır.

Ermənistan nüvə tədqiqatçıları son iki ildə bu sahədə aktiv iş aparırlar. Məsələn, Rusiya ərazisindəki Nüvə Tədqiqatları Mərkəzlərində çalışan erməni mütəxəssisləri istəyərlər ki, onların vətənində - Ermənistanda nüvə silahı yaradılsın, Ermənistan nüvə ölkəsi olsun. Çünki onların fəlsəfəsinə görə, Türkiyə və Azərbaycan bu istiqamətdə Ermənistana həmişə təhlükəli görünür. Məlumata görə, artıq RF-nın müxtəlif institutlarında çalışan erməni alimlərinin bir qismi laboratoriyalarını Yerevana və yaxud Dağlıq Qarabağ ərazisinə köçürüblər. Məsələn, artıq Kurçatov adına Fizika tnstitutunun nüvə mühərriki üzrə tədqiqatlar aparan mütəxəssisləri L.Mikailyan, Nüvə Tədqiqatları İnstitutunun müəllimi G.Ter-Akopyan, Nəzəri Eksperimental İnstitutunun professoru R.Saakyan, Nəzəri Fizika və Eksperimental İnstitutunun müəllimi, doktor L.Ter-Petrosyan özlərinin tədqiqat laboratoriyalarını açıblar («İran» qəzeti, Tehran, 6 iyul 2001).

Araşdırmalarımıza görə, Yerevan Fizika İnstitutunun alimlərindən, nüvə texnologiyası sahəsində tanınmış tədqiqatçılardan N.Egiyan, K.Alananyan və Ə.Şərabyan Kəlbəcərdə nüvə və Kvant fizikası ilə mühərriklərin hazırlanması, nüvə enerjisi məsələləri ilə məşğul olan «xüsusi laboratoriya»lara başçılıq edirlər. «Nüvə silahlarına nəzarət üzrə Viskonsin proqramı»nın direktoru, doktor Herm Millolinin fikrincə, «bu yerlərə, yəni nüvə tədqiqatı, alış-verişilə məşğul olan yerlərə strateji materiallar adətən (nüvə texnologiyasını nəzərdə tutur) RF-dən gəlir. Bu region nüvə qaçaqmalçılığına öz qapılarını geniş açıb» («Nuclear Times». Nyu-York. 12 dekabr 2001-ci il, səh. 6) Amerika MKİ-nin başçısı Corc Tenet isə dünyanı sarsıdan nüvə oğrularına müharibə elan edilməsini istəyib. Onun açıqlamalarına görə, Amerika Birləşmiş Ştatlarının qorxusu və ehtiyatı növbəti nüvə terroru ola bilər. Toplanmış kəşfiyyat materialları bunu deməyə əsas verir. Nüvə əleyhinə kampaniyanın sədri (İngiltərə) Kerol Noton isə qeyd edir: «Müharibə - bu, cavab deyil. Silaha silahla cavab vermək düzgün addım deyil. Bu, yeni bin ladenlərin yaranmasına gətirib çıxaracaq» (Eyni mənbə. K.Notonla müsahibə. 21 fevral 2002-ci il, səh. 9).

Araşdırmalarımıza görə, 2002-ci il martın 26-dan etibarən Ermənistan ərazisində «Hökumət və məxfilik» Proqramı qüvvəyə minib. Bu strateji-siyasi Proqramın açıqlanmasından iki gün ötmüş işğal olunmuş Dağlıq Qarabağ ərazisində də belə bir addım atılıb.

Xankəndinin kəşfiyyat zabiti O.Aleksandryan Proqramın məzmunu haqqında belə bir açıqlama verir ki, məqsəd strateji obyektlərə, yazışmalara və erməni alimlərinin mikrobiologiya, kimya və nüvə tədqiqatları üzrə apardıqları araşdırmalara ciddi nəzarət mexanizminin qurulmasıdır. Onun fikrincə, bu mexanizm artıq qurulub. Məxfilik prinsipi isə bu mexanizmin əsasını təşkil edir.

Məlumata görə, Ermənistanda tətbiq edilən «Hökumət və məxfilik» Proqramı məzmun və mahiyyətinə görə, Amerika Alimlər Federasiyasının ölkənin

MKİ-nin başçısı Corc Tenetə təqdim etdikləri layihənin əsasında yazılıb. Amerika alimləri belə bir proqram layihəsini hələ 2000-ci ildə Ağ Evə və MKİ-nə təqdim ediblər. Burada söhbət ölkənin nüvə texnologiyası ilə məşğul olan elmi-tədqiqat obyektlərinin, tədqiqat sənədlərinin qorunmasından gedir (BULL. OF THE ATOMIC SCIENTISTS - Chicago, 2000, Vol. 56, N-6, p. 25-29).

Məlumatlara görə, Yerevanın strateji mərkəzlərində tez-tez ölkə kəşfiyyatının zabitləri görünür, ayrı-ayrı şəxslərə ciddi nəzarət qaydaları tətbiq olunur. Artıq bu ilin təkcə may ayı ərzində strateji tədqiqatlarla məşğul olan 13 erməni alimi ölkədən çıxarılıb.

Professor Andrianik Lalayan «Армянский вестник» bülleteninə verdiyi müsahibədə qeyd edir: «Ermənistan istəyir ki, strateji tədqiqat mərkəzlərində bürokratik məxfilik prinsiplərinə son qoysun. Həqiqi siyasi məxfilik kursuna keçsin. Bu, müharibə şəraitində olan Ermənistan üçün həmişə, hər vaxt lazım olan məsələdir» («Армянский вестник». 26 may 2002-ci il, səh. 3).

Məlumata görə, 2002-ci il aprelin 2-dən Ermənistan hərbi kəşfiyyat və əks-kəşfiyyat xidmətlərində «Post-14» Proqramının işlənməsilə bağlı SQ Baş Qərargahında xüsusi müşavirə keçirilib. Bu Proqramın mahiyyətində ərazidəki nüvə tədqiqatları ilə məşğul olan elm adamlarının, analitiklərin qorunması məsələsi də yanır. Hərbi kəşfiyyat xidmətində (polkovnik S.Alaverdiyan), eləcə də hərbi əks-kəşfiyyat xidmətində (polkovnik O.Ambarsumyan) kütləvi qırğın silahlarına nəzarət bölmələri yaranıb. Yeni strateji bölmələrin rəhbərlərinin prezidentin Təhlükəsizlik Şurasında iyunun 12-də hesabatları da dinlənilib.

Ermənistan Fizika Tədqiqatları İnstitutunun professom (Ermənistan MEA «Aştarak-2») Serj Ter-Avetisyan ölkə kəşfiyyatında aparılan belə bir islahatın Ermənistan, onun milli təhlükəsizliyi üçün «misilsiz, qiymətsiz bir addım olduğunu» vurğulayıb.

Araşdırmalarımıza görə, Ermənistanın nüvə tədqiqatçıları həm Rusiya, həm də İranlı həmkarları ilə ciddi elmi əlaqələr qurublar. Lakin əvvəllər müəyyən mərhələlərdə açıq görünən bu əlaqələr, indi daha qapalı və məxfilik prinsipləri əsasında həyata keçirilir.

## «DPO» - ERMƏNİ TERRORÇU DƏSTƏSİ ABŞ-IN DÖVLƏT DEPARTAMENTİNİN SƏNƏDLƏRİNDƏ

Azərbaycanın timsalında qaçqın və məcburi köçkünlərin meydana gəlməsinin səbəbi Ermənistanın hərbi təcavüzü, erməni işğalçıları tərəfindən həyata keçirilən etnik təmizləmə, terrorçuluq, təcavüzkar separatçılıq və Azərbaycan ərazisinin işğal edilməsidir. Qəribədir ki, xalqımıza qarşı bütün bu bəşəri cinayətləri törətmiş Ermənistan nümayəndələri Avropa Şurasında bizimlə oturmuşlar. Nə vaxta kimi Avropa belə bir fakta göz yumacaq ki, Avropa Şurasının

bir üzvü olan Ermənistan təşkilatın başqa bir üzv dövlətinin - Azərbaycanın ərazilərinin 20%-ni hələ də işğal altında saxlamaqda davam edir?

**İlham ƏLİYEV,**
**Azərbaycan Reşpublikasının Prezidenti**

1994-cü ilin sonlarında Ermənistan xüsusi xidmət orqanları, məqsədi siyasi rəqibləri, siyasi və iqtisadi kəşfiyyatı məhv etmək, narkotiklərin tranzitini təmin etmək olar gizli «Dro» terrorçu təşkilatını üzə çıxardı. Axtarış zamanı aşkar olunan sənədlər və təqsirkarların etirafi şəksiz sübut etdi ki, «Dro» - Erməni «Daşnaksütyun inqilabi federasiyası»nın törəməsidir (EDİF) və bu partiyanın ali rəhbər orqanı - Büronun gizli qərarı ilə yaradılmışdır (Bütün bu sənədlər 1991-ci ilin fevral-martında parlament qəzeti «Ayastani Anropetutyun» qəzetində dərc edilmişdir). Hesablarında bir sıra qətllər olan «Dro» üzvlərinin böyük əksəriyyəti, həmçinin, terrorizmi öz mübarizəsinin əsas metodlarından biri hesab edən və bunu heç vaxt gizlətməyən EDİF-in üzvləri idi.

Bu dəfə erməni ictimaiyyəti artıq daxili terrorizmlə, yəni eyni bir millətin və dini vətəndaşlarından ibarət olan, subyekti onun vətəndaşları hesab edilən terror təşkilatı ilə üz-üzə gəldi. Lakin cəmiyyət faktiki olaraq bu təhlükəli hadisəyə biganə qaldı. Terror təşkilatının yaradılması və fəaliyyəti faktlarına belə sakit münasibətin səbəbləri çoxdur.

2001-ci il iyulun 21-də Amerika Birləşmiş Ştatlarının hərbi strategiyasının əsas müddəalarını əks etdirən 30 səhifəlik məxfi bir hesabat dinlənildi. Həmin müddəalardan birində deyilir: «Amerika nüvə, kimyəvi, bakterioloji silahlardan qorunmalıdır. O, planetin vacib nöqtələrinə nəzarəti artırmalıdır».

«Vacib nöqtə» deyəndə sənəddə Avropa, Şimal-Şərq, Asiya, Şərqi Asiya rayonları, Yaxın Şərq, Cənub Qərbi Asiya və Cənubi Qafqaz nəzərdə tutulurdu. İçməli su, torpaq üstündə başlanan münaqişə və ya müharibə zonaları xatırladılırdı. Təəssüf ki, bu cərgədə torpaqları qəddarlıqla bölünmüş, kütləvi terror planları ilə işğal olunmuş Azərbaycanın Qarabağın adı çəkilmir.

İşğal olunmuş Qubadlıda ermənilər öz «nüvə qəbiristanlıqları»nı bir az da genişləndirdilər. Bərgüşad və Həkəri çayları arasındakı ərazidə, vaxtilə yurd yerlərimiz olmuş (şimal və şimal-şərq hissələri) Qayalı, Mahmudlu, Qaracallı, Sarıyataq kəndlərində nüvə tullantılarının basdırılması üçün xüsusi sahələr ayrılıb. Bu işi bir qayda olaraq, «Dağlıq Qarabağ ordusu»nun «radiokimyəvi qrupu»nun əsgərləri həyata keçirirlər. 2000-ci ildə Xankəndinin hərbi hospitalına qan xərçəngi ilə müraciət edən gənclərin (onların hamısı vaxtilə orduda «radiokimyəvi qrup»da xidmət edənlərdir) sayı 22 nəfər olub. Digər tərəfdən, ordudan tərxis olunmuş ermənilərin ailələrində dünyaya gələn uşaqlarda kütləvi sepsis, - yəni qanın zəhərlənməsi xəstəliyi müşahidə olunub.

Maraqlı cəhət budur ki, ABŞ-ın Tennesi ştatında Vanderbilt və Nasivil universitetlərinin milliyyətcə erməni olan həkim qrupu da həmin zonalarda tədqiqatlarını davam etdirmək niyyətindədir. Onlar Xankəndidə erməni uşaqları arasında yayılmış sepsis xəstəliyinin, qandakı bakterioloji infeksiyanın qarşısını alan «Zovan» preparatlarından geniş istifadə edəcəklərini də bildiriblər.

Bunlarla yanaşı, Qarabağda ermənilərin yeraltı nüvə anbarlarının sayı artmaqda davam edir.

Qeyd edək ki, Türkiyədə «İki saat yarım ərzində müharibə strategiyası» adlı hərbi konsepsiya hazırlanıb. Əsasını mobil zirehli korpuslar təşkil edən bu konsepsiya üç istiqamətdə müəyyənləşib:

1. Terror qruplarına qarşı;
2. Kütləvi aksiyalara qarşı;
3. Dini radikal təşkilatlara qarşı.

Həmçinin «Xüsusi taktiki kəşfiyyat» məktəbi də yaradılıb. Fikrimizcə, Azərbaycanın da belə bir quruma ehtiyacı var.

Dünyada terror aktlarının 43 faizi ABŞ-a yönəlib. Bu, 2000-ci ilin noyabr ayının 19-na olan məlumatdır. 2001-ci il iyulun 22-nə olan məlumata görə isə, bu rəqəm 56 faizə çatıb. Deməli, ABŞ terror təhlükəsindən hələ qurtarmayıb, əksinə məlum radikal qüvvələrdə bu planları reallaşdırmaq həvəsi artıb. ABŞ Mərkəzi Kəşfiyyat İdarəsi hər il törədiləcək hər hansı faciə ilə bağlı 1400 məlumat alır. Bunun 800-ü sırf terrorla, 600-ü, yəni 42 faizi terror aktları törətmək istəyənlərlə bağlıdır. 1400 məlumatın təqribən 24 faizi ABŞ ərazisində fəaliyyət göstərən erməni terror qrupları haqqındadır. MKİ-nin əməkdaşı, xanım Leyton Marian Vaşinqton Beynəlxalq Araşdırmalar və Strateji Tədqiqatlar Mərkəzinin bülleteni olan «Postsovet prospekti»ndə yazır: «Əvvəllər terror bizdən xeyli uzaqda idi. İndi isə o, evimizin içindədir».

Məlumata görə, Üsəma bin Ladenin Amerika Birləşmiş Ştatlarına, xüsusən Vaşinqton və Nyu-York yaşayış ərazilərinə səpələnmiş silahdaşlarına paylanılan və tərkibində birləşmiş uran izotopu (U-238) olan, 50 mm kalibrli «Barret M81-Al» və «Barret M82-A1» snayper silahlarının alınmasını haqqında bir qədər əvvəl danışdığımız Şeyx Briqadir təşkil etmişdi. Şeyxin Londondakı adamları isə, bilavasitə erməni terrorçularının (Abo Səttaryan, Farid Ovsaryan, Qrant Poqosyan) bu silahlardan istifadəetmə qaydalarını öyrədən «Sakina sekyuriti servisis» fundamental təşkilatında (başçısı İsrael Yelizaryan) təlimlər keçirlər.

Hər il avqustun 14-də «Əl-Qaida» qruplaşmalarına müxtəlif dini etiqadları olan şəxslər islam bayrağı altından keçib, Üsəma bin Ladenin «İslamın Təhlükəsizlik Dəstəsi»nə qoşulurlar. Məlumata görə, ötən ilin andiçmə mərasimində keçmiş SSRİ ərazisindən gedən 6 gürcü, 12 erməni, 14 ləzgi, 5 rus islamı qəbul edərək dəstəyə qoşulub. «ASALA» ermənilərinə müntəzəm olaraq partlayıcı maddələrin sirlərini öyrədən Əbu İbrahim erməniləri öz əqidələri

uğrunda həmişə müharibəyə hazır olmağa çağırır və bu yolda geri çəkilməyi qorxaqlıq bilir.

«Kiçik laboratoriya» adlandırılan bu terrorçu təşkilatların arasında qurulan İnternet əlaqələrində milliyyətcə erməni olan analitiklər güclü rol oynayırlar. Üsəma bin Ladenin «Əl Qaida» qrupunun «Hizbullah» və «Həmas» qrupları arasındakı əlaqələrin təhlili maraqlıdır. Məsələn, araşdırmalarımıza görə, «Əl-Qaida»nın Lahordakı İnternet qrupuna 1954-cü ildə Yerevanda anadan olmuş və on iki yaşından Pakistanda yaşayan Yozen Surenoviç Malikyants, «Hizbullah»da (İran) Mohanes Yəhya Aslanyan, «Həmas»da (Livan) isə Harri Bablumyan başçılıq edir. Bu əlaqələr NATO-ya üzv ölkələrin, o cümlədən ABŞ ərazisində də davam etdirilir. Onlar İnternet saytlarında gizli əlaqələrini qurur, xüsusən Xəzəryanı dövlətlərin (o cümlədən Azərbaycanın), yanacaq resurslarının mənbələri haqqında məlumatlar yığır, bank hesablarını açır, məxfi kodları bağlı olan «sifariş»ləri ötürürlər. ABŞ-da çıxan «Yu-Es-Ey» qəzeti 2002-ci ilin aprel nömrəsində yazır ki, arxasında ermənilərin də əyləşdiyi bu İnternet «punkt»larına Şeyx Vadih Əl-Heyc başçılıq edir. Bunlardan sonra ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin direktoru Corc Tenet etiraf etdi: «İslam terrorçuları əsl elektron cihadı edirlər». Amerika Milli Təhlükəsizlik Agentliyinin direktoru, general-leytenant Maykl Hayden hesabatında açıqlama verir: «Onların (islamçıların) ən yaxşı texniki və elektron imkanları, ən güclü telekommunikasiya sistemləri var».

Amerikada belə bir terror dəstəsi var: «13-lər» (Kaliforniya, Nyu-Cersi ştatı). Bu terror təşkilatı 1989-cu il mayın 24-də yaradılıb. «13-lər»in liderlərindən olan hüquqşünas Sirus Badamçıyan «Vadi-Əl Kaid» Şirkətilə əməkdaşlıq qurdu. ABŞ FTB-nin əməkdaşlarına artıq məlum olub ki, ermənilərin can atdıqları, əlaqələr qurduqları «Vadi-Əl Kaid» şirkəti məhz Üsəma bin Laden tərəfindən maliyyələşdirilir. Sirus Badamçıyan isə Azərbaycan torpaqlarının işğalında iştirakına görə 1992-ci ilin martında «Qızıl qartal» erməni ordeninə layiq görülmüşdü.

Elə həmin il Xankəndidə «13-lər»lə «ASALA»çıların (Yerevan) «Vuruşan xalqa müraciət»i yayıldı. Müraciəti Tiqran Hovanesyan və Sirus Badamçıyan imzalamışdılar.

Azərbaycanın hüdudlarında qanlı terror əməliyyatları törədən «ASALA»nın ideoloqlarından Aram Qalustyanın, Birma Səlcuqyanın, Varin Adamyanın «Vaçaqan Barepoşt», «Müqəddəs Georgi», «Andrianik» və «Böyük Ermənistan» orden və medalları ilə təltif olunmaları həm düşündürücü idi, həm də təəssüfedici. Həmin il qondarma «Dağlıq Qarabağ Respublikası»nın «müdafiə naziri»nin belə bir bəyanatı yayıldı: «Bu şəxslər ABŞ-dakı «13-lər»lə birgə Xocalının türklərdən azad edilməsində göstərdikləri fövqəladə qəhrəmanlıqlara görə həmişə tarixin yaddaşında qalacaqlar».

1992-ci ilədək Ermənistanın Berd, Çil, Çövak, Daşkənd, Tex, Tatev, Aldərə

yaşayış ərazilərində Baş Qərargahlarını quran «Türk qanı» və «Azərbaycan» adlı terror mərkəzləri 1999-cu ilin iyul ayının 9-dan başlayaraq, qərargahlarını dislokasiya etdilər, Kəlbəcər, Laçın və Şuşada məskunlaşdılar. Hər iki təşkilat yeni idi və hər ikisinin də yaradıcısı Armen Mixitariyan adlı Argentina biznesmeni idi. 1969-cu ildə mədəniyyət və incəsənət xadimləri cərgəsində Bakıdan Fransaya gedən musiqiçi A.Mixitariyan bir daha geri qayıtmadı. 37 ildən sonra onun səsi Laçından gəldi. O, Laçına məhz «Türk qanı» adlı bir təşkilatın proqramı ilə gəlmişdi. Sonra bu dəstə böyüdü, şaxələndi.

İran üç mobil raket sistemini modernləşdirib: - «DF-31», «DF-31 ICBM» və «YI-2». Rusiyanın istehsal etdiyi «Don» raket sistemini də alıb və bu raket sistemi ABŞ, Yaponiya və Tayvan istiqamətində qurulub. İndi isə «Yer-Yer» raketlərinin son sınaqları haqqında fikirləşir. (Əldə etdiyimiz digər məlumatlarda isə göstərilir ki, Tehran Pekinin də raket texnologiyasındakı son nailiyyətlərlə ciddi maraqlanır.) Təbrizin şərq hissəsində, Azərbaycanla sərhəd zolaqlarında İranın raket sistemlərinin yerləşdirilməsi haqqında da məlumatlar var. Məsələn, «Fəcr» on günlüyündə Germidə, Parsabadda, Nəmin və Astara ərazilərində (təhlükəsiz zonalarda) hərbçilərin yeni tikinti layihələri əsasında raket və digər hərbi avadanlıqların quraşdırılması nümayiş etdirilib və bu hərbi tikintilərin inşasında çalışan erməni əsgərlərini də unutmaq olmaz. İran bu zonalarda «SKAD»-S/SS-1D raketlərini yerləşdirərsə, onda təhlil edin:

«SKAD»-S/SS-1D;

- Maksimal məsafə 550 km;
- SER: 0,8-1 km;
- raketin diametri: 0,88 m;
- uzunluğu 11,25 m;
- mərminin ağırhğı: 5900 kq;
- yanacaq: VDMN;
- turşulaşdırıcı: IRFIVA;
- döyüş başlığı: 600 kq;
- partlayıcı maddənin ağırlığı: 770 kq.

Şübhəsiz, bu raketlərin də hədəf nöqtələri Amerikanın və İsrailin Bakıdakı diplomatik korpusları və neft şirkətləri ola bilər. Beləliklə, Bakının Beyruta çevriləcəyi məsələsi reallaşar.

Həm Qərbin və həm də Şərqin kəşfiyyat planlarında Azərbaycan bütün prizmalardan hədəf və ya poliqon ola bilər. Odur ki, Bakı Vaşinqton-Tehran münasibətlərində üstünlüyü ələ almalıdır. Bunun üçünsə güclü dövlət strategiyası, kəşfiyyat və hərbi konsepsiyaların işlənməsi vacibdir. Bu, həm də Yerevanın və Moskvanın bu istiqamətdəki siyasətlərinin məğlubiyyəti ola bilər. Unutmayaq ki, Bakı neft şəhəridir. Neft isə tarix boyu həm kədərdir, həm də sevinc. Həm sülhdür, həm də müharibə. Hələ ki, ölkə başçısı İlham Əliyevin strategiyasında müharibə

yoxdur. Ölkə parlamentində azlıq təşkil edən sol qüvvələrin də İranla bağlı strategiyası buna çox yaxındır. Bu, sülh və nizamlama strategiyasıdır. Bu strategiyanı başqa səmtə yönəltmək bütün zamanlarda hər şeyin, o cümlədən həm müxalifətin və həm də iqtidarın sonu ola bilər. Çünki bu məqamda azadlıq bitir.

«Kollektiv kəşfiyyat»ın (Ermənistan-İran planı) Amerika və İsrail ərazilərindəki strateji mərkəzlərdə keçirə biləcəkləri terror aksiyalarına da hazır olmaq zəruri sayılır. Beyrutdan Yerusəlim istiqamətinə buraxılan «Həmas»a məxsus «KASSAN-2» raketlərinin modernləşdirilməsi məsələsi də İranın 2005-ci il hərbi-sənaye proqramına salınıb. Daha dəqiq desək, Beyrutda «KASSAN-2» raketlərini layihələşdirən mütəxəssislərdən biri də 1999-cu il iyulun 21-də RF-dan gedən və Livanda məskunlaşan, 1980-89-cu illərdə Dubnada raket texnologiyası ilə məşğul olan, «Suxoy» Hərbi-Sənaye Kompleksində Kvant fizikası üzrə mütəxəssis Arkadi Alekseyeviç Baqramyandır. Bu, təkzibolunmaz faktdır.

E.D.Saakyan (professor-tarixçi):

«Mən bu gündən «Krunk»dan (təşkilatdan - R.N.) imtina edirəm. Mən bu gündən üzv olduğum «Naxçıvan» icmasından gedirəm. Bunların heç biri mənim millətimə baş ucalığı gətirmədi. Dağlıq Qarabağı tərk etmək vaxtıdır».

(Bax: İran. «Araz» jurnalına verdiyi müsahibədən. 2002.XI.6).

## QARABAĞ: BEYNƏLXALQ TERROR ÜÇÜN «QARA BAZAR»

Müstəqil Dövlətlər Birliyi ölkələri ilə elmi-texniki tərəqqi üzrə İran cəmiyyətinin (Tehran, Şəhid Əkbəri döngəsi, 1/6) «2001-ci ilin hesabat dəftəri»ndə yazılır: «Son beş ildə İranın Şərəfxanə, Sefid-Qonbəd, Gəmiçi, Gəlmənxanə limanları (Şərqi Azərbaycan əyaləti) strateji baxımdan yenidən qurulur. Bu illər ərzində Bakıdan bu limanlara yeddi müxtəlif gəmi gətirilib» («MDB - İran cəmiyyəti». Tehran, 19 dekabr 2001-ci il. «Hesabat»).

Lakin Bakıdan yeddi deyil, doqquz gəmi hissə-hissə doğranılmış, 80 min dollardan 95 min dollar qiymətləri ilə İranın hərbi-sənaye komplekslərinə satılmışdı. Məsələn, ölkənin Gəmiçi limanında iqtisadi məsələlərə baxan Mahmud Həsənzadə bildirir ki, 1993-cü ildə Azərbaycandan alınmış istifadəsiz qalmış bir gəmiyə 115 min dollar ödənilib («İran» qəzeti, Tehran. «Gəmiçilik və gəmiqayırma strateji məsələdir» yazısı. 9 aprel 1994-cü il). M.Həsənzadə bunu da yazır ki, o gəmini «öz motoru ilə Ənzəli limanınadək sürüb gətirdik. Sonra bu gəmi hissə-hissə doğranılıb hərbi-sənaye mərkəzlərinə daşındı». Əldə etdiyimiz digər məlumata görə, təkcə Miyanədəki poladəritmə zavodu son beş ildə Azərbaycandan 4700 ton yüksək keyfiyyətli polad alıb. İranda son üç ildə istehsal olunan «Zülfüqar» tanklarının materialı keyfiyyət və dəyərinə görə məhz Azərbaycan ərazisindən göndərilən və satılan poladdan hazırlanır. Bu poladların bir qismindən

isə korroziyaya davamlı olduğu üçün İran Milli Qaz Şirkətinə məxsus boru-prokat zavodları istifadə edib, ildə 500 ton brom istehsal edən Urmiya Brom Zavodundakı dəzgah və qurğuların bir qismi Bakıdan göndərilib. Həmin dəzgah və qurğuların üzərində «Azərbaycan-Bakı» sözləri yazılıb. Eləcə də Təbrizdə tikilən kimya kombinatının texniki avadanlığı, strateji materialları Sumqayıt şəhərindəki sənaye müəssisələrindən daşınır. Təbrizdəki kimya kombinatı istifadəyə verildikdən sonra 136 min ton etilen, 56 min ton propilen və digər sənaye məhsulları istehsal ediləcək.

Araşdırmalarımıza görə, son beş ildə İranda Azərbaycan ərazisindən daşınan strateji məhsulların hesabına Nəmqanda, Ərakda, Rəştdə üç zavod qurulub, Urmiyada, Zəncanda, Kərəcdə, Tehranda dörd yüngül sənaye müəssisəsi tikilib, Ərdəbildə, Əhərdə iki karamel fabriki quraşdırılıb. 1992-1993-cü illərdə isə Lerikdən İmişliyədək (Naxçıvan da daxil olmaqla) sərhəd kəndlərindəki məktəb və klubların, inzibati binaların tikintisi üçün ayrılmış 275 ton tikinti materialları, 193 müxtəlif markalı yük və minik avtomobilləri, 223 ədəd motosiklet və 316 ədəd velosiped İran ərazisində hərraca qoyuldu. 1994-cü ildən 2001-ci ilədək cənub bölgəsinin şərabçılıqla məşğul olan rayonlarının ərazilərindən təkcə Tehran ətrafındakı alüminium zavoduna 18 min ton alüminium ötürülüb.

## TERROR YUVASI: ORBELİ QARDAŞLARI KÜÇƏSİ 22

2001-ci il noyabrın 14-də Yerevan vaxtilə saat 12:30 dəqiqədə Ermənistan MEA-nın üçüncü mərtəbəsində (Orbeli qardaşları küçəsi 22) «Taliban» hökumətinin Əfqanıstandan kənarda fəaliyyət göstərən qanunvericilik orqanı üzvlərinin - deputatlarının bir qrupunun iştirakı ilə qeyri-leqal yığıncağı keçirildi. Maliyyə xərclərini isə iş adamı, Yerevanda dərman fabriki tikən Məhəmməd Nəbinin investisiya qoyduğu «Yerevan» Bankı çəkdi. «Taliban»çı deputatların 12-si iclasda iştirak edirdi (İran, Məşhəd radiosu, 15 noyabr 2001-ci il).

Ermənistan Nazirlər Kabinetinin 2001-ci il martın 19-da rəsmi sənədlərində «Taliban» kimi qeydə alman bu fabrikin adına «Əfqan fabriki» də deyirlər. Digər bir məlumata görə, Məhəmməd Nəbi Tehrandakı «Şəhid Bağıri» sənaye kompleksinə də 410 milyon dollar yatırım qoyub.

Yerevanın şərqində salınmış bu fabrikə İranda iş adamlarının koordinasiya mərkəzi kimi tanınan «Pirimyan qrupu»nun xəttilə Çin istehsalı olan 80 ton pestisid daşınıb. Bu zəhərli materialdan dərman preparatlarının hazırlanmasında Ermənistan Toksikoloji İnstitutunun alimləri, mikrobioloqları yardımçı olublar. Onların bir qismi ilə fabrikdə artıq müqavilə də imzalanıb. Əfqan taciklərindən olan Məhəmməd Nəbi investisiyalarından bir qismini «Razdanmaş» Sənaye Kompleksinə qoyub. Razdan şəhərində bununla bağlı saziş də imzalanıb (21

sentyabr 2001-ci il).

Ermənistanın dövlət büdcəsinə daxil olan gəlirin 23 faizi narkobiznes qaçaqmalçılığından, 11 faizi isə işğal olunmuş Qarabağ ərazisində qeyri-qanuni işlər aparan və nəzarətdən kənar yaşayış məntəqələrində təşkilatlanmış terrorçu dəstələrin silah və nüvə texnologiyası alverindən gəlir. Bu məlumatı Rusiyanın keçmiş baş prokuroru Yuri Sukratova silah alveri ilə məşğul olan və buna görə vaxtilə sorğu-suala tutulan iş adamı Aleksandr Prokopenko yazıb (Y.Sukratovun A.Prokopenkonun işi ilə bağlı verdiyi müsahibə: «Советская Россия» qəzeti, 11 dekabr 2000-ci il). Bilavasitə qaçaqmalçılıq məsələləri ilə məşğul olan «RRR» - erməni-rus iş adamlarının birgə firması (A.Prokopenko+M.Risahyan) ilk mərkəz idi ki, özünün strateji araşdırma bölməsi vardı və bu bölmədə bilavasitə nüvə texnologiyası ilə, Kvant fizikası, riyazi hesablamalarla məşğul olan 13 alim çalışırdı. Bu gün həmin bölmə öz BQ-nı Xankəndi ərazisindəki hərbi hissələrin birində - motoatıcı alayın içərisində yerləşdirməyə müvəffəq olub.

Araşdırmalarımız zamanı Ermənistana, eləcə də erməni terrorçular tərəfindən işğala məruz qalmış və nəticədə nəzarətdən çıxmış zonaya çevrilmiş Qarabağa daşınan nüvə texnologiyasının, eləcə də raket sənayesində istifadəsi zəruri sayılan materialların, hərbi sursatların marşrutlarını da əldə etdik:

- Kamenka (RF-Penza) - Gümrü (Ermənistan) - Xankəndi (DQ) («AN-124» təyyarəsi. 23 iyun 2000-ci il);
- Mozdok (RF) - Yerevan (Ermənistan) - Xankəndi (DQ) («İl-76» təyyarəsi. 14 mart 2001-ci il);
- Novorossiysk - Batumi (General «Ryabikov» gəmisilə) («AN-12» təyyarəsi. 1 iyul 2001-ci il);
- Aktubinsk (RF) («Jasmin» təyyarə meydanı) - Yerevan («Zvartnos» təyyarə meydanı) («11-76» təyyarəsi, 3 fevral 2001-ci il).

## NÜVƏ BAŞLIQLI RAKETLƏR ERMƏNİSTANDA

«Jasmin» təyyarə meydanına silah və nüvə texnologiyası materialları Omskdan, Volqoqraddan, İrkutsk və Sverdlovskdan, Permdən, Dubnadan, Arxangelskdən, Sankt-Peterburqdan daşınır. 2002-ci il fevralın 14-nə olan məlumata görə, «Jasmin» təyyarə meydanı ərazisində «Şəhid Bağıri» hərbi-sənaye qrupunun nümayəndələri «Jasmin+Dovşantəpə» adlı müştərək şirkət yaradıblar. Məlumata görə, İranın nüvə proqramında diqqəti cəlb edən «Şahab», «Yer-Yer» raketlərinin hazırlanmasında və smaq uçuşlarında bu şirkət xüsusi strateji əhəmiyyət kəsb edir.

Araşdırmalarımıza görə, Rusiya Federasiyası özünün nüvə texnologiyasının ən sərfəli bazarını Ermənistan ərazisində və işğal olunmuş Qarabağın yaşayış məntəqələrində tapıb. Məsələn, 2001-ci ilin birinci yarısına qədər pərakəndə təşkil

olunmuş bu iş 2001-ci il dekabrın 15-dən etibarən çox planlı surətdə quruldu. Çünki həmin gün Moskvada Kremlin «xüsusi göstərişi ilə» «Suxoy» Hərbi-Sənaye Kompleksinin yeni Direktorlar Şurası seçildi. Doqquz nəfərdən ibarət olan bu Şuraya və sənaye kompleksinə Mixail Poqosyan adlı bir nəfər də daxil edildi. Xatırladaq ki, «Suxoy» Hərbi-Sənaye Kompleksi dünyada məşhur olan və tanınan nüfuzlu strateji mərkəzdir və bu mərkəz nüvə texnologiyası ilə məşğul olan əsas obyektlərdən biridir. Kompleksin İqtisadiyyat İdarəsinə Anton Danilyan üzv seçilir. Başqa bir üzvü isə RF Dövlət İnvestisiya Korporasiyasmın sədri Denis Manturyan olur. Ermənilərin RF-nın raket texnologiyası ilə məşğul olan Hərbi-Sənaye Kompleksindəki mövqeləri dekorativ xarakter daşımır. Bu hərbi-sənaye kompleksindən 2002-2005-ci illərdə dünyanın bir sıra ölkələrinə (İran, İraq, Yəmən, Misir, Əlcəzair, Liviya, Çin) dəyəri 17 milyard ABŞ dolları məbləğində olan raket texnologiyası, bombardmançı və qmcı təyyarələr ixrac olunası və bu 17 milyardın başında da erməni Anton Danilyan durması planlaşdırılırdı.

Araşdırmalarımıza görə, «Suxoy» Hərbi-Sənaye Kompleksinin Novosibirsk, İrkutsk, Komsomolsk-Amur mərkəzlərində (2002-ci il aprelin 12-nə olan məlumat) artıq 31 nəfər milliyyətcə erməni olan alimi, mütəxəssisi çalışır.

Qeyd edək ki, burada «Krasnopol» adlı nüvə başlıqlı mərmi də istehsal olunur ki, bunun da 180 ədədi 2001-ci ilin mayın 26-da Ermənistana daşınıb. İyunun 21-də isə zahirən fəaliyyətini dondurmuş «Sənan» (İran) Hərbi-Sənaye Kompleksinin xətti ilə bu mərmilərdən 59-u Təbriz ətrafındakı hərbi hissələrdən birinə satılıb.

Erməni politoloqu Qayane Sarmakeşyan isə iddia edir: «Армения находится в окружении лютых врагов. Да, есть Турция и Азербайджан. И это очень серьезно. В то же время у нас есть два крупных и сильных союзника - Россия и Иран, заинтересованные в стабильной и благополучной Армении и готовые нас поддержать» («Artsax» qəzeti, 25 fevral 2002-ci il).

İranın Hərbi-Sənaye Komplekslərində, məlumata görə, 86 mütəxəssis özünə iş tapıb. Onlardan 42 nəfəri «yüksək maaş kateqoriyasında» «Sepah-e-Pastaran»a məxsus məxfi sexlərdə çalışır. Ovanes Sadaryan (fizika), Vartan Orabelyan (Kvant fizikası), Semyon Şahnazaroviç (mexanika-riyaziyyat), Qarik Avakyan (nəzəri fizika), Fərhad Simonyan (lazer fizikası) kimi raket texnologiyası ilə məşğul olan erməni alimləri «Kərəc» Hərbi-Sənaye Kompleksində (Tehrandan təqribən 45 km aralı) çalışırlar.

Ermənistan ərazisində və eləcə də işğal olunmuş Qarabağ yaşayış məntəqələrində fəaliyyət göstərən «Arşavir», «Yak-Maq Metaliz», «Vartanoyl», «Razdan-maş», «Adamand» Şirkətləri bilavasitə nüvə texnologiyası materialları, raket-kosmos sənayesində istifadə olunan strateji, qiymətli metalların və avadanlığın, eləcə də «Uran-238» və plutoniumun üçüncü dövlətlərə ötürülməsində «qara bazar» qismində tanınırlar. Bu şirkətlərdən hər birinin Rusiyanın, Belorasun,

Ukraynanın, Moldovanın, Braziliyanın, Pakistanın, Çin Xalq Respublikasının, İranın, İraqın və Cənubi Koreyanın nüvə tədqiqatları mərkəzləri, fizika institutları, kompüter və elektron avadanlıqları istehsal edən müəssisələrlə, telekommunikasiya mərkəzləri ilə ayrı-ayrılıqda əlaqələri var. Məsələn, «Adamand» Şirkəti (Avakyan+Baqdasaryan+Akopyan üçlüyünün şirkəti) RF-nın Lebedev adına Fizika İnstitutunun Samara filialı ilə (şəxsən professor V.lqoşinlə. Ünvan: Samara, Novo-Sadovaya küçəsi 221), Belorusun Atom Molekulyar Fizika İnstitutu ilə (şəxsən pr. A.Voynoviçin qrupu ilə. Ünvan: Minsk prospekti F.Skorin küçəsi 70), Sankt-Peterburqdakı Lazer Fizikası İnstitutu ilə (şəxsən dr. N.Qryaznovla. Ünvan: Birjevaya liniya 12) bilavasitə işgüzar əlaqələr yaratmağa müvəffəq olub.

«Adamand» Şirkəti Ermənistan SQ üçün hərbi sursatın və NATO standartlarına uyğun ərzağın alınmasında iştirak edir. Faktiki olaraq, şirkət rəsmi sənədlərdə ölkəyə elektron avadanlıqlarının daşınmasında, alqı-satqısında fəaliyyət göstərən şirkət kimi qeyd olunur. Digər bir məlumata görə, bu şirkət Ermənistan Maliyyə və İqtisadiyyat İdarəsinin rəisi Aşot Yeqizaryana məxsusdur.

«Razdanmaş» Şirkətində raketlərin uçuş mexanizmləri üzərində elmi-tədqiqatlar aparan xüsusi laboratoriya var. Bu laboratoriyada da Ermənistanın Yerevan Fizika İnstitutunun (MEA) nüvə məsələləri ilə məşğul olan Şərabyan, Oqancan-yan, Stepanyan kimi alimləri çalışır. 2001-ci il dekabrın 14-də Rusiya Federasiyasının mexanika-riyaziyyat sahəsində tanınmış akademiki, kosmik və müdafiə məsələləri üzrə tədqiqatçı Vladimir Mixayloviç Titovun və eləcə də kosmik informasiyaları araşdırmaqda, raket əleyhinə müdafiə qurğularının hazırlanmasında aktiv olan professor İqor Konstantinoviç Xaylovun «Razdanmaş»a bir günlük səfərləri də maraq doğurmaya bilmir. Ermənistan Təhlükəsizlik Şurasının 2001-ci il dekabrın 17-də keçirilən iclasında «Razdanmaş»ın ərazisi, onun qorunması və təhlükəsizliyinin təmin olunması haqqında məsələ müzakirə edildi.

2001-ci il dekabrın 26-da isə «Razdanmaş» Şirkəti İranın «Dorion-Dizelz İran» (Təbriz) dizel motorları yığan, 2003-2004-cü illərdə gələcəkdə beynəlxalq standartlara cavab verən mühərriklərin istehsalma başlayacaq sənaye müəssisəsi ilə müqavilə imzaladı. Azərbaycanın işğal olunmuş ərazisində - Xankəndidə qüvvəyə minmiş bu müqaviləyə, nə qədər qəribə də görünsə, İran tərəfdən Tehran erməni yeparxiyasının Artsaxla (Xankəndi) İqtisadi-Siyasi Əlaqələr Komissiyasının sədri Miqran Pirimyan, Tehrandakı Erməni Biznesmenləri İttifaqının rəhbəri Norayr Şahnazaryan və iqtisadçı Anuşavan Danilyan imza atdılar (Bu arada Yerevanda «Vartanoyl» Şirkətinin Almaniyanın Xanau şəhərciyində fəaliyyət göstərən (cənub istiqamətində, Frankfurt-Mayndan 30 km aralı yerləşir) «Simens» Konserni ilə əlaqələrindən söhbət gedirdi. Xanau şəhəri alman mətbuat səhifələrində «Atom və nüvə tullantıları şəhəri» adlanır. «Simens» Konserni məxfilik və təhlükəsizlik prinsipləri ilə fəaliyyət göstərir. Burada yüksək yanacaqlı uran elementinin, nüvə

enerjisi üçün plutoniumun, mühərriklərinin və digər nüvə texnologiyasının hazırlanmasında strateji tədqiqatlar aparılır.

Araşdırmalarımıza görə, 2002-ci il yanvarın 11-dən «Vartanoyl» şirkətinin məsul işçilərindən olan Serqo Tumanyan Xanau şəhərciyində «Simens» Konserninin rəhbərləri ilə görüşür. Yanvarın 14-də isə erməni S.Tumanyan Bremendə «Oyrokot» Rusiya-Almaniya Birgə Şirkətində olur. Nəticədə 2002-ci il yanvarın 23-də «Simens» konserninin əməkdaşları Xankəndiyə gəlirlər. Almanlar konsernin ərazidə filialının açılması məsələsi ilə bağlı söhbətləri yarımçıq saxlayırlar. Çünki ərazi nəzarətsiz zona olduğundan açılacaq filialın təhlükəsizliyinə heç kəs zəmanət verə bilmədi.

2002-ci il martın 9-da isə Ermənistanın aparıcı şirkətlərindən olan «Yak-Maq Metaliz» Şirkəti Moldovanın «Renat» Şirkəti ilə Yerevanda əməkdaşlıq haqqında müştərək müqavilə imzaladı. «Simens»dən fərqli olaraq, «Renat» Şirkəti Xankəndidə və Laçında özünün filiallarını açmağı qərara alır. Buna qədər «Renat» Şirkəti 2002-ci il fevralın 21-də kürdlərin Tambov vilayətində təşkil etdikləri «Ayntav» - Regional İctimai-Siyasi Təşkilatın eyni adlı şirkəti ilə müqavilə imzalayır. Şirkət 1997-ci il iyulun 22-də Rusiya Ədliyyə Nazirliyində qeydiyyatdan keçib.

Rumıniyada çap olunan «Evenimentul ziley» qəzetində çıxış edən rus zabiti, polkovnik Viktor Buta qeyd edir ki, «Renat» Şirkəti 1999-2000-ci illərdə Əfqanıstana - «taliban»çılara «İl-18» təyyarəsi ilə silah daşımaqla məşğul olub (17 mart 2002-ci il, səh. 2).

«Renat» şirkəti həmçinin Moldovadakı T.Şevçenko adına Universitetin fizika-riyaziyyat fakültəsinin (Tiraspol şəhəri, Oktyabr küçəsi 128) professoru P.Hacı ilə də sıx əlaqələr saxlayır və onun elmi-tədqiqat laboratoriyası şirkətin maliyyə vəsaiti hesabına fəaliyyət göstərir. Professor P.Hacı, məlumata görə, 2001-ci ilin oktyabr-noyabr aylarında Əhvazdakı (İran) «Daneşgah-e Şəhid Cəməran» Fizika-Riyaziyyat İnstitutunda nəzəri və nüvə fizikası ilə bağlı yığıncaqların iştirakçısı olub.

2002-ci il aprelin 2-dən etibarən Rusiyanın «NELK», «MOSKOM», «AO-TERNA SB» Şirkətlərinin Ermənistanda və işğal olunmuş Dağlıq Qarabağ ərazisində (Xankəndidə, Zəngilanda) filiallarının açılması və strateji əhəmiyyəti olan bu işin 2003-cü ilin sonunadək genişləndirilməsi qərara alınıb. Məlumata görə, «NELK» Şirkəti:

a) informasiyadan təhlükəsizlik sistemi (süni peyklərdə, bombardmançı təyyarələrdə) qurur;

b) kosmosdan strateji obyektlərin məxfi çəkilişini həyata keçirən qurğuların hazırlanması işi ilə məşğul olur;

c) raket texnologiyasında idarəetmə mexanizmini yaradır. «TERNA-SB» Şirkəti isə reaktiv təyyarələrdə kondisioner və ventilyasiya məsələləri ilə məşğul

olur.

2002-ci ilin sentyabrın 9-dan 13-dək Rusiya Federasiyası EA-nın Lazer Fizikası İnstitutunun Sibir filialı «Lazer hərbi sənayedə və elmdə» adlı Beynəlxalq Simpozium keçirib. Novosibirskdə akademiya şəhərciyində keçirilən bu VII Beynəlxalq Simpoziumda iştirak etmək üçün Moldova, Ermənistan, İran, Livan, Çin, Belorus, Ukrayna alimləri dəvət alıb. Yerevanın dəvəti ilə bu simpoziumda İran, Livan, Çin alimləri iştirak ediblər. Çünki nüvə və lazer texnologiyasındakı bu strateji əlaqələr Ermənistanın milli təhlükəsizlik konsepsiyasının tərkib hissəsi olaraq qalır.

## CİNAYƏTKAR «VAHAN OVANESYAN+31» DƏSTƏSİ

«Vahan Ovanesyan + 31» qrupu isə 1995-ci ilin iyulunda ifşa olundu. O da «Daşnaksütyun» Partiyasının üzvlərindən ibarət idi, hesabında iki milis əməkdaşının qətlə yetirilməsi dayanır, gizli mənzillərində böyük silah anbarı aşkar edilmişdir. Saxlanılmaya cəhd zamanı onun bəzi üzvləri müxtəlif atıcı silahlardan, o cümlədən dəzgahlı pulemyotdan istifadə etməklə quduzcasına müqavimət göstərdilər. Qrup üzvləri məhkəmə qarşısında dayandılar və məhkum edildilər. Lakin dövlətin qəbul etdiyi tədbirlərin lazımi informasiya təminatı ucbatından bir çox respublika vətəndaşları bunu siyasi rəqiblərin təqibi kimi qiymətləndirdilər. Yeri gəlmişkən, baş naziri və parlament spikerini güllələyən beş terrorçudan dördü (o cümlədən də Unanyan) elə həmin «Daşnaksütyun» Partiyasının müxtəlif illərdə üzvləri olmuşdur.

Siyasi mübarizə sistemi kimi terror və zorakılıq Ermənistanda 1996-cı il 21 sentyabrda növbəti prezident seçkiləri zamanı qəti olaraq möhkəmləndi.

Ekstremizm və zorakılıq ölkənin siyasi həyatının ayrılmaz atributuna çevrildi. «Məxməri İnqilabdan» sonra prezident vəzifəsini icra edən (fevral 1998), baş nazir Robet Koçaryanın ilk Fərmanı ilə «Daşnaksütyun»un lideri Qrant Markarkyan («Dro» işi üzrə uzun müddətə həbs edilən) və Vahan Ovanesyan («Vahan Ovenasyan + 31» işi üzrə məhkum edilən) həbsxanadan azad edildilər. Hər iki xadimin buraxılması barədəki Fərmanın xülasəsi ən təcrübəli hüquqşünasları belə təəccübləndirdi: «siyasi şəraitin dəyişməsi ilə əlaqədar». Bunun arxasınca hətta formal olaraq belə qətimkan tədbirlərinin dəyişdirilməsi, vaxtından qabaq azad etmə və ya işin xətm edilməsi barədə məhkəmə qərarı olmadı. İctimaiyyət bu biabırçı qanun pozuntunu və terrorçulara mane olmamanı da «həzm etdi». Elə buna görə də bu terrorçular ölkənin siyasi isteblişmentinin hissələrinə çevrildilər. Nə olsun? Ölkədə yenidən qətllər dalğası yüksəlməyə başladı. Bir il ərzində respublikanın Baş prokuroru, müdafiə və daxili işlər nazirlərinin müavinləri qətlə yetirildi. 27 oktyabr 1999-cu ildə parlamentdə qırğın təşkil edildi. 2000-ci ilin martında «Dağlıq Qarabağ Respublikasının» separatçı

lideri Arkadi Qukasyana sui-qəsd törədildi. Onun avtomobilini güllələrlə deşik-deşik etdilər, o özü yaralandı və möcüzə sayəsində sağ qaldı.

Nümunə yoluxucu oldu. Tələbə, həmçinin, ədalətsizliyə qarşı etiraz edərək öz həmkurslarını girov götürür. Belə nümunələrin sayı çoxdur (Bax: Əlavə olaraq «Центральная Азия и Кафказ». İsveç, 2002, № 23, səh. 177-179).

Araşdırmalarımıza görə, ermənilər tərəfindən işğal olunmuş və bu gün nəzarətsiz qalan Dağlıq Qarabağın yaşayış məntəqələrində gedən ictimai-siyasi proseslər sürətlə bir-birini əvəz edir. Heç bir diplomatik danışıq, diplomatik güc və yaxud siyasi məsləhətləşmələr bu regionda tarazlıq yaratmaq iqtidarında deyil. Çünki arzuolunan şans və məqamlardakı ümid, ümid olaraq qalır. 2002-ci il aprelin 19-dan 21-dək Xankəndidə «Şaumyansız on il» adlı bir konfrans keçirilir (Şaumyan deyəndə, ermənilər indiki Goranboy ərazisini nəzərdə tuturlar). Bu konfransa İrandan, Rusiyadan, Livandan, Suriyadan, ABŞ-dan, Fransadan «Böyük Ermənistan» ideoloqları təşrif gətirir.

Araşdırma materiallarında bu da qeyd olunur ki, Liviyada, İordaniyada və Suriyada Ermənistanı «Şeytan dərəsi» kimi tanıyıblar. Məsələn, Suriyalı yazıçı, diplomat Yusif Cəfər «Getdiyim, gördüyüm yerlər» kitabında qeyd edir ki, Sovetlər Birliyindəki «Şeytan dərəsi» haqqında eşitmişdim. «Şeytan dərəsi» - Ermənistan ərazisi idi. Suriyaya qayıtdıqdan sonra «Şeytan dərəsi» haqqında, oradakı ermənilər haqqında istədim yazı hazırlayım. Amma qoymadılar. Dedilər ki, bu, mümkün deyil. Onlar bizim qardaşlarımızdır. Mən isə onlara dedim: - Mən Suriyalı Yusif Cəfər özümə belə qardaş istəmirəm. Bu mümkün olan məsələ deyil.

Məntiqə görə, Ermənistanın Azərbaycanla bağlı strateji-hərbi planı hələ bitməyib. Çünki tərəflər arasında aparılan söhbət və görüşlər, diplomatik bağlaşma və yazılışmalar millətin tədricən qəhrəmanlığı bir yana, sayıqlığını da əlindən alır.

Artıq adlarını qeyd etdiyimiz və bilavasitə Ermənistan ərazisində və Qarabağın işğal olunmuş məntəqələrində nüvə texnologiyası sahəsində üçüncü dövlət üçün bazar rolunu oynayan şirkətlərin təhlükəsizliklərini tam təmin etmək üçün ayrı-ayrı terrorçu qrup və dəstələr görünməkdədir. Bu dəstələrin bir qismi 1992-1994-cü illər arasında Qarabağ ərazisində törədilmiş cinayətlərdə yerli ermənilərlə əlbir olub. Məsələn, «Qayıdan qəhrəmanlar» terrorçu təşkilatına nəzər salaq. 1993-cü il iyulun 23-də Ağdamın (1094 kv.km) işğalında iştirak edən bu dəstəyə Beyrut ermənisi Orlik Andrianoviç Ter-Qriqoryants başçılıq edir.

**Qısa arayış:** 1962-ci ildə Beyrutda anadan olub. 1992-ci il mayın l-dən Dağlıq Qarabağda terror aktlarında istirak edib. İxtisasca həkim olan Orlik 17 nəfərlik muzdlu dəstə ilə Şuşada vuruşub və Şuşa həbsxanasında olan dörd azərbaycanlını qətlə yetirib. Digər bir məlumata görə, Orlikin başçılıq etdiyi bu dəstə 1992-ci il sentyabrın 12-də Ermənistan Ədliyyə Nazirliyində qeydə alınıb, özü də xeyriyyəçi təşkilat kimi.

Maliyyə mənbələri:

a) Narkotik maddələrin qaçaqmalçılıq yolu ilə alınıb daşınmasından əldə olunan gəlir;

b) Qarabağ ərazisindən nüvə texnologiyasının üçüncü dövlətə ötürülməsindən gələn gəlir.

Təşkilatın Baş Qərargahı Livandadır. 1993-cü il aprelin 9-dan etibarən «Qayıdan qəhrəmanlar» təşkilatı Kəlbəcər rayonunun (1936 kv.km. ərazi). Başlıbel yaşayış ərazisində fəaliyyət göstərirdi. 2002-ci il yanvarın 10-dan etibarən bu təşkilat həm Başlıbeldə, həm də Şuşanın Xəlfəli kəndində öz ofisini açdı («Zartunk» qəzeti, 13 iyul 1994-cü il. Beyrut, «Ramqavar». Erməni partiyasının qəzeti, səh. 2. «Orlikin dəstəsi qayıtdı», müəl. O.Allahverdiyan).

Ermənistan Ədliyyə Nazirliyində 2001-ci il iyunun 17-də qeydiyyatdan keçmiş «Milli Dirçəliş Təşkilatı» da (Yunanıstan) 1992-1993-cü illərdə Laçın və Kəlbəcərin işğalında fəal olub. Gerbi, himni və nizamnaməsi qanla yoğurulmuş bu təşkilatın rəhbəri milliyyətcə erməni olan, snayperçi Elvira Qalustyan adlı bir qadındır. İxtisasca uşaq həkimi olan bu qadın Qarabağda ilk amputasiya otağının təşkilatçısı olub (Kəlbəcər). Xocalı faciəsində altı nəfərlə iştirak etmiş «Elviranın qrupu» uşaqların öldürülməsində və yandırılmasında iştirak edib. Bu qadının vəzifələrindən biri də Qarabağ ərazisindən çəkdiyi kadrları ərəb ölkələrində, Kipr və Yunanıstanda «erməni millətinin faciəsi» kimi yayıb, nümayiş etdirməkdir. Bu təşkilatın özünəməxsus təlim-məşq zonası var. Onlar burada terror aktlarının yerinə yetirilməsi, təşkili və bu istiqamətdə informasiyaların toplanması, «Həmzə» deyilən dərs proqramlarının icrası qaydalarını öyrənirlər («Hücum» qəzeti, 8 aprel 2001-ci il, səh. 2).

Bu da aydın olub ki, Qarabağda zahirən sakitlikdir. Həqiqətdə bu nəzarətsiz zonaya bəlkə də hər gün yeni-yeni şirkətlər, dəstə və qruplar ayaq açır. Daha dəqiq desək, ermənilər tərəfindən işğal olunmuş ərazilərimiz artıq beynəlxalq terrorizmin yuvalarından biridir.

Suriyada özəli qoyulmuş «Qaflan» kürd separatçı təşkilatının liderlərindən olan Cəmil Bank (kapitan) və «ASALA» erməni terror təşkilatının bir qolu olan «Qara qartalın Akopu» adlı dəstənin 9 nəfərlik üzvü mayın 12-də Yerevana, oradan da Sisiyan rayonuna gəlir. Mayın 14-də isə onlar Laçın ərazisinə yaxın olan Xnatsak erməni kəndində məşvərət keçirirlər. Məşvərətdə Rusiya tərəfindən Baş Kəşfiyyat İdarəsinin altı nəfərlik qrupu (başçı polkovnik Aleksandr İvanoviç Aleksandrov), Yerevan MN-nin məsul eksperti, 1980-86-cı illərdə Azərbaycanın sərhəd qoşunlarında xidmət etmiş Arkadi Aqayan iştirak edirdi. Həmin gecə Xnatsakdan Malıbəyli və Caqazur (Laçın ərazisi) kəndlərinə ilk silahlı erməni dəstəsi girdi. Mayın 15-də isə həm Laçında, həm də Şuşada «Qaflan» kürd separatçı təşkilatın özəyi yarandı. Bütün bu bir neçə günlük mənzərəni müşayiət edən tarixçi Serj Orduyan (Ermənistan Tarix İnstitutu) «Köhnə tarixi təzələyənlər» adlı 58 səhifəlik kitabçasında yazır: «Biz Şuşaya qayıtdıq. Şuşa da yenidən

doğuldu. Əsgərləri saxlamaq olmurdu. Onlar türklərdən qalma nə vardısa, söküb-tökür, dağıdıb yandırırdılar. Bu, onların haqqı idi. Qızmış, vətən və torpaq həsrəti ilə sifətləri yanmış əsgərlərin qabağını almaq çətin idi. Amma mənim əsgər qardaşlarım düz edirdilər. Türklərə Şuşanı unutdurmaq zamanı çatmışdı» (S.Q.Orduyan: «Köhnə tarixi təzələyənlər» kitabı. 1996-cı il, səh. 19).

Məlumata görə, Şuşa həbsxanasında 1992-ci il mayın 11 -də 197 nəfər əsir alınmış azərbaycanlı var idi. Bu rəqəm 1992-ci il mayın 14-də Tehran radiosunun məlumatında 197 nəfərdən 83-ə enmişdi. Qalan 114 nəfər haqqında məlumat verilmirdi.

1992-ci il mayın 13-də isə İsfahanda erməni icmasının iclas salonunda fars mənşəli Yadigarinin Şuşadan çəkib gətirdiyi sənədli kadrlar nümayiş etdirildi. Həmin kadrlarda müxtəlif üsullarla öldürülmüş 114 azərbaycanlının taleyindən danışılırdı. Mayın 14-də Tehran rəsmiləri həmin kadrları göstərməyi qadağan edir. Mayın 14-də Tehran vaxtı ilə saat 22:00-da rejissor Yadigari həmin sənədli (18 dəqiqəlik lenti) kadrları Rusiyanın İrandakı səfiri Vladimir Qudevə satır («Keyhan» qəzeti, «Müsahibə» yazısı. 1992, № 214, səh. 6).

Yadigari bunu da qeyd edir ki, Şuşanın qərbindəki Xəlfəli yaşayış məntəqəsində «gördüklərimdən sarsıldım». Rejissor Yadigari yazır: «Mən bütün bunlar haqqında, ermənilərin - Şuşada gəzib-dolaşan, öldürülmüş adamları təhqir edən ermənilərin və rusların «Lur» İnformasiya Agentliyinə danışdım.

Onlar isə öz işlərində idilər. Ölüləri soymaqla, onlara işgəncələr verməklə məşğul idilər. Mən qərara aldım ki, Şuşa haqqında çəkdiyimi heç olmazsa, Türkiyəyə ötürə bilim».

1993-cü il aprelin 19-da «Keyhan» qəzetinin 8-ci səhifəsində belə bir məlumat verilir ki, 37 yaşlı Əhməd Baqir Yadigari adlı cavan rejissor avtomobil qəzasında həlak olub. Rusiyanın Tehrandakı səfiri Vladimir Qudevun Yadigaridən aldığı 18 dəqiqəlik sənədli lent isə XİN-nə, oradan da Baş Kəşfiyyat İdarəsinin arxivinə verilir.

1992-ci il mayın 16-da «Keyhan» qəzetində və «Sinema» jurnalında erməni icmasının liderlərindən olan Vartan Vartanyan mərhum Yadigari ilə bağlı elan verir. Göstərilir ki, erməni icması Dağlıq Qarabağda «milli azadlıq hərəkatı» ilə bağlı çəkilişlər aparan Yadigarinin bütün lentlərini almağı planlaşdırıb və Qarabağla əlaqədar ən kiçik kadra belə istənilən qiyməti, məbləği verməyə hazırdır.

## ŞUŞA İŞĞAL OLUNDU

Araşdırma materiallarında qeyd olunur ki, işğalçı və separatçı ermənilərin də arasında elələri olurdu ki, artıq özgə torpaqlarına qəsd etdiklərini etiraf edirdi. Onlar artıq Qarabağ ərazilərində - Azərbaycanın işğal olunmuş yaşayış

məntəqələrində törətdikləri cinayətlərə görə ittiham olunacaqlarından da qorxurlar. Məsələn, Helsinki Assosiasiyasının Ermənistan üzrə nümayəndəsi, hüquqşünas M.Danielyan jurnalistlərə açıqlamasında qeyd edir: «если формирования национальной армии Армении располагаются, а следовательно, контролируют территорию другого государства, то это - оккупация. Другого слова пока нет. И, как гражданин Армении, я обязан первым говорить об этом». Erməni hüquqşünası M.Danielyan daha sonra qeyd edir: «возьмите Всеобщую декларацию прав человека - по всем тридцати статьям права человека в Армении нарушаются. Самое главное - в Армении не действует Конституция. Она и не может действовать, так как гарант Конституции президент Армении (Роберт Кочарян - Р.Н.), не легитимен. На время «назначения» на этот пост, то есть последнее 10 лет, он не являлся гражданином Армении» (Bax: «Эхо», Азербайджан, 1 марта 2001, № 24).

1992-ci il mayın 17-də 4-cü rus ordusunun zabitlərindən olan kəşfiyyat polkovnikləri Valeri Aleksandroviç Kozlov və Valeri Yeqoroviç Malinov isə «Tayms» qəzetində (ABŞ) ermənilərin işğalçılıq siyasətlərinə haqq qazandıran məqalə ilə çıxış edirlər. Ondan üç gün sonra qəzetin 4-cü səhifəsində V.Kozlovla V.Malinov «Qaflan» kürd separatçı təşkilatın üzvləri arasında təsvir olunur. Mayın 22-də Zarıslıda (Şuşa) «Qaflan»çılarla «Qara qartalın Akopu» adlı separatçı təşkilatların müştərək müqaviləsi imzalanır («Şuşa» qəzeti. 1995-ci il, rus variantı. № 16, səh. 2).

Dağlıq Qarabağda Azərbaycan ərazilərinə qarşı kürd-erməni terrorçu dəstələrin ilk «Vahid Cəbhəsi»nin təməli belə qoyuldu.

Şuşanın işğalı düşünülmüş bir planın acı sonu idi. Bu planın əsası Fransanın Leon şəhərində qoyulmuşdu. Bədnam yazıçı Zori Balayan 1994-cü ildə Fransanın «Antenna III» telekanalına verdiyi müsahibədə bunu etiraf edir. «Proqress» («Le Progress») qəzetinə verdiyi kiçik müsahibədə də deyir: «Şuşa haqqında ilk planımız 1992-ci il mayın 2-də Tehranda reallaşdı. Mayın 3-də isə artıq bilirdik ki, Şuşa yaxın bir neçə gündə bizimdir» (19 aprel 1994-cü il).

Bunu Tehranda kütləvi informasiya vasitələri də artıq bilirdilər. Məsələn, «İzvestiya» qəzeti 1992-ci il mayın 16-dakı sayında yazır: «Правительство Ирана, сообщило агентство ИРНА, заявило, что переговоры в Тегеране могут привести к окончанию трагического конфликта... Советник президента Армении Ваган Папазян назвал план Ирана конструктивным, позитивным и приемлемым».

Həmin ərəfədə Ermənistan xarici işlər nazirinin müavini Armen Navasardyan Tehranda ona verilən «Şuşada nə qədər adam həlak olub» sualına cavabda bütün bunlardan xəbərsiz olduğunu bildirib. Lakin diplomat 1992-ci il mayın 18-də «Armen-Press»in Tehrandakı müxbirinə verdiyi müsahibədə açıqca etiraf edib:

«Sual: (A.Arşak) - Siz Tehranda özünüzü necə hiss edirsiniz?

Cavab: - Çox yaxşı. Mən burda çox adamlarla görüşdüm. Bizim milli azadlıq hərəkatımıza köməklik göstərən Abdulla Öcalanın qardaşı Hüseyn Öcalanla da görüşdüm. Erməni deputatlarla söhbət etdim.

Sual: - Sizin Dağlıq Qarabağda vuruşan «Qaflan»çılardan və «Akop»çulardan xəbəriniz varmı?

Cavab: - Bəli var. Onların bir hissəsi artıq mənimlə Tehrana gəlib. Bu adamlar, məsələn, kürd generalı Əbdül Aslan və erməni generalı Yefim Akopyan danışıqlarda iştirak ediblər. Şuşa ilə bağlı söhbətlərdə onlar da olublar. Burda elə bir ciddi şey görmürəm» (Tehran. «Araz» erməni qəzeti (jurnalı ilə qarışdırmamalı)).

## AZƏRBAYCANA QARŞI ERMƏNİ QADIN TERRORÇULARI

Professor Movses Horenatsi «Ermənistan tarixi» kitabında iddia edir ki, «Ara Prekrasnıy» (erməni Allahı) həmişə türk dünyasını bəlalardan xilas edib, təbii fəlakətlərdən qoruyub. Köçəri həyat sürdükləri üçün «Ararat dağının ətəklərində onlara yaşamaq hüququ verib». Movses Horenatsi daha sonra yazır: «Hər bir türkü doğulduğu gündən ölümə məhkum edin. Onların dirilməsinə imkan verməyin. Çünki dirilən türk bizim üçün fitnələr yaradıb, faciələr törədir» (Yerevan. 1990, səh. 85).

Ermənistan MEA-nIN akademiki Harri Sarkisyan isə ermənilərə xatırladır: «Bilin və agah olun. Dünyaya gələn hər bir erməni balası anlamalıdır ki, onun düşməni kimdir, dostu kim. Mən istəməzdim ki, övladlarımız hər gələnin üzünə qapı açsın. Erməni balası beşikdə ikən dərk etməlidir ki, o, nə üçün doğulub, kimin üçün yaşayacaq. Bunun üçün hər bir erməni anası yenicə doğulan uşağının qulağına Böyük Tiqranın və «Müqəddəs Ara»nın nəsihətlərini oxumalı, ona dua suyu içirməlidir» (O.Adamyan. Moskva. «Вестник древней истории», 1984-cü il. səh. 46).

Yazıçı Silva Kaputikyan isə məsələni bir qədər konkretləşdirir: «Hayк bilməlidir ki, (Allahı sevən ermənilər) ailəsində dünyaya göz açan erməni yaşamaq üçün yox, öncə erməni millətinə kömək üçün doğulub. Buna görə yeni doğulan erməni uşağının qulağına bərkdən, lap bərkdən demək lazımdır: «Ey, Aram sənin düşmənin türkdür. Allahdan qabaq vətəndir. Vətəndən qabaq kilsədir. Kilsədən qabaq Böyük Tiqrandır. Böyük Tiqrandan qabaq «Böyük Ermənistandır». (S.Kaputikyan «İlk dəfə» Oçerklər kitabı. MEA-nın iclasındakı çıxış. 1988-ci il. Yerevan, rus və erməni dillərində nəşr olunub, səh. 46).

Bədnam yazıçı öz sələflərinə bunu da məsləhət bilir ki, imkan düşdükcə türkü, xüsusən onun azərbaycanlı qanadını» vurub sındırın. «Onları ifşa edin. Onlara qarşı üsyan edin. Hər bir azərbaycanlıya qarşı vuruşmamız «Dövlət

Proqramı» çərçivəsində aparılmalıdır» (səh. 76). Yazıçının bu tezisləri üzərində işləmək üçün professor S.A.Akopyanın səkkiz nəfərlik qrupu yaradıldı. Qrupa respublikanın tanınmış simaları daxil edildi.

1991-ci il dekabrın 29-da Ermənistanın təhlükəsizlik və strateji məsələlər üzrə konsepsiyasının ilkin variantı prezident L.Ter-Petrosyana təqdim olundu.

1992-ci il fevralın 16-da Yerevanda keçirilən Təhlükəsizlik Şurasının iclasında milli maraqlar naminə hazırlanmış bu sənədə əlavələr edildi. Baş Qərargahı Yerevanda yerləşən «Milli Azadlıq Hərəkatının liderlərindən olan O.Şahnazaryan və Q.Markarov (yan) həmin sənədi yeni bir adla çap etdirib yaydılar. 1500 nüsxə ilə çap olunmuş bu kitabça belə adlandırıldı: «Azərbaycan millətinə qarşı erməni millətinin «ekoloji proqramı» (Yerevan. Q.Markarov. 1994).

Sənəd 1992-ci il mayın 21-də Parisin məşhur «Kontinental» hotelində akademik A.Aqabekyanın başçılığı ilə erməni icmasının üzvləri tərəfindən müzakirə edildi və akademik-iqtisadçının əlavələrindən sonra çap olundu. Beləliklə, Azərbaycana qarşı ekoloji hücumun başlanğıcı qoyuldu.

Ekoloji proqramın «A214-1» bölməsi. Mahiyyəti məxfi saxlanılan bu proqramda əsasən iki məsələ formalaşmışdı:

1. Azərbaycan ərazisində kişilərin sinir sistemini iflic edən preparatların yayılması;
2. Azərbaycanın orta və ali təhsil sistemində təhsil alan qızların və hamilə qadınların gen kodlarının araşdırılması;
3. Azərbaycanda artımın kütləvi azalması yönümündə işlərin qurulması.

## SAĞALMAZ XƏSTƏLİKLƏR

Azərbaycanın mənəvi saflığına, zəngin təbiətinə qarşı yönəlmiş bu proqram kortəbii proqram deyildi. Bu proqramın reallaşması üçün Yerevan özünün «Vətən» Cəmiyyəti xəttilə dünyada məskunlaşan erməni icmalarına müraciətlər etmişdi və bu müraciətlərdə «Azərbaycan» sözü ilkin variantda çıxarıldı. Nəticədə «Ermənistanın ekoloji fəlakəti»lə bağlı müraciətlərə Fransada, Kaliforniyada, Londonda, Livan və Suriyada, İran və İraqda yaşayan ermənilərdən ilkin yardımlar alındı. Məsələn, Marseldə yaşayan iş adamı, milliyyətcə erməni olan Qustav Bablumyanla Robert Safaryan 102 min ABŞ dollarının yardım çekini Yerevana göndərirlər. 1992-ci ilin son aylarında ilkin olaraq Dağlıq Qarabağ istiqamətində start götürən üç kiçik laboratoriya istifadəyə verildi. Araşdırmalarımıza görə, bu laboratoriyalardan biri (DK-3) bilavasitə pestisidin araşdırılması, laboratoriya şəraitindəki ilkin nəticələri ilə maraqlanırdı.

1992-ci il ilin martında Tehran Pekindən 500 kiloqram pestisid ahb. Mayın 26-da isə Yerevan Tehrandan 150 kiloqram təcrübə üçün pestisid alır. Müxtəlif zəhərli materialların və preparatların, qazların alınmasında bu materialdan geniş

istifadə olunur. 1995-ci il iyunun 19-da hərbi həkim, Gorusdakı kiçik elmi-tədqiqat mərkəzinin direktoru, professor K.Fazilyan Ermənistan prezidentinin adına məktubla rəsmi müraciət edir. Məktubda bildirilir ki, ərazidə artıq öyrənilməsi müşkül olan xəstəliklərin sindromları yaranıb. Məsələn, hamilə qadınlar arasında yayılmış vərəmin Azərbaycanda, onun işğal edilmiş ərazilərində yeni formaları, sindromları əmələ gəlib. Təkcə Füzuli, Cəbrayıl rayonlarında vərəmin dörd növü aşkarlandı («Pediani» qəzeti. Cavatexiya, 1995-ci il, № 19, səh. 4). İlk təcrübələr əsir alınmış azərbaycanlı qadınlar üzərində aparılırdı. Hər şey ölçülüb-biçildiyindən erməni alimləri ciddi nəticələr əldə edirdilər. Gorusdakı kimyəvi batalyonun bir qismi işğal olunmuş Cəbrayıl rayon ərazisinə köçürüldü. Məqsəd bu zonadan Ağcabədi, Beyləqan istiqamətində ekoloji müharibənin ilkin planlarını reallaşdırmaq idi. 2001-ci il avqustun 9-da Ermənistan Səhiyyə Nazirliyi regiondakı sağalmaz xəstəliklərə tutulmuş şəxslərin taleyi ilə bağlı yeni layihə irəli sürür. Ərazidən vərəmə tutulmuş xəstələrin bir qisminin (təqribən 150 nəfəri ağır vəziyyətdə) Dağlıq Qarabağın cənub-şərq hissəsinə köçürülməsi təklifi irəli sürülür. Nəticədə «Şəfa» layihəsinə əsasən, 2001-ci il sentyabrın 14-də işğal olunmuş Güney Xırman yaşayış məntəqəsindəki ikimərtəbəli xəstəxanaya 115 nəfər vərəmə tutulmuş şəxs göndərilir. Yer çatışmadığından xəstələr əlavə yarımçıq tikililərdə yerləşdirilir. Əraziyə işləmək üçün İran İslam Respublikasından həkim mütəxəssis qrupu da göndərilir. Yerevanda işlənmiş bu layihəyə əsasən, regionda QİÇS xəstəliyinə tutulmuş şəxslərin də Ağdamın Əli Mədətli kəndinə göndərilməsi planlaşdırılır. Artıq bu bəlaya tutulmuş 25 erməni qadını əraziyə gətirilib. Digər bir məlumatda deyilir ki, vərəmdən ölənlər üçün kənddə qəbiristanlıq sahəsi də ayrılıb. 2001-ci il sentyabrın 30-da Yerevanda səhiyyənin problemləri ilə əlaqədar keçirilən müşavirəyə dəvət edilən Xankəndidəki səhiyyə problemləri ilə bağlı layihələr hazırlayan qeyri-dövlət qurumunun eksperti həkim-professor Ararat Yekunyan çıxışında xatırladır: «Zonaya göndərilmiş xəstələrin taleyi qaranlıqdır. Xankəndinin elə bir maliyyə imkanı yoxdur. Ölüm halları artır. Xocavəndin cənubu ölüm zonası kimi diqqəti cəlb edir» («Artsax» (Xankəndi) tele-kanalı. Oktyabr 2001-ci il).

Müşavirədən sonra Ermənistan hərbi-kəşfiyyat xidmətinin bölmə və şöbələrində regionun ekoloji durumu nəzarətə götürüldü. Təhlükəsizlik xidmətinin kapitanı Albert Boldasaryanın səyi ilə «Dairə» adlı ekoloji kəşfiyyat layihəsi işlənildi. Əslində Yerevanın Azərbaycanın ekoloji durumuna yönəlmiş «Dairə» planı kimyaçı-alim Karapet Kasaxyanın adı ilə bağlıdır. Təhlükəsizlik xidmətinin kapitanı, bir tərəfdən, yeni planlar cızır, digər tərəfdən də, «ekoloji terrorçuların» hazırlanması məsələsini irəli sürürdü.

Məlumata görə, kimyaçı alim Karapet Kasaxyan 1971-ci ilədək ABŞ-da. sonralar isə Livanda yaşayıb. 1976-cı ildə isə o Beyrutdan Yerevana gəlib. Alim ilk illər Yerevandakı «Natri» Kauçuk Sənaye Mərkəzində işləyib. AES-lə bağlı xüsusi

tədqiqatlar aparıb. Lakin Qarabağın işğalından sonra K.Kasaxyan iş prinsiplərini dəyişdi. Tamam başqa bir istiqamətdə işləməyi üstün tutdu. İlk dəfə Ermənistan ərazisindəki zəhər «seli»ni Azərbaycan istiqamətinə yönəldən proqram və rəsmi sənəd də onun adı ilə bağlıdır. Yəni, «Dairə» layihəsinin müəllifi də o idi. İşğal olunmuş ərazilərdə erməni alimlərinin təcrübə-sınaq otaqları (Laçın, Qubadlı, Kəlbəcər) yaradıldı. Aparılan elmi-tədqiqatların bir qolunu Azərbaycan ərazisindən sərhəd kəndlərinin kütləvi zəhərlənməsi təşkil edirdi. Ermənistan hərbi kəşfiyyatında sirr kimi saxlanılan «ERRI-BAL» adlı zəhərli maddənin bir qisminin kimyəvi silah kimi işlədilməsi qərara alındı. Bu kimyəvi silah toz halında olaraq, xüsusi elektron qurğuları vasitəsilə Qarabağ ərazisindən, eləcə də Naxçıvana yaxın olan yaşayış məntəqələrindən Azərbaycanın digər regionlarına ötürülür. İlkin araşdırmalara görə, təbiətə və insana güclü təsir edən, bir sıra xəstəliklərin yaranmasına səbəb olan bu kimyəvi silahın təsir dairəsi 5 km-dən 75 km məsafəyədək bir ərazini tutur. Ermənistanın bu istiqamətdə apardığı elmi işlərin nəticəsi ciddi məsələlərdən xəbər verir. Yerevanda çap olunan «İdeal» tibb bülleteninin - 1994-cü il tarixli 6-cı sayında belə bir qeyd var: «Ermənistan özünün hərbi-potensial gücünü qoruyub saxlamaq, onu artırmaq üçün xeyli iş görür, Məsələn, ilkin olaraq - Beyləqan - Ağcabədi ərazisində keçirilən sınaq təcrübəsindən sonra ciddi nəticələr əldə etdik».

Kəşfiyyat kollektivi Saat Alekseyeviç Kasparyanın imzaladığı bu sənəddə nəticələr açıqlanmır. Amma sənəddə adları qeyd olunan rayonlardakı ekoloji və mənəvi-psixoloji duruma nəzər saldıqca mənzərə aydınlaşır və məlum olur ki, erməni alimlərinin 1994-cü ildə Beyləqan-Ağcabədi istiqamətində keçirdikləri sınaq təcrübələrinin nəticəsində Beyləqan rayonunun sərhədə yaxın Qəhrəmanlı və Şahsevəndə kəndlərində uşaq ölümü 3,5 dəfə artıb. Ağcabədi rayonunun Arazban və Kürdlər kəndlərində də bu məsələ ilə bağlı nəticələr bizi düşündürməyə bilməz.

## İŞĞAL DAVAM EDİR

Ermənistan Təhlükəsizlik Xidmətinin bu istiqamətdə xüsusi qrupu hələ 1990-cı ildən ərazilərimizdə fəaliyyətdədir. Bilavasitə «Ermənistan Milli Azadlıq Hərəkatı» adlı terrorçu qrupun nəzdində fəaliyyət göstərən qadın və qızlardan ibarət dəstə ilkin olaraq, Qarabağ ərazisində fəaliyyətə başlayıb. Məsələn, 1991-ci il dekabrın 22-dən 23-nə keçən gecə, saat 22-də Laçın rayonun Qarıqışlaq kəndində bağların və meşələrin partladılıb yandırılmasında «Yevangiley» qrupu. 14 erməninin birləşdiyi bu qadın terrorçu qrupunun fəaliyyət dairəsi 1992-ci ilin mayından başlayaraq genişləndi. Yurd yerlərinin dağıdılmasında, meşələrin yandırılmasında, qadın və uşaqların sorğu-sualsız öldürülməsində bu qrupun üzvləri xüsusi qəddarlıq göstəriblər.

Araşdırmalarımıza görə, «Yevangiley» adı ilə çağırılan Yevangiley

Abramovna Vaskanyan 1962-ci ildə Əsgəranda doğulub. Uşaq həkimi işləyən Yevangiley 1989-cu il mayın 19-da Gorus rayonunda yaradılmış «İntiqam» qrupunun üzvü olub. Torpaqların nəzarətsiz qalmasından, sərhədlərin başlı-başına buraxılmasından istifadə edən «İntiqam» terrorçu qrupunun iki üzvü Bakıyadək gəlib, Ali Sovetin foyesində və eləcə də MN-nin BQ-da məsul şəxslərlə görüşlər keçirib. Erməni qadını Yevangiley Abramovnanın «Армянский вестник» qəzetinin 15 iyul 1999-cu il tarixli sayındakı qeydlərinə görə, hər yerdə onu azərbaycanlı kimi qəbul ediblər. «Bu zaman, mən istədiyim planlan asanlıqla həyata keçirirdim».

«İntiqam»çı erməni qadın bunu da iddia edir ki, o, 1992-ci il mayın 4-də Tehranda olub.

Azərbaycana qarşı Ermənistanın «Ekoloji proqramı» bu gün də qüvvədə qalır. Çünki bu proqramın tezisləri sonadək yerinə yetirilməyib. Rusiyada yaşayan erməni politoloqu Qriqori Qriqoryantsın dediyi kimi: «Ermənilər Azərbaycan istiqamətində bütün strateji proqramlarını son maddəsinədək reallaşdırmağı bacarmalıdırlar. Azərbaycana qarşı heç nəyi yarımçıq saxlamaq olmaz».

Erməni killer-terrorçu qadınların siyahısına baxaq:

- Laura (Arnold) Gevorkovna Lalayan (1962-?)
- İrina Andreyevna Kasparyan (1960-?)
- Rozanna Sayavuşovna Kapilyan (1964-1996)
- Yevangiley Abramovna Vaskanyan (1962-?)
- Laluya Abramovna Çinaryan (1967-?)
- Susanna-Qarik Sitaryants (1966-?)
- Aramik Baxtovna Əmiryan (1968-?)
- Berta Danilovna Danilyan (1963-?)

Laura Gevorkovna Lalayan 1962-ci ildə Sumqayıtda anadan olub. Şəhər Mənzil İstismar İdarəsində pasport qeydiyyatı şöbəsində işləyib. 1989-cu ildə Yerevana köçüb. 1990-cı ildə Yerevanda müxalifətin çap etdiyi «Krunk» bülletenində (6-cı və 8-ci nömrələrində) Sumqayıt şəhərində yaşayan ermənilərin siyahısını dərc etdirib. 1993-cü ildən Ermənistan MN-nin hərbi-kəşfiyyat xidmətində çalışıb. 1992-ci il mayın 1-dən 10-dək Şuşa istiqamətində gedən döyüşlərdə əsir götürülən qadın və uşaqların dindirilməsində iştirak edib.

Şuşanın alınmasında erməni qadınlarından təşkil etdiyi və öz adı ilə «Laura» adlandırdığı qisasçı-terror dəstəsinin başçısı olub. Daşaltıda erməni qoşun birləşmələrinin təşkil etdiyi «Tiqran» əməliyyatlarında iştirak edib. 1993-cü ilin mart, aprel aylarında Amerikada çap olunan «Con Berçi» təşkilatının aylıq «American Oninion» - («Amerika fikri») adlı faşist təmayüllü jurnalında onun haqqında yazılar dərc olunub. Materiallardan bu da aydın olur ki, Laura Gevorkovna Şuşadan (1992-ci il) əsir götürülən 19 uşağın taleyinə son qoyub. Qəddarlığı ilə seçilən Lauranın öz məktəbi və Şuşanın qərb hissəsindəki Xəlfəli

yaşayış məntəqəsində xüsusi amputasiya otağı olub.

Amputasiya otağına qədər uşaqlar aşağıdakı «prosedura»nı keçməli olurdular:

- Ermənistan himnini dinləmək.
- «Mənim arzum» şerinin Azərbaycan variantını söyləmək (şerin müəllifi erməni şairi Aleks Ohanesyan idi);
- Xaça səcdə və «əzabkeş erməni xalqına» dua etmək. Onu Allaha tapşırmaq. Roma Papasının Dağlıq Qarabağla əlaqədar «Allaha yaxın olan Avraam» duasını oxumaq (duanı Roma Papası ilk dəfə 1991-ci ilin avqustunda «Vatikanın səsi» radiosu vasitəsilə yayıb).

Bundan sonra Laura ata-analarını itirmiş, didərgin düşmüş uşaqların bir qismini Yerevandakı hərbi hospitala göndərirdi. Erməni terrorçu qadmı Lauranın əməllərindən, həyatının «qəhrəmanlıq səhifələri»ndən bəhs edən Suriya jurnalisti Ömər Səid Fərrahın «Laura-taleyindən küsən qız» adlı kitabı da 1996-cı ildə Dəməşqdə «Əl-Vəhda» nəşriyyatında 1000 nüsxə ilə çap olundu (ərəb, rus və erməni dillərində. Redaktorlar: O.Solomonov (rus), S.Ohanyan (erməni)).

Müəllif Ömər Səid üstüörtülü də olsa, anlatmağa çalışır ki, bu amansız və qəddar, analıq şərəfini və hissini itirmiş qadın uşaqlarla vəhşi «rəftarından həzz alırdı. O, cəld və çevik idi. Bir göz qırpımında istəyinə çatırdı». Nə qədər təəccüblü də olsa, Ömər Səid öz yazısında həqiqi müşahidələrini gizlədir, terrorçu-qadının istəyini açıqlamır. Lakin araşdırmalarımızın nəticəsi olaraq 1995-ci ildə elə Şuşada «Krunk» şöbəsinin 16 səhifəlik «Национальный справочник» adlı bülletenində Laura Gevorkovna Lalayanın pərdəarxası əməyi şərh olunur. Bülletenin 9-cu səhifəsində dərc olunan «Героическая мысль» yazısında müəllif R.Babacanyan yazır: «Bu igid erməni qızı öz əməlləri ilə düşmənə qarşı barışmazlığa çağırır. Laura erməni milli azadlıq hərəkatında türk dünyasına qarşı, Azərbaycana qarşı açılan yeni cəbhənin banisidir». 1992-ci ildə isə Moskvadakı 1110 və 1888 nömrəli erməni məktəblərində «Lauranın Şuşa döyüşləri» adlı fotoalbomları nümayiş etdirilir. Başqa bir məlumatda isə göstərilir ki, Laura Şuşa əməliyyatlarında əsir götürdüyü uşaqlarla bağlı Fransa həkimləri ilə, Parisdəki Nekker adına xəstəxananın cərrahları ilə sıx əlaqədə olub. «Героическая мысль» bütün bunlara toxunsa da, hər şeyi qapalı saxlamağı lazım bilir.

Rozanna Sayavuşovna Kapilyan 1964-cü ildə Gəncədə «Poçtavoy» deyilən məhəllədə anadan olub. 1983-cü ildən 1986-cıilədək dəmiryol xəstəxanasının doğum şöbəsində tibb bacısı işləyib. 1985-ci il iyulun 21-də «Kommunist Kirovabada» qəzeti «Новорождение потом беда» adlı yazıda (müəllif: Q. Əsgərov) məlumat verir ki, dəmiryol xəstəxanasının doğum şöbəsində yeni doğulan uşaqlar arasında ölüm halları çoxdur. Səhiyyə Nazirliyinin Kollegiyasında bu məsələ müzakirə edilmiş, həkim S.Avakyana, O.Potopovaya, D.Şahnazarovaya, F.Ambarsumovaya töhmət elan olunmuşdur.

1989-cu ildə Rozanna Kapilyan ermənilər yaşayan Leninkəndə (Başkənd) köçür. 1989-cu ilin sentyabrında isə o, Ermənistanın Vardenis rayonuna daimi yaşamaq üçün gedir. 1991-ci il iyulun 2-də Ermənistan Milli Azadlıq Cəbhəsinin Vardenis rayon şöbəsinə yazılır və dərhal da «vətənpərvər» qızlardan ibarət snayperçi qrup təşkil edir. 1992-ci ildən isə «Ermənistan inqilab ordusu» terrorçu təşkilatına yazılır. 1992-ci il martın 22-dən etibarən təşkilatın Xankəndi özəyini yaradır. Tehranda erməni icmasının içərisində, əsasən kilsə daxilində qeyri-leqal fəaliyyət göstərən «Kerecliyan» Xeyriyyə Fondu tərəfindən 14, Ermənistan MN-nin tərəfindən isə 6 min ABŞ dolları həcmində yardım alır.

Erməni terrorçu-qadın Rozanna Kapilyanın (səkkiz nəfərlik qızlar) dəstəsi 1998-ci ildən etibarən türk dünyasının diplomatlarını öz hədəfləri elan edib. «Единственным оставшимся путем для достижения нашего Справедливого Суда является вооруженная борьба» (Bülleten. «28 may». Artsax. (Xankəndi), 4 oktyabr l998-ci il, № 6).

## KAPİLYANIN «MOSKVA DƏSTƏSİ»

Rozanna Kapilyanın Şuşanın Qarıslı yaşayış məntəqəsində 1995-ci il avqustun 21-dən fəaliyyətə başlayan «Döyüşçülər üçün kurslar» adlı terrorçu dəstəsi bu gün də öz çirkin əməllərini davam etdirir. Məlumata görə, 1995-ci il sentyabrın 19-da Rozanna Kapilyan Şamil Basayevlə görüşüb. Bu vaxt ona çeçenlərin döyüş və mübarizə metodlarından bəhs edən materiallar, o cümlədən 1994-cü ildə çap olunan «Mübarizə metodları», «Taliban» döyüşlərində çeçen sindromu», «Xəlifə», «Qafqaz» adlı kitablar hədiyyə edilir.

Əldə etdiyimiz məlumata görə, 2001-ci ilin noyabrında erməni-terrorçuların işğal etdikləri Qarabağ ərazisindəki qoşun birləşmələrində Əmir Xəttabın (Çeçenistan) «Döyüşmək və öldürmək üçün mücahidin 12 üsulu» kitabı geniş yayılıb. Kitab 1999-cu ildə Mahaçqaladakı «Qafqaz» nəşriyyatında erməni, çeçen, avar və kürd dillərində çap edilib.

Rozanna Kapilyanın 1997-ci ildə Pyatiqorskda keçirilən terror aktlarında çeçen terrorçu qadınları Dadaşova və Teymosxanovayla yaxın əlaqələri olub. Armavir partlayışlarında bilavasitə iştirak edib. Amma müəmmalı səbəblərə görə, Rusiya təhlükəsizlik xidməti Rozanna Kapilyanın admı istintaq materiallarından çıxardı.

Terrorçu erməni qadını Rozanna Kapilyanın Ermənistanın Vayk rayonunda yaradılmış «Розовый платок» qrupu (şübhəsiz Rozanna qrupu) Naxçıvan istiqamətində «Xatun» adlı erməni-kürd birgə təxribat planlarının reallaşmasında fəallıq göstərir. Moskvada nəşr olunan «Армянский вестник» bülletenində (2001, 9 noyabr, № 24) qeyd edilir ki, «Розовый платок» qrupu üzvlərinin hamısı «milli vətənpərvərlik hissləri ilə» başqalarına nümunə olaraq qalır.

Məlumatlara görə, Rozanna Kapilyanın «Moskva dəstəsi» yaranıb və bunun da üzvləri əsasən Rusiyada təhsil alan və sonra işsiz-gücsüz qalan erməni qızlarıdır. 13 nəfərlik bu dəstə 2001-ci il aprelin 14-dən etibarən Rusiyaya iş və yaxud təhsil almaq üçün getmiş azərbaycanlılar arasında özlərinin «verbovka» planları ilə məşğuldurlar. Onların bir qismi azərbaycanlılarla tanış olur, kommersiya əlaqələri yaradır, bir qismi isə ailə qurub, Azərbaycana qayıdırlar. Terrorçu Kapilyanın qrupu Moskva ərazisində çalışan azərbaycanlı ziyalılar, elm və texnika, (kiberaetika və kompüter, nüvə fizikası üzrə) mütəxəssisləri ilə əlaqələr yaradır, onlarla informasiya mübadilələri qurmağa cəhd edirlər.

Ş.X.Markaryan (müasir erməni tarixinin tədqiqatçı): «Ermənistan rəhbərliyi bütöv bir milləti - erməni millətini ölümlə qoydu. Təcili Dağlıq Qarabağdan çıxmalıyıq. O torpaq deyil, ermənilər».

(Bax: Ş.X.Markaryan. «Mən və xilaskar». Gürcüstan. Axalkalaki. 1999. s. 34).

## SEPARATÇILARIN DİNİ-EKSTREMİZM MƏRKƏZLƏRİ

«Sonasar-Baqdasar» erməni dini cəmiyyətinin Kaliforniya ştatının cənubundakı Stokton yaşayış məntəqəsindəki bürosuna başçılıq edən Karen Baqdasar Karuxen (Karen Baqdasaroviç Karaxanyan - red.) 1988-ci il aprelin 9-da Reddiq şəhərindəki «Qriqoryan»-«SAEAM» - cadugərlik məktəbini bitirərək, üzərində «AREV» yazılmış şəhadətnamə alır. 1989-cu il iyulun 2-də Yerevana, 9-da isə Xankəndinə gəlir. O, ilk günlər «Böyük Ermənistan» xülyasına qoşulub könüllü olaraq silahlı birləşmələrə yazılan gənclərin üstünə Varfolemey suyu çiləyir, onlara dua edir, «gülləbatmaz» nəğməsi ilə ovsunladığı şərbətdən içirir və xatırladır: «Böyük Ermənistan kilsədən başlayır. Müsibət onda qopacaq ki, bu kilsələri yadlar zəbt etsin». («Krua» qəzeti. Paris. 1989, № 9. «Dini icmadan missionerliyədək»).

«Sonasar-Baqdasar» erməni mifologiyasında bir neçə xətt təşkil edir. Xətlərdən biri bu idi ki, ermənilər öz qızlarını və qadınlarını zəbt etmək istədikləri ərazilərin dövlət və hökumət başçılarına, nüfuzlu məmurlara ötürərək onlan ərə verir, nəticədə bir ağaca, bir ailəyə və nəhayət, bir nəslə sahib edirdilər. Cəmiyyətin «Artsax» (Xankəndi) bürosunun təşkilatçılarından olan Laura Nalbandyan (məşhur cadugər Arab Nalbandyanın nəvəsi - müəll.) «Stokton bürosu»na məlumat verir: «Mən Karenlə fikir ayrılığına görə müstəqil yol tutdum. Mənim yardımlarımı özümə aid edin, ianələri şəxsən mənə göndərin. Öz büromu yaratdım. Nəticələrimi yazıram. 1991-ci il avqustun 4-də Kəlbəcərdə bir toyda iştirak etdim. Bu toya Bakıdan da gəlmişdilər. Vardanesin Akunk kəndində yaşayan Elulaneni Kəlbəcərdə ərə verdim. Bu, mənim gördüyüm altıncı iş idi» («Tiqranın vəsiyyətləri» bülleteni. Stokton. Oktyabr 1992, № 10, səh. 21).

Cadugər Lauranın ovsunladığı adamlardan biri, 42 yaşlı Ağalar Əmrah oğlu Dünyamalıyev 1992-ci ilin yanvar ayında Azərbaycan Daxili İşlər Nazirliyinə ünvanladığı məktubunda yazır: «Kəlbəcərdə cadugərliklə məşğul olan erməni qadınları hisslərimizlə oynayır, ağıl və fikirlərimizi dolaşdırırlar. İpə-sapa yatmayan, yola gəlməyən oğlanları, cavanları ot-ələf yandıraraq, tüstüyə verir, onları dəli və şikəst edirlər. Bir neçəsi kor olub. Bir neçəsi isə artıq dünyasını dəyişib».

Cadugərlərlə işi sistemləşdirmək üçün Ermənistan Təhlükəsizlik Komitəsinin Vardenis və Martuni rayon şöbələrində xüsusi proqramlar tərtib edildi. Məsələn, 1992-ci ildən 1999-cu ilədək Vardenis rayon şöbəsinin kəşfiyyat qrupuna başçılıq edən Spartak Markaryan «Sonasar-Baqdasar» qrupunu nəzarətə götürdü və cadugərlərin regiondakı sistemsiz işini qaydaya saldı, onlar üçün xüsusi proqramlar tərtib etdi. Proqrama görə, cadugər qadınlar öncə Kəlbəcərdə fəaliyyət dairələrini genişləndirməli, hərbi qruplarla, silahlı dəstələrlə təmaslar qurmalı, regiondakı ictimai-siyasi, hərbi durumla bağlı xəbərlər verməli, məlumatlar yığmalı idilər. Bir qrupun vəzifəsi isə hamilə qadınlarla bağlı idi. «Dadivanq andı» Proqramın əsas mahiyyəti ərazidə əhali artımının qarşısını almaqdan ibarət idi. Cadugərlər hamilə qadınların ünvanlarını araşdırır, həmin ailələrə yol tapır, övlad gözləyən analarla əlaqələr yaradırdılar. Sonda hamilə qadınların bir qismi ya doğuş zamanı övladı ilə birgə ölür, ya dəli olur, ya da vaxtından qabaq azad olurdu. Şübhəsiz, bu zaman uşaqlar ölü doğulurdu. Xankəndidəki xəstəxananın həkimlərindən Aida Nersesovna Saakyan və Arina Yerenovna Arutunyanın Bakıya respublika Səhiyyə Nazirliyinə ünvanladıqları 26-214/9 saylı (16 fevral 1992) məktublarında isə bildirilirdi: «Kəlbəcərdə doğum iki dəfə artıb. Doğulan uşaqların 70,5 faizinin çəkisi normadan artıqdır. Heç bir xəstəlik müşahidə edilməyib. Ölüm hallan 1,5 dəfə azalıb».

1992-ci il aprelin 16-da isə Fransanın «Antenn-3» dövlət telekanalının adı ilə Kəlbəcərdə doğuş zamanı ölən qadın və uşaqlar lentə almır. Kadrlar iyulun 9-da ekrana çıxarılır. Həmin ayın 21-də Los-Ancelesdə çap olunan «Los-Angeles Times» qəzetində «Dünya ekranları» bölümündə şərh olunur.

Araşdırmalarımıza görə, 1990-1992-ci illər ərzində Kəlbəcər rayonunda 43 oğlan uşağı şikəst edilib.

Şikəstlik əlamətləri:

- Görmə qabiliyyətinin itməsi (çəpgözlük);
- Danışma qabiliyyətinin itməsi (nitqin pozulması);
- Əsasən sağ qolun işləməməsi, funksiyadan düşməsi;
- Bioloji sistemin pozulması (eybəcərlik);
- Ruhi xəstəlik. Huşsuzluq və ağılın itməsi («MDB çərçivəsində gördüklərim». Los-Anceles. Həkim Mayk Kolombonun hesabatı. 1999-cu il, səh. 73).

«Sonsuzluq» proqramının icraçılarından olan toksikoloq Lidiya Karapetovna Asratovanın (Asratyan) evində hazırladığı dərman preparatları öz işini görürdü. 1991-ci il noyabrın 14-də Martuni rayon epidemioloji stansiyanın həkimi Romik Rubenoviç Baqdasaryanın hazırladığı yeni dərman preparatları L.Asratyanın proqramına əlavə edilir. Məlumata görə, təkcə 1992-ci ilin iki ayı ərzində Kəlbəcər rayonunda 23 hamilə qadın erməni cadugərlərin mənəvi-psixoloji terroruna məruz qalıb. Həddi-buluğa çatan, yaşı 18-20 arası olan 19 oğlan araşdırılması mümkün olmayan bəladan vəfat edir.

Rayonun Zeylik kəndində yaşayan, yaş həddi 18-19 arasında olan qızlar arasındakı ölüm halları durmadan artır. Məsələn, kənddə 1991-ci il avqustun 14-dən 1992-ci ilin fevralınadək həmin yaş həddində olan 13 qız vəfat edir.

Rayonun Qılıclı kəndində 6, Ağcakənddə 11, Nadirxanlı kəndində 9, Ağdabanda 14 qız vəfat edir. Hamısı eyni diaqnozla: Zəhərlənmə.

Araşdırmalarımıza görə, 1990-cı ildən 1992-ci ilədək Kəlbəcər rayonunda 19 nəslin kökü kəsilib. Məsələn, Cavad Əliqulu oğlu Sadıxovun, Əmralı Baba oğlu Qulamovun, Əvəzağa Hüseyn oğlu Dadaşovun nəsli daha yoxdur. Halbuki apardığımız təqribi hesablamalara görə, Əmiralı Baba oğlu Qulamovun 76 nəfər ailə üzvü olub. Erməni kəşfiyyat idarəsinin Amerikada xüsusi cadugərlik məktəbi keçmiş qadınlarla qurduğu əlaqələr regionda mənəvi-psixoloji terrorun başlanğıcını qoydu. Erməni yazıçısı Silva Kaputikyan belə qadınları «Erməni xalqının kəşf olunmamış gülləsi» adlandırıb. O, yazırdı: «Dağlıq Qarabağda Milli Azadlıq Müharibəsini ilkin olaraq bu qadınlar başladılar. Onlar topsuz və tüfəngsiz bütöv bir kəndi işğal etmək gücünə malik idilər» («Qara kağız». S.Kaputikyan. Yerevan. 1996-cı il, səh. 29).

## UŞAQ OĞURLUĞU

Ermənistanın Sisiyan yaşayış məntəqəsində isə rayon kəşfiyyat bölməsi bu işi Müdafiə Nazirliyinin Hərbi Kəşfiyyat İdarəsi ilə birgə planlaşdırdı. Regionda az-yaşlı uşaqların oğurluğu və alqı-satqısı ilə məşğul olan «Müqəddəs Sultan-Karapet» qrupunun üzvləri həmin ərəfədə Gorusdan Laçına gəldilər. Altı nəfərlik qrupa isə 1989-cu ildən 1992-ci ilədək Həştərxanda HDQ-də xidmət etmiş və səhhəti ilə bağlı istefaya çıxan Leon Qustavoviç Abramyan başçı təyin olunur. Təyinatın «hökmü» Fransanın Marsel şəhərində məskunlaşan «Qretta» erməni dini icmasının Baş Qərargahından gəlirdi. 1992-ci il avqustun 16-da Fransa politoloqu, Milli Elmi Araşdırmalar Mərkəzinin direktoru, professor Jül Kenel yazırdı: «Ayrı-ayrı şəhər və rayonlara səpələnmiş bu adamların, din libası geyinmiş bu keşişlərin hər sözündə məqsəd və cəhd var. Öz məqsədlərini cəhdləri üstündə quran bu adamlar daha ciddi və məxfi yerdən idarə olunur və maliyyələşdirilir» («Tədqiqat». J.Kenel. Paris. 1998-ci il, səh. 79)

1992-ci il fevralın 24-də mülkü geyimdə olan keşiş Leon Abramyan qədim erməni ailələrin nümayəndələrindən ibarət xeyriyyə mərkəzi təşkil edir. Fevralın sonunadək mərkəzin 11 nəfər üzvü olur. İlk xeyriyyə iclası sərhəd kəndi olan Cicimlidə keçirilir. Bir neçə gündən sonra mərkəzin mahiyyətini anlayan ermənilərin altısı etiraz edərək «Müqəddəs Sultan-Karapet» qrupundan çıxır. Fevralın 28-də isə Gorusdan qrupa məxsus, Yerevan kəşfiyyat xidmətində işləmiş xüsusi dəstə Laçındakı mərkəzə gəlir və martın 1-də əsasən cənub istiqamətdə səpələnir. Təşkilatın üzvləri bilavasitə aşağıdakı vəzifələri icra etməli idilər.

- Erməni böyüklüyünü təbliğ etmək;
- Yerli sakinlərdən istifadə edib onları maliyyələşdirərək şayiələrin yayılmasına nail olmaq;
- Azyaşlı oğlan uşaqlarını yığmaq və Gorusa gətirmək;
- Nəsil və ailələr arasında ədavəti qızışdırmaq.

Məlumata görə, Gorusun şimal-qərb hissəsindəki Veraşin yaşayış məntəqəsində oğurlanmış uşaqların saxlanma bürosu var idi. Veraşin bürosunu təsvir edən Livan jurnalisti Məhəmməd Salim-Müslüm yazır: «Müharibə ərəfəsində Ermənistanın Azərbaycanla sərhəd rayonlarında belə saxlama kameraları çox idi. Bir qismi boş olsa da, əsasən Gorus və Qafan ərazilərində yerləşdirilmiş belə kameraların bir neçəsində uşaqlar görürdüm. Onlarla maraqlandığımdan zonaya giriş mənə qadağan edildi. Amma gccələr uşaqların qorxulu qışqırıqlarını, səs-küyünü eşidirdim. Orada onları qorxudurdular» («Qorxulu nağıldan qorxulu həqiqətlərədək». Bcyrut. 1997-ci il. «Aş-Şərq» nəşriyyatı, səh. 104).

Bu qorxu və stress insan geninə asanlıqla təsir edib onu dəyişir və yaxud parçalayır. Bu barədə İsrail həkimlərinin də dəyərli tədqiqatları var. Məsələn, məlumata görə, Yerusəlimdəki Yəhudi İnstitutunun və Beer-Şevedəki Ben-Qurion adına Universitetin alimləri ciddi açıqlamalar veriblər. Onların fikrincə, insan orqanizmi əsəb hüceyrələrindən - neyronlardan özünə «tor qurub». Onlar baş verən hər hansı bir qıcıqlanma haqqında beyin mərkəzinə xəbər verir və beyin mərkəzindən orqanizmin bütün əzalarına bu ağn siqnalı ötürülür. Neyronların normal funksiyaları üçün orqanizmdə xüsusi ağ qan hüceyrələri olur. Nə vaxt insanın, əsasən, uşaqların gözü qarşısında hər hansı terror aktı, ölüm hadisəsi, işgəncə və əzab baş verirsə, onun genində dramatik dəyişiklik baş verir, gen zədələnir. Bu işin tədqiqatçısı, professor Xermon Sorek «ASNE» adlı geni öyrənib. Alim hansı stress və qorxunun uşaqlara təsirini göstərir və qeyd edir ki, əlavə iynələrdən sonra bu dəyişiklik əbədi olur.

Nəticəyə baxaq. Martın 10-da Laçın rayonundakı Zabu kəndindən 2, Hacılardan 3, Pircahandan 2, Əhmədlidən 3, Quşçudan 1 nəfər oğurlanır. Bu hadisənin eyni gündə baş verməsini təkcə rayon prokurorluğu bilir. Martın 15-də isə həmin uşaqlardan altısı azad olunur, daha doğrusu, ermənilər əməliyyatlarını

başa vurduqdan sonra buraxırlar. O vaxt oğurlanan və genləri şikəst edilən 7-8 yaşlı uşaqların bu gün 18-19 yaşı var. Amma bu uşaqlarda Qaçaq Nəbinin, Qaçaq Kərəmin, Cavadxanın, Şıxlinskinin, Mehmandarovun geni yoxdur.

Araşdırmalarımıza görə, xaricdən, əsasən Fransadan, Suriyadan, Livandan, Amerikadan və Rusiya Federasiyasından sərhəd zonalarına axıb gələn və bilavasitə kəşfiyyat xidməti ilə əlaqələr quran dini icmaların liderləri və ideoloqları ilə görüşən erməni həkimləri Laçından, Qubadlı və Zəngilandan oğurlanan uşaqlardan «səyyar laboratoriyalar» qururdular. Məsələn, Laçın-Qubadlı istiqamətində «Qretta» erməni dini icmasının üzvləri ilə Parisdəki Nekker adına xəstəxananın həkimləri arasında «Günəş uşaqları» adlı əməliyyat keçirildi. Rəsmi sənədlərdə bu, «xeyriyyə marafonu» kimi təqdim olunsa da, mahiyyət başqa idi.

Fransız həkimləri gələcəkdə Fransa ordusunda xidmət edə biləcək uşaqlarda irsi immunitet zəifliyinə qarşı kəllə sümüyünün köçürülməsi işi ilə ciddi məşğul olurlar. Bu, təqribən 10 illik proqram çərçivəsində həyata keçirilir. Araşdırmalarımıza görə, bu işi də bilavasitə Nekker adına xəstəxananın professoru Alen Fişerin başçılıq etdiyi qrup aparır. Əməliyyatlar əsasən, iki istiqamətdədir:

a) kəllə sümüyünün köçürülməsi (ekstremal şəraitdə);
b) ağ qan hüceyrələri əməliyyatı.

Ümumiyyətlə, erməni həkimlərinin bu eybəcər əməliyyatları yaxşı nəticələr vermirdi. MDB çərçivəsində, xüsusən Qafqazda qaçqın düşərgələrində və çadır düşərgələrində laboratoriyalarını quran, kimsəsiz və yetim uşaqlar üzərində ölümlə nəticələnən eksperimentlər aparan erməni hərbi həkimi Con Arakelyan 1994-cü ildə tələsik Ermənistanı tərk edir və 1996-cı il iyulun 14-də Vaşinqtonda həbs edilir («Tribune» qəzeti. Kaliforniya. 1996, № 26, Səh. 4).

Araşdırmalarımıza görə, 1991-92-ci illərdə Laçın rayonu ərazisində 17 nəslin kökü kəsilir. Məsələn, Abbasquliyevlərin 46 nəfər ailə üzvündən bu gün bir nəfər də sağ qalmayıb. MDB çərçivəsində, xüsusən münaqişə və yaxud müharibə zonalarında depressiyaya uğramış ailə və nəsilləri öyrənən, onun itmə və yaxud həyatdan silinmə səbəblərini araşdıran «Ətraf mühit və sağlamlıq məsələləri ilə məşğul olan hökumət institutunun» (ABŞ) bu istiqamətdə ciddi nəticələri və bu nəticələr sırasında bəlalara məruz qalan Azərbaycan, onun erməni terrorçu birləşmələri tərəfindən işğal edilmiş əraziləri də var.

İnstitutun direktoru, professor Kennet Olden 1997-ci ildə Ağ Evə ünvanlanmış hesabat sənədində xatırladır: «Ermənistanın Azərbaycan istiqamətində apardığı müharibənin nəticəsində burada təbiətlə insan arasındakı mütənasiblik pozuldu. Dağlıq Qarabağda, müharibə baş verən ərazilərdə qızıl torpaqların və nadir bitki və heyvanatın, dərman preparatları üçün çiçəklərin, kolların tələf olması ilə yanaşı böyük insan nəsillərinin də kökü kəsilib. Bu, müharibənin vurduğu ən eybəcər yaralardan biridir» («Science Digest» jurnalı. ABŞ. Dekabr 1997-ci il, səh. 14).

Araşdırmalarımıza görə, erməni cadugərlərinin və hərbi həkimlərin sərhəd zolaqlarında və işğal olunmuş ərazilərdə apardıqları «Etnik viruslar» məxfi proqramının birinci mərhələsi 1996-cı il mayın 21-də tamamlandı. Odur ki, biz itkin və əsir düşən qadm və uşaqların bir qismini Qərbin, eləcə də Şərqin erməni həkimlərinin çalışdıqları eksperimental institut və laboratoriyalarında axtarmalıyıq. Xüsusən Azərbaycan ərazisindəki etnik qruplara diqqət yönəldən erməni həkimləri, eləcə də milliyyəti bəlli olmayan təbiblər ciddi nəticələri olan araşdırmalar əldə ediblər.

1986-cı ildən 1992-ci ilədək Azərbaycanın cənub bölgəsindən, xüsusən Lənkəran (Gərmətuk, Vilvan) və Masallının (Şərəfə, Turnoba) talış kəndlərindən Qubadlının Xanlıq kəndinə dörd gəlin köçüb, 12 nəfər isə işləməyə göndərilib. Astaradan 6 nəfər Zəngilanın Mincivan yaşayış ərazisinə ərə gedib. Lerikdən iki nəfər Şuşada ailə qurub. Bu gün bu talış ailələrinin və eləcə də onlardan olan övladların heç biri sağ deyil.

Maraqlıdır, məlumatlara görə, o illərdə həmin rayonlarda və talışların sıx yaşadıqları cənub bölgəsində bu etnik qrup arasında kütləvi ölümə səbəb olacaq heç bir xəstəlik, o cümlədən qan qohumluğu xəstəliyi qeydə alınmayıb.

Azərbaycandakı etnik qrupları araşdıran və tədqiq edən İran səhiyyəsinin tanınmış alimlərindən olan doktor Ağa Əli Mahmudi hələ 1968-ci ildə Rza şaha ünvanladığı hesabatında yazırdı: «Azərbaycan ərazisində sıx yaşayan talış etnik qrupunun qan qrupu düşüncələrimi alt-üst edir. Regionun Gəncə və yaxud Naxçıvan zonasında, Dağlıq Qarabağ ərazisində qohumluq əlaqələri olan şəxslərin ailə qurmaları fəsadlı nəticələr verir. Bir-birilə qan qohumu olan insanların qurduqları ailələrdə dünyaya gələn uşaqların təqribən 55 faizi xəstə və yaxud şikəst olur. Bu, adi hal kimi qarşılanır. Lakin talış etnik qrupu arasında bu hal indiyədək müşahidə olunmayıb. Məsələn, Lənkəranda qohumluq əlaqələri ilə qurulan 65 talış ailəsində doğulan bütün uşaqlar sağ və salamatdırlar. Mən bütün bunlan əmiqızı ilə əmioğlu, dayıqızı ilə bibioğlu, xalaoğlu ilə xalaqızı arasında bağlanmış nigahlara şamil edirəm» (A.Ə.Mahmudi: «Etnik möcüzələr» kitabı. Tehran. 1971-ci il, səh. 86, «Keyhan» nəşriyyatı).

1998-ci il avqustun 16-dan etibarən işğal olunmuş ərazilərə dünyanın bir sıra ölkəsində məskunlaşan erməni ailələrinin yaşlı nəsli köçürüldü. Bu sırada ilk ailə 1935-ci ildən Fransada yaşayan Qabriel Ter-Qriqoryants və övladları oldu. Onlar Şuşada məskunlaşdılar. Həkim Qabriel Ter-Qriqoryants isə Laçında öz klinikasını açdı.

# QARABAĞDA VƏRƏM SİNDROMU

## Ermənistanda sağalmaz xəstəliklərə düçar olanlar işğal olunmuş ərazilərə köçürülür

2002-ci il fevralın 17-də Yerevanda səhiyyə işçilərinin müşavirəsində mikrobiologiya sahəsində ciddi araşdırmalar aparan professor Akop Arakelyan son aylar erməni nəsilləri arasında biokimyəvi və genetik xüsusiyyətlərin pozulmasının çoxalması məsələlərini açıqladı. Professorun fikrincə, erməni ailələrinin təqribən 54,3 faizində «irsi dəyişkənliyin qanunları» pozulub. Məlumata görə, 1992-1997-ci illər arasında özünün mikrobioloji elmi araşdırmalarını əsasən azərbaycanlı əsirlər üzərində quran (onun Gorus və Vardenis yaşayış məntəqələrində qapalı laboratoriyaları var) professor A.Arakelyan çıxış yolunu Ermənistan ərazisini sağalmaz xəstəliklərə tutulmuş insanlardan təmizləməkdə, ərazilərin bioloji və ekoloji depressiyalara məruz qalan hissələrini bərpa etməkdə, şikəst və əlil olan, əmək qabiliyyəti anadangəlmə olmayan şəxslər üçün ayrıca düşərgələrin yaradılmasında görür. O, məsələ ilə bağlı təkliflərini 2002-ci il fevral ayının 25-də ölkənin Təhlükəsizlik Şurasına təqdim edir və yazır: «Cənab general! Mənim bu təkliflərim gələcək erməni nəsillərinin fiziki cəhətdən sağlam, mənəvi cəhətdən zəngin, psixoloji cəhətdən möhkəm əqli və zehni cəhətdən güclü olmasına yönəlib. Proqramımı Ermənistan Milli Təhlükəsizlik Konsepsiyasının tərkib hissəsi kimi qəbul edin» (Ermənistan. MEA-nın «Xüsusi bülleteni». Yerevan. 2 mart 2002-ci il, səh. 12).

Professor A.Arakelyan martın 3-də Ermənistan MN-nə çağırılır və ondan xahiş olunur ki, irəli sürdüyü təkliflərlə bağlı xüsusi proqram hazırlasın. Professorla görüşən hərbi ekspert, kəşfiyyat polkovniki Arkadi Miqranyan bunu da xatırladır ki, proqram Ermənistanla məhdudlaşdırılmasın, Dağlıq Qarabağ ərazisi də nəzərə alınsın. Yerevanda Baş Qərargahın maliyyə yardımı ilə çap olunan «Hərbi bülleten»in (1991-ci ildən rus və erməni dillərində min nüsxə ilə nəşr edilir) 2002-ci ilin 10-cu nömrəsində belə bir elan verilir ki, MEA-nın professoru A.Arakelyan ölkənin Təhlükəsizlik Şurasına 14 səhifəlik «Xüsusi proqramı»nı təqdim edib və bu proqramın işlənməsində, həyata keçirilməsində Ermənistan SQ-nin, xüsusi xidmət orqanlarının yardımı olmalıdır.

Müzakirəyə çıxarılmış «Xüsusi proqram»ın mahiyyəti aşağıdakı kimi açıqlanırdı:

- Birinci variant: Ağır və sağalmaz xəstəliklərə tutulmuş şəxslərin əhalinin sıx yaşayan yerlərindən çıxarılmasını təmin etmək. Vərəm dispanserlərinin, onkoloji xəstəxanaların, depressiyalara, sarsıntı və stresslərə məruz qalmış, nəticədə ağıl və əmək qabiliyyətini itirmişlər üçün nəzərdə tutulan sağlamlıq

düşərgələrinin yaşayış mərkəzlərindən təqribən 200-250 km aralıdakı zonalarda yerləşdirilməsi. İlkin mərhələdə bu proses Yerevan, Razdan, Kalso, Sevan, Sisiyan yaşayış məntəqələrində aparılmalı, 2002-ci ilin mayın 10-dan 2004-cü ilədək davam etdirilməlidir.

- İkinci variant: Dağlıq Qarabağ ərazisində vərəm dispanserlərinin, onkoloji şöbələrin, digər profilaktik mərkəzlərin, laboratoriyaların tikintisini sürətləndirmək. Həkim briqadalarının həmin ərazilərə göndərilməsini təmin etmək. Xüsusi sağlamlıq zonalarını yaratmaq. 2002-2004-cü illəri əhatə edən xüsusi proqram hazırlamaq.

Professor A.Arakelyanın «Xüsusi proqramı»na martın 14-də Müdafiə Nazirliyində əlavələr edildi. Proqram hərbi həkimlərin məsləhət və təcrübələrinin, ekspert rəylərinin nəticələri fonunda yenidən işləndi və martın 21-də aşağıdakı hərbçilərdən ibarət «işgüzar komissiya» yaradıldı.

- Araz Arustamyan (polkovnik-bioloq)
- Henri Baqdasaryan (mayor, hərbi xəstəxananın həkimi)
- Yangibar Qalustyan (MN-nin əməkdaşı, ekspert)
- Armaik Sattaryan (Toksikoloji İnstitutun əməkdaşı, professor)
- Akop Arakelyan (MEA-nın əməkdaşı, mikrobioloq, istefada olan kəşfiyyat polkovniki).

Bioloq Araz Daraqunoviç Arustamyan 1957-ci ildə Xankəndidə anadan olub. Azərbaycan dilini yaxşı bildiyindən 1983-cü ildə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsini bitirib. İki il Bakıdakı hərbi hospitalda çalışıb. Sonra həmişəlik Yerevana köçüb. İrsi dəyişkənliklə bağlı elmi araşdırmaları var.

Henri Ayvazoviç Baqdasaryan 1950-ci ildə Dəməşqdə anadan olub. Dağlıq Qarabağın işğalında könüllü erməni dəstəsində vuruşmaq üçün Yerevana gəlib. 1994-cü ildə nəşr olunan «Sisiyan qəhrəmanlan» qəzetində (1993-cü il mayın 14-dən nəşrə başlayıb, 1995-ci ilin avqustun 9-da isə çapı dayandırılıb. Cəmi 26 nömrəsi çıxıb) onu şəxsən tanıyan, Aqudi kənd məktəbinin direktoru Zorik Alaverdiyan yazır: «Eşidəndə ki, torpaqlarımızın (Qarabağ nəzərdə tutulur - red.) azadlığı uğrunda vuruşan qəhrəmanlardan biri Henri Ayvazoviçdir, sevindim. Onu şəxsən tanıyıram. Mən 1980-ci ildə Suriyada olanda Henri Ayvazoviçin vətənpərvər işinin bir daha şahidi oldum» («Sisiyan qəhrəmanları». 1994, № 19, səh. 3).

1992-ci ildə Dağlıq Qarabağda vuruşan Şahab Əl-Qasimi 1996-cı ildə Suriyada çap olunmuş «Vətənə yol» siyasi oçerklər kitabında yazır: «Dağlıq Qarabağda vuruşanların arasında tanışlarının çox idi. Henri Ayvazoviç onlardan biri kimi diqqətimi cəlb etdi. Bu adam Dəməşqdə Erməni Milli Azadlıq Hərəkatının üzvlərindən biri olub. «ASALA»-nın fəxri qovluğunda onun adı var» (Dəməşq. «Əl-Vəhda» nəşriyyatı. 1996-cı il, səh. 34).

Ekspert Yangibar Erokuloviç Qalustyan 1980-85-ci illərdə Gəncə vertolyot təmiri zavodunda mühəndis işləyib.

Araşdırmalarımıza görə, «Xüsusi proqram»da adı çəkilən Yerevan, Razdan, Kamo, Sisiyan yaşayış məntəqələrinin hər birinin, professor Akop Arakelyana görə, ciddi demoqrafik problemləri var. Onun Təhlükəsizlik Şurasına ünvanladığı hesabatda Yerevan və Sisiyan ölkədə intiharı çox olan şəhər kimi fakt və rəqəmlərlə göstərilir (30 mart 2002-ci il). Məsələn, alimə görə, 2001-ci ildə Yerevanda intiharın sayı 2000-ci ilə nisbətdə 2,5 dəfə çox olub. Yerevan ərazisində analoqu olmayan vərəm virusları aşkar edilib. Yerevanda, Kamo və Razdanda ayrıca vərəm sindromu yaranıb. Bu sindromların müalicəsi üçün hələlik heç bir preparat-vaksin aşkar edilməyib. Nəticədə 2001-ci il fevralın 25-dən etibarən Ermənistan Səhiyyə Nazirliyinin kollegiyasının qərarı ilə bu şəhərlərdə vərəm dispanserləri, təcrübə laboratoriyaları bağlanılır. Kamodakı vərəm dispanserinin Vardenis rayon ərazisinə köçürülməsi yerli əhalinin etirazına səbəb olur. Odur ki, dispanser bir neçə gündən sonra, 2001-ci il martın 2-də Vardenisdən işğal olunmuş Kəlbəcər ərazisindəki Zar yaşayış məntəqəsinə köçürülür.

Araşdırmalarımıza görə, Yerevanda əhalinin təqribən 26,7 faizi vərəmə tutulub. Təkcə bu şəhərdə QİÇS-ə yoluxanların sayı 419 nəfər təşkil edir. Hələ 2000-ci ildə ölən 21 və 2001-ci ildə dünyasını dəyişən 32 nəfəri bura daxil etmirik. Onkoloji xəstəliklərə tutulanların sayı 2000-ci ilə nisbətən 2001-ci ilin axırıncı 6 ayında 7,6 dəfə artıb. 2001-ci ilin son 4 ayı ərzində bu xəstəlikdən ölənlərin sayı 126 nəfər olub («MDB ölkələrinin paytaxt səhiyyəsi». Moskva. 2000-ci il, səh. 63-65).

«İşgüzar komissiya»nın tərkibinə salınmış toksikoloq Armaik Sattaryanın fikrincə, «Bu rəqəmlərin açılıb göstərilməsi, eləcə də xəstəxana və dispanserlərin şəhər mərkəzində olması cavan nəslə psixoloji təsir edir. Təcili olaraq, Dağlıq Qarabağdakı ərazilərimizdən səmərəli istifadə etmək lazımdır» («Erməni icması» qəzeti. Xankəndi, 2001, № 16. «Paytaxt səhiyyəsi» yazısı. Kitabın şərhi). Martın 29-da Ermənistan Səhiyyə Nazirliyi ilə Müdafiə Nazirliyi arasında proqramın reallaşdırılması üçün qarşılıqlı yardımetmə sənədi imzalanır. Səhiyyə Nazirliyinin 2002-ci il 2 aprel tarixli sifarişi ilə respublika Kartoqrafiya İnstitutunda Dağlıq Qarabağ əraziləri ilə bağlı «xüsusi səhiyyə xəritələri» çəkilir. Bu xəritələrdə salınacaq vərəm dispanserləri, qarayara və onkoloji xəstəxanalar, dəlixanalar, şikəstlər üçün sağlamlıq zonaları işarələnir.

Ermənistan Kartoqrafiya İnstitutunun buraxdığı 1000 nüsxədən ibarət xəritələr Artsax televiziya kanalında nümayiş etdirildikdən sonra aprelin 1-də həkim-psixoloq Ağacan Aravisyan qeyd edir: «Dağlıq Qarabağ ərazisində sağlamlıq mərkəzlərinin tikintisi üçün xarici ölkələrdə yaşayan qardaş və bacılarımızın yardımına ehtiyacımız var. Biz bu çağırışı etmişik. İnsanları xeyirxahlığa və xeyriyyəçiliyə öyrətmək lazımdır. Yaddan çıxarmayaq ki, nə

ediriksə, erməni xalqının, gələcək nəslin firavanlığı və inkişafı naminə edirik».

Ölüm ayağında olan xəstələrin, eybəcər doğulanların, sağalmaz xəstəliklərdən əziyyət çəkənlərin Ermənistan ərazisindən işğal altında qalan Azərbaycan torpaqlarına köçürülməsinə 2002-ci il aprelin 2-dən planlı şəkildə başlandı.

Ermənistan Səhiyyə Nazirliyində 2002-ci il martın 27-də hazırlanmış «Regionda keçici və yoluxucu xəstəliklərə qarşı mübarizə aylığı» proqramı aprelin 2-dən reallaşdı. Ermənistan Təhlükəsizlik Şurasının çıxardığı nəticəyə görə, bu proses ilkin mərhələdə kütləvi xarakter almamalı, tədricən yoluna qoyulmalıdır. Çünki bu məsələ əhali arasında həm birmənalı qarşılanmadı, həm də çaşqınlıq və narahatçılığa səbəb oldu. Hökumətin bu istiqamətdəki təbliğat proqramı zəif olduğundan hələ çox işlər görülməli idi. Fakt isə bu idi ki, işğal olunmuş torpaqlarımız ermənilər tərəfindən yenidən işğal olunurdu.

Zəngilan ərazisindəki 107 hektar qoruq (1974-cü ilin iyulun 4-də yaradılıb), demək olar ki, sıradan çıxıb. Çinar meşəliyi hissə-hissə kəsilərək İranın tikinti-sənaye komplekslərinə, mebel fabriklərinə satılıb. Məsələn, ölkənin hərbi-sənaye komplekslərində istifadəsi nəzərdə tutulan 42 hektar sahənin ağacı (söhbət çinardan gedir) xüsusi qurğulardan, kimyəvi-yuyucu məhlullardan keçirilərək toz halına salınıb. Bundan da ağır silahların, ümumən hərbi sursatların qablaşdırılmasında istifadə olunub. Araşdırmalarımızdan bu da məlum olub ki, Zəngilan qoruğunun çinarlarının yaratdığı iqlim vərəm viruslarını 19 saniyə ərzində məhv edir (bəlkə də bunun nəticəsidir ki, 1980-ci ildən 1990-cı ilədək - 10 il müddətində bu regionda vərəmə tutulanların sayı cəmi 34 nəfər olub. Məhz buna görə 1995-ci il martın 12-dən 1997-ci ilin iyulunadək Bəsitçay sahilində milliyyətcə erməni olan 89 və milliyyətcə fars olan 136 nəfər vərəmdən müalicə olunub.

## PSİXOLOJİ TERROR

Məlumata görə, Ermənistan Təhlükəsizlik Şurasında bu məsələyə strateji baxımdan, ciddi və mühüm bir məsələ kimi yanaşılıb. Birinci mərhələdə 40 nəfərdən ibarət səriştəli və təcrübəli həkim briqadası səfərbər olunub. Gorusdakı və Sisiyandakı tibb texnikumunun işsiz qalmış məzunlarından ibarət könüllü dəstələr yaradıldı. On gün müddətində hərbçilərin köməyilə Zəngilan, Cəbrayıl və Füzuli rayonlarında, eləcə də Qubadlı, Hadrud, Ağdamda dağılmış 34 ev təmir olundu.

2002-ci il aprelin 4-də Ermənistan MN-də sərhəd yaşayış məntəqəsi kimi qeyd olunan Gorus və Qafan haqqında strateji «Layihə-02» adlı operativ tədbirlər planı müzakirə edildi. Qeyd olundu ki, ilkin mərhələdə bu işə Müdafiə Nazirliyi öz hesabından 47 min ABŞ dolları sərf edib. Aprelin 5-dən etibarən Gorus, 6-dan isə Qafan çevik hərbçi qrupları Yerevandan və Sevan istiqamətindən gətirilən vərəmin

ağır formasına tutulmuş 26 xəstəni qəbul edir.

Gorus şəhər xəstəxanasının həkimi Bablumyan bunları humanist addım kimi qiymətləndirir və «Yerevanın səsi» radiosunun xarici ölkələr üçün xəbərlər bülletenində belə bir açıqlama verir: «Burda elə bir siyasət axtarmağın özü gülüncdür. Bu, Ermənistan hökuməti tərəfindən atılan ciddi humanist və müdrik addımdır. Xəstələrin səfalı zonalara köçürülməsində elə bir ciddi məqsəd yoxdur. Onların bu zonalarda daha ciddi müayinə olunub sağalma ehtimalı isə çoxdur» (2 aprel 2002-ci il. «Yerevanın səsi» radiosu. Fars bürosu.)

Ermənistan Müdafiə Nazirliyində aparılan «bölgü» aşağıdakı kimi tərtib olunur:

- Ermənistan ərazisində ağır vərəmə yoluxmuş xəstələrin Yerevanın mərkəzi şəhər xəstəxanalarından Zəngilana və rayonun Razdərə, Ördəkli kəndlərinə köçürülməsi;
- Mincivan ərazisində qəbiristanlığın salınması. Əldə etdiyimiz fakt və məlumatlardan bu da aydın olur ki, ermənilər işğal etdikləri rayonların adlarını bölgü sənədlərində olduğu kimi saxlayırlar.

İlkin məlumata görə, vərəmin ağır sindromundan son günlərini yaşayan 87 xəstə 2002-ci il aprelin 2-dən 5-dək kimi Yerevandan xüsusi hərbi vertolyotla Gorus və Qafan rayonlarına köçürülür. Oradan isə xəstələr Cəbrayıl, Füzuli rayon ərazilərinə paylanılır:

- Cəbrayıl yaşayış məntəqəsinə - Xorovlu kəndi ərazisində qəbiristanlıq sahəsi ayrılır. Onkoloji xəstələr üçün Hacılı və Minbaşılı kəndlərində əvvəlcədən nəzərdə tutulmuş yaşayış evlərində şərait yaradılır.
- Füzuli yaşayış məntəqəsinə - Üçbulaq və Cuvarlı kəndlərində əsgərlərin kiçik yaşayış evləri təcili təmir olunur. Rayon mərkəzində isə qəbiristanlıq üçün sahə ayrılır.

Bu arada Ermənistan MN-nin kəşfiyyat xidmətindən tərxis olunmuş polkovnik Arman Qalayan «Vestnik Armeniya» bülleteninə maraqlı bir açıqlama verir. O, bülletenin icmalçısı Qalina Avakyanla söhbətində göstərir ki, bu köçürmə siyasəti yeni məsələ deyil. Bu məsələ 1994-cü ildə də ortaya atılmışdı. Lakin Yerevanda böyük etiraza səbəb oldu. Digər tərəfdən, faktların bir qismi beynəlxalq təşkilatlarda, demokratik institutlarda başqa cür hallandı. Kəşfiyyat polkovniki daha sonra qeyd edir: «Bu gün isə mənzərə başqadır. Hər şey qanun çərçivəsində görülür. Zorla heç bir xəstə bir yerdən başqa yerə köçürülmür. Digər tərəfdən, Ermənistanda ehtiyac içərisində yaşayan əhalinin sayı çoxdur. Ölüm ayağında olan və sağalması mümkün olmayan xəstələr ehtiyac içərisində yaşayan ailələrə yük olaraq qalır. Artıq xəstə sahibləri dərk edirlər ki, onların, məsələn, xərçəngə mübtəla olmuş yaxını ölümlə üzbəüz dayanıb, sağalma ehtimalı yoxdur. Bütün bunları insanlar dərk edirlər. O biri tərəfdən də, Dağlıq Qarabağ ərazisindəki müalicə yerlərinə göndərilən xəstələrə əvvəlki kimi həkim nəzarəti qalır»

(Stavropol. «Vestnik Armenii» bülleteni. Aprel, 2002-ci il, № 12, səh. 6. Moskvada erməni icmasının nəşr etdirdiyi eyni adlı bülletenlə qarışdırmamalı).

Bunlar etirafdır. Bunlar Ermənistanın dövlət və hökumət səviyyəsində Azərbaycana qarşı mənəvi-psixoloji terroru idi. Qarabağda salınmış erməni ölüm düşərgələri Azərbaycanın gələcəyinə uzanmış qatil və cəllad əlləri idi.

## QARABAĞA ERMƏNİ KÖÇÜ

Yerevan məmurlarının işğal etdikləri Dağlıq Qarabağ istiqamətində köçürmə siyasəti bu günün planı deyil. Bu siyasət 1994-cü ilin fevral ayında başlayıb. 2000-ci il mayın 5-də isə Ermənistan Təhlükəsizlik Şurasında «Erməni xalqının milli təhlükəsizlik probleminə dair» sənədinin müzakirəsi zamanı səsləndi (general O.S.Baqdasaryanın çıxışından). Müzakirə zamanı bu da qeyd olundu ki, MDB çərçivəsində «sıxılan və əzilən, tənha qalan» erməni millətinə yardım üçün xaricdəki icma başçılarına, kilsə rəhbərlərinə müraciət edilsin.

Araşdırmalarımıza görə, Romadan ilk erməni ailəsi, iş adamı, «keşiş Albertinonun atası» Yeramuş Sarkisyan oğlu ilə birgə Xankəndinə gəlir (21 iyul 2002-ci N. «Stainra Sera» qəzeti, № 81, səh. 4). 2001-ci ilədək günədək Y.Sarkisyan Xankəndidə yaşayır. Onun ardınca isə 2001-ci ilin aprelində İtaliyadan 26 erməni ailəsi Dağlıq Qarabağa yaşamaq üçün yola düşür.

Əldə etdiyimiz faktlardan bu da aydın oldu ki, hələ 2000-ci il mayın 5-də keçirilmiş iclasdan sonra prezident Robert Köçəryanın imzası ilə Fransada, Amerikada (əsasən Kaliforniyada), İranda, Rusiya Federasiyasında, Argentinada, Livanda, Liviyada, Suriyada yaşayan erməni icmasının başçılarına yardım diləyən məktublar göndərilir. Həmin məktublardan biri 2000-ci il iyunun 9-da Parisdə nəşr olunan «La Vie» - («Həyat») jurnalında çap olunur (№ 28, səh. 2). Ümumiyyətlə, 1994-2001-ci illər ərzində işğal olunmuş Azərbaycan torpaqlarına xaricdən köçürülmüş və yaxud yaşamaq üçün gəlmiş ermənilərin siyahısı aşağıdakı kimidir:

**l. Fransa:**

- Paris: 3 ailə 1995-ci ildə, 21 ailə 1992-ci ildə, 19 ailə 1999-cu ildə, 33 ailə 2000-ci ildə;
- Marsel: 15 ailə 2000-ci ildə;
- Lion: 8 ailə 2000-ci ildə;

**2. Livan:**

- Beyrut: 42 ailə Ermənistana gəlib. Ondan 13 ailə Xankəndinə köçüb (1999-cu ildə).

**3. Argentina:**

- Buenos-Ayres: 5 ailə 2000-ci ildə;

**4. Amerika Birləşmiş Ştatları:**

- Nyu-Cersi: 7 ailə 1998-ci ildə;

- Vaşinqton: 4 ailə 1999-cu ildə;
- Kaliforniya: 11 ailə 1999-cu ildə, 4 ailə 2000-ci ildə;

**6. Suriya Ərəb Respublikası:**

- Dəməşq: 9 ailə 1996-cı ildə, 2 ailə 1997-ci ildə Yerevana qayıdıb.

**7. Liviya:**

- Tripoli: 16 ailə 1995-ci ildə;

**8. Sudan:**

- Xartum: 3 ailə 1999-cu ildə.

(Bulletin - «I.R.S» (Paris, 1997, № 6), «Ararat» - (Livan, 2000, № 26), «La Nacion» (Argentina, 2000, № 28), «America» - (Nyu-York, 2000, № 4), «Tishrin» - (Suriya, 2000, № 16), «Al-Fayr al-Yadid» - (Liviya, 1996, № 2), «Al-Sahafa» - (Sudan. 2000, № 12)).

Bu adamların bir qismi Yerevan rəsmiləri tərəfindən ikili vətəndaşlıq sənədləri də alıb.

Araşdırmalarımız zamanı bu da aydın oldu ki, ermənilər tərəfindən işğal olunmuş Dağlıq Qarabağ ərazisinə köçürülən bu ailələrin bir qisminin adları MKİ-nin (ABŞ), «BND»nin (Almaniya), FTX-nin (RF) sənədlərində çəkilir. Onlar terrorçu qrupların tərkibində Qarabağda baş verən (1988-1994-cü illər) terror aktlarında iştirak etmiş şəxslərdi.

Dağlıq Qarabağa 2006-cı ildə də yeni köçürmə proqramları icra edildi. İranda başlanan siyasi hərəkatdan (may-iyul) istifadə edən İran ermənilərinin bir qismi Xudafərindən Dağlıq Qarabağ ərazilərinə köçürüldü. Bu könüllü aksiya idi. Livan-İsrail münasibətlərində (2006-cı il, iyul-avqust) bu məsələ yeni mərhələyə keçirildi. Livandan 17 gün ərzində 83 ailə Dağlıq Qarabağa yaşamaq üçün gəldi.

## ETNİK TƏMİZLƏMƏ SİYASƏTİ

Beləliklə, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, etnik təmizləmə siyasəti, Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisinin 20 faizini işğal etməsi elə bir vəziyyətə gətirib çıxarmışdır ki, 8 milyonluq Azərbaycan əhalisindən 1 milyondan artıq adam qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Əhalinin ümumi sayına nisbətdə qaçqınların sayı təkcə Avropada deyil, bütün dünyada ən böyük göstəricidir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Azərbaycanda, onun yanacaq ehtiyatlarında, başlıcası isə neftində maraqları olan NATO-ya üzv ölkələrlə bir sıra müsəlman ölkələri arasında ciddi nüvə qarşıdurması var. Rusiya və Çinin müsəlman ölkələrinə «yardım»ları məsələni bir

az da ciddiləşdirir və dəyişdirir. Ruslara məxsus «SS-25» ballistik raketin Pleseçk ərazisində (Qərbi Alyaska, Kamçatka yarımadası) «Redut» kodu ilə sınaqdan çıxarılması (oktyabr 2000-ci il, sentyabr 2001-ci il) və nəticədə məlum «hədəfin dağıdılması maraqlı nəticələr verdi. Məlum oldu ki, yeni rus raketinin «hədəf» kimi dağıtdığı obyekt ABŞ-ın dekorasiyası imiş.

Əsrin əvvəlindən başlayaraq, Yer kürəsi böyük və sonu görünməyən narahatçılıq keçirir. Səbəblərdən biri kütləvi qırğın silahlarının satılması, daşınması, oğurluq yollarla qara bazara çıxarılması, terrorçu dəstələrin «strateji proqramları»na daxil olması yolunda bütün sədlərin götürülməsi və nəzarətsiz zonaların çoxalmasıdır. Araşdırmamıza görə, təkcə İsrail istiqamətində 10 müxtəlif yeni gücə malik nüvə başlıqlı raket istiqamətləndirilib. Onlardan üçünün atılma ehtimalı gündən-günə reallaşır. Radiusu 45 mildən 1700 milədək olan bu raketlərin hər birinin özünün strateji hədəfi var. Lakin radiuslar və hədəflər sabit deyil, daim dəyişir və artır.

Londondakı Beynəlxalq Strateji Araşdırmalar İnstitutunun «Müasir raket texnologiyası və XX əsrin sonu» hesabatında yazılır: «Liviyada, İranda, İraqda, Suriyada, Əfqanıstanda, Şimali Koreyada, Səudiyyə Ərəbistanında, İsraildə ciddi raket potensialı var. Liviya həm nüvə silahı, həm də kimyəvi, bakterioloji silahları ilə dünya neftində maraqları olan NATO-ya üzv ölkələri sarsıdır. Liviyanın Tərxun şəhərində (Tripolidən 35 mil aralı) kimyəvi zavod tikilir».

Araşdırmalarımız zamanı belə bir məlumat da əldə etdik ki, Fələstin ərəbləri İsrailə qarşı hərbi döyüşlərində nüvə başlıqlı silahlardan istifadə edəcəklər. RF-nın mütəxəssisləri isə İran ərazisində gücü 300 meqavat olan RLS-nin tikintisi üçün layihələrini təklif edib. Bu, İranı xarici ölkələrdən regiona atılması ehtimal olunan raketlərdən xilas edə biləcək bir addım kimi qiymətləndirilib. Digər tərəfdən, Qarabağ ərazisindən rusların və ermənilərin Azərbaycan iqtisadiyyatının infrastrukturlarına ediləcək hücumların da planlan cızılır. Azərbaycanın infrastrukturlarında, onun əsasən bank sistemlərində, hərbi mərkəzlərində neft şirkətlərində qurulmuş kompüterlərinə qarşı müharibə üçün artıq güclü bir zəmin yaranıb.

NATO-nun kəşfiyyat xidmətinin məlumatında bildirilir ki, Liviya ola bilsin, 2006-cı ildə nüvə başlıqlı, kimyəvi və bakterioloji başlıqlı ballistik raketlər istehsal etsin. İspaniya ərazisi də daxil olmaqla NATO-ya üzv ölkələrin ərazilərini götürən, radiusu 3000 km olan bu raketin (ərəblər ona «Liviya» adını qoyublar) yeni modeli hazırlanır. Liviya raketlərinin bir qismi əsasən ABŞ-ın İspaniya ərazisindəki hərbi hava qüvvələrinin bazalarına tuşlanıb. Bu raketlər Madrid altındakı Torrehondakı HHQ-nin bazasını, paytaxtdan 400 km şimaldakı Saraqose HHQ-nin bazasını və ölkənin cənub istiqamətindəki Moranedəki HDQ-nin bazasını dağıdıb sıradan çıxara bilər.

Liviya məhz NATO ölkələri istiqamətində tuşlanmış raketlərin bir qismini -

«SS-21»-i və «SKAD-V»-ni, həmçinin lazım olan nüvə avadanlıqlarını və materiallarını MDB-yə üzv ölkələrdən - Ukraynadan, Belorusdan, Ermənistandan alır (Yerevanın nümayəndə heyəti bu məqsədlə Tripolidə olub. Danışıqların əsasını isə nüvə materialları təşkil edib).

Ötən il martın 16-da Ukraynanın Liviya ilə bağlanmış nüvə müqaviləsinə əsasən Kiyev Tripoliyə 50 milyon ABŞ dolları həcmində ballistik raketlərin satılmasını təmin edəcək.

Liviya Belorusla 380 milyon dollar dəyərində müqavilə imzalayıb ki, bu da ölkənin nüvə materiallarının aşkarlanmasında, köhnə raket sistemlərini modernləşdirən qrupun hazırlanmasında, yeni uran zavodunun tikilməsində özünü göstərməlidir və bütün bunların daşınması üçün ən təhlükəsiz yol İran ərazisi seçilib. Digər tərəfdən, İran da körpü rolunu oynadığı üçün 1993-cü ildə özünün SQ-i tərəfindən layihələşdirilmiş, sınaqdan çıxarılmış «Əl-Fateh» (radiusu 95) raketlərinin də bir qisminin məhz Liviyaya satışını təmin edib (2000-ci il noyabr).

## BAKI NEFTİ VƏ MÜASİR RAKETLƏR

Xəzərdə neft mübahisələrinin qızışması, yataqlar üstündə dövlətlərarası (Aşqabad-Bakı) münasibətlərin pozulması, qarşılıqlı notaların verilməsi, müharibə hədəsi dini qurum və icmaların süni surətdə bir-birinə qarşı qoyulması. Azərbaycanın neft strategiyasına və milli təhlükəsizlik məsələlərinə zərbə vurur. Neft, Xəzərin bölünməsi uğrunda, eləcə də dini qurumların parçalanması yönümündə mübarizə aparılır. Digər tərəfdən, Xəzərin sektorlara bölünməsi nüvə texnologiyasını Azərbaycanın su və quru əraziləri istiqamətinə yönəldən Aşqabad və Tehranı təmin etmir. İran 1921-ci il müqaviləsini əsas götürərək öz siyasi gedişlərini edir. Yeni bölgüdə isə Xəzərin Azərbaycan sektoru 78 min kv km, Türkmənistan sektoru 79 min kv km, Qazaxıstan 113 min kv km, Rusiya Federasiyası 64 min kv km, İran İslam Respublikası 44 min kv km-i əhatə edir.

ABŞ-ın hərbi kəşfiyyat üzrə eksperti Robert Eynxorn hesabatına göstərir: «Rusiya İranın uzaqməsafəli raketpotensialı qazanmasında yardımçıdır. Rusiya İrana qitələrarası «SS-4» ballistik raketlərin texnologiyasını verir».

Senator Ted Kokren isə bu ünvanları bir az da konkretləşdirir: «Nüvə silahına, eləcə də ballistik raketlərə dair texnologiya Rusiyadan İrana, İraqa, Hindistana ötürülür».

Digər tərəfdən, İran Xəzər zolağında «Şəhid Hemat» sənaye qrupunun məxfi «ssenarisi» əsasında «SS-4» strateji raketlərin yeni güclü mühərriklərini sınaqdan çıxarıb. Bu zaman sənaye qrupunun əməkdaşlarına «Iranian State Industrial Aircraft Corporation» (İran Avroasiya Şirkəti Sənayesi) şirkətinin və Minskdəki nüvə problemləri ilə məşğul olan Elmi-Tədqiqat İnstitutunun nəzdindəki məxfi «İM-PATX» özəl firmasının «Silenko» qrupunun alimləri,

həmçinin nüvə texnologiyasının Qomeldən (Belorus) daşınmasını təşkil edən «Bosko» bcynəlxalq şirkətinə də (İran) başqaları yardımçı olublar.

Onu da xatırladaq ki, bu mühərriklərdən Mazandaran və Ərdəbil ərazilərində qurulması planlaşdırılan (2003-cü ilin mart ayınadək) «Şahab-4» raketlərində də istifadə edilir. İran mütəxəssisləri Türkmənistanın Xəzər sektorunda üzən hərbi gəmilərində «Gəmi əleyhinə» raketlərin istifadəsi üçün mexanizmlərin qurulması məqsədilə Aşqabada gəliblər.

«Şahab-4» raketinin döyüş başlığı 1 ton, hədəfi vurma radiusu 1250 mildir. Lakin İranın raket texnologiyası ilə məşğul olan mütəxəssisləri (Minsk və Moskva mütəxəssislərinin köməyi ilə) 2800 mildən 6300 milədək radiusa malik «Şahab-5»-in ortaya çıxmasından sonra digər bir sənaye qrupunun - «Şəhid Bağın»n texnoloqları yeni bir mühərrikin sınaqdan çıxarıldığını elan etdilər.

Bu mühərrikin hazırlanmasında, qurulmasında, sınaqdan çıxarılmasında Belorusun nüvə mütəxəssisləri yaxından iştirak ediblər (pr. O.A.Simonov, pr. D.S.Kalinin, pr. L.D.Katko, Kvant fizikası ilə məşğul olan O.N.Daşko, alim S.X.Kazaryan, S.U.Rabatoviç).

Məlumata görə, İran İslam Respublikasında RF-nin ticarətlə məşğul olan 124 irili-xırdalı şirkət və təşkilatı var. Bunun 64-ü elm-texnika sahəsini, nüvə texnologiyası əlaqələrini, alimlərin və mütəxəssislərin gediş-gəlişini təşkil etməklə məşğuldur. Bu sahədə ölkənin «Bon-Eyr» Beynəlxalq Şirkəti fəallıq göstərir.

İran Silahlı Qüvvələrinin Baş Qərargahı özünün Hərbi Hava və Hərbi Dəniz Qüvvələrində strateji dəyişikliklər etdi. Rusiya Federasiyası ilə paralel Çin Xalq Respublikası, Belorus və Ukrayna, Qazaxıstanla nüvə əlaqələrinin genişləndirilməsinə dair müqavilələr imzalandı (2000-2001-ci illər).

İran Çin istehsalı (hərbi müqavilənin dəyəri 4,5 milyard dollardır) olan «Nery» adlı yüksək sürətli katerləri Xəzər bölgəsinə çıxartdı. Əgər bu katerlərin sayı 2000-ci ildə 8 idisə, 2001-ci ilin noyabrında 16 olub. Katerlər radiusu 120 km, döyüş başlığı 700 kq olan «S-802» raketlərlə yüklənib. Katerlər istənilən vaxt neft platformalarını, sahildəki və dəniz səthindəki istənilən strateji-hərbi və mülki obyektləri sıradan çıxara bilər. İranın hərbi gəmilərinə isə Çin istehsalı olan «Silkuorm» və «Sirsakker» tipli 400 ədəd gəmivuran raketlər yükləndi. Tehran «Yer-hava» tipli «SA-6» raketlərinin sayını 1998-ci ildə 4-ə, 1999-cu ildə 12-yə, 2001 -ci ildə isə 16-ya çatdırdı. Digər tərəfdən, İranın Xəzər sularına çıxardığı «KİLO» sualtı qayıqları da (RF) kəşfiyyat işlərini asanlıqla yerinə yetirir.

## PEKİN-TEHRAN-YEREVAN-MOSKVA DÖRDLÜYÜ

İranın 2000-2008-ci illəri əhatə edən hərbi müqaviləsinin ümumi dəyəri 9 milyard ABŞ dollarıdır. Bu müqavilənin bəndlərindən biri, daha doğrusu, 8-ci maddə Moskvanın Tehrana nüvə yardımmdan (dinc məqsədlər üçün) ibarətdir. Bu

yardımı isə Moskva sərbəst sürətdə üçüncü bir ərazidən ötürür. Bu ərazi araşdırmalarımıza görə, Qarabağ və onun İranla sərhəd bölgələridir. Artıq ermənilər işğal etdikləri Azərbaycan ərazilərini ruslar üçün ötürücü zona və yaxud baza adlandırır: Bu zonada Qarabağdakı ermənilər rusların istəklərini asanlıqla yerinə yetiriblər.

Hələ də anlamaq olmur ki, Ermənistan Moskva rəsmilərindən aldığı əsəb sistemini iflic edən 280 ton preparatları, ayrı-ayrı qadağan olunmuş və sonu bilinməyən virusları eləcə də raketlərin idarə edilməsini təmin edən kompüterləri hansı məqsədlər üçün ayırıb.

Araşdırmalarımızın nəticələrindən biri budur ki, Pekin Tehrana ən müasir raketlərdən müdafiə sistemini verib. «Cey-Uay-14» adı ilə tanınan bu sistem 2001-ci ilin iyul ayında Ermənistan SQ-i üçün də quruldu. Nə qədər maraqlı da olsa, bu müdafiə sistemini Türkiyə istiqamətində quranlar elə Tehran mütəxəssisləri idi.

ABŞ diplomatı Lenn Devis xatırladır: «Bu, təhlükədir. Xəzər regionundakı neft şirkətlərindən tutmuş, ayrı-ayrı diplomatik korpuslaradək təhlükənin olduğunu hiss etməliyik».

Araşdırmalarımıza görə, Çinin Ermənistana münasibəti «Tayvan məsələsi»ndən sonra daha da şaxələndi və bu mərhələ yeni mərhələ adlandınıldı.

Rusiya, Çin və İranın Ermənistanın hərbi potensialının dəyişməsində rolu ciddi strateji addımdır. Yerevanın Beyrut «fədailəri» üçün (İsrail əleyhinə) ötürdüyü hərbi yardımların miqyası və yaxud həcmi də maraqlıdır. Beləliklə, bizə aydın olanı budur ki, Yerevan Rusiyadan İran istiqamətinə daşınan nüvə texnologiyası üçün ən yaxşı baza olmaqla yanaşı Tehrandan Beyruta ötürülən yardım və hərbi sursatın da əsas körpülərindən biridir.

Ermənistan Çinə münasibətdə «Vahid və Böyük Çin» prinsipini müdafiə etmiş, Tayvanın onun bir parçası olduğunu «tarixi haqq» adlandırmışdır.

Araşdırdığımız məlumatlardan bu da aydın olur ki, 1990-94-cü illər ərzində Azərbaycan EA-nın mikrobiologiya, fizika, yarımkeçiricilər, Kvant fizikası və neft-kimya prosesləri mərkəzlərində, elmi-tədqiqat laboratoriyalarında milliyyətcə erməni olanlar da az olmayıb. Məsələn, Fizika İnstitutunda elektrofizika və enerjinin elektrofiziki problemləri ilə məşğul olan Robert Aslanoviç Ovanesyan 1996-cıilədək Dubna nüvə mərkəzində, 1997-ci ildən isə Buşir AES-də elmi tədqiqatlarını davam etdirir. Digər bir fakt. 1992-ci ildə Riyaziyyat və Mexanika İnstitutunun əməkdaşı olmuş Sarvar Babayan Baqramoviç dissertasiya müdafiə etmiş (texnologiya sahəsində), alimlik dərəcəsini aldıqdan sonra Yerevana getmiş və indi də orada nüvə texnologiyası sahəsində işlərini davam etdirir. Halbuki həmin illərdə Neft-Kimya Prosesləri İnstitutundan, Fiziologiya İnstitutundan, Molekulyar Biologiya İnstitutundan, Kibemetika İnstitutundan müdafiəsi və yaxud elmi işləri yarımçıq qalmış, elmi axtarışlarına mane olunmuş adamlar çıxıb getmiş, yaxud müxtəlif bəhanələrlə uzaqlaşdırılmışlar. Ümumiyyətlə, Kvant fizikası,

riyaziyyat və mexanika, kibemetika ilə, yəni bilavasitə nüvə axtarışı ilə məşğul olan, bu yolda layiqli və cəsarətli, elmi düşündürən nəticələr əldə edən 28 mütəxəssis (nüvə texnologiyası ilə bilavasitə məşğul olan) Azərbaycandan gedib. Çox təəssüf ki, onlardan məlumata görə, iki nəfəri elə «Aştarak-2»-də (Fiziki Tədqiqatlar İnstitutunda) doktor S.Ter-Avetisyanın qrupunda çalışırlar.

1999-cu il iyun ayının 4-də Yerevan və Tehran təhlükəsizlik qüvvələri başçılarının görüşündə (bu görüş «Xudafərin görüşü»də adlanır) İranın «ETTELAAT» rəhbərləri öz həmkarlarından vaxtilə Azərbaycanın EA-sı sistemində, onun institutlarında (xüsusən, fizika, kimya, riyaziyyat sahəsində) çalışan milliyyətcə ermənilərin siyahısını istədilər. Elə oradaca Azərbaycanı nüvə fizikası, kibemetika, xüsusi riyazi hesablamalar aparan layihə bürolarının işi, korroziya ilə bağlı, eləcə də «Kristal» metal bürosunun son nailiyyətləri, genetika və seleksiya yönümündə qurulan işlər, kimya və mikrobiologiya ilə bağlı elmi işləri birgə müzakirə etdilər. Nəticə etibarilə bu da qərara alındı ki, Yerevan Təhlükəsizlik Xidməti bu yönümdə əlaqələri genişləndirmək üçün 2002-ci ilin ortalarınadək «Xüsusi proqram» hazırlasın.

İran xüsusi xidmət orqanlarında (Ərdəbil, Təbriz, Astara, Parsabad bölmələrində) 36 nəfər milliyyətcə erməni çalışır (bunun 11 nəfəri Hərbi-Əks Kəşfiyyat İdarələrində, 9-u «ETTELAAT»-da, 8 nəfəri Hərbi Kəşfiyyat İdarəsində, 8-i isə islami təbliğat mərkəzlərinin «məxfi informasiya və məlumat büroları»ndadır).

İranın «Dünya» adlı yeni nüvə mühərriki ilə bağlı elmi tədqiqat işləri 2001-ci ilin iyunun 16-dan ölkənin «Vilayət-e Fəşhin» (Ayətulla Xameneyinin təhlükəsizlik qüvvələrinə müraciətindən sonra) başlanıldı. Bu mühərriklə bağlı işlərin paytaxtdan təqribən 45 km aralı (şimal istiqaməti) Kərəcdəki ETM-də qurulması planlaşdırıldı. Bu sahəyə Belorusda nüvə axtarışları üzrə elmi tədqiqatlarını aparan alimlər də dəvət olundular. Nəticədə əlavə olaraq Minsk-Tehran arasında bu istiqamətdə 11 avqust 2001-ci ildə 48 milyon dollarlıq müqavilə bağlandı. Yeni nüvə mühərrikinin Uran-235-lə işləməsi də müəyyən edildi. Bu layihə hərbi məqsədlər üçün tədqiq edilirdi və gücü 40 meqavat idi. Əlavə olaraq belə ölçülmüşdü ki, bu mühərrikin sınaq müddətində, yəni işləmə saatlarında elmi-tədqiqat laboratoriyası vasitəsilə plutonium da almaq və yaxud istehsal etmək mümkün idi.

Ermənistan SQ-də 2000-ci il sentyabrın 28-də yaradılmış «Xüsusi tədqiqatlar qrupu»nun üzvləri elə həmin il avqust ayının 19-da ölkənin Təhlükəsizlik Şurasında müzakirə olunmaq üçün planlarını, daha dəqiq desək, «hərbi-strateji proqramları»nı təqdim etdilər. Proqramda təklif olunurdu ki, Yerevanın Moskva, Çin və Tehranla, Şimali Koreya və Livanla Yaxın Şərq zonasında ilk nüvə silahının tətbiqi İsrailə qarşı olacaq. Təl-Əviv bu hücumun Fələstin ərəb qruplaşmaları, «Yerusəlimin gücü» radikal islamçılar tərəfindən

olunacağından şübhə etməsin. Bununla yanaşı (Təl-Əvivin ən azı bir paytaxt kimi yaşaması üçün özünün «Strateji, milli təhlükəsizlik konsepsiyasına» yenidən baxması maraqlı olardı. Çünki İsrailə qarşı artıq 2001-ci ilin mart ayının 4-də «Beynəlxalq Vahid İslam Təhlükəsizlik Sistemi» yaradılıb - müəll.), Suriya və İraqla Braziliya ilə hərbi sahədə, eləcə də hərbi-sənaye sahəsində aparılacaq elmi araşdırmalarla bağlı yeni müqavilələr bağlamalıdır. Əgər belə mümkün olarsa, onda Yerevan nüvə potensialı və güclü hərbi arsenalı, hərtərəfli terror məktəbləri olan bu regionlara arxalanıb çox iş görər. Bunun nəticəsidir ki, bu gün Ermənistan SQ-də nüvə başlıqlı «Barret M81-A1» və «Barret M82-A1» - 50 mm kalibrli snayper silahları, kimyəvi-zəhərli tərkibli tank əleyhinə minalar (bu minalar Xocalıda sınaqdan çıxarıldı), eləcə də tərkibində bakterioloji silahlar olan dairəvi güllələr, nüvə başlıqlı artilleriya mərmiləri artıq özünə yer edib. Üstəlik 2002-ci ilin avqust ayından başlayaraq Yerevanda yeni neftayırma zavodunun tikintisi məsələsi də qaldırılıb.

Əldə etdiyimiz məlumata görə, artıq son iki ildə Qazaxıstandan, Azərbaycandan, Rusiya Federasiyasından, Belorusdan, Ukraynadan, Ermənistandan nüvə axtarışları, atom bombası sahəsində elmi tədqiqatları ilə tanınmış 60 elm adamı Hindistan, Pakistan, İraq, İran, Braziliya, Şimali Koreya və Çin tərəfindən yüksək maaşla şirnikləndirilərək, xarici dövlətlərin maraqlarına cəlb olunub.

2000-ci ilin fevralında isə Ermənistanın «Razdanmaş», İranın Elmi-Texniki Araşdırmalar Mərkəzi və İsveçrənin Cuqe şəhərindəki «Alşmeks-Asada» texnoloji avadanlıqlar alış-verişi ilə məşğul olan şirkətlər arasında müqavilə imzalandı. Burada Tehran Yerevanla 210 milyon ABŞ dollanlıq, İsveçrə Tehranla 347 milyon ABŞ dollarılıq müqavilə bağladı. Söhbət «ciddi və təhlükəli» silahların, nüvə materiallarının alqı-satqısından gedir. Bura izotopların parçalanmasında elektromaqnit qurğularının, mexanizmlərinin açılması da daxildir.

Artıq İran İslam Respublikası RF-nın və Belorus mütəxəssislərinin köməyilə Əhvazda və İsfahanda elektromaqnit separatorların qurulması istiqamətində planlarını reallaşdırır. Nəticədə İranda «2000-2010-cu illər üçün «İran İslam Respublikasının nüvə və strateji araşdırmalar» Proqramı hazırlanıb. Ermənistanda isə bu proqram belə adlanır: «Nüvə araşdırmaları istiqamətində xüsusi layihələr» (2005-2010-ci illər üçün).

L.Z.Qriqoryan (professor): «Biz ermənilər səhv etdik. Azərbaycan kimi qonşunu, həmişə ehtiram və hörmət gördüyümüz bir milləti itirdik. Bizi bir-birimizə düşmən etdilər.

Biz Dağlıq Qarabağı zəbt etməklə, onu əbədi itirdik. O torpaq bizim olmayıb. O torpaqda biz sadəcə yaşamışıq, işləmişik».

(Bax: L.Z.Qriqoryan. «Susuzluq» kitabı. Almaatı.1998. s.81)

## ERMƏNİSTANIN SİYASƏTİ VƏ CİNAYƏTİ

Xocalı faciəsi beynəlxalq cinayət olaraq Ermənistanın Azərbaycan xalqına qarşı məqsədyönlü soyqırımı siyasətinin tərkib hissəsi olaraq qalır. Bu istiqamətdə Azərbaycan Milli Elmlər Akademiyası İnsan Hüquqları İnstitutunun Ekspert Komissiyasında ciddi araşdırmalar da aparılıb. Adını qeyd etdiyimiz institutun direktoru, siyasi elmlər doktoru Rövşən Mustafayevin başçılığı ilə Ekspert Komissiyasının hazırladığı Qətnamənin mətni isə ciddi hüquqi-siyasi sənəd kimi diqqəti cəlb edib. Tarixi baxımdan həmişə canlı və yeni olan bu siyasi-hüquqi sənədi yenidən vərəqləmək, məsələlərin beynəlxalq hüquq normaları çərçivəsindən təhlilinə nəzər salmaq maraqlıdır. Çünki bu tarixi sənəd həm hüquqi, həm də siyasi baxımdan XXI əsrin və eləcə də üzümüzə gələn yeni yüz illiklərin ən qüdrətli və yadda qalan siyasi manifestidir. Qətnamədə deyilir:

- Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi dövründə Azərbaycan xalqına qarşı həyata keçirilmiş ən dəhşətli cinayətlərdən biri 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Azərbaycanın Dağlıq Qarabağ bölgəsindəki Xocalı şəhərində ermənilərin törətdiyi tarixdə insanlığa qarşı görünməmiş vəhşilikdir. Bir gecənin içində yüzlərlə günahsız insan xüsusi qəddarlıqla məhv edilib. Xocalı şəhərinin işğalının faciəli nəticələri bunlardır: 613 nəfər, o cümlədən 106 qadın və 63 uşaq qətlə yetirilib, 487 nəfər şikəst olub, 1275 adam əsir götürülüb, 150 nəfər itkin düşüb, şəhərin özü isə yerlə-yeksan edilib. Bu faciənin nəticəsində onlarca uşaq, qadın və qoca güllələnib. Ermənistanın Silahlı Qüvvələri və muzdlular bütöv ailələri məhv edib, insanları amansızcasına qətlə yetirmişlər: adamların dərisi soyulub, qulaqları kəsilib və başlarının dərisi soyulub çıxarılmışdır.

**I. Xocalı soyqırımının beynəlxalq cinayət kimi səciyyəsi.**

Soyqırımın hüquqi məzmunu BMT Baş Məclisinin 9 dekabr 1948-ci il tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul edilmiş soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya ilə müəyyən olunmuşdur və hər hansı milli, etnik, irqi, yaxud dini qrupu tam və ya qismən məhv etmək məqsədilə törədilən aşağıdakı hərəkətlərdən ibarətdir:

- bu cür qrup üzvlərinin öldürülməsi;
- belə qrup üzvlərinə ağır bədən xəsarəti, yaxud əqli pozğunluq yetirilməsi;
- hər hansı qrup üçün qəsdən onun tam, yaxud qismən fiziki məhvini nəzərdə tutan həyat şəraiti yaradılması;
- bu cür qrupda doğumun qarşısını almağa yönəldilmiş tədbirlərin görülməsi;
- uşaqların zorla bir insan qrupundan alınıb başqasına verilməsi.

Soyqırımı cinayəti üçün xüsusi niyyətin olması zəruri ünsür sayılır. Bu, soyqırımı cinayətini obyektiv cəhətinə görə oxşar beynəlxalq cinayətlərdən

fərqləndirir. Soyqırımı cinayətini təşkil edən əməllərdən hər biri öz xarakterinə görə şüurlu, bilərəkdən və iradə ilə diktə olunan əməllərdir. Həmin əməllər heç bir halda təsadüfən və ehtiyatsızlıq nəticəsində törədilə bilməz. Eyni zamanda, həmin əməlləri törətmək niyyəti və onların mümkün nəticələrinin ümumən dərk edilməsi əməlin soyqırımı kimi tövsifi üçün kifayət deyildir. Burada cinayətkarın fikrinin xüsusi istiqamətini və ya əməlin neqativ nəticələri ilə bağlı əvvəlcədən mövcud olan konkret niyyəti ortaya çıxarmaq tələb olunur.

Qabaqcadan xüsusi olaraq düzəldilmiş pusqulardan qaçıb canını qurtarmaq istəyən azərbaycanlı mülki əhalinin avtomat, pulemyot və başqa silahlardan güllə-baran edilməsi məhz soyqırımı niyyətini sübut edir.

Həmin cinayətin azərbaycanlı milli qrupuna qarşı yönəlməsi də danılmaz faktdır.

Soyqırımı cinayətini təhlil edərkən onun üç əsas ünsürünün mövcud olması aydınlaşır:

- tanınan milli, etnik, irqi və ya dini qrupun olması;
- bu cür qrupu tamamilə və ya qismən məhv etmək niyyətinin olması (mens.rea);
- tanınan qrupla bağlı soyqırımı hərəkətlərindən hər hansı birinin törədilməsi (actus reus).

Deməli, soyqırımı aktı hökmən milli, etnik, irqi və y a dini qrupa qarşı yönəlməlidir. Başqa qrupa, məsələn, siyasi və ya sosial qrupa qarşı yönələn bu cür hərəkətlər soyqırımı kimi qiymətləndirilə bilməz.

«Soyqırımı» anlayışı qadağan olunmuş əməlin ümumi nəticələrinə dair konkret niyyətin olmasını tələb edir. Soyqırımı cinayətinin tövsifedici əlaməti kimi niyyət özündə bir neçə cəhəti birləşdirir:

- niyyət, təsadüfi, bu və ya digər konkret qrupa məxsus olan bir, yaxud bir neçə şəxsin deyil, qrupun məhv edilməsindən ibarət olmalıdır. Fərdin şəxsiyyət yox, məhz müəyyən qrupa mənsubluğu soyqırımı qurbanlarını təyin etmək üçün həlledici meyardır;
- niyyət, özü-özlüyündə, başqasından fərqlənən bir qrupun məhv edilməsindən ibarət olmalıdır. Soyqırımı bütöv insan qrupunun mövcudluğu hüququnu tanımaqdan imtinadır. Adamöldürmə (hemosid) isə ayrı-ayrı insan varlıqlarının yaşamaq hüququnu tanımaqdan imtina kimi səciyyələnir. Deməli, actus reus (qadağan olunmuş əməl) bir adamla məhdudlaşa bilər, lakin mens rea (niyyət) qrupun mövcudluğu əleyhinə yönəlməlidir;
- niyyət, qrupun «tamamilə və ya qismən» məhv edilməsindən ibarət olmalıdır;
- niyyət məhz, milli, etnik, irqi və ya dini qruplardan birinin məhv edilməsindən ibarət olmalıdır.

Soyqırımı cinayətinə görə məsuliyyətin ortaya çıxması üçün müəyyən qrupun tamamilə və ya qismən məhv edilməsindən ibarət son nəticənin əldə

olunması tələb kimi qoyulmur. Bunun üçün həmin cinayətin obyektiv cəhətini təşkil edən əməllərdən hər hansı birinin müəyyən qrupun tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə törədilməsi kifayətdir.

Soyqırımı cinayətinin obyektiv cəhətinə aid olan məhvetmə anlayışı qrupun ən müxtəlif vasitələrlə cismən məhv olunmasını bildirir.

«Barcelona Traction Case» işi üzrə qərarında BMT-nin Beynəlxalq Məhkəməsi soyqırımı aktlarının qadağan olunması ilə bağlı öhdəlikləri erga omnes öhdəliklər adlandırmışdır. Beynəlxalq Məhkəmə soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiyanın əsasında duran prinsipləri beynəlxalq adət hüququnun bir hissəsi, bütün dövlətlər üçün məcburi xarakter daşıyan normalar kimi tanımışdır.

**II. Xocalı soyqırımının beynəlxalq cinayət kimi tanınması üçün əsas verən hüquqi sənədlər.**

l. BMT Baş Məclisinin 9 dekabr 1948-ci il tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul edilmiş Soyqırımı Cinayətinin Qarşısının Alınması və Cəzalandırılması Haqqında Konvensiya.

2. Nürnberq Hərbi Tribunalının Nizamnaməsi (Nizamnamədə birbaşa soyqırımı cinayəti göstərilməsə də, həmin cinayəti təşkil edən əməllər insanlıq əleyhinə cinayətlər və müharibə cinayətləri kimi nəzərdə tutulmuşdur).

3. Yuqoslaviya Beynəlxalq Cinayət Tribunalının Nizamnaməsi (mad. 4).

4. Ruanda Beynəlxalq Cinayət Tribunalının Nizamnaməsi (mad. ?????????).

5. Beynəlxalq Cinayət Məhkəməsinin Statusu (mad. 6).

6. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi (mad. 103).

7. Azərbaycan Respublikası Prezidentinin «Azərbaycanlıların soyqırımı haqqında» 26 mart 1998-ci il tarixli Fərmanı.

**III. Xocalı soyqırımının beynəlxalq hüquqi nəticələri.**

Beynəlxalq hüquq soyqırımı cinayəti ilə əlaqədar aşağıdakıları müəyyənləşdirmişdir:

l. Soyqırımı cinayəti törətmiş şəxslərin cinayət mühakiməsi və cəzalandırılması labüddür.

2. Soyqırımı cinayətinin təkcə icraçıları deyil, soyqırımı törətməyə sui-qəsd, soyqırımına birbaşa və açıq təhrikçilik, soyqırımında iştirak etmək də cinayət məsuliyyəti doğurur.

3. Soyqırımı cinayəti törətmiş şəxslərə universal yurisdiksiya prinsipi tətbiq olunmalıdır.

4. Soyqırımı cinayətini törətməkdə əmrin icrasına istinad, şəxsi cinayət məsuliyyətindən azad etmir.

5. Soyqırımı cinayətinin törədilməsinin qarşısının alınması üçün tədbir görməməyə görə rəhbər şəxs məsuliyyət daşıyır.

6. Soyqırımı cinayətlərinə cinayət məsuliyyətinə cəlbetmə müddətləri tətbiq

edilmir.

7. Soyqırımı cinayətinə görə qanunun retroaktiv tətbiqinə yol verilir.

8. Soyqırımı cinayətini törətmiş şəxslər cinayət məsuliyyətinə cəlb edilməsi üçün tələb edən dövlətə verilməlidir.

Beləliklə, ermənilər tərəfindən Xocalı əhalisi olan etnik azərbaycanlılara qarşı törədilmiş bütün əməllər beynəlxalq hüquq sənədlərinə uyğun olaraq soyqırımı kimi qiymətləndirilir və beynəlxalq hüquq prinsiplərinə görə bəşəriyyətə qarşı cinayət sayılır.

**Bakı, 24 fevral 2000-ci il**

## YUXARIDA GÖSTƏRİLƏN SƏNƏD ÜÇ DİLDƏ XARİCİ ÖLKƏLƏRDƏ YAŞAYAN AZƏRBAYCANLILARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN VASİTƏSİLƏ AŞAĞIDAKI TƏŞKİLATLARA GÖNDƏRİLMİŞDİR

### I ərazi şöbəsi

**1. Rusiya Federasiyası:**
Ümumrusiya Azərbaycan Konqresi Federal Milli Mədəni Muxtariyyət «AZERROS»
**2. Qazaxıstan Respublikası:**
Səfirlik; «Xəzər» İctimai Birliyi; «Turan» Konqresi
**3. Özbəkistan Respublikası:**
Səfirlik; Mədəniyyət Mərkəzləri Assosiasiyası
**4. Tacikistan Respublikası:**
«Dostluq» Cəmiyyəti
**5. Qırğızıstan Respublikası:**
«Azəri» İctimai Birliyi
**6. Gürcüstan Respublikası:**
Səfirlik; Gürcüstan Ziyalıları Birliyi; «Gürcüstan mənim Vətənimdir» Cəmiyyəti

### II ərazi şöbəsi

**1. İsveç (Stokholm)**
Nadir Hollenbrand - Azərbaycan naminə; Səməd Fərtaş - Azərbaycan dəraəyi
**2. Norveç**
Məmməd Rza - Xəzər Yanar də raəyi Nəzərova;
**3. 3. Finlandiya**

Azərbaycan-Finlandiya; Dostluq Cəmiyyəti

**4. Danimarka**

Kərim Rismankar - Azərbaycan Kültür Ocağı

**5. Fransa**

Səid İsmayılov - «Azərbaycan Evi»; Assosiasiyasının sədri; Mirvari Fətəliyeva - Azərbaycan-Fransa; Gənclik Assosiasiyasının sədri; Vazeh Əsgərov - Fransada Azərbaycanlı; Tələbələr Assosiasiyasının sədri; Ağasəlim Rəsulov - Azərbaycan-Fransa; Azad Mübadilələr Assosiasiyasının sədri; Fazil Zeynalov - Fransa-Azərbaycan Elm və Təhsil İnkişafı Assosiasiyasının sədri; Osman Sanyusif-«Fransa-Türk» Federasiyasının sədri;

**6. İtaliya**

Zaur Fərhadov - «Dostluq» Azərbaycan; Assosiasiyasının sədri; Nurəddin Hüseynov - «Azəri» cəmiyyətinin sədri

**7. İspaniya**

Hilal Məmmədov - «Azəri» Assosiasiyasının sədri; Cəlal Erkin - Azərbaycan Dostluq Cəmiyyəti

**8. İsveçrə**

Rəhim Sulduzlu - İsveçrə-Azərbaycan; Dostluq Cəmiyyətinin sədri; Fərhad Yıldız - Azərbaycan türkləri Kültür dərnəyinin sədr müavini; Lalə Mehmanova - İsveçrə-Azərbaycan Əməkdaşlıq Cəmiyyətinin sədri

**9. Ukrayna Respublikası**

Oqtay Əfəndiyev - UAK-nın sədri; Murad Ömərov - Xarkov vilayəti; Ukrayna-Azərbaycan Dostluq Cəmiyyətinin sədri

**10. Belarus Respublikası**

Natiq Bağırov - Belarus-Azərbaycan; İcmaları Konqresi

**11. Moldova Respublikası**

Moldova Azərbaycanlıları Konqresi

**12. Estoniya Respublikası**

Niyazi Hacıyev - Estoniya-Azərbaycan Mədəniyyət Mərkəzinin sədri

**13. Litva Respublikası**

Mahir Həmzəyev - Litva Azərbaycanlıları Cəmiyyəti

**14. Latviya Respublikası**

Əlirza Hüseynov - «Azəri-Vəhdət»; Latviya-Azərbaycan Dostluq Cəmiyyətinin rəhbəri

**15. Rummiya Respublikası**

İqbal Hacıyev - Rumıniya-Azərbaycan Gəncləri və Mədəniyyət Assosiasiyasının Prezidenti

**16. Çexiya Respublikası**

Elşən Nəzərov - «Azəri-Çex» Cəmiyyətinin sədri

**17. Macarıstan Respublikası**

Svetlana Abdullayeva - Macarıstan-Azərbaycan Dostluq Cəmiyyətinin sədri

**18. Polşa Respublikası**

Hicran Əliyeva - Azərbaycan Mədəniyyət və İnformasiya Mərkəzinin sədri

**19. Bolqanstan Respublikası**

Balaqardaş Sultanov - Bolqarıstan-Azərbaycan Dostluq Cəmiyyətinin sədri

**20. Böyük Britaniya və Şimali İrlandiya Krallığı**

Tale Heydərov - Azərbaycan Cəmiyyətinin sədri

**21. Belçika Krallığı sədri**

Bülənt Gürcam - «Belçika-Azərbaycan Evi»nin

**22. Niderland Krallığı**

Sahil Qasımov - «Azərbaycan Türk Kültür Mərkəzi»nin sədri; Gülşən Kazımova - «Avropa Qafqaz Elm və Mədəniyyət Mərkəzi»nin sədri

**23. Avstriya Respublikası**

Elman Muradov - «Avstriya-Azərbaycan Akademik Birliyi»nin sədri

**24. Almaniya Federativ Respublikası**

Vahəddin Kaya - «Avropa Azərbaycanlıları Konqresi»nin prezidenti; Başar Kömür - Mayns Azərbaycan Cəmiyyətinin sədri; Nüsrət Dilbəstə - «Almaniya-Azərbaycan Cəmiyyətləri Federasiyası»nın sədri; Nuridə Atəşi - «Nizami Gəncəvi adına Azərbaycan Mədəniyyəti İnstitutu»nun sədri

## III ərazi şöbəsi

**1. Kanada**

Əkbər Məcidov - Kanada-Azərbaycan Assosiasiyaları Federasiyasının İcraçı direktoru İlham Axundov - Kanada-Azərbaycan Əməkdaşlıq Assosiasiyasının prezidenti, Kanada-Azərbaycan Assosiasiyaları Federasiyası İdarə Heyətinin üzvü, Hamilton; Məsud Əliyev - Kvebek Azərbaycanlıları Assosiasiyasının prezidenti, Kanada-Azərbaycan Assosiasiyaları Federasiyası İdarə Heyətinin üzvü, Monreal; Fərəc Əliyev - Kanada-Azərbaycan Assosiasiyaları Federasiyası İdarə Heyətinin üzvü, Toronto Hilal Zeynalov - Azərbaycan Ağsaqqallar Şurasının sədri, Toronto Roman İbrahimov - Kanada-Azərbaycan Assosiasiyaları Federasiyası İdarə Heyətinin üzvü, Toronto Mehman Məmmədov - Kanada-Azərbaycan Alyansı idarə Heyətinin üzvü, Toronto Cavad Zərrin - Azərbaycan İcmaları Assosiasiyasının sədri, Kanada-Azərbaycan Assosiasiyaları Federasiyası İdarə Heyətinin üzvü, Toronto Murteza Paki - Azərbaycan Kültür Ocağı İdarə Heyətinin üzvü, Vankuver Əlirza Miyanalı - «Odlar Yurdu» radiosunun prezidenti, Vankuver Sadıx Təyyar - Qaflantı adına Azərbaycan-Kanada Cəmiyyətinin sədri, Vankuver

**2. Avstraliya**

Mikayıl Oyta - Avstraliya-Azərbaycan Assosiasiyasının prezidenti, Sidney

## TERROR EDİLMİŞLƏR

Məşhur ingilis kəşfiyyatçısı və diplomatı Klark «Erməni diasporunun sirləri» kitabında yazır: «Terror haqqında informasiya və məlumatın sürəti terror üçün atılacaq və yaxud ayrılmış güllənin sürətindən 1,5 dəfə çox olmalıdır. Belə olarsa, məlum və yaxud hazırlanması planlaşdırılan hər hansı bir terrorun qarşısı alınar. 1994-cü ildə Düşənbə Dövlət Universitetinin rektoru Möhtərəm Əbdürrəhmanova xəbər verdilər ki, «səni güllələyəcəklər. Sənə qarşı terror var». Xəbər Düşənbə mətbuatında sual doğurdu. Nə üçün?.. Bəziləri eyhamla danışdılar. Akademik Əbdürrəhmanov da bunu istehza ilə qarşıladı. Amma üç gündən sonra günorta, saat 12:25 dəqiqədə alim qapısı ağzında güllələndi. Ona terror edildi. Akademik son zamanlar Orta Asiyadakı erməni diasporu haqqında araşdırmalar aparırdı» (London E.Kİark: «Erməni diasporunun sirləri». 1997-ci il, səh. 64).

Tacikistan variantı xarakterik olduğundan bu fakt ibrətamizdir. Əslində terrorun nə saatı var, nə zamanı, nə də günü.

«Mən istəmirəm ki, xalqım bu qanlı faciədən, ağlasığmaz terror aktlarından ruhdan düşsün, sarsılsın. Mən bunu istəmirəm». Bu da ABŞ prezidenti Corc Buş cənablarının 2001-ci il 11 sentyabr terrorundan sonrakı etirafı idi. Halbuki 11 sentyabr faciəsi haqqında ilkin məlumatları «MOSSAD» (tsrail) kəşfiyyat xidməti vermişdi. Amma Corc Buş xəbərə etinasız yanaşdı. Nəticədə dəhşətli terror aktı baş verdi və insan faciələri yaşandı. Əslində həm Nyu-York, həm də Vaşinqton xristian sivilizasiyası ilə islam sivilizasiyasının toqquşmasının qurbanı oldu. Məhz XXI əsrin əvvəlində bu sivilizasiyalar Amerika Birləşmiş Ştatlarında - uzun illər boyu müharibə görməyən bir ölkənin içində üz-üzə dayanıb toqquşdu.

Səudiyyə Ərəbistanı milyonçusu qoca Məhəmməd bin Ladenin ölümündən sonra (1976) onun «Binladen Brothers for Stracting and Industry» adlı tikinti şirkətinə oğulları başçılıq etdi. Ərəb dünyasında və Avropada məşhur olan Əhya bin Laden Beyrutun mərkəzini yenidən qurdu. Harvard Universitetində təqaüd fondu yaratdı və bu təqaüdü o adamlara ayırdı ki, onlar torpaq və Vətən uğrunda vuruşsunlar. 2000-ci il noyabrın 14-də bu təqaüdü alanlardan ikisi erməni millətindən olan Rezat Arutunyan və Babak Yenezaryan idi. Harvard Universitetini bitirən Rezat Arutunyana ayrılmış təqaüdün qiymət kitabçasında yazılırdı: «Torpaq uğrunda şəhid olmağa hazır olduğu üçün». Hansı torpaqdan söhbət getdiyi isə açıqlanmırdı.

2002-ci il fevralın 4-də Əhya bin Ladenin Londonda Beynəlxalq Koordinasiya Mərkəzinin (1990-cı ildə açılmışdı) şəbəkəsi genişləndi («Binexrort»). Şəbəkənin yeddi otaqlı sağ cinahı ermənilərin araşdırma mərkəzinə verildi. Bu zaman Məhəmmədin sayca 15-ci oğlu olan Üsəma bin Laden İsveçrənin «SICO» şirkəti ilə iş birliyi qurdu.

Məhəmmədin 16-cı oğlu Salam bin Laden «Bahgue AE Saoudi» Direktorlar Şurasına qəbul olundu. Direktorlar Şurasının katibi 1992-ci ildən Xankəndinin

Kərkicahan yaşayış ərazisindən Livana, oradan da Fransaya mühacir olan Lion Nairyan seçildi. Mərhum atanın on yeddinci oğlu isə (Məhəmməd bin Ladenin 54 oğlu var) Əfqanıstanda peyda oldu. Onun da adı Üsəma idi. Abdulla Əziz Universitetini bitirən bin Laden Kəraçidə özəyi qurulmuş «Camaat-e-islamiyyə» dini radikal islam təşkilatına üz tutdu. Professor Bürhanəddin Rəbbani və Əbu Səyyafla görüşdü. 1989-cu ildə isə «Əl-Qaida» («Baza») radikal islam ordusunu yaratdı. 1998-ci ildə «İslamın Qafqaz kəşfiyyatı»nı qurdu:

1. Qara dəniz istiqamətində (Gürcüstan ərazisindən);
2. Azərbaycan istiqamətində (Dağlıq Qarabağ ərazisindən);
3. Ermənistan istiqamətində (İran ərazisindən). Elə həmin il «Əl-Cihad-İnterneşnl» terrorçu qrupunu təşkil etdi. Araşdırmalardan aydın oldu ki, bu təşkilatın ABŞ-ın bəzi ştatlarında 25-30 nəfərlik dayaq və əlaqələndirmə dəstələri var.

Məhəmmədin 18-ci oğlu Xəlil Məhəmməd bin Laden isə Braziliyada Səudiyyə Ərəbistanının konsulu təyin olundu və Braziliya vətəndaşı İzabel Kristina Bayma ilə ailə qurdu. İzabelin anası Kamilla Qaracanyan və dayəsi milliyyətcə erməni idilər. Bu izdivac özünü göstərdi və 2000-ci ilin noyabrında Xəlil Məhəmməd bin Laden Braziliya hökumətindən xahiş etdi ki, onu Ermənistana diplomatik korpusa göndərsin.

## İBRAHİM BİN LADEN XANKƏNDİNDƏ

Məhəmmədin sayca 19-cu oğlu, ixtisasca tikinti mühəndisi olan İbrahim bin Laden 1984-cü ildə «Laden» beynəlxalq tikinti şirkətinin əsasını qoydu və 1999-cu ildə Xankəndidə göründü. İki gün sonra onun səsi Laçın və Şuşadan gəldi. 1999-cu il iyunun 16-da və 19-da Dağlıq Qarabağın «Artsax» telekanalında müsahibə verdi. Bu zaman onun yanında Nyu-Cersi ştatının milyonçusu, tikinti maqnatı Qirayn Ovanyan vardı. Milyonçu Ovanyan İbrahim bin Ladeni başa salmağa çalışırdı ki, Dağlıq Qarabağda ermənilər artıq «gümüş toyu çalıb qurtarıblar».

İbrahim bin Laden Məhəmmədin milliyyətcə erməni olan, Suriyada yaşayan tacir Afik Akopyanın qızı Ləyyadan olan oğlu idi.

Məhəmməd bin Ladenin ailəsi qan qohumluğuna görə bölünürdü. Onun suriyalı erməni qadından olan övladları bir cəbhə idi, iordaniyalı qadından olan övladları isə başqa bir cəbhə. Lakin onlarm hamısı Məhəmmədə tabe idi.

Zahirən «Laden» tikinti şirkətinin başçısı kimi tanınan İbrahim bin Laden ərazisindən uran çıxarılan, təbii sərvətlərindən bir sıra kimyəvi məhsulların hazırlanması üçün şəraiti olan ölkələrin hər birində investisiya qoyur. Suriya, İraq, İran, Pakistan, Hindistan, Çin, Rusiya, Amerika, İngiltərə, Almaniyada onun öz tikinti dəstəsi var və bir qismi bu gün də fəaliyyətdədir. «Laden»çilər həmin ərazilərdə dərman fabrikləri tikir, nüvə qalıqları üçün anbarlar inşa edir, tam məxfi

şəraitdə işləyə bilən elmi tədqiqat laboratoriyalarının özülünü qoyurlar. ABŞ MKİ-nin məxfi sənədlərində «üçüncü dövlət» - daha doğrusu, tranzit dövlət və yaxud ərazi kimi nüvə materiallarının qaçaqmalçılıq yolu ilə daşınmasını və ya ötürülməsini təmin edən ölkələr sırasında Ermənistanla Əfqanıstan da var.
Bu da maraq doğurmaya bilmir ki, 2000-ci il mayın 4-də İbrahim bin Ladenə məxsus (qoyulan investisiya ona məxsusdur) «Vadi Əl-Qaid» şirkətinin filialı Yerevanda açıldı. Ermənistan Dövlət Universitetindən cənub-qərb tərəfdə, əsas binadan təqribən 500 metr aralı A.Manukyan küçəsində filiala ofis verildi. 1994-2000-ci tədris illərində Yerevan Dövlət Universitetini bitirən 9 əfqan tələbənin bütün xərclərini məhz «Vadi Əl-Qaid» şirkəti çəkib. Yenə həmin il avqustun 16-da həmin tələbələr üçün işğal olunmuş Kəlbəcər ərazisinin şimal istiqamətindəki İstibulaq-Çaykənd zonasında istirahət mərkəzi salındı. Oktyabrın 4-də isə həmin tələbələrə «Vadi Əl-Qaid» şirkətinin məsullarından olan, iş adamı Əyyubxan Şir zad «055» nömrəli briqadanın (üstündəki təsvir: kəsişən qılınc, Yer kürəsi və Quran) nömrələri yazılmış vəsiqələri təqdim edir.

Bin Ladenin «055» nömrəli hərbi briqadas;nın London, Yerevan, Paris, Vaşinqton, Tehran, Köln şəhərlərində, Rusiya, Argentina, Braziliya, Gürcüstan və Dağıstanda islami-hərbi özəkləri var. Bilavasitə Üsəma bin Laden tərəfindən maliyyələşdirilən «055» nömrəli briqadanın «Taliban»a heç bir dəxli yoxdur. Bu, müstəqil, lakin gizli fəaliyyət göstərən briqadadır.

İxtisasca kütləvi qırğın silahları üçün strateji obyektlər mühəndisi olan İbrahim bin Ladenin Qarabağda erməni milyonçusu ilə iş birliyi qurması maraqlı və ciddi bir məsələdir.

## BİN LADEN VƏ «ÇEQAKRON»

Məlumata görə, 1999-cu il noyabrın 21-dən İbrahim bin Laden Xankəndinin şimal-şərq hissəsində məskunlaşan (Gülablı, Malıbəyli ərazilərində) «Çeqakron» erməni təşkilatının liderlərindən olan Vartan (can) Aruşanyanla görüşür. Təşkilat faşist ruhlu bir qurum kimi formalaşdığından, türk xalqlarına, xüsusən müstəqil Azərbaycan dövlətinə qarşı işğalçılıq əhval-ruhiyyəsində qurulduğundan Ermənistan Ədliyyə Nazirliyi beynəlxalq hüquq normalarından qorxaraq onu Yerevanda qeydə almaqdan çəkindi. Nəticədə «Çeqakron» 1999-cu ilin ortalarında Baş Qərargahını Xankəndinə köçürdü. Bu zaman Xankəndinin qondarma «MN»nin köhnə binasından dörd otaq onlara verildi, təşkilat rəsmi qeydiyyata alındı.

Bu da artıq məlumdur ki, bin Laden Azərbaycanın işğal olunmuş ərazilərində, xüsusən Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarında strateji təlim düşərgələrinin tikintisinin yeni layihələrini də işləyib. 320 min ABŞ dollarlıq investisiya qoyub. Faktlardan biri də budur ki, «Çeqakron» terrorçu təşkilatının

liderlərindən və beynəlxalq koordinatorlarından olan Mark Şakiryan adlı bir fizika alimi məhz İbrahim bin Ladenin «zəmanəti» ilə Əlcəzairin «Silahlı islamçılar» radikal təşkilatına qoşulur və iki təşkilat arasında koordinator missiyasını yerinə yetirir.

2000-ci il fevralın 13-də isə «Silahlı islamçılar» təşkilatının nizamnaməsinin 14-cü, «Çeqakron» təşkilatının Nizamnaməsinin 9-cu maddəsində dəyişiklik edilir (maddə xristian-islam münasibətləri ilə bağlı idi). Qeyd edək ki, 1993-cü ildə Nyu-Yorkda ticarət mərkəzini partladan (birinci partlayış) və «Əl-Qaida» tərəfindən dəstəklənən Kor Şeyx ləqəbli Ömər Əbd-Ər Rəhman da məhz bu təşkilatda yetişmiş və bu təşkilatdan da icraçı kimi Nyu-Yorka göndərilmişdi. «Silahlı islamçılar» radikal təşkilatının 1994-cü ildə yazılmış Nizamnaməsinin daha bir maddəsi - 13-cü maddəsi dəyişilir: «İslamı sevən və onu qəbul edən hər kəs, irqindən və dilindən, dinindən asılı olmayaraq. Vətən və torpaq uğrunda vuruşursa. O, bizimlədir. Dəxli yoxdur, bu vuruş istər Asiyada olsun, istər Avropada istər Zaqafqaziyada. Biz vahid ideya uğrunda birləşdik. Bu vahidlikdə biz «İrşad» sözünü yaratdıq. İslamda «İrşad»ı biz yaratdıq. Harada «İrşad» varsa, biz oradayıq».

Radikal islamçıların terrorçuluq təşkilatlarını öyrənən «Çeqakron»çuların sırasında 97 nəfər yaşı 19-25 arasında olan gənc var. 2000-ci il fevralın 19-dan etibarən bu terrorçu qrupa qızlardan ibarət snayperçi dəstələr də qəbul edilir.

## «YEVKRAPA» TERRORÇULARI

Bu ərəfədə Tehran erməni yeparxiyası Artsaxla (Xankəndi) əlaqələr komitəsinin sədri Miqran Pirimyanın və Tehrandakı Erməni Biznesmenləri İttifaqının Dağlıq Qarabağa səfəri və onların ABŞ milyonçusu, İbrahim bin Ladenin iş ortağı olan Qirayn Ovanyanla görüşməsi də bizi düşündürməyə bilməz. Çünki Pirimyanın İrandakı erməni icmasının yardımı kimi 57 min ABŞ dollarlıq çeki «Çeqakron»çulara təqdim edilib. 2000-ci il aprelin 13-də «Artsax» telekanalı ilə yayımlanan «Vətən» verilişində Ştrateji Araşdırma Mərkəzinin əməkdaşı Laura Surenovna Ağayan bu «hədiyyə»yə görə təşəkkür etdi. Araşdırmalarımızdan bu da aydın olub ki, milyonçu İbrahim bin Laden 1992-93-cü illərdə Qarabağda döyüşlərdə iştirak edən könüllü əfqan ərəblərinin vuruşduğu ərazilərdən keçib və bu yerləri videolentə alıb.

1992-ci il iyunun 12-dən Qarabağda könüllü mücahidlər dəstəsi kimi formalaşan «Yevkrapa» terrorçu qrupunun «055» nömrəli Laden briqadasının üzvləri ilə müştərək iş birliyi qurulur. Vaxtilə «Araratsement» zavodunun direktoru olmuş Ermənistanın eks-baş naziri Aram Sarkisyan tərəfindən maliyyələşdirilən bu təşkilatın üzvlərinin iki qrupu - «Artsax-3» və «Aram-4» Azərbaycanın işğal olunmuş Kəlbəcər rayonunun Orta Qaraşanlı və Ağcakənd yaşayış məntəqələrinə

bilavasitə nəzarət edirlər. Ötən il noyabrın 9-da Düşənbə-Moskva aviareysində (№632) narkobiznes mafiyasında ittiham olunan Qarun Xanzadyan və Taran Sirdaqyan ifşa olundular. Bu da məlum oldu ki, hər iki şəxs 2000-ci il sentyabrın 26-dan 30-dək «Yevkrapa» dəstəsində Ağcakənddə olmuş, Düşənbədə məskunlaşan narkobiznes mərkəzinə Kəlbəcərin və Laçının, Xankəndinin ətraf kəndlərinin coğrafi xəritəsini vermişlər. Erməni narkobiznesmenlərinin adları Yerevan-Moskva və Yerevan-Xankəndi aviareyslərində də açıqlanıb.

Bu da maraqlıdır ki, «Yevkrapa»nın «Artsax-3» və «Aram-4» qrupları İran İslam Respublikasının narkobizneslə məşğul olan dövlət qrupunda, eləcə də «Sepah-e-Pastaran»çıların kəşfiyyat xidmətində Dağlıq Qarabağda məşğul olan və Düşənbədə, Seraxs, Kuşka və Tedcan (Türkmənistan) narkomənbələri ilə əlaqələndirici qruplar kimi qeyd olunub.

Tədqiqatı tələb olunan bir məlumatda isə bu da aydın olur ki, «Laden»çilərə məxsus və bilavasitə narkobiznes və silah alveri ilə məşğul olan «055» nömrəli hərbi briqada tərəfindən maliyyələşdirilən «Yevkrapa» üzvləri silah alverində iştirak edirlər. Çin Xalq Respublikasının özəl şirkətlərinin satdığı «Tayfun» raketlərinin də maliyyə xərcləri onlara məxsusdur. Dağlıq Qarabağda istehsal olunan narkotik maddələr üçün altı müxtəlif həcmdə laboratoriya fəaliyyət göstərir.

Araşdırmalarımıza görə, «Yevkrapa» qrupunun üzvləri bu il fevralın 12-dən Astana qrupuna (Qazaxıstan) qoşulub. Çünki narkobiznesin Qazaxıstan şəbəkəsi daha genişdir. Belə ki, Rusiyaya ötürülən heroinin 93, xaşxaşın (laboratoriya üçün) 85, nəşənin 78 faizi məhz Qazaxıstandan gedir. Şübhəsiz, «Yevkrapa» Orta Asiya və Cənubi Qafqaz narkomafiyası arasında əlaqələndiricilərdən biri kimi ABŞ MKİ-nin sənədlərində də öz əksini tapıb.

Dağlıq Qarabağdakı «Yevkrapa» silahlı narkobiznes alverçiləri 2001-ci ilin iyul-iyun aylarında Fərqanə, Nəmanqan, Əndican, Nukus şəhərlərində erməni diasporları nəzdində əlavə bölmələr yaradıblar.

## BEYNƏLXALQ TERRORİZMİN BİR QOLU: ERMƏNİ TERRORİZMİ

İslam fundamentalizmində ayrı-ayrı milli maraqlar yoxdur. Məqsəd uğrunda bütün müsəlmanlar qardaşdır. İslamda məqsədin yekunu olaraq «İslamdan islam doğur» formulu da var. 1988-ci il iyulun 13-də, 2000-ci il aprelin 9-da və 2001-ci il iyunun 22-də Kabildə Üsəma bin Ladenin «Tora-Bora» hərbi düşərgəsində yerləşdirilmiş «Taliban-əl-Qədri» nəşriyyatında çap edib yaydığı «Fitva doktrinası»nın *2*-ci bəndində belə bir qeyd var: «Mən fitvamı verdim. Qara dənizdən Xəzər dənizinədək ərazi islama məxsusdur. Orada-Allahın müsəlman aləminə bəxş etdiyi əvəzsiz nemətlərə xəlifadən (yəni, Usəma bin Ladendən) başqa heç kəs rəhbər təyin oluna bilməz. Xəzər cəzirəsindən (körfəzindən) başlanan neft

yəhudi ayaqlarını yuya bilməz-. Biz bunun üçün Beynəlxalq İslam Təhlükəsizlik Sistemini yaratdıq. Bura islamı qəbul edən hər kəs daxil ola bilər».

1994-cü ildə Bakıda bağlanmış «Əsrin müqaviləsi»nə etirazını bildirən Ermənistan, Rusiya, İran üçlüyünün fikirlərini məntiqi cəhətdən Üsəma bin Laden tamamlayır (Rusiya əsas boru kəmərinin Yerevandan keçməsinə meyl edirsə, İran bu kəmər üçün təqribən 2 milyard ABŞ dolları ayırdığını elan edib). Orta Asiya ölkələrindən nə Qazaxıstan, nə Özbəkistan, nə də Türkmənistan «xəlifə»nin «Qara dənizdən Xəzər dənizinədək» fitvasına reaksiya vermədi. Çünki Üsəma bin Ladenin doktrinasında hər şey Azərbaycan neft strategiyasının əsas xəttini təşkil edən Bakı-Tbilisi-Ceyhana qarşı idi. Kaliforniya ermənisi, yol-kəmər tikintisi üzrə tanınmış milyarder Kirk Krikoryan isə bu kəmərin istiqamətinin dəyişməsi məqsədilə Bakı ilə Qara dəniz əlaqələrini təhlükədə saxlamaq, kəmərin istiqamətini Yerevana döndərmək üçün 85 milyon ABŞ dolları ayırdı. Məqsəd Azərbaycanın dünya bazarına çıxış yollarını bağlamaqdan ibarət idi.

«Əl-Qaida»çıların «Vanguards» - islam analitiklər qrupu 2001-ci ilin avqust ayında maraqlı bir açıqlama verdi. Açıqlama (İordaniya) kral Hüseynin bilavasitə göstərişi ilə Əmmanda qeydiyyatdan keçmiş (21 oktyabr 1998-ci il) «Çeçen dostları» cəmiyyətinin yığıncağında (9 sentyabr 2001-ci il) səsləndi. «Əl-Qaida» ilə Şimali Qafqaz arasında əlaqələndirici olan Şeyx Əbdül Baki Cama qeyd etdi: «Xəlifənin «Fitva doktrinası»nda Qara dənizdən Xəzər dənizinədək olan sərvətlər Allahın əvəzsiz sərvətləridir və onu heç kəs bölə bilməz. Bu sərvətlər islama məxsusdur. Baxın, Fransa ekspertləri elan edirlər ki, Xəzər dənizində 70 milyard bareldən 250 milyard barelədək neft var. Amerika ekspertləri isə Dövlət Departamentinə yazırlar; Xəzər dənizində 163 milyard barel neft var. Əlavə 15,6 milyard barel də ola bilər. İngiltərə ekspertlərinin fikrincə, Xəzər dənizində 28 milyard barel neft var, 243 trilyon kubmetr qaz. Almaniya ekspertləri isə araşdırıblar ki, Xəzərdə 19 milyard barel neft, 2.300 milyard kubmetr qaz var. Rusiya Federasiyası ekspertlərinin fikrincə isə, Xəzərdə 7-8 milyard ton neft və 5 trilyon kubmetr qaz var. «Əl-Qaida»nın fikrincə isə, Xəzər cəzirəsində 98 milyard barel neft, 216 trilyon kubmetr qaz var.

Londonda çap olunan «Əfqan ərəbləri» bülleteninin təhlilinə görə, 1998-ci ildən 2000-ci ilin birinci yarısınadək Dubnadan (Moskva ətrafında nüvə laboratoriyalarının yerləşdiyi ərazi) «Əl-Qaida» dəstəsinə işləmək üçün gələn könüllü mütəxəssislərin sayı 16 nəfər idi. Nüvə texnologiyası ilə məşğul olan bu analitiklər və alimlərin bir qismi Sudanda kimya fabriklərində qaldı, bir neçəsi Əlcəzair, üç nəfəri Livan, dörd nəfəri isə «Tora-Bora» düşərgəsindəki nüvə laboratoriyasına gəldi. Araşdırmalarımıza görə, həmin ərəfədə Dubna nüvə axtarışları zonasında çalışan (keçmiş ittifaqın fizika institutlarından gedənlər) 47 mütəxəssisdən 28-i milliyyətcə erməni olub. Digər tərəfdən, həmin illər erməni mütəxəssisləri Çin həmkarları ilə birgə Qəndəharda sement zavodunun tikintisində

və Cəlalabadda, Bamiyan və Qunduz vilayətlərində qaz yataqlarının axtarışında iştirak ediblər. İşə Yerevan Fizika İnstitutunun müəllimi, sonradan Moskvaya köçüb gedən doktor Levon Mikailyan başçılıq edir. Mikailyanı «Əl-Qaida»nm Kvetta bürosundakı analitiklər qrupuna pakistanlı Briqadir İmtiyaz dəvət edir.

Pakistan kəşfiyyatında (SIS) adı hallanan Briqadir İmtiyaz 1994-cü ildə Moskva Dövlət Universiteti nəzdindəki D.V.Skobeltsın adına Nüvə Fizikası üzrə Elmi Tədqiqat Mərkəzində «çalışır». Fevralın 26-dan martın 28-dək Yerevanda, A.Manukyan küçəsindəki 1 nömrəli binada nüvə texnologiyası ilə məşğul olan professor Santrosyanın qonağı olur. Həmin ilin aprel, iyul aylarında isə Briqadir İmtiyaz Qazaxıstanda, Nəzəri Fizika və Eksperimental Elmi Tədqiqat İnstitutunda doktor Jusupovu «dinləyir».

Araşdırmalarımıza görə, məhz 1994-cü il dekabrm 23-də Şərqi Qazaxıstanın Qulbinski metallurgiya zavodundan 15 kiloqram uran yoxa çıxır. Dekabrın 29-da içində radioaktiv materiallar olan 20 konteyner Qazaxıstandan Pakistana ötürülərkən Gişt-Kuprik keçid məntəqəsində saxlanılır. Lakin müvəqqəti. Çünki professor Santrosyanın gömrükçü qohumu kapitan Amanak Santrosyan hər şeyi yoluna qoyur.

«Əl-Qaida» üçün nüvə əməliyyatını yerinə yetirən, Pakistan kəşfiyyatına xidmət edən (SIS) «Qardaşlaşmış islam»ın liderlərindən olan Briqadir imtiyaz 1999-cu ildən müstəqil radikal islamçı, terrorçu təşkilat olan «Camaat ül-Fukra» adlı dəstəyə başçılıq edir.

1999-cu ilin sentyabrında Briqadir imtiyaz Amerika ərazisində fəaliyyətə başlayan, Üsəma bin Ladenin silahdaşlarından sayılan, daha dəqiq desək, xəzinədarı kimi maliyyə məsələlərini yoluna qoyan Kamal Əhməd əl-Fədlin vasitəsilə Londondakı «Barklayz», Vyanadakı «Jirokredit» bankları ilə əlaqələr yaradır. Üsəma bin Ladenin göstərişi ilə maliyyə kanallarını bərpa edir. Briqadir İmtiyaz 2000-ci il sentyabrın 14-də Beyrutda, avqustun 9-da Marseldə, oktyabrın 25-də Dəməşqdə, noyabrın 6-da isə Tehranda «Camaat ül-Fukra»nın bürolarını yaradır. Həmin il sentyabr ayının 26-da Londonda «ASALA»nın mətbu orqanı olan «Hay-Baykar» qəzetinə belə bir müsahibə verir ki, biz (yəni «Camaat ül-Fukra») Suriyada, Dəməşqdə fəaliyyət dairəsi geniş olan erməni «ASALA» təşkilatı ilə məşvərət keçirtdik (həmin il Briqadir İmtiyaza «Şeyx» ləqəbi verildi). Şeyx Briqadir İmtiyaz «Hay-Baykar»da yazır: «Ermənilərlə birlik yaratdıq. «ASALA»çı («Armenian Secret Army of Liberation of Armenia») erməni vətənpərvərləri bizə həmişə yaxşı bələdçilik ediblər. Onlar bizə həm yol göstərir, həm ticarət işlərimizdə (narkotik maddələrin alverində və silah biznesində - red.), həm də başqa işlərdə yardım edirlər. Onların bir qismi «Əl-Qaida»da, «Özbəkistan islam hərəkatı»nda, «İslam qrupunda, «Əl Mühacirun» qruplarında cangüdən kimi fəaliyyət göstərirlər».

Üsəma bin Ladenin «Əl-Qaida» qrupunun fəaliyyət dairəsi çox genişdir.

Burada silah alverindən tutmuş ən məxfi informasiya alış-verişinədək gizli əməliyyatlar aparılır. İslamçı qrupun ayrı-ayrı bölmələri münaqişə zonalarına, hakimiyyət dayaqlarını itirmiş ərazilərə asanlıqla yol tapırlar. Bu il martın 29-da «Əl-Qaida»çılar Bolqarıstan təhlükəsizlik orqanlarında qara siyahıya alınmış islamçıların «Buleyr» adlı silah alveri ilə məşğul olan dəstələrin üzvləri ilə internet əlaqələrinə girirlər. Sonra isə bu canlı əlaqəyə çevrilir. Cənubi Qafqazın münaqişə mərkəzlərinə qeyri-qanuni olaraq silah və hərbi sursatlar yol alır. Artıq Ermənistana, Xankəndinə və Çeçenistana, Osetiya və Abxaziyaya «Bul-eyr» qrupu «İqla» (ZRK) raket kompleksindən, «Faqot» raketindən və onlara lazım olan texniki qurğulardan, «Strela 2M» raket dəstindən, 100 mm və 57 mm-lik zenit qurğularından, elektron kompleksindən, «Konkurs» raketlərindən ibarət arsenalı (Dağlıq Qarabağ və Yerevan istiqamətində) ötürməyə imkan tapıblar. Bu «qara firma»ya keçmiş hərbi-iqtisadi xidmət rəisi, polkovnik Xristo Stanimirov başçılıq edir. Bolqarıstanın müdafiə naziri Boyko Noyevanın fikrincə, bu, «beynəlxalq aləmdə həyəcan doğuran bir məsələdir».

Məhz bu baxımdan, Ermənistan tərəfinin, eləcə də qondarma «DQR» hərbçilərinin müharibə eşqi ilə bağlı verdikləri bəyanatlar da ayrıca şərh olunmalı, hüquqi qiymətini almalıdır.

Professor B.Rubinin fikrincə isə, «Taliblər» - «Əl-Qaida»çılar terrorçulara və silah alverçilərinə geniş yer verir, etnik-milli münasibətləri və milli münaqişələri qızışdırmağı bacarırlar. Bu münaqişələrin mərkəzində olan nöqtələrin biri Bakı neftidir. Bu sahədə «Yeni siyasət, yeni ideologiya lazımdır». «Əl-Qaida»çılar narkobiznes və silah alveri üçün ən dəyərli və məxfi körpüdür».

## ERMƏNİ TERRORÇULARININ «ƏL-QAİDA» İLƏ İŞ BİRLİYİ

İslam radikalları Qafqazdakı bütün islam araşdırma mərkəzləri ilə, dini mədrəsə və məscidlərlə artıq asanlıqla internet əlaqələri qurur, lazım olan informasiyaları alırlar. İnternet terroru barədə ətraflı bölməmiz olacaq.

Beləliklə, əldə etdiyimiz araşdırma materialları əsasında müxtəlif terrorçu təşkilatlara könüllü daxil olan ermənilərin siyahısını təqdim edirik (1998-2000-ci illər arasında). Xatırladaq ki, bu şəxslər İslam dinini könüllü qəbul edərək «Əl-Qaida» qruplaşmasında (ayda 5000 ABŞ dollarından tutmuş 6500 ABŞ dollarınadək məvacib alırlar) fəaliyyət göstərirlər:

1. Prokuror (Yerevan) Aruşan Ağayan («İnanmayanları ittiham edən») - Livan (1999).
2. Zabit (Yerevan) Qarik Lalayan Borisoviç («Mübariz islam qrupu») - Liviya (1999).
3. Professor (Yerevan) Ağa Saakyan Mixayloviç («İslam qrupu») - Misir (1999).
4. Jurnalist (Yerevan) Yura Çiliqaryan («Silahlı islam qrupu») - Əlcəzair

(2000).
5. Müəllim (Xankəndi) Ambarsum Nikolayeviç Karapetyan - («Mühacirlər»-Əlcəzair (2000).
6. Sərhədçi (Xankəndi) Stepan Ter-Avanesyan («Əl-Cihad, əl-islami») Misir.
7. Sərhədçi (Xankəndi) Qriqori Petrosoviç Avakumov (yan) («Yerusəlimin əsgərləri») - İraq.

Ayrı-ayrı erməni təşkilatlarından, o cümlədən «ASALA» terrorçu təşkilatından ayrılmış bu şəxslər islam terrorçu qrupların şəhər bürolarına da başçılıq edirlər. Bu şəxslərin başçılıq etdikləri təşkilatların, büroların hər biri ayrı-ayrılıqda kiçik bir laboratoriyadır. ABŞ-da tanınmış fizik, doktor Stiven Xakinçin dediyi kimi: «Terror aktları nüvə silahından da dəhşətli və amansızdır. Bunun üçün kiçik bir laboratoriya kifayətdir».

a) Jorjs Belousoviç Arakelyan: - 1957-ci ildə Yerevanda anadan olub. Ermənistan Politexnik İnstitutunu bitirib. 1991-ci ilin avqust ayında könüllü olaraq Dağlıq Qarabağın «Müdafiə cəbhəsi»ndə iştirak edib.

1996-cı ildə «Müqəddəs Georgi» ordeni ilə mükafatlandırılıb. 1997-ci ildə Beyruta mühacirət olub. «ASALA» erməni terror qrupunda Xankəndi-Beyrut əlaqələndiricisidir. 1997-ci il aprelin 1.4-dən «Fələstin Xalq Azadlıq Cəbhəsinə» (Al Üabha Al-Shabigah Al-Tahrir Filastin) daxil olub. Həmin ilin iyul ayının 15-dən «Qayıdan qəhrəmanlar» terrorçu qrupunda təlim müəllimidir. Təşkilata isə 1998-ci ildən Üsəma bin Ladenin «Əl-Qaida» qrupu, 1990-cı ildə isə «ASALA»nın Beyrut bürosu ilə əlaqələr qurub. Jorjs Arakelyan, «Əfqan ərəbləri» bülleteninin verdiyi məlumata görə, 1999-cu il avqustun 16-dan 25-dək «Əl-Qaida»nın Qəndəhar bürosunda olub.

b) Lella Baqdasarovna Baqdasaryan:

-1959-cu ildə Azatamutda (Ermənistan) din xadimi ailəsində anadan olub. 1992-ci ildə Şuşa istiqamətində vuruşda Marseldən gələn qızlardan ibarət «ASALA»çı snayper qrupunda vuruşub. 1994-cü ilin sentyabrında Fransaya köçüb. «ASALA»nın qadın hərbi bölməsinə başçılıq edib. 1998-ci ildə Səudiyyə Ərəbistanında olub. Üsəma bin Ladenin Səudiyyə Ərəbistanında konsul təyin olunmuş qardaşı Əhya bin Ladenlə görüşüb. 1999-cu il iyulun 5-də islamı qəbul edib. «Əl-Qaida»nın Fransa bölməsinə başçılıq edir.

c) Arqun Arustamoviç İzrailyan: - 1951-ci ildə Xankəndidə anadan olub. İxtisasca kimyaçıdır. 1992-ci ildə azərbaycanlılara divan tutub. Xocalı faciəsində aktiv fəaliyyət göstərib. «Marsel» ordeninə layiq görülüb. 1995-ci ildə Dəməşqə gedib. Erməni diasporunda koordinator-əlaqələndirici olub.

1997-ci ildə «ASALA» terror qrupu ilə «Əl-Qaida»nın Vaşinqton bürosunda keçirilən müştərək yığıncağında həmin təşkilatın sədr müavini «seçilib». 1999-cu ildən Molla Ömər Axundzadənin dəstəsindədir.

ç) Mişel Qayqoviç Sarkisyan: -1949-cu ildə Sumqayıtda anadan olub. 1959-

cu ildə Yerevana, 1992-ci ilin mayın 16-da isə ailəsi ilə birlikdə Berd yaşayış mərkəzinə köçüb. 1993-cü ilin mayında Dağlıq Qarabağda könüllülər ordusuna qoşulub. «Sasun» bölməsinə başçılıq edib, onlarla azərbaycanlının güllələnməsində iştirak edib.

1999-cu il martın 26-dan «ASALA»nın Kipr bürosundadır. 2002-ci il yanvarın 9-dan «Əl-Qaida» təşkilatının analitik bürosunda çalışır.

(Bax: Əlavə olaraq ABŞ-da nəşr olunan "The Washington Post" qəzetinin 2004-cü il dekabr, 2005-ci il fevral nömrələrində dərc olunmuş Ermənistanın "Əl-Qaidə" ilə nüvə əlaqələrindən bəhs edən yazılar.)

## QARABAĞ ƏLEYHİNƏ «MÜDAFİƏ BİRLİYİ»

1997-ci ildə Suriyaya mühacirət etmiş, 1999-cu ildən Vaşinqtonda yaşayan, Daşnaksütyun Partiyasının Avropa Şurasına üzv ölkələrin ərazisindəki erməni diasporu ilə əlaqələndiricilərindən olan hərbi ekspert Sauri Şakinyan «Ağıl» publisistik qeydlərində yazır: «Siz (yəni, ermənilər - red.) az danışın daha. Çünki çox iş gördünüz. Dağlıq Qarabağı yenidən diriltdiniz azərbaycanlılar kimi hissə qapılmayın. Çünki çox şeyi itirə bilərsiniz. Baxın, görün, Poqosyan qardaşınız haradadır. Sevimli Hambarsumyanı düşünün şöhrətli Valiyanı, Matevosyanı, Fazilyanı düşünün. Onları ağılla qorumasaq, hisslərimizə qurban versək, uduzarıq» (Vaşinqton. «Erməni dirçəlişi» qəzeti, fevral, 2001-ci il).

Erməni eksperti Saurinin xatırlatdığı Mixail Poqosyan Rusiya Federasiyası prezidentinin sərəncamı ilə «Suxoy» hərbi sənaye kompleksinin baş direktoru təyin olunub. «Suxoy» hərbi sənaye kompleksi dünyada analoqu olmayan «Topol-M» nüvə başlıqlı, uzaqmənzilli ballistik raketlərin hazırlanmasmda aparıcı rol oynayır. Burada «S-37» gözəgörünməz təyyarələri də hazırlanır, yeni «MİQ-29», «MİQ-30» bombardmançı təyyarələrin mühərrikləri sınaqdan çıxarılır.

Strateji əhəmiyyəti böyük olan belə bir mərkəzin - kompleksin erməni millətindən olan Mixail Poqosyana həvalə edilməsinə ötəri bir iş kimi yanaşmaq olmaz.

M.Poqosyan Rusiyada yaşayan erməni diasporuna başçılıq edən liderlərdən biridir. 2000-ci ilin avqustunda on bir dildə çap olunan «Dağlıq Qarabağın erməni diasporu üçün strateji əhəmiyyəti» kitabının müəlliflərindən, «Beynəlxalq erməni diasporu» Paris şöbəsinin (1999-cu il) əlaqələndiricilərindəndir. Mixail Poqosyan «Suxoy» hərbi sənaye kompleksinə başçı təyin edildikdən sonra həmin mərkəzdə işləyən 17 azərbaycanlı işdən qovuldu.

2001-ci il fevralın 24-də Səudiyyə Ərəbistanında ermənilərin yaratdıqları diaspor mərkəzinə ixtisasca tarixçi olan Əşrəfbəy Fazilyanın əlaqələndirici təyin edilməsi də maraq doğurmaya bilmir. Ə.Fazilyan elə həmin ərəfədə RF-nin Məkkə, Mədinə şəhərlərində konsulu təyin olundu və ona diplomat kimi toxunulmazlıq

statusu verildi. Əşrəfbəy Fazilyanın Səudiyyə Ərəbistanında vəhhabiliyin özəyini yaradan Mədinə imamı Əbdül Həmid Cəfər Dağıstani ilə görüşləri diqqətdən yayınmır. Ona görə ki, Mədinə imamının Qafqazda, xüsusən Dağıstanda və Azərbaycanda neft məsələləri ilə maraqlanması və bu yönümdə xüsusi strateji planlarının olması faktdır. Başqa bir diplomat, Ermənistan parlamentinin keçmiş sədri Babken Araksyan isə erməni diasporunun «Ermənistan-Yaxın Şərq diasporu» üzrə əlaqələndirici seçildi. Bundan sonra məhz onun topladığı və Livan parlamentinə təqdim etdiyi sənədlər əsasında spiker Nabih Berrinin səyi nəticəsində «erməni soyqırımı» adlandırılan bədnam qətnamə qəbul olundu.

2001-ci il dekabrın 28-də isə Beyrutda Ermənistan-Livan-Suriya diasporlarının «Müdafiə birliyi» adlı təşkilatı yarandı. 2002-ci il yanvarın 16-da bu birliyin «Apostol» adlı hərbi qanadı quruldu. Azərbaycanla bağlı belə bir qətnamə qəbul edildi: «Əgər biz müqavimət göstərməli olsaq, onda hücum edən tərəflər kimi müdafiə olunan tərəflər də birləşməlidirlər».

Erməni katolikosu I Qaragen isə «Kilsə və erməni diasporu» kitabında yazır: «Livanın erməni icması erməni diasporunun ən sanballı hissəsidir. Livan və Suriya Qərb ermənilərinin «böyük bir hissəsinin soyqırımdan sonra rahatlıq və sığınacaq tapdığı ölkələrdir» (Yerevan, 1999-cu il). Əslində erməni diasporunun yaratdığı birlik yeni məsələ deyildi. Buna qədər 1991-ci ildə Avropada (mərkəzi Moskva, Afina, Roma, London, Marsel), 1993-cü il sentyabrın 16-28-i arasında Asiyada (mərkəzi Dehli, Tehran, Əbu-Dəbi, Tokio olmaqla), 1996-cı il 24 noyabr - 16 dekabr arasında Afrikada (mərkəzi Misir, Mərakeş, Əlcəzair olmaqla), 1997-ci il iyulun 26-da Amerikada (mərkəzi Florida, Los-Anceles, Vaşinqton, Buenos-Ayres, Ottava, Karakas olmaqla) eləcə də 1998-ci ildə Şərqi Avropada (mərkəzi Buxarest, Praqa olmaqla) erməni diasporunun «müdafiə birlikləri» yarandı. Bu birliklərin - mərkəzlərin bir qismi rəsmi qaydada xeyriyyə təşkilatları kimi qeydiyyatdan keçdi. Dünyada isə Azərbaycana və ümumən türk xalqlarına qarşı 869 irili-xırdalı erməni təşkilatı var. Xeyriyyəçilik adı altında fəaliyyət göstərən bu hərbi-siyasi, strateji qurumların maliyyə yardımları, proqram və sənədləri, dünyaya «diplomatik» çıxışları bilavasitə aşağıdakı erməni diaspor mərkəzləri tərəfindən, necə deyərlər, tənzimlənir, qaydaya salınır:

a) Erməni Katolik Kilsəsi (dünyanın 56 ölkəsində mərkəzi var. 2001-ci il iyunun 4-də Xankəndidə özəyi yaradıldı);

b) Amerika Erməni Assambleyası (iyirmi iki ştatı əhatə edir. 2001-ci il iyulun 14-də Dağlıq Qarabağda mərkəzi yaradıldı);

c) Erməni Hüquqşünaslar Assambleyası (Avropa ölkələri üzrə);

ç) Erməni Ümumdünya Yevangelist Şurası (Avropa ölkələri üzrə);

d) Erməni Ümumxeyriyyə İttifaqı (mərkəzi Nyu-York, London. 2001-ci il iyulun 29-da Dağlıq Qarabağda şöbəsi yaradıldı);

e) ABŞ Erməni Missioner Assosiasiyası (MDB ölkələri istiqamətində. 2001-ci il

avqustun 3-də Dağlıq Qarabağda yaradıldı);
ə) ABŞ Erməni MMM Komitəsi;
f)Humanitar yardım göstərilməsi üzrə Şimali Amerika Erməni Cəmiyyəti. (DQ-da 2001-ci il martın 3-də yaradılıb);
g) Erməni Apostol Kilsəsinin Şərqi Yeparxiyası;
ğ) Erməni Apostol Kilsəsinin Qərbi Yeparxiyası;
h) «Vartan cəngavərləri» (2001-ci ildə DQ-da rəsmi qaydada leqal fəaliyyətə başladı);
x) Erməni Apostol Kilsəsinin Şərqi Yepiskopal İdarəsi;
i) Erməni Apostol Kilsəsinin Qərbi Yepiskopal İdarəsi...

1997-ci il yanvarın 7-də bu təşkilatların imzası ilə ABŞ administrasiyasına və prezidentinə Dağlıq Qarabağla bağlı bir dəfə ciddi məktublar göndəriblər. Həmin məktubun birinin mətni ilə «Terrorçu qrup: «Vartan cəngavərləri» bölməsində tanış oldunuz.

Onu da qeyd edək ki, 1990-cı illərdə Amerikaya köçüb gedən və daimi yaşamaq üçün ABŞ vətəndaşlığını qəbul edən ermənilərin sayı 80 min nəfər idi. 1999-2000-ci illərdə isə bu rəqəm 650-700 min olub. Bu da Ermənistan əhalisinin 20 faizini təşkil edir.

Bu il fevralın 24-də «Beynəlxalq erməni diasporu» özünün Dəməşqdə yığıncağını keçirdi və qərara alındı ki, «Müdafiə birliyi»nin Parisdə, Beyrutda, Tehranda, Moskvada, Vaşinqtonda, Bakıda bank hesabları açılsın, əlavə maliyyə yardımı fondları yaradılsın. Qərar təxirə salınmadan yerinə yetirildi və yardım fondlarından biri Moskvada, Həştərxanda Azərbaycandan köçüb getmiş erməni birliklərində təşkil olundu («Araz» erməni fondu).

2001-ci ilin birinci üç ayı ərzində ABŞ-ın «Lokxid», «Reyteon», «Nortron», eləcə də Fransanın «Dasso», Almaniyanın «Simens», «Dil» eləcə də İranın «Akopyan» firmasında, Rusiyanın «Suxoy» hərbi sənaye komplekslərində çalışan 68 erməni «Müdafiə birliyi»nin Leon bankına üst-üstə 447 min ABŞ dolları vəsait köçürüblər. Diasporun liderlərindən olan Talo Şahbazyan Fransada çap olunan «Krua» («Xaç») axşam qəzetinə verdiyi müsahibəsində deyir: «Əqidəsindən və tutduğu mövqeyindən asılı olmayaraq, hər bir erməni hər hansı bir ölkədə gəzərkən hiss etməlidir ki, öz həmvətənləri, qardaş və bacıları tərəfindən müdafiə olunur. Biz artıq dünya erməni diasporunda qəbul olunan bir faktı ənənəvi fakta çevirdik - hər üç ermənidən biri dostlarından və qohum-əqrəbalarından, hər beş ermənidən biri isə yerli dövlət və hökumətdən yardım alır. Biz indi «Müdafiə birliyi»nin hərbi qanadlarını, erməni təhlükəsizliyini təmin edən müdafiə sistemini yaradırıq».

T.Şahbazyanın fikrincə, dünyada xüsusən Güney Qafqazda erməni torpaqlarını «azad etmək» üçün cavanlar vuruşmaq istəyir. Buna görə də həmin cavanların bir qrupu silahla «işləmək» (onun öz ifadəsidir - müəll.) qaydalarını, döyüş strategiya və taktikalarını öyrənmək üçün «Müdafiə birlik»lərinə daxil

olacaq.

MDB çərçivəsində isə hələlik «Beynəlxalq erməni diasporu»nun «Müdafiə birliyi» ləzgi diasporu ilə əlaqə qurmağa böyük əhəmiyyət verir.

Vaxtilə eks-prezident Ter-Petrosyanın yanında ekspert kimi tanınan Xaçik Alekseyeviç Surencyan 2001-ci il oktyabrın 4-dən Mahaçqalada fəaliyyət göstərən «Araz» erməni diasporuna başçılıq edir.

Şimali Qafqazda, xüsusən Dağıstan ərazisində özəklərini yaradan və bilavasitə «Beynəlxalq erməni diasporu» tərəfindən maliyyələşdirilən «Müdafiə birliyi» özünün hərbi qanadım yaradarkən radikal «Sadval»çılara arxayın idi. Çünki Dağıstanda, ümumən RF-də altı leqal, səkkiz qeyri-leqal separatçı təşkilat - mərkəz fəaliyyət göstərir. Rusiya MN-nin Baş Kəşfiyyat İdarəsində, eləcə də digər xüsusi xidmət orqanları və güc nazirliklərində adları, ünvanlan qeyd olunan bu təşkilatlara isə münasibət hələ ki, açıqlanmır.

Xatırladaq ki, «Sadval» separatçı ləzgi təşkilatı 1992-ci ilin sentyabrında Rusiya Ədliyyə Nazirliyində qeydiyyatdan keçib. Təşkilatın beynəlxalq qurum kimi qeydiyyata alınmasında o vaxt RF prezidentinin köməkçisi olmuş, politoloq Georgi Səttarov və ölkədə təhlükəsizlik konsepsiyaların müəlliflərindən biri kimi tanınan Andranik Miqranyan böyük xidmətlər göstəriblər. 2001-ci il avqustun 16-da RF-də müzakirəyə çıxarılan «Rusiya və Ermənistan strateji əlaqələri XXI əsrdə» siyasi diskussiyasında açıqlama verən A.Miqranyan bunu irəliləyiş hesab edib göstərir ki, 1992-ci ilin əvvəllərində o, Ermənistan təhlükəsizlik xidmətinin 4 yüksək rütbəli şəxsinin imzası ilə məktub da alıb. Məktubu imzalayan Avakyan, Babayan, Xancanyan, Gevorkyan xahiş edirdilər ki, «Sadval» ləzgi təşkilatının qeydiyyata alınmasında yardımçı olsun. Lakin hadisələrin sonrakı cərəyanında pərdə arxasındakılar məlum oldu. Nəticədə 1993-cü ilin iyununda «Sadval» separatçı təşkilatının qeydiyyatı dayandırıldı. 1994-cü ildə isə «Sadval»ın beynəlxalq təşkilat kimi fəaliyyəti ləğv edildi. Ondan az keçmiş Rusiya Nazirlər Kabineti (12 dekabr 1995-ci il) şimal zonasında ictimai-siyasi vəziyyətlə bağlı 1000 nömrəli «təxirəsalınmaz» sərəncam verdi. Sərəncamda bu da göstərilirdi ki, Samur meşələri ilə bağlı ciddi problem qalır. Bu da 100 min hektarlıq Samur meşələrinin qırılması və onun 14 dəfə azalması ilə bağlı məsələdir. Samur çaymın sulan haqqında ləzgi separatçılarının qaldırdıqları məsələ isə 1967-ci ildə həll edilib. Dağıstan və Azərbaycan arasında bağlanmış müqaviləyə əsasən, suların 75 faizi Azərbaycana məxsusdur. Sərhədlər dəyişilməz və toxunulmaz qalır.

«Sadval»çılar iddia edirlər ki, Azərbaycanda guya bir milyon ləzgi var. Halbuki, statistik məlumata görə, Rusiyada bu rəqəm 300-400 min nəfəri əhatə edir. Ötən il dekabrın 26-da isə Yerevanda Daşnaksütyun Partiyasının liderlərindən olan Kim Balayanın qonağı olan «Sadval»çıların əlaqələndiriciləri Səid Murad Qınçayev və Gülümsəməd Qeybalıyev yenə «öz diktəsi ilə yaşamaq istəyən bir milyon ləzginin taleyini» araşdırmaqla məşğul olub. K.Balayan partiyasının 2001-

ci il fevralın 9-da açıq səma altında keçirdiyi konfransda bunu da eşitdirib ki, Azərbaycana qarşı mübarizədə nəinki ləzgi qardaşlarla, hətta əfqan «taliblər»i ilə də yaxınlaşmaq arzusundadırlar.

Erməni diasporunun Qarabağ hərbi qanadı ilə «Sadval»çılara məxsus ləzgi diasporunun hərbi qanadı arasındakı əlaqə 2000-ci il noyabrın 4-də Mahaçqalada, oktyabrın 7-də isə Xankəndidə reallaşdı. Zahirən hər iki tərəf bu işi leqal görürdü. Lakin pərdə arxasında Azərbaycana qarşı gizli sövdələşmələr də vardı. Həm də Dağıstan və Yerevan təhlükəsizlik xidmətləri əməkdaşlarının da bundan xəbəri olub və onlar «Şeytanın əli ilə nicat tapmaq» prinsipi ilə yaşayıblar. 2001-ci il yanvarın 16-dan etibarən Baş Qərargahı Parisdə olan «Vartan cəngavərləri» radikal erməni qrupu belə bir bəyannamə də yaydı ki, artıq dünyanın separatçı dövlətlərində məskən salmış crməni diasporları öz aralarında hərbi bağlaşma və razılaşmalar aparır. Bu da açıqlandı ki, bağlaşmaların mərkəzində ümummilli erməni maraqları dayanır. Bu maraqların qorunmasında da bütün vasitələrdən rəsmi qaydada istifadə ediləcək. Deməli, «Beynəlxalq crməni diasporu»nun «Müdafiə birliyi»nin tərkib hissəsi olan hərbi birləşmələrin öz qanunları yazılır. RF-nin Stavropol vilayətindəki erməni diasporuna məxsus «Stella Samara» adlı iri biznes mərkəzi bu bəyannamənin Rusiya ərazisində yayılması xərcini öz üzərinə götürdü.

Xarici ölkələrdə məskən salmış erməni diasporunun başqa millətlərə məxsus diasporlarla əlaqələri də genişlənir və bu əlaqələr adətən üç istiqamətdə inkişaf edir: ticarət, mədəni, hərbi.

Apardığımız araşdırmalar zamanı bu da aydın oldu ki, 2002-ci il yanvarın 26-da Yunanıstanda yaşayan erməni diasporunun «Qaragençilər» qrupu ərazidəki kürd diasporunun «Öcalançılar» qrupu ilə Türkiyə və Azərbaycan əleyhinə strateji informasiyaların mübadiləsi və işlənməsi adı ilə müştərək bağlaşma imzaladılar. Bu sənədi «Qaragençilər» qrupunun başçısı Barat Osipyan, kürd tərəfindən isə Hənifə «xanım» imzalamışdılar. Burada erməni və kürd millətləri arasında izdivac vasitəsi ilə qan qohumluğunun artırılması məsələləri də müzakirə edilib. Bu məsələ «XXI əsr erməni diasporunun siyasi-strateji vəzifələri» mövzusımda Yerevanda keçirilən məşvərətdə də qabarıq vurğulanıb.

## TERROR ÜÇÜN VƏSİQƏ

Tədqiqatımız zamanı məlum oldu ki, şair Mixail Dudinə 1992-ci il mayın 12-də Şuşanın işğalı münasibətilə üstündə «Böyük Ermənistan» xəritəsi çəkilmiş «Ermənistan Azadlıq Hərəkatı»nın bileti təqdim edilir (Nömrə: 04-105/22. İmza: A.Qukasyan. Yerevan bürosu). Qondarma «Dağlıq Qarabağ Respublikası»nın qondarma «prezident»i Arkadi Qukasyan 1992-ci ildən «ASALA»nın üzvüdür. Qukasyana ilk vəsiqə 1992-ci il martın 22-də Fransanın Leon şəhərində verilib.

Vəsiqənin nömrəsi isə UAF 03-111/214 olub. Təxminən bir ildən sonra, yəni 1993-cü il fevralın 21-də Arkadi Qukasyana Rusiyanın Krasnodar şəhərində yeni ikinci vəsiqə verilib. Hazırda Qukasyan «ASALA»ya üzvlüyü haqqında UAM 10-100/244 nömrəli vəsiqəni gəzdirir (Bax: Erməni tarixçisi M.Markaryanın 1998-ci ildə Axalkalakidəki erməni icması ilə görüşlərindən).

Həmin il Arkadi Qukasyan Ermənistanda ezamiyyətdə olan Portuqaliya erməni diasporunun «Shirac» (Ermənistanda yaşayış məntəqəsi) qrupu ilə Laçın, Kəlbəcər, Şuşa rayonları arasında koordinatoru idi. 1992-ci il oktyabrın 4-də A.Qukasyan «Ermənistan Azadlıq Hərəkatı»nın Yerevan bürosuna təyin edilir. 1990-cı il oktyabrın 2-dən «ASALA» terrorçu təşkilatının ttaliya bürosunda təşkilatla «Ermənistan Azadlıq Hərəkatı» arasında bağlanılmış müqavilənin şərtlərindən biri bu idi ki, hərəkat «ASALA»dan həm fiziki, həm hərbi, həm də ideya cəhətdən baza kimi istifadə etməlidir.

2001-ci il aprelin 21-də ABŞ Dövlət Departamentinin 43 terrorçu təşkilatın adlarını açıqlaması diqqətdən yayınmadı. Siyahının hazırlanmasında Departamentin Kəşfiyyat və Araşdırmalar İdarəsinin rəisi, polkovnik Morton Abramyan xüsusi fəallıq göstərmişdi. Həmin il oktyabr ayının 18-nə kimi bu idarənin rəhbəri olub və həmin tarixdən Morton Abramoviç kimi vəzifədən uzaqlaşdırılıb. Polkovnik Morton Abramyan (Abramoviç) beynəlxalq erməni diasporundan yardımlar alan və ABŞ-ın dövlət və hökumət, təhlükəsizlik orqanlarına ciddi maraq göstərən, bəzən onlara nüfuz edən, həmin dairələrdə özlərinə yuva quran «ASALA» və «Haydad» qarşısında missiyasını yerinə yetirdi. 43 terror təşkilatının siyahısından onların adını çıxara bildi.

## TERRORÇULARA YARDIM EDƏN BANKLAR

Yerevanın Alaverdiyan küçəsindəki 5 nömrəli binada qərar tutan «Ermənistan Azadlıq Hərəkatı»na maliyyə yardımı edən mərkəz də müəyyənləşdi: «Akopyan» bankı (Fransa, Livan mərkəzləri). Bank «ASALA»nın ideya daşıyıcılarından olan, Afinada 1988-ci ildə öldürülən və sonra yandırılan Akop Akopyanın adı ilə bağlıdır.

«Akopyan» bankı Şuşada «Arm. Ba «Acor» x «Ararat» - 220011-44421», Laçında «Arm. Ba «Acor» x «Liberation» - 0426-441», Kəlbəcərdə «Arm. Ba. «Acor» x «Secret-Au» - 13942/36» kodları ilə fəaliyyət göstərirdi. Bu bankların hər biri 1990-cı il noyabrın 13-dən Azərbaycan dövlətinin Şuşadakı bank sistemi ilə yanaşı, yerli bank əməliyyatlarında da iştirak edirdi. Bu bankların hər biri mənsub olduğu ərazilərdə fəaliyyət göstərən ermənilərin «kölgə iqtisadiyyatı»nda aktiv rol oynayıb.

Şuşa rayon ərazisində 1991-ci il iyun ayının 12-də «Qədirov-Asratyanbank» Dövlət Bankının vasitəçiliyi ilə bir neçə dəfə bank əməliyyatı aparıb. Nəticədə

Şuşa rayon Telman küçəsindəki 36 nömrəli binada qeyri-leqal fəaliyyət göstərən «Ermənistan Azadlıq Hərəkatı»nın bölməsinə, Bazi Ayrapetoviç Asratyanın adına 182 min manat pul köçürülür. Köçürülmə sənədinə görə «Qədirov-Asratyan» inşaat-tikinti dəstəsi Şuşada yeni mədəniyyət sarayı kompleksinin təməlini qoymalı idi. Əslində, həmin pul ərazidə ermənilərin xeyriyyə binasının inşasına sərf edilir. 1992-ci il iyunun 26-dan etibarən Şuşaya təyin edilən («Ermənistan Azadlıq Hərəkatı»nın Yerevan bürosunun polkovniki Georgi Sursoviç Adamyan tərəfindən) Gevond Filatoviç Ayrapetyanın sərəncamı ilə həmin bina «Ermənistan Azadlıq Hərəkatı»nın Şuşa bürosunun Bank Qərargahına çevrilir (Telefon: 20-84).

Hər şey Şuşadan idarə olunurdu. 1992-ci il sentyabrın 26-da Şuşada - Baş Qərargahda «Hayastan» (1991-ci il 4 iyul. Başçısı L.Gülbekyan), «Haydad» (filial. 1992-ci il 2 mart. Başçısı S.Karacanyan), «Ksammet» (filial. 1990-cı il 23 fevral. Başçısı kapitan N.Ağabekyants), «Artsax» (1989-cu il noyabr. Başçısı F.Feliksyan) təşkilatları yaradıldı və Rusiya erməni diasporunun liderlərindən olan Edvand (Edmund) Safaryan, Suriya erməni diasporunun Dəməşqdə təsis etdiyi «Yeish al-Shaab-Armenia» («Ermənistan xalq ordusu») cəmiyyətinin üzvlərindən Aqaran Stepanyan, Livan erməni diasporunun Beyrutda yaratdığı «Daşnaksütyun» təşkilatının hərbi qanadına başçılıq edən Abakum Avakyan eləcə də «ASALA» terror təşkilatının Fransa, İngiltərə, İspaniya, İran, Argentina, İraq mərkəzlərindən gəlmiş nümayəndələrin (L.Kasparyan, A.Duriyan, S.Tiqranyan, D.Sumbatyan, Ş.Ararat) iştirakı ilə hərbi müşavirə keçirildi. 1992-ci il sentyabrın 30-da isə Beyrutda erməni dilində nəşr edilən «Aztaq» («Mövqe») qəzeti müşavirəyə işarə edərək yazır: «Ermənistandan müxbirimiz Robert Badalyan məlumat verir ki, Şuşada Ermənistanı, eləcə də Dağlıq Qarabağı idarə edə biləcək güclü Təhlükəsizlik Şurası yaradıldı. Bu Şura Dağlıq Qarabağı azad və müstəqil edənədək yaşayacaq. «Ermənistan Azadlıq Hərəkatı»nın Yerevan bürosunun əlaqələndiricisi Arkadi Qukasyan Şura «özünümüdafiə dəstələri»nin hərbi qərargahına rəis müavini seçildi».

«Aztaq» qəzeti 1992-ci il oktyabrın 4-də dərc etdiyi «Erməni əsirləri» adlı yazısında qeyd edir: «Şuşada alınmış ilk əsirlərin sayı 16 nəfərdir. Onların hamısı uşaqlardır». Qəzet daha sonra yazır: «Bu uşaqlar qan içində qalmışdılar. Onların bir qismini üstünə örtük çəkilmiş maşınlara yığıb şəhərdən çıxartdılar». Bunu qəzetin erməni müxbiri (bu, ilk erməni qəzeti idi ki, Şuşada müxbir məntəqəsini yaratmışdı) Erem Lalayan yazırdı. Amma araşdırmalarımız bizim üçün başqa mənzərə açırdı. 1992-ci il noyabrın 4-də Ermənistan MN-nin hərbi hospitalında həkim-cərrah işləyən Armen Baqdasaroviç Baqdasaryan keçirilən müşavirədə (müşavirə Bakı vaxtı ilə saat 17:30-da başladı, saat 21:10-da tamamlandı) Şuşada yaradılmış amputasiya otaqlarının bağlanmasını tələb edir. Lakin müşavirə iştirakçılarının 11 nəfəri onun əleyhinə səs verdi və Baqdasaryanın işdən çıxarılması tələb edildi. 1992~ci il noyabrın 7-də hərbi həkim A.Baqdasaryan

vəzifəsindən azad edildi.

Amma erməni həkimin etirafı həqiqət idi. Şuşada Qarabağın tarixində ilk amputasiya otağı yaradılmışdı. Bu otaqlarda güllə yarası almış və eləcə də döyüşlər zamanı əzilmiş, minaya düşmüş uşaqların dağılmış əzaları kəsilib atılır, bəzən bilərəkdən onların gözləri çıxarılır, barmaqları sındırılırdı. Sonra ona-buna əl açıb dilənməkdən savayı heç bir işin qulpundan yapışa bilməyən azyaşlı şikəst uşaqlardan gəlir, varlanmaq mənbəyi kimi istifadə edirdilər.

## QADAĞAN OLUNMUŞ TİBBİ ƏMƏLİYYATLAR

Araşdırmamız zamanı məlum oldu ki, ilk amputasiya otaqlarından birinə Laura Leonovna İşxanyan adlı bir qadın başçılıq edib və bu 2 nömrəli amputasiya otağından artıq 9 nəfər 10-11 yaşlı əsir düşmüş azərbaycanlı uşaqlar keçmişdi. 1993-cü ilin fevral ayında Şuşada ikinci amputasiya otağı açılır. Burada əməliyyatlar adətən qadın əsirlərimizin üzərində aparılırdı. Yeni otağa başçılığı Yevelina Qalustyan edirdi. Həkim Y.Qalustyan Bakıda mitinq və iğtişaşlar başlamazdan öncə Bayıldakı 5 nömrəli doğum evinin həkimi olub. Bir neçə aydan sonra Y.Qalustyana cərrahlar Aida Saanyan, Arina Arutunyan, Lidiya Asratyan qoşulur. 1992-ci ildən 1993-cü ilin sonunadək Qarabağın ərazisində əlavə altı yerdə amputasiya otağı fəaliyyət göstərirdi:

1. Laçın rayonu Qarıqışlaq kəndində həkim V.Nazaryanın qrupu;
2. Qubadlı rayonunda həkim U.Rafaelyanın qrupu;
3. Kəlbəcər rayonunun Zar kəndində həkim Q.Aratanqesyanın qrupu;
4. Şuşa - Mahbəyli kəndində həkim O.Babayanın qrupu;
5. Gorus ərazisində - Mərkəzdən 1 km aralı şimal istiqamətində həkim L.İracyanın qrupu.

İnsanlıqdan uzaq, heç bir beynəlxalq hüquq normalarına sığmayan bu amputasiya otaqları və bu otaqlarda aparılan bütün cərrahiyyə əməliyyatları Şuşada, Baş Qərargahı Xankəndidə yerləşən, Yerevanın Alaverdiyan küçəsi 5-dən idarə olunan «ASALA» terror təşkilatının qollarından biri «Erməni Azadlıq Hərəkatı»nın liderlərindən olan Arkadi Qukasyanın «hərbiləşdirilmiş proqram»ı əsasında həyata keçirilirdi.

Amputasiya otaqlarından çıxan, şikəst hala salınmış əsir azərbaycanlılar dilənmək üçün ərəb ölkələrinə, eləcə də Almaniyaya, Fransaya, İtaliyaya, İngiltərəyə erməni diasporlarının sərəncamına göndərilirdi.

Cərrah bıçağı altından çıxa bilməyənlər üçün erməni qəbiristanlıqlarından kənar yerlərdə ölünün adı, soyadı göstərilməyən məzarlıqlar salınırdı, daha doğrusu, çalalar qazılır, meyitlər bu çalaya atılıb üstü torpaqlanırdı.

İraqda kimyəvi, bioloji silahlar, zəhərli qazlar axtaran BMT nümayəndələrinə xatırlatmaq yerinə düşər ki, yollarını Ermənistandan və

Qarabağdan salsınlar. Kütləvi şəkildə güllələnmiş, zorla amputasiya otaqlarına salınmış, lakin cərrahiyyə əməliyyatlarından sağ çıxmayıb ölən günahsız uşaqların, qadınların, qocaların basdırıldığı qəbiristanlıqlara baxsınlar. Həmin gizli qəbiristanlıqların ərazi dairəsi bunlardır:

1. Kəlbəcər rayonu üzrə (Başlıbel yaşayış ərazisində. Cənub-şərq istiqaməti. Dəlidağın ətəyi. Uşaq qəbiristanlığı. 1994-cü il iyun ayının 9-da ilk uşaq basdırılıb);
2. Zəngilan rayonu üzrə (İsgəndərbəyli kəndi ərazisi. Şimal istiqaməti. 1994-cü il mayın 3-də ilk ölü hamilə qadın oğlu ilə basdırılıb);
3. Əsgəran rayonu üzrə (Naxçıvanik kəndi ərazisi. Şərq istiqaməti. 1995-ci il avqustun 16-da ilk uşaq basdırılıb);
4. Cəbrayıl rayonu üzrə (Dağ-Tumas kəndi ərazisi. Qərb istiqaməti. 1995-ci il iyulun 26-da ilk ölü basdırılıb. Dəfn olunan 10-11 yaş arasında olub).

Azərbaycan ərazisində - Qarabağ, Bakı, Sumqayıt, Gəncə, Naxçıvanda «Artsaxın azadlığı uğrunda komitə» adlı təxribatçı və terrorçu dəstə 1988-ci ildən fəaliyyətə başladı. Ona qədər dəstənin üzvləri xaricdə, xüsusən Fransa, Livan, İran və Amerikada xeyriyyəçiliklə məşğul olurdular. O vaxt bu erməni təşkilatı «Artsax ermənilərinin xeyriyyə fondu» adlanırdı. 1985-ci il iyulun 22-dən etibarən təşkilat özünün Leondakı iqamətgahında konfransını keçirir və «ASALA» erməni terror təşkilatına yardımçı orqan kimi fəaliyyət göstərməklə «Artsaxın azadlığı uğrunda komitə»yə çevrilir.

Bu zaman təşkilatın qarşısında üç mühüm vəzifə qoyulur:

a) Azərbaycan müxalifətində və KİV-də özəklərin təşkili;

b) Azərbaycanda erməni ilə qan qohumluğu olan ictimai-siyasi xadimlərlə əlaqələrin qurulması və yaxud bərpası;

c) Şərqi Avropada geniş fəaliyyət göstərən «Erməni azadlıq hərəkatı»nın Yuqoslaviya və Polşadakı qərargahları ilə əlaqələrin genişləndirilməsi.

«Artsaxın azadlığı uğrunda komitə» Dağlıq Qarabağı silahla təmin edən təşkilat olmalı idi. Əslində 1989-90-cı illərdə bu missiyanı yerinə yetirməyə başlayan təşkilat polkovnik Vazgen Baqramoviç Sisliyanın rəhbərliyi ilə Yuqoslaviyadan ilk silah və sursatını alır. Silahın Xankəndinə daşınma yolu Belqrad-Tehran-Xankəndidən keçirdi. Hazırda bu, həm də narkobiznes yoludur. «ASALA» polkovniki 1998-ci il fevralın 4-də Livandakı «Əl-Qaida» nəşriyyatında çap edilən «MDB ölkələrindəki dostlarım» kitabının 26-cı səhifəsində yazır: «Mən Bakıda 1988-ci ildə - düz on il qabaq oldum. Azərbaycan dilini gözəl bildiyimdən yerli adamlardan seçilmirdim. 1990-cı il fevralın 21-də müxalifət partiyalarından birinin üzvü oldum. Mənim albomumda Bakı müxalifətində dayanmış liderlərlə çəkdirdiyim fotoşəkillər var. Onların hamısını tanıyıram. Onlar torpaqdan, ailədən çox hakimiyyət uğrunda vuruşmağa hazır olan

məntiqsiz və aciz uşaqlardır. Dağlıq Qarabağa gəlincə, o torpaq artıq bizimdir. Fotoşəkilə baxın. Əlini boynuma salan bu şəxs Bakıda müxalifətdə dayanmış liderlərdən biridir. Onun adı».

Nə qədər maraqlı da olsa, həmin şəxs - «Artsaxın azadlığı uğrunda komitə»nin liderlərindən olan polkovnik Vazgen Sisliyanla qol-boyun dayanan bu müxalifət lideri bu gün prezidentlik iddiasındadır. Həmin illərdə, yəni Qarabağın işğalı dövründə MDB ölkələrində məskunlaşmış erməni diasporunun, kilsə keşişlərinin beynəlxalq təşkilatlara ünvanlanmış məktublarına nəzər salaq.

a) «ABŞ Konqresinə. İnsan Hüquqları Komitəsinin həmsədri cənab Con Edvard Porterə.

Biz - Dağlıq Qarabağ erməniləri çox şadıq ki, haqq və ədalət işimizi demokratiyanın beşiyi olan Amerika Birləşmiş Ştatlarında müdafiə edirsiniz. Bəli, siz məsələni düz qoyursunuz. Dağlıq Qarabağ bizim ədalətli döyüş səhnəmizdir. Amma bu döyüş səhnəsində azərbaycanlılara türklər kömək və yardım edirlər. Silah və sursat verirlər. Bütün bunlar gözlərimiz qarşısında olur. Amma vuruşuruq. Ölənədək vuruşuruq. Xanınımız Katrin Porterə də salamlarımızı yetirin. Hörmətlə: «Erməni Azadlıq Hərəkatı»nın şura üzvü Levon Abakumoviç Abqaryan. 1993».

b) İngiltərə-Ermənistan parlament qrupunun başçısı cənab Oder Bazilə.

«Dağlıq Qarabağdakı mübarizəmizi «ədalətli mübarizə» adlandırdığınız üçün sizə minnətdarıq. Biz Londondakı erməni lobbisinin etdiyi yardımdan da məmnun qaldıq. Biz haqq işimizi qurban verən məğlub millət olmadıq. Çünki apardığımız mübarizə gərəkli və lazımlı işdir. Qəlbən: «Artsaxın Azadlığı Uğrunda Komitə»nin üzvləri: professor Qriqoryan, doktor Ter-Qriqoryants, doktor Alixanyan» Dekabr, 1993-cü il).

A.A.Ambarsumyan (politoloq-filosof):

«Hamımız «Böyük Ermənistan» xülyasında itib-batmışıq. Bu sonu görünməyən siyasi bataqlıqdır.

Biz Dağlıq Qarabağda həm mənəvi, həm də fiziki, siyasi cəhətdən iflasa uğradıq. Bunu anlamaq, dərk etmək lazımdır.

Azərbaycanlılar torpaq və övlad qisasını bizdən alacaqlar. Mən bundan çox qorxuram».

(Bax: Ermənistan. «Asun» informasiya agentliyinə verdiyi müsahibədən. 2002.VII.9.)

## TERROR OLUNMUŞ ƏRAZİ

1992-ci ildən Ermənistan hərbi kəşfiyyatında xidmətdə olan polkovnik Daniel Aruşanbekyan 2001-ci ilin mayından başlayaraq, «Vətən» Cəmiyyətinin Fransa bölməsində, 1996-cı ildən Yerevan Təhlükəsizlik Xidmətinin İcevan rayon şöbəsində rəis müavini işləyən polkovnik Marsel Avakyan «Hayastan» Xeyriyyə

Cəmiyyətinin Xankəndi şəhər mərkəzində aparıcı vəzifələrdən birini tutub və bu adamlar bilavasitə əsir uşaqların xaricə daşınmasında, onların terrorçuluqla məşğul olan təlim düşərgələrinə göndərilməsində, zəhərli dərman fabriklərində, uran aşkarlayan zavodlarda işlədilməsində ittiham olunası adamlardır. Ata və analarından məhrum olan, kimsəsiz və tənha qalan bu uşaqların bir neçə ildən sonra öz vətənlərinə terror aktlarını həyata keçirə biləcək şəxs kimi dönəcəklərinə şübhə yoxdur. Bu da maraqlıdır ki, Qərb, xüsusən ABŞ administrasiyası dünyada baş verən son terror aktlarında bilavasitə islam terrorçu təşkilatlarını günahlandırır. Halbuki ABŞ xüsusi xidmət orqanlarının «ASALA» erməni terror təşkilatının Livan, Fransa, Suriya, Kanada, Kipr, Argentina, İraq ərazilərində fəaliyyət göstərən təlim düşərgələri ilə birgə əldə etdikləri araşdırmalar təhlil edilsəydi, maraqlı və ciddi mənzərələrin, nəticələrin şahidi olardılar. Buna isə hələlik heç kəs ehtiyac duymur.

Bakı metrosunun partladılması planı da elə Beyrutdakı bir redaksiya binasında müzakirə edilmişdi. Bu da qərara alınmışdı ki, aktın həyata keçirilməsində kürdlərin radikal qanadlarından istifadə olunsun. Bununla əlaqədar PKK-nın Cənubi Kiprdə qərar tutan təlim düşərgəsinə də müraciət edilmişdi. Lakin «Ramr» təlim düşərgəsinin liderlərindən olan Cəlil Fəxr Alim belə bir aksiyada da iştirakdan imtina etmişdir. 1994-cü il iyunun 17-də keçirilən məşvərətin iştirakçısı Robert Köçəryanın fikrincə, bu aksiyada daha həssas olan ləzgi və yaxud talış etnik qrupundan istifadə edilməsi məqsədə uyğundur: «Azərbaycanda, ilk növbədə, dramatik bir mənzərə yaratmaq lazımdır. Növbəti hərbi əməliyyatlaradək biz həm psixoloji, həm də informasiya müharibələrində udmalıyıq. Bütün bunlardan sonra qələbə üçün şansımız təmin olunur. Rusiyasız və İransız heç bir qələbəmiz təmin olunmayacaq. Bunu dayaddan çıxarmayaq» (Qovluq: 19/210 - ünvan: Şkuleva 27/2).

1994-cü il iyunun 21-də Xankəndinə qayıdan Zori Balayan Şuşa, Laçm, Kəlbəcər, Kərkicahan, Qubadlı, Xankəndi şəhər həbsxanalarına baş çəkir. Kürd əsilli əsirlərin siyahısını tərtib edir. İyunun 24-də Xankəndidəki əsir düşərgəsində Azərbaycan ərazisində terror aktlarını plana uyğun həyata keçirə biləcək şəxslərlə ayrı-ayrılıqda söhbətlər aparır. İyunun 25-i saat 21:00-da Xankəndidə əsir kimi əzab və işgəncələrə məruz qalmış ləzgi Azər Salman oğlu Aslanovu tapır. Xankəndi hərbi əks-kəşfiyyatının mayoru Alik Manilyanın və müstəntiq Serj Ter-Qriqoryantsın iştirakı ilə keçirilən «verbovka» «əməliyyatı»nda iştirak edir. Bu zaman bədnam «yazıçı» «ASALA» beynəlxalq erməni terror təşkilatının tapşırıqlarını yerinə yetirirdi.

Müstəntiq Serj Ter-Qriqoryants 1996-cı ildə Zori Balayan haqqında «Böyük məktəb» yazısında («Aztaq» qəzeti. 3 noyabr 1996-cı il) qeyd edir: «Qaykoviç özünü əsl kəşfiyyatçı kimi aparırdı. O, nəzərdə tutduğu adam üçün əvvəlcədən tərtib olunmuş və hazırlanmış suallar seçirdi. Hiss edirdik ki, bu suallar

düşünülmüş, məqsədli suallar idi».

Bu fikirləri müstəntiq Serj Ter-Qriqoryants 1995-ci ilin may ayında nəşr etdirdiyi (Moskvada, «Akademiya» nəşriyyatında) «Между адам и раем» kitabında dolayısı ilə səsləndirmişdi.

Azərbaycanlı əsir Azər Aslanov Bakıda törədiləcək terror aktına təhrik edildi. 1994-cü il iyunun 3-də, saat 8.31 dəqiqədə «28 May» metro stansiyasında güclü partlayış baş verdi. 13 nəfər həlak oldu, 42 nəfər isə ağır yaralandı.

Amerika öz ərazisindəki terror aktına görə dünyanı ayağa qaldırır, Əfqanıstanı bombalayıb terrorçuların yuvalarını dağıdır. Ermənilərin Bakıda törətdikləri terror aktlarına isə Amerika da, İngiltərə də, Almaniya da, Rusiya da, İran da, Yaponiya da, Fransa da susurlar. Xatırladaq ki, Azərbaycana erməni terror qrupları tərəfindən edilən terror aktları Bakı neftində gözləri olanlar üçün köhnələ bilər. Tarix isə köhnəlmir. O, nəsildən-nəslə keçdikcə təzələnir.

Beyrutdakı qəzet redaksiyasında cızılan plan reallaşdı. 1994-cü il iyulun 14-də Zori Balayan İsfahandakı erməni icmasının lideri İşan Topuzyanla görüşə dəvət alır. İyulun 19-da Tehran hava limanında onu icmanın başçısı Topuzyan, kilsənin xəzinədarı - Qriqoryan, Ambarsumyan qarşılayır. İyulun 22-də saat 17.50 dəqiqədə İnqilab xiyabanındakı 14 nömrəli binada ermənilər qarşısında çıxış edir. Avqust ayının 14-də Zori Balayan «Vətən qarşısında göstərdiyi xidmətlərə görə» «Müqəddəs Georgi» ordeninə layiq görülür.

Azər Aslanov isə MTN-nin əməkdaşları tərəfindən həbs olundu. Hökm də oxundu. Onu bu çirkin əmələ təhrik edən Zori Balayan «İnterpol»un axtarışına verildi.

Bu bizim tarixdir. Amma çox təəssüf ki, biz bu tarixi tez unudub, yaddan çıxarırıq. Belə olmasaydı, Moskvada, Puşkino metrosu yanındakı «Alyona» restoranında erməni biznesmeni Aşot Markoviç Nersesyana 16 kq qara kürünü «toy payı» deyib, hədiyyə etməzdik.

Azərbaycanla əlaqədar nə RF-nın, nə ABŞ-ın, nə də İranın ədalət prinsipi yoxdur. Bu dövlətlərin hər birinin Azərbaycanın iqtisadi həyatı, xüsusən yanacaq resursları ilə bağlı şəxsi maraqları var. Bu maraqlar həmin dövlətlərin milli təhlükəsizlik konsepsiyalarının tərkib hissəsidir və Ermənistan bu dövlətlərin strateji proqramlarında işğalçı dövlət kimi deyil, islahatlar aparan demokratik bir dövlət kimi qeyd edilir. Məhz bu baxımdan, Qarabağ işğalçı ermənilərin əlində nəzarətsiz bir region kimi qalıb. Bu regionda iki oyuncaq «respublika»nın yaranacağına da şübhə etməyək. Rusiya Dövlət Dumasının sədri Gennadi Seleznyovım fikirləridir: «Olmayacaq on beş respublika, olacaq on doqquz respublika. Keçmiş SSRİ məkanında bunlar olacaq» (21 noyabr 1992-ci il. «İTAR-TASS»). Demək, gələcəkdə DQ-ın bölünmə və yaxud parçalanma ehtimalı daha çoxdur. DQ regionu sözün məntiqinə görə, «ASALA» və PKK arasında artıq bölünüb. İnanmırıq ki, belə bir bölgüdən RF-nin, ABŞ-ın və İranın xəbəri olmasın.

ATƏT-in fəaliyyəti isə beynəlxalq qurum kimi sıfıra bərabər olacaq və bu məsələ həll edildikdən sonra o, bir qurum kimi ləğv olunub gedəcək. Buna da hazır olaq ki, günün birində həm RF, həm ABŞ, həm İran, ümumən NATO-ya üzv ölkələr Qarabağı və regionda qurulması davam edən Kürdüstanı tanıya bilərlər. Ətrafımızda baş verən siyasi hadisələr bizi məhz bu yola çıxarır. Belə olmasaydı, Rusiya Dövlət Duması 1998-ci il oktyabrın 2-də «Государственная Дума - Курдская проблема» geosiyasi məsələləri müzakirəyə çıxartmaz, materiallar toplusundan ibarət 2 min tirajla kitab çap etdirməzdi. Kitabın girişində deyilirdi: «Курды и Курдистан для России имели и имеют стратегического значение». Kitabın sonunda isə Kürdüstan Respublikasının xəritəsi verilib. Araşdırmalarımızdan bu da aydın oldu ki, Azərbaycan ərazisində əllinci illərdən sonra 1988-ci ilədək tikilən və yaxud enmə və uçma zolaqları bərpa edilən (yük, qırıcı və yaxud bombardmançı təyyarələr üçün) hərbi hava limanlarının rabitə-kommunikasiya xətlərinin qurulmasında bilavasitə milliyyətcə erməni olan layihəçi-mühəndislər, texniklər iştirak ediblər. Məsələn, Kürdəmirdə (general - «MİQ-28» üzrə mütəxəssis S.Mikoyan), Gəncə-Qazax istiqamətində (polkovniklər O.Arutunyan və Sankt-Peterburqdan gəlmiş layihəçi qrupun başçısı mühəndis polkovnik L.Simonyan), Bakı ətrafındakı limanların salınmasında (polkovnik X.Siraqbekyan) ermənilər özlərinə uyğun bir plan əsasında, lakin «Rusiyanın Azərbaycan siyasəti» istiqamətində işləyiblər və bütün bunlardan sonra Azərbaycan ərazisində Amerika HHQ-nə məxsus hər hansı bir hərbi baza yerləşdirilməsi mümkün deyil. Çünki aeroportların enmə və uçma zolaqları NATO standartlarına əsasən istehsal olunmuş hərbi təyyarələr üçün nəzərdə tutulmayıb. Azərbaycan ərazisindəki hərbi hava limanları «SU» və «MİQ» təyyarələri üçün yarayır. Bunun üçün hava limanlarımız yenidən qurulmalıdır. Buna isə vaxt tələb olunur. Məsələn, Marneuli (Gürcüstan) hərbi hava bazası ABŞ-ın «B-52» qırıcı-bombardmançı təyyarələrinin enməsi üçün əlverişli deyil. Həm örtük çat verir, həm də uçma və enmə məsafəsi üçün mühərrikin gücü çatmır. Odur ki, bu hərbi hava bazasının modernləşdirilməsi üçün 1,3 milyon ABŞ dolları ayrıldı.

## MÜASİR SİLAHLAR QARABAĞDA

Torpaqlarımızın işğalında Suriyaya icarəyə verilmiş Rusiya və Ukrayna HHQ-nə məxsus yük təyyarələri də fəallıq göstəriblər. Araşdırmalarımıza görə, təyyarələrdən birinin ekipajı «Matevosyan qrupu» adlanırdı. Qrup 1993-cü il mayın 6-da, iyulun 9-da Suriyanın Aleppo yaşayış məntəqəsindən Yerevana uçub, müxtəlif növ silah-sursat daşıyıb. Həmin silahların bir qismi Ermənistan MN-nin xətti ilə Dağlıq Qarabağ istiqamətində fəaliyyət göstərən, «özünümüdafiə» yarlığı ilə işğalçı mövqedə dayanan «ASALA» erməni terrorçu qrupları arasında bölüşdürüldü. Bir qismi isə 1993-cü il aprelin 16-da Dubayda keçirilən beynəlxalq

sərginin Rusiya Federasiyası bölməsində nümayiş etdirilən silahlar idi. Rusiyanın hərbi zavodlarında istehsal olunmuş müasir silahların Dubaydan Dəməşqə, oradan Yerevana, sonra isə Qarabağa ötürülməsi xüsusi planın tərkib hissəsi idi. Artıq Qarabağ silah anbarına çevrilmişdi. Məlumata görə, Qarabağda fəaliyyət göstərən «ASALA» terror qrupları üçün aşağıdakı dəyərdə silah və sursat göndərilmişdi:

- Xankəndidə yerləşən h/h 10-201 nömrəli «ASALA» qrupuna 72 min ABŞ dolları məbləğində müasir silah;
- Şuşada yerləşən h/h 01-604 nömrəli «ASALA» qrupuna 44 min ABŞ dolları məbləğində müasir silah;
- Kəlbəcərdə yerləşən h/h 61-601 nömrəli «ASALA» qrupuna 39 min ABŞ dolları dəyərində müasir silah.

Araşdırmalarımız zamanı bu da aydın oldu ki, Qarabağda fəaliyyət göstərən terrorçu qruplara ilkin nömrələr Ermənistan Müdafiə Nazirliyində verilmişdi. Dağlıq Qarabağda yaradılmış Baş Qərargahda isə bu nömrələri daşıyan qruplar hərbi hissə kimi qeydə alındı. «ASALA» erməni terrorçularının əlinə keçən ən müasir silah isə əsasən tank əleyhinə işlədilən «Şturm-S» silah kompleksi idi. Rusiya hərbi sənaye komplekslərində istehsal olunmuş bu silahın DQ ərazisində peyda olunması səbəblərini BQ (Moskva) heç cür aydınlaşdıra bilmirdi. Ekspert materiallarının araşdırılmasından sonra bu da bəlli oldu ki, 1994-cü il martın 25-i saat 23:30-da Moskva-Tehran reysilə uçan İran şirkətinə məxsus «S-130» «Her-kules» tipli sərnişin təyyarəsi Xankəndinin şimalında məhz həmin silahla vuruldu. Çünki təyyarə aşağıdan uçurdu. Ekspertlərin rəyində atılan mərminin sürəti, hədəf zərbəsi, dağıdıcılıq radiusu eynilə «Şturm-S» silahının əlamətləri ilə üst-üstə düşürdü. Nəticədə 32 diplomat ailəsi həlak oldu.

1993-cü il dekabrın 26-da isə Xankəndinə Fransanın Viller-Kotre yaşayış məntəqəsindən üstündə məxfi möhürü olan (məktublar ilkin olaraq Ermənistanın MN-nə göndərilmişdi) iki bağlama göndərilir. Bağlamaları Ermənistan MN-nin BQ-də çalışan zabit Aslanyan çatdırmışdı. Dekabrın 27-də həmin bağlamalar DQ «özünümüdafiə komitəsi»nin BQ-da açıldı. Üstündə «Böyük Ermənistan» xəritəsi çəkilmiş və «ASALA» sözləri yazılmış biletlər təntənəli şəkildə sahiblərinə - Robert Köçəryana və Zori Balayana təqdim edildi. Hər iki bilet nömrəsiz idi. Ermənilər belə biletlərə «fəxri-təəssübkeş biletlər»i deyirdilər. Hər iki biletdə möhür və «Tilovyan» imzası var idi (Barat Tilovyan «ASALA»nın DQ-dakı daimi nümayəndəsi kimi səlahiyyətə malik olsa da, hələlik təşkilatın Fransadakı BQ-da çalışırdı). Beləliklə, Zori Balayan və Robert Köçəryan əsl terrorçu kimi «ASALA»nın fəxri siyahısına düşdülər.

## QADAĞAN OLUNMUŞ HƏQİQƏT

Biz isə antiterror əməliyyatları deyib dayandıq. Heç bir simpozium və görüşlərdə, yığıncaq və konfranslarda ermənilərin ərazilərimizdə törətdikləri terrorçuluq cinayətlərini ifşa edə bilmədik. Adicə 2001-ci il dekabrın 20-də Bakıda keçirilən «İslam terrora qarşı» beynəlxalq konfransında beynəlxalq terrorizmin tərkib hissəsi olan erməni terrorizminin törətdiyi cinayətlərdən söz açılmadı. Halbuki dünya mətbuatı artıq erməni terrorçularının «Əl-Qaida»çılarla, «Əl-Mühacirun» təşkilatı ilə əlaqələrindən materiallar dərc edir. Əvəzində öz torpaqları uğrunda vuruşan Fələstin ərəbləri dünyaya terrorçu dəstələri kimi tanıdıldı. Konfrans «başbilən»ləri bu irada cavab olaraq iddia edirdilər ki, tədbirdə göstərilən Fələstin ərəbləri haqqında 15 dəqiqəlik bu film Moskvadan alınıb. Xatırladaq ki, Rusiyanın heç bir rəsmi dövlət sənədində Fələstin ərəbləri terrorçu kimi tanıdılmır. Azərbaycan ərazisində nəyinsə və kimlərinsə xatirinə atılan bu cür səbatsız addımlar, şübhəsiz, bu sahədə ciddi səhvlərin sabahkı acı nəticələrindən xəbər verir. Bu isə problem yaradacaq. Buna indidən hazır olmaq gərək.

Digər tərəfdən, konfransın təşkilatçısı olan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, görünür, ABŞ Dövlət Departamenti tərəfindən aldığı «yarıtmaz» qiyməti düzəltməyə cəhd edib. Belə ki, 2001-ci il noyabrın 27-də ABŞ Dövlət Departamentinin «Demokratiya, insan hüquqları və əmək məsələləri bürosu» Azərbaycan Respublikası prezidentinə məktub göndərib. Məktubda Komitədə işlərin düzgün qurulmamasından bəhs edən ciddi tənqidi fikirlər və iradlar var. Aldığımız əlavə məlumata görə isə, ölkə başçısı baş verən insidentli və qalmaqallı konfransdan narazı qaldığını bildirib. Prezident Tehrana səfəri qabağı belə ziddiyyətlərin yaranmasını məntiqə uyğun hesab etməyib.

Artıq «Bin Laden. Qadağan olunmuş həqiqət» adlı bir kitab fransız dilindən erməni dilinə tərcümə olunub Ermənistanda və Dağlıq Qarabağda satılır. Kitab 1998-ci ildə Parisdə «İntellicens onlayn» nəşriyyatında çap olunub (Müəllifləri: Jan-Şarl Prizar və Qiyom Dasks). Biz kitabın ərəbcə (bu kitab həm ərəbcə, həm də ingiliscə çap olunub) nüsxəsini vərəqlədik. Qadağan olunmuş həqiqətlər çoxdur. Müəlliflər beynəlxalq terrorizmlə bağlı fikir və şərhlərini tutarlı sübutlarla, fakt və sənədlərlə təhlil edirlər. Kitabda qadağan olunmuş həqiqətlərdən biri də budur: «Çox qapalı və maraqlı məsələlər var. Səudiyyə Ərəbistanı - bin Ladenin məkanı terrorçular ölkəsi kimi heç yerdə qeyd olunmur. Çünki ABŞ belə istəyir. Həqiqətdir ki, bu, ABŞ-ın istəyindən asılı olan bir işdir. Çünki onun dünya bazarındakı neftə görə mövqeyi böyükdür. Əgər bu neft məsələsi olmasaydı, o (yəni Səudiyyə Ərəbistanı) birinci yerdə olardı» (səh. 56).

Araşdırma materiallarına görə erməni separatçıları «türkü türklə, azərbaycanlını azərbaycanlı ilə ifşa etmək (?) taktikasını üstün tutublar. Məsələn, azərbaycanlı şair Əhməd Nuruzadəyə «Salam olsun, sizə ermənilər» kitabını yazdırdılar. Kitab üçün ona 25 min ABŞ dolları verdilər. Azərbaycandan

Ermənistana müxtəlif demokratik layihələr altında bir sıra şəxsi dəvət etdilər. 2002-2006-cı illərdə Azərbaycandan 89 nəfər qeyri-qanuni olaraq speparatçı rejimlə işğal olunmuş ərazilərimizdə «görüşə» gedib. Bəziləri həvəsə gələrək, özləri getdilər. Separatçıların şəninə badə qaldırdılar. Bunlar kimlər idi? Sual hələ ki, cavabsızdır.

Başqa bir misal. Türk araşdırıcısı Burcu Gültəkinin NATO-nun ayırdığı qrant hesabına yazdığı «NATO-nun cənub-şərq sərhədlərində regional əməkdaşlığın perspektivləri: Cənubi Qafqazda Türkiyə-Rusiya əməkdaşlığının inkişafı» adlı kitabı (1906-cı il, Brüssel) bütünlüklə Ermənistanın maraqlarını əks etdirir. Bu barədə APA-ya Avropada fəaliyyət göstərən türk dərnəklərindən məlumat verilib. Kitabın elektron versiyası NATO-nun rəsmi saytında (www.nato.int/acad/ fellow/04-05/fD4-05.htm) yerləşdirilib. Sözügedən kitabın müəllifı Sovet İttifaqı rəhbərliyinin 1920-ci ildə Ermənistanın etirazına baxmayaraq, Naxçıvanı Azərbaycana verdiyini iddia edib. Müəllif Bakı-Tiflis-Ceyhan layihəsinin Türkiyənin maraqlarına cavab vermədiyi qənaətindədir. Burcu Gültəkin iddia edib ki, hazırda Ermənistanda 20-dək türk şirkəti fəaliyyət göstərir. Onun sözlərinə görə, Ermənistanla Türkiyə arasında nəqliyyat əlaqəsini Gürcüstan vasitəsilə «Aybakı», «Mahmudoğlu», «AST», «Buse» türk firmaları həyata keçirir. Bütün bunlar Ermənistanın Azərbaycana qarşı informasiya müharibəsindən yeni uzunmüddətli proqramın başlanğıcına işarədir.

## AZƏRBAYCANA QARŞI XÜSUSİ SEPARATÇI PLANLAR

Vaşinqtondakı Erməni-Kürd Araşdırmalar Mərkəzinin başçısı doktor Nauk Astarcanyanın (nəvə Astarcanyan) fikrincə, «Qartal təsviri vətən və torpaq itkisinə məruz qalmış türklərin əlində girova çevrilmiş kürdlərin rəmzi nişanıdır. Bu rəmz mifdən çox həqiqət olduğundan bizim dünyəvi işarəmizlə eynidir». (H.Astarcanyan: «Nəticələr». Mərkəzin aylıq bülleteni, 2000-ci il, səh. 23).

Dağlıq Qarabağın «Özünümüdafiə Komitəsi»nin tezislərini hazırlayan (1991-ci ilin iyun ayının 14-də) Nauk Astarcanyan «Böyük Ermənistan. Böyük Kürdüstan» başlıqlı sənəddə iddia edir ki, ermənilərlə kürdlər tarixi baxımdan, bir-birlərinə həmişə yaxın olublar: «Tale əsrlər boyu hər ikixalqı əzab və işgəncələrə məruz qoyub». Daha sonra H.Astarcanyan xatırladır: «Qurulmuş respublikaların hər ikisində təhlükəsizlik məsələləri önə çəkilməlidir».

1993-cü il avqustun 16-da isə H. Astarcanyan o vaxt «DQR» özünümüdafiə Komitəsi» adlanan qondarma bir quruma sədrlik edən Robert Köçəryana belə bir məktub göndərir: «Başçılıq etdiyim mərkəzin sizin başçılıq etdiyiniz qurumun nəzdində bir bölməsini yaratmaq planımız var. Bu bölmə sizin ən məxfi işlərinizi görmək iqtidarında olacaq. Çünki sizin ərazilərdən Vaşinqton bürosuna daxil olan məlumatlar dəqiq deyil. Fəaliyyətinizlə bağlı verdiyiniz informasiyalar bizi

çaşdırır. Görünür, işinizdəki çatışmazlıqlarla əlaqədar əlavə Livan görüşünə ehtiyac var».

H.Astarcanyanın qeyd etdiyi Livan görüşü Yerevanda buraxılan «Müasir erməni tarixi» kitabının 87-ci səhifəsində əksini tapıb. Bu görüşün mahiyyətini Dağlıq Qarabağ ərazisində «Neft Bakısına qarşı», «Müstəqil Azərbaycana qarşı», ümumən türk dünyasına qarşı yaranacaq və yaranması zəruri sayılan məxfi orqanların kəşfiyyat və əks-kəşfiyyatın proqramı təşkil edir. Göstərilir ki, «Böyük Ermənistan dövlətini yaradarkən birinci onun düşmənə qarşı amansız xətt götürən kəşfiyyat və əks-kəşfiyyat qurumlarını yaratmaq vacibdir. Kəşfiyyatsız Ermənistan və DQ ölümə məhkumdur».

Qeyd edək ki, Livan görüşü ilk dəfə 1992-ci il mayın 17-də Beyrutda keçirilib. Görüşdə DQ-ni təmsil edən 9 nəfər, o cümlədən Robert Köçəryan, Zori Balayan, Naira Melkumyan, D.Manuçaryan, E.Qriqoryan, A.Gevorkyan iştirak edirdilər.

Erməni-Kürd Araşdırmalar Mərkəzi «ASALA» erməni terror təşkilatının Baş Qərargahı üçün (Fransa, Livan) görüləcək işlərin strateji, hərbi-döyüş «konspekti»ni hazırlamışdı. Mərkəz 1992-ci il mayın 21-də Yerevana və DQ-nin ayrı-ayrı silahlı birləşmələrinə surğucunda «Armenia-Rekord-4» işarəsi olan məxfi məktublar yola salıb (?). Bu məktublarda işğalçılıq siyasətini həyata keçirməkdə davam edən erməni terror dəstələri üçün Azərbaycan ərazisindəki bütün hərbi yüksəkliklərin, istehkamların, strateji obyektlərin hərbi xəritələri, nişanları, mühafizə nöqtələri açıq-aşkar qeyd edilirdi. Mərkəz tərəfdən bu da tövsiyə olunurdu ki, «Böyük Kürdüstan» ideyasının daşıyıcıları ilə təxirəsalınmaz görüşlərin keçirilməsi regiondakı «ASALA» qrupu üçün vacib şərtlərdən biridir. Çünki regiondakı kürd faktoru böyük maneədir. «Onu tənzimləmədən qələbə qazanmaq mümkün deyil». Bu, «ASALA»nın Laçın bürosunun rəhbərinin, əvvəllər RF-nın qoşun birləşmələrində, sonra Razdan hərbi komissarlığında işləyən, 1991-ci il dekabrın 12-dən Laçında dəstəyə qoşulan polkovnik Barxudar Qiçakyana məsləhəti idi.

1992-ci ilin iyun və 1993-cü ilin noyabr ayında ermənilərin kürdlərlə iki görüşü keçirilir. Görüşlərdən biri Maku şəhərində (İran İslam Respublikasının qərb hissəsi) keçirilir. Bu görüşdə hər iki tərəfin səlahiyyətli nümayəndələri iştirak edirlər. Kürd «mücahidləri» tərəfdən PKK lideri Abdulla Öcalanın qardaşı Hüseyn Öcalan bu görüşün təşkilatçılarından idi.

1992-ci il sentyabrın 19-da isə Zəngilan və Qubadlı istiqamətində hərəkət edə biləcək «Erməni azadlığı uğrunda hərəkatın 6 yerdə özəyi yarandı. Regionda geniş miqyaslı işğalçılıq və talançılıq proqramı ilə hərəkət edən bu terror qruplarının 83 üzvündən 47-si «ASALA»nın Livan məktəbindən gəlmişdi. Nəticədə 1993-cü il aprelin 3-də Laçının (1835 kv.km), iyulun 23-də Ağdamın (1094 kv.km), avqustun 23-də Cəbrayılın (1050 kv.km) və Füzulinin (1386

kv.km), avqustun 31-də Qubadlının (802 kv.km), oktyabrın 30-da isə Zəngilanın (707 kv.km) işğalında bu cinayətkar təşkilatlar yaxından iştirak etdi. Beləliklə, növbəti görüş üçün zəmin yarandı.

«ASALA» liderləri ilə PKK liderləri arasında ikinci görüş 1993-cü il noyabrın 9-da Ermənistan ərazisində başlandı. Bir həftə davam edən görüşdə Zori Balayan, silahlı birləşmələrə başçılıq edən Robert Köçəryan və PKK lideri Abdulla Öcalan iştirak edirdilər. Görüşə «Kürdüstan milli azadlıq hərəkatı»nın lideri, general Amid Candora da qatılmışdı.

Uzunmüddətli araşdırmalardan sonra bu görüşün mahiyyəti də açıldı. Moskvanın Şkuleva küçəsindəki 27/2 nömrəli ünvanda saxlanılan üstündə «Для справки» yazılmış və vərəqələrinə bir neçə dairəvi, üçkünc möhürlər vurulmuş 16-cı sənədlər qovluğu çox mətləblərdən xəbər verir. Bu qovluqda erməni-kürd təşkilatlarının birgə bank hesab nömrəsi də var: RF, Moskva, «Мостройбанк», «MFO-201575». Bu bank hesabı «Böyük Ermənistan» və həm də «Böyük Kürdüstan» istiqamətində aparılan nəşriyyat-çap işlərində güclü maliyyə mənbəyidir.

Üzərində «Для справки» yazılmış 211 səhifəlik qovluğun 136-cı səhifəsində 1993-cü il noyabrın 9-da Ermənistan ərazisində keçirilən siyasi görüşün nəticəsi olaraq imzalanmış və yaxud tərəflər arasında bağlanmış müqavilənin çıxarış sənədi də var.

Sənədlərdən məlum olur ki, «Sevan üçlüyü» kodu ilə keçirilən görüşdə qərar çıxarılır ki, kürdlərin separatçı PKK terrorçu təşkilatının Baş Qərargahı 2005-ci il iyunun 19-dək Ermənistan ərazisinə köçürülsün, bu barədə Baş Qərargahın Moskva, Tehran, İraq, Türkiyə, Azərbaycan, Orta Asiya, Dağlıq Qarabağ bürolarına məlumatlar verilsin. Hər ilin 6 ayında neytral zonalarda «strateji məsələləri həll edə biləcək» erməni-kürd birgə konfransı keçirilsin. Kürd-erməni görüşündə iştirak edənlərin siyahısı belədir:

- Levon Abramoviç Molnosyan: - («ASALA» Erməni Azadlıq Ordusundan);
- Nubar Rezaltovna Gevorkyan - («Artsax» Uğrunda Azadlıq Komitəsinin Almaniya üzrə koordinatoru);
- Cavad Kazımi - («Hayastan» təşkilatının Avropa erməni diasporu üzrə koordinatoru);
- Robert Setrakoviç Köçəryan - (DQ «Özünümüdafiə Komitəsi»nin sədri);
- Zori Qaykoviç Balayan - (DQ - qondarma «Böyük Ermənistan» üzrə ideoloq, yazıçı);
- Cəmil Bayik - («ARST» Kürdüstan Xalq Azadlıq Ordusunun lideri);
- Ümid Çandərə - («ERMK» - «Kürdüstan Milli Azadlıq Hərəkatı»nın lideri);
- Abdulla Öcalan - (separatçı - PKK lideri);
- Mustafa Vəkili - (DQ, Kürd Məsləhət Məclisinin üzvü).

## ABDULLA OCALANIN SEVAN GÖRÜŞLƏRİ

«Sevan görüşü»ndə iştirak edən bu adamların hamısı hərbi geyimdə idilər. Geyimlərin oxşar cəhətlərindən biri bu idi ki, hamısında qanadlarını açmış və ov dalınca uçuşa hazır olan qartal şəkli təsvir olunmuşdu.

1993-cü il noyabrın 11-də isə Robert Köçəryan, Zori Balayan və Abdulla Öcalan arasında üçtərəfli görüş keçirilir. Görüş Yerevan vaxtı ilə saat 16:00-da Sevan gölünün şimal-şərq hissəsindəki Çambarak deyilən erməni yaşayış ərazisinin girəcəyindəki dörd otaqlı birmərtəbəli binada keçirildi. Noyabrın 26-da isə PKK-nın BQ elə bu əraziyə köçürüldü. Qovluqdakı və araşdırdığımız materiallara əsasən tərəflərarası söhbətin mətni də qəribə idi:

**«Abdulla Öcalan:**

-Bizi narahat edən budur ki, alınmış əsir azərbaycanlı qadın və qızlar arasında kürd millətindən olanlar var. Onların azadlığını təmin edəsiniz. Bu, bizim üçün psixoloji cəhətdən çox gərəkli bir işdir.

**Robert Köçəryan:**

- Bizim bu barədə xüsusi komissiyamız var. Kürdlərə azadlıq veriləcək. Onlar Laçın və Kəlbəcərdə evlə, həyətyanı sahələrlə təmin olunacaqlar. Amma onların hamısı özünü azərbaycanlı hesab edir. İşimizi bu çətinləşdirir.

**Abdulla Öcalan:**

- Bizdə olan hesabat məlumatına görə, siz onların 13 nəfərini öldürmüsünüz.

**Robert Köçəryan:**

- Kürdlərin?

**Zori Balayan:**

- Bu, mümkün olan iş deyil. Amma komissiyanın üzvü kimi deyim ki, Şuşada əsir götürülmüş qadınlardan üç nəfəri intihar etdi. Bu məsələdə bizi ittiham etmək olmaz.

**Robert Köçəryan:**

- Biz kürdləri azad edəcəyik. Onlar bu müharibəyə zorla göndəriliblər. Onlar bu müharibəyə təhrik ediliblər.

**Zori Balayan:**

- Bunları araşdıran komissiya BMT-yə xüsusi məktub da hazırlayıb.

**Robert Köçəryan:**

- Biz istəyirik ki, kürd və ermənilərdən ibarət hərbi dəstələr təşkil edək. Xüsusi bir korpus yaradaq. Bu korpus bizim sənədlərdə 46 nömrəli hərbi korpus adlanır. Bizim əldə etdiyimiz torpaqların heç birini geri qaytarmaq fikrimiz yoxdur. Bu torpaqlar həm sizindir, həm də bizim. Biz bu torpaqları birlikdə azad etmişik.

**Abdulla Öcalan:**

- Biz Laçında Məsləhət Məclisimizi təşkil etmişik. «Böyük Kürdüstan» uğrunda fikrimiz qətidir.

**Robert Köçəryan:**

- Bütün bunlar türklərə qarşı birgə mübarizəmizin başlanğıcıdır. XXI əsr - bizim əsr, yəni haqq işi uğrunda mübarizə aparanların əsridir.

**Zori Balayan:**

- Bizim komissiya sizin təşkilatın «ASALA» erməni milli azadlıq ordusu ilə bağlaşmasını da xeyirli bir iş hesab edir. Çünki bu yaxınlaşma çoxdan lazım idi. Bizim belə yaxınlaşmamız düşmənlərimizi çox narahat edir. Əslində qorxudur. B и isə olacaq qələbələrin başlanğıcıdır.

**Abdulla Öcalan:**

- Bizim adamlar artıq «ASALA» tərkibində birgə təlimə də başlayıblar.

**Robert Köçəryan:**

- Sizin də təcrübənizdən istifadə etmək məqsədəuyğundur.

**Zori Balayan:**

- Biz artıq DQ-nin özünümüdafiə dəstələri üçün çeçen mücahidlərinin istifadə etdikləri «Strateji və taktiki döyüş planlarından ibarət «Yardımçı kitab» da hazırlamışıq, PKK-nın maraqlı taktiki döyüş manevrlərini də öyrənirik.

**Abdulla Öcalan:**

- Sizin Azərbaycandakı mövqeləriniz necədir? Bu barədə bizdə elə bir narahatçılıq yoxdur. Bizim mövqelərimiz lazımi qaydadadır. Rusiya ilə, İran hərbi dairələri ilə də münasibətlərimiz normaldır.

**Robert Köçəryan:**

- Bu barədə bizim dəstənin xüsusi planı var. Buna baxmayaraq, Azərbaycan ərazisindən kifayət qədər məlumat alırıq. Oradakı dayaqlarımızdan maksimum istifadə edirik, Qohumluq və dostluq əlaqələrimizi qoruyuruq.

**Zori Balayan:**

- Bizim üçün bu sahədə problem yoxdur. Əsir düşənlərin bir qismi könüllü bizimlə əlbir olmaları haqqında zəmanətlərini imzalayırlar. Onların dindirilməsindəy söhbətlərdə dostlarımız da çox vaxt iştirak edirlər.

Haşiyə: Əlavə səhifələrdə Zori Balayanın «dostlarımız» ifadəsinə aydınlıq gətirilir və məlum olur ki, hərbi əsirlərin dindirilməsində ermənilərlə yanaşı, Rusiyadan dəvət olunmuş mütəxəssislər də (əsasən FTX-dən və MKİ-dən) iştirak edirlər. Onlar xüsusən strateji informasiyalar toplayır, Azərbaycanın Müdafiə Nazirliyi sistemindəki, xüsusən Türkiyə ilə hərbi münasibətlərinə dair suallar verirlər. Şübhə etməyək ki, dindirmənin bu texnologiyası Ermənistan xüsusi xidmət orqanlarında indi də davam edir.

**Robert Köçəryan:**

- Bizim Bakıda fəaliyyət göstərən, müxalifətdə dayanmış qüvvələrlə və ayrı-ayrı şəxslərlə, siyasi-ictimai nüfuzu olan adamlarla xüsusi taktiki «hərəkət planımız» var. Bu planı bizim Fransadakı dostlarımız hazırlayıblar.

**Abdulla Öcalan:**

- Bizim də hərəkatın əsas xətlərindən birini elə bu təşkil edir. Bunsuz, yəni içəridə

dayaq dəstələrimiz olmasa, planlarımızın əksəriyyəti yarımçıq qalar».

(Bax: S.Ovanesyan: «Polkovnikin gündəliyi». Xankəndi. «Artsax» hərbi nəşriyyatı. 1998. s. 104-109)

## ERMƏNİSTANDAKI ƏSİR DÜŞƏRGƏLƏRİ

Ermənistan həmişə əsir və girov götürülmüş qadın və qızlarımızın dəqiq sayını açıqlamaqdan boyun qaçırır, daha doğrusu ehtiyat edir. Çünki əsirlərə edilən zülm və işgəncələr xüsusi proqramlar əsasında həyata keçirilir. Dünənə qədər qapalı qalan bu proqramlar araşdırmamız zamanı açıqlanır, qaranlıq məqamlara bir daha aydınlıq gətirilir. Məsələn, ermənilər 2000-ci il mayın 26-da Eheknadzor yaşayış məntəqəsində (Ermənistanın cənub hissəsində) 400 nəfərlik qadın həbsxanası istifadəyə veriblər. Əsir götürülmüş azərbaycanlı qadınların təqribən 60 nəfəri burada saxlanılır. Bundan əlavə biz Ermənistan və Qarabağ ərazisində 1994-2000-ci illər ərzində inşa edilən (əsasən Argentina, Portuqaliya, Əfqanıstan, Rusiya, İran, Çin fəhlələrinin əlilə tikilən) və bilavasitə azərbaycanlıların saxlandığı əsir düşərgələrinin də sayını müəyyənləşdirdik:

**a)** Vardenis (Şərqi Ermənistan) - uşaq düşərgəsi (250 nəfərlik);

**b)** Qetaşen (Martuni rayon ərazisi - qərb hissədə) - qadın düşərgəsi (380 nəfərlik);

**c)** Cermux (Şərqi Ermənistan) - qadın düşərgəsi (250 nəfərlik);

**ç)** Razdan (Qərbi Ermənistan) - uşaq düşərgəsi (180 nəfərlik);

**d)** Kəlbəcər (Zar kəndində - cənub hissədə) - qadın düşərgəsi (150 nəfər-lik);

**e)** Xankəndi (Kərkicahanda - cənub hissədə) - uşaq düşərgəsi (180 nəfər-lik).

Hər düşərgənin ərazisində adsız, ünvansız qəbiristanlıqlar salınıb. Məsələn, Kərkicahandakı uşaq düşərgəsi ərazisində ana və uşaqların birgə dəfn olunduğu qəbirlərin sayı hələ ki, 28-də dayanıb (Rəşt şəhəri. «Xəzər» məcliyyəsi. 1996-cı il may, səh. 26). Bunları müşahidə edən və müəyyən mənada yarımçıq açıqlamalar verən İsveç diplomatı Yan Eliassonun fikrincə: «Bütün beynəlxalq aləmdə həyəcan təbili çalınmalıdır. Mən Xankəndidə azərbaycanlı əsirlərin onlara verilən işgəncələrin şahidi oldum».

2001-ci il fevralın 13-dən etibarən işğal olunmuş Cəbrayıl rayonunun Xorovlu, Xocavənd (Muğanlı ərazisində) və Füzulinin Alxanlı kəndlərində «Artsaxın azadlığı uğrunda komitə»nin özəkləri yaradıldı. Fevralın 25-də isə Kəlbəcər rayonunun Qılıclı və Laçının Alxaslı kəndlərində «Kürdüstan milli azadlıq hərəkatı»nın dayaq dəstələri təşkil olundu.

Baş Qərargahı Laçında yerləşdirilən PKK-nın Məsləhət Məclisi də yaradıldı. ABŞ Dövlət Departamenti 2001-ci il aprelin 30-da PKK-nın adını terrorçu təşkilatların sırasında rəsmiləşdirdi.

2001-ci il martın 12-də isə «ASALA» erməni terror təşkilatının və eləcə də PKK kürd terror təşkilatının Yerevanda və Moskvada dayaq dəstələri yaradıldı.

Əsası 1990-cı il avqustun 26-da Portuqaliyada və sonra Argentinada qoyulan (sentyabr ayında isə Fransa, Suriya, Livan, Pakistanda şöbələri yaradıldı), bilavasitə «ASALA»çıların icra orqanına çevrilən «Erməni azadlıq hərəkatı»nın Yerevan bürosunun (Yerevan, Alaverdiyan küçəsi 5) «Bülleten»i dörd dildə nəşr edilməyə başlandı.

2001-ci il mayın 4-də isə (belə bir məktub 1993-cü il oktyabrın 10-da və 1999-cu il dekabrın 4-də də yazılıb) MDB ölkələri çərçivəsində fəaliyyət göstərən kürd təşkilatlarına on yeddi nəfərin imzası ilə aşağıdakı məzmunda məktublar yola salındı: «Открытое письмо лидерам и партизанам Курдистана. Меняется политическая карта мира, создаются новые суверенные национальные государства. Если мы упустим этот исторический момент, найдутся ли завтра (не в физическом смысле) курды, которые смогут хотя бы плюнуть на наши проклятые могилы? Наш враг только этого и хочет! Не пора ли курдам выйти из положения политических попрошаек? Сегодня вашими руками наши враги роют могилы курдам и Курдистану. Очнитесь! Курды, в конце концов, обязаны занять достойное место среди народов этого жестокого и весьма расчетливого мира!..»

Krasnodar vilayətindəki kürd diasporunun başçısı Mahmud Abdullayevin məktuba əlavə edilmiş fikirlərində isə xatırlanır: «...Территория Курдистана, куда больше чем Югославия, Абхазия, Кипр, КАРАБАХ, Палестина вместе взятые, и наконец курдов более 30 миллионов. Борьба курдов за независимость занимает одно из главных мест в мировом освободительном движении».

Mahmud Abdullayevlər bir qayda olaraq, ermənilər tərəfindən işğal olunmuş Dağlıq Qarabağı respublika kimi tanıyır və bu rüsvayçı erməni «azadlığı»na haqq qazandırırlar.

Mayın 10-da isə PKK tərəfindən Ermənistanda, Gürcüstanda, Qazaxıstanda, Rusiya Federasiyasında, Suriyada, Fransada, İranda, Türkiyədə, İraqda, Amerikada, Almaniyada, Yunanıstanda, Livanda, Liviyada, İngiltərədə, Əfqanıstanda, Pakistanda, Səudiyyə Ərəbistanında yaşayan kürd liderlərinə «Siyasi hesabat»dan çıxarışlar göndərildi.

Ermənistanda yaşayan kürdlərə ünvanlanmış məktubdan: «...Укреплять взаимосвязь Армении и Курдистана и постепенно влиться в национально-освободительную борьбу за освобождение своей Родины».

Gürcüstanda yaşayan kürdlərə ünvanlanmış məktubdan: «Укреплять связь с Курдистаном и усилить участие в борьбе за независимый Курдистан».

Azərbaycanda yaşayan kürdlərə ünvanlanmış məktubdan: «Территория бывшего Курдистанского уезда (округа Лачын, Кельбаджар, Джебраил, Кубатлы, Зангелан) стало ареной вооруженных столкновений. Прекратить процесс ассимиляции курдов и признать их право на национально-

территориальную автономию. Прекратить участие курдов в армяно-азербайджанской войне. Восстановить статус Курдистанского уезда 1923-1929 г.г. для возвращения курдов-беженцев на свои родные места».

Qazaxıstanda yaşayan kürdlərə ünvanlanmış məktubdan: «При возможности содействовать возвращению курдской автономии на бывшую территорию».

Rusiyada yaşayan kürdlərə ünvanlanmış məktubdan: «Внимание всех курдов направить на работу по восстановлению автономий на территории бывшего Красного Курдистана»

Araşdırdığımız materialların arasında Dağlıq Qarabağda, eləcə də Ermənistan ərazisində fəaliyyət göstərən «Çeqakron», «Yevkrapa», «Tiqrançılar» («Astvaçaqinlər»), «Erməni azadlığı uğrunda hərəkat», «Artsax uğrunda mübarizə ittifaqı» kimi terrorçu təşkilatların Yerevanda və Xankəndidə mərkəzləşdirilmiş koordinasiya şurası yaratdıqları haqqında məlumat var. Bu şura da, öz növbəsində, «ASALA» beynəlxalq erməni terror təşkilatının Fransa bürosuna bağlı bir orqan kimi fəaliyyət dairəsini genişləndirməklə məşğul olur. Nəticədə erməni təşkilatları 1992-ci il iyunun 14-də, 1994-cü il sentyabrın 25-də, 1999-cu il dekabrın 15-də MDB ölkələri çərçivəsində, eləcə də Qərb ölkələrində fəaliyyət göstərən erməni diasporuna, onun hərbi qanadlarına məktublar göndərir. Ermənilər həmin məktublarda hələ «Böyük Ermənistan» ideyasının bitmədiyini, müharibənin yarımçıq qaldığını xatırladırlar. Bu baxımdan, əlimizə keçən bir məktubun məzmunu da maraqlıdır. Məktub «Məxfidir» qrifi ilə möhürlənib. Yerevandan Misirdəki erməni kilsəsinin arxiyepiskopu Vazgen Çinginyana ünvanlanmış bu məktub RP FTX-nin zabiti Lev Alekseyeviç Novikovun əlinə keçir və 1993-cü il noyabrın 20-də «Кубанский курьер» qəzetində dərc olunur. 2000-ci il iyulun 19-da və 2001-ci ilin sentyabrında isə ayrı-ayrı vərəqələr şəklində MDB ölkələri ərazisindəki erməni diasporları arasında yayılır. Məktubda deyilir: «Misir erməni kilsəsinin arxiyepiskopu (Qahirə. Erməni kilsəsi. Qayət-Məxfi) Vazgen Çinginyana. Sizə məlum olduğu kimi, Allahın köməyi ilə Böyük Ermənistanın əvvəlki sərhədlərinin bərpa edilməsi üçün geniş miqyaslı iş aparılır. Bu amalla biz bütün ermənilərin səylərini birləşdirməyə nail olmuşuq. Hesab etmək olar ki, biz Artsaxı tamamilə geri almağı bacarmışıq. Bu istiqamətdə hücumlarımız davam edir. Lakin biz Böyük Ermənistanın sərhədlərini dənizdən-dənizə qədər bərpa etməliyik. Bu istiqamətdə tərəfimizdən müəyyən addımlar atılıb. Naxçıvan-Don, Armavir, Kurqaninsk, Pyatiqorsk və yurdumuzun digər bölgələrində qüdrətli erməni qəsəbə və məskənləri salınıb. Hərçənd ki, Vətənimizin bu əraziləri hələlik Krasnodar, Stavropol və Rostov vilayətlərində yerləşir, yurdumuzun bu bölgələrində məskən salmaq üçün külli miqdarda maliyyə vəsaiti lazımdır.

Yuxarıda xatırlatdıqlarımıza əsasən, Allahısevən və ona pənah gətirən bütün erməniləri və dindarları başa salmaq lazımdır ki, Böyük Ermənistanın daha da

çiçəklənməsi üçün kilsələrə verilən nəzir-niyazı və maliyyə vəsaitini artırmaq vacibdir. Xüsusilə vətənpərvərlik baxımından məsələnin təbliğatını gücləndirmək lazımdır. Bu barədə bütün erməni kilsələrinin başçılarına və arxiyepiskoplara uyğun göstərişlər vermişəm.

Bütün ermənilərin katolikosu. Ermənistan, Yerevan. 1993-cü il 17 noyabr».

Məktubu ictimaiyyətə çatdırdığı üçün Lev Novikov FTX sıralarından xaric edilir. Məktubu dərc edən «Кубанский курьер» qəzetinin redaksiyasına ermənilərin hücumu təşkil edilir, erməni özbaşınalıqlarına qarşı çıxan Kuban kazakları dairəsinin hakimi Gennadi Lenə edilən sui-qəsd isə baş tutmur. Bütün bu təxribat və terror planlarının arxasında «ASALA» terror təşkilatı ilə Dağlıq Qarabağda təşkil olunmuş silahlı birləşmələr dayanırdı.

1994-cü il mayın 9-da Şuşanın işğalını bayram edən ermənilərlə Daşaltı yaşayış ərazisində «Dağlıq Qarabağ milli azadlıq hərəkatı» üzvlərinin məşvərət-iclası keçirilir. Bu zaman Cənubi Kiprdə «ASALA» erməni terror məktəbinin rəhbəri, ixtisasca peşəkar hərbçi olan polkovnik (1988-92-ci ilədək DQ-da erməni qoşun birləşməsində iştirak edib) Qrant Martirosoviç Markaryan yazıçı Zori Balayanı həmin terror məktəbinə görüşə dəvət edir. Mayın 21-dən 26-dək Kiprdəki «ASALA» terror məktəbində olan Zori Balayana Qrant Markaryanın şəxsi imzası ilə «ASALA» məktəbinin fəxri ideoloqu. Böyük Ermənistan əzabkeşi» diplomu verilir. 1994-cü il iyunun 2-dən 9-dək «əzabkeş» Zori Qaykoviçi Beyrut hava limanında Daşnaksütyun Partiyasının üzvləri qarşılayır. İyunun 8-də isə Beyrut hava limanında ermənilərin daha bir «əzabkeş» oğlu Robert Setrakoviç Köçəryan qarşılanır. Ertəsi gün Beyrutda «Böyük Ermənistan» adlı Strateji-Hərbi Siyasi Araşdırmalar Mərkəzinin açılışı olur. İyunun 9-u Livan vaxtı ilə saat 19:20-də ermənilərin «Aztaq» qəzeti redaksiyasında «ASALA»nın Livan bürosu üzvlərinin yığıncağı keçirilir və toplantıda qərara alınır ki, Azərbaycan və Türkiyə istiqamətində hərbi əməliyyatları genişləndirmək, kütləvi terror aksiyaları keçirmək psixoloji cəhətdən növbəti qələbələrin başlanğıcı olar (Bax: Livan, «Aztaq», 1994.VI.11).

Terrorçuların bu yığıncağında Zori Qaykoviçin təkliflərindən biri də bu olur ki, əsir alınan və əsir qadınlardan doğulan uşaqlar Livan, Fransa, Kanada, İraqdakı «ASALA» erməni təlim düşərgələrinə göndərilsin.

T.A.Sumbatyan (professor, istefada olan general):

«Yerevan «ASALA» terror təşkilatını erməni ca-vanlarının beyninə milli-azadlıq hərəkatı kimi yeridir. Bu ürəkağrıdıcı, qorxulu siyasət davam edir.

Siz bizi (erməni siyasətçilərini nəzərdə tutur - R.N.) işğalçı kimi tanıtdınız. Bütün bunlara görə əziyyət çəkirəm. Nəyin bahasına olursa-olsun ermənilər Azərbaycan torpaqlarından çıxmalı, qonşu dövlətin ərazi bütövlüyünə hörmət etməlidir.

Avropa Şurasına yığışan siyasətçilər, millət vəkilləri, politoloqlar,

diplomatlar bu yolda üstümüzdəki «işğalçı» damğasının götürülməsinə bizə yardımçı olmalıdırlar».

(Bax: T.A.Sumbatyan. «Avropa Şurasına məktub» Yerevan. 2003.S.121)

## QARAKƏNDDƏ ERMƏNİ TERRORU

### «Mİ-8» xüsusi silahla vurulub

Şübhəsiz, hər şeyin birinci pilləsi həqiqətdir. Gördüyümüz həqiqət və görmədiyimiz, bəzən dərk edə bilmədiyimiz həqiqət. Üstündən düz 11 il ötüb keçən «Vertolyot» adlı bir həqiqəti gördük və indi də görürük. Amma «Vertolyot» adlı hələ görmədiyimiz, dərk edə bilmədiyimiz həqiqətlər də var. Çünki bu günədək onu qəza kimi qəbul edənlər də az deyil. 1991-ci il noyabrın 20-də «Mİ-8» N72 hərbi vertolyotunda həlak olanları bir daha xatırladırıq:

- Tofiq Kazım oğlu İsmayılov - dövlət katibi;
- İsmət İsmayıl oğlu Qayıbov - Baş prokuror;
- Məhəmməd Nəbi oğlu Əsədov - dövlət müşaviri;
- Zülfü Saleh oğlu Hacıyev - Baş nazirin müavini;
- Vaqif Cəfər oğlu Cəfərov - millət vəkili;
- Vəli Hüseyn oğlu Məmmədov - millət vəkili;
- Osman Mirzə Hüseyn oğlu Mirzəyev - Prezident Aparatında şöbə müdiri;
- Qurban Hüseyn oğlu Namazəliyev - nazir müavini;
- İqor Aleksandroviç Plavski - QMB-nin prokuroru;
- Vladimir Vladimiroviç Kovalyov - QMB-nin Daxili İşlər İdarəsinin rəisi;
- Sergey Semyonoviç İvanov - Dağlıq Qarabağ üzrə milli təhlükəsizlik şöbəsi nin rəisi;
- Nikolay Vladimiroviç Jinkin - fövqəladə vəziyyət rayonunun komendantı;
- Sanlal Dasumoviç Serikov - Qazaxıstan DİN-nin müavini;
- Mixail Dmitriyeviç Lukaşov - milis general-mayoru;
- Oleq Nikolayeviç Koçerov - polkovnik-leytenant;
- Rafiq Məmməd oğlu Məmmədov - dövlət katibinin köməkçisi;
- Alı Mustafa oğlu Mustafayev - telejurnalist;
- Arif İsmayıl oğlu Hüseynzadə - AzTV-də işıqçı;
- Fəxrəddin İbrahim oğlu Şahbazov - video-operator;
- Vyaçeslav Vladimiroviç Kotov - vertolyot heyətinin komandiri;
- Gennadi Vladimiroviç Domov - vertolyot heyətinin üzvü;
- Dmitri Borisoviç Yarovenko - vertolyot heyətinin üzvü.

Qarakənd istiqamətində uçan vertolyota Qurban Namazəliyev, Tofiq İsmayılov, Sanlal Serikov, Rafiq Məmmədov, Vəli Məmmədov, Məhəmməd Əsədov, Zülfü Hacıyev minməməli idilər (bax: «Xolokost, Ruanda, Xocalı»

yazısına nəzər salın. I cild, səh. 43).

Rayon komendantı Nikolay Jinkinin müavini, ermənilər arasında «Posol» kimi tanınmış Vladimir İqnatyeviç Kuşnarikin 1991-ci il noyabrın 18-də tərtib etdiyi və Bakı ilə razılaşdırılmış siyahısına «Aşanak» kolxozunun Heyvandarlıq Birliyinin sədri «geroy» Emil Balayan, Vladimir Kuşnarikin özü, beynəlxalq erməni diasporu (əsasən Fransa və Kaliforniya erməni kilsələri) tərəfindən maliyyələşdirilən «Krunk» təşkilatının Dağlıq Qarabağdakı ideoloqlarndan Oleq Ovanesoviç Yeseyan, «Yevkrapa» cəmiyyətinin maliyyə məsələlərinə baxan, onun Livan erməni diasporu ilə əlaqələndiricisi Leonard Avakumoviç Petrosyan, zabit Tatavis Baqramoviç Baqramyan və bir də qərara alınmışdı ki, Azərbaycan Xalq Cəbhəsinin Ağdam, Xocavənd, Füzuli, Cəbrayıl, Xocalı, Əsgəran rayon şöbələrinin liderləri və onların Bakı nümayəndəsi daxil olsun. Məşvərət lentə alınmalı və respublika televiziyasının «Günün ekranı» xəbərlər proqramında göstərilməli idi. Saat 13:40 dəqiqədə Ağdam aeroportuna verilən xəbərdən sonra bu adamlar vertolyota minmirlər.

## DOMOV 2 DƏFƏ «ÖLÜB»

1991-ci il noyabrın 20-si saat 12:57-də Ağdam uçuş zolağındakı «Mİ-8» tipli iki vertolyotun 69 və 72 nömrəli yanacaq bakları doldurulur. «Mİ-8» N69 vertolyotu əsas vertolyot olmalı, onu iki nəfər idarə etməli idi: 1981-ci ildə Əfqanıstan döyüşlərində iştirak etmiş kapitan Lantev Yeqoroviç Mamontov və kapitan Pyotr İqnatyeviç Babuşkin.

İkinci vertolyot - Mİ-8 N72 isə birincini müşayiət etməli idi. Lakin ikinci vertolyot müşayiət olunmadan, yəni təhlükəsizliyi təmin edilmədən 13:48-də birincinin yerinə havaya qalxır.

Araşdırmalarımız göstərir ki, 1991-ci ilin noyabrın 20-də vertolyotu idarə edən 26 saylı «Mİ-8» vertolyotunu idarə edən kapitan Gennadi Vladimiroviç Domov adlı pilot 1984-cü il martın 26-da Əfqanıstanda Cəlalabadın «İslam cəmiyyəti»nin Mömin Camalxanın dəstəsi tərəfindən idarə etdiyi Mİ-8 vertolyotu ilə birgə vurularaq öldürülüb (Özbəkistan, Daşkənd Hərbi Dairəsi. Əfqanıstan-İran istiqamətindən polkovnik V.İ.Qurinin 1984-cü il dekabrın 12-də Moskvaya, MN BQ-a ünvanladığı 216/051 saylı məktubundan).

Həmin ərəfədə Gülablı və Yenikənd istiqamətlərində hərbi maşınlarda qurulmuş (M-16-26 və MS-22-22 nömrəli) və Ağdam, Xocalı aeroportlarının uçuş və enmə zolaqlarını nəzarətə götürən radarlar vasitəsilə saat 14:05-də Ağdamdan Qarakənd istiqamətinə uçan «Mİ-8» N72 vertolyotun rabitə əlaqələri kəsilir.

Qırılmış rabitə ilə bağlı ilkin məlumatlar Xocavənd istiqamətində ötürülür. Lakin törədilən faciə, terror haqqında ilkin məlumat təqribən altı saatdan sonra verilir. Ağdam, Xankəndi və Xocavənd hərbi birləşmələrinin komandanlığı

susurdu.

Hesablamalara görə, Qarakənd üzərində üç yüz metr yüksəklikdə uçan «Mİ-8» N72 vertolyotu 1991-ci il noyabrın 20-də saat 14:42 dəqiqədə vuruldu. Faciə haqqında ilkin məlumat Prezident Aparatına saat 19:55-də çatır.

Lakin nə qədər maraqlı olsa da, araşdırmalarımıza görə, bu faciə haqqında xəbər Xankəndidən erməni dilində yayımlanan «Vətən və vətəndaş» verilişinin xəbərlər bölümündə, saat 15:30-da yayımlanmışdı. Həmin gün Yerevan radiosu saat 16:15-də həmin xəbərin «qəza» kimi şərhini verdi. Saat 16:40-da Tehran radiosu, 17:00-da Moskva radiosu açıqladı.

Haşiyə: «Mİ-8» N72 h/vertolyotun yük tutumu 4 tondur. Uçuş sürəti saatda 250 km, uzaq uçuşu 465 km-dir. 40-45 nəfər (80-90 kiloqram çəkidə) sərnişin götürə bilər.

## İŞİ APARMIŞ PROKURORUN ANASI ERMƏNİDİR

Xankəndidəki rus qamizonunun hərbi prokuroru, polkovnik (bu rütbə ona cinayət işindən sonra verildi) İ.Lazutkin 248-ci maddə ilə (RF CM) («Uçuşun düzgün idarə olunmaması və insan tələfatı») cinayət işi açdı. Polkovnik İ.Lazutkin (anası Emilya Arustanovna Baqdasaryan. Axalkalakidə anadan olub. İ.Lazutkin özü də 1989-cu ilədək Cavaxetiyada işləyib) ilkin istintaq materiallarını düzgün tərtib etmədiyindən heç nə anlamaq olmur. 1991-ci il noyabrın 24-də Yerevan televiziyasının xəbərlər proqramına müsahibə verən prokuror İ.Lazutkin iddia edir ki, həlak olan azərbaycanlılara ilkin yardımı «ermənilər göstərib». Polkovnik bu terror aktını adi bir qəza kimi soyuqqanlıqla şərh edirdi.

Vertolyotun «qara qutusu»nu da əlinə keçirən polkovnik oldu. Ona toxunmaq qadağan edildi. Belə bir məlumat da yaydı ki, «qara qutu» «istidən» və «yanğından», «partlayışdan» (onun sözləridir) sıradan çıxıb, əriyib. «Qara qutu»nun oxunması məsələsi ancaq Moskvada mümkündür. Mütəxəssislərimiz yaxına buraxılmadı. Halbuki «qara qutu» Gəncədəki vertolyot təmiri zavodunda aşkarlana bilərdi. Prokuror İ.Lazutkin hamını aldadırdı. «Qara qutu» zədəsiz və salamat idi. Onun əzilməsi, sıradan çıxması üçün 3.800 dərəcə istilik lazım idi.

Araşdırmalarımız bizi irəli aparır və nəticədə bir-biri ilə bağlı hadisə və sənədlərdə müəmmalı məqamlar açılırdı.

1990-cı il aprelin 21-də İraqın «Yerusəlimin gücü» radikal islamçılarının Beyrutda özəyi yaradılır. 1990-cı il iyulun 9-da «ASALA» erməni terror təşkilatının Beyrut bürosu «Yerusəlimin gücü» təşkilatında fəaliyyət göstərən Bağdad erməniləri ilə məşvərət keçirir. Xatırladaq ki, bu təşkilatın Livanla yanaşı Vaşinqton, Təl-Əviv, Moskva, Bosniya, İran, London, Kabil, Köln, Paris, Malayziya, Küveyt, Məkkə və Bəhreyndə, Orta Asiya respublikalarında mərkəzləri var. Üst-üstə bu mərkəzlərin də 15 min əsgəri «ASALA»nın Beyrutdakı bürosunun

ideoloqlarından olan Malik Qukasoviç Paşayan həmkarlarına «Böyük Ermənistan» ideyasını açıqlayır. Bundan sonra «Yerusəlimin gücü» radikal islamçılar bir-birinin ardınca «Həmas» təşkilatı (16 iyul 1990-cı il), «Cihad» qrupu (25 oktyabr 1990-cı il), «İnanmayanları ittiham edən qrup»la (10 noyabr 1990-cı il) qarşılıqlı yardım haqqında sənəd imzaladılar. «Qara dənizdən - Xəzər dənizinədək» adlı bir islami təlim proqramı qəbul etdilər. «ASALA» liderləri bu islamçı fundamen-talist radikalçılar içərisində öz tərəfdarlarını axtarıb tapırdılar. Məsələn, «Cihad» qrupundakı Əziz Surenoviç Ağayan, «Həmas» təşkilatındakı «dəftərxana işçisi» Mürqab Odabaşyan «ASALA»nın tərkibinə keçdilər. 1990-cı il dekabrın 4-də Malik Paşayan, Mürqab Odabaşyan, Əziz Ağayan Tehrana, oradan da Kəlbəcərə gəlirlər. Dekabrın 12-də isə dəstə Kəlbəcərdən Zəngilan-Qubadlı istiqamətində hərəkət edir. Bu zaman onlara yerli ermənilərdən də qoşulanlar olur.

«ASALA»nın üzvləri 1990-cı il dekabrın 16-da ərazidəki yerli erməni silahlı birləşmələrlə əlaqələrini bərpa edirlər. Bu zaman Londondan Yerevana dərs deməyə gələn Safur Alamzaryan adlı HDQ-də xidmət etmiş zabit dekabrın 26-da Xankəndidə olur, 29-da Malik Paşayanın «ASALA» bürosuna qoşulur. Zabit S.Alamzaryan 1999-cu ildə Londondakı «Sakina sekyuriti servis» fundamentalist mərkəzində çalışır. Bu qrupda da ABŞ və İsrailə ölüm hökmü çıxaran və «Beşlik məclisi»nə başçılıq edən Fazlur Rəhman Xəlillə dostluq əlaqələri qurur.

1991-ci il martın 21-dən başlayaraq «ASALA»çılar Xocavənd, Muğanlı, Ağdərə, Xankəndi, Füzuli, Cəbrayıl istiqamətlərində fəaliyyətlərinin aktiv fazasına keçdilər. Bir-birinin ardınca Muğanlıda, Qarakənddə, Malıbəylidə, Xanobada, Əmiranlarda qətl hadisələri baş verdi. 1991-ci il noyabrın 17-də isə Malik Paşayan Gülablıda rus polkovniki Kuşnariklə kef məclisi qurdu və bu məclisdə «Böyük Ermənistan» şərəfinə badə qaldırıldı.

## «Mİ-8» YERƏ ENDİRİLDİKDƏN SONRA VURULUB

«Mİ-8» N72 hərbi vertolyotuna Amerika istehsalı olan və fundamentalist qruplar, eləcə də islam terrorçuları arasında geniş yayılmış, həmişə təhlükə doğura biləcək «Barret M81-A1» və «Barret M82-A1» silahından atəş açılıb (silahın tərkibində birləşmiş uran izotopu - «U-238» var).

50 kalibrli, tərkibində nüvə olan bu snayperli silahla 2 km məsafədə uçan təyyarələri, vertolyotları, həmçinin zirehli maşınları sıradan çıxarmaq mümkündür. ABŞ Konqresində adı hallanan bu silah həm də kütləvi qırğın silahları cərgəsində gedir.

Tədqiqatlarımız zamanı məlum oldu ki, bu silahlardan «Əl-Qaida» islam təşkilatı da alıb. Bunu isə silah alverçisi İssam əl-Ridi adlı bir fundamentalist qiyməti 6 min dollardan təşkil edib. İssam əl-Ridi də «Sakina sekyuriti servis» təşkilatının üzvlərindən olan Safur Alamzaryanla həmişə təmasda olub. İssam əl-

Ridi Misirdə doğulub. 1994-cü ildə ABŞ vətəndaşı olub. Buna qədər isə Misirdə «gənc terrorçu kursu»nu keçib.

Əldə olunmuş məlumatlardan biri də budur ki, «Barret M81-A1» və «Barret M82-A1» silahlarının 25-i ABŞ-ın müxtəlif ştatlarındakı islamçı-terrorçu qruplarındadır və bu silahla, ola bilsin, yeni terror aktları törədilsin, təyyarələr vurulsun. Bu silah hədəfə dəyərkən ilkin olaraq güclü yanğın törədir. Buna «nüvə yanğını» deyirlər. Bu yanğının yayılma zərbəsindən obyektin qalıqları mərkəzdən 500-600 metr kənara atılır.

«Barret M81-A1» silahı ilə vurulmuş vertolyotla DQ üzərində vurulmuş (1996) və 17 İran diplomatının ölümü ilə nəticələnən «Herkules» təyyarəsini müqayisə edərkən qəribə bir mənzərə yaranır. Ekspertlər göstərirlər ki, «Herkules» təyyarəsinə atılan güllədən sonra güclü yanğın baş verib. Təyyarənin qalıqları 500-600 metr kənara sıçrayıb. Adamlar tanınmaz dərəcədə yanıb kül olublar. «Mİ-8»N72 vertolyotu göydə deyil, yerə endirildikdən sonra vurulub və yandırılıb.

1991-ci il noyabrın 20-si saat 13:48-də havaya qalxan «Mİ-8» N72 vertolyotunda yanğından əvvəl atışma olub. İlk atəşi, böyük ehtimallara görə, vertolyotu saxta sənədlərlə idarə edən Gennadi Vladimiroviç Domov açıb. Bunu yanıb dağılmış vertolyotun qalıqlarında içəridən açılan (vertolyotun içindən - red.) güllələrin diametri, açıq yerləri sübut edir (İstintaq sənədlərində bu, aydın görünür). Vertolyot Qarakənddə yerə endirilib. Malik Paşayan və Safur Alamzaryanın «ASALA» qrupu məhz bundan sonra sərnişinləri tərksilah edib (silahların, diplomat çantaların, sənədlərin itməsi, ayaqqabıların cütlənməsi, plastmas su qablarınm səliqə ilə qoyulması səbəbləri və s. hələ araşdırılmayıb). Beləliklə, «Mİ-8» N72 hərbi vertolyotu 1991-ci il noyabrın 20-si saat 14:42-də «Barret M81-A1» silahı ilə vurulub və bu zaman güclü nüvə yanğını baş verib.

Siyahıda Dağlıq Qarabağın o vaxt MTK-nə başçılıq edən polkovnik Georgi İvanoviç Septa yoxdur. O Septa ki, hadisədən bir qədər əwəl MTN-nin kadrlar şöbəsində işləyirdi və bilavasitə milliyyətcə erməni olan kadrların şəxsi işlərinə «razılıq» imzasını o atırdı. Bu gün Stavropol vilayətində ermənilərin arasında özünə bağ evi salan, erməni biznesi ilə iş birliyi quran Georgi İvanoviç Bakı adı gələndə qəzəblə cavab verir: «Mən belə şəhər tanımıram».

1991-ci ilin 20 noyabr terror aktından yayınan, şöbəyə daxil olan operativ məlumatlara biganə yanaşan Georgi İvanoviç siyahıda yoxdur. DQ-nin prokuroru var, Dİ idarəsinin rəisi var, amma Septa yoxdur.

Yaxud Rusiya MN BQ-nın nümayəndəsi, bilavasitə hərbi kəşfiyyat məsələlərinə baxan nümayəndə var, amma Azərbaycan MN-nin BQ-dan bir nəfər də olsun nümayəndə yoxdur. Fövqəladə vəziyyət rayonunun hərbi komendantın müavini Vladimir Kuşnarik də yoxdur.

Terror aktından əvvəlki günlərin operativ informasiyalarına istintaq materiallarında rast gəlmədik. O günü və ondan üç-dörd gün sonrakı

informasiyalar arasında heç nə yox idi. Ermənilərin terror aktları ilə bağlı keçirdikləri yığıncaqlar, görüşlər, əlaqələr, telefon danışıqları gələn «qonaq»lardan təlimlərdən hamı xəbərsiz idi. Həm Septa susurdu, həm də MN-nin kəşfiyyat və əks-kəşfiyyat bölmələri iflic olmuşdu.

Araşdırmalarımızın təhlili müəyyən nəticələr çıxarmağımıza imkan verir. Beləliklə, 1991-ci il noyabrın 18-də bədnam Mixail Qorbaçovun şəxsi köməkçisi Kremldən Bakıya Prezident Aparatına zəng edir. Respublikanın DQ rəhbərliyindən xahiş edir ki, Təhlükəsizlik Şurasının növbəti iclasını Dağlıq Qarabağda (Xankəndidə, Şuşada, Ağdamda, Əsgəran və Xocavənddə) keçirsin. Çünki ərazidəki torpaq iddiasında olan erməni liderlərinin və Moskva nümayəndələrinin də bu iclasda iştirakı nəzərdə tutulmuşdu.

Bu telefon zəngindən sonra Bakıda siyahı tərtib olunur.

## TERROR ÜÇÜN İŞARƏ...

Siyahının tərtibi dövlət müşaviri Məhəmməd Əsədova və Osman Mirzəyevə tapşırılır. Nümayəndələr ancaq güc nazirliklərindən və Təhlükəsizlik Şurasının rəhbər orqanlarından ibarət olmalı idi. Siyahıdakı yaradıcı adamları çıxsaq, yerdə qalanların sayı o vaxt TŞ-də iştirak edənlərin sayı ilə eynidir.

Siyahıya o vaxt Prezident Aparatında müşavir kimi saxlanılan Viktor Polyaniçko başçılıq etməli idi. Çünki Kremlin Bakıya göndərdiyi qazaxıstanlı general Sanlal Serikovun, milis general-mayoru Mixail Lukaşovun, polkovnik-leytenant Oleq Koçerovun Viktor Polyaniçko ilə şəxsi münasibətləri var idi və onların hər biri ayrı-ayrılıqda Əfqanıstan müharibəsinin iştirakçısı olmuşdu.

Lakin hansı səbəbdənsə Moskva DQ-dəki iclasda dövlət katibi Tofiq İsmayılovun, baş prokuror İsmət Qayıbovun hökmən iştirakını xahiş edir. Bu xahişi isə məhz Georgi İvanoviç Septa çatdırır. Qəribə idi, Moskva Bakını qoyub, DQ-nin təhlükəsizlik polkovnikinə zəng edir. Sənədlərdə Georgi İvanoviçlə bağlı heç bir sorğu-sual yoxdur. Bu, təbii idi. 1991-ci il noyabrın 19-u saat 19:05-də siyahı tərtib olunur. İlkin siyahı Tofiq İsmayılovun rəhbərliyi ilə müzakirə edilir. Millət vəkilləri Vaqif Cəfərov və Vəli Məmmədov siyahıdan çıxarılır. Onların yerinə güc nazirliklərinin, qoşun birləşmələrinin rütbəli məmurları salınır. Siyahıya Viktor Polyoniçkonun başçılıq etməsi qüvvədə qalır.

Ermənilərin terror aktına hazırlıq məsələsi isə bir günün, iki günün işi deyildi. Belə bir terror aktı ən azı on gün və yaxud bir ay əvvəlcədən hazırlanır. Çünki bu terror təsadüf açılan atəş deyildi. Bu terror düşünülmüş, yüz ölçülüb, bir biçilmiş bir ssenarinin faciəli sonu idi.

Kəşfiyyat isə susurdu. Dağlıq Qarabağa yola düşəcək şəxslərin təhlükəsizlik məsələləri həll edilməmişdi.

1991-ci il noyabrın 19-da gecədən xeyli keçmiş siyahı təzələnir. Viktor

Polyaniçkonun, güc nazirliklərindən seçilmiş rütbəli şəxslərin adları çıxarılır. Millət vəkilləri Vaqif Cəfərov və Vəli Məmmədov siyahıya daxil edilir. Tofiq İsmayılov tərtib olunmuş siyahıya başçılıq etməli, Ağdamda Təhlükəsizlik Şurasının səyyar iclası keçirilməli idi.

Moskva hər şeyi DQ-dakı vassalı, polkovnik Georgi İvanoviç Septa ilə həll edirdi. Əslində Georgi İvanoviçin ora göndərilməsində də Moskvanın razılığı var idi. Bu namizəd erməniləri də təmin edirdi. Moskva Azərbaycan MTN-nə daha inanmırdı, qurumun ayrı-ayrı adamları ilə işləməyi daha məqsədəuyğun sayırdı.

Beləliklə, yeni siyahını Ali Baş komandan Ayaz Mütəllibov 1991-ci il noyabrın 19-u, saat 23-də təsdiq edir. Siyahıdakıların bəzilərinə hazırlıq üçün telefon zəngləri edilir. Dağlıq Qarabağa uçacaq adamların siyahısı həm DQ rəhbərliyinə, həm Ağdam aeroportuna, həm hərbi komendanta və həm də Moskvaya göndərilir.

Qrupun DQ ərazisindəki fəaliyyətinə isə qəribə bir üçlük nəzarət edir: DQ təhlükəsizlik rəisi, polkovnik Georgi İvanoviç Septa, hərbi komendantın müavini, polkovnik Vladimir İqnatyeviç Kuşnarik və Xocavənd milis rəisi, polkovnik Oleq Osenov (yan). Bu üçlüyün təşkil etdikləri «Bermud üçbucağı» ssenarinin həm başlanğıcı idi, həm də sonu.

«Mİ-8» N72 vertolyotunu idarə edənlər - mayor Vyaçeslav Vladimiroviç Kotov, kapitan Gennadi Vladimiroviç Domov, leytenant Dmitri Borisoviç Yarovenko isə DQ ərazisinə 1991-ci il noyabrın 17-də gəlmişdilər. Hər üçü Alma-Atıdan idi.Bu şəxslər noyabr ayının 19-da «yada düşdülər». Ağdam aeroportunun şəxsi heyətinin siyahına salındılar. Hərbi komendantın müavini, polkovnik Vladimir Kuşnarik isə hansı səbəbdənsə onların adlarını şəxsi heyətin siyahısına salmaq istəmirdi. İstintaq zamanı bu yönümdə polkovniki dindirən olmadı. Halbuki «Mİ-8» N72 vertolyotu «yola» çıxarkən mühafizə üçün nəzərdə tutulmuş pulemyotlar, «PTURS» raketləri açılıb götürülmüş, hərbi vertolyot adi bir yük nəqliyyatı kimi yola çıxmışdı.

O.S.Adamyan (diplomat):

«Övladlarımız sək-səkə içərisində yatır. Bütün bunlara son qoymaq vaxtıdır. Dağlıq Qarabağ Azərbaycana məxsus olan yaşayış ərazisidir. Mənim 1983-cü ildə Moskvada nəşr olunmuş «Qafqaz adlı ev» kitabımda qeyd etmişəm ki, Dağlıq Qarabağ Azərbaycana məxsus olan yaşayış ərazisidir. Onun qədim tarixi var.

Mənim uşağlığım o yerlərdə keçib. Mən indi tarixi saxtalaşdırıb başqa şey yaza bilmərəm. Tarixi istədiyin kimi yazmaq və oxumaq mümkün deyil».

(Bax: О.С.Адамян. «СНГ-вестник». Москва, 2001. № 3, ст. 12)

**Rövşən Novruzoğlu**

**Beynəlxalq terrorizm silsiləsindən Erməni terrorizmi**

# GENOSİD......ECOCİD

## II KİTAB

**“Adiloğlu Bakı - 2006**

«Gəlin, tarixi götürək. Tarixi baxımdan da Qarabağ həmişə Azərbaycan torpağı olubdur, bizim torpağımızdır. Yəqin, onu da yaxşı bilirsiniz ki, İrəvan Ermənistana Azərbaycan Xalq Cümhuriyyəti yarananda, məhz Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən verilmişdir. İrəvan xanlığında yaşayan insanların əksəriyyəti azərbaycanlı idi. Ona görə, tarixi baxımdan da bu, bizim torpağımızdır».

**Azərbaycan Prezidenti cənab İlham Əliyevin Xarici İşlər Nazirliyində diplomatlarla görüşündəki nitqindən (14 avqust 2006-cı il).**

Araşdırmalarımıza görə bir tank tırtıllarının səsindən 50-100 metr məsafədə olan gül kollarından 70-i, davamlı «immunitetli» ağaclardan 20-si, bulaqlardan 5-i, kiçik çay yataqlarından 2-si tədricən sıradan çıxaraq quruyub, məhv olur. Bir «AK» gülləsinin səsi təqribən 500-600 ağac yarpağının «ölüm»ünə səbəb olur. Bir artilleriya mərmisi 80-100 hektar meşə zolağını yandırıb, həmin ərazini öldürür. Havadan atılan kiçik ölçülü «bomba»nın təsirindən ətraf mühitin 16 gün normal iqlim şəraiti pozulur, rəngli yağışlar yağır, 200-300 metr məsafədə olan içməli su kəhrizləri 22 gün lilli qalır, durulmaq bilmir. Və yaxud bir hərbi vertolyotun atdığı mərmilərin nəticəsində həmin ərazinin torpaq qatı çat verir (o qat bir daha bərpa olunmur), yağış yağarsa 15 gündən sonra, yağmazsa 9 gündən sonra mərmi düşən zolaq «ölü zona»ya çevrilir. İyirmi il o yerlərdə heç nə bitmir. Ətrafdakı yaşayış məntəqələrində vərəm sindromu 2,5 dəfə artır.

Ərazidən qalxan və enən hər hansı bombardmançı və yaxud qırıcı təyyarənin səsindən ətrafdakı meşə zolaqlarının böyük bir qismi «qorxudan» öz-özünə yanıb quruyur. (Bax: əlavə olaraq pr. A.Sidorovun, D.Melnikovun (RF), F.Alfredin (Almaniya), K.Faumanın (ABŞ), A.Smitin (İngiltərə) ekologiya ilə bağlı əsərlərinə).

## YENİ YÜZİLLİYİN FACİƏSİ

Azərbaycan xalqının gücü bir yerə toplanmalıdır, hamı bir hədəfə vurmalıdır gərək hər kəs Vətən, torpaq, namus yolunda öz payını versin, öz borcunu versin.

Xalqın övladları bu torpaqda doğulub, dünyaya gəliblərsə, atalarımızın, babalarımızın ruhu bizim üçün müqəddəs və əzizdirsə, öz borcumuzu verməliyik. Torpaqlarımızı erməni terrorundan azad etməliyik.

**Heydər ƏLİYEV**

Araşdırmalarımıza görə Yerusəlimdəki Yəhudi İnstitutunun və Bin-Qurion Universitetinin (İsrail) alimləri iddia edirlər ki, insanların qrup və yaxud fərd şəklində hansı rəngə, hansı rəng çalarlarına meylli olmaları onların genefonduna

işarədir. Moskvadakı 1110 nömrəli erməni məktəbinin 1-ci və 4-cü sinif şagirdlərinin çəkdikləri rəsm əsərlərində (2005-ci ilin mart, aprel ayları) ən çox işlədilən rəng qara olub. Bu da ümumən 470 şagirdin çəkdiyi rəsm əsərlərinin 83,5 faizini təşkil edir. 1650 nömrəli başqa bir erməni məktəbində isə bu göstərici 87 faiz təşkil edib.

Yeddi yaşlı ermənilərin rəsm müsabiqəsində uşaqlar qara yaylıqlı tənha ana, batmış günəş, sönmüş şam, kilsə zəngi, sınmış budaq, dağıdılmış kənd, yandırılmış meşələr kimi anlayışlara meylli olub. Uşaqların bir qrupu isə göz yaşı, qurumuş çay, qanadı qırılmış quş kimi komponentləri canlandırıblar. Separatçıların millət vəkili Zori Balayan «Azat Artsax» qəzetinə verdiyi müsahibədə qeyd edir: «Bütün bunlar bizi qorxutmur. Qoy hər bir erməni dərk etsin ki, uşaqlarımızın, övladlarımızın yaddaşlarına hopmuş, onların psixoloji aləmlərinə daxil olmuş bu eybəcərliklər azərbaycanlıların bizlərə vurduqları yaraların nəticəsidir. Övladlarımızın psixikasını korlayan bu eybəcərliklərin günahı azərbaycanlılardadır. Biz bu günahı heç kəsə bağışlamırıq» (?).

Rusiya Federasiyasındakı təhsil ocaqlarında bütün buna bənzər məsələləri müşahidə edib araşdıran ingilis psixoloqu Maykl Frayd yazır: «Rusiya Federasiyasındakı erməni məktəblərində aparılan tədqiqatın nəticələri bir filosof kimi məni çox düşündürür. Görünür, keçmiş Sovetlər İttifaqı ərazisindəki bir çox etnik qruplar öz övladlarını ekoloji mühitin dağıdılmasından doğan mənəvi terrordan xilas etməkdə acizdir. Rusiya Federasiyasında günəşin rəngini, Orta Asiyada Ay işığından tökülən rəngi, Ermənistanda qara rəngi, Gürcüstanda narıncı rəngi, Azərbaycanda isə dənizin tünd mavi rəngini çox sevirlər. Mənim ən çox qorxduğum qara rəngdir. Çünki qara rəng gen kodlarını terrora hazırlayır» (M. Frayd. «Мысль» əsəri. M., Nauka. 2006, səh. 47).

Dağlıq Qarabağ müstəqil Azərbaycanın beynəlxalq terrorizmin və separatizmin tərkib hissəsi olan erməni terrorçuları tərəfindən işğal edilən, təhqir olunan, əzilən və dara çəkilən taleyinin bir parçası olaraq qalır.

1988-93-cü illərdə Ermənistanın hərbi təcavüzü nəticəsində 1 milyondan çox azərbaycanlı (ümumi əhalinin 15%-i) qaçqın və məcburi köçkün vəziyyətinə düşdü, Azərbaycanın 20%-dən çox ərazisi işğal olundu. Ermənistanda yaşayan 250 min nəfər həmyerlimiz öz doğma yurdlarından zorla qovuldu. Nəticədə 20 min nəfər azərbaycanlı həlak oldu, 100 min nəfərdən çoxu yaralandı, 50 min nəfərə qədər müxtəlif dərəcəli bədən xəsarətləri alaraq şikəst qaldı.

Hərbi təcavüz Dağlıq Qarabağın 17 min $km^2$ ən məhsuldar torpaqlarının işğalına, eləcədə 900 yaşayış məntəqəsinin, 7 min sənaye və kənd təsərrüfatı obyektinin, 700 təhsil, 665 səhiyyə ocağının, 800 km avtomobil yolunun, 160 körpünün, 23 min km su və 15 min km elektrik xəttinin dağıdılmasına gətirib çıxarıb. Təcavüzkarlar ərazilərimizdə olan 22 muzeyi və 4 rəsm qalereyasını, tarixi əhəmiyyəti olan 9 sarayı qarət edərək yandırmış, nadir tarixi əhəmiyyətli 40 min

eksponatı talan etmiş, 44 məbəd və 9 məscidi, 927 kitabxananı, 4,6 mln. kitab və qiymətli əlyazmaları məhv etmişlər.

İqtisadçıların təhlillərinə görə, mənəvi-psixoloji zərbələrdən əlavə Azərbaycan iqtisadiyyatına 60 mlrd. ABŞ dollarından çox ziyan dəyib.

İşğal olunmuş rayonlarda 152 ədəd qiymətli ağac növü, 13197,5 ha qiymətli meşə sahələri, 5 ədəd geoloji obyekt qalıb.

İşğal edilmiş ərazilərdə 155 müxtəlif növ faydalı qazıntı yataqları, o cümlədən: 5 qızıl, 6 civə, 2 mis, 1 qurğuşun və sink, 19 üzlük daşı, 10 mişar daşı, 4 sement xammalı, 13 müxtəlif növ tikinti daşları, 1 soda istehsalı üçün xammal, 21 pemza və vulkan külü, 10 gil, 9 qum-çınqıl, 5 tikinti qumu, 9 gips, anhidrid və gəc, 1 perlit, 1 obsidian, 3 vermikulit, 14 əlvan və bəzək daşları (əqiq, yəşəm, oniks, jad, pefritoid və s.) 11 şirin yeraltı su və 10 mineral su yataqları yerləşir ki, bu da respublikanın iqtisadi potensialında mühüm əhəmiyyət kəsb edirdi.

Göllərin içərisində ən çox antropogen təsirə məruz qalan Azərbaycanın Laçın rayonu ilə Ermənistanın Gorus rayonu arasında yerləşən İşıqlı Qaragöldür. Uzunluğu 1950 metr, maksimal eni 1250 metr, maksimal dərinliyi 7-8 metr, suyunun həcmi isə 10 milyon kub metr olan İşıqlı Qaragölün şəffaflığı vaxtilə 4,6 metr idi. Hazırda gölə radioaktiv tullantıların atılması nəticəsində suyun təmiz tərkibi və rəngi dəyişib.

Azərbaycanın ermənilər tərəfindən işğal olunmuş ərazilərində irili-xırdalı 7 göl qalıb: Kəlbəcər-Laçın rayonu yaylaqlarında Böyük Alagöl, Kiçik Alagöl, Zalxagöl, Qaragöl, Canlıgöl, İşıqlı Qaragöl və Ağdərə rayonu ərazisində (Tərtərin qolu olan Torağaçayda) Qaragöl kimi təbii sərvətlər bu gün işğal altındadır.

(1989~90-cı illərdə Ermənistan tərəfindən Oxçuçayın bir il ərzində çirklənməsinə görə o dövrün qiyməti ilə 7,5 milyard rubl iddia sənədləri keçmiş SSRİ Arbitrajında baxılmaq üçün qəbul edilmiş, faktlar sübuta yetirilmişdir -R.N.). Azərbaycanın ermənilər tərəfindən işğal olunmuş ərazilərində 247352 hektar meşə sahələri (Azərbaycan Respublikası Torpaq və Xəritəçəkmə Komitəsinin 03 oktyabr 2005-ci il tarixli məlumatı) qalmışdır ki, bu, Ermənistanın bütün meşələrinin 55%-dən çoxdur. Bütövlükdə Azərbaycan meşələri Ermənistanın meşələrindən 2,5 dəfə artıqdır («Лесной фонд» СССР. 1 том, 1986 г.)

## DAĞILAN, YANDIRILAN ƏRAZİLƏR
### Şuşa viran edildi

Ölkənin varidatının, əmlakının qorunması, saxlanılması çox vacibdir. İşğal olunmuş Dağlıq Qarabağda xalqın, dövlətin əmlakını dağıdan, mənimsəyib, talan edən erməni separatçıları və terrorçuları ən yüksək cəzaya məhkum olunmalıdırlar. Həm bu gün, həm də gələcək üçün bunu bilmək lazımdır.

**Heydər ƏLİYEV**

Rayonun ərazisinin 20%-ini meşələr tutur. Şuşa şəhəri 8 may 1992-ci ildə işğal edilib. Mərkəzi Şuşa şəhəridir.

İşğaldan qabaq ərazidə 30 kənd olub. Ərazisi dağlıqdır (Qarabağ dağ silsiləsi). Ən yüksək zirvəsi Böyük Kirs dağıdır (2725 m.). Keçəldağ aşırımı Şuşa rayonundadır. Əsasən, Yura və Tabaşir çöküntüləri yayılmışdır. Müxtəlif növ tikinti materialı yataqları və mineral su bulaqları (Turşsu, Şirlan) var. Ərazinin əksər hissəsi qışı quraq keçən mülayim isti və qışı quraq keçən soyuq iqlim tiplərinə aiddir. Orta temperatur yanvarda -4 °C-dən -1 °C-yə qədər, iyulda isə müsbət 16-19 °C, illik yağıntı 700-800 mm olur. Rayon ərazisindən Qarqar çayı axır. Torpaqları əsasən, qəhvəyi dağ-meşə, çimli dağ-çəməndir. Yüksək dağlıq sahədə subalp və alp çəmənlikləri ilə örtülüdür. Alçaq dağlıq və dağətəyi sahələrdə qırılmış meşələrin yerində çəmənlər və kserofit kolluqlar mövcuddur.

İri yaşayış məntəqələri Şuşa şəhəri, Malıbəyli və Daşaltı kəndləridir. Şuşa üzlük daşı yatağı; ehtiyatları 397 min $m^3$ olan kərpic-kirəmit istehsalına yararlı Keçəldağ (Lısoqor) gil yatağı; istismar ehtiyatları 389 min $m^3$/gün olan Şuşa yeraltı şirin su yatağı; 342 min $m^3$/gün və 70 min $m^3$/gün olan Şirlan və Turşsu mineral su yataqlarını erməni separatçılarına qaldı. (?)

Müstəqil Azərbaycan Respublikasının elm, mədəniyyət və mənəviyyatı Dağlıq Qarabağda erməni işğalçıları tərəfindən təhqir edilib.

Azərbaycan Respublikasının elm, mədəniyyət və mənəviyyat sahəsində milli təhlükəsizliyinin təmin olunması isə, Azərbaycan xalqının mədəni irsinin, maddi və mənəvi dəyərlərinin, mədəni tələbatlarının ödənilməsi vasitələrinin və elmi-texniki potensialının daxili və xarici təhdidlərdən qorunması və inkişaf etdirilməsidir.

Daşaltı Dövlət Təbiət yasaqlığı. Şuşa və Əsgəran ərazisində nadir təbiət komplekslərini qorumaq üçün 1988-ci ildə təşkil edilən bu yasaqlıq 450 hektar ərazini əhatə edirdi. 1992-ci ildən işğal altında olan yasaqlıq daha yoxdur, məhv edilib.

Şuşa rayonunda Qarqar çayının sol sahilində, Şuşa şəhərindən cənubda dəniz səviyyəsindən 1365 m hündürlükdə yerləşən, uzunluğu 114 m, əhəng daşları Titon əsrinə aid olan «Xan mağarası» isə çökərək dağıdılıb.

Şuşa rayonunun yeraltı su ehtiyatlarını öyrənmək məqsədilə 1984-86-cı illərdə Şuşa rayonu ərazisində kompleks hidrogeoloji tədqiqatlar aparılmışdı. Nəticədə üst və orta sulu komplekslərin 6 perspektiv sahə üzrə yeraltı su ehtiyatları qiymətləndirilmişdi. Bütövlükdə Şuşa rayonu üzrə içməyə yararlı yeraltı suların ehtiyatı 5,0 min $m^3$ / gün təşkil edirdi.

Vaxtilə müstəqil Azərbaycanın memarı olan Heydər Əliyevin abidələr şəhəri adlandırdığı Şuşada 190 hektarlıq qoruq zonasında 235 tarixi abidə, 550 qədim yaşayış binası, 870 m uzunluğunda bərpa olunmuş qala divarları vardı.

Tarixi abidələrdən 23-ü respublika və dünya miqyaslı abidələrə aid idi.

QEYD: Ermənilər tərəfindən işğal olunmuş Şuşa yaşayış məntəqəsində 9 kənd qalıb. İyirmi bir kənd viran edilib. Turşsu və Şirlan bulaqları 2001-ci ildə Dubay (BƏƏ) əmirinin qohumu, iş adamı Şeyx Yusif Səfiyə satılıb. Hər iki bulaqdan çıxarılan su qablaşdırılaraq Birləşmiş Ərəb Əmirliklərinə göndərilir. Mineral sulardan gələn gəlir hər il 450 min dollar edir. Separatçı və işğalçı rejim əldə olunan gəlirin bir qismini qondarma «Dağlıq QarabağR»-in qoşun kontingentinə sərf edir.

## XOCALI: ÇEVRİLƏN QƏBİRLƏR, YANDIRILAN TORPAQ

Xocalı rayonu Yuxarı Qarabağın dağətəyi hissəsində qədimdən azərbaycanlılar yaşayan Xocalı qəsəbəsi və onun ətrafındakı torpaqların hesabına yaradılmışdır. Sahəsi 93688 hektardır. Dəniz səviyyəsindən 580 m hündürlükdə yerləşir.

Xocalı rayonu Şuşa-Ağdam yolunun üstündədir. Xocalı ilə Bakı arasında olan məsafə 375 kilomctrdir.

1992-ci il fevralın 26-da Xocalı şəhəri başdan-başa yandırıldı.

Xocalı rayonu ərazisində təsdiq edilmiş ehtiyatları uyğun olaraq 32 min $m^3$ və 2039 mirı $m^3$ olan və istismara verilən Zərinbağ və Ağçay üzlük daşı yataqları; ehtiyatları 12434 $min^3$ ton olan və istismara verilən qırmadaş və əhəng istehsalına yararlı Şuşa əhəngdaşı yatağı; 962 min $m^3$ ehtiyatlara malik, kərpic istehsalına yararlı Xocalı gil yatağı; ehtiyatları 7280 min $m^3$ olan Xankəndi (Əsgəran qrupu) qum-çınqıl qarışığı yatağı; istismar ehtiyatları 9 min $m^3$ / gün olan Xankəndi yeraltı şirin su yatağı erməni işğalı altındadır.

Xocalı rayonu ərazisində, Bədərə çayı hövzəsində «yeddi kilsə» adlanan yerdə, (Pirkal meşəsi) nadir fıstıq-palıd meşələri talan edilib, İran və Yunanıstana daşınır. Xocalı qəbiristanlığı altı üstünə çevrildi.

QEYD: İşğal altında qalan Zərinbağ daş yatağı əslən Fransadan olan, iş adamı Arzants Suassona satılıb. 2002-ci ilin iyulun 14-də fransalı iş adamı üzlük daş yatağına sahib çıxdı. Ekspertlərin fikrincə, Zərinbağ daş yatağından götürülən illik gəlir 160 min dollaradək gəlib çatır. İş adamı A.Suasson iddia edir ki, bu ərazinin adına ilk dəfə 1999-cu ildə təsadüf edib. Bunu da bildirib ki, çıxarılan üzlük daş yatağının materiallarından həm RF-na, həm İrana, həm də Gürcüstana satılır. Məlumata görə, 2003-cü ildən fransalı iş adamı Xocalıdakı bütün yataqlara sahib çıxıb.

## XOCAVƏND ZƏHƏRƏ TUTULDU

Xocavənd rayonunda 2 qəsəbə və 38 kənd olub. Rayonun səthi alçaq dağlıq

(Qarabağ silsiləsinin cənub-şərqi) və düzənlikdən (Mil düzü) ibarətdir.

Rayon ərazisində ehtiyatları 2034 min $m^3$ olan və istifadəyə verilmiş, üzlük daşı istehsalına yararlı «Ediş» yatağı, ehtiyatları 989 min ton olan Xocavənd əhəngdaşı yatağı, mineral sular, qiymətli daşlar qalıb.

Xocavənd rayonunda Qırmızı bazar qəsəbəsi Sıxtoraşen kəndi yaxınlığında diametri 600 sm, hündürlüyü 25 m, yaşı 1000 il olan 1 ədəd şərq çinarı, Qırmızı Bazar qəsəbəsində diametri 600 sm, hündürlüyü 25 m, yaşı 2000 il olan 1 ədəd şərq çinarı qorunurdu. Həmin ağaclar və bağlar xarici şirkətlərə satıldı.

Xocavənd rayonunun Qarakənd kəndində 0,5 ha üçüncü dövrün relikt növü olan, orta diametri 24 sm, hündürlüyü 12 m, yaşı 100 illik azat ağacları qiymətli xammal kimi istifadə olundu.

Azərbaycanın Xocavənd rayonunun Füzuli rayonuna yaxın, Azıx kəndinin bir kilomer cənub-şərqində, Quruçayın sol sahilində, dəniz səviyyəsindən 900 metr hündürlükdə yerləşən, uzunluğu 190 metr, əhəng daşları oksfordkimeric dövrünə aid olan «Azıx» mağarası dağıdılmışdır. Həmin rayonun Metstağlar kəndindən cənubda, dəniz səviyyəsindən 850 m hündürlükdə yerləşən, uzunluğu 22 metr, əhəng daşları ofksfordkimeric dövrünə aid olan «Tağlar» mağarası isə uçurulub, batırılmışdır.

İşğaldan öncə Xocavənd rayonu ərazisində istifadəyə yararlı yeraltı sular 90,34 min $m^3$ / gün təşkil edirdi.

QEYD; İşğal olunmuş Xocavənd ərazisindəki qədim «Tağlar» mağarasında İtaliyadan gələn ermənilər «Armando Kassini» qrupunun arxeoloqları qazıntılar apardı. Qazıntılar zamanı əldə olunan qədim tarixi əşyalar İtaliyada yaradılmış «Qədim erməni muzeyi»nə aparıldı. Arxeoloq A.Kassini iddia edir ki, bu yerlər qədim ermənilərin yurd yerləri kimi qalacaq. (?). Faktiki olaraq «Tağlar» mağarası 2004-cü ildən dağıdılıb. Rayondakı «Azıx» mağarasında isə ermənilər öz qazıntı işlərini davam etdirir.

## AĞDƏRƏ TALAN EDİLDİ

Ağdərə rayonu 57 kəndi əhatə edib. Səthi əsasən dağlıq, şərq hissəsi isə düzənliklərdən ibarətdir. Faydalı qazıntıları - Mehmana polimetal yatağı, əhəngdaşı və gipsdən ibarətdir. Mehmana yatağının filizlərinin tərkibində sink, qurğuşun və digər qiymətli metallar var. (Asan saflaşır, sənaye əhəmiyyətlidir).

Əsas çayları Tərtər və Xaçındır. Tərtər çayı üzərində 1976-cı ildə Sərsəng su qovşağı yaradılmışdır. Tərtər kompleksi həm elektrik enerjisi almaq, həm də suvarma məqsədilə qurulmuşdu. Anbarda suyun həcmi 560 min kub metr, ildə 125 milyon kilovat saat elektrik enerjisi verirdi və düzən Qarabağın və dağətəyi zonanın 120 min hektar torpaq sahəsinin suvarılması onunla təmin edilirdi. İşğaldan əvvəl 78 min hektar əkin sahəsi suvarılırdı.

Rayon ərazisinin 75,59 min hektarı və yaxud 44 faizini meşələr tuturdu.

Ağdərə Dağlıq Qarabağın mühüm kənd təsərrüfatı rayonlarından idi. İqtisadiyyatında üzümçülük, taxılçılıq, tütünçülük və heyvandarlıq əsas yer tuturdu (1988-ci il).

Kənd təsərrüfatına yararlı torpaqlar 53324 hektar idi. Bunun 21189 hektarı əkin yeri, 5931 hektarı çoxillik bitkilər, 1892 hektarı biçənək, 22863 hektarı örüş idi. Suvarılan torpaqlar 15 min hektar idi. Əkin sahəsinin 9,7 min hektarı dənli-paxlalı bitkilər (buğda, arpa, qarğıdalı) və kartof, 11,3 min hektarı yem bitkiləri əkinləri idi.

Rayonda üzümlüklər 3,4 min hektar sahəni tuturdu.

Tərtər çayı dərəsi boyunca Azərbaycanın yuxarı və aşağı Qarabağını birləşdirən karvan və avtomobil yolları var idi.

Memarlıq abidələrindən Vankulu kəndindəki məşhur Qanzasar alban məbədi, Xanabert qalası, Herabert qəsəbsində Hermuk qalası, kilsə, Kolatağ kəndində müqəddəs İako məbədi (635-ci il) var idi.

Talis kəndi yaxınlığında, Urek məbədi (XII əsr), Tərtər çayının yuxarı axınında məbəd (XIII əsr), Qasapert kəndində Hatəm Məlik qalası, Madagiz kəndində Yegiş Arakel məbədi (XII əsr) və qədim körpülər dağıdılıb. (Oradakı Qafqaz alban dinastiyaları və katolikoslarının son istinadgahı olan məşhur Qanzasar məbədinin əsası 1240-cı ildə Həsən Cəlal tərəfindən qoyulmuşdur. Sonuncu Qanzasar alban məbədi 1837-ci ildən erməni katolikosluğuna tabe edilmişdir).

İşğal edilmiş ərazidə 8036 hektar sanitariya-gigiyena və sağlamlaşdırma funksiyalı meşələr mövcud idi ki, bunun 628 hektarı şəhərətrafı yaşıllıq zonası, 7408 hektarı isə su təchizatı mənbələrinin sanitar mühafizə zonalarına aid meşələr idi. Rayonda 75059 hektar meşə sahələri var idi ki, bu da ərazinin 44%-ni təşkil edirdi.

Ağdərə rayonunda, Tərtər çayı vadisində Şərq çinan meşəliyi xüsusi olaraq qorunurdu.

Ağdərə rayonunda zəngin faydalı qazıntı yataqları var idi:

Qızılbulaq qazıntı yatağında 13,6 vahid sənaye ehtiyatı olan qızıl və 47,9 milyon ton mis, Mehmana yatağında sənaye ehtiyatları 37,3 milyon ton olan qurğuşun, 40,4 milyon ton olan sink, 100 milyon ton olan Dəmirli mis yatağı, Canyataq-Gülyataq qızıl yatağı vardı.

Sənaye ehtiyatları 38080 min kub metr olan Ağdərə, 6423 min kub metr olan Şorbulaq-I, 2129 min kub metr olan Şorbulaq-II mişar daşı yatağı, 200 min kub metr olan Ağdərə gəc yatağı düşmənlərə qaldı.

QEYD: İşğal olunmuş ərazilərimizin qızıl yataqları bir qayda olaraq ABŞ-ın, Kanadanın, İsveçrənin, Fransanın iş adamları tərəfindən talan olunur. Bu barədə kitabda əlavə məlumatlar verilir. Ağdərənin Mehmana mis yatağı Türkiyəli iş

adamı Mehmət Abdullaoğluna satılıb. 2004-cü ildən türk iş adamı Mehmana ərazisindən mis çıxarmaqla məşğuldur. Maraqlıdır ki, ərazidən çıxarılan mis RF-dakı, Almaniyadan olan iş adamına satılır.

2005-ci ilin mart ayından iş adamı M. Abdullaoğlu ərazidəki digər mis və qurğuşun yataqlarını da satın alıb.

## ABİDƏLƏR DAĞILDI, TORPAQ DAŞINDI

Laçın rayonu dağlıq relyefə malikdir. Rayonun şərqində Qarabağ silsiləsinin cənub-qərb yamacları, şimalında Mıxtökən silsiləsi yerləşir. Cənub-qərb hissəsini Qarabağ yaylası tutur. Rayonun ən hündür nöqtəsi Qızılboğaz dağıdır (2823 m). Ərazidə yura-antropogen çöküntüləri yayılmışdır. Ərazinin çox yerində qışı quraq keçən, mülayim-isti və soyuq iqlim üstündür. Orta temperatur yanvarda 0-dan -10°C-dək, iyulda müsbət 10-22°C-dir. İllik yağıntı 600-900 mm-dir. Ən böyük çayı Həkəridir. Əsasən, çimli dağ-çəmən, qəhvəyi dağ-meşə və karbonatlı dağ-qara torpaqları yaranmışdır. Bitki örtüyü kollu və seyrək meşəli çəmənliklərdən, enliyarpaqlı dağ meşələrindən (palıd, vələs və s.), subalp və alp çəmənliklərindən ibarətdir. Alçaq dağlıq yerlərdə seyrək ardıc ağacları çox yayılmışdır.

Laçın rayonunda Alıcan kəndindən başlayaraq şimal-qərb istiqamətində yan süxurları yararaq üzə çıxan maqmat süxurlar boyunca narzan tipli əhəmiyyətli debiti olan mineral bulaqlar mövcuddur. Bu bulaqlar Turşsu, Qaladərəsi, Ağanus, Xırmanlar, Tiqiq, Turştiqiq, Nurəddin (böyük debitə malikdir), Nağdalı, Hacıxanlı (Xallanlı, Başlıbel-Kəlbəcər rayonunda) narzan tipli sular olmaqla böyük müalicəvi əhəmiyyətə malikdir.

Rayonun Cicimli, Güləbirt, Zeyvə, Malıbəy, Yənqiça, Bülövlük, Araflı, Əliqulu, Malxələf, Soltanlar, Hüsülü, Kosalar, Seyidlər, Pircahan, Minkənd, Kürdhacı kəndlərində və Laçın şəhərində daşdan yonulmuş 12 qoç fiquru, 28 at fiquru, 36 müxtəlif süjetli yazı və rəsmləri olan sal daş, müxtəlif dövrlərdə ərəb əlifbası ilə yazılmış, bir-birinə bənzəməyən fiqurlar, sənət rəmzləri həkk olunmuş qəbirüstü daşlar və Yaxşı ananın (Sarı aşığın sevgilisi) məzarı işğal edilib.

Cicimlidə məbəd, qədim anbar, Güləbirtdə San aşığın qəbirüstü - ziyarətgahı, Zeyvədə Şeyx Əhməd, Soltanbaba, 2-ci Soltanbaba, Minkənddə XV əsr məbədi, Kosalarda IX əsrin Ağoğlan məbədi və qəsri, Qarıqışlaqda Dəmirovlu pir-məbədi, Bülövlük kəndinin şimalında yerləşən qədim Kişpəyədə Alban məbədi, Picənisdə Alban məbədi, Xan qəbiristanlığında Zəngəzurun sultanları Qara-Murtuza bəyin, 1 -ci Alməmmədin, 2-ci Alməmmədin hasardakı türbələri, Şeyx Şamillə dostluq etmiş, onaköməklik göstərmiş Cəbrayıl bəyin türbəsi, Bütövlükdə Qaratel Paşabəy qızının mərmər türbəsi, Araflıda Murtuza Sultanın anasının türbəsi, Pircahan çayında Məşədi Mehralının arxitekturalı кörpüsü, Minkənd

körpüsü və xeyli bulaqüstü abidələrin aqibəti bu gün məlum deyildir.

Memarlıq abidələrindən Hoçaz kəndində mağara-məbəd (V əsr), Cicimli kəndində Məlikəjdər türbəsi (XIV əsr), adsız türbə (XVII-XVIII əsrlər), Zeyvə kəndində Kafir qalası (XVII əsr), Sultan Baba türbəsi, Şeyxəhməd türbəsi, adsız türbə (XIX əsr), Qarıqışlaq kəndində məscid (1718), Hüsülü kəndində Həmzə Sultan sarayı (1761), Həkəri çayı üzərində körpü (XVIII əsr), Ağoğlan çayı üstündə məbəd (XIX əsr), Güləbirt kəndində türbə işğal altındadır.

Laçın rayonunun ərazisində ümumi ehtiyatları 1124,0 ton olan 3 (Narzanlı, Çilgəzçay, Sarıbulaq) civə yatağı; ehtiyatları 2533 min $m^3$ olan və istismara cəlb edilən, üzlük daşı istehsalına yararlı Qoçaz mərmərləşmiş əhəngdaşı yatağı; ümumi ehtiyatları 5125 min $m^3$ olan və mişar daşı istehsalına yararlı 2 (Ağoğlan, Əhmədli) tuf yatağı; ehtiyatları 4457 min ton olan və əhəng istehsalına yararlı Laçın əhəngdaşı yatağı; ehtiyatları 998 min $m^3$ olan və kərpic-kirəmit istehsalına yararlı Novruzlu gil yatağı; ehtiyatları 2144 min $m^3$ olan Quşçu pemza yatağı; ehtiyatları 15794 min $m^3$ olan Yuxarı Həkəriçay qum-çınqıl qarışığı yatağı; ehtiyatları 10 ton və 0,9 tonluq 2 əlvan-bəzək daşı yatağı; ümumi ehtiyatları 10449 min ton olan 3 vulkan külü yatağı, istismar ehtiyatları 4300 min $m^3$/gün olan Minkənd mineral su yatağı var idi.

Laçın rayonu üzrə 33285 hektar meşə fondu torpaqları var idi ki, bunun da meşə ilə örtülü sahəsi 26647 hektar və ya 80,05% təşkil edirdi.

Laçın rayonunda Həkəri çayının sağ sahilində yol tikinti idarəsinin həyətində diametri 210 sm, hündürlüyü 26 m, yaşı 400 il olan 1 ədəd şərq çinarı, Zabux kəndində diametri 210 sm, hündürlüyü 25 sm, yaşı 400 il olan 1 ədəd şərq çinarı təbiət abidəsi kimi qeydə almaraq qorunurdu.

Laçın rayonunda Meşə təsərrüfatının dövlət meşə fondunda 1092 ha sahəni əhatə edən 5, 6, 8, 10, 18, 32, 57 saylı meşə məhəllələrində ardıc ağacı xüsusi olaraq qorunurdu. Dəniz səviyyəsindən 850 m hündürlükdə yerləşən həmin meşələrdə şabalıd və qaraçöhrə ağacları mühafizə edilirdi.

Azərbaycan Respublikası Nazirlər Sovetinin 17 noyabr 1987-ci il tarixli 408 №-li qərarı ilə Qaragöl (Sevliç) respublikalararası Dövlət Təbiət qoruğu yaradılmışdır. Qaragöl Dövlət Təbiət qoruğu Laçın rayonu ilə Gorus rayonu sərhədində dəniz səviyyəsindən 2658 metr hündürlükdə yerləşir. Qoruğun ümumi sahəsi 240 hektardır. Buraya 176 hektar İşıqlı Qaragöl akvatoriyası və gölün sahili boyunca 100 metr enində 64 hektar quru sahəsi aiddir.

İşıqlı Qaragöl (Scvliç) dəniz səviyyəsindən 2658 m hündürlükdə, Qarabağ vulkanik dağ silsiləsinin cənub hissəsində, Həkəri çayınm sağ qolu olan Ağoğlan çayının mənbəyinə yaxın ərazidə Böyük İşıqlı dağının (3548 m) şimal ətəyində, şimal-qərbdən Dəmirdaş və Kiçik İşıqlı (3452 m) dağı ilə, şimaldan Canqurtaran (2790 m) dağı, şərqdən isə alçaq moren tirəsi ilə əhatə olunmuşdur. Bu göl sönmüş vulkan kraterini xatırladan relikt su mənbəyidir.

Gölün uzunluğu 1950 metr, eni maksimum 1250 m, sahil xəttinin uzunluğu 5500 m, dərinliyi maksimum 7,8 m, hövzəsinin sahəsi 13 $km^2$-dir. Hesablamalara görə, göldə suyun həcmi 10 mln. $m^3$-dir. Gölün dibi sahilə yaxın yerlərdə müxtəlif ölçülü daşlardan ibarətdir. Mərkəzə doğru isə daşların (süxurların) ölçüsü azalır və nəhayət mərkəzi hissəsi xırda dənəli çöküntülərdən ibarətdir.

Oktyabr ayının ikinci yarısından aprelin axırlarına kimi gölün səthi donmuş olur. Sahildən mərkəzə doğru 20-25 metrə qədər məsafədə buzun qalınlığı 50 sm-dən çox olur. Burada qarın qalınlığı isə 40-45 sm-ə çatır.

Qoruqda 102 bitki növü olub.

Gölə heç bir yerdən su axımı yoxdur. Suyu çox təmiz və şəffaf, həm də şəfalı olduğu üçün xalq bu gölə müqəddəs ibadət yeri kimi baxırdı.

Yasaqlıqda cüyür, qaya keçisi, çöl donuzu, ayı, turac, kəklik, qaratoyuq qorunurdu. Laçın Dövlət Təbiət yasaqlığının sahəsi 21,4 min hektar olub. Həmin sahənin 7369 hektar və ya 34,5%-i meşə ilə örtülü idi. 1448 hektar və ya 6,8%-i alp çəmənliyi, 7430 hektar və ya 34,8%-i subalp çəmənliyi, 4257 hektar və ya 20%-i otlaqlar, 862 hektar və ya 4%-i qayalar və uçqunlar, 34 hektarı isə xüsusi təyinatlı torpaqlar idi. Yasaqlığın ərazisi orta və yüksək dağlıq əraziyə xas olan relyefə malikdir.

Ən yüksək zirvə Qırxqızlar (2825 m), Şəlvə, Picənis, Qorçu çayların axdığı dərin dərələr vasitəsi ilə dağ silsiləsi yaratmışdı. Yasaqlığın ərazisinə qışı quraq keçən, soyuq iqlim tipi hakimdir. Bitki örtüyünə görə yasaqlığın ərazisi iberiya palıdlarından ibarət olan dağ-meşə (1000-1700 m), şərq palıdından ibarət olan yuxarı dağ meşə (1700-2200 m), subalp (2200-2500 m) və alp (2500-2800 m) çəmənlikləri qurşaqlıqlarına ayrılır. Subalp qurşağı üçün quraq yamacların bozqırlaşmış və nisbətən rütubətli yamacların mezofil çəmənləri, alp qurşağı üçün müxtəlif otlu çəmənliklərin üstünlüyü və alp xalısının zəif inkişafı ilə səciyyələnmişdir.

Yasaqlığın ərazisində ibtidai, az qalın, çimli dağ-çəmən, tipik karbonat qalıqlı bozqırlaşmış qonur dağ-meşə, çürüntülü-karbonatlı dağ-meşə, tipik və bozqırlaşmış qəhvəyi dağ-meşə torpaqları yayılmışdır. Meşələrə nisbətən dağ-çəmən qurşağı və meşə qurşağının meşəsiz sahələri otlaq kimi antropogen təsirə çox məruz qalır. Bununla bərabər burada bir sıra vəhşi heyvan və quşların məskunlaşması üçün əlverişli şərait vardır. Onların sayı və növü kifayət qədərdir.

(1989-cu ildə yasaqlıqda aparılan yoxlamada: dağ-keçisi (bezoar keçisi) 96 baş, qaban 360 baş, cüyür 320 baş, ayı 110 baş, çoxlu sayda canavar, porsuq, dələ və s. heyvanlar, qırqovul 200 baş, kəklik 1500 baş və s. quşlar qeydə alınmışdı.- R.N.)

Yasaqlığın ərazisində Hacışamlı meşəsində dünyada ən qiymətli növ olan qırmızı palıd (qızıl palıd) olub. Həmin ağacdan istifadə etmək üçün hələ çar hökuməti dövründə fransızlar çətin dağlar ilə, Xankəndidən Qırxqız dağını

keçməklə, araba yolu çəkmişdilər.

Həmin ağacın materialından qiymətli mebel və xüsusən konyak spirti saxlamaq üçün çəlləklər düzəldilməsində istifadə edilirdi. Bu ağac Azərbaycanda yalnız həmin yasaqlıqda qorunurdu.

Laçın rayonunda olan Picənis və Hacışamlı meşəliklərində dünya şöhrətli qırmızı palıd 4000 hektardan artıq sahəni əhatə edir. Hələ əsrin əvvəllərində fransızlar Firəng yolunu (Picənis - Xarıkəndi yolu) çəkərək qırmızı palıdı daşıyıb konyak istehsalında çəllək istehsalında istifadə edirmişlər.

İşğal olunmuş Laçın rayonunun torpaqları 2006-cı ilin mart ayından başlayaraq xüsusi kisələrə doldurularaq Yerevana daşınır. Erməni professoru Karen Sumbatyan iddia edir ki, Laçında qiymətli uran yataqları var.

QEYD: Erməni terroruna məruz qalmış Laçın rayonunun Narzanlı, Gilgəzçay, Sarıbulaq civə yataqlarından xammal RF-na məxsus Gümrüdəki 102 saylı hərbi bazaya daşınır (?).

2003-cü ildən rayonun 247 hektar torpaq sahəsində narkotik maddələrin plantasiyaları salınıb. Ekspertlərin fikrincə, bu plantasiyalar Kolumbiya vətəndaşı olan Karlos Elatinoya məxsusdur. Bu məsələ BMT-nin «Narkotik maddələrə qarşı» hesabatlarında da öz əksini tapır. Münaqişəli zonalarda narkotik maddələrin əkilməsi artıq ciddi bir fakt kimi qalır. Laçında isveçrəli iş adamları qiymətli ağac materiallarından istifadə edərək, silah qundaqları hazırlayan iki böyük müəssisə təşkil ediblər.

## KƏLBƏCƏR: İŞĞAL OLUNMUŞ QALA

Sahəsi 3054 km$^2$ olan rayonda 1 şəhər, 1 şəhər tipli qəsəbə, 122 kənd vardı (1980). Mərkəzi Kəlbəcər şəhəridir.

Səthi dağlıqdır (Murovdağ, Şahdağ, Şərqi Sevan, Vardenis, Mıxtökən, Qarabağ silsiləsinin və Qarabağ yaylasının bir hissəsi). Ən yüksək zirvələri Gamış dağı (3724 m) və Dəlidağdır (3616 m). Ərazidə Yura, Tabaşir, Paleogen, Neogen və Antropogenin çökmə, vulkanogen-çökmə və vulkanik süxurları yayılmışdır. Ən böyük çayı Tərtər (yuxarı axını) və onun qollarıdır (Lev çayı, Tutqunçay və s.) Bazarçayın da mənbəyi Kəlbəcər rayonu ərazisindədir. Saf sulu gölləri (Ala göllər, Zalxa gölü və s.) var. Əsasən çimli dağ-çəmən və qonur dağ-meşə torpaqları yayılmışdır. Rayonun mərkəzi və şimal hissəsində enliyarpaqlı meşələr (palıd, fıstıq, vələs), meşə-çöl bitkiləri, yüksək və qismən orta dağlıqda alp və subalp çəmənlikləri geniş yer tutur. Meşələrin ümumi sahəsi 32774 hektardır. Qaya keçisi, qonur ayı, çöl donuzu, daşlıq dələsi, ular, qartal və s. faunasını zənginləşdirir.

İri yaşayış məntəqələri Kəlbəcər şəhəri, şəhər tipli İstisu qəsəbəsi, Başlıbel, Zəylik, Zar, Qılıclı və Zülfüqarlı kəndləridir.

Memarlıq abidələrindən Tərtər çayının başlanğıcındakı Xudadəng məbədi

(XIII-XVIII əsrlər) qalmışdır.

Kəlbəcər rayonu zəngin meşələri ilə fərqlənir. Kəlbəcər meşə təsərrüfatının ərazisi 32774 hektar təşkil edirdi.

Kəlbəcər rayonunun ərazisində yerləşən meşələr I qrupa aid olub, su saxlayıcı və gigiyenik, hava təmizləyici əhəmiyyətə malikdir.

Onlardan: Qiymətli balıq hövzəsinin olduğu çayların ətrafında yerləşmiş qoruq meşələri - 13471 hektar, ətraf mühitin mühafizəsi üçün əhəmiyyətli meşələr-15531 hektar, şəhər və digər yaşayış məntəqələrinin ətrafındakı yaşıllıqlar - 274 hektar, meşə park zonası - 80 hektar olmuşdur.

Təsərrüfatın ərazisində bitən ağac və kolların bir neçəsi Azərbaycan Respublikasının «Qırmızı kitab»ına daxil edilmişdir. Bunlardan əhəmiyyətli yeri ayıfındığı və ya ağacvarı fındıq tutur. Bu ağacın oduncağı qiymətli mebel materialı kimi ermənilər tərəfindən qırılaraq Ermənistana aparılır.

Təsərrüfatın ərazisi zəngin flora ilə bərabər zəngin faunaya da malikdir.

Kəlbəcər rayonunda dövlət meşə fondu ərazisində 968 ha sahəni əhatə edən 37, 38, 40, 48, 49, 50, 55 - saylı meşə məhəllələrində ayıfındığı meşələri xüsusi olaraq qorunurdu. Bu növə başqa meşələrdə nadir hallarda təsadüf olunur. Ayıfındığı Kəlbəcər rayonunda dəniz səviyyəsindən 1500-2100 m hündürlükdə bitir. Bəzilərinin hündürlüyü 25 metrə, diametri 48-120 santimetrə çatırdı.

Kəlbəcər rayonu ərazisində sənaye əhəmiyyətli ehtiyatları 112,5 ton olan və istismar olunan (bu haqda hesabatın müvafiq bölməsində müfəssəl məlumat verilir) Söyüdlü (Zod) qızıl yatağı; qiymətləndirilmiş ehtiyatları 13 tondan çox olan Ağduzdağ və Tutxun qızıl yataqları; sənaye əhəmiyyətli ümumi ehtiyatları 850 ton olan 3 (Ağyataq, Levçay, Şorbulaq) civə yatağı və qiymətləndirilmiş ehtiyatları 200 tondan çox olan Qamışlı və Ağqaya civə yataqları; ehtiyatları 10941 min $m^3$ olan və mişar daşı istehsalına yararlı Kilsəli tuf yatağı; ehtiyatları 4473 min $m^3$ olan və yüngül beton doldurucusu kimi istifadə olunan Keçəldağ perlit yatağı; ümumi ehtiyatları 2,2 mln. $m^3$ olan 2 üzlük daşı yatağı; ehtiyatları 2540 min $m^3$ olan Çəpli qum-çınqıl qarışığı yatağı; gözəl dekorativliyə malik 4 mərmər oniksi (ehtiyatları 1756 ton), 2 nefritoid (ehtiyatları 801 ton) yatağı, ehtiyatları 2337 ton olan 1 obsidian (dəvə gözü) yatağı, ehtiyatları 1067 min $m^3$ olan 1 listvenit yatağı qalmışdır.

Kəlbəcərə dünya şöhrəti qazandırmış Yuxan İstisu, Aşağı İstisu, Keşdək, Qarasu, Tutxun, Mozçay, Qoturlusu kimi çox böyük müalicə-balneoloji təsirə malik mineral su yataqları da (ümumi istismar ehtiyatları 3093 $m^3$/gün) işğal ərazisində yerləşir və on ildən çoxdur ki, nəinki azərbaycanlılar, hətta yaxın və uzaq xaricdən gələn qonaqlar təbiətin bu gözəl nemətindən istifadə etməkdən məhrumdurlar.

Tərtər çayı - uzunluğu 184 km olmaqla, su toplayıcı sahəsi 2650 $km^2$-dir. Çayın en kəsiyindən ən az sulu illərdə 13,4 $m^3$/san, orta sulu illərdə 23,1 $m^3$/san,

çox sulu illərdə isə 41,6 $m^3$/san su axır.

Tərtər çayının qolları Tutqu, Lev və Ayrım çaylarıdır. Kəlbəcər rayonu ərazisində azı 78 növ mineral, 36 növ süxur daşları vardı.

Kəlbəcərin zənginliyi həm də onun mineral daş müxtəlifliyinə malik olması ilə ölçülürdü. Qaradağlı yurdu adlanan sahədəki qırmızı tuf, Nağdalı yurdu və Zənginin çalası deyilən yerlərdəki ağ, qırmızı, göy və san tuflar, Başlıbel, Əsirik kəndlərinin ərazilərində və başqa mərkəzlərdə olan travertin yataqları, Mollabayramlı, Zar, Məmmədsəfi kəndlərində və Keyfi dağı ətrafında olan pemza yataqları, Zallar və Yanşaq kəndləri yaxınlığındakı mərmər yataqları bitib-tükənən deyildir.

Rayonda bir neçə növ bazalt daşları müəyyən edilmişdir. «Pişikli», «Sandıqlı», «Gəlin Qayası», «Xanım Dərəsi» adlanan yerlərin ətrafındakı bazalt çınqıllıqlarında və torpağın dərinliklərində olan bazalt daşları yüngüllüyünə, yumşaqlığına, asan kəsilib yonulmasına görə başqalarından seçilir. Bunlar ən gözəl tikinti materialları hesab edilir (mərkəzin fondunda saxlanan şəkillər).

Kəlbəcər rayonu ərazisində 4 mindən artıq müxtəlif növ bitki vardır. Bunlardan 200-ə qədəri dərman bitkiləridir.

Erməni politoloqu İ.Muradyan işğal edilmiş Xankəndidə çıxış edərkən bildirib: «Kəlbəcəri azərbaycanlılar özlərinin şöhrət qalası elan ediblər. Biz artıq həmin qalanı zəbt etdik» (2006.1.1.9).

QEYD; İşğal olunmuş Kəlbəcər yaşayış məntəqəsindəki Yuxarı İstisu müalicə mərkəzini rusiyalı iş adamı, professor A.Kruqlov alıb. «Kruqlov şirkəti» İstisu ətrafında müalicə mərkəzi də təşkil edib. Hər il bu mərkəzə RF-dan, Bolqarıstandan, Rumıniyadan, Estoniyadan, Yunanıstandan, İrandan 120 nəfərdən artıq turist gəlir. Onlar bu yerlərdə həm dincəlir, həm də müalicə olunurlar. Rayonun Başlıbel, Zəylik, Qılıclı əraziləri hərbçilərin müalicə-istirahət yerlərinə çevrilib. Kəlbəcərdə 12 xarici vətəndaşın şirkəti fəaliyyət göstərir.

## AĞDAM: ERMƏNİLƏRİN ƏN ÇOX QORXDUQLARI ƏRAZİ

Ağdam rayonu Azərbaycanın mərkəzində, Kür-Araz ovalığının Kiçik Qafqaz dağlarına söykəndiyi yerdə əlverişli mövqe tutur. Rayondan Avrasiya Nəqliyyat Dəhlizi (TRASEKA) keçən Yevlax stansiyasına qədər olan məsafə 75 km-dir.

Əhalisinin sayına görə ən böyük rayonlardan sayılan Ağdam rayonunun 88395 hektar sahəsi 23 iyul 1993-cü ildə işğal olunub. 119 kənd və qəsəbə dağıdılıb.

Ağdam ərazisindən Yevlax-Laçın-Naxçıvan, Ağdərə-Füzuli magistral şose yolları keçir. Bakı ilə Ağdam şəhərləri arasında hava nəqliyyatı var idi. 1967-ci ildə Yevlax-Ağdam dəmir yolu istifadəyə verilmişdi. Xaçın türbətli kəndindəki

Qutlu Musa oğlu türbəsi (1314) və Kəngərli kəndindəki türbə (XIV əsr) rayonun ən qədim memarlıq abidələridir. Papravənd kəndində XVIII əsrə aid 2 türbə, məscid var idi.

Ağdam rayonunda ehtiyatları 64863 min $m^3$ olan və mişar daşı istehsalına yararlı, istismar olunan Şahbulaq əhəngdaşı yatağı; sement istehsalına yararlı Çobandağ əhəngdaşı (ehtiyatları - 140464 min ton), Boyəhmədli gil (ehtiyatları - 44708 min ton) və Şorbulaq gil (ehtiyatları 25197 min ton) yataqları; ehtiyatları 3999 min $m^3$ olan və üzlük daşı istehsalına yararlı Gülablı əhəngdaşı yatağı; kərpic istehsalına yararlı Ağdam gil (ehtiyatları 1599 min $m^3$) yatağı; ümumi ehtiyatları 29599 min $m^3$ olan 2 (Xaçınçay və Qarqarçay) qum-çınqıl qarışığı yatağı ermənilər tərəfindən işğal edilib.

Rayonun keçmiş Lenin küçəsindəki diametri 80 sm, hündürlüyü 25 m, yaşı 150 il olan 2 ədəd şərq çinarı, 28 Aprel prospektində diametri 90 sm, hündürlüyü 25 m, yaşı 200 il olan 2 ədəd şərq çinarı. Qasımlı sovetinin Şelli kəndindəki diametri 100 sm, hündürlüyü 25 m, yaşı 250 il olan 1 ədəd şərq çinarı, Ağdamın Qarağac adlanan hissəsindəki diametri 90 sm, hündürlüyü 25 m, yaşı 250 il olan 2 ədəd şərq çinarı, Seyidli kəndindəki diametri 100 sm, hündürlüyü 25 m, yaşı 200 il olan 3 ədəd şərq çinan, Sarıhacılı kəndində diametri 120 sm, hündürlüyü 28 m, yaşı 200 il olan 2 ədəd şərq çinarı, Əliağalı kəndindəki diametri 110 sm, hündürlüyü 26 m, yaşı 200 il olan 2 ədəd şərq çinarı və Boyəhmədli kəndi ətrafında geniş bir sahəni əhatə edərək ərazinin susaxlama xüsusiyyətlərinə kömək edən, diametri 220 sm, hündürlüyü 25 m, yaşı 400 il olan 71 ədəd şərq çinan təbiət abidəsi kimi daha qorunmur. Viranə qalmış bu mənəvi sərvətlər bu gün talan edilib, Ermənistana daşınır.

Rayonun işğal altında qalan kəndləri yandırılıb, külü göyə sovrulub. İşğal olunmuş rayonun Yusifcanlı, Novruzlu, Bağbanlı, Saybalı, Sancalı, Baş Qarvənd əraziləri başdan-başa yandırılıb.

Rayonun ərazisindən keçən ən iri çay - Xaçınçaydır. Çayın uzunluğu 104 km, su toplayıcı sahəsi 657 $km^2$-dir.

QEYD: İşğal olunmuş Ağdam ərazisindəki qədim çinarların böyük bir qismi 2003-cü ilin mayın 15-dən başlayaraq İrana və Yunanıstana daşınır. Əsrin hərbi sənaye komplekslərində istifadə edilən bu strateji ağacların yerində isə istehkamlar qurulur. Zəbt olunmuş Xaçınçayın və Qarqarçayın qum-çınqılı Ermənistana daşınır. Bu yataqlara erməni iş adamı Carakan Sumbatyan başçılıq edir. Məlumata görə, C.Sumbatyanın Yerevandakı mebel fabriki isə Ağdamın işğal altındakı qədim qiymətli ağaclarının hesabına qurulub.

## FÜZULİ: ABİDƏLƏRİ, QƏDİM YURD YERLƏRİ TARİMAR EDİLƏN TORPAQ

Azərbaycan Respublikasının cənub-qərbində əlverişli iqtisadi-coğrafi mövqedə yerləşir. Araz çayı üzərində salınan körpü onu İranla birləşdirir.

Memarlıq abidələrindən Əhmədalılar türbəsi, Babı türbəsi, Mirəli türbəsi, Füzuli şəhərində Hacı Ələkbər məscidi (XIX əsr), Qarğabazar kəndində Hacı Qiyasəddin məscidi (1682), karvansara (1684), türbə (XVIII əsr), Qoçəhmədli kəndində məscid (XVIII əsr) düşmənlərin girovuna çevrilib.

Köndələnçay Araz çayının sol qolu olmaqla uzunluğu 102 km, su toplayıcı sahəsi 536 $km^2$-dir. Orta sulu illərdə çayın en kəsiyində 1,57 $m^3$ / san, az sulu illərdə 0,71 $m^3$/san, çox sulu illərdə isə 2,43 $m^3$ / san su axır.

Füzuli rayonunda ümumi ehtiyatları 58858 min $m^3$ olan və mişar daşı istehsalına yararlı, istismar olunan 2 (Dövlətyarlı, Dilağarda) əhəngdaşı yatağı; kərpic-kirəmid istehsalına yararlı, 11211 min $m^3$ ehtiyatlara malik Kürdmahmudlu gil yatağı; ehtiyatları 13053 min $m^3$ olan Quruçay qum-çınqıl qarışığı yatağı işğal altındadır.

Füzuli rayonunda İşıqlı kəndində Tağlı körpünün yanında diametri 250 sm, hündürlüyü 25 m, yaşı 500 il olan 1 ədəd şərq çinarı, orada diametri 450 sm, hündürlüyü 25 m, yaşı 900 il olan 1 ədəd şərq çinan, Mandılı kəndində Mustafa adlanan yerdə diametri 150 sm, hündürlüyü 40 m, yaşı 300 il olan 5 ədəd şərq çinan, Böyük Bəhmənli kəndində İranla sərhəd yaxınlığında diametri 100 sm, hündürlüyü 20 m, yaşı 200 il olan 1 ədəd şərq çinan, Seyidəhmədli kənd sovetinin «İbə piri» adlanan sahəsində diametri 520 sm, hündürlüyü 30 m, yaşı 1400 il olan 1 ədəd şərq çinarı, həmin yerdə diametri 250 sm, hündürlüyü 25 m, yaşı 550 il olan 1 ədəd şərq çinarı, Pirəhmədli sovetində Mandılı kəndində Vahidin həyətyanı sahəsində diametri 180 sm, hündürlüyü 45 m, yaşı 400 il olan 1 ədəd şərq çinan daha qorunmur. Bu ağaclar kəsilib doğranılaraq xaricə daşınıb.

## ÖZGƏLƏR ARASINDA BÖLÜNƏN ƏRAZİ

«Cəbrayıl» ifadəsi eyniadlı kəndin adından götürülmüşdür. Kəndin əsasını qoymuş «Cəbrayıl ata» XVIII əsrdə yaşamış Sultan Əhməd adlı hökmdarın yaxın adamlarından biri olmuş və Ziyarət dağından Araz çayına qədər ərazilər «Cəbrayıl ata»ya və onun oğullarına məxsus idi. Bu müqəddəs şəxs hələ sağlığında böyük hörmət sahibi olub, vəfat edərkən öz mülkünün axar-baxarlı bir yerində, Al-paşa dağı üstündə dəfn edilmişdir. Cəbrayıl kəndinin şimalında «Cəbrayıl ata» adı ilə məşhur olan bu məqbərə və onun ətrafındakı məzarlar dağıdılıb.

Səthi, əsasən maili düzənlikdir (İncəçöl, Gəyən çölü). Rayonu şimalda alçaq dağlıq əhatə edir. (Qarabağ dağ silsiləsinin cənub-şərq ətəkləri). Dəniz

səviyyəsindən hündürlüyü Araz çayı sahilində təqribən 200 m (bəzi yerlərdə daha alçaq), şimalda 1000 m və daha yüksəkdir.

Memarlıq abidələrindən Cəbrayıl şəhərində Sultan Allahverdi hamamı, Xudayarlı kəndində dairəvi və səkkizguşəli türbələr (hər ikisi XIX əsr), Şıxlar kəndində dairəvi türbə (XIV əsr), Araz çayı üzərində məşhur Xudafərin körpüləri və s. mühafizə olunurdu.

Cəbrayıl rayonunun işğalda qalan 4039 hektar meşə sahəsi var.

Cəbrayıl rayonunda mişar daşı istehsalı üçün yararlı olan və istifadəyə verilmiş Tulus tuf (ehtiyatları 2937 min $m^3$) yatağı; ümumi ehtiyatları 5434 min $m^3$ olan 2 (Çaxmaxçay, Soltanlı) tikinti qumu yatağı; kərpic istehsalına yararlı Qaracallı (ehtiyatları 296 min $m^3$) gil yatağı; sement istehsalına yararlı Göyərçin-Veysəlli (ehtiyatları 6644 min ton) vulkan külü yatağı; ehtiyatları 1325 min ton olan Minbaşlı gəc yatağı; əhəng istehsalına yararlı Ağtəpə (ehtiyatları 5226 min ton) əhəngdaşı yatağı; ehtiyatları 4130 min $m^3$ olan Cəfərabad qum-çınqıl qarışığı yatağı; zərgərlikdə istifadəyə yararlı Sahverdi yəşəm (ehtiyatları - 504 ton) və Çaxmaqqaya xalsedon (ehtiyatları - 1348 ton) yataqları var idi. Cəbrayıl rayonunda şəhərdə diametri 250 sm, hündürlüyü 30 m, yaşı 500 il olan şöhrəti bütün Zaqafqaziyaya yayılmış 1 ədəd şərq çinarı, Hacılı kəndində diametri 350 sm, hündürlüyü 30 m, yaşı 700 il olan 1 ədəd şərq çinarı, həmin kənddə diametri 800 sm, hündürlüyü 45 m, yaşı 1600 il olan 6 ədəd şərq çinan, Karxulu kəndində diametri 90 sm, hündürlüyü 25 m, yaşı 200 il olan 1 ədəd şərq çinarı, Fuqanlı kəndində diametri 450 sm, hündürlüyü 30 m, yaşı 900 il olan 1 ədəd şərq çinarı, həmin kənddə diametri

370 sm, hündürlüyü 30 m, yaşı 750 il olan 1 ədəd şərq çinarı, Horovlu kəndində diametri 400 sm, hündürlüyü 30 m, yaşı 800 il olan 1 ədəd şərq çinarı, İsaqlı kəndində diametri 400 sm, hündürlüyü 25 m, yaşı 800 il olan 1 ədəd şərq çinarı, Xələfli kəndində diametri 60 sm, hündürlüyü 9 m, yaşı 300 il olan 1 armud ağacı işğala qədər qorunurdu.

Cəbrayıl rayonunda Dağ Tumas kəndindən 2 km şərqdə, dəniz səviyyəsindən 870 m hündürlükdə yerləşən, uzunluğu 30 metr olan, «Divlər sarayı» adlanan mağara bu gün erməni terrorçularının silah anbarına çevrilib.

Cəbrayıl şəhərinin şimalında Alpaşa dağında yerləşən «Cəbrayıl Ata» türbəsi keçmiş Cəbrayıl kəndinin təməlini qoymuş Cəbrayıl atanın qəbiri üzərində tikilmişdir. Bu VIII-IX əsrə aid, uzunluğu 4,5 metr, eni 2,4 metr, hündürlüyü 1,8 metr, üzərində heç bir epiqrafik yazı olmayan alban türbəsidir. İşğala qədər tikildiyi formada qalmışdı. İşğaldan sonra dağıdılması haqda məlumatlar alınmışdır.

Müşahidə və düşmən hücumundan uzun müddət müdafiə olunmaq məqsədi ilə Araz çayının sol sahilində, Diridağın üzərində XII-XIII əsrlərdə tikilmiş «Qız qalası» və V-VI əsrə aid edilən, 500 kvadrat metr ərazini əhatə edən, «Sirik qalası»

da mənfur erməni siyasətinin qurbanı olmuşdur. Şahidlərin və əsirlikdən qayıtmış girovların söylədiklərinə görə, hər iki qala tamamilə dağıdılmışdır.

Araz çayı üzərində biri 11, digəri 15 aşırımlı Xudafərin körpünün Azərbaycan memarlığının əvəzedilməz incilərindəndir. Birinci körpünün uzunluğu 130, eni 6, hündürlüyü 12 metrdir. İkinci körpünün uzunluğu 200, eni 4,5, hündürlüyü 10 metrdir. Körpünün bir-birindən 800 metr aralıdır.

Min illərin təbii təsirinə sino gərmiş müstəsna mühəndislik qabiliyyətini özündə əks etdirən, işğaladək öz bütövlüyünü saxlayan bu körpülər də müharibə gedişində bir sıra uçuntulara məruz qalmışdır.

İran tərəfdən baxılan görüntülərdə Arazın sol sahilində olan Cəbrayıl rayonunun kəndlərindən əsər-əlamət belə yoxdur. Yaşıllıqlara qərq olan kəndlər xarabalığa bənzəyir. Cəbrayıl rayonunun dağ zonası kəndində yerləşən XIII-XIV əsrlərə aid edilən kümbəzin üstü açıq olduğuna görə «Başıkəsik kümbəz» deyilən abidənin hündürlüyü 12 metrə, diametri 5 metrə çatır. Müharibədən qabaq kümbəz bərpa edilmişdi. İşğalçılar tərəfindən kümbəzin divarları bir neçə yerdən dağıdılmışdır. Cəbrayıl rayonunun Şıxlar kəndi yaxınlığında eyni üslubda XIV əsrdə tikilmiş Şıxlar türbəsinin hündürlüyü 8 metrə, diametri 6 metrə yaxındır. Kümbəzin yuxarı hissəsinin də ermənilər tərəfindən dağıldığı qeyd olunur.

Ərazinin şimalında memarlıq üslubuna görə orta əsr tarixində özünəməxsus yer tutan XV əsrə aid «Dairəvi» türbə, XVI əsrə aid 8 guşəli türbə işğalçılar tərəfindən yerlə-yeksan edilib.

Cəbrayıl rayonunun Çələbilər kəndi ərazisində XVI əsrə aid olan Məhəmməd İbn-Hacı Qaraman Əhmədli tərəfindən 1678-ci ildə tikilmiş əzəmətli bir məscid - mədrəsə var idi. Bu mədrəsədə böyük alimlər, din xadimləri o cümlədən, XVIII əsr Azərbaycan şairi Molla Vəli Vidadi dərs demişdir. Məscid xüsusi hücrələrdən, dərs otaqlarından ibarət olmaqla özünəməxsus kompleks təşkil edirdi.

Cəbrayıl rayonunda təbiət abidəsi kimi qorunan 800 yaşı olan məşhur çinar ağacının ermənilər tərəfindən kəsilməsi nəticəsində həmin sahədə yerləşən sərin «Sulu kəhriz»in məhv olduğu bildirilir.

QEYD: Ermənilərin işğal etdikləri Cəbrayıl rayonu ərazisinin kəndləri başdan-başa viran qalıb. Qədim çinar ağacları iranlı iş adamı Ağa Mehdi Səlimnurun başçılıq etdiyi şirkətə satılıb. Cəbrayıl rayonunda məlumata görə, 393 hektar torpaq sahəsi «ölü zona» kimi qeyd olunub. Bu sahəni həm də işğalçı qoşunlar poliqona çevirib. Rayon ərazisindəki təbii sərvətlər erməni iş adamları tərəfindən bölünüb. Məsələn, iqtisadçı, iş adamı Aftandil Petrosyan ərazinin yataqlarına sahib çıxıb. Digər bir iş adamı, Erik Melkumyan qiymətli meşə sərvətini mənimsəyib.

## ZƏHƏRLİ SULAR

Qubadlı Azərbaycanın cənub-qərbində, Zəngəzur dağları ilə Dağlıq Qarabağ silsiləsinin arasında 35 km uzunluğunda Ermənistanla sərhəddə yerləşir.

Ərazisi dağlıq olsa da, onun əlverişli Gəyən, Yazı düzü, Həkəri, Bərgüşad çay vadiləri vardır.

Müxtəlif mənbələrə görə, rayon XVI əsrdə həmin ərazidə yaşamış Qubad bəyin adını daşıyır.

Doxsan üç kənddən ibarət olan rayonun ərazisi dağlıq, dağətəyi və aran zonalarından ibarətdir. Zəngin coğrafi şəraiti, mülayim iqlimi, münbit torpağı vardır.

**Bərgüşad çayı** (Bazarçay) - Araz çayının sol qolu olmaqla öz mənbəyini Ermənistan Respublikasından götürür, uzunluğu 158 km, su toplayıcı sahəsi 5600 $km^2$-dir. Ona Qubadlı ərazisindən Ağa, Bəxtiyarlı və Davudlu kiçik çay qolları axır. Çayın hövzəsinin 2020 $km^2$-i, çay yatağının isə 93 kilometri Ermənistan ərazisinə düşür. En kəsiyindən az sulu illərdə respublika ərazisində 9,3 $m^3$/san, çox sulu illərdə isə 29,9 $m^3$ / san su axır. Ermənilər sənaye və məişət-çirkab sularını bu çaya yönəldib.

**Həkəri çayı** - Araz çayının sol qolu olmaqla uzunluğu 113 km, su toplayıcı sahəsi 2570 $km^2$-dir. Çayın en kəsiyindən az sulu illərdə 6,27 $m^3$/san, orta sulu illərdə 15,3 $m^3$/san, çox sulu illərdə isə 24,2 $m^3$/san su axır. Çayın suyundan içmək və suvarma məqsədləri ilə istifadə olunurdu. Bu gün həmin çaylardan - zəhərli sudan istifadə edilməsi mümkün deyil.

Qubadlı rayonunda 600-dən çox mineral maddələrlə zəngin, soyuq, şəfalı suyu olan təbii bulaqlar var idi. Bunlardan: Armudlu, Həcər, Şirinpir, Sobu, Çayzəmi, Topağac, Üçağac, Qaraağac, Kəklik, Söyüdlü-Əli, Gölçük, Qarıqışlaq, Fətə, Narlı, Turşsu, Bağırbəyli-çinar, Dəvədərə, İşıqlı-novlu, Zağlıq, İmamzadə, Qoçlar-çinarlı, Səvədərə, Ağsu, Bəylik, Almalıq, Quş bulaq, Hürnəyit novlu, Müskanlı dağ, Çilli, Hacılı-Əli, Quyubulaq, Şorbulaq, Söyüdlü və sair dağ və meşə bulaqları: Novlu, Seytas, Göyərçik, Göyarabas, Xallava, Aşağı Cibikli, Yuxarı Cibikli, Əyin, Çardaxlı, Mehrili, Xocamsaxlı, Zor, Poladlı, Dəmirçilər, Hərtiz, Göyyal, Fərcan, Saldaş, Qiyaslı, Tatar, Əliquluuşağı, Eyvazlı, Davudlu, Qədili, Qundanlı, Balahəsənli, Müskanlı, Məlikəhmədli, Qayalı, Xıdırlı, Mahmudlu Hacılı, Hat, Deşdahat, Başarat, Armudluq, Muradxanlı, Xəndək, İşıqlı kəndlərinin təbii bulaqları daha məşhur idi. Bundan başqa 46 km uzunluğunda içməli su kəmərləri, Hal, Mahruzlu, Məmər və Xanlıq kəndlərini içməli su ilə təmin edirdi.

Qubadlının 80250 hektar torpaq sahəsi işğala məruz qalıb. Rayonun «Yazı düzü», «Gəyən düzü» və «Məzrə düzü» kimi münbit torpaqları məşhur idi. Bu düzlər quraqlığa davamlı olduqları üçün orada əsasən taxıl və üzüm əkilirdi.

Qubadlının meşə sahəsi 13160 hektardır. Meşələrindəki qırmızı palıd, vələs,

qoz, şam, ağcaqayın, göyrüş, söyüd, ardıc, yemişan, armud, zoğal, qarağat ağacları sürətlə kəsilərək daşınır.

Qubadlı rayonu ərazisində ehtiyatları 6247 min $m^3$ olan və mişar daşı istehsalı üçün yararlı, istifadəyə verilmiş Hacılı tuf yatağı; kərpic istehsalına yararlı Xanlıqkənd (ehtiyatları 990 min $m^3$) gil yatağı; ehtiyatları 1,1 min ton olan Eyvazlı bəzək-əlvan daşlar yatağı; istismar ehtiyatları 84 min $m^3$ / gün olan Qubadlı yeraltı su yatağı işğal altındadır.

Qubadlı qəsəbəsinin ərazisində diametri 80 sm, hündürlüyü 35 m, yaşı 160 il olan 2 ədəd şərq çinarı, diametri 150 sm, hündürlüyü 20 m, yaşı 300 il olan 1 ədəd şərq çinan, diametri 150 sm, hündürlüyü 20 m, yaşı 300 il olan 2 ədəd şərq çinarı, Gödəklər kəndində diametri 80 sm, hündürlüyü 8 m, yaşı 150 il olan 1 ədəd saqqız ağacı, Xanlıq kəndində diametri 800 sm, hündürlüyü 40 m, yaşı 1600 il olan 3 ədəd şərq çinarı, Zilanlı kəndində Daşlı adlanan yerdə diametri 150 sm, hündürlüyü 35 m, yaşı 300 il olan 1 ədəd şərq çinan dövlət qeydiyyatına alınmış təbiət abidəsi kimi qorunurdu. İşğaldan sonra bu yerlər dağıdıldı.

Muradxanlı kəndində «Qalalı» mağarası və Əliquluuşağı kəndində «Bulaq» abidə kompleksi də ən qədim təbiət abidələrindən hesab olunurdu. Qubadlı şəhərində, Mahmudlu, Qayalı, Məlik Əhmədli, Ləpəxeyranlı, Avdalanlı, Xıdırlı, Balahəsənli, Armudluq və Qədili kəndləri ətrafındakı təbii qayalar haqqında fransızlar və almanlar sənədli filmlər çəkib.

Poladlı kəndinin qarşısındakı «Kəmərə qaya», «Ala qaya» və onların ətrafındakı nəhəng daşlardan düzülmüş sədd, «Pir-sirin» bulaq qaya kompleksi, «Avadalanlı» dərəsindəki «Damcı» bulaq ən gözəl təbiət yadigarları idi.

Başarat kəndi ərazisindəki «Topağac» mənzərəsi əfsanəvi yurd yeri idi. Məlumata görə rayonun təbii su ehtiyatlarının 31%-i «zəhərli su hövzəsi» kimi qeyd olunur.

QEYD: İşğal olunmuş ərazinin ən münbit torpaqları xarici iş adamlarına ya satılıb, ya da icarəyə verilib. Məsələn, «Yazı düzü» deyilən ərazi İsrail vətəndaşı Amiram Solomon tərəfindən icarəyə götürülüb. Burada həmçinin maldarlıqla məşğul olunur. Əldə olunan məhsul bir qayda olaraq Ermənistana daşınır. Ərazidən hər il 600 kq dərman bitkisi yığılaraq İsrailin dərman fabriklərinə göndərilir. Məlumata görə, 2004-cü ildə ingilis iş adamları Batarat kəndini əfsanəvi gözəlliyinə və təbii sərvətlərinə yiyələnmək məqsədi ilə separatçı A.Qukasyan rejimindən icarəyə götürüblər.

## ZƏNGİLAN: ELAN OLUNMUŞ «ÖLÜ ZONA»

Azərbaycan Respublikasının cənub-qərbində Ermənistan və İranla sərhəddə Bakı-Culfa-Naxçıvan magistral dəmir və şose yolları üzərində strateji cəhətdən böyük əhəmiyyət kəsb edən bir mövqedə yerləşir.

Rayonun ərazisi orta və alçaq dağlıq sahədə yerləşərək mürəkkəb və dərəli-təpəli səth quruluşuna malikdir. Şimal-qərbdən əraziyə daxil olan Bərgüşad silsiləsi (Süsən dağı, 1304 m) alçalaraq Bazarçayla Oxçuçay arasında Ağ Oyuq maili düzünü (hündürlüyü 400-600 m) əmələ gətirir. Şimal-şərqdə Qarabağ silsiləsinin Araz və Həkəri çaylarına tərəf alçalan yamacları təpəli Gəyən (Geyan) çölünə keçir. Qərbdə Mehri (Mehri-Güney) silsiləsinin şərq kənarı Bartaz dağı (2270 m) yerləşir. Burada yura, tabaşir və neogen çöküntüləri yayılmışdır. Ərazinin çox yerində qışı quraq keçən mülayim isti iqlim hakimdir. Həkəri, Oxçu Bəsit çayları rayonun cənub sərhədindən axan Araz hövzəsinə aiddir. Düzən və dağətəyi sahədə dağ-şabalıdı, dağ boz-qəhvəyi, dağlıq sahədə qəhvəyi dağ-meşə, çay dərələrində çimli-çəmən torpaqları yayılmışdır. Bitki örtüyündə çöl formasiyası geniş yer tutur. Quru çöl, dağ kserofil bitkiləri, kolluqlar, dağlıq hissədə enliyarpaqlı meşələr (palıd, vələs və s.) geniş yayılmışdır.

Rayonda 107 hektar sahəsi olan Bəsitçay Dövlət Təbiət qoruğu, 2,2 min hektar sahəsi olan Arazboyu yasaqlıq, 4 ədəd təbiət abidəsi, 10 min hektar xüsusi mühafizə olunan Araz palıdı meşəsi, 12864 hektar dövlət meşə fondu, 1200-dək büllur sulu təbii bulaqlar, 4 mənbədən ibarət olan, tərkibcə «Yessentuki-4» suyuna uyğun gələn «Qotursu» mineral bulaqları, Seyidlər və Gəyəli kəndlərində turşsu mineral bulağı ermənilər tərəfindən işğal edilib.

Rayonun ərazisindən Bakı-Yerevan dəmir yolu (Mincivandan Qafana yol ayrılır), İmişli-Laçın və Bakı-Şərur magistral şose yolları keçirdi.

Memarlıq abidələrindən Hacallı kəndində dairəvi bürc, Məmmədbəyli kəndində səkkizguşəli türbə (1304-1305), Şərifan kəndində sərdabə (XIII əsr), Yenikənddə sərdabə (XIV əsr) mühafizə olunurdu. Bu gün həmin tarixi yerlər dağıdılıb.

**Araz çayı** - ərazinin ən iri çayıdır - Respublikanın ikinci əsas su mənbəyi sayılan Araz çayı öz başlanğıcını Türkiyədən götürür. Uzunluğu 1072 km (daxildə 77 km), su toplayıcı sahəsi 102000 $km^2$ (daxildə 15700 $km^2$). Çay suyundan suvarmada istifadə olunur, Arazboyu Tuqay meşələrinin də suvarılmasını təmin edir.

Ermənistan ərazisində yaranan çirkab suları mütəmadi olaraq 2,1 min kub/gün təmizlənilmədən birbaşa Araz çayına axıdılır. Arazın çirkləndirilməsi Naxçıvan və Zəngilan rayonu ərazisi ilə Ermənistandan Araza axan qollar vasitəsilədir.

Araz çayının sol qolu olan Oxçuçay öz mənbəyini Zəngəzur dağ silsiləsindən (Qapıçıq dağı) götürməklə uzunluğu 82 km-dir. Çayın su toplayıcı hövzəsi 1140 $km^2$ olmaqla en kəsiyindən saniyədə 5,9 $m^3$ (ən az sulu illərdə), 10 $m^3$ (orta sulu illərdə) və 14,6 $m^3$ (ən çox sulu illərdə) su axır. Ermənistan Rcspublikası ərazisində yerləşən Qacaran mis-molibden, Qafan mis filizsaflaşdırma kombinatlarının kimyəvi çirkli suları və Qafan-Qaçaran

şəhərlərinin (o, cümlədən kəndlərin, xəstəxanaların, kənd təsərrüfatı obyektlərinin) bioloji çirkli suları təmizlənmədən (zərərsizləşdirilmədən) birbaşa Azərbaycan ərazisində Şərifan kəndinin qarşısında Oxçuçaya buraxılır ki, bu da çay hövzəsini «Ölü zonaya» çevirmişdir. Çayın yatağının 43 kilometri, su toplayıcı sahəsinin isə 455 $km^2$-i Azərbaycan ərazisinə düşür ki, bu hissə daim çirklənməyə məruz qalır. Nəticədə çay suyunda əzəldən formalaşmış mikroflora - fauna da məhv olmuş, öz-özünü təmizləmə prosesi dayanmışdır.

**Bəsitçay** - Araz çayının sol qolu olmaqla öz mənbəyini Ermənistandan götürür. Çayın uzunluğu 44 km (17 km-i Azərbaycan ərazisinə düşür) su toplayıcı hövzəsi isə 354 $km^2$-dir (156 $km^2$-i Azərbaycan ərazisinə düşür). Çay Ermənistanın dağ kəndlərinin donuz fermalarının tullantıları ilə çirkləndirilir.

Zəngilan rayonunda dövlət meşə fondu və digər ərazilərdə 10 min hektar Araz palıdı (guerocus araks) meşələri dövlət tərəfindən xüsusi olaraq qorunurdu.

Zəngilan rayonu təbii iqlim şəraitinə və münbit torpağına görə zəngin meşə və hər növ bitki örtüyü ilə xarakterikdir. Ərazinin daha çox hissəsini əhatə edən Araz palıdı fıstıqkimilər fəsiləsindəndir. Nadir növdür, rayonun Bartaz, Gəyəli, Ördəkli, Şayıflı, Yeməzli, Keçikli, Rəzdərə və başqa kəndlərinin ətrafında geniş yayılmışdır. Aşağı dağlıq qurşaqda dəniz səviyyəsindən 1000-1300 metr yüksəklikdə bitir. Kserofit seyrək meşə əmələ gətirir. Zəngilan rayonunda xüsusi qiymətli meşə kimi qorunurdu.

Rayonda geniş yayılan bitkilərdən biri də şərq çinarıdır (platanus orientalis). Şərq çinarı ehtiyatı azalmaqda olan relikt növdür. Zəngilan rayonunun Bəsitçay və Oxçuçay vadilərində təbii halda bitir, digər sahələrdə də geniş yayılmışdır, çay sahillərində dəniz səviyyəsindən 1000 metr yüksəkliyə kimi dərələr boyunca qrunt sularının kifayət qədər rütubətləndirdiyi sahələrdə bitir. Bəsitçay Dövlət təbiət qoruğunda mühafizə olunurdu.

Quraq yamaclarda çay vadilərində bitən, ərazidə geniş yayılmış bitkidir. Zəngilan rayonunun Bartaz, Ördəkli, Vejnəli, Beşdəli, Genlik, Yeməzli kəndlərində daha çox yayılmışdır.

Bununla belə rayondakı meşələrdə adi meşə gilası, vələs, meşə üzümü, Qarabağ dağ laləsi, sağsağan gülxətmisi geniş yayılmışdır.

Zəngilan rayonunda Hacallı sovetliyinin Muğanlı kəndində diametri 50 sm, hündürlüyü 8 m, yaşı 250 il olan 1 ədəd dağdağan, Mincivan qəsəbəsində diametri 60 sm, hündürlüyü 20 m, yaşı 120 il olan 1 ədəd şərq çinarı, həmin qəsəbədə diametri 100 sm, hündürlüyü 30 m, yaşı 300 il olan 1 ədəd şərq çinarı, Ördəkli kənd sovetində, Zəmiyeri adlanan sahədə diametri 60 sm, hündürlüyü 12 m, yaşı 160 il olan 1 ədəd palıd ağacı təbiətin nadir varlığı kimi qorunurdu.

Zəngilan rayonunda Vejnəli qızıl yatağı; ehtiyatları 6618 min $m^3$ olan və üzlük daşı istehsalına yararlı Oxçuçay mərmərləşmiş əhəngdaşı yatağı; təsdiq edilmiş ehtiyatları 129 mln. ton olan soda və «əhəng südü» istehsalına yararlı

Zəngilan (Daşbaşı-Əsgurum) əhəngdaşı yatağı; qırmadaş və əhəng istehsalına yararlı Zəngilan əhəngdaşı (ehtiyatları 6024 min ton), Bartaz-I və Bartaz-II porfirit (ümumi ehtiyatları 28943 min $m^3$) yataqları; kərpic-kirəmit istehsalına yararlı Zəngilan gil (ehtiyatları 1102 min $m^3$); ehtiyatları 17367 min $m^3$ olan Zəngilan qum-çınqıl qarışığı yatağı işğal altında qalıb.

Zəngilan rayonu coğrafi mövqeyinə, torpaq və iqlim xüsusiyyətinə görə füsunkar gözəlliyə, zəngin təbiətə malikdir. Təsadüfi deyildir ki, Avropada birinci, dünyada ikinci təbii çinar meşəliyi məhz bu rayona nəsib olmuşdur və mühafizə olunması məqsədilə Kiçik Qafqazın cənub-qərb hissəsində Bəsitçay vadisində Azərbaycan hökumətinin 4 iyul 1974-cü il tarixli qərarı ilə Bəsitçay Dövlət Təbiət Qoruğu yaradılmışdır.

Qoruğun ərazisi ilkin mərhələdə 117 hektar təsdiq olunmuşdu. Lakin sonralar, 1980-ci ildə heç bir əsaslı səbəb olmadan qoruq ərazisi 10 hektar azaldılmış, 107 hektara endirilmişdir. Qoruğa məxsus olan 107 hektardan 100 hektarını meşə, 7 hektarını isə qumluqlar, daş yığınları təşkil edir. Hazırda Bəsitçay Dövlət Təbiət qoruğu ərazisinə görə respublikamızın qoruqlarının ən kiçiyidir. Bəsitçay Dövlət Təbiət qoruğunun uzunluğu 15 kilometrə, eni isə bəzi yerlərdə 150-200 metrə çatır. Qoruq Ermənistanın Qafan və Azərbaycanın Zəngilan rayonunun dövlət meşə fondu torpaqları ilə həmsərhəd idi.

Qoruq dəniz səviyyəsindən 600-800 metr hündürlükdə, əsasən dağlıq ərazidə yerləşir.

Bəsitçay qoruğunun və onun ətraf sahələrinin hidroqrafiyası əsasən Bəsitçaydan, onun Sobuçay, Topçay, Şıxavuzçay qollarından ibarətdir. Bəsitçayın uzunluğu 44 km, hövzəsinin sahəsi 354 $km^2$-dir. Dəniz səviyyəsindən 2600 m hündür olan Zəngəzur dağ silsiləsindən başlayıb Araz çayına tökülür. Qar, yağış, qismən də yeraltı sulardan qidalanır. İllik axımının çox hissəsi yazda və payızda müşahidə edilir.

Bəsitçay Dövlət Təbiət qoruğunun sahəsinin 93,5%-ni çinar meşələri tutur. Onlar Bəsitçay və onun qolu Şıxavuzçayın dərəsində yerləşir. Burada həm təmiz, həm də, qarışıq çinar meşəliyi yayılmışdır. Qoruqdakı çinar ağaclarının orta yaşı 165 il, orta hündürlüyü 35 m, orta diametri isə bir metrdir. Burada yaşı 1200-1500 ilə, hündürlüyü 50 metrə, diametri 4 metrə çatan çinar nümunələri də vardır.

Qoruq ərazisinin ətrafındakı meşələr gürcü palıdı, Qafqaz vələsi, adi göyrüş, söyüd, ardıc, dağdağan, saqqız və s. ağaclardan ibarət mezofit və arid meşələr çinarlığın müxtəlif tərəflərində, sərhədindədir. Bu çinar meşələrinin əmələ gəlməsi haqqında müxtəlif fikirlər vardır. Bəzi tədqiqatçılar onlara qədim meşələrin qalıqları kimi baxırlar (A.A.Grossheym); bəziləri isə vaxtı ilə cənub-qərbi Zaqafqaziyanın çay dərələrində geniş yayılmış təbii çinarlıqların qalığı hesab edirlər (L.Y.Prilipko, Y.S.Səfərov).

Zəngilan rayonu öz coğrafi mövqeyinə, tarixi qədimliyinə görə heyrətamiz

abidələr məskənidir.

Zəngilan şəhərindən 8 km aralı, Əsgülüm dağında 30 m hündürlüyündə, 150 metr enində «Qala» hörgü divarları 3-5 əsr bundan əvvəl tikilmiş, müdafiə əhəmiyyəti kəsb edən tarixi abidələrdən biridir. Həmin «Qala»dan 2000 metr aralıda olan və içərisində 100-150 nəfər gizlənə bilən «Kuful» deyilən daş yarığı uzaq tarixi keçmişimizdən yadigardır. Bu «Kuful»un hündürlüyü 15 metrdən çoxdur. İşğaldan qabaq həmin tarixi sahələr gənclərin ekskursiya yerinə çevrilmişdi. Rayonun Məmmədbəyli və Babaylı kəndlərində olan türbələr, Şərifan kəndində olan qədim abidələr, naməlum tarixə malik batmış yeraltı qədim Şəhri-Şərifan şəhəri tariximizin açılmamış sirr yaddaşıdır.

Zəngilan rayonunda olan Bəsitçay Dövlət Təbiət Qoruğu Ermənistanın Sav və Hənd kəndləri ilə sərhəddə yerləşir. Bu qoruq dünyada ikinci, Avropada birinci təbii çinar meşəsidir. Burada olan şərq çinarlarının bəzilərinin yaşı 1200-1500 ilə çatır, onların gövdələrinin diametri 4 m, hündürlüyü 54 m-dən yuxarıdır. Avropada analoqu olmayan bu nəhəng ağaclar ermənilər tərəfindən qəddarlıqla məhv edilir. Ermənistanın Sav kəndindən olan mənbədən əldə edilən məlumata görə, Bəsitçay qoruğu yerləşən Rəzdərə kəndində mebel materialı hazırlayan sex açıb işlədirlər və ətrafda olan çinar, palıd, qoz ağaclarını tamamilə qırıb məhv edirlər. Ermənin dediyinə görə, sex fasiləsiz olaraq işləyir. Qınları ağacların izini itirmək üçün kökünü partlayıcı maddə qoyub dağıdır, sonra isə yandırır və yerini də əkirlər.

1996-cı ildə «Daş-başı» və «Leşkar» meşələrində ermənilər yanğın törədiblər. Həmin ilin payızında «Leşkar» meşə sahəsində isə yararlı ağacları tam qırıb aparıblar. «Leşkar» meşə sahəsində 1957-58-ci ildə 55 ha ərazidə qoz meşəsi salınmışdır, orada oları 40-50 illik qoz ağacları da ermənilər tərəfindən qırılıb aparılır.

1996-1997-ci illərdə Top və Şükürataz meşə sahəsində 3 ədəd T-130 markalı traktorla meşələrə yol çəkirmişlər. Bu zaman həmin meşə sahələrində olan 350-400 il yaşlı palıd ağacları da ermənilər tərəfindən qırılıb aparılıb.

İşğal olunmuş ərazilərimizin iqtisadi coğrafiyasını tədqiq edən erməni alimi, professor A.Aftandilyan qədim Zəngilan ərazisini yaxın illərədək sıradan çıxmaq ehtimalı böyük olan «Böyük ölü zona» adlandırıb.

## BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ POZULMUŞ QƏTNAMƏLƏRİ VƏ ERMƏNİ TERRORÇULARI TƏRƏFİNDƏN GENOSİDƏ MƏRUZ QALMIŞ DAĞLIQ QARABAĞ ƏRAZİLƏRİ

BMT Nizamnaməsinin 1.1. maddəsində deyilir ki, BMT-nin əsas məqsədlərindən biri beynəlxalq sülhü və təhlükəsizliyi qoruyub saxlamaq və bu məqsədlə sülhə, təhlükənin qarşısını almaq və aradan qaldırmaq üçün təcavüz aktlarını və digər sülhün pozulması hallarını yatırmaq üçün səmərəli kollektiv

tədbirlər görmək, sülhün pozulmasına gətirib çıxara bilən beynəlxalq mübahisə və situasiyaların dinc vasitələrlə, ədalət və beynəlxalq hüquq prinsiplərinə uyğun olaraq nizamlanmasına və yaxud həll olunmasına müvəffəq olmaqdır.

Həmçinin BMT Nizamnaməsinin VII Fəsli bütövlükdə sülhə təhlükə, sülhün pozulması və təcavüz aktları ilə bağlı tədbirlərə aid edilmişdir.

BMT Baş Məclisinin 36-cı sessiyası çərçivəsində 1981-ci il dekabrın 10-da keçirilən iclasında 36/109 saylı Beynəlxalq terrorizmin qarşısının alınması tədbirləri haqqında qətnamə, BMT Baş Məclisinin 38-ci sessiyası çərçivəsində 1983-cü il dekabrın 30-da keçirilən iclasında 38/130 saylı «Beynəlxalq terrorizmin qarşısının alınması tədbirləri haqqında» Qətnamə və BMT Baş Məclisinin 42-ci sessiyası çərçivəsində 1987-ci il dekabrın 7-də keçirilən iclasında beynəlxalq tcrrorizmə aid 42/22 saylı «Beynəlxalq Münasibətlərdə Hədə-Qorxu Gəlmə və Güc Tətbiq Etmək Prinsiplərindən İmtina Etmənin Effektivliyinin Gücləndirilməsi Haqqında» Bəyannamə adlı qətnamələr qəbul edilmişdir. Həmçinin BMT Təhlükəsizlik Şurasının 1985-ci il dekabrın 18-də qəbul etdiyi 579 saylı «Girovgötürmə insidentləri haqqında», 1989-cu il iyunun 14-də qəbul etdiyi 635 saylı «Terror aktları ilə əlaqə haqqında» və 1989-cu il iyulun 31-də yenidən təkmilləşdirilmiş variantını qəbul etdiyi 638 saylı «Girovgötürmə insidentləri haqqında» qətnamələri terrorizmə aiddir.

Həmçinin 1991-ci ildə keçirilən BMT Baş Məclisinin 46-cı sessiyasının gedişində, dekabrın 9-da Baş Məclisin 67-ci plenar iclasında 46/51 saylı «Beynəlxalq Terrorizmin Qarşısının Alınması Yolları Haqqında» Qətnamə müzakirəyə çıxarılmış və qəbul edilmişdir. Bu Qətnamə 1972-ci il dekabrın 18-də qəbul olunmuş 3034 (XXVII), 1976-cı il dekabrın 15-də qəbul olunmuş 31/102, 1977-ci il dekabrın 16-da qəbul olunmuş 32/147, 1979-cu il dekabrın 17-də qəbul olunmuş 34/145, 1981-ci il dekabrın 10-da qəbul olunmuş 36/109, 1983-cü il dekabrın 19-da qəbul olunmuş 38/130, 1985-ci ilin dekabrın 9-da qəbul olunmuş 40/61, 1987-ci il dekabrın 7-də qəbul olunmuş 42/159 və 1989-cu il dekabrın 4-də qəbul olunmuş 44/29 saylı qərarların əsasında hazırlanmışdı. Qətnamə həmçinin BMT Baş Məclisinin 34-cü sessiyasının materiallarına, BMT-nin Nizamnaməsinə və «Beynəlxalq Hüququn Prinsipləri Çərçivəsində Dövlətlər Arasında Dostluq və Əməkdaşlıq Əlaqələri Haqqında» Deklarasiyaya, «Beynəlxalq Təhlükəsizliyi gücləndirmək haqqında» Deklarasiyaya uyğunlaşdırılmışdı.

Qətnamələrdə terrorizmin beynəlxalq təhlükə halında olduğu və dövlətlərarası münasibətlərin pozulmasına aktiv təsir etdiyinə görə beynəlxalq əməkdaşlığı gücləndirərək terrorizmin qarşısının alınmasının vacibliyi bildirilmişdir (Bax: UN General Assembly, 9 December 1991 - A/RES/46/51. 67th plenary meeting. Measures to eliminate intemational terrorism).

1993-cü ildə BMT Baş Assambleyasının 48-ci sessiyası çərçivəsində keçirilən 85-ci plenar iclasda, dekabr ayının 20-də 48/122 saylı İnsan Hüquqları və

Terrorizm adlı qətnamə qəbul edilmişdir. Bu qətnamə BMT Nizamnaməsinin prinsiplərinə, «İnsan Hüquqları Üzrə Ümumi Deklarasiyaya» və insan hüquqları üzrə beynəlxalq razılaşmalara, həmçinin insan hüquqları üzrə beynəlxalq konfransda qəbul edilmiş Vyana Deklarasiyasına və fəaliyyət proqramına, bu sahədə hüquqi aktlara, beynəlxalq müqavilələrə, insan hüquqları və fundamental azadlıqlar haqqında prinsiplərə uyğun hazırlanmışdı.

Qətnamədə kim tərəfindən və harada törədilməsindən asılı olmayaraq terrorizmin bütün forma və metodlarının, həmçinin fundamental insan hüquqlarına və demokratiyaya, dövlətlərin ərazi bütövlüyünə və təhlükəsizliyinə, hakimiyyətin legitim əsaslarının sarsıdılmasına, dövlətlərin sosial-iqtisadi inkişafına qarşı yönəldilmiş qeyri-qanuni fəaliyyətin qarşısının alınması məqsədilə milli, regional və beynəlxalq səviyyədə əməkdaşlığın genişləndirilməsinin zəruriliyi bildirilmişdir (Bax: UN General Assembly, 20 December 1993 - A/RES/48/122. 85th plenary meeting, Human rights and terrorism).

BMT Baş Assambleyasının 1994-cü ildə keçirilən 49-cu sessiyası çərçivəsində, 84-cü plenar iclasda 49/60 saylı qətnamə qəbul edilmişdir. Bu qətnamə BMT Baş Assambleyasının 1991-ci il 9 dekabr tarixli 46/51 saylı qətnaməsi və 1993-cü il 9 dekabr tarixli 48/411 saylı qərarına, həmçinin Baş Katibin məruzəsinə istinadən hazırlanmışdı. Beynəlxalq terrorizmlə mübarizəni genişləndirmək məqsədi ilə BMT-nin Baş Katibi bütün üzv dövlətləri, Təhlükəsizlik Şurasını, Beynəlxalq Məhkəməni, müxtəlif ixtisaslaşdırılmış təşkilatları və strukturları bu qətnaməyə qoşulmağa çağırmışdır. Qətnamədə beynəlxalq terrorizmin qarşısının alınması məqsədilə milli və beynəlxalq səviyyədə müvafiq tədbirlərin görülməsinin vacibliyi bildirilmişdir (Bax: UN General Assembly, 9 December 1994 - A/RES/49/60. 84th plenary mecting, easures to eliminate interaational terrorism).

BMT Baş Assambleyasının 1995-ci ildə keçirilən 50-ci sessiyası çərçivəsində, dekabrın 11-də keçirilən 87-ci plenar iclasda 50/53 saylı «Beynəlxalq Terrorizmin Aradan Qaldırılması Yolları Haqqında» Qətnamə qəbul edilmişdir.

Bu qətnamə BMT Baş Assambleyasının 1994-cü il dekabrın 9-da qəbul edilmiş 49/60 saylı qətnaməsinə, Təhlükəsizlik Şurasına üzv olan ölkələrin dövlət və hökumət başçılarının 1992-ci il yanvarın 31 -də keçirilmiş görüşündə elan edilmiş Təhlükəsizlik Şurası sədrinin bəyanatına, BMT-nin 50 illiyi münasibətilə qəbul edilmiş Deklarasiyaya əsasən hazırlanmışdı. Qətnaməni imzalayan dövlətlər terrorizmin bütün forma və təzahürlərini cinayət əməli kimi pisləmiş və bütün dövlətləri terrorizmə qarşı birgə mübarizəyə çağırmışdır (Bax: UN General Assembly, 11 December 1995 - A/RES/50/53. 87th plenary meeting. Measures to eliminate international terrorism).

BMT Baş Assambleyasının 1996-cı ildə keçirilən 51-ci sessiyası çərçivəsində, dekabrın 17-də, 88-ci plenar iclasda 51/210 saylı «Beynəlxalq

Terrorizmin Aradan Qaldırılması Yolları Haqqında» Qətnamə qəbul edilmişdir.

BMT Baş Assambleyasının 1997-ci ildə keçirilən 52-ci sessiyası çərçivəsində 72-ci plenar iclasda, dekabrın 15-də 52/165 saylı «Beynəlxalq Terrorizmin Aradan Qaldırılması Tədbirləri Haqqında» Qətnamə qəbul edilmişdir.

Bu qətnamə BMT Nizamnaməsinin prinsip və məramlarına, BMT Baş Assambleyasının 1994-cü il 9 dekabr tarixli 49/60 saylı qətnaməsinə, 1995-ci il 15 dekabr tarixli 50/53 saylı qətnaməsinə və 1996-cı il 17 dekabr tarixli 51/210 saylı qətnaməsinə, BMT-nin 50 illiyi münasibətilə qəbul edilmiş Bəyannaməyə istinad edilərək hazırlanmışdı. Qətnamədə terrorizmin dünyada geniş yayılmasından narahatçılıq hissinin keçirilməsi önə çəkilərək, ilk öncə ABŞ, beynəlxalq təşkilatlar və agentliklər, regional təşkilatlar və qurumlar, eyni zamanda BMT ilə terrorizmin bütün forma və təzahürlərinin qarşısının alınması və ləğv edilməsi məqsədilə beynəlxalq əməkdaşlığın gücləndirilməsinin zəruriliyi bildirilmişdir.

Dövlətlər həmçinin terrorizmin bütün forma və təzahürlərini pisləmiş və bildirmişlər ki, terror aktları heç nə ilə özünə bəraət qazandıra bilməz (Bax: UN General Assembly, 15 Deccmber 1997 - A/RES/52/165. 72th plenary meeting. Measures to eliminate international terrorism).

BMT Baş Məclisinin 53-cü sessiyasında 1998-ci il dekabrın 8-də, 83-cü plenar iclasda 53/108 saylı Terrorizm adlı qətnamə qəbul olunmuşdur. Qətnamə BMT Nizamnaməsinin məqsəd və prinsiplərini rəhbər tutaraq, BMT-nin 9 dekabr 1994-cü il tarixli 49/60 saylı qətnaməsinə, 11 dekabr 1995-ci il tarixli 50/53 saylı qətnaməsinə, 17 dekabr 1996-cı il tarixli 51/210 saylı qətnaməsinə, 15 dekabr 1997-ci il tarixli 52/165 saylı qətnaməsinə, BMT-nin 50 illiyi münasibətilə qəbul olunmuş Bəyannaməyə uyğunlaşdırılmışdı.

Qətnamədə terror aktlarının bütün dünya üçün təhlükə olduğu bildirilərək, Baş Katibə BMT-nin və digər ixtisaslaşdırılmış qurumların beynəlxalq terrorizmlə mübarizəsinin gücləndirilməsi tövsiyə olunmuşdur. Qətnamədə terror cinayəti kim tərəfindən və nə məqsədlə həyata keçirilməsindən asılı olmayaraq pislənmiş, bütün dövlətlər terrorizmi maliyyələşdirməkdən, terrorçulara dəstək verməkdən əl çəkməyə çağırılmış, terrorizmin bütün forma və təzahürləri pislənmiş və bildirilmişdir ki, BMT-nin Nizamnaməsinə, beynəlxalq hüquq normalarına və digər beynəlxalq konvensiyaların tələblərinə uyğun olaraq beynəlxalq birlik terrorizmə qarşı mübarizə aparmalıdır.

Həmçinin qərara alınmışdır ki, BMT-nin 54-cü sessiyasında beynəlxalq terrorizmlə mübarizə üçün birgə tədbirlər planı hazırlamaq məqsədilə xüsusi iclas keçirilsin (Bax: UN Gcneral Assembly Fifty-thurd session, 8 December 1998 - A/RES/53/108 - Terrorism).

BMT-nin terrorizmə aid növbəti qətnaməsi artıq ABŞ-da baş verən 11 sentyabr terror aktlarından sonra qəbul edilmişdir. Baş Məclisin 56-cı sessiyasının gedişində, 12 dekabr 2001-ci ildə keçirilən 85-ci plenar iclasda qəbul olunmuş

56/88 saylı bu qətnamə BMT Nizamnaməsinin prinsip və məqsədlərinə, BMT-nin 50 illiyi münasibətilə qəbul olunmuş Bəyannaməyə, BMT-nin Millenium Sammitinin Bəyannaməsinə, Baş Məclisin və Təhlükəsizlik Şurasının terrorizmə aid bütün qətnamələrinə uyğun hazırlanmışdır. Qətnaməni qəbul edən dövlətlər Nyu-Yorkda, Vaşinqtonda, Pensilvaniyada baş vermiş dəhşətli terror aktlarını qətiyyətlə pislədiklərini bəyan edərək bildirmişlər ki, bu terror aktları Baş Məclisin 12 sentyabr 2001-ci il tarixli 56/1 saylı qətnaməsinin, BMT Təhlükəsizlik Şurasının 12 sentyabr 2001-ci il tarixli 1368 (2001) saylı və 28 sentyabr 2001-ci il tarixli 1377 (2001) saylı qətnamələrinin qəbul olunmasına səbəb olmuşdur. Qətnamədə həmçinin terrorizmə aid bütün beynəlxalq razılaşmalar və terrorizmə qarşı aparılan mübarizə əsas götürülərək bildirilmişdir ki: (terror aktı, metodu və terror praktikasına harada və kim tərəfindən törədilməsindən asılı olmayaraq cinayət kimi yanaşmaq lazımdır; keçirilən terror aktları özünə heç nə ilə bəraət qazana bilməz; dövlətlər BMT Nizamnaməsinin norma və prinsiplərini əsas götürərək 51/210 saylı qətnamənin 3-cü bəndinin a-f yarımbəndlərinə uyğun olaraq terrorizmə qarşı mübarizə aparmalıdırlar; dövlətlər terror aktlarını hər hansı formada maliyyələşdirməkdən, terror aktlarına dəstək verməkdən çəkinməlidirlər; dövlətlərə Təhlükəsizlik Şurasının 1373 (2001) saylı qətnaməsinə uyğun olaraq terrorizmə aid beynəlxalq razılaşmalara qoşulmaq tövsiyə olunur; terrorçuları məsuliyyətə cəlb etmək üçün milli qanunvericilik təkmilləşdirilməlidir və s.) (Bax: General Assembly Fifty-sixth session, 12 December 2001 A/RES/56/88. Measures to eliminate to intemational terrorism).

QEYD: Regionda beynəlxalq sülhün və təhlükəsizlik məsələlərinin qorunub saxlanılmasında BMT maraqlı olduğundan erməni separatçılarının və silahlı terror birləşmələrinin işğalına məruz qalmış Azərbaycanın Dağlıq Qarabağ yaşayış məntəqələrilə bağlı siyasi dəyərinə görə ciddi qətnamələrə imza atdı (BMT-nin dörd qətnaməsini xatırlayın).

Amma bu dörd siyasi sənədin gücü və təsiri olmadığından onlar ictimaiyyət tərəfindən qəbul olmadı, dəyərləndirilmədi. Məsələn, 1996-cı ildə (sorğu avqust-sentyabr aylarını əhatə edir) Şuşa və Kəlbəcərdə yurdları, ailələri terror edilmiş azərbaycanlılar arasında belə bir iri miqyaslı sorğu keçirildi:

1. Siz işğal olunmuş ərazilərimizlə bağlı Birləşmiş Millətlər Təşkilatının müsbət fəaliyyətinə inanırsınızmı?

Sorğuda iştirak edən 500 nəfər Şuşa və 500 nəfər Kəlbəcər qaçqını Dağlıq Qarabağ probleminin həllində BMT-nin yardım edəcəyini böyük ümid və inamla qeyd edirdi.

2006-cı ildə isə eyni qayda ilə təşkil olunan sorğunun nəticələrinə görə rəyi soruşulanların 96,3%-i BMT adlı bir siyasi quruma inanmadıqlarını bildirib. Onun qəbul etdiyi qətnamələri «dəyərsiz sənəd» adlandırıb.

QEYD: İlk baxışdan beynəlxalq terrorizm və separatizmlə, mütəşəkkil

cinayətkarlıqla bağlı BMT sənədlərində irəli sürülən şərtlər ciddiliyi və aktuallığı ilə diqqəti cəlb edir. Əslində bu şərtlərin məntiqilə işğal olunmuş, erməni separatçılan tərəfindən terrora məruz qalmış «Dağlıq Qarabağ məntiqi» üst-üstə düşür. Fakt budur ki, BMT-nin Dağlıq Qarabağ istiqamətində gördüyü iş hələlik sıfıra bərabər olaraq qalır. Nə üçün belə olur? Yəni, BMT kimi bir siyasi qurumda sənədlər etibarsız sənəd kimi hallanır.

Fikrimcə, BMT-nin, daha dəqiq desək, işçilərinin 17%-i mənşəcə erməni olan BMT-dən yaxşı bir gediş gözləmək sadəlövhlük olardı.

BMT beynəlxalq miqyasda işini güclü qurmalı, ciddi islahatlar aparmalıdır. Bu labüd və qaçılmaz bir işdir.

Müstəqil Azərbaycanın siyasi qurumlarının ölkə başçısının diqqətində olan Dağlıq Qarabağ isiqamətində ciddi bir sənədin olması vacibdir.

Digər tərəfdən, Azərbaycan tərəfi erməni separatçılarının və terrorçuluqla məşğul olan silahlı birləşmələrin Dağlıq Qarabağ ərazilərində apardıqları etnik təmizləmə və genosid siyasətini təsdiq edən bütün sənədləri Beynəlxalq Məhkəmədə, müxtəlif ixtisaslaşdırılmış təşkilatları və strukturları bu məsələyə cəlb etməlidir.

## ERMƏNİ TƏRƏFİNİN 1949-CU İL 12 AVQUST TARİXLİ CENEVRƏ KONVENSİYALARINI POZDUĞUNU TƏSDİQ EDƏN BƏZİ FAKTLAR

- Erməni girovluğundan azad edilmiş Əmrəliyeva Arzu Binnət qızı (Gəncə şəhərində yaşayır) ermənilərin girov götürdükləri 30 nəfərdən 19-nu, o cümlədən onun həyat yoldaşım, anasını və bacısını, qayınatasını, qaynını, baldızım və əmisi arvadını 18 aprel 1993-cü il tarixdə güllələdiklərinin şahidi olub.
- Xocavənd rayonunun işğalı zamanı girov götürülən 80-dək Qaradağlı kənd sakini ermənilər tərəfindən yerindəcə güllələnmişdir. Bu barədə keçmiş girovlar Tağıyev Seyyur Xanlar oğlu, Əliyev Şaxruz Əmirxan oğlu şahidlik edir.
- Xocavənd rayonunun Qaradağlı kənd sakini Hüseynova Həqiqət Yusif qızının şahidliyinə görə, (hazırda Bakı şəhəri, Sabunçu rayonu ərazisində yaşayır) ermənilər 1992-ci il fevral ayında 10 nəfər kənd sakinini girov götürərək diri-diri yandırmışlar.
- Xocalı şəhəri işğal olunarkən ermənilər tərəfindən girov götürülmüş Abbasov Salman Məşədi oğlu bildirir ki, bacısı Abbasova Məryəm Məşədi qızı, gəlini Abbasova Gülzar Gülalı qızı və digər 25-dək dinc sakin ermənilər tərəfindən onun gözləri qarşısında güllələnmişdir.
- Erməni girovluğundan azad edilmiş Əmirova Xəzəngül Təvəkkül qızının bildirdiyinə görə, ermənilər 25 fevral 1992-ci il tarixdə Xocalının işğalı zamanı

onun ailəsini girov götürərək anası Raya, 7 yaşlı bacısı Yeganə və xalası Göyçəni yerindəcə güllələyərək yandırmışlar.

- Hazırda Bakı şəhəri, 8-ci km qəsəbəsində yaşayan, 57 yaşlı keçmiş girov Hüseynov Həsən Məcid oğlu təsdiq edir ki, 23 oktyabr 1993-cü il tarixdə ermənilər Horadiz-Füzuli yolunda girov götürdükləri 40 mülki şəxsin əksəriyyətini güllələmişlər.
- 30 yaşlı İmarət Məmmodovanın ifadəsinə görə, o, Kəlbəcər rayonunun işğalı zamanı iki azyaşlı uşağı ilə girov götürülmüşdür. İmarət Məmmədovanın gözləri qarşısında ermənilər səkkiz mülki şəxsi, o cümlədən onun səkkiz yaşlı oğlu Talehi güllələmiş və meyitləri yandırmışlar. Bundan sonra ermənilər onun özünü, 10 yaşlı oğlu Yadigarı, digər qadın, uşaq və qocaları Xankəndinə apararaq dəhşətli işgəncələrə məruz qoymuşlar.
- Xocalının işğalı zamanı ermənilər girov götürülmüş Səlimova Tənəşin gözləri qarşısında oğlu Arazı qətlə yetirmiş, Tənəşi oğlunun ətindən yeməyə məcbur etmişlər.
- 61 yaşlı keçmiş girov Alışanov Budaq Əli oğlu (hazırda Oğuz rayonu Yaqublu kəndində yaşayır) erməni əsirliyində 5 azərbaycanlının Drombon kəndində (Dağlıq Qarabağ) ağır fiziki işlərdə qul kimi istifadə edərək, öldürüldüyünün şahidi olmuşdur.
- Erməni əsirliyində ölmüş 20 yaşlı Atakişiyev Fərhad Rəhman oğlunun meyitinin qalıqlarının məhkəmə-tibbi ekspertizası göstərir ki, onu müntəzəm şəkildə döymüş və ağır işgəncələr verərək, vəhşicəsinə qətlə yetirmişlər.
- Yardımlı rayon sakini Heydər Heydərov Şuşa həbsxanasında ermənilər tərəfindən verilmiş müntəzəm işgəncələr nəticəsində ölmüşdür (24.12.1994). Bu barədə keçmiş əsirlər Əliyev Həbib, Muxtarov Əvəz, Qasımov Əbülfət və digərləri şahidlik edirlər.
- 15 sentyabr 1994-cü ildə erməni girovluğundan qayıtmış Tuhiyeva Raisə Şirin qızının (Bakı şəhəri, Rəsulzadə qəsəbəsində yaşayır) məlumatına görə, girovluqda olarkən Laçın rayonunun sakini Kərimova Səmayə 2 yaşlı qızı Turlanəyə və özünə verilən işgəncələrə dözməyərək intihar etmişdir. Turlanə (hazırda Bakı şəhəri 522-ci məhəllədə nənəsinin himayəsində yaşayır) başından və bədənindən aldığı yaraların təsirindən görmə qabiliyyətini tam itirmişdir.
- Keçmiş girov Xudiyeva Gülsüm təsdiq edir ki, anası Afət Mirzəyevanı və babası Aslan Mirzəyevi ermənilər vəhşicəsinə güllələyərkən onun nəvəsi İlyasov Babək cəmi yeddi aylıq imiş. Qəlpələr Babəkin sağ gözünü yaralamış, lakin buna baxmayaraq ermənilər onu da digər girovlarla birlikdə yalnız dörd aydan sonra və həm də müalicə etmədən qaytarmışlar. Hazırda Babəkin bir gözü kordur.
- Ermənilər 15 yaşlı girov Nəzakət Məmmədovanın gözləri qarşısında atasına dəhşətli işgəncələr vermiş, onun qulaqlarını kəsmiş, anası hədə və şantajlara

dözməyərək dəli olmuş, qızın özünü isə 4 mln. rus rubluna ailəsinə satmışlar.

• Erməni hərbçiləri girov götürdükləri Füzuli rayonu Kürdmahmudlu kənd sakini Ağayev Mürvət Fətiş oğlunu döyərək qulağını kəsmiş, əllərini məftillə arxadan bağlayaraq ağacdan asmış və ayaqlarının altında ocaq qalayaraq yandırmışlar.

Qeyd olunanlar Avropa Şurası Parlament Assambleyasının siyasi məsələlər üzrə Komitəsinin sənədində təsdiqlənmiş, habelə Azərbaycan Respublikası Milli Məclisinin 30 dekabr 1999-cu il tarixli bəyanatında öz əksini tapmışdır. Ermənistan parlamenti isə hələ də bu sənədləri təsdiq etməkdən boyun qaçırır.

## ERMƏNİ SEPARATÇILARININ İŞĞALA MƏRUZ QOYDUQLARI QARABAĞ ƏRAZİLƏRİ VƏ ATƏT

1994-cü ildə ATƏM tarixində mühüm bir hadisə baş verdi, belə ki, bu dövrə qədər əsas vəzifəsi Avropada təhlükəsizlik və əməkdaşlıq məsələləri üzrə məsləhətləşmələr aparmaq olan ATƏM 1994-cü il dekabrın 6-da artıq bütün sahələrdə əməkdaşlığı əhatə edən, sülh, təhlükəsizlik və sivil birgə yaşayış qaydalarını qoruyacaq bir təşkilata - Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına çevrildi. Bu hadisə 1994-cü il 5-6 dekabrda ATƏM-in Macarıstanın paytaxtı Budapeşt şəhərində keçirilən sammitində baş vermişdir.

ATƏM-in Budapeşt sammitində ümummilli liderimiz Heydər Əliyev də iştirak etmişdir. Sammitdə həmçinin Dağlıq Qarabağ problemi ilk dəfə olaraq xüsusi bir məsələ kimi gündəliyə salınaraq müzakirə edilmiş və «Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏT-in fəaliyyətinin intensivləşdirilməsi» adlı qətnaməsi qəbul olunmuşdur.

Bununla yanaşı, sammitdə qəbul olunmuş «Yeni Əsrdə Əsl Tərəfdaşlığa Doğru» Bəyannamə və terrorizm probleminə aid müvafiq qərarlar qəbul olunmuş və prezident H.Əliyev tərəfindən də imzalanmışdır.

ATƏT-in növbəti sammiti 1996-cı il dekabr ayının 2-3-də Portuqaliyanın paytaxtı Lissabon şəhərində keçirilmişdir. Sammitdə Avropanın 52 dövlətinin, ABŞ və Kanadanın, həmçinin müşahidəçi qismində Asiya və Afrikanın bir neçə dövlət başçısı iştirak etmişdir. Sammitdə beynəlxalq, regional və dövlətlərarası münasibətlərin gələcək perspektivləri, Avropada sivilizasiyalı birgəyaşayış və qarşılıqlı təhlükəsizliyin əsas tendensiyaları və perspektivləri, əməkdaşlıq, konfliktlərin həlli və s. məsələlər müzakirə olunmuşdur (Bax əlavə: Ə.Həsənov. Azərbaycan və ATƏT. Bakı 1997, səh. 19).

Görüşdə həmçinin Dağlıq Qarabağ münaqişəsi də müzakirə olunmuş və Azərbaycan nümayəndə heyətinin səyi nəticəsində ATƏT sədrinin münaqişəyə aid üç benddən ibarət bəyanatı qəbul olunmuşdur.

Görüşün sonunda terrorizmə aid bəndin də yer aldığı XXI əsr Avropa üçün

ümumi və əsaslı təhlükəsizlik modelinə dair Lissabon bəyannaməsi və Silahlara Nəzarət Haqqında Çərçivə sənədi iştirakçı dövlətlər tərəfindən, o cümlədən Azərbaycan Respublikası tərəfindən də qəbul olunmuşdur.

ATƏT-in keçən əsrdə son zirvə görüşü 1999-cu il noyabr ayının 17-18-də Türkiyənin İstanbul şəhərində keçirilmiş və 54 ölkənin dövlət və hökumət rəhbərləri iştirak etmişdir. Sammitdə müasir beynəlxalq münasibətlərə aktiv sürətdə müdaxilə edən bir sıra qlobal problemlər, o cümlədən terrorizm problemi də müzakirə olunmuş və sammitin sonunda İstanbul Bəyannaməsi və Avropa Təhlükəsizlik Xartiyası kimi mühüm əhəmiyyətli sənədlər imzalanmışdır. Terrorizm probleminə aid bəndlərin də öz əksini tapdığı bu sənədləri Azərbaycan Respublikası da imzalamışdır.

**Heydər Əliyevin ABŞ-da baş verən terror aktları ilə bağlı bəyanatında deyilirdi:**

«Terrorçuluğun bütün təzahür formalarını qətiyyətlə pisləyən Azərbaycan həmişə terrorçuluğa qarşı mübarizə aparmış, bu istiqamətdə dünyanın bütün dövlətləri və qurumları ilə əməkdaşlığa hazır olduğunu nümayiş etdirmişdir. Biz bu gün daha artıq əzmkarlıq və qətiyyətlə belə əməkdaşlığa hazır olduğumuzu bildiririk.

Müasir dövrdə terrorçuluq bütün ölkələri hədəfə çevirə biləcəyi üçün qlobal problemdir. Terrorçuluq təhlükəsinin tamamilə aradan qaldırılması və gələcəkdə heç bir xalqın, heç bir dövlətin belə dəhşətli sınaqlara və sarsıntılara məruz qalmaması üçün beynəlxalq ictimaiyyət, bütün dünya xalqları və dövlətləri səylərini birləşdirməli, terrorçuluğa qarşı barışmaz mübarizə əzmini əməli işdə və sıx əməkdaşlıqda sübuta yetirməlidirlər. Azərbaycan bu istiqamətdə üzərinə götürdüyü öhdəlikləri bundan sonra da dönmədən yerinə yetirəcəyini və terrora qarşı mübarizədə dünya birliyinin səylərini birmənalı şəkildə dəstəkləyəcəyini bəyan edir» (Bax: Azərbaycan qəzeti № 209, (3221) 11 sentyabr 2002-ci il).

Antiterror koalisiyasına qoşulduğunu bəyan edən Azərbaycan Respublikası ABŞ-ın Əfqanıstanda həyata keçirdiyi antiterror əməliyyatlarına da yaxından kömək etmişdir. Öz hava sahəsini və hava limanlarını ABŞ təyyarələri üçün açıq elan edən Azərbaycan Respublikası həmçinin beynəlxalq terrorçuluqda şübhəli bilinən bir neçə terrorçunu həbs etmişdir. Buna Misir hakimiyyət orqanlarının xahişi ilə terror fəaliyyətində şübhəli bilinərək ölkəmizdə həbs olunan Misir vətəndaşlarını və beynəlxalq səviyyədə axtarışda olan digər təhlükəli terrorçuların həbs olunmasını misal göstərmək olar.

2002-ci il sentyabrın 6-da Bakıda MDB daxili işlər nazirlərini qəbul edən Prezident Heydər Əliyev bildirmişdir ki, son zamanlar Azərbaycan hüquq-mühafizə orqanları Əl-Qaidə beynəlxalq terror təşkilatının bir neçə təhlükəli üzvünü həbs etmişdir (Bax: Azərbaycan qəzeti, №206 (3218), 7 sentyabr 2002-ci il).

2002-ci il sentyabrın 12-də Birləşmiş Ştatlarda baş verən terror aktlarının ildönümü ilə bağlı ABŞ-ın Azərbaycandakı səfiri Ross Uilsonla Azərbaycan Prezidenti Heydər Əliyevin keçirdiyi görüşdə də beynəlxalq terrorizm məsələsi müzakirə olunmuşdur. Azərbaycanın antiterror koalisiyasındakı fəaliyyətinə diqqət yönəldən səfir bildirmişdir ki, Azərbaycan beynəlxalq terrorizmlə mübarizədə ABŞ-la yanaşı, ön yerlərdən birini tutur və ABŞ-da baş verən terror aktlarına reaksiya verən ilk dövlətlərdəndir. Səfir həmçinin bir neçə beynəlxalq terrorizmdə günahlandırılan şəxsləri həbs etdiyinə görə Azərbaycan dövlətinə öz dövləti adından təşəkkür etmişdir (Bax: Azərbaycan qəzeti, № 210 (3222), 12 sentyabr 2002-ci il).

Hadisələrin təbii inkişafı nəticəsində Avropada Təhlükəsizlik və əməkdaşlıq üzrə Təşkilat (ATƏT) münaqişə təşkil edən ziddiyyətlərin təsir mərkəzinə düşdü. Sovet İttifaqı dağıldıqdan sonra sülh danışıqlarında effektiv vasitəçilik gözləntilərini və hamı tərəfindən qəbul edilən siyasi tənzimləmə haqqında gələcək razılaşmaların şərtlərinin yerinə yetirilməsinə nəzarəti məhz ATƏT-lə başlayırlar. Eyni zamanda, digər problemlərlə yanaşmada olduğu kimi, Dağlıq Qarabağ probleminin nizamlanmasında beynəlxalq təşkilat kimi onun siyasi simasını minilliyin sərhədindəki qayda-qanunların bütün müddəalan əks etdirir. Təəssüf ki, o, sənaye cəhətdən daha inkişaf etmiş beynəlxalq demokratik ictimaiyyətin səslərinin ifadəsinə çevrilə bilmədi və hələlik buna çevrilməkdən çox uzaqdır. Müasir dövrün mühüm problemləri üzrə ATƏT-in mövqeyi, Dağlıq Qarabağ münaqişəsi də daxil olmaqla, konkret zaman kəsiyində bərabər güclü çoxlu siyasi faktorlarla müəyyən edilir.

Digər münaqişələr halında olduğu kimi, qeyd etmək lazım gəlir ki, bu təşkilatda həlledici rolu «əsas dövlətlər» adlandırılan «nəhəng»lər oynayır. Onların içərisində də öz növbəsində aparıcı rolu ABŞ və bütövlükdə götürülmüş Avropa İttifaqı oynayır, Bilavasitə ona toxunan məsələlərdə Rusiyanın də səsi böyük çəkiyə malikdir. ATƏT-in digər dövlətləri siyasi problemlər üzrə müzakirələrdə yalnız o dərəcədə iştirak edirlər ki, o onlara aiddir, qalan hallarda isə Avropa İttifaqının baxışlarını bölüşdürürlər (hətta Vişeqrad qrupu kimi - Polşa, Macarıstan, Çexiya, Slovakiya və ya GYAM - siyasi kombinasiyalarda belə).

Siyasi qüvvələrin belə bölgüsünün reallığı ATƏT-in Kosovo tənzimlənməsində, eləcə də Kodra siyasətində iştirakı ilə təsdiq edilmiş və təsdiq edilir. Bu təşkilatda bütün mühüm postları NATO dövlətlərinin və ya onun üzvlüyünə fəal surətdə cəhd edən ölkələrin vətəndaşları tutur. Məsələn, 2001-ci ilin sonunda ATƏT-in missiyalarında və digər strukturlarında olan 1199 vəzifədən 504 «kürsü» (42 %) münaqişə zonalarında və ya mümkün münaqişələrin qarşısının alınması zonalarında yerləşmişdir. Onlardan 184-nü ABŞ nümayəndələri, 136-nı Almaniya, 109-nu Böyük Britaniya, 75-ni Fransa nümayəndələri tutmuşlar. Əgər buna ATƏT büdcəsinin xatırladılan dörd dövlət hesabına 42 % ödənildiyini əlavə

etsək, onda bu təşkilatın funksional və coğrafi fəaliyyətində olan digər disproporsiyaları da müəyyənləşdirən mühüm struktur disbalansı tamamilə aydın olar. Funksional və coğrafi fəaliyyət dedikdə ilk növbədə postsovet və postyuqoslov məkanda, bəzən həmin məkanın önündə yerləşən dövlətlərin maraqlarını nəzərə almadan insan hüquqlarının vəziyyəti üzrə monitorinq məsələlərində prioritet diqqət başa düşülür.

Bu zaman, fikrimizcə, ATƏT-in «əsas ölkələri» heç də həmişə münaqişə regionlarında stabillik yaratmağa can atmırlar. Fikrimizcə, onların mövqeyinin dərk edilmə açarı «nəzarət edilən sabitsiz» konsepsiyasındadır. Həmin konsepsiyaya müvafiq olaraq bu təşkilatın məqsədi stabilliyə nail olmaq deyil, özünün siyasi və iqtisadi maraqlarını möhkəmləndirməkdir. Bu konsepsiyanı beynəlxalq təhlükəsizlik məsələləri üzrə görkəmli Amerika mütəxəssisi Maykl Mixalka kifayət qədər dəqiq təsvir etmişdir. O yazırdı: - Bəzi şərhçilər Sovet imperiyasının nisbətən dinc dezinteqrasiyasını (dağılmasını) ATƏT (əvvəllər Avropada Təhlükəsizlik və Əməkdaşlıq üzrə Müşavirə adlandırılırdı) çərçivəsindəki proseslərin hesabına yazırdılar, belə ki, o özünün «insan meyarını» irəli sürürdü. Həqiqətən, təhlükəsizliyin, ən azı ATƏT Kontekstində, stabilliyi ifadə etməsi mütləq deyil. Ən yaxşı halda ATƏT prinsipləri əsasında təhlükəsizliyin istənilən yeni modeli nəzarət edilən sabitsizliyin yalnız müxtəlif növlərini təklif edə bilər. Avropada mövcud olan stabil və qeyri-stabil mənbələrə baxış zamanı bu daha aydın olun». (Mihalka Murestructuring European Security // Transition. Vol.l, № 11, 30 June 1995. P.3).

## KORSİKA - DAĞLIQ QARABAĞ OXŞARLIĞI

2002-ci ilin aprelin ortalarında prezident seçkilərinin 1-ci turuna cəmi bir neçə gün qalmış Jak Şirak ən problemli region olan Korsikaya səfər etdi. O, separatçıların bütün ümidlərini alt-üst edərək Bastiya hava limanına uçuş zamanı qətiyyətlə bəyan etdi: «Mən Korsikanın bu və ya digər üsulla ölkədən ayrılmasına yol verməram». Bundan sonra isə o, adanın gələcəyi barədə «ikimənalı müzakirələri» dayandırmağa çağırdı.

«Korsikalı problemi mövcud deyil, Korsikada problem var» - deyə, prezident əlavə etdi. «Bu, sosial dincliyi kökündən sarsıdan, iqtisadi inkişafa mane olan və ciddi özəl investorları qorxudan zorakılığın dayandırılmasıdır».

Fransada Baş nazir seçkilərinə iki il qalmış sosialist neospenin geniş muxtariyyət vermək yolu ilə Korsika probleminin nizamlanması üzrə təklif etdiyi «Mation prosesi» səhv və «tədricən təsir göstərən bomba» idi. Fransanın sağ təmayüllü siyasətçiləri artıq dəfələrlə bu nöqteyi-nəzəri dəstəkləyirlər. Yospenin və digər solların ideyası ilə adaya geniş səlahiyyətlər verən qanun layihəsi 2004-cü ildən başlayaraq parlamentdə qızğın mübahisələrdən sonra 2005-ci ilin əvvəlində

Konstitusiya Şurası tərəfindən ləğv edilmiş və sağlar qalib gəlmişlər. Korsika Məclisinə - yerli qanunverici orqana səlahiyyət verən 1-ci maddə dəyişdirilmiş, onlara «Fransa parlamentinin nəzarəti altında» öz qanunlarını qəbul etmək hüququ verilmişdir (Korsika Fransadan ayrılmaq istəyir. Bu da Fransanın ərazi bütövlüyünə qəsd kimi qiymətləndirilir - R.N.).

Bir il əvvəl adanın statusu barədə danışarkən Jak Şirak öz fikirlərini belə ifadə etmişdir: «Açıq və aydın deyirəm, 2004-cü ildə və ya nə vaxtsa dünən rədd etdiyinə sabah yol verməyəcəyəm. Respublika, xalq vahiddir, qanun hamı üçün eynidir və yalnız respublika parlamenti onları qəbul edə bilər». Separatçılar «Özanbaşınalıqlara» son qoymalıdırlar. Beləliklə, korsika problemi üzrə kurs, prezident tərəfindən dəqiq müəyyən edilmişdi». Buna baxmayaraq, keçən ilin sonlarında bir sıra terror aktları keçirməklə və səs-küylü çıxışlar etməklə, separatçılar sahibkarlara və investorlara yeni başağrısı gətirmiş adanın mənfi investisiya imicini yaratmışlar. Terror aktlarının yeni dalğasının başlanmasından sonra bir çox sığorta şirkətləri partlayış və ya yanğından zərər çəkə bilən daşınmaz əmlaklı binaları, şəxsi villaları və digər obyektləri sığortalamaqdan imtina etmişdir.

2003-cü ilin avqustunda müsahibə verən Korsika prokuroru Patrik London da hadisələri belə qiymətləndirir: «Biz uzun illər ərzində öz ərazimizdə yaşamadığımız hədsiz qaranlıq bir dövrə daxil olduq». Prokuror daha sonra əlavə etmişdir ki, Korsika hakimiyyəti zorakılıq aksiyalarının sonrakı artımından qorxur. Bu həm əldə düzəldilən partlayıcı qurğulardan istifadə yolu ilə klassik tipli terror aktları, həm də hədsiz ağır nəticələr verən hərbi aksiyalar tipli ola bilər.

Sonda prokuror demişdir: «Biz öz narahatçılığımızı hakimiyyətin yüksək ierarxik sistemi üzrə söyləmişik və ümid edirik ki, yaxın günlərdə bizə, həm adamların, həm də maddi əmlakların təhlükəsizliyini təmin etməyə imkan verən əlavə qüvvə və vasitələr təqdim ediləcək».

Biz maraqlı məqama toxunduq. Fransa ATƏT-ə üzv olan dövlətlərdən biri kimi Dağlıq Qarabağ probleminin həllində iştirak edir. Dağlıq Qarabağla Korsika arasındakı oxşarlığa baxın. Hadisələr bir-birini tamamlayır. Təəssüflər olsun ki, Fransa heç vaxt bu oxşarlıqdan çıxış etmir, ərazi bütövlüyümüzə qəsd edən erməni separatçılarını bu aspektdən ittiham etmir.

## İŞĞAL OLUNMUŞ ƏRAZİLƏRİMİZİN GEN KODLARI XARİCİ KƏŞFİYYATDA

«Embrion» - yunan sözüdür: (embryon) Embriologiya isə elmi və fəlsəfi mən-şəyini bu sözdən alan, insan orqanizminin gen hüceyrələrini araşdıran, onu yeniləşdirən, «saf qan», «sağlam ruh» fikirlərini aşılayan bir elmdir. İnsan embrionlar üzərində qərar tutur, formalaşır. Hippokrat yazır ki, insanın əxlaqi görüşləri, onun cəmiyyətə və gördüyü hər hansı bir şeyə immuniteti embrionlarda

formalaşır. Zəif və xəstə embrion xəstə əxlaq, xəstə dünyagörüşü deməkdir. Aristotel isə qeyd edir ki, embrionu şikəst olan şəxsin daxili aləmi də, cəmiyyətdə və həyatda tutduğu mövqe də şik'stdir. O, cəmiyyətdə və həyatda bütün bəlaların kökünü şikəst embrionlu şəxslərdə görür. Dünyanın aparıcı dövlətləri (həm Qərbdə, həm də Şərqdə) bu barədə ciddi düşünür, hər kəs öz millətini (ailəsini yox) xəstə embrionlardan xilas etmək üçün yollar axtarır, elmi-tədqiqat laboratoriyaları, strateji araşdırma mərkəzləri açır, milli maraqlar yönümündə «milli təhlükəsizlik konsepsiyaları»nı hazırlayırlar.

Çində embrionu xəstə olanlar iki qrupa bölünür:

A qrupu: Özündə ancaq özünü düşünməyi formalaşdıran «mən» prinsipi.

B qrupu: Və yaxud «Mən və ailəm».

Çin Xalq Respublikasının «XXI əsr Milli Təhlükəsizlik Proqramı»nda belə adamlar (məsələn, erməni mənşəli şəxslər - R.N.) cəmiyyətin xəstə təbəqəsi elan olunur və onlara dövlət strukturlarında heç bir vəzifə həvalə olunmur. «Gələcək hadisələrdə Milli Təhlükəsizlik Problemləri üçün» 200 müxtəlif ixtisas sahibi olan alim, tədqiqatçı bu istiqamətdə iş aparır. Çin Dövlət Şurasında bu məsələnin reallaşması üçün təqribən 1 milyard 300 milyon dollar vəsait ayrılıb. Bu vəsaitin elmi işlərə sərf olunması isə 2000-2010-cü illəri əhatə edəcək.

İsraildə isə İudaizmin Ali Dini Şurası «Tora müdriklər Şurası» - həqiqi yəhudilər üçün «Əsasnamə»lər hazırladı. 2000-ci il iyun ayının 13-də hazırlanmış əsasnamədə təmiz və sağlam embrionlar uğrunda görüləcək işlər açıqlandı. «Ümuradünya Ravvinlər Komitəsi»nin başçısı Nahum Eyzenşteyn dünya yəhudilərinə belə bir müraciət etdi: «Sizi təmiz yəhudi qanı» uğrunda mübarizəyə çağırırıq. Həqiqi yəhudilərə özgələrlə ailə qurmağı qadağan edirəm».

ABŞ-ın Federal Təhqiqat Bürosunun Milli Akademiyasında (Kuantiko şəhəri, Virciniya ştatı) belə qərara gəliblər ki, ölkənin, xüsusən, təhlükəsizlik xidmətlərində, məxfi və tam məxfi qrifli idarə və müəssisələrində, laboratoriyalarında «Embrionu kölgəli olan» şəxslərin uzaqlaşdırılması milli maraqların qorunması və inkişafının birinci və əsas mərhələlərindəndir. 2000-ci il iyul ayının 7-də Senatda ABŞ Milli Şurasının Kəşfiyyat üzrə analitik şöbənin rəisi, politoloq cənab Con Maklaflin FTB-nin özündə ölkənin milli maraqlarını əks etdirən belə bir proqramın geniş təbliğini «məsləhət bilib», müzakirəyə çıxardı.

«ABŞ kimi böyük bir dövlətdə, şübhəsiz, rüşvət alan, oğru da var. Yalan danışıb dövləti aldadan da var, milli maraqları alt-üst edən də, Terrorçu da var, adam öldürən də. Vəzifəyə həris olanlar da mövcuddur. Ölkənin dövlət və təhlükəsizlik strukturlarını bu şəxslərdən, xəstə embrionlu adamlardan təmizləmək lazımdır. XXI əsr yaşamağımız üçün bunu bizdən tələb edəcək». Azərbaycana gəlincə, bunları yaşadığımız cəmiyyət və mühitdə biz də görürük. Ermənistanda isə bu məsələ artıq genetik bir məsələdir. Gen kodlarının şikəst və xəstə olmasına işarədir. Politoloq E.Zolyan yazır ki, XXI əsr Ermənistan üçün faciələrdən başqa

bir şey gətirmədi. Artıq «bizim uşaqları «terrorçu» - deyib, nişan verirlər» (Bax: «Sovetskaə Rossiə» qəzeti. M., 2001,VI.2.). Canlarında və damarlarında şeytan embrionları olan şəxslər həyatı və cəmiyyəti elə şeytan kimi də görür, düşünürlər. İnsanın bənizində və gözlərində şeytan embrionlarına məxsus cizgiləri aşkarlamaq üçün sivil dövlətlərdə (məsələn, Yaponiyada) kəşfiyyat şəkillərdən geniş istifadə edir. Bunun üçün bir adamın son yeddi ildə çəkdirdiyi şəkillərdən istifadə olunur. Mütəxəssislər və ekspertlər həmin şəkillər vasitəsilə insanın - daha dəqiq desək (bu, hələ kütləviləşməyib), dövlət strukturlarında mövqe tutan, bir nazirliyin və yaxud idarənin taleyini həll edən şəxsin kimliyini aşağıdakı tərzdə sadalayır:

a) xəstəliyi; b) alın və sifətinin quruluşuna görə insana xas olmayan embrionların mövcudluğu (buna «şeytan embrionları» deyirlər); c) natəmiz və yaxud mənəvi cəhətdən çirkin olması: ç) oğru və yaxud terrora meylli olması: d) millətə, mənsub olduğu dinə və torpağa bağlanması; e) nəhayət, necə və hansı şəraitdə ölməsi.

Kəşfiyyat bütün bunları şəkillər vasitəsilə açır. Bu da tam məxfi qrif altında XXI əsrin birinci iyirmi beş ilinədək qalacaq. Yəni, məsələlərin tam tədqiqinə ən ciddi qaydada elektron sistemlərinin, kompüter «set»lərinin qoşulması da planlaşdırılıb və bütün bunlar da «Şeytan embrionları»nın olması ilə əlaqələndirilir. Ümumiyyətlə, «Şeytan» pisliklərin və əclaflıqların rəmzi kimi götürülür.

İnsan psixologiyası nə qədər mürəkkəb olsa da, elmin müasir səviyyəsi «şeytan embrionlarını» tapmağa müvəffəqdir.

Həyatın iki dəyişməyən qanunu var; dünyaya gəlmək, yaşamaq hüququ qazanmaq və sonda ölmək. Bu iki qanun bütün yaranışlara şamil edilmiş «konstitusiyadır». Bu qanunlar heç vaxt pozulmur, dəyişmir. Doğulmaqla ölüm arasındakı qanunları isə biz özümüz yazırıq. İstədiyimiz kimi də həmin qanunları dəyişirik, əlavələr, düzəlişlər edirik. Bəzən öz əleyhimizə anlaşılmaz, dolaşıq qanunlar yazınq. Bu qanunlar çərçivəsində də etik-əxlaqi normalarımızı formalaşdırırıq, dövlət atri-butlarını qururuq və nəhayət, özümüzü dərk edirik. Kimliyini, cəmiyyətdə və həyatda nəyə qadir olduğunu dərk edən millət üçün bu vacibdir. Millətin bünövrəsi olan onun geni, sağlam qanı, toxumu isə bu dərketmənin sütunu, dayağıdır. Əxlaqsızlıq, nəfsə qul olmaq, tamah və hiylənin əsiri olmaq, yalan və əclaflıqla «zirvə»yə çatmaq, yaltaqlıq, qorxaqlıq, saxtakarlıq, rüşvətxorluq və yaramaz işlərə qurşanmaq millətin genini gücdən salır, onun normal inkişafını öldürür.

Müasir Çində qədim çinlilərə məxsus döyüş strategiyası və taktiki məsələləri araşdıran bir institut fəaliyyət göstərir. Həmişə dövlətin ciddi nəzarətində olan bu mərkəz qədim Çin strateqi Sun-Tszının hərb və qalibgəlmə sirlərini öyrənir. Sərkərdə Sun-Tszının hərbdə təhlükəsizlik və milli maraqların qorunması məsələlərində, regionda sülh və sabitliyin təmin olunmasında irəli sürdüyü planların, taktiki gedişlərin maraqlı məntiqi nəticələri var. Eramızdan

əvvəl V əsrdə yaşamış bu şəxsi çinlilər «Çin xalqının, qədim Çinin böyük hərbi strateqi» kimi qiymətləndirirlər. O, U xanlığının hərbi rəisi olub. Onun 13 hərbi doktrinası var. Sərkərdə fikirlərini əsasən kəşfiyyat məsələləri və ordunun siyasəti üstündə cəmləyirdi. Çin xalqına məxsus sağlam bioloji varlıq, orduda, millət və vətənə xidmətdə sağlam gen uğrunda mübarizə ölkənin yeni bir strateji səhifəsidir. Milli təhlükəsizliyin və milli maraqların qorunmasında bu gün Çin Silahlı Qüvvələrində onun yeni bir məktəbi yetişir. Hazırda NATO-ya üzv ölkələrin marağına səbəb olmuş Çinin bu gedişi kəşfiyyat orqanlarını ciddi məşğul edir.

Hələ 1936-cı ildə Almaniyadan Bakıya tədqiqat qrupu gəlir. Bu qrupun işi Azərbaycan şifahi xalq ədəbiyyatını araşdırmaq, tədqiq edib, öyrənmək olur. Şifahi xalq ədəbiyyatında təsvir olunan milli qürur, qəhrəmanlıq, şücaət, mərdlik, mübarizlik, dürüstlük, təmizlik, xeyirxahlıq, torpaq və vətən sevgisi kimi komponentlər alman alimləri tərəfindən ciddi araşdırılır. Onlara general Şıxlinskinin, Mehmandarovun, Şadlinskinin genini daşıyan qan qruplarını, nəsilləri öyrənmək lazım idi. Əlbəttə, bu dəfə araşdırmalar cüng və kitab rəflərində, arxiv sənədləri arasında deyil, birbaşa millətin özündə, genində, qanında aparılır. Çünki şifahi xalq ədəbiyyatımızın qüdrəti hesab olunan bu keyfiyyətlər alman genetiklərini çox məşğul cdir.

Həmin il bakılı həkim Namazəliyevin başçılıq etdiyi qrup alman ekspedisiyasının tərkibində Laçına, Kəlbəcərə gedir. İlk öncə dağətəyi rayon və kəndlərin coğrafi quruluşu tədqiq edilir. İlk nəticələr uğurlu olduğundan Azərbaycanın qütbləri üzrə tədqiqat qrupları işləyir:

Birinci qrupa Laçın-Kəlbəcər, ikinci qrupa Ağdam-Şuşa, üçüncü qrupa Lerik-Lənkəran, dördüncü qrupa isə Şəki-Zaqatala-Gəncə daxil edilir. Hər qrupda altı nəfər yerli həkim və bələdçi, iki nəfərdə alman həkimi olur.

Bu, elə vaxt təşkil edilmişdi ki, həmin illər Hitler ordusunun döyüş qabiliyyəti, vətənpərvərlik əhval-ruhiyyəsi aşağı səviyyədə idi. Həmin vaxtlarda alman hərbi kəşfiyyatı elmi-tədqiqat laboratoriyalarının qarşısında maraqlı bir vəzifə qoyurdu: güclü immunitet yarada biləcək vaksinlərin, dərman preparatlarının axtarılıb tapılması. Çünki alman millətində Koroğlunun və yaxud Qaçaq Nəbinin mübarizliyinin, igidliyinin. təmizliyin, vətən və millət sevgisini özündə cəmləyən hisslərin «bərpa»sı üçün «Qafqaz xalqları»nın, o cümlədən, Azərbaycan millətinin geninin araşdırılması lazım idi. O genlərdən hazırlanan vaksin və digər dərman preparatları ilkin nəticələrini verirdi.

Almanların tərtib etdikləri Laçın-Kəlbəcər kartotekasında 23 nəslin geni araşdırılıb tədqiq edilir və onların özləri də sonradan üç qrupa aynlır. Milliyyətcə yunan olan və ömrünün 6 ilini alman elmi-tədqiqat laboratoriyalarında qoyan, 1940-cı ildə alman vətəndaşlığını qəbul edən Fransua Melli (o, böyük «Hans» kimi tanınır) bu kartotekaların təşkilatçısı olur. O, 1940-cı ildə Almaniyanın Aşağı Saksoniyasında fəaliyyətə başlayan, Qafqaz xalqlarının genlərini tədqiq edən Bakı

hərbi elmi-tədqiqat laboratoriyasına yekun arayışında göstərirdi: «Qafqazda döyüşkən millət, fikrimizcə, Azərbaycan millətidir (Onlara «türk» də deyirlər). Mən bunun coğrafi mövqeyini yazmıram. Bu, Alman Silahlı Qüvvələri Baş Qərargahına məlumdur. Tədqiqatımızın nəticəsi olaraq göstəririk: bu millətin mənsub olduğu ayrı-ayrı qrupların hər birinin özünəməxsus geni var. Bu genləri gəzdirən bir nəsil və yaxud millət dünyanı məğlub edə bilər. Genlərdə araşdırdığımız nəticələrə gəlincə, vücudlarında bu genləri, bu təmiz («möcüzəli») qan qrupunu saxlayan genlərin boyu, dözüm qabiliyyəti, düşüncə və məntiqi tərzləri, döyüşkən əhval-ruhiyyəsi, məğlubedilməzliyi, vətən və millət sevgisi, torpağa bağlılığı başqa Qafqaz xalqlarınkından fərqlidir. Onları öyrənmək, öyrənmək, yenə öyrənmək lazımdır. Bir ekspedisiya azdır».

22 gün sonra Fransua Melli ikinci məktubunu yazır: «Möcüzəli bir millətdir. Nağıllarda oxuduğumuz. öyrəndiyimiz millətdir. Bu millətin genində mərdlik və əyilməzlik (?) adlı bir immunitet qolu var. Onlar ən ekstremal şəraitdə dözməyi bacarır. Onlar kəklik və qırqovul yeyir, süd içir, dağ qoçlarını bütöv şişə keçirib közdə qızardırlar. Onlar öz qanlarını hər cür murdarçılıqdan qorumağı bacarırlar. Buralar laboratoriyadır. Alman ordusunda bu «dözüm» immunitetindən istifadə etmək şansı yaranarsa, maraqlı nəticələrə gələrik. Təkcə bu millətin neftini düşünmək acizlik olardı. Bomba yağdırmadan, topsuz-tüfəngsiz bu millətin neftini də, ərazisini də işğal etmək mümkündür. Əvvəlcə gərək bu millətin genini zəbt edəsən, işğal edəsən. Bunu etdikdən sonra, hər şeyə sahib olmaq mümkündür».

Alman həkimi hələ o vaxt «Genin işğalı» məsələsini qoyurdu. Almaniyanın Silahlı Qüvvələrinin Baş Qərargahı belə bir diaqram cızmışdı:

Kəlbəcər-Laçın qrupu üzrə elmi-tibbi araşdırmalarımızm nəticələri bunlardır: «Buradakı insan genlərini iki qrupa böldük. A qrupuna mənsub olanlar daha qədim genlərdir. Onlar dağ bəbirlərinə bənzəyirlər. İti baxışları var, hər cür xəstəliyə davamlı və dözümlü olurlar. Döyüşkənlik və mərdlik, doğru-dürüstlük, torpağa bağlılıq bu qrupun genlərində daha möhkəmdir. Belə genləri gəzdirən nəsillərin bir neçəsi arasında möhkəm qohumluq olaqəsi var. Onları nəyəsə cəlb edib aldatmaq, məqsəd və məramlarından döndərmək çətindir. Bu qrupa mənsub olan genlər Laçının cənub və şərq hissəsində, Kəlbəcərin isə şimal hissəsində daha çoxdur. B qrupuna məxsus olan genlər nisbətən cavan nəsillərdir. Bunların geni immunitet baxımından «A» qrupuna nisbətən zəifdir. «B» qrupuna məxsus genlərin qarışıq tərkibi «A» qrupuna nisbətən iki dəfə artıqdır.

Ağdam-Şuşa qrupuna məxsus genlərin isə tərkibi, xəstəliklərə dözüm immunitetləri kövrəkdir. Bu genlərin sahibi heç nədən qorxmur. Onlar az aldanır, tez inanır və tez də qəzəblənirlər. Cəsur və əyilməzdirlər. Bu üçünün genlərindən istifadə edərək, gələcəkdə güclü tədqiqat işləri qurmaq mümkündür.

Əgər bu millətin belə genləri ölərsə, onda Qafqazda gələcəkdə Azərbaycan millətinin bir etnik qrup kimi yaşaması və məhv olması labüd olacaq. «İnkubator»

şəraitində yetişən yaş genlər (mən buna süni genlər deyərəm) azərbaycanlıların taleyində müstəsna rol oynamaq qabiliyyətindən məhrum olacaq. Onlarm yaddaşlarından keçmişi silmək asan olacaq».

Tədqiqat arayışında daha sonra yazılır: «Elə bir vaxt və zaman gələcək ki, bu regionda bütün sindromlar bir-birinə qarışacaq. Süni şəraitdə «yetişdirilən» genlər özlərinin mübariz, qəhrəmanlıq və döyüşkən əhval-ruhiyyəsini əks etdirən səhifələrinə biganə olacaq və zaman keçdikcə, onlar öz məkanlarını unudub, yaddan çıxaracaqlar. Bu gedişi biz görürük».

Alman ekspedisiyasının bu nəticələrinə xüsusi xidmət orqanlarında da biganə qalmadılar. Hələ 1942-ci ilin oktyabr ayının 16-da «Böyük və məğlubedilməz Almaniya» ideyasını ortaya atan və bütün bunların bir nömrəli təbliğatçısı Göbbels Adolf Hitlerə Türkiyə kəşfiyyatına soxulmuş alman casusu «Henri-l»in məxfi məlumatını verərkən bildirir: «22-ci paraleldə belə bir yer var - Azərbaycan. Onun nefti var. Lakin orada mübariz və qədd-qamətli adamlar var. Onların geni, qanı bizim laboratoriyalar üçün maraqlı olar».

Həmin ərəfədə alman filosofu Ernest Kassirer «The Muthof thetate» gen və qanla bağlı araşdırmalarında məxfi laboratoriyaların işindən bəhs edərkən yazır: «Son illər bu işin (qanla bağlı tədqiqatların) çox mahir mütəxəssisləri, mifustaları meydana gəlmişdir. Bu baxımdan irqlə, qanla bağlı mifin özü əslində xüsusi silah növüdür, özü də hər hansı müasir tank və mərmilərdən daha dəhşətli bir silah. Çünki bu silah ən başlıca sahəni - insan beynini zədələyir, onu bütövlükdə özünə tabe edir».

Proses bu gün də Azərbaycanda onun digər bölgələrində davam etdirilir. Almaniya, İngiltərə, ABŞ, Fransa, İsveç, Yaponiya, Çin, Türkiyə, İran mütəxəssisləri millətin qanı, geni haqqında məxfi tədqiqatlarını davam etdirirlər. Xüsusi xidmət orqanlarının, ayrı-ayrı dini qurumların xəttilə bu yönümdə iş aparan «həkimlər», «mütəxəssislər», «alimlər» artıq işin nəticələrini müzakirə edirlər. Qəbul olunmuş məxfi qərarlardan da biri bu olub ki, meydandan silinməsi, XXI əsrdə itməsi mümkün olan bəzi millətlər özlərini yaşatmaq, cavanlaşdırmaq üçün (Azərbaycana), «səlib yürüşü»nə çıxsınlar, təcrübə mübadiləsi keçsinlər. Xarici ölkələrdə Azərbaycan millətinin genini öyrənən laboratoriyalarda, elmi-tədqiqat mərkəzlərində, hərbi-sənaye komplekslərində, kəşfiyyat orqanlarında, eləcə də digər xüsusi xidmət sahələrində, genetik nəsildəyişmə proseslərində, hərbi molekulyar biologiya institutlarında bu sahədə görülən işlər gündən-günə aktuallaşır.

**Laçın-Kəlbəcər Qrupu:** həkim ekspedisiyasının məxfi arayışı bu gün Almaniyanın məxfi idarəsində - «BND»-də qorunur. O arayışda irəli sürülən müddəalar hələ ki, qüvvəsini itirməyib. «Laçın və Kəlbəcər sindromları» eyni olmasa da, genlər arasında yaxınlıq və sıx bağlılıq var. Bu genlərdən, qan qruplarından hazırlanmış preparat və vaksinlər 18-25 yaş həddində adamlarda

süstlüyü, iflici götürür, beyin qatlarını «təmizləyir», fikirlərə aydınlıq gətirməklə yanaşı, xüsusən, vərəm xəstəliyinə qarşı orqanizmdə güclü immunitet yaradır. Alman ordusu, həmçinin, dünyanın əksər silahlı qüvvələri əsgərlər arasında yayılmış bu xəstəlikdən əziyyət çəkirdilər. Xəstəlik əleyhinə istifadəsi nəzərdə tutulan preparat və vaksinlər hələ də axtarışda idi.

Həkim Namazəliyev qeydlərində yazır: «Alman həkimləri» çantalarını açanda orada xeyli kitab gördüm. Alman dilində çap olunmuş bu kitabların üz qabığını oxumaq mənim üçün çətin olmadı. Az-çox alman dilini bilirdim. Bu kitabların hamısı bizim dastanlardan və nağıllardan ibarət idi. Kitabı vərəqləyəndə gördüm ki, orada «güclü», «cüssəli», «qüdrətli», «nəhəng vücudlu», «mərd», «varlı», «dözümlü», «təmiz», «sözündə qəti», «inadkar», «qəhrəman», «Məlik Məmməd», «buz baltası», «torpağı öpdü», «suyu içib, dirildi» və s. sözlərinin altından xətt çəkilib. Mən alman həkimi Yuhan Fişerdən soruşdum ki, bu nə kitablardır? Bu sözlərin altından nə üçün qələm çəkibsiz? O gülümsündü və təzədən kitablardan birini götürüb, vərəqlədi. - Bu kitablar bizim üçün «Atlas»dır - dedi. Altından xətt çəkdiyiniz sözlər elə-belə sözlər deyil. Bizim tədqiqatımız həmin sözlərin mahiyyətini təsdiqləyir. Sizinkilər əbəs yerə bu torpağı öpüb, ona səcdə etmirlər. Bunun tibbi-elmi əhəmiyyəti böyükdür. Bu kitablar, sadəcə, nağıl yox, həqiqətdir». Mən bundan sonra düşündüklərimi Bakıya, Səhiyyə Nazirliyinə göndərdim. Oradan mənə dedilər ki, sənin yazdıqlarınla Bakının və Moskvanın Dövlət Təhlükəsizlik orqanları maraqlanır».

Laçın və Kəlbəcərdə tədqiqat aparan, «Millətlərin ölüm tarixi» kitabını yazan alman alimi 1943-cü ildə vəfat edir. «Millətlərin ölüm tarixi» kitabının Qafqaz bölməsində Yuhan Fişer yazır: «Qafqaz zəngin bir yerdir. Oradan, sadəcə, ötüb keçmək alim şərəfimə toxunardı. Qafqazda sıradan çıxmış ctnik qruplar çoxdur. Bu etnik qruplar ən çox bir-birilərilə ədavət edir, vuruşur, bir-birilərini məhv edir. Amma nəticədə nə qalib millət var, nə də qalib xalq. Bu, mənim fikrimdi. Fikrimcə, qanı təmiz millət yer üzündə gəldi-gedər olmur. Təmiz və sağlam qan, güclü və dözümlü gen mənsub olduğu millətin ən güclü və böyük silahıdır. Bu silahın sahibini nə məğlub etmək olar, nə də susdurmaq. Belə olarsa, həmin sağlam qana və genə mənsub millətlərin özlərini qalib saymağa haqları çatır. Mən bütün bunları Azərbaycanda gördüm».

Sağlam gen uğrunda mübarizə strateji mübarizədir. Həm Şərq və həm də Qərbdə «sağlam gen uğrunda» yeni mübarizə cəbhələri açılıb. NATO-ya üzv ölkələrin hər biri ayrı-ayrılıqda «Sağlam ordu haqqında» özlərinin «Qızıl proqramları»nı tərtib ediblər. Bu proqramlar da həmin ölkələrin «XXI əsr milli maraqların və təhlükəsizliyin qorunması» strateji proqramların tərkib hissəsidir. Regionlarda ipə-sapa yatmayan etnik qrupların yer üzündən silinib itməsini və bununla da böyük dövlətlərin straleji maraqlarının təmin edilməsini müəyyənləşdirən məxfi proqramların da varlığını unutmayaq. Almanlar vaxt və

zaman məkanını pozaraq, yenə bizə güclü meyl edir, səhiyyə sahəsində elmi tədqiqatlarını təzələyirlər. Olsun. Bunu təbii qəbul edək. Lakin bütün bu məsələlər heç də əməkdaşlıq çərçivəsində, milli maraqlar çərçivəsində getmir. Onda əl saxlayaq, tələsməyək. Nəticədə uduzmaq ehtimalı var və bu da sabahkı faciənin bünövrəsi olar. Çünki burada fərddən yox, millətdən və xalqdan söhbət gedir. Çadır «şəhərçik»lərimiz isə açıq səma altında «ölüm düşərgəsi» qədər əzablıdır. Buralarda təkcə bir düşüncə var: o da torpaqların nə vaxtsa qayıtması haqqında düşüncədir. Həyat və yaşamaq haqqında özlərinin konstitusiya haqlarını düşünmək hüququndan məhrum olan bu «çadır övladları» hələ də Bakıdan yeni ev - yəni, Dəmiryolu İdarəsindən ayrılmış vaqon həsrətindədirlər. Onlara yardım əli uzadan xarici təşkilatların heç biri bu vaxtadək torpaq haqqında, Qarabağ haqqında söhbət açmayıb. Sadəcə, soruşurlar: «Sizə dünən verdiyimiz həblərin təsiri olubmu? Dəriniz səpibmi? Vurduğumuz iynələrdən sonra özünüzü necə hiss edirsiniz?».

Çünki onları bu sualların cavabları daha çox maraqlandırır. Çadır şəhərciklərimiz xaricilər üçün artıq eksperimental institutların, elmi-tədqiqat laboratoriyaların görəcəyi işləri görür.

Londonun hərbi ekspertlərinin rəyincə, bir sıra ölkələrdə artıq «Etnik silah»ların istehsalına başlanılıb. Bu ölkələr sırasında İraq, İran və Rusiya da var. Bu kimyəvi silah, eləcə də «viruslar» insan orqanizminə düşərkən bir müddət gizlənir. Sonra onun əlamətləri: dərinin qaşınması, öz-özünə qanqren, çürümə halsızlıq və qan qusma müşahidə olunur. Bu günədək ona qarşı heç bir vaksin və preparat ixtira edilməyib. İngiltərə Səhiyyə Nazirliyi ölkənin Silahlı Qüvvələri komandanlığına göndərdiyi «N» saylı məxfi hesabatında göstərir ki, (2000-ci il, may) belə bir virus mövcuddur. Bu virusun da qorxulu xarakterik cəhətlərindən biri budur ki, o, ancaq Avropalı irqinə mənsub olanları məhv edir. Bu viruslar bədəvi ərəblərə heç cür təsir göstərmir. NATO qüvvələri tərkibində fəaliyyət göstərən ingilis əsgərlərinin bu təhlükə ilə üz-üzə dayanması (xüsusən, Fars körfəzində) ölkənin məxfi elmi-tədqiqat laboratoriyalarını yeni vaksinlər hazırlamaq üçün səfərbər etdi. MDB ölkələri, qaçqın şəhərcikləri, vətənlərindən qovulmuş ayrı-ayrı etnik qruplar, laboratoriya hədəfinə çevrildilər. Çadır şəhərciklərində bu xəstəliyə qarşı immuniteti güclü olan «güclü gen» axtarışı bu gün də davam edir. Sağlam azərbaycanlı geni uğrunda mübarizənin başlanğıcını da elə NATO-ya üzv ölkələr qoyub. Hər şey strateji nöqteyi-nəzərdən sakit və tədbirli görülür. Bakıda isə «Diffektologiya sindromu» yayılmaqda, geni zədələnmiş uşaqların, nəsil qruplarının sayı artmaqdadır.

Öz yardımları ilə «strateji axtarışlara» çıxmış xarici dövlətlərin ekspedisiya qrupları bu gün MDB regionlarında, o cümlədən, Azərbaycanda öz işlərini davam etdirirlər. Əsasən, genetik tədqiqatlar üzərində qurulmuş bu işlərin nəticələri həmişəki kimi yenə məxfi saxlanılır. Millətin geninə və qanına böyük maraq göstərən Almaniya hökuməti bu ilin sonunadək genetik tədqiqatlarla bağlı 4,5

milyon marka ayırıb. Ölkənin Federal Nazirliyi elmi araşdırmalar və texnoloji iş üçün MDB ölkələrində, əsasən, Cənubi Qafqazda, Azərbaycanda «Yardım fondu» adı altında tədqiqat laboratoriyaları təşkil etdi. Əsas məqsəd də genlərin cavanlaşması, xəstəliklərdən təmizlənməsi və inkişafı, müxtəlif viruslara, xəstəlik daşıyıcılarına qarşı davamlı genlərin əmələ gəlməsi istiqamətində elmi axtarışların planlı şəkildə qurulması idi.

**«Sağlam gen axtarışı».** Bu məsələ - yəni ilkin nəticələr 2000-2010-cu illər ərzində «Birinci Proqram» kimi başa çatmalıdır. Bir hissəsi Azərbaycan ərazisində görülməsi nəzərdə tutulan «Sağlam gen axtarışı» işinin layihəsinə Almaniyanın «Bruker-Françen Analitik» şirkəti (Bremen şəhəri) 6 milyon marka ayırıb. İşi isə Berlindəki Maks Plank adına Molekulyar Genetika İnstitutunun və Bremen Universitetinin alimləri-genetikləri görür.

Bura, həmçinin, regionlarda (Azərbaycanda) ayrı-ayrı qüdrətli və tanınmış uzun ömürlü nəsillərin, Azərbaycan xalq qəhrəmanlarının doğulduqları məkanlarda və ərazilərdə bu günədək yaşayan və həmin «cəngavərlər»lə qohumluq əlaqəsi olan şəxslərin, ayrı-ayrı adamların nəslinə, kökünə mənsub genlərin «baza»larını yaratmaq və bu «gen bazaları»nı kompüter yaddaşına köçürmək, internetdə saytların açılmasını təmin etmək planları da daxildir.

Bu bazada Azərbaycana məxsus proqramın ayrılması, millətə mənsub genlərin öyrənilməsi və onun hesabına tam məxfi işlərin qurulması diqqəti cəlb edir. Əslində bu elmi-tədqiqat işlərini Almaniya ərazisindəki «Avraam» məxfi laboratoriyasında da aparırdılar. Yəhudi genetiki Devid Arad yazır:

«Bu işlər gələcək yəhudi ordusu və yəhudi millətinin inkişafı naminə görülürdü». 22 Paralel olaraq, irsi və qan xəstəlikləri üzrə alman həkimlərinin əldə etdikləri vaksinlərin bir qismini (birinci mərhələsini) sınaqdan çıxarmaq üçün Frayburq Universitetinin professoru, genetik Hervard Volf qrupu yaradıldı. Genetik Hervard Volf qrupu alman millətinin genində xərçəng xəstəliklərinin, vərəm sindromlarının yayılmasından narahatlıq keçirdiyindən, «milli maraqlar çərçivəsində», milli təhlükəsizliyin təmin edilməsi yolunda işlərin planlaşdırılmasını, 2005-ci ilədək «gen axtarışı» çərçivəsində məxfi işləri həyata keçirməyi qərara aldı (və bunu da yadınıza salım ki, Almaniya-Azərbaycan tibb layihəsi 1997-ci ildən başlayıb. Almaniya Texniki Əməkdaşlıq Agentliyinin nümayəndəsi Xans Vemer (?) də bu işlərə məsul seçilib).

Azərbaycanda canlı orqanizmdə hüceyrələrin araşdırılması, hüceyrələrin tək halda öyrənilməsi ön plana çəkilir. Qanda infeksiyanın olmasına qarşı «P-53» kodlu gen hüceyrəsinin kəşfi maraq doğurmaya bilməz. Çünki bu hüceyrənin uzun ömürlü olması, effektli nəticələr üçün Frayburq klinikasında «Qafqaz genləri»ndən (Azərbaycanın cənub rayonlarının genləri) istifadə edilməsi məsələsi irəli çəkilir. Əldə olunan preparatların, həb və digər vaksinlərin siqnal meydanları kimi köçkün rayonların məskunlaşdığı «çadır şəhərcikləri» seçildi. Digər tərəfdən bu da nəzərdə

tutulurdu ki, həmin vaksinlər, əsasən, qan hüceyrəsindəki infeksiyalara qarşı preparatlar Alman ordusunda, silahlı qüvvələrdə 2005-ci ildə geniş tətbiq olunacaq. Beləliklə, Almaniyada, «Gen Araşdırması» proqramının birinci mərhələsi belə başa çatır. Maraqlıdır ki, Almaniya hökuməti regionda elmi-tədqiqat laboratoriyası, hərbi-sənaye kompleksinə məxsus araşdırma mərkəzlərində milliyyətcə alman olan şəxslər üzərində heç bir təcrübə aparılmaması barədə qəti qərar qəbul edib. Bu, Almaniyada qadağan olunur (Bu qərar başqa millətlərə şamil edilmir).

NATO-ya üzv ölkələr kəşfiyyat maraqlarını gizlətmədən ayrı-ayrı humanitar yardım proqramları çərçivəsində MDB ölkələrində, o cümlədən, Azərbaycanda «gen toplama» əməliyyatına başladılar. Azərbaycanda «gen toplama» əməliyyatı əsasən aşağıdakı qaydada tərtib olunurdu:

1) Laçın-Kəlbəcər (1991 -1993)
2) Ağdam-Şuşa (1994-1995)
3) Şəki-Zaqatala (1994-1996)
4) Lənkəran-Lerik (1997-1998)
5) Gəncə-Gədəbəy (1998-1999)
6) Bakı-Şamaxı (1997-1999)
7) Lənkəran-Astara (2001-2003)
8) Masalh-Beyləqan (2004-2005)
9) Bakı ətrafı kəndlər (2005-2010).

Fikrimcə, strateji cəhətdən ciddi olan bu məsələnin sabahkı faciəsini düşünməyə dəyər.

Azərbaycanda NATO-ya üzv ölkələrin gen kodlarının araşdırılması məsələsinin əsas mərhələsi 2010-cu ildən sonra başlayacaq.

«Gen toplama» əməliyyatı da kodlaşdırılmış şəkildə həmin ölkələrin əsas kəşfiyyat xidməti olan «BND»-R, «Mi-6»-ya, MKİ-yə həvalə edildi. Edinburqdakı «Pi-Pi-El» Terapeutkus» firmasının (genetika üzrə tədqiqatlar aparan firma) elmi direktoru Elen Kolmen bu işlərin məxfi layihəsini hazırladı. Hərbi hissələr üçün preparatlar, vaksinlər hazırlayan əczaçılıq fabriklərilə əlaqələr quruldu. Genlərin bioloji inkişafı yönümündə orduda yayılan sarılıq, vərəm, emfizema, hemofiliya, ostoeporoz, SPİD xəstəliklərinə davamlı, immuniteti yüksək olan genlərin «yetişdirilməsi» yönümündə məxfi işlərin görülməsi də həmin əlaqələrdən biridir.

Bu ərəfədə İngiltərədə 2010-cu ildə başlamalı olan (ola bilsin) əhalinin etnik qruplarına qarşı «İrqlərin təmizlənməsi» məxfi proqramı hazırlandı. Proqramın hazırlanmasında və tətbiqində ölkənin xüsusi xidmət orqanlarının hər biri ayrı-ayrılıqda özlərinin taktiki planlarını hazırlayırlar. Bu gözlənilməz xəbəri də Britaniyanın Tibb Assosiasiyası verib. Mərkəzin «İnsanlar əleyhinə biotexnologiya silahı» adlı məruzəsində göstərilir ki, «Etnik təmizləmələr» üçün cızılmış bu plan «Eyç-ci-pi» layihəsi ilə reallaşır. Genetiklərin dili ilə desək, lazım olmayan etnik qruplar onlardan xəbərsiz bu silahlar vasitəsilə məhv edilə bilər. Bu proses bu gün

dünyanı sarsıdan nüvə silahlarının proqramı kimi hazırlanır. Lakin ilkin olaraq, 2008-ci ildə «Eyç-ci-pi» layihəsinin mütəxəssisləri insanın genetik qrupunu - xəritəsini tamamlayacaqlar. Böyük Britaniya genetiki, doktor Maykl Delsterin yazır: «Bu, yalnız müasir dövrdə deyil, bəlkə də bəşəriyyətin bütün tarixində iz qoyacaq bir işdir». Olsun. Lakin beynəlxalq terrorizmin tüğyan etdiyi bir dövrdə bu silahın terror təşkilatlarının əlinə keçmə ehtimalını (tutaq ki, ermənilərin) da yaddan çıxarmayaq. Bir neçə dövlətin kəşfiyyat planlarında «Milli strateji maraqların» qorunması naminə Müstəqil Azərbaycanın xəritədən silinməsi, etnik qrup kimi yaşaması (?), millətin millət kimi bir neçə əlavə etnik qrupa parçalanması ehtimalı hələ ki, qalır. Bu erməni ideoloqu Emil Urbabyanın «Böyük Ermənistan» kitabının əsas xətlərindən birini təşkil edir.

Qonşu dövlətlərin «Toksikoloji proqramları»nda Azərbaycanın dağ və dağətəyi, sərhəd rayonlarında keçirilməsi nəzərdə tutulan xüsusi «əməliyyat səhifələri» var. Bilavasitə kəşfiyyatın nəzər nöqtəsində saxlanılan bu proqramların icrası, həyata keçirilməsi yolları ciddi nəzarət altındadır.

Rusiya, Türkiyə, İran istiqamətindən Azərbaycana daşınıb gətirilən şəkərin kimyəvi əvəzləyicisi - şəkəri əvəz edən məmulatların sayı-hesabı bilinmir. Maraqlı cəhətlərdən biri budur ki, «kimyəvi şəkər»in (əgər belə demək mümkünsə) böyük bir qismi Azərbaycanın Silahlı Qüvvələri üçün alınır, bir qismi də «yardım və kömək» adı ilə ayrı-ayrı çadır şəhərciklərinə paylanılır.

ABŞ-ın «Ətraf mühit və sağlamlıq məsələləri ilə məşğul olan» hökumət İnstitutunun MKİ-yə və Pentaqona məlumatında göstərilir ki, orduda, SQ-də istifadə edilən kimyəvi maddələrdən hazırlanmış şəkər məmulatlarından imtina edilməli və bu, qadağan olunmalıdır. İnstitutun genetika alimləri məlumatda, həmçinin, göstərirlər ki, «kimyəvi şəkən» orqanizmdə maddələr mübadiləsini pozur, sağlam genlərə öldürücü zərbələr vurur, onun normal inkişafına mane olur. İnstitutun direktoru Kennet Olden yazır: «Bu məsələ insan orqanizmi üçün fəlakət törədən bir işdir».

Digər tərəfdən, institutun xidməti iş üçün istifadə sənədlərində bu da göstərilir ki, xəstəliklərə qarşı, təmiz genlər uğrunda apardığımız tədqiqat işlərində coğrafı ərazimizə hədd qoyulmadı.

## BAĞANİS-AYRIMDA QƏTLLƏR... HAVADARLAR

«Ermənistan işğalçı dövlətdir. Dağlıq Qarabağdakı
rejim isə separatçı rejimdir».
BMT-nin 1416 saylı qətnaməsindən. 2006-cı il, 25 yanvar.

Araşdırmalarımıza görə, 1989-cu ilin iyunun 9-da Ermənistanın Noyemberyan rayonunda nəşr edilən «Daşnak» qəzetinin 33-cü nömrəsində tarixçi

O.Markaryan yazırdı: «Mənim bu məktubum yatan ermənilərə aiddir. Nə tez unudub, yaddan çıxartdınız Bağanis-Ayrımı? O ki bizimdir. O torpaqda babalarımızın qəbri var (?). Gedək intizarda və işğalda qalan babalarımızın qəbrini xilas edib, zəncirləri qıraq. Tariximizdə Bağanis-Ayrımla bağlı çoxlu sənədlər var. Mən bu sənədləri artıq bir neçə dildə çap edib, yaymışam».

Sonra bu müraciət kiçik vərəqələrə köçürülərək Bağanis-Ayrımda yayıldı (?). 1990-cı ilin martın 24-də isə saat 07-08 radələrində Ermənistan SSR Noyemberyan rayonu ərazisindən erməni millətindən olan yüzlərlə silahlı şəxs üç böyük dəstəyə bölünərək Qazax rayonunun Bağanis-Ayrım kəndinə müxtəlif istiqamətlərdən - həmin kənddə yaşayan azərbaycanlıların yaşayış məntəqələrinə basqın etdilər. Kənd sakinlərindən Əsliyev Dadaş Bayram oğlunu, Əsliyeva Pakizə Qulu qızını, Əsgərova Havaxanım Dadaş qızını, Adıgözəlov Alya Dadaş qızını, Adıgözəlov Hafiz Ramiz oğlunu, Məhərrəmov Alməmməd Gülməmməd oğlunu, Məmmədov Məcid Oktay oğlunu müxtəlif tipli odlu silahlardan atəş açaraq vəhşicəsinə qətlə yetirdilər. Sonra güllələnmiş şəxslərin meyitlərindən tonqal düzəltdilər. D.B.Əsliyevin, P.Q.Əsliyevanın, A.D.Adıgözəlovanın, H.D.Əsgərovanın, H.R.Adıgözəlovun və A.G.Məhərrəmovun meyitlərini benzin tökərək yandırdılar.

Nəticədə kəndin qalan 438 nəfər əhalisi canlarını qurtarmaq üçün yaşayış yerlərini məcburən tərk etməli oldular.

Otuz nəfər çox şəxs şahid qismində dindirilmiş, hadisə yeri müayinə edilərək protokollar tərtib olunmuş, məhkəmə-ballistik ekspertizaları təyin edilmiş, hadisə nəticəsində qətlə yetirilmiş şəxslərin meyitləri və yaralı şəxslər məhkəmə - tibb ekspertizasından keçirilərək rəylər alınmışdır.

Meyitlərin və yaralı şəxslərin məhkəmə tibbi ekspertizası nəticəsində müəyyən edilmişdir ki, basqın zamanı ermənilər tərəfindən kənd sakini Əsliyev Dadaş Bayram oğluna döş qəfəsindən, qarın boşluğundan, sol çiyin və sol bud nahiyyələrindən deşib keçən atəşlər açılıb. Əlavə olaraq sol ağ ciyərinə, qabırğalarına müxtəlif silahlardan atəş edilib. Əsliyeva Bakizər Qulu qızının isə boynunu, döş qəfəsini sındıraraq onu məhv ediblər. Əsgərova Havaxanım Dadaş qızının isə başına güllə sıxaraq qəddarcasına qətlə yetiriblər. Həmçinin kənd sakinlərindən Məhərrəmov Alməmməd Gülməmməd oğlunu, Əhmədov Məcid Oktay oğlunu odlu silahlardan atəş açaraq öldürüblər.

Araşdırma materiallarına görə, Bağanis-Ayrım yaşayış məntəqəsinə basqın edən, silahsız azərbaycanlıları gülləboran edən, ailələri bir yerə yığıb, onlan diri-diri yandıran erməni silahlı birləşmələrinin «Xaç gəzdirənlər» dəstəsinə əslən Noyemberyandan olan İlyas Davidoviç Beqlaryan başçılıq edib. İ.Beqlaryanın «Xaç gəzdirənlər»i Bağanis-Ayrıma planlı şəkildə hərbi hücumu həyata keçirirdilər.

Erməni tarixçisi O.Markaryanın qanlı genosid ideyaları artıq baş tutmuşdu.

«Xaç gəzdirənlər» qrupunun Baş Qərargahı Şuşada yerləşirdi. 1992-ci ildə qərargahın Xankəndi özəyi yaradıldı. Sonra Laçın və Kəlbəcərdə eyni qaydada «Xaç gəzdirənlər»in silahlı qruplaşmaları təşkil olundu.

Terrorçuluqda ittiham olunan İ.Beqlaryan bütün hücumlarını 24 nəfərlik silahlı dəstə ilə icra edirdi. Dəstənin başqa bir üzvü Emil Saakoviç Baqdasaryan isə Azərbaycan dilində sərbəst danışdığından ərazilərimizi rahat gəzib dolaşır, lazım olan strateji-hərbi informasiyaları toplamaqla məşğul olub. Onun azərbaycanlı qadın əsirlərindən ibarət «səyyar qadın düşərgəsi» olub.

Amma istintaq materiallarında, cinayət işlərində qəribə məqamlar da var. Məsələn, həbs edilmiş, ilkin istintaqda cinayətləri təsdiq olunmuş erməni silahlı birləşmələrinin üzvlərinin, demək olar ki, hamısı sonradan sərbəst buraxılmışlar. Səbəb? Göstərişi verənlər hələ ki, məlum deyil.

İstintaq materiallarında göstərilir ki, Saniyev Xəqani Şəmsəddin oğlu, Əmralıov Bəxtiyar Əziz oğlu və Əmrahov Kamran Əziz oğlunun ölümündə A.L.Gevorkyanın ifadəsində əsasən Gevorkyan Armen Liparetioviç, Aqbalyan Baqiş Matevosoviçin, Maqsudyan Melik (İlyanos) Eqişeviçin adları şübhəli şəxs kimi çəkildiyi halda, müstəntiq tərəfindən həmin şəxslər barəsində heç bir tədbir görülməmiş, onlara 3 nəfər azərbaycanlının hansı şəraitdə öldürülmələri barədə heç bir sual verilməmişdir. Onların şahid qismində ifadəsi alındıqdan sonra buraxılmışlar (?).

Və yaxud, 29.03.1990-cı il tarixdə Tovuz rayonu, Əlibəyli kəndi ərazisində meşədə hərbçilər tərəfindən Ermənistan Respublikası Şəmsəddin rayonu Berd qəsəbəsində yaşayan müxtəlif kəsilmiş odlu silahlarla, partladıcı vasitələrlə, əldə düzəldilmiş əl qumbaraları ilə və digər silahlarla silahlanmış Qaleçyan Ervand Yeqoroviç, Xaçatryan Samvel Arşakoviç, Aperyan Araik Sarkisoviç və Babayan Liparit Mexatoviç saxlanılır. Həmin şəxslərə 29.03.1990-cı ildə Azərbaycan Respublikası CM-nin 220-ci maddəsinin 1-ci hissəsi ilə ittiham verilmiş və barələrində həmin gün həbs qətimkan tədbiri seçilmişdir. Həmin epizod 11709 №-ci cinayət işinə əlavə edilmişdir. Lakin bu sənədlər də 11709 saylı cinayət işində yoxa çıxıb.

Cinayət işinin istintaq materialından göründüyü kimi, 18 may 1990-cı il tarixdə Gevorkyan Armen Liparetioviç, Soqomonyan Matsak Andronikoviç, Xaçatryan Xaçik Anuşovanoviç, Eqiazaryan Avetis Oqanesoviç, Matevosyan Makbet Varazdatoviç, Qaleçyan Ervand Yeqoroviç, Xaçatryan Samvel Arşakoviç, Aperyan Araik Sarkisoviç və Babayan Liparit Mexatoviçin Azərbaycan SSR CM-nin 94-cü maddəsinin 2 və 4-cü bəndi və 220-ci maddəsinin 1-ci hissəsi ilə həbs müddətlərinin 1990-cı ilin iyun ayının 29-dək artırılması barədə qərar qəbul edilmişdir.

Lakin 11709 №-li cinayət işi üzrə Soqomonyan Matsak Andronikoviç, Xaçatryan Xaçik Anuşovanoviç, Eqiazaryan Avetis Oqanesoviç, Matevosyan

Makbet Varazdatoviç, Qaleçyan Ervand Yeqoroviç, Xaçatryan Samvel Arşakoviç, Aperyan Araik Sarkisoviç və Babayan Liparit Mexatoviçlə əlaqədar heç bir istintaq işi aparılmamış, ifadələri alınmamış, dindirilmiş şahid və zərərçəkmiş ifadələrində, eləcə də digər istintaq materiallarında onların barəsində sorğu aparılmamış, həmçinin onların terrorçuluq əməlləri barədə məlumatlar gizlədilmişdir.

Halbuki ulu öndərimiz Heydər Əliyev bu cinayətlərdən bir neçə ay öncə Moskvada keçirdiyi mətbuat konfransında Azərbaycan tərəfə sərt mesajlar göndərirdi. Ümummilli liderimiz xəbərdarlıq edirdi: «Əlləri və vicdanları qana batmış separatçı ermənilləri, kimliyindən asılı olmayaraq, bağışlamaq olmaz. Bu cinayətdir».

Cinayətkar ermənilər isə bağışlanırdı. Keçmiş ittifaqın milliyyətcə rus olan müstəntiqləri erməni terrorçularına əsl havadarlıq edir, onlan qeyri-qanuni olaraq həbslərdən qurtardılar.

Kəndlərimiz, obalarımız isə separatçı və terrorçu ermənilər tərəfindən basqılara, təcavüzə məruz qalırdı.

Erməni işğalçıları Dağlıq Qarabağda Azərbaycan Respublikasının milli maraqlarına təcavüz ediblər.

Azərbaycan Respublikasının milli maraqları isə, Azərbaycan xalqının fundamental dəyər və məqsədlərinin, habelə insanın, cəmiyyətin və dövlətin inkişaf və tərəqqisini təmin edən siyasi, iqtisadi, sosial və digər tələbatların məcmusudur.

Ermənistan tarix boyu işğalçılıq siyasətini aparıb. Azərbaycana qarşı yönəlmiş bu bədnam siyasətin mahiyyətində etnik təmizləmə prinsipləri mərhələ-mərhələ həyata keçirilir.

Azərbaycanın bu bədnam, terrorçuluq ideologiyası üstündə köklənmiş işğalçı Ermənistanın etnik təmizləmə mexanizmini sındırıb, dağıdan, onu öz qanında boğan gücü və qüdrəti var. Sadəcə bu gücü, bu qüdrəti bir yerə yığıb düşmənə tərəf yönəltmək vaxtıdır. Vaxt bizi gözləmir. Zaman bizi gözləmir.

18 dekabr 2003-cü il tarixdə Azərbaycan Respublikası Baş Prokurorunun, Daxili İşlər Nazirinin və Milli Təhlükəsizlik Nazirinin birgə əmri ilə Dağlıq Qarabağın qanunsuz silahlı qüvvələri və Ermənistanın hərbi birləşmələri tərəfindən törədilmiş cinayət hadisələrinin istintaqı ilə əlaqədar birgə istintaq əməliyyat qrupu yaradılmışdır. İstintaq qrupunda şərh olunan cinayət işi öyrənilərkən müəyyən edilmişdir ki, iş üzrə istintaq hərtərəfli, tam və obyektiv aparılmamış, ifadələrdə azərbaycanlılara qarşı cinayət törədən erməni millətindən olan silahlı dəstə üzvlərinin bir qisminin adları çəkilsə də, onların cinayət məsuliyyətinə cəlb edilməsi təmin edilməmiş və nəticədə işin icraatı vaxtından əvvəl əsassız olaraq dayandırılmışdı.

Lakin üç il sonra məsələlərə yenidən qayıdıldı. Cinayət işinə (18.04.2006-cı il tarixdə) Azərbaycan Respublikası Baş prokurorunun müavini - Azərbaycan

Respublikasının Hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev tərəfindən yenidən baxılması məqsədəuyğun hesab olundu. Nəticədə iş üzrə 24 nəfər şəxs zərərçəkmiş, mülki iddiaçı kimi tanınmış, yenidən dindirilmişdi. Bağanıs-Ayrım faciəsini əks ctdirən bir ədəd videokaset götürülmüş, kəndə hücum edən şəxslərdən 12 nəfər erməni silahlı quldurun - Beqlaryan Samvel Davidoviçin, Beqlaryan Ohanes Davidoviçin, Alaverdiyan Eqiş Alaverdiyeviçin, Saakyan Aqabek Vasilyeviçin, Saakyan Seryoja Aqabekoviçin, Aleksanyan Mişa Asanoviçin, Akopyan Vahan Sarkisoviçin, Alaverdiyan Sevan Asaturoviçin, Alaverdiyan Sevan Seryojaeviçin, Alaverdiyan Samvel Seryojaeviçin, Saakyan Seryoj Sandroyeviçin, Kazinyan Jofet Xalatoviçin anket məlumatları dəqiqləşdirilmiş və onların Azərbaycan Respublikası CM-nin 103 və 107-ci maddələri ilə ittiham olunmaları haqqında cinayət işi yenidən qaldırılmışdır. Çünki Bağanis-Ayrımda günahsız insanları qətlə yetirən erməni terrorçuları ilə bağlı həqiqətləri bağlayıb arxivə vermək hələ tezdir.

BMT-nin Baş Məclisinin 260 A (III) saylı 09 dekabr 1948-ci il tarixli «Soyqırımı cinayətinin qarşısının alınması və ona görə cəzalandırma haqqında konvensiya»nın 2-ci maddəsində göstərilir ki, bu Konvensiyada soyqırımı dedikdə, hər hansı milli, etnik, irqi, yaxud dini qrupu tam və ya qismən məhv etmək məqsədilə edilən aşağıdakı hərəkətlər başa düşülür:

a) bu cür qrup üzvlərinin öldürülməsi;

b) belə qrup üzvlərinə ağır bədən xəsarəti, yaxud əqli pozğunluq yetirilməsi;

c) hər hansı qrup üçün qəsdən onun tam, yaxud bir qisminin fiziki məhvini nəzərdə tutan həyat şəraiti yaradılması;

ç) bu cür qrupda doğumun qarşısını almaq üçün nəzərdə tutulan tədbirlərin görülməsi;

d) uşaqların zorla bir insan qrupundan alınıb başqasına verilməsi.

Bütün bunlar Bağanis-Ayrımdakı ermənilərin törətdikləri vəhşiliklərlə üst-üstə düşən ciddi məqamlardı. Bunun üçün heç kəsə, heç bir qrupa ciddi araşdırma mexanizmi də gərək deyil. Hər şey fakt olaraq qalır.

## ERMƏNİLƏRIN «XAÇ GƏZDİRƏNLƏR» TERRORÇU QRUPU ƏSGƏRANDA

Erməni separatçıları üçün heç bir hədd və sədd yox idi. İnsan qətlə yetirmək, körpələri, qocaları, hamilə qadınları gülləden keçirmək onlar üçün adiləşmişdi (qəbul olunmuş Cenevrə Konvensiyaları pozulmuşdu - R.N.).

Beynəlxalq miqyaslı cinayətləri dünya soyuqqanlılıqla qarşılayırdı. Azərbaycan torpaqlarının işğalı zamanı törədilən bütün cinayətlər sanki əvvəlcədən ölçülüb, biçilmiş, lazım olan böyük dövlətlərin başçıları ilə razılaşdırılmışdır (?).

Dağlıq Qarabağda Azərbaycanlılara qarşı istifadə olunan silahların böyük

bir qismi NATO-ya üzv olan ölkələrin «hərbi-sursat anbarlarından» gəlirdi. Erməni separatçıları həm dərman preparatları ilə, həm də silah-sursatla xaricdən intensiv şəkildə təmin olunurdu. İşğalçıların girov və əsir götürdükləri yerli sakinlərə verdikləri işgəncə metodları da tez-tez dəyişirdi. Məsələn, Əsgəran rayon Daxili İşlər Şöbəsinin Yanğmdan Mühafizə Bölməsinin rəisi vəzifəsində işləmiş Petrosyan Karo Vanoyeviç ermənilərdən təşkil olunmuş qanunsuz silahlı birləşmələrlə, habelə Xankəndi şəhərində dislokasiya olunmuş MDB-nin 366-cı motoatıcı alayının şəxsi heyəti ilə birlikdə 1992-ci ilin fevral ayının 25-də saat 22 radələrində, alayın hərbi texnikası - tanklar, piyadaların döyüş maşınları, zirehli transportyorlar və başqa silah-sursatlardan istifadə edərək, Xocalı şəhərinə hücumda əsas başçılardan biri olmuşdur. Onun öz işgəncə metodu var idi. O, ancaq azərbaycanlıların başını kəsirdi.

Dünya günahsız öldürülən, başları, döşləri kəsilən hamilə qadınların, süngüyə keçirilən cəsədlərin səsini, harayını eşitmək istəmirdi. Bəzi məmurlar həmin vaxt iddia edirdilər: «Yox, belə qəddarlıq olmayıb».

Toplanmış istintaq materialları, alınan ifadələr, həbs olunan erməni terrorçularının etirafları, aparılan digər araşdırmalar isə «üsyan edirdi»: «Olub! Düşündüyünüzdən də ağır cinayətlər olub. Sadəcə həmin ərəfədə kar, kor, lal olmağı üstüntutduq»(?).

80377 saylı cinayət işindən: Erməni separatçıları tərəfindən girov götürülmüş, işgəncələrə məruz qalmış Rahilə Rəşid qızı Hacıyevanın ifadəsindən (Xocalı sakini):

- Mənim gözlərim önündə erməni hərbçisi Aşot Atayeviç Atayan əsir alınmış Elxan İbrahim oğlu Xəlilovun başını kəsdi.

Sonra Hümbətova Südabə Rəşid qızına hücum etdilər. Südabə hamilə idi. Onun qarnını kəsib-doğradılar. 7 aylıq körpəni onun qarnından çıxararaq, öldürdülər ayaqları altına alıb əzdilər. Südabənin əri Muğanı isə güllələyib qətlə yetirdilər.

Alman ifadələr, toplanmış sənədlər ermənilərin azərbaycanlılara qarşı genosid faktlarını təsdiq edirdi. Girov götürülmüş Xocalı orta məktəbinin müəllimi ələsgərin girovların gözləri qarşısında ermənilər tərəfindən avtomat silahla ürəyindən vurularaq qətlə yetirilməsi (Kərimov Yusif Müseyib oğlunun ifadəsi), girov götürülərək Əsgəran rayonu Dəhraz kəndində saxlanılan Qarayev Yusifəli Süleyman oğlunun, Usubov Əliyar Kamran oğlunun, Usubov Zakir Kamran oğlunun, Usubov Rövşən Qaçay oğlunun, Usubov Şamil Həsən oğlunun erməni hərbçiləri tərəfindən qətlə yetirilməsi (Əliyev Aydın Bəhlul oğlunun ifadəsi), 07 dekabr 1991-ci il tarixdə Füzuli rayonu Divanalılar kəndində öz evlərində ermənilər tərəfindən ailə üzvləri ilə birlikdə girov götürülmüş Kərimin döyülərək qətlə yetirilməsi (Əhmədova Hafizə Kərim qızının ifadəsi), 16 dekabr 1991-ci il tarixdə girov götürülmüş Bayramov Tağı Hüseyn oğlunun Xocavənd rayon Polis

Şöbəsində işləyən Maksim adlı erməni tərəfindən tapança silahla baş nahiyəsindən atəş açılaraq qətlə yetirməsi (Qurbanov Şahlar Qaraca oğlunun, Tahirov Azad Kamal oğlunun ifadələri), 22 dekabr 1991-ci il tarixdə Rəhimov Rəcəbin ermənilər tərəfindən döyə-döyə qətlə yetirilməsi (Abışov Rəhim Ağalar oğlunun ifadəsi), 17 fevral 1992-ci il tarixdə Xocavənd rayonunun Qaradağlı kəndində girov götürülmüş Böyükkişinin ermənilər tərəfindən döyülərək amansızlıqla qətlə yetirilməsi (Kazımov Kazım Əbülhəsən oğlunun ifadəsi), 25 iyul 1992-ci il tarixdə Ağdərə rayonu Muxrataq kəndi yaxınlığında əsir götürülmüş bir azərbaycanlının 19-20 yaşlı bir erməni qızı tərəfindən başının kəsilməsi (Səlimli Rüstəm Xalis oğlunun ifadəsi), 31 mart 1993-cü il tarixdə girov götürülərək Xankəndi uşaq xəstəxanasında saxlanılan Hümbətova Nurlanə Arif qızının ermənilər tərəfindən döyülərək işgəncə verilməsi, gözlərinin kor edilməsi, anası Hümbətova Səmayəyə işgəncə verilməklə qətlə yetirilməsi (Hümbətova Nurlanə Arif qızının və Kərimova Sevda Pənah qızının ifadələri), 1993-cü ilin aprel ayında Ağdərə rayonu Drambon kəndində ermənilər tərəfindən əsir saxlanılan Azərin üstündən zirehli texnika ilə keçməklə qətlə yetirilməsi (İsmayılov Yaşar Vilayət oğlunun ifadəsi), 1993-cü ildə Yerevan şəhərində girov saxlanılan Həsənov İdrisin, Heydərin və Faiqin ermənilər tərəfindən xüsusi amansızlıqla qətlə yetirilməsi (Kazımov Şakir Qulu oğlunun ifadəsi), 1993-cü ilin may ayında Şuşa həbsxanasında girov saxlanılan Bakılı Nadirin Qor adlı erməni nəzarətçisi tərəfindən döyülüb işgəncə verilərək donuz saxlanılan yerdə elektrik cərəyanı ilə qətlə yetirilməsi (Məmmədov Novruz Qurban oğlunun ifadəsi), 1993-cü ildə girov saxlanılan Sumqayıtdan olan Azərin Kəlbəcər rayonu Qamışlı kəndində ermənilər tərəfindən avtomat silahdan atəş açmaqla qətlə yetirilməsi (Gülmalıyev Daşqın Rahil oğlunun ifadəsi), 1993-cü il tarixdə Kəlbəcər rayonu Yanşaq kəndində əsir götürülmüş Bakılı Bəxtiyarın başının ermənilər tərəfindən kəsilməsi (Mirzəyev Mehman Ziyad oğlunun ifadəsi), 1994-cü ildə Şuşa həbsxanasında girov saxlanılan Beyləqan rayonu 2-ci Aşıqlı kəndindən olan Fədayimin ermənilər tərəfindən döyülüb işgəncə verilərək öldürülməsi (Şükürov Fariz Qeyib oğlunun ifadəsi), Ağdam rayonu Güllücə kəndində əsir saxlanılarkən 28 aprel 1994-cü il tarixdə Zaqatala rayonundan olan Zeynal adlı əsirin ermənilər tərəfindən döyülüb işgəncə verilərək qətlə yetirilməsi (Rzayev Zaur Valeh oğlunun ifadəsi), Şuşa həbsxanasında saxlanılan Manafov Abuzər Adıgözəl oğlunun Qor, Slavik, Artur, Armen, Emin, Karen, Lyoxa adlı erməni nəzarətçiləri tərəfindən şüşə, dəmir və daş parçaları ilə baş və digər nahiyələrindən vurulmaqla vəhşicəsinə döyülüb işgəncə verilməsi, 28 oktyabr 1992-ci il tarixdə Ağdərə rayonunda əsir götürülmüş Məmmədov Mayıl Məmmədəli oğluna Xankəndi şəhərində Dövlət Təhlükəsizlik Komitəsinin inzibati binasında Abramyan Sergey adlı erməni zabiti tərəfindən torpaq yedizdirilməsi, Hadrut rayonunun Tuğ kəndində saxlanıldığı vaxt Vaqif adlı erməni əsgəri tərəfindən xaçşəkilli dəmirin tonqalda qızdırılıb sinəsindən damğalanması, Qriqoryan Aşot Sedrakoviç tərəfindən alnından çapıq

çəkilməsi sonra isə köz ilə həmin yerdən xaç şəklində dərisini yandırıb işgəncələr verilməsi, 23 noyabr 1991-ci il tarixdə Qazax rayonu Barxudarlı kəndində əsir götürülmüş Əfəndiyev Vüqar Mollaşərif oğlunun Ermənistan Respublikasının İcevan rayon Polis Şöbəsində saxlanıldığı vaxt ermənilər tərəfindən onun bədənindən elektrik cərəyanın keçirilməsi, hər iki qulağının siqaret közü ilə yandırılması, kəlbətinlə üzündə olan tüklərin çıxarılaraq işgəncə verilməsi, sol qabırğalarının sındırılması, 1993-cü ilin iyul ayında girov götürülmüş Quliyev Marks Eyniş oğlu Hadrut RPŞ-də saxlanıldığı vaxt ermənilər tərəfindən vəhşicəsinə döyülməsi, onunla birlikdə girov saxlanılan Arifin qabırğalarının, Vaqifin sağ qolunun, Balayın dişlərinin sındırılması təsdiq olunub.

İşğal olunmuş Əsgəran ərazisində əsir və girovluqda saxlanıldıqları müddət ərzində erməni silahlı birləşmələri tərəfindən verilmiş işgəncələrlə əlaqədar aldıqları xəsarətlər nəticəsində 148 nəfər dünyasını dəyişib.

Həmin cinayətləri törətmiş 74 nəfər ermənin barəsində Azərbaycan Respublikası CM-nin 103-cü, 107-ci, 113-cü, 115.4-cü, 116.0.17-ci və s. maddələri ilə təqsirləndirilən şəxs qismində cəlbetmə qərarı çıxanlıb. Bakı şəhəri, Yasamal rayon Məhkəməsi tərəfindən isə həbs qətimkan tədbiri seçilərək, İnterpol vasitəsilə Beynəlxalq axtarış elan edilmişdir. Məlumata görə cinayətkar ermənilərin bir qismi Fransada, Kanadada, ABŞ-da, RF-da, İranda, Suriyada, Livanda sığınacaq taparaq, erməni diaspor təşkilatlarında rahat çalışırlar.

## İŞĞAL OLUNMUŞ DAĞLIQ QARABAĞ ƏRAZİLƏRİNDƏ SEPARATÇI BANK-MALİYYƏ SİSTEMI (Terror üçün çirkli pullar)

İşğal olunmuş Dağlıq Qarabağda qeyri-qanuni fəaliyyət göstərən Beynəlxalq «Artsax Bank» və onun terror şəbəkələrinə gizli yardımı davam etdikcə separatçı rejimin xaricdəki fəaliyyəti bir o qədər də diqqəti cəlb edir. Onu da qeyd etmişdik ki, ermənilərin «Hayatsan» Beynəlxalq Xeyriyyə Fondu da MDB məkanında qadın terrorçu birləşmələrinin hazırlanmasmda xüsusi maliyyə yardımlarına malikdir.

Məlumata görə, ABŞ Senatının maliyyə məsələlərilə məşğul olan komitəsi Amerikanın vergi müfəttişliyinin bu istiqamətdə hazırladığı məxfi maliyyə sənədlərini tələb edib (2 iyun 2004). Sənədləri araşdıran komitənin mütəxəssisləri belə qənaətə gəliblər ki, dünyada mövcud terror şəbəkələrinin bir qismi xeyriyyə fondları ilə əlbirdir. Çirkli pulların yuyulmasında, təbii sərvətlərin talan olunub, daşınmasında həmin fondlar daha aktivdir. Məsələn, sənədlər əsasında məlum olub ki, Orta Asiya və Qafqaz regionlarında filialları olan «BİF», «SAAR Foundation», «Noly Land Foundation for Relief and Develorment» (ABŞ), «OXFAM» (İngiltərə), «NRA», «Qətər humanitar təşkilatı» (Misir), «Hayastan» (Ermənistan),

«Ümumdünya müsəlman təşkilatı», «Ümumdünya müsəlman gənclər assambleyası», «Beynəlxalq islama yardım və xilasetmə təşkilatı». «Əl-Hərəmiyyə» (Səudiyyə Ərəbistanı), eləcə də bir sıra bank, o cümlədən «Əl-Şimal» (Xartum), «Barklayz» (London), «Jirokredit» (Vyana), «Jirobenk» (Keniya), «Artsax Bank» (Dağlıq Qarabağ), «Pervıy Russkiy Bank» (İsveçrə) son illər beynəlxalq terror aksiyalarında maliyyə mənbəyi kimi fəaliyyətdə olub.

«Artsax Bank» Azərbaycandan gedən qaz və neft kəmərlərinin partlayışlarında terrorçu qruplara bilavasitə yardımçı olub. Məlumata görə, terrorçuların strateji planlarında Cənubi Qafqaz qaz kəmərinə (Bakı-Tbilisi-Ərzurum) qarşı hücumların hazırlanması haqqında xüsusi «təlimat proqramı» var. Bu kəmərin Azərbaycan ərazisindən keçəcəyi məsafə 442 km-dir (Kəmərin ümumi dəyəri 3,2 milyard ABŞ dolları edir). Beynəlxalq qaz kəmərindən ildə 20 milyard metr$^3$ qaz nəql olunacaq.

Göründüyü kimi, Azərbaycanın yanacaq resurslarına qarşı təxribat və terror planları bir an da olsun, səngimir. Araşdırmalarımıza görə, erməni bankının Cənubi Qafqazda məşhur olan «Meşə qardaşları» terror təşkilatı ilə sıx əlaqəsi var və təşkilat işğal olunmuş ərazilərdə qeyri-qanuni narkotika plantasiyalarının salınması üçün 110 min ABŞ dolları sərmayə ayrılıb. ABŞ-ın Senat komitəsi bankın idarə heyətinin sədri Nesesyan haqqında ayrıca sənəd toplayır. Məlumata görə, ermənilərin «Hayastan» Xcyriyyə Fondunun Kaliforniya və Vaşinqton ofisləri bağlanılıb. Məlum olub ki, «Hayastan» həm Türkiyədə, həm də Rusiyada Azərbaycanda baş verən son terror aktlarında terrorçular üçün maliyyə dəstəyi olub, erməni və kürd qadın separatçılarından ibarət yeni silahlı birləşmənin hazırlanmasına yardım edib.

Məlumata görə işğal olunmuş ərazilərimizdə, nəzarətsiz qalan Dağlıq Qarabağ torpaqlarında «Artsax Bank»ın və «Hayastan»ın yardımı ilə Azərbaycan və Türkiyə istiqamətində terror aktları törədə biləcək qadın terrorçu qrupları üçün təlimlər keçirilir. Belə bir məlumat da verilir ki, «Kürd birliyi» qadın terror qruplaşmasının bir neçə üzvü Dağlıq Qarabağdan Ermənistana, oradan da Türkiyə ərazisinə keçib (Türkiyə MN-nin məlumatı «Bülletin», 2004. № 4).

Bu səbəbdən Bakıda mərkəzi ofisləri olan bütün beynəlxalq xeyriyyə fondlarının fəaliyyətlərinə ciddi nəzarət edilməlidir.

Cənubi Qafqazda, ümumiyyətlə, MDB məkanında baş verən siyasi hadisələr, separatçılıq, terrorçuluq və işğalçılıq cəhdilə ayrılıb özlərini «müstəqil respublika» kimi tanıdan ərazilərdəki hərbi durum beynəlxalq mətbuatda, fond və mərkəzlərdə, kəşfiyyat idarələrində geniş şərh olunur. MKİ-nin son hesabatında XXI əsrin birinci 25 ili ərzində 100 xırda, müstəqil dövlət yaranacağı göstərilir. Şübhəsiz, belə bir parçalanma siyasəti uzun müddətdir ki, aparılır. Çünki kiçik və qondarma dövlətləri idarə etmək, imkan düşəndə, lazım gələndə onları bir-birilə vuruşdurmaq, asılı vəziyyətə salmaq daha asandır. Məsələn, Gürcüstan

hadisələrindən öncə qondarma respublika ərazilərinin birində - Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağda separatçı Dnestryanı ərazinin, Cənubi Osetiyanın, tanınmayan İçkeriya respublikasının, olmayan Ləzgistanın, «müstəqil» Dağıstanın terrorçuluq və işğalçılıq siyasətini əsas tutan nümayəndələrinin birgə memorandumu imzalandı. Şuşada imzalanmış (28 iyun 2004) bu separatçı sənədin elan olunmasından sonra Amerikadakı Erməni Milli Komitəsinin başçısı Kan Xaçikyanın məktubu oxunub. Məktubda qeyd olunur ki, dünyada nə baş verirsə, bizim (Oxu: separatçıların və tcrrorçuların) xeyrimizə baş verir: «Burdan-dünyanın ən uca zirvəsindən (o, Amerikanı nəzərdə tutur - R.N.) hər yer görünür, hər yer açıq görünür. Artıq rahat olun ki, rahat çalışın və rahat qurun ki, dünyanın ən böyük dövlətləri və qurumlan bizləri yaxşı başa düşür, yaxşı dərk edirlər. Bizi dəstəkləyənlərin arasında əvvəllərdə olan şübhə və etinasızlıqlar azalır. Çünki bizim apardığımız mübarizə bəzilərinin dediyi kimi terrorçu mübarizə deyil, müstəqillik uğrunda mübarizə aparanların mübarizəsidir. Biz Milli Azadlıq Hərəkatının önündə gedənlərik. MDB məkanında olan dayaqlarımız da böyükdür. Bax, hamı öz problemilə məşğuldur. Bəs biz nə üçün verilən şansdan istifadə etməyək?».

Məktubda Qərbi Avropada böyük nüfuza malik olan separatçıların liderlərindən sayılan, Dağlıq Qarabağın işğalında azərbaycanlıların kütləvi qırğınlarını təşkil edən Murad Papazyanın tövsiyəsinə də toxunulur. Məktubda qeyd olunur: «NATO-dan arxayın olun. O, bizləri müdafiə edir. Dostumuz Murad Papazyanın təklifi var: amerikalı həmsədr (ATƏT-in), diplomat, ermənilərin dostu olan Stiven Mənn cənablarına Cənubi Qafqazda sabitliyin və təhlükəsizliyin təminatçısı kimi, müstəqillik və demokratiya uğrunda mübarizəyə qoşulanların himayəçisi və yardımçısı kimi «xüsusi mükafat» ayrılmalıdır. Bu mükafat «Müstəqil Dağlıq Qarabağ Respublikası»nın paytaxtı Xankəndidə təntənəli şəkildə bu ilin sonunda, daha dəqiq desək, ermənilərə qarşı soyqırımın 90 illiyi ərəfəsində təqdim ediləcək».

Separatçı M.Papatyanın «xüsusi mükafatı»nın nədən ibarət olmasını bilmirik. Amma alınan məlumatlardan bclə bir fakt aydın olur ki, ermənilər ATƏT-in amerikalı həmsədrinə «Daşnaksütyun» Partiyasının da «fəxri qonaqlara ayrılmış» bir nömrəli biletini və döş nişanını artıq təqdim ediblər. Bu faktı Co Tatikyan adlı bir amerikalı separatçı erməni xəbər verib.

Məlumata görə, separatçıların Şuşa yığıncağında Cənubi Osetiyaya yardımların, silahlı birləşmələrin göndərilməsi məsələsi də müzakirə olunub.

Araşdırmalarımıza görə, ilin sonunadək qondarma Dağlıq Qarabağ «respublikası»na Rusiyadan, ABŞ-dan, Fransadan, Almaniyadan yardım ediləcəyi gözlənilir».

Amerika Birləşmiş Ştatlarının H.Kissincer Strateji Araşdırmalar Mərkəzi, RF-nın Cənubi Qafqaz Strateji Araşdırmalar Mərkəzi, Fransanın Siyasi Tədqiqatlar

Mərkəzi, İngiltərənin London Strateji Araşdırmalar Mərkəzi, Almaniyanın Beynəlxalq Təhlükəsizlik və Siyasət İnstitutu, İsrailin «Kamminqs Mərkəzi» ümumən Qafqaz regionlarında tədqiqatlar aparan strateji-analitik idarələri və sosioloji rəy büroları Azərbaycanla bağlı illik hesabatlarda, sorğuların nəticələrində yanlışlığa yol verir. Bilavasitə mənsub olduqları dövlətlərin maraq çərçivəsindən kənara çıxmayan bu siyasi mərkəzlər Azərbaycanla bağlı hazırladıqları hesabatlarda işğal altında qalan və «nəzarətsiz zona»lar cərgəsində qeyd olunan Dağlıq Qarabağ ərazisində baş verən bütün neqativ əmsalları-göstəriciləri, fakt və iqtisadi tənəzzülü əks etdirən rəqəmləri «Cənubi Qafqaz: Demokratik prinsiplər və Müstəqil Azərbaycan» (Belə bir proqramın adı 2003-cü ilin avqustunda Vaşinqtonda nəşr olunan ABŞ Konqresinin rəsmi «Congressional Record» icmalında çəkilib) paraqrafına şamil edirlər. Yəni işğal altında qalan Dağlıq Qarabağ ərazisində baş verən ictimai-siyasi hadisələrin təhlili neqativ nəticələri Azərbaycanla bağlı hesabatlarda əks olunur. Beynəlxalq miqyasda müstəqil Azərbaycan imicinə güclü zərbələr endirilir. Məsələn, ABŞ politoloqu Daniel Kaufman qeyd edir ki, «bu, təbiidir. Dağlıq Qarabağ Azərbaycanın tərkibində öyrənilir və araşdırılır. Ərazi bütövlüyü baxımından burada heç bir prinsip pozulmur».

Şübhəsiz, erməni terroruna məruz qalmış Dağlıq Qarabağ ərazisi Azərbaycanın işğal olunmuş parçasıdır. «O, nəzarətsiz və qanunların işləmədiyi ərazidir. (ABŞ Dövlət Departamentinin 2002-ci il hesabatı). Dağlıq Qarabağda baş verən neqativ hadisələri, qeyri-qanuni formalaşdırılan dövlət atributlarını və strukturlarını Azərbaycanın tarixi səhifələrinə yazmaq düzgün deyil. Adları çəkilən beynəlxalq strateji araşdırma mərkəzləri Dağlıq Qarabağı işğal altında qalan və nəzarətsiz, münaqişəli zona kimi müstəqil araşdırmalı, müstəqil təhlil etməlidir.

Məsələn, ABŞ analitiklərindən olan Helman Cool yazır ki, Cənubi Qafqaz regionlarında «dövlətin zəbt olunması»nda «inzibati korrupsiya» əsas rol oynayır və bu da kölgə iqtisadiyyatının çiçəklənməsinə, şaxələnməsinə gətirib çıxarır. «Erməni işğalında qalan Dağlıq Qarabağın insan resursları ilə yanaşı, təbii sərvətləri də talan edilib. Bunu öyrənmək, araşdırmaq Avropa üçün, ləyaqəti olan hər kəs üçün maraqlı olardı» («Vaşinqton Post» 2004. III. 26).

Başqa bir ABŞ analitiki Cons Kraint yazır: «Dövlətin zəbt olunması, ekoloji yaraların açılıb-göstərilməsi, təbii sərvətlərin talan olunması» demokratik islahatların iflic olmasına gətirib çıxarır. Məsələn, Cənubi Qafqaz regionlarında apardığımız korrupsiya, kölgə iqtisadiyyatı və dövlətin zəbt olunması, şübhəli bank sistemi, narkobiznes, dini ekstremizm, insan və silah alveri, nüvə silahı üçün komponentlərin qeyri-qanuni satışı, ekoloji tarazlığın pozulması, bütövlükdə beynəlxalq terrorizm istiqamətində ciddi nəticələrimiz var. Məsələn, Gürcüstanda indeksi təbii sərvətlər edilən təcavüzün təhlillərimizə görə, Acarıstanda 16, Cənubi Osetiyada 9, Abxaziyada 13, Ermənistanda 28,5, Azərbaycanda 24,9, Dağlıq

Qarabağda 77,4 faizdir» (Müəllifin qeyd etdiyi «Dağlıq Qarabağda 77,4 faizdir» ifadəsinə diqqət yetirin - R.N.).

Daniel Kaufmanın, Helman Coolun, Cons Kraintin bir-birindən fərqli açıqlamalarına Azərbaycanın rəsmi orqanları, ilk növbədə, Xarici İşlər Nazirliyində diqqətlə yanaşılmalıdır. Çünki aldadıcı və çaşdırıcı informasiyalar çox vaxt dövlət, hökumət və parlament səviyyəsində müzakirəyə səbəb olur. Bütün hallarda Azərbaycan təhlil edilərkən, ermənilər tərəfindən işğala məruz qalmış Dağlıq Qarabağ ərazisi ayrıca təhlil olunmalıdır. Çünki bu zona həm nəzarətsiz, həm də qanunların və demokratik prinsiplərin işləmədiyi bir zonadır». Başqa bir araşdırma materiallarında isə qeyd olunur ki, Azərbaycanın işğal altında qalan Dağlıq Qarabağ ərazilərində qondarma respublika quran Arkadi Qukasyan 2004-cü ilin aprelin 23-də daxili sərəncamla yeni Dövlət Şurası yaradılıb: «On bir nəfərdən ibarət bu qondarma şura əsasən regionda ekstremal şəraiti doğuran səbəblərlə, qoyulan xarici kredit və investisiyalarla məşğul olacaq, 2004-2009-cu illəri əhatə edəcək «İqtisadiyyatda demokratik islahatlar» və «Ekoloji mühit» istiqamətində proqram tezislərin hazırlanması ilə məşğul olur. Bizi maraqlandıran məsələnin başqa tərəfləridir. (Və güman edək ki, həm ATƏT rəsmilərini, həm Azərbaycanın XİN-ni də bu məsələ ciddi düşündürə bilər - R.N.). Məsələn, məlumata görə, qondarma respublikanın terrorçu «prezidenti» A.Qukasyanın altı müşavirindən üçü və dörd məsləhətçidən ikisi xarici ölkə vətəndaşlandır. Yəni onların əksəriyyəti ATƏT-ə üzv olan ölkələrdən gəlmələrdir. Terrorçu-prezident A.Qukasyanın təhlükəsizlik üzrə məsləhətçisi keçmiş zabit (ABŞ), bakterioloji silahlar mütəxəssisi Corc Sunia, investisiyalar, kreditlər və onların təyinatı üzrə bölünməsi istiqamətində məsləhətlər verən Rolf Olson (İsveçrə), immiqrasiya üzrə əlaqələndiricisi Mişel Liotar (Fransa), sərhəd məsələləri üzrə məsləhətçisi keçmiş sərhədçi, polkovnik, uzun müddət Naxçıvanda sərhəd bölmələrində çalışan Aleksandr İvanoviç Bezrukov, ekologiya və iqtisadiyyat üzrə Edmund Bis ki, adlı şəxslərdir.

Azərbaycan bu istiqamətdə araşdırmalar aparmalı, əldə olunan əlavə məlumatları beynəlxalq hüquq normaları çərçivəsində təhlil etməlidir.

Adları qeyd olunan vətəndaşların qeyri-qanuni işğal olunmuş Azərbaycan ərazilərində fəaliyyətinə gəlincə, bu heç bir demokratik cəmiyyətdə qəbul olunmur.

Araşdırmalarımıza görə, Arkadi Qukasyanın yaratdığı qondarma Dövlət Şurasına daxil edilmiş bu şəxslərin Dağlıq Qarabağ istiqamətində çoxillik proqram sənədinin tezisləri də hazırlanır.

Avropa İttifaqında «Müdafiə Taktikası» adlı strateji Proqramın tezisləri üstündə daha çox baş sındırırlar. On ildən artıq gedən müzakirənin nəticələri isə Brüsseldə açıqlanıb və bildirilib ki, (17 aprel 2004-cü il) siyasi qurumun «Müdafiə taktikası» Proqramı müəyyən düzəlişlərlə qəbul olunub. Münaqişə və müharibə zonalarında sabitliyə nəzarət edə biləcək 1500 nəfərlik «Çevik taktiki hərbi

qruplar»ın yaradılması qərara alındı. Bu da qərara alındı ki, belə qruplar Afrikanın, Asiyanın, Latın Amerikasının həmçinin Cənubi Qafqaz regionlarının, Orta Asiya ərazilərinin münaqişə və mübahisə ocaqlarında iştirak etsinlər. Məsələn, Avropa İttifaqına məxsus hərbi qruplar (HHQ-nin və Daxili Qoşunların), quru qoşunlarının hissələri münaqişəli Afrika regionlarını nəzarətə götürəcək.

Məlumata görə, 1999-cu ildeən Kosovada müstəqil hərbi əməliyyatlar aparan Avropa İttifaqının qoşun kontingenti regionda daha çox sülhməramlı işlərin görülməsinə fikir verir. Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi, general Havyer Solonanın açıqlamalarına görə, yalnız belə taktiki gedişlər ayrı-ayrı regionlarda müharibənin odunu söndürə bilər. Generalın fikrincə, Avropa İttifaqında fəaliyyətə başlayan, sülhməramlı əməliyyatlar aparan çevik qrupların bir qismi yaxın günlərdə Dnestryanı ərazilərə, Abxaziyaya və Dağlıq Qarabağa göndəriləcək. Sülhməramlı «Müdafiə taktikası» Proqramını regionlarda həyata keçirən qrupların tərkibində İngiltərənin, Fransanın, Almaniyanın qoşun kontingentləri əsas rol oynayacaq.

Rusiyalı politoloq Aleksandr Kondraşovun «Belə qrupların məsələn, Dağlıq Qarabağ ərazisinə göndərilməsi  mümkündürmü? Hansı nəticələri verə bilər?» - sualına general H.Solona cavab verib ki, mümkündür. O, deyib: «Biz artıq belə bir addımın atılmasının tərəfdarıyıq. Çünki günahsız insanlar artıq əziyyət çəkir. Ərazinin ekoloji panoramına ciddi zərbələr endirilir. Digər tərəfdən, torpaqları əldən getmiş, ərazisi parçalanmış Azərbaycanda demokratik islahatların həyata keçirilməsi üçün bu, vacibdir. Həmçinin regiondakı torpaqları talan olunmuş nəzarətsiz zonalar demokratik inkişafdan, dünyanın «inkişaf proqramları»ndan geri qalır».

Generalın fikrincə, 2004-cü ilin sonlarında və 2005-ci ilin əvvəllərində Avropa İttifaqının «Müdafiə taktikası» Proqramını yerinə yetirən qoşun kontingentinin qruplarının ABŞ Dövlət Departamentinin sənədlərində «nəzarətsiz zona» kimi qeyd olunan Azərbaycanın işğal olunmuş ərazilərinə - Dağlıq Qarabağ ərazisinə göndərilməsi nəzərdə tutulub (Avropa İttifaqı NATO-dan fərqli olaraq, neytral mövqeyə malikdir)».

Dağlıq Qarabağ problemilə məşğul olan ATƏT isə meydandan çıxacaq, öz fəaliyyətinə xitam verəcək. Çünki ATƏT - faktiki olaraq, bütün anlarda və məqamlarda hərəkətedici orqan kimi yox, müşahidəçi orqan kimi olub. Siyasi məsələlərin həllində qərəzli mövqelərdən daha çox çıxış edib.

Fikrimcə, bütün bu məsələlərdə də diqqətli gedişlər etmək maraqlı olardı. Çünki heç bir sülhməramlı qurum və yaxud proqram hələ ki, Dağlıq Qarabağı erməni işğalından azad edə bilmir. Məlumata görə, Dağlıq Qarabağla bağlı Fransanın iştirakı ilə 86, İngiltərənin iştirakı ilə 59, Amerikanın iştirakı ilə 71, RF-in iştirakı ilə 83, Almaniyanın iştirakı ilə 29 ciddi hesab olunmuş strateji və yaxud nəticəsinə şübhə edilməyən proqramlar qəbul edilib. Hələ də heç bir nəticə

görünmür. (?)

Azərbaycan tərəfi bu məsələlərdə məlum fakt və rəqəmləri bir daha beynəlxalq ictimaiyyətə açıqlamalıdır.

Uzunmüddətli araşdırmalar zamanı əldə etdiyimiz fakt və rəqəmlər NATO-ya və ATƏT-ə üzv olan ölkələrin diplomatlarının açıqlamalarının üstündən qələm çəkir. Məlumata görə, işğal olunmuş ərazilərimizdə ilk «qızıl əməliyyatı»nı ABŞ-ın «Clobal Gold» şirkətilə ermənilərin «Gold Armenia» şirkəti aparıb və 1997-ci ilin mayın 15-dək isə bu işə Kanadanın «FD» şirkəti qoşulub. («Financial Times of Canada» - Toronto (Kanada). 1997. № 29). Nəticədə işğal olunmuş ərazilərimizdə - Zəngilanın «Vəjnəli», Kəlbəcərin «Söyüdlü» və «Qızılbulaq» qızıl yataqlarının ağzını açdılar (hər iki şirkət haqqında Beynəlxalq İqtisad Məhkəməsində iş qaldırmaq üçün bütün əsaslar var). Başqa bir ABŞ şirkəti - «R.V. İnvesment» şirkəti də əməliyyata qoşuldu. «Prodakşn-serinq» tipli müqavilə də bağlanıldı: «Müqavilənin şərtlərinə görə, işğal olunmuş yataqlardan hasil ediləcək 470 ton qızıl, 2500 ton gümüş, 1,5 milyon ton misdən, əldə edilən gəlirin hətta 51 faizi Azərbaycana verilməli idi. Hanı bəs? Təkcə işğal altındakı «Qızılbulaq» yatağında on il bundan öncə (1994-cü ildə) 13,5 ton qızıl ehtiyatı olub. İndi isə burada erməni ekspertlərinin rəyinə görə, 2,3 ton qızıl ehtiyatı qalıb. (Ermənistan isə qızıl ehtiyatını 6,5 dəfə artırıb). Bu faktları araşdırmaq üçün ABŞ diplomatı Rino Harnişin Xankəndidə nəşr edilən «Azat Artsax» qəzetinin 2002-ci ildə nəşr olunmuş mart-aprel qovluqlarını və «Clobal Gold» və «R.V. İnvesment» şirkətlərinin maliyyə-bank sənədlərini vərəqləməsi kifayət edərdi. (Əlavə olaraq bax: «Commercial and Chronicle». Nyu-York. 1998, № 9. «The New York Times». 1998.X-21.) Və yaxud işğal olunmuş Kəlbəcərin şimal-şərq zolağındakı Vəng yaşayış məntəqəsində Amerika biznesmenlərinə məxsus ağac emalı kombinatına nəzər salaq. Xankəndidə nəşr olunan «Azat Artsax» qəzetinin baş redaktor müavini Naira Ayrumyan İsveçdəki «Sosial-Siyasi araşdırmalar Mərkəzi»nin hesabat materiallarına təqdim etdiyi arayışda göstərir ki, Vaşinqton Dağlıq Qarabağ ərazilərində kifayət qədər biznesdə «onlara yardım edir». Erməni politoloqu N.Ayrumyanın bu təqdimatı İsveçin Lulea şəhərində on bir dildə çap edilərək, az nüsxədə olsa da yayılıb. Məsələn, onun rus nəşrini Harnişin nəzərinə çatdırırıq. Hesabatda oxuyuruq: «Поскольку немалая часть Карабаха покрыта лесами, богатыми ценной древесиной (дуб, бук, орех), изначально предполагалось, что эта сфера станет самой востребованной для влажения инвестиций. Так, в селе Ваны Мардакерского района (?) американский бизнесмен (Бу Кирк Киркорйандыр - Р.Н.) открыл деревообрабатывающий комбинат и вложил в него около 2 миллион долларов. Кроме того, в Ване возведен целый комплекс объектов развлекательно-бытового назначения» («Ъентрал Асиа анд тще Ъауъасус» araşdırma materialları toplusu. İsveç (Лулеа) 2002. № 6, сящ. 212. Н. Айрумйанын материалы).

Və yaxud başqa bir araşdırma materialında isə oxuyuruq ki, ABŞ-a məxsus investisiyaların böyük bir hissəsi, ərazidəki qondarma «Dağlıq Qarabağ Respublikası»-na məxsus «Artsax Bank»da qorunur.

Məsələn, hesabat materiallında oxuyuruq: «национального банка НКР Арцахбанк держателями 70 процентов акций стали швейцарские и американские финансисты. За счет вложенных инвестиций общие активы банка выросли в 2,8 раза, уставной капитал увеличили в 3,2 раза».

Əlavə məlumata görə, Avstraliyadan və ABŞ-dan olan şirkət sahibləri 2003-cü ildə «Nairi» və «Qarabağ» mehmanxalarını tamamlayıblar.

Strateji mərkəzin erməni hesabatında daha sonra deyilir: «В Степанакерте (Ханкяндидя - Р.Н.) уже работают две американские ковроткацкие фирмы, которые реализуют большую часть продукции в США. Их общие инвестиции составили 3 млн. 150 тыс. долларов и они намерены создать полный цикл производства, вплоть до получения натуральных красителей. (стр. 214)

Araşdırmalarımıza görə, ABŞ-da fəaliyyət dairəsi geniş olan «Arslanyan», «Kadciyan», «Manukyan», «Ovnanyan», «Vartanyan», «Kirkoryan» şirkətinin Dağlıq Qarabağın işğal olunmuş ərazilərinə qoyduqları investisiyaların ümumi həcmi 542 milyon ABŞ dollarını keçir. Ermənilər iddia edirlər ki, ABŞ-ın, Fransanın, İsveçrənin, Argentinanın, Yaponiyanın, İngiltərənin, Almaniyanın, İranın, RF-in qoyduqları investisiyalar Dağlıq Qarabağda təhlükəsizliyi və sabitliyi artırır. Тоφaq artıq bahalaşıb. Xankəndidən yayımlanan erməni televiziyasının «İqtisadiyyat: Dağlıq Qarabağ regionlarında» (?) proqramlarında ardıcıl nümayiş etdirilən «De Birs», «Adamand Co. of Armenia», «Almazı-Rossip-Saxa», «Backes», «Arelanian Catting», «Renevlr», «Tomson», «Simon gtnroleum», «Partex», «Simens» kimi şirkətlərin işğal olunmuş ərazilərimizə qoyduqları investisiyaların həcmindən, bağlanmış yeni müqavilələrdən (2004-2010-cu illəri əhatə edə biləcək müqavilələr - R.N. (?)) geniş bəhs edilir. Vaşinqtonda və Kaliforniyada yanacaq resurslarının bərpası və layihəsilə bağlı konsorsiuma, şirkətlərə başçılıq edən Qalust Gülbekyan isə televiziyaya verdiyi açıqlamada (2003. IX-11, XII-9. Xankəndi) Dağlıq Qarabağa qoyacağı əlavə investisiyalardan danışır. Əsasən Portuqaliyada geniş şirkətlərə sahib olan erməni iş adamını işğal olunmuş torpaqlarımızın «iqtisadi dirçəlişi» daha çox düşündürür (?).

Ermənistan Dövlət Universitetinin müəllimi, iqtisadçı Amaliya Sarıbekyan isə iddia edir ki, ABŞ-ın müxtəlif şirkətləri Dağlıq Qarabağda «Milli iqtisadiyyatın beş illik proqramı»nı hazırlayırlar (2004-2009-cu illəri əhatə edir).

Həmçinin bunu da xatırladım ki, ATƏT-in amerikalı həmsədri C.S.Mənnin vasitəçiliyilə Azərbaycanın işğal olunmuş torpaqlarında - Dağlıq Qarabağda «Xarici ticarətin qapıları: Dağlıq Qarabağ üçün strateji proqram da hazırlanır. Və yaxud Mərkəzi Kəşfiyyat İdarəsinin sənədlərində hələ də Dağlıq Qarabağ «Ermənistanın bir parçası kimi təqdim olunur» (?). Bütün bunlar və buna bənzər

eybəcər hadisələr məhz ATƏT rəsmilərinin gözləri qarşısında baş verir». Dağlıq Qarabağdan oğurlanıb xaricə daşınan milli sərvətlərimizin sayı-hesabı bilinmir.

Məsələn, bu günədək Azərbaycan xalçası haqqında dünyada tanınan 142 kitab yazılıb. Bu kitabların 91-i Sovet İttifaqı dağılandan sonra erməni müəlliflərinin adı ilə çap olunub.

1993-cü ilin avqustun 9-da Saratovda (RF) nəşr olunan «Qolos» qəzetinin müxbiri A.Karpov yazır ki, Bakıdan gələnlər (?) 14 Qarabağ xalçasını dəyər-dəyməzinə kilsəyə satdılar (?). Sonra A.Karpov «Bakıdan gələnlər» ifadəsini açır və məlum olur ki, bu adamlar Azərbaycandan köçüb getmiş ermənilərdir. Hadisələri müşahidə edən amerikalı yazar Stifen Koln qeyd edir ki, döyüşlərdə «yüzlərlə qədim əşya, tikili və toxunma xalçalar, zinət nümunələri maşınlara yüklənilib, aradan çıxarılırdı. Hər şeyi qoparıb, daşıyırdılar».

Məlumata görə, təkcə Şuşa məscidindən yaşı 300 və 450 il olan altı qədim xalça oğurlanıb. Və 1998-ci ilin martın 25-də həmin xalçalardan üçü Nyu Cersi ştatında Ümummilli Erməni Konqresinin iclasında nümayiş etdirilib (?).

1992-1995-ci illər ərzində ermənilər işğal etdikləri Dağlıq Qarabağdan 422 ədəd qədim Azərbaycan xalçası oğurlayıblar.

Qədim xalçaların Rusiya, eləcə də dünya bazarlarına necə yol alması bu günədək qaranlıq qalır. Halbuki qədim xalçaların ölkədən çıxarılmasını məhdudlaşdıran BMT-nin və YUNESKO-nun sərt və bəzən qadağan edən qanunları var. Məsələn, Azərbaycan qanunvericiliyinə görə, 1950-ci ildən əvvəl toxunan xüsusi tarixi əhəmiyyəti olan xalçaların ölkədən çıxarılması üçün ancaq Ekspertlər Şurası qərar verir. Belə bir qurumun respublikada olub-olmaması bilinmir. Bu Şuranın tərkibi nə üçün açıqlanmır? Ümumiyyətlə, Azərbaycanda belə bir qurum varmı?

Məlumata görə, ABŞ Dövlət Departamenti dünya ölkələrinin milli dəyərlərini araşdıran xüsusi hesabat hazırlayıb. Əsasən strateji mərkəzlərin və institutların məlumatları əsasında hazırlanmış bu sənəddə Azərbaycanın da adı var. Respublika öz milli dəyərlərinə, tarixi keçmişinə etinasız bir region kimi qələmə verilir: «Məlumata görə, Quba, Şirvan, Bakı, Qazax, Qarabağ xalçaları həm tez satılır, həm də keyfiyyətinə görə digərlərindən fərqlidir. Məsələn, Quba-Şirvan xalçalarında 26-38 ilmə olur. Quzu yunundan toxunan xalçalar parıltısı və çeşidilə fərqlənir.

Araşdırmalarımıza görə, qədim xalçalarımızdakı təbii boyalar, ilmələr, düzümlər insan orqanizmində gedən bioloji proseslərə bilavasitə təsir edir. Məsələn, İngiltərədə qan təzyiqini, ürək çatışmazlığını, sinir sistemini normal vəziyyətə gətirmək üçün qədim xalçaların əhəmiyyəti misilsiz sayılır. ABŞ-da isə qədim xalçalarımız bilavasitə bədənin təravəti, yeddi xəstəliyin müalicəsi üçün əsas rola malikdir.

Dünyanın «qara bazar»ında 150 yaşlı qədim xalçamıza 12 min ABŞ dolları

verilib.

Ekspertlər Şurasının bu problemdən hələ ki xəbəri yoxdur. Xalça mafiyasının üzvləri ildə 32 milyon ABŞ dolları gəlir götürürlər. Bir ildə Dağlıq Qarabağ ərazisindən 211 metr, yaşı 200-250 il olan xalça çıxarılıb və qeyri-qanuni yollarla xaricə daşınıb. Almaniyanın, İngiltərənin, Amerikanın, Yaponiyanın, Fransanın diplomatik korpuslarında çalışan 11 diplomat Azərbaycandan dəyəri təqribən 2 milyon ABŞ dolları olan qədim xalçanın çıxarılmasına nail olublar: «Əcnəbi diplomatlar Bakıdan adətən Gəncə xalça məktəbindən «Dəmirçilər», «Borçalı», «Qaraqoyunlu» bədii kompozisiyalı xalçalar, Qarabağ xalça məktəbindən «Qarabağ», «Dəryanur», «Buynuz», «Saxsıdagül», Təbriz xalça məktəbindən ən çox toxunan (xovsuz xalçalarından) kilim, vərni, zəlilər, Bakı xalça məktəbindən «Cöradlı», «Fındığa», «Ciyi palaz» və digər xovsuz xalçalar daşıyırlar. Başqa bir məlumatda isə bildirilir ki, tarixən qədim, yaşı 200-250 il olan xalçaların həcmi 11 dəfə, 100-50 il olan xalçaların həcmi isə 17 dəfə azalıb.

YUNESKO-nun isə mədəni sərvətlərin qanunsuz daşınmasının və mülkiyyət hüququna verilməsinin qadağan olunmasına yönələn tədbirlər haqda 1970-ci il Konvensiyası olsa da, ona əməl olunma mexanizmi yoxdur.

Məlumata görə, 2005-ci il sentyabrın 23-də Ermənistanın müstəqilliyi günü münasibətilə Yerevana qonaq kimi dəvət olunmuş qondarma «Dnestryanı Respublika»nın, Qarabağın, Cənubi Osetiyanın, Abxaziyanın (Moskvadakı ofisinin nümayəndəsi) yüksək rütbəli zabitləri «MDB-2»-nin «Təhlükəsizlik qurumu» deyilən hərbi sazişə imza atdılar. Həmin sənədə əsasən, münaqişəli - separatçı ərazilərin «başçı»larına həm də icazə verilirdi ki, onların hər biri istənilən zaman bir-birilərinin ərazilərindəki təbii sərvətlərdən istifadə etmək hüququna malikdirlər (?). Əlləri müxtəlif cinayət hadisələrində qana batmış qondarma «respublikalar»ın generallarının imzaladıqları bu sazişə bir-birinə silahlı dəstələrin göndərilməsi və hərbi qarşıdurmalarda iştirakı barədə də xüsusi bir bənd salınıb. Qondarma «Dağlıq Qarabağ Respublikası»nın (?) «prezidenti» A.Qukasyanın imzaladığı sərəncama əsasən, nəzarətsiz zonanın müdafiə naziri Seyran Ohanyana «Qızıl Xaç» ordeni də bu mərasimdə təqdim edilib - R.N).

Başqa bir məlumatda isə bildirilir ki, qondarma «respublika»nın ərazisində hər birində 180 nəfər olmaqla iki legionun («Naxçıvan legionu» və «Beynəlmiləlçi erməni legionu») yaradılması məsələsi də gündəmə gətirilib. Ümumiyyətlə, Dağlıq Qarabağ ərazisində ordu quruculuğu istiqamətində erməni separatçılarının hazırladıqları «2005-2010-cu illər: Dağlıq Qarabağ Respublikasında yeni ordu quruculuğu proqramı» üçün 25 milyon ABŞ dolları ayrılıb. («Dağlıq Qarabağ Respublikası»-nda illik büdcə 14 milyon ABŞ dollarıdır). Vəsaitin 11 milyon dollarını «Hayastan» Beynəlxalq Erməni Təşkilatı öhdəsinə götürüb. 7 milyon ABŞ dolları Fransadakı 410 min ermənini birləşdirən «Ümumerməni Birliyi» təşkilatı, 4 milyon ABŞ dolları Kaliforniya ştatındakı «Ermənilərə yardım

təşkilatı», 3 milyon ABŞ dolları isə erməni kilsələri tərəfindən (Livan, Suriya, İran, RF, İngiltərə, Avstriya, İsveç) ödənilib: «Azərbaycanın işğal olunmuş ərazilərində - Dağlıq Qarabağda «Yüksək hazırlıqlı erməni legionları»nın təşkili məsələsi yeni deyil. Bu haqda hələ 2004-cü il avqustun 4-də «Karabaxskiy kuryer» həftəliyi ayrıca yazı da çap etmişdi və orada göstərilirdi ki, bu legionlar əsasən Ermənistanın Naxçıvanla həmsərhəd zolaqlarında və Gəncə-Goranboy yaşayış məntəqələrinə yaxın ərazilərdə yerləşdiriləcək. Qondarma «Dağlıq Qarabağ Respublikası»nın qoşun kontingentinin beynəlxalq əlaqədar üzrə eksperti B.S.Baqramyanın fikrincə, belə legionların təşkilində «respublika»nın MN-yi Fransa təcrübəsini öyrənib (Fransada Polşa legionun strukturu əsasında - R.N.).

31 saylı Naxçıvan legionuna beş illik «hərbi müqavilə»yə əsasən bir sıra ölkələrdən «həvəskar və yaxud peşəkar zabitlər» dəvət olunur. Qondarma «respublika»da yaradılacaq bu legionlarda əsasən beynəlxalq terror təşkilatlarında, o cümlədən ABŞ-da geniş fəaliyyət proqramı olan «13-lər» cinayətkar qrupunun üzvləri də iştirak edilir. Qeyd edək ki, tərkibində ermənilərin də iştirak etdiyi «13-lər» terror təşkilatı Vaşinqtonda və Nyu-Yorkda xüsusi 2001-2002-ci illərdə törədilmiş cinayətlərdə aktiv olublar. ABŞ Dövlət Departamentinin 2005-ci ilin birinci yarısı üçün hazırladığı «Beynəlxalq terror təşkilatları» hesabatında «13-lər»in də adı çəkilir.

Dağlıq Qarabağa göndərilən və yaxud gələn muzdlular üçün Fransada, Almaniyada, ABŞ-da, RF-da, İordaniyada, CAR-da, Suriyada, Livanda, İranda, Misirdə, İtaliyada, İngiltərədə erməni diasporları nəzdində «Qeydiyyat və göndəriş məntəqələri» açılıb. Məlumata görə, Şərqi Avropa ərazilərində əlavə 5 belə məntəqə yaradılıb. Həmin məntəqələrdə Ermənistanda çap olunmuş xüsusi sorğu anketləri, Dağlıq Qarabağ haqqında «döyüş kitabları» da qoyulub.

Yaranmaqda olan «Naxçıvan legionu»na polkovnik Aşot Georgiyeviç Nazaryan adlı bir erməni zabiti başçılıq edir. Məlumatlarda bildirilir ki, zabit A.G.Nazaryan 1983-cü ildə adam oğurluğunda təqsirkar bilinərək, həbs olunub, azadlığa çıxandan sonra bir müddət Moskvada diasporda çalışıb və 2002-ci ilin yayında Dağlıq Qarabağa gəlib. «Naxçıvan legionu»nun tərkibində vaxtilə Naxçıvanda yaşayan, Azərbaycan vətəndaşlığı sənədini gəzdirən ermənilər çoxluq təşkil edəcək. Bu legionun məramnaməsi, hərbi tezisləri Azərbaycana qarşı istiqamətləndirilmiş Ermənistan dövlətinin işğalçılıq siyasətinin tərkib hissəsidir. «Naxçıvan legionu»ndakı muzdlulara keçirilən hərbi təlimlərdə görüşlərin, hava limanlarının, daha əhəmiyyətli strateji obyektlərin dağıdılması kimi terror dərsləri də öyrədiləcək.

Yeni yaradılmaqda olan 26 saylı «Beynəlmiləl erməni legionu» isə, «Dağlıq Qarabağ Respublikası» ərazilərində fəaliyyət göstərəcək. Bu legiona ediləcək hərbi yardımların bir hissəsinin Avropadakı erməni iş adamları tərəfindən ödənilməsi məsələsi də əlavə xərc kimi qeyd olunub. Legiona əsasən müxtəlif hərbi

hissələrdən istefaya çıxmış zabitlər dəvət olunublar. Bu istiqamətdə yeni legiona artıq Rusiyadan 107 nəfər üzv yazılıb. Legionun «hərbi hazırlıq qrupu»nun zabiti olan mayor D.O.Cahangiryan məlumat verib ki, Rusiyadan 107 nəfər qeydiyyatdan keçsə də, onların ancaq 96 nəfərinə «söz verilmişdi». 107 nəfərin 96-sı ilə müqavilə bağlanılıb. Müqavikmin öz şərti var və şərtlərə görə müqaviləyə imza atan şəxs xidmət etdiyi müddətdə Dağlıq Qarabağ ərazisindən çıxmamalı, türk və Azərbaycan dillərində aparılan dərslərdə mütəmadi iştirak etməlidir.

Araşdırmalarımıza görə, ermənilər tərəfindən işğal olunmuş Azərbaycanın Dağlıq Qarabağ ərazisində Xankəndidə ofisini açmış (9 oktyabr 1996) «Artsax Bank»ın 2005-ci ilin yekun hesabatında qeyd olunur ki, bank öz bölmələrindən birini Milli Azadlıq Hərəkatı naminə mübarizə meydanlarına atılan azsaylı xalqların, etnik qrupların xidmətinə verib. (Azsaylı xalqlar və etnik qruplar hesab nömrəsi: «Armen, Kur. № 002211; Karton»). Bankın İdarə heyətinin sədri Kamo Nersesyan fransız həmkarlarına verdiyi məlumatda (Qeyd edək ki, o, 2005-ci il, 25 aprel tarixində Harmonistan prezidenti R.Köçəryanı Fransa səfərində müşayiət edən nümayəndə heyətinin tərkibində olub) xatırladıb: «Bu, bizim öz torpaqları və hüdudları uğrunda mübarizə meydanlarında barrikada quran hər bir xalqa və etnik qrupa edəcəyimiz xeyirxah işin başlanğıcıdır. Bu, erməni xalqının vətəndaşlıq borcudur».

Erməni iqtisadçısı K.Nersesyanın (əslən fars mənşəli ermənidir. Onun əmisi oğlu vaxtilə 1970-80-ci illərdə C.Cabbarlı adma «Azərbaycanfilm» kinostudiyasının rejissoru olub; Mora Nesesyan) məlumatına görə, «Artsax Bank»da «Sadval»ın, «Talış Birliyi»nin, Kanadada, Los-Ancelesdə, Moskvada, Tehranda, Parisdə, Frankfurtda azərbaycanlılara məxsus 9 icma başçısının da bank hesabları var. Məlumat üçün bildirək ki, «Artsax Bank» qondarma «Dağlıq Qarabağ Respublikası»nın aparıcı banklarından biridir. 1996-cı il fevralın 14-də yaradılıb. (Yerevan Mərkəzi Bankın və Əmanət Bankının əsasında). Bankın təsisçiləri «Dağlıq Qarabağ Respublikası»nın qondarma hökuməti, 6 bankı, 12 nəfər fiziki şəxsdir. Araşdırmalarımızda belə bir fakt da var ki, həmin fiziki şəxslərdən ikisi azərbaycanlıdır. Həmçinin «Artsax Bank» Almaniyanın, RF-in, «Müxbir bankları» ilə sıx təmasdadır. Frankfurtda, Vyanada, Moskvada bankın xüsusi filialları açılıb. Başqa bir məlumatda isə bildirilir ki, çeçen səhra komandiri Şamil Basayevin və Londondan daimi yaşamaq üçün sığınacaq istəyən keçmiş səhra komandiri Əhməd Zakayevin də adına 1999-cu il iyunun 2-də bankda hesab açılıb. Bu məsələlərə aydınlıq gətirən çeçen Ə.Zakayev «Röyter» agentliyinə müsahibəsində (2 aprel 2004) qeyd edir: «Bizim silahlı qüwələrə pul bir qayda olaraq RF-dən ötürülür. O pullar İçkeriya vasitəsilə göndərilir. Bizə nazirlər, dövlət və hökumət qurumlarında çalışanlar kənd müəllimləri pul göndərirlər. Bizim pul problemimiz yoxdur».

Qondarma «Dağlıq Qarabağ Respublikası»nın terrorçu lideri A.Qukasyanın

2001-ci ildə «Armen-Press» xəttilə nəşr olunmuş «Dirilmə» xatirələrində oxuyuruq: «Dağlıq Qarabağ uğrunda döyüş meydanlarına atılanda ilk yardım edənlərdən bir qrupu elə Bakıda, Gəncədə, Sumqayıtda yaşayan mənşəcə erməni olan azərbaycanlılar idi» (A.Qukasyanın xatirələri rus, erməni, fransız, ingilis dillərində nəşr olunub. Redaktoru: Z.Balayan. «Ön söz»ün müəllifi də Z.Balayanındır. Əlavə. Rus dilində nəşri. 16 iyun 2002. Moskva. «İcma» nəşri).

Tehranda yaşayan publisist Ağa Rəhim Fəxrinecad isə 116 səhifəlik «Düşüncələr» kitabının «Müsəlman torpağındakı kilsə» bölməsində yazır: «O zaman (1989-1992-ci illərə işarə edirəm) İrana təşrif gətirən mücahidləri - Bakı azadlıq-sevərlərini hörmət və ehtiramla qarşıladıq. Amma onların bir qismini anlamadıq. İki nəfərini erməni kilsəsində çalışan Tumas Afşaryan apardı. Bu adamların səsini indi də Bakıda eşidirəm. (A.R.Fəxrinecad: «Düşüncələr» - «Keyhan» nəşriyyatı. Tehran. 1999. s. 47-51) Ermənistanda 2005-ci ildə istehsal olunmuş «Qarabağ» iki hissəli bədii filmində də ermənilər yaratdıqları Kərim və Bəhlul «obrazlarında» beynəlxalq aləmə göstərmək istəyiblər ki, torpaqların qaytarılmasında (?) «həqiqəti sevən, tarixə hörmət edən» (yazıçı. D.Akopyan) azərbaycanlılar öz qoşunlarına (?) necə kömək ediblər.

Yerevan parlamentində 2003-cü il martın 12-də keçirilən yığıncaqda («Banklar haqqında» Qanuna yenidən baxılırdı) deputat O.D.Baqdasaryan «Artsax Bank»ın İdarə Heyətinin sədri K.Nersesyana belə bir sual verir:

- Sizin bankda Rusiyadan, İrandan, Türkiyədən, Gürcüstandan, Azərbaycandan neçə nəfərin hesabı var? İnvestisiyaların həcmi nə qədərdir?

K.Nersesyan:

- Amerikadan, Almaniyadan, Avstriyadan, İsveçrədən, Kanadadan, Fransadan, İtaliyadan kifayət qədər investisiyalar qoyulub.

Araşdırmalarımıza görə, Dağlıq Qarabağda qeyri-qanuni fəaliyyət göstərən «Artsax Bank»a həmçinin narkoticarətdən, insan alverindən, kütləvi qırğın silahları komponentlərindən gələn gəlirlərin faizləri də ötürülür. Beynəlxalq terrorizmdə və eləcə də Azərbaycana ünvanlanmış terror aksiyalarında çirkli pullar bankda asanlıqla «yuyulur». K.Nesesyan isə Azərbaycana məsləhət verir: «Siz, yaxşı olardı ki, öz problemlərinizi özünüz həll edəsiz. O cümlədən belə problemləriniz sizin bank mühitində də yığılıb qalıb» («Respublika», Erməni xəbərlər bülleteni. Xankəndi. 2004. № 1. s. 6.).

Məlumata görə, Xankəndidə qeyri-qanuni özünə yuva quran erməni bankı 11 kommersiya strukturu ilə sıx əlaqələrə malikdir. «Artsax Bank» artıq özünün beynəlxalq bank sistemini-əlaqələrini genişləndirmək üçün xüsusi «Strateji maliyyə proqramı»na da malikdir. Həmin proqrama əsasən guya bank 2005-ci ildən başlayaraq Qafqaz regionları ilə sərbəst və açıq investisiya əlaqələr qurur.

Beynəlxalq bank sistemində belə bir maliyyə qurumu var: «MİGOM». Yəni, MDB və Baltik məkanında hesab açmadan fiziki şəxslərin qeyri-ticari pul

köçürmələrini həyata keçirməyə imkan verən bir proqram («Migom»-da, məşhur «Western Union», «Money Gramm» kimi beynəlxalq pul köçürmələri sistemlərindən biridir). Respublika Milli Bankı iddia edir ki, «Artsax Bank»m bu istiqamətdə qeyri-qanuni fəaliyyəti dayandırılıb. Azərbaycan XİN-də də bu istiqamətdə guya iş aparılıb. Amma görülən işlərin heç bir nəticəsi yoxdur. Məlumata görə, hər il işğal altındakı təbii sərvətlərimizin talan edilməsindən gələn 150 milyon ABŞ dolları investisiya kimi yenidən «Artsax Bank»a qayıdır. «Artsax Bank» özünün beynəlxalq maliyyə sistemində elektron pul və bank əməliyyatlarında artıq yeni kompüter şəbəkələrini yaradıb. Fakta görə, «Migom»un «Artsax Bank»a heç bir aidiyyatı yoxdur. Erməni bankının «Döyçe bank»a (Almaniya), «Centro bank»la (Avstriya), «Sberbank»la (RF) maliyyə-pul əlaqələrinin həcmi 2004-cü ilin ikinci yarısında 3,5 dəfə artıb. Burada artıq beynəlxalq «Cybercash», «First Noldings», «Citicorr» sistemlərindən istifadə olunur. Və belə olanda «Artsax Bank»ın «Migom» - sisteminə ehtiyacı qalmır. Nəticə etibarilə Xankəndidə fəaliyyət göstərən erməni «Artsax Bank» haqqında Milli Bankın İnternet saytından başqa əlavə heç bir məlumatı yoxdur. Ümumiyyətlə, məlumata görə, Azərbaycan Milli Bankının işğal olunmuş Dağlıq Qarabağ ərazisində baş verən maliyyə fırıldaqları və bank sistemləri ilə bağlı heç bir strateji proqramı yoxdur.

«Artsax Bank» 2004-cü il yanvarın 4-dən etibarən «Avropa İttifaqı»nın yardımı ilə Avropa layihəsində iştirak edir. Bu istiqamətdə RF-dəki erməni bankları əsl maliyyə körpüsü rolunu oynayır. Məsələn, RF-də fəaliyyət göstərən, investisiya layihələri hazırlayan Armais Vladimiroviç Martirosyan, bank əməliyyatları keçirən «Anelik RU» - şirkətinin başçısı Armen Araratoviç Kazaryan, «Rosinter-nefond»un vitse-prezidenti Lev Georgiyeviç Asatryan, «Fundament Bank»ın idarə heyətinin sədri Vladimir Qurqenoviç Poqosyan, Rusiya Assosiasiyasının prezidenti Qaregin Aşotoviç Tosunyan, «Ticari Bank»ın üzvü Vahan Xaçaturoviç Brutyan «Artsax Bank»la Azərbaycanın bir neçə bankı arasında çirkli pulların ötürülməsində əsl körpü rolunu oynayır. Həmçinin erməni bankının tərkibində 2002-ci ilin avqustun 3-dən Dubayın (BƏƏ) SMB Cumruters şirkətinin ofisi də fəaliyyət göstərir. Məlumata görə, adını çəkdiyimiz şirkət isə qeyri-qanuni nüvə texnologiyasının daşınmasını təmin edən şirkət kimi ABŞ Dövlət Departamentinin rəsmi açıqlamasında qeyd olunur (yanvar 2004-cü il). Şirkət beynəlxalq aləmdə nəzarətsiz zona kimi qeyd olunan Dağlıq Qarabağ ərazisindən tranzit kimi istifadə edir. Həmçinin şirkətin sahibi Əbu Tahir və erməni eksperti Serj Avakyants qeyri-qanuni işlərinə görə, 2003-cü ilin noyabrın 2-də ittiham olunub.

Araşdırmalarımızda başqa bir məlumat da var. Məsələn, RF-ə məxsus Gömrüdəki 102 saylı hərbi bazanın bütöv maliyyə sistemi də məhz Xankəndidəki işğalçıların qurduqları «Artsax Bank»dan keçir. Rus hərbiçilərinə məxsus maaş

cədvəlləri orda tərtib olunur. Yəni, ruslara məxsus bank-pul məsələləri bütövlükdə «Artsax Bank»da həll edilir.

## «HAYASTAN» SEPARATÇI BEYNƏLXALQ TƏŞKİLATI QARABAĞIN İŞĞALINDA İŞTİRAK EDİB

Dağlıq Qarabağ ərazisi qanunsuz silah satışı, narkotik xassəli bitkilərin becərilməsi və narkotiklərin daşınması üçün istifadə olunur. Dağlıq Qarabağ ərazisi tamamilə nəzarətsiz ərazidir. Bu ərazi Avropa məkanında qara ləkədir və beynəlxalq hüquq qanunları bu ərazidə işləmir.

**İlham ƏLİYEV, Azərbaycan Respublikasının Prezidenti**

On beş il bundan qabaq, 1992-ci il mayın 6-da İsfahanda erməni icmasının qarşısında nitq söyləyən Murad Abakumoviç Şahnazaryan iddia edirdi ki, ermənilər Böyük Tiqranın yoluna nəzər salmalı, «onun işığına» özləri üçün yol-iz aramalıdırlar. Yoxsa çalxalanmış bu dünyada batıb gedərik». M.Şahnazaryan daha sonra yazır: «Bir millətə, bir xalqa və yaxud hər hansı bir etnik qrupa qalib gəlmək üçün gərək həmin millətin, həmin xalqın və etnik qrupun beynində əyləşəsən. Onun mənəvi dünyasından öncə beynini zəbt etmək vacibdir. Çünki hər şey beyin mərkəzindən idarə olunur. Biz bir neçə gündən sonra Dağlıq Qarabağda bayram edəcəyik» («Araz» qəzeti. 11 may 1992-ci il, səh. 2. İran-İsfahan). Murad Abakumoviç İran ərazisində qeyri-leqal (əslində leqal) fəaliyyət göstərən «Erməni korpusu»nun generallarından biridir.

Generalın qeyd etdiyi «bayram» iki gündən sonra baş verdi. İki gün sonra Şuşa təslim oldu.

Həmin ərəfədə Tehrana diplomatik görüşə gələn Ermənistan prezidenti Ter-Petrosyanı qarşılayan da elə Abakumoviçin özü olub. Aralarında təqribən qırx dəqiqəlik söhbət də aparıldı. Bu zaman eks-prezident Ter-Petrosyan ümumən Dağlıq Qarabağ ərazisinə göndərilmiş korpus heyətindən, onların Şuşa istiqamətində hərəkət edən silahlı qrupundan razılığını bildirib («General M.Abakumoviçin prezident Ter-Petrosyana məktubu». Yerevan. «Hayastan» bülleteni (erməni və rus dillərində çap olunur. 4 iyul 1992-ci il).

General Abakumoviçi ən çox maraqlandıran Qubadlıdan Füzuli rayonu ərazilərinədək işğal olunmuş Azərbaycan torpaqları idi. Bu torpaqların strateji üstünlüyü bir də ondan ibarət idi ki, İran İslam Respublikası ilə həmsərhəd idi.

Abakumoviç: O torpaqlarda yaşayış olacaqmı?

Ter-Petrosyan: Sizin fikrinizcə, o torpaqlardan necə istifadə etmək olar?

Abakumoviç: Siz onun bir hissəsini bizə icarəyə verin. Yəni, İran tacirlərinə. İranın iş adamları həmin torpaqlarda çalışa bilərlər. Biz də yardımçı

olarıq.

Ter-Petrosyan: İmkan varsa, Tehranda erməni iş adamlarının yığıncağını keçirin. Təkliflərinizi verin. O torpaqlar artıq bizimdir. Bütün erməni millətinindir (M.A.Şahnazaryan. «Döyüşdən əvvəl və sonra». Tehran. «Ararat» nəşriyyatı. 1995-ci il, səh. 82. «Prezidentlə tanışlıq» bölməsi. 1000 nüsxə çap olunub. 1997-ci ildə. 500 nüsxəsi Stavropolda rus dilində çıxıb).

Murad Abakumoviçin ermənilərin işğal etdikləri Azərbaycanın sərhəd ərazisi ilə bağlı öz strateji planı var idi. Bu plan İranın İqtisadi Kəşfiyyat İdarəsi ilə erməni korpus başçılarının birgə hazırladıqları «Böyük ərazi» adlı strateji planın tərkib hissəsi idi. «Böyük ərazi» planı 1990-cı il iyulun 12-də İran parlamentindəki erməni icmasından olan üzvlərin ortaya atdıqları məsələ idi. Artıq düyün açılırdı. «Böyük ərazi»dəki imzalar bir-bir görünürdü. «Böyük ərazi»də imzası olan «Erməni korpusu»nun başqa bir zabili Rafiq İshaqoviç Siracyan isə etiraf edirdi: «Dağlıq Qarabağ ərazisinin mülki adamları və əsgərləri arasında psixoloji durum pozulub». Ermənilərin Qarabağda törətdikləri cinayətlərdən, terror aktlarından sonra bu, təbii idi.

İşğal olunmuş Zəngilan-Füzuli sərhəd zolaqları haqqında isə general Abakumoviçin özünün ayrıca iqtisadi tezisləri var idi. Bu tezislər ermənilər arasında «Abakumoviçin həyat səviyyəli proqramı» kimi hallanırdı.

1994-cü il aprelin 24-də Yerevanda prezident Ter-Petrosyanın iştirakı ilə keçirilən Təhlükəsizlik Şurasının iclasında gencral Murad Şahnazaryanın Zəngilan-Füzuli sərhəd zolaqları ilə bağlı «İqtisadi proqramı»ndan bəhs edən məktubu müzakirəyə çıxarıldı.

Araşdırmalarımıza görə, 1994-cü il aprelin 13-dən 21-dək «Karatyan» deyilən dörd nəfərlik iqtisadçılar qrupu Zəngilana gəlir. Ermənistan Kəşfiyyat İdarəsinin iqtisadiyyat şöbəsinin tezisləri əsasında proqramlaşdırılan bu qrup bilavasitə işğal olunmuş ərazinin strateji nöqtələrini araşdırmalı, ərazidə bölgülər aparmalı, torpaq sahələri haqqında ayrıca təkliflər hazırlamalı idi. Nəticədə 1994-cü il mayın 26-da Zəngilanın Bəsitçay qoruğu haqqında iqtisad elmləri namizədləri A.Rasulbekyanın, H.Acayanın, M.Atomun, U.Saakyanın və O.Markaryanın imzaları ilə «Zəngilan rayonunun geoiqtisadi durumu haqqında» arayış hazırlanır. Arayış Ermənistan MN-nin kəşfiyyat şöbəsinə təhvil verilir. İqtisad elmləri doktoru (1995-ci ilin fevral ayında o, elmi araşdırmalarına yekun vuraraq, doktorluq dissertasiyasını müdafiə edir və işləmək üçün Moskvaya gəlir) Oranel Markaryan «İqtisadi düşüncələr» adlı oçerklər kitabında qeyd edir ki, Zəngilan, Qubadlı istiqamətində mövcud torpaqların bir hissəsi artıq yararsız olduğundan əkin-biçin üçün kara gəlmirdi. O torpaqlar təmizlənməli idi: «Apardığımız tədqiqata görə, təkcə İsgəndərbəyli kəndi ərazisində (şimal hissə) torpaq qatı şabalıdı rəngini itirib. göyümtül, boz-bulanıq rəngə düşmüşdü» (səh. 19). O, kitabdakı «Faunanın rəngi» adlı oçerkində isə yazır: «Zəngilanın Razdərə ilə Bartaz deyilən əraziləri arasında

rayonun cənub hissəsindəki torpaq sahələri hələlik münbitliyini saxlayıb. Mən Ermənistan MN-də çalışan, əsasən bu zonalarda strateji nöqtələr haqqında məlumat toplayan polkovnik Boris Kapilyana başa salanda ki, bu torpaqlar gərəkli ola bilər, O, soruşdu: «Orada nə əkmək olar?» Mən dedim: «Hər şey-gül, meyvə-tərəvəz, dənli və paxlalı bitkilər». Polkovnik əlini çiynimə qoyub, əlavə etdi: «Biz o torpaqları iranlı qardaşlarımıza icarəyə verəcəyik. Bizim elə bir imkanımız yoxdur ki, orada əkin-biçin işləri aparaq» (Moskva, «Erməni xəbərləri» - səh. 3, 1995, № 24).

Daha sonra erməni iqtisadçısı Markaryan kəşfiyyat polkovniki Kapilyanla kiçik müsahibəsinin üstündə dayanır.

«O məndən soruşdu (yəni Kapilyan): - Torpaqların korlanmasını nədən müşahidə edirsiniz?

Dedim: - O yerdə ki, bioloji cəhətdən zərərli elementlər toplanır, o yer sıradan çıxmış hesabındadır. Torpaq qaysaq bağlayır, eroziyaya uğrayır. Torpağa lazım olan iqlim itir. Mən bunları Zəngilan ərazisində gördüm.

Soruşdu: - Yəni, orada heç nə əmələ gəlməz?

Dedim: - Siz orada nə əkmək istəyirsiniz?

Sualım cavabsız qaldı» (səh. 19).

1988-ci ildə Tehran valisinə 70 çinar ağacı satıldı. Biri 100 dollara. 110 çinar torpaqdan çıxarılaraq Sevan gölünün ətəklərinə, eləcə də Yerevana daşındı. (Yəhya Haşimi. «Sərhədlərimizin ab-havası» kitabı. «Səhənd» nəşriyyatı. 1999-cu il, səh. 66). Həmin il 46 bulaq və kəhriz qurudu, çinarların çıxarıldığı torpağın «ölüb» sıradan çıxması müşahidə olundu. Ermənilər tərəfdən terrora məruz qalmış Qubadlı rayonunun 20 min hektarlıq qoruq sahəsi də yararsız vəziyyətə düşdü.

1995-ci il 26 avqust. Tehran şəhər məhkəməsi. Vəkil Yusif Mahmudinin narkotik maddələrin daşınması, satılması üstündə həbs olunmuş Ağayi Lətifiyə verildiyi suallardan biri belə idi:

- Narkotik maddələrin ərazidə qadağan olunmasını bilirdinizmi?
- Bəli.
- Bəs bu maddələri haradan, kimdən alırdınız?
- Mən onu Vəjnəli dərəsindən alırdım.
- O hansı istiqamətdə olan ərazidi?
- Kəleybər yaxınlığındadı.
- Kimdən alırdın?
- Pirim ağadan.
- O kimdir, nəmənə adamdır?
- Ağa, o, bir erməndir («İran» qəzeti. Aprel 1995-ci il, səh. 4).

Erməni Pirim haqqında heç bir məlumat yoxdur. Miqran Pirimyan isə Tehran erməni yeparxiyasının Artsaxla (Xankəndi ilə) əlaqələr komissiyasının sədridir. Həm iqtisadçıdır, həm də Qarabağ ərazisində 1800 kv. metrlik mülk

sahibidir. Kərkicahanda və Mincivanda təbii otlardan dərman hazırlayan fabrikləri var. Çox da böyük olmayan fabriklərdə həm ermənilər, həm də farslar işlə təmin olunublar. Müttəhim Lətifinin vurğuladığı Vəjnəli və Kəleybər yaşayış ərazilərinə gəlincə, bunu da aydınlaşdırdıq. Nə qədər maraqlı da olsa, vəkil Yusif Mahmudinin istintaq materiallarında və qeydlərində Vəjnəli İranın şimal ərazisi kimi qeyd olunur. 1996-cı il iyulun 2-də İran dövlətinin rəsmiləri BMT-yə ünvanladıqları «Narçkotik maddələrin alınması, daşınması və satılmasına qarşı mübarizə tədbirləri haqqında» hesabatlarında da Vəjnəli narkotik maddələrin əkin mərkəzi kimi göstərilir. Əhər şəhər «Sepah-e-Pastaran»çıların (İslam inqilabının keşikçi dəstələri) əldə etdiyi kəşfiyyat materialların hesabatında isə (hesabatdan çıxanş İranın BMT-yə ünvanladığı rəsmi sənəddə qeyd olunub) göstərilir ki, Vəjnəli Araz çayının sahillərində yaşayış ərazisidir. «Ora nəzarətsiz və tənha yerdir». Hesabatda oxuyuruq: «Vəjnəli, Bartaz ərazilərində narkotik maddələrin yetişdirilməsi üçün böyük imkanlar var. Çünki o yerlər nəzarətsiz və kimsəsiz yerlərdir» («Xəzər» qəzeti. Sentyabr 1996-cı il, səh. 3).

Adı rəsmi sənədlərdə çəkilən Vəjnəli, Bartaz Azərbaycan əraziləridir, erməni işğalına və terroruna məruz qalmış Zəngilan rayonunun bir parçasıdır. Kəleybər isə İrana məxsus ərazidir. O, Təbrizin qərb hissəsində salınmış qədim yaşayış mərkəzidir. 2001-ci il martın 26-da yayılmış məlumatda belə bir iddia var: «İranın Kəleybər kəndində üç erməni, iki fars və bir Azərbaycan vətəndaşı tutuldu. Bu adamlar narkotik maddələrin alınması və daşınması ilə məşğul idilər» (Eyni mənbə, № 42, səh. 1).

21 aprel. 2001-ci il. Jurnalist E.Ohanyanın qeydlərindən: «Erməni əsgərləri rus sərhədçiləri ilə birgə 22 hektar sahədə (erməni Baqareten Devidyanın və fars iş adamı Əbdül Əli Səfəvinin sahəsi) yetişmiş yabanı xaşxaş kollarına od vurulub, yandırılıb» («Xəzər» qəzeti, № 50, səh. 23, 2001).

## QARABAĞ - NARKOBİZNESİN YUVASI

Biz bu faktları sadaladıqca bir daha şahid oluruq ki, işğal olunmuş ərazilərimizdə narkotik maddələr yetişdirilir. Bir qisim yaşayış ərazisi də var ki, İran hökumətinin nəzarətindədir. Məsələn, Kəleybər və Germi istiqamətlərində Azərbaycanın Cəlilabad, Masallı rayonlarına hər ay təqribən 12 kq heroin, 14 kq kakoin, 25 kq sintetik narkotik maddələrin qaçaq yolu ilə keçirilməsi təmin olunur. Biz orta hədd götürdük. Faktları bir az da dəqiqləşdirək: «Qubadlı və Zəngilandan İranın içərilərinə nüfuz edən narkotik maddələrin aylıq həcmi 20,5 kq-dır» (Tehran. «Scpah-e-Pastaran» bülleteni, 2001-ci il, səh. 12, №4).

Əldə etdiyimiz məlumata görə (əsasən BMT-nin strateji məlumatlar toplusu), hazırda dünyada 8,5 milyon nəfər heroin azarına tutulub. 13,3 milyon kakoin, 141,2 milyon marixuana, 280 milyon nəfər sintetik narkotikin əsiridir.

Federal Təhqiqat Bürosunun sənədlərinə görə, tökcə ABŞ-da hər 100 min nəfərin 430 nəfəri narkomandır. Narkobiznesə 1 dollar «investisiya» qoyan şəxs ildə 12 min ABŞ dolları əldə edir. Daha sonra bu da göstərilir ki, narkoticarətdən gələn illik gəlir 400 milyard ABŞ dollarıdır. Bu da dünya ticarətinin 8 faizini təşkil edir.

İşğal olunmuş torpaqlar nəzarətsiz zonalar və ərazilər narkobiznesin inkişafında və artmasında misilsiz strateji rol oynayır. Məsələn, təkcə Əfqanıstan ərazisindən 2001-ci ildə 4600 ton narkotik maddə çıxarılıb.

Azərbaycan ərazisinə yol alan narkotik bitkilərin çoxalması müşahidə olunmaqdadır. Apardığımız araşdırmalara görə, respublikanın cənub bölgəsində «narkobiznes üçbucağı» deyilən bir üçbucaq qurulub. Bu üçbucaqda Cəlilabad narkotik maddələrin çoxluğuna görə «Kolumbiya», Lənkəran satışına görə «Malayziya», Masallı isə daşınmasına görə «Portuqaliya» adlanır.

Araşdırmalarımızın nəticələrindən də biri budur ki, İranın Kəleybər və Germi yaşayış məntəqəsində Cəlilabad üçün 3, Razi və Nəmin yaşayış məntəqələrində Masallı üçün 4, Təzə Kənd Anqut zonasında isə Lənkəran üçün 4 narkolaboratoriya fəaliyyət göstərir.

Hər ayın 9-dan 16-dək Təbriz vaxtı ilə saat 21:00-dan 23:00-dək Ermənistanın işğal etdiyi Zəngilan, Qubadlı, Cəbrayıl rayon ərazilərindən Razi və Nəmin yaşayış məntəqəsinə narkobiznesdə «Abilər dərəsi» adlanan yerə «Klara+Karen» qrupunun nümayəndələri gəlir. 2000 və 2001-ci illərdə İranın xüsusi xidmət orqanları bu qrupa qarşı səmərəsiz hücum edib. Sonra bu hücum səngiyib. Çünki işğal olunmuş ərazilərdən daşınan narkotik maddələr «laboratoriya iqlim»indən sonra cənub bölgələrinə ötürülür. İran bilavasitə bu ərəfədə narkotik maddələrin keçid zonası rolunu oynayır. Qeyd edək ki, İran SQ-nin Əfqanıstan istiqamətində narkotik maddələrə qarşı mübarizəsi əvəzedilməzdir. Bu mübarizədə yüzlərlə polis əməkdaşı da həlak olub. Cənub bölgəsində isə qəribə bir mənzərə var. Faktiki olaraq Ermənistan-İran cütlüyü Azərbaycanın cənub bölgələrində gözəgörünməz müharibənin, işğalçılığın təməlini qoyub. Bu işğalçılıqda İranın və Ermənistanın niyyətləri bir-birini tamamlayır. Araşdırmalarımıza görə, erməni terroruna məruz qalmış Zəngilanın nəzarətsiz qalan 707 kv. km ərazisinin 141 hektar, Qubadlının 210, Füzuli rayonunun 176 hektar sahəsində narkotik maddə əkilir (İlami Həsən: «Tədqiqat və axtarış» kitabı. Tehran, 2000, səh. 36).

Digər bir məlumata görə, bu sahələrdə bölgülər var. Məsələn, Zəngilan bölgüsü:

- Ter-Ovanesyan + Ağa Bağır Möhsünzadə + (Masallıda, yaxud Cəlilabadda adları kodlaşdırılmış şəxslər, bilavasitə müxtəlif istiqamətlərdə hərəkət edən məmurlar);

- Yerevan rəsmiləri ilə əlaqəsi olan zabit; -«Sepah-e-Pastaran» komandanlığı ilə əlaqəsi olan zabit.

«Marqus» erməni qardaşları isə Cəlilabad, Masallı, Lənkəran, Biləsuvar,

İmişli istiqamətində sintetik narkotik ötürməklə məşğuldurlar. Qardaşların bu zonalardan götürdükləri illik gəlir 450 min ABŞ dollarına bərabərdir (İlami Həsən. Tədqiqat və axtarış», səh. 76).

Araşdırmalarımızdan bu da aydın oldu ki, İrandakı keçid məntəqələrinin özlərinə məxsus strateji planları var. Bu məxfi planlardan da birini narkobiznesin Azərbaycanın SQ-nə yol alması təşkil edir.

İşğal olunmuş torpaqlarımızda sərhəd zolaqları boyunca narkotik maddələrin daşınması məsələsi də planlı şəkildə qurulub: Mehridən (Ermənistan) - Mincivana (işğal olunmuş Azərbaycan ərazisi) - Soltanlı (Cəbrayıl ərazisi) - Horadiz (Füzuli) - Şahsevən (Beyləqan) - Soltanlı (Cəbrayıl). Yəni, narkobiznesin sərhəd boyunca hərəkət cədvəli sabit deyil. O, tez-tez dəyişir.

Biləsuvar, Germi, Əhər, Astara (İran) ərazilərində fəaliyyət göstərən islam məhkəmə orqanlarında 2001-ci ilin altı ayı ərzində narkotik maddələrin alış-verişi, daşınması və xəlvəti yolla ötürülməsi ilə bağlı 146 nəfər həbs olunub. Ölkənin 2001-ci il üçün hesabatında («Narkotik maddələrin sərhədlərdən alınması və daşınmasına qarşı mübarizə yollarının nəticələri». 21 dekabr 2001-ci il) hərbi kəşfiyyatın polis orqanları ilə narkobiznesə qarşı birgə mübarizənin ölkə prezidentinə ünvanlanmış hesabatında yazılır: «Omumi hesablamalarda son üç ay ərzində Dəşt-e Muğan ərazisində 96 nəfər cəzalandırılıb».

Poçt-rabitə işçisi Ağa Saleh İbrahimi və sürücü Əminağa Zahidinin 021961 nömrəli istintaq qovluğunda qəribə ifadələr var. 2001-ci ildə Təbrizdə kitab şəklində universitet tələbələri üçün çap olunan «Ağa İbrahiminin istintaq materialları» adlı kitabçada müttəhim verilən suallara cavab olaraq, narkotik maddələrin bilavasitə daşınmasında, Masallı, Cəlilabad ərazisi ilə torpaq keçidləri olan «Abilər dərəsi»nə çatdırılmasında fəallıq göstərdiyini etiraf edib. Bunu da deyib ki, narkotik maddələri işğal altında qalan Cəbrayıl rayonunun Sarıcalı kəndindən gətirib. Ərazinin su səthini yüngül balıqçı qayıqları ilə maneəsiz keçiblər. Narkobizneslə bağlı materiallarda verilən suallara alınan cavablar da maraqlıdır. Avtobus sürücüsü Əminağa Zahidi bunu da bildirir ki, 1999-2000-ci illərdə Masallı rayon ərazisində «müəllim», «polis məmuru» ilə, «millət vəkili» və «jurnalistlər»lə, «rayon valisinin adamları» ilə tez-tez görüşüb. Sonra bu görüşlərin bir qismi «Abilər dərəsi»ndə davam edib (Təbriz Universitetinin nəşri, 2001-ci il, səh. 43).

Araşdırmalarımıza görə, Ermənistandan Aşağı Qarabağ ərazilərinə (işğal olunmuş torpaqlarımıza) və oradan İrana (Dəşt-e Muğan ərazisinə), oradan isə cənub regionlarına çıxarılan narkotik maddələrin bir qismi Bakı-Sumqayıt istiqamətindən şimal bölgələrinə, oradan da Dağıstan ərazisinə və nəhayət, beynəlxalq narkobiznes yoluna çıxaraq Rusiyanın mərkəzi şəhərlərinə yol açır. Beləliklə, «Abilər dərəsi»ndən Cəlilabad-Masallı-Lənkəran istiqamətinə yol alan narkotik maddələr Moskvada qeyri-rəsmi fəaliyyət göstərən «Kobi-LTD»

bazarında qərar tutur. Bu beynəlxalq missiyanı Dağıstandakı «Camaati islami Dağıstan» dini təşkilatı icra edir.

2001-ci il iyunun 17-də Ömər Dağıstani Rustavidə (Gürcüstan) narkotik maddələrin daşınmasında ittiham olundu (Tbilisi, «Rezonansı» qəzeti, 26 iyun 2001-ci ü, səh. 2).

Məlumatlara görə, 1 kq heroin Daşkənddə 40 min ABŞ dollarıdır. Moskvada 100 min, Avropada 300 min, Bakıda isə bu rəqəm 37 min dollar edir (qiymət tez-tez dəyişir). Digər tərəfdən, Zəngilandan, Qubadlıdan, Cəbrayıldan İrana və ölkənin «Abilər dərəsi»nə, Qızıl keçidinə gətirilən 1 kq heroinin qiyməti isə ümumilikdə 18 min ABŞ dollarıdır.

## QARABAĞDAKI LABORATORİYALAR

Ümumiyyətlə, MDB ölkələrində bakterioloji və kimyəvi silahları ləğv etmək üçün məlumata görə, ilə 18,6 milyon dollar lazımdır. Ermənistanda və eləcə də Azərbaycanın işğal olunmuş ərazilərində altı müxtəlif elmi-tədqiqat laboratoriyası fəaliyyət göstərir. Məsələn, Xankəndidə tikilən (2001-ci il 4 mart) laboratoriya insan orqanizmi fonunda fizioloji və ekoloji tədqiqatlar aparır. Şuşada isə professor Adamats Daniloviç Qriqoryanın başçılıq etdiyi alimlər qrupu Biotexniki və Molekulyar Biologiya İnstitutunda genlərin öyrənilməsi, diferensial təsirlər, genetik nəsildəyişmələr araşdınlır. Və bilavasitə Ermənistan MN-in «21504-A-VS-04» lisenziyaları ilə ordu üçün orqanizmin zəhərli maddələrdən qorunması fonunda preparatların hazırlanması işi görülür.

Aparılan araşdırmalarımdan bu da aydın olur ki, MDB ölkələrinin heç biri törədiləcəyi həmişə gözlənilən bioterrorizm qarşısında aciz və gücsüzdülər.

Amerikanın Səhiyyə və Sosial Nazirliyinin bioterrorizm və kimyəvi silahlar üzrə aparıcı mütəxəssisi Marqaret Xemberq yazır: «Bu real təhlükədir. Bu təhlükəni dəf etmək lazımdır». Eləcə də, Con Hopkins Universitetinin nəzdində əhalinin biomüdafiə problemlərini öyrənən mərkəzin direktoru Cono Henderson yazır: «Yaxın 10 ildə belə hücum mümkündür. Bu hücum da ola bilsin İraq tərəfdən, Şimali Koreya tərəfindən, İran və Livan tərəfindən olsun. Eləcə də, MDB ölkələrindən birinin bu aksiyada iştirak etməsi məsələsi var».

## ERMƏNİ SEPARATÇILARININ YENİ İDDİALARI
## (əslində bu iddia bir əsr bundan qabaq da olmuşdu)

Ermənistan Artaşest yaşayış məntəqəsindən ermənilərin yeni «Çeqakron» təxribat qrupunun yuvası artıq qurulub.

Bu təşkilat Ermənistanda heç bir yerdə qeydiyyatdan keçməyən qeyri-leqal bir təşkilatdır. Heç bir beynəlxalq hüquq normalarına sığmayan bu təşkilatın

məramnaməsində deyilir: «Sizi (yəni, erməni gənclərini - R.N.) vuruşa çağırırıq. Hələ alınmayan qalalarımız, torpaqlarımız var. Alınmayan torpaq bizim deyil».

1998-ci ildə əsası qoyulan (bünövrəsi Vaşinqtonda qoyulub - R.N.) «Çeqakron» təxribatçı qrupun ötən ilin mart ayında qızlardan ibarət qanadı da təşkil olundu. «Onlar yaxşı güllə atır, mərmi qutularını daşıyır, minaatanların sirlərinə bələd olur, sürücülük edirlər». Bu sətirləri Livan jurnalisti Əbdül Saleh yazır. O, daha sonra qeyd edir: «Mün əlbəyaxa döyüşlərin qaydalarına oğlanlardan yaxşı riayət edən erməni qızlarını gördüm. Sonra mənə orada, sərhədin kənarında bir yeri nişan verib dedilər: «Ora Sədərəkdir».

Sədərək Şərurun mərkəzindən 27 kilometr Şimal-Qərb istiqamətində Sədərək düzündədir. Sədərək düzü Arazboyu düzənliklərdən biridir. Cənub-Şərqdə Vəlidağ və Dəhnə yüksəklikləri vasitəsilə Şərur düzündən ayrılır. Şimal-Qərbdə isə Ararat (Ermənistan) düzənliyi ilə birləşir.

Ötən il Almaniyada Azərbaycanı öyrənən bir qrupun qeydlərində Sədərək camaatı Şotlandlarla müqayisə edilərək, göstərilirdi: «Azərbaycanda comərd yerlər çoxdur. Sədərək (O Naxçıvandadır) həmin yaşayış məntəqələrindən biridir. Burada insanları tez qızışdırmaq olar. Çünki onlar hissə daha tez qapılırlar».

Sədərəklə sərhəd zonasında yaradılmış «Çeqakron» təxribat dəstəsinə vaxtilə Xocavənd rayonunun «Amaras» kilsəsi yaxınlığında milis işçilərinə divan tutub, onları qətlə yetirən Hari Sarkisyanın yaxın qohumu, silahdaşı Vano Sarkisyan (ləqəbi «Beço»dur) başçılıq edir.

45 yaşlı Vano Sarkisyan 2 il İran İslam Respublikasında yaşayıb. Erməni icmasının başçısı Varlan Vartanyanla dostluq əlaqələri saxlayıb. Yüksək hərbi təlim görüb, bir müddət Rusiya sərhəd dəstəsində (1989-cu il) kəşfiyyat bölməsində çalışıb, oradan istefaya göndərilib. Sədərək barəsində xüsusi plan hazırlayan bu dəstənin Ermənistan MN-in xüsusi xidmət orqanları ilə iş planları da mövcuddur. Dəstədə MN üçün strateji əhəmiyyəti olan informasiyalar toplayan 6 nəfərlik «analitik qrup» da fəaliyyət göstərir. Bu qrupun öz mətbəəsi, çap avadanlığı var. Təqribən 1500 kv. metr ərazidə salınmış təlim düşərgəsində isə dərslər aşağıdakı proqramla keçirilir:

a) Silahlardan istifadə qaydaları.
b) Əlbəyaxa döyüş növləri.
c) Partlayıcı maddələrin hazırlanması və istifadəsi.
d) Naxçıvanda strateji mərkəzlər.

Sədərək Naxçıvanın ən kövrək hissəsidir. Düşmən bu yaşayış mərkəzi üçün harın nəfsini hcç vaxt gizlətmir. Kaliforniya ştatının Bevelli-Hillis şəhərində «Armeniya fond ink» şirkətinin Dağlıq Qarabağa yardım adıyla keçirdiyi marafondan topladıqları 2,3 milyon ABŞ dollarının 28 faizi məhz Sədərək istiqamətindəki təxribatlar üçün ayrılmışdı.

Yadıma bu da düşür ki, hələ 4 il bundan qabaq Rusiyadan alınan silahların,

hərbi sursatın bir hissəsi Sədərək zolağına daşındı.

Rusiya Federasiyasının ordu generalı Mixail Kolesnikov 13/3/0220 saylı şifro-teleqramda yazırdı: «Öz adımızdan Sizə (yəni, öz nazirliyinə - R.N.), Ermənistan Müdafiə Nazirliyinə 55 «T-72» tank verməyinizi əmr edirəm».

Həmin tanklardan 9-u hazırda Sədərək istiqamətinə «gətirilib», özünə yer tutub. «Çeqakron» həmin tanklardan istifadə qaydalarını öyrənir. Rus «müşavirləri» isə bu tankların atıcılıq qabiliyyətindən, uzaqvuran mərmisindən, sürətindən həvəslə söz açırlar. Sədərək istiqamətində qurulmuş təxribat yuvalarının hamısı da bir nöqtədən idarə olunur. Ermənistan dövləti həmin təxribatçı dəstələrini nə qeydə alır, nə də onları nəzərdən kənarda qoyur.

Sədərəkin şimal hissəsində yerləşdirilmiş «Araz» qrupu iki bölmədə (hər bölmədə 6 nəfər) hazırlıq keçir. Qrupa keçmiş «KQB» mayoru Alik Baqramoviç Gevorkov başçılıq edir. O həm də «Seyran» adı ilə tanınır. Alik Gevorkovun əmisi vaxtilə Bakıda sərhəd dəstəsində, sonra Mərkəzi Aparatda çalışıb.

«Seyranın məktəbi»ni Artaşatda az adam tanıyır. Çünki qapalı olan bu məktəb həm də ciddi nəzarət altındadır.

Sədərəkdə baş verən gündəlik hadisələr, psixoloji vəziyyət haqqında, Türkiyə ilə strateji və iqtisadi əlaqələr barədə informasiya toplanılır.

Onu da qeyd edim ki, 1998-ci ildən «Seyranın məktəbi»ni bitirən cavanların bir neçəsi oxumaq üçün Rusiyanın kəşfiyyat məktəblərinə - Moskva ətrafındakı qısa kurslara göndərilir.

Ararat yaşayış məntəqəsində 1998-ci ilin oktyabr ayında özəyi qurulmuş «Sədərək» təxribat qrupu isə daha ciddi proqrama malikdir. 14 (əsas qüvvə) nəfərlik «Sədərək» təxribat mərkəzinə 1947-ci ildə Şuşada doğulmuş Alo Aramoviç Babayan adlı birisi başçılıq edir. O, vaxtilə Laçın rayonunda «Ermənistan müqavimət hərəkatı»na başçılıq edənlərdən idi. Alo Babayan Laçında, arxa cəbhədə xeyli qanlı cinayətlər törədib.

Onun «Sədərək» adlı vərəqəsində yazılır: «Laçına birinci biz girmişdik. Onda Laçında sakitlik idi. Adamlara tez qaynayıb qarışdıq. Laçının ilk hərbi gücü, əsgərlərin döyüş qabiliyyəti, adamların həyəcan və təlatümü haqqında topladığımız məlumatlardan mərkəz (Yerevan - R.N.) geniş istifadə edirdi. Laçında rahat yaşayırdıq. Tapşırılan işi rahat görür, əlaqələrimizi qururduq. Sədərəkdə də Laçın variantına əl atmaq daha yaxşı nəticələr verəcək».

«Sədərək» qrupunun üzvləri Livandan, Fransadan, Suriyadan, İrandan, Rusiya və Amerikadan olan erməni icmasının nümayəndələr ilə gizli görüşlər keçirirlər. Alo Babayanın «Laçından sonra Sədərək» adlı xatirələrini Fransada yaşayan ermənilər həvəslə çap edib yaydılar.

O yazır: «Bizimkilərdə (öz qrupunu nəzərdə tutur - R.N.) Naxçıvanı parçalamaq üçün, onu hissə-hissə iflic və məğlub etmək üçün hər cür imkanımız var. Sadəcə, əmr gözləyirik. Mən Sədərəki qana bələnmiş, dağılmış və

parçalanmış, dilənçi kökündə görəcəyəm».

A.Babayanın başçılıq etdiyi təxribat dəstəsindəki «Sədərək müxalifəti ilə iş qrupu»nda 4 nəfər çalışır. Bu adamlar vaxtilə Sədərəkdə yaşayıb işləmişlərdir.

«İqtisadi kəşfiyyat» qrupu isə bilavasitə Ermənistan Gömrük Komitəsi tərəfindən maliyyə yardımı alır və toplanmış iqtisadi informasiyalar, iqtisadi araşdırmaların nəticələri onlara ötürülür. Bu qrupa 1952-ci ildə Yerevanda anadan olmuş Armik Ağayaroviç Adamyan başçılıq edir. O, az müddət Ermənistan Təhlükəsizlik Xidmətində çalışıb. Sədərək istiqamətində görüləcək təxribat planları, şübhəsiz, onun adı ilə bağlıdır. O, ötən ilin mart ayında Artsvanik kəndindəki əsir düşərgəsinə baş çəkmiş, azərbaycanlı əsirlər arasında erməni dilini mükəmməl bilən adamların siyahısını tərtib etmişdir. Xatırladaq ki, Artsvanikdəki əsir düşərgəsində cəza üsulları daha ağır və işgəncəlidir.

1999-cu ilin aprel ayından isə Armik Ağayaroviç Fransa ermənilərinin yardımı ilə qısa kurslar təşkil etdi. Fransa xüsusi xidmət orqanlarının məxfi nümayəndələri bu kurslarda iştirak etmiş əsirlərdən «ən layiqli olanlarına» yaxşı həyat vəd edərək özləri ilə aparmışlar. Bu işin arxasında gələcək üçün nələr planlaşdırıldığını anlamaq o qədər çətin deyil.

Erməni təxribat mərkəzinin qarşılarma qoyduqları məqsədlərdən biri də narazı qalan təbəqənin arasına yol tapmaq, onları indiki hakimiyyətə qarşı qaldırmaq, giley-güzarlı, iqtisadi durumu çətin olan şəxslərə nüfuz edib sarsıtmaq, yeri gələndə onlardan istifadə etmək kimi prinsipcə adi görünən, lakin dərin ictimai kökləri olan, faciələrə aparıb çıxara bilən məsələlərdir.

Şübhəsiz, Sədərək camaatını belə fitnələrlə sındırmaq, əzmək, fikirlərini dolaşıq salıb sarsıtmaq çətin məsələdir. Bu yolda sədərəklini həqiqi sədərəkli kimi möhkəm və bükülməz görməyi qarşılarına məqsəd qoyan, onları mənəvi aşınmalardan, inamsızlıqdan və imkansızlıqdan qoruyan Bakıdakı «Sədərək» cəmiyyəti az iş görmür. Amma nə etmək olar ki, düşmən məkrindən əl götürmür. Son dərəcə ehtiyatlı olmaq lazımdır.

İndi Sədərək daha ağır bir qüvvə ilə üz-üzə dayanıb. Bu da sərhəd məntəqəsi zonasında ermənilərin yaratmağa səy etdikləri «Naxçıvan korpusudur». Şübhəsiz, belə bir korpusun yaranmasının ilk xeyir-duasını elə Ermənistan MN-in Baş Qərargahı verib.

Bu korpusdan əvvəl isə ermənilər özlərinin «Naxçıvan icması»nı təşkil etdilər. «Naxçıvan icması»nın «həmvətənlərə» müraciətində deyilir: «Biz öz icmamızı yaratdıq. Vətənə, ata-baba ocağına dönmək üçün, sönmüş ocaqlarımızı, əcdadlarımızın soyumuş məzarlarını isitmək üçün, yenidən alovlandırmaq üçün «Naxçıvan» adlı bir icma yaratdıq! «Naxçıvan icması». Naxçıvan ermənilərinin ata-babalarının doğulduğu tarixi torpaqlarında yaşamaq haqqını bərpa etmək üçün də mübarizə aparacağıq. Biz dini-sitayiş ocaqlarına sərbəst gedib-gələcəyik».

Bu icmanın beşiyi Yerevandır. İlk mahnısı da orada çalınıb. İcma üzvlərinin

yaxasında bütöv Naxçıvanı əks etdiran döş nişanı var. «Naxçıvan» adlı qəzetin ilk nömrəsi də çapdan çıxıb. İcmanın özünəməxsus bir Şurası təşkil edilib. Ermənistanda ictimai-siyasi xadim kimi tanınan Rafael Ambarsumyan şuraya başçı seçilib. Akademik Lanser Aqolovyan, Lendruş Xurşudyan, Yuri Xocəmiryan, Sos Sərkisyan kimi tanınmış adamlar şuraya üzv olublar.

Bu icma onu da qeyd edir ki, onlar BMT-nin İnsan hüquqları Deklarasiyasına, qaçqınların, deportasiya edilən şəxslərin daimi yaşayış yerinə qaytarılması haqda beynəlxalq qurumların qəbul etdiyi sənədlərə uyğun Naxçıvan ermənilərinin haqlarını müdafiə etmək niyyətindədir.

«Naxçıvan icması» yarandığı gündən dövlət orqanları, o cümlədən xüsusi xidmət orqanların öz proqramlarında müəyyən dəyişiklik etdilər. Fevral ayında (1999-cu il) bu icmanın erməniləri müdafiə məqsədilə «Naxçıvan» adlı hərbi qanadı yaratdı. Vaxtilə Hərbi Dəniz Donanmasında işləmiş (Pribaltika) polkovnik Rum Avenesoviç Kazaryan adlı birisi bu hurbi qanada başçılıq edir. Bura vaxtilə Əfqanıstanda, Qarabağda xidmət etmiş, hərbi hazırlıq keçmiş şəxslər daxil edilir. Bu «könüllü dəstə»lərə Sədərəkin şərq hissəsində onlar üçün təlim-məşq zonasınırı da yaradılması planlaşdırılır. Hərbi qanadın yeddi nəfərdən ibarət iki qrupu isə Rusiya, Fransa, İran erməni icmaları ilə ilkin əlaqələr yaratmaq üçün oraya müntəzəm ezam olunurlar.

Bu ilin mart ayının 2-də isə icmanın «Vartan cəngavərləri» adlı bir qanadı da yarandı. Bu qanad öz iş prinsipini əsasən İslam dinindəki «Cihad» istiqamətində qurur. «Naxçıvan» hərbi qanadının üzvlərinin Rusiya xarici kəşfiyyat xidmətinin rəhbərlərilə məxfi görüşləri də maraq doğurmaya bilməz.

«Naxçıvan korpusu» ilk yardımı arlıq Ermənistan MN-dən aldı. Korpusun hərbi qüvvə kimi təşkilatlanması üçün birinci 10 müxtəlif zirehli maşın, 10 «T-72» tankdan ibarət iki bölmə, əlavə olaraq, radiotelefon avadanlığı verilmiş, avtomobil xidməti bölməsi xəritələrlə təmin edilmiş, tibb məntəqəsi yaradılmışdır.

«Naxçıvan korpusu»nun özünün əlavə «Azərbaycan müxalifəti qrupu» var. 8 nəfərdən ibarət bu qrupun üzvləri Azərbaycanın siyasi partiyalarında, cəmiyyət və təşkilatlarında siyasi-psixoloji durumları araşdırır, təhlil edir, məqsəd və məramlarını öyrənirlər. Korpusun üzvləri müxalifət dəstələrində özlərinə «yaxınlaşanlarla» ciddi maraqlanır və bu yolda yeni hərbi-siyasi planlar işləyirlər.

Elə bilirik bütün bu hadisələrə tarixi baxımdan yenidən nəzər salmaq lazımdır. Hadisələr, Naxçıvan iddiası bir əsr bundan əvvəlki iddianın davamı olaraq qalır. O vaxt Şərur-Dərələyəz-Zəngəzur, Naxçıvan bölgəsinə tamah salan erməni separatçıları bu gün də eyni ssenarini ortaya qoyub.

O vaxt, yəni 1919-cu ilin noyabrın 23-də ABŞ diplomatiyasının səyilə Azərbaycan-Ermənistan arasında saziş imzalanır. Sazişi Azərbaycan tərəfdən hökumətin başçısı N.Yusifbəyli, Ermənistan tərəfdən Nazirlər Şurasının sədri A.Xatisyan, ABŞ nümayəndəsi C.Rey, Gürcüstan XİN E.Gegeçkori imzaladılar

(Bax: Azərbaycan Mərkəzi Dövlət Yeni Tarix Arxivi, f. 970, siy. 1, iş 190, v. 9).

Nəticədə separatçı erməni dəstələri şərtləri pozaraq Zəngəzurun, Dərələyəz mahalının dinc müsəlman əhalisinə divan tutdu. Minlərlə dinc əhali «genosid maşını»ndan keçirildi. Ərazidəki 94 nəslin kökü tamam məhv edildi, güllə-baran olundu.

Fikirlərimiz aydın olsun deyə, bir az əvvələ qayıdaq.

Amerika hökuməti baş verən hadisələrdən istifadə edərək özünün bir sıra emissarları: müttəfiqlərin Ermənistana ali komissar təyin etdikləri polkovnik V.N.Haskel, onun Azərbaycan üzrə müvəkkili C.S.Rey, Bakıdakı vitse-konsul C.Randolf və b. vasitəsilə Naxçıvan bölgəsinə nüfuz etməyə girişdi.

Qafqazda nüfuz dairəsi qazanmaq uğrunda İngiltərə ilə rəqabətə girən, Şimali Azərbaycanın, xüsusilə də Naxçıvan bölgəsinin strateji mövqeyinə, yəni onun vasitəsilə bir sıra ölkələrə çıxa bilmək imkanına mühüm əhəmiyyət verən, ermənilərin bu mahalı ələ keçirmək niyyətlərindən öz məqsədləri üçün istifadə edən ABŞ müxtəlif vasitə və üsullarla bölgədə möhkəmlənməyə çalışırdı. Buna görə də 1919-cu ilin ikinci yarısında ingilislərin bölgədəki mövqelərinin zəiflədiyini görən Birləşmiş Ştatlar burada daha fəal siyasət yeritməyə başladı. Paris Sülh konfransında Dördlər Şurasının əlilə Qafqaz mandatına yiyələnməyə cəhd göstərən ABŞ-a bu dövrdə hələlik Ermənistan üzərində mandat təklif olunmuşdu.

Haskelin 1919-cu il sentyabrın 1-də Azərbaycan Nazirlər Şurasının sədrinə göndərdiyi məktub (Azurbaycan Mərkəzi Dövlət Yeni Tarix Arxivi, f. 970, siy. 1, iş 93, v. 3-4), 1919-cu il 27 sentyabr tarixli bəyanatı (MDYTA, f. 970, siy. 1, iş 92, v. 7) onun bölgəyə dair planının mahiyyətini açıqlamağa imkan verir. 20 maddədən ibarət olan bu məktubda (onu Haskelin birinci layihəsi adlandırırlar) və 12 maddəlik bəyanatda (bu isə ikinci layihə hesab olunur) Naxçıvan və Şərur-Dərələyəz torpaqlarını əhatə edən bitərəf zona yaradılacağı, onun Haskel tərəfindən təyin olunan Amerika qubernatoru tərəfindən idarə ediləcəyi bildirilir, bölgənin həyatının müxtəlif sahələri ilə bağlı məsələlərə toxunulurdu (bax: «Tarixi keçmişimiz» Bakı, «Azərnəşr», 1995, səh. 228).

Naxçıvan mahalını Azərbaycandan qoparmağa çalışan Ermənistanın və bölgədəki əhalinin əksəriyyətini təşkil edən azəri türklərinin Haskelin planına olan münasibətlərinin araşdırılması da olduqca mühüm məsələdir. Ermənistanın baş naziri A.Xatisyan Haskelə yazdığı 1919-cu il 23 oktyabr tarixli 279 №-li məktubda bildirirdi ki, strateji, təsərrüfat-iqtisadi, ərazidə erməni əhalisinin mövcudluğu, tarixi şərait və s. mülahizələrə görə Şərur-Naxçıvan bölgəsinin Qafqazdakı ingilis ali komandanlığı tərəfindən Ermənistanın idarəçiliyinə verilməsinə baxmayaraq, həmin rayonun müvəqqəti olaraq Amerika qubernatoru vasitəsilə idarə olunmasına razıdır. «Daşnaksütyun» Partiyasının orqanı olan «Hayastan Aşxatavor» qəzeti isə Haskelin guya Azərbaycanın tələsinə düşdüyünü, onun təkliflərinin Ermənistanın

mənafelərinə, ilk növbədə isə «ərazi bütövlüyünə» toxunduğunu yazırdı («Azərbaycan» qəzeti, 1 oktyabr, 1919-cu il, № 209).

Diyarın azərbaycanlı əhalisi qətiyyətlə Haskelin planına qarşı çıxdı. 1919-cu il oktyabrın 1-də Rəhim xan Naxçıvanskinin mənzilində Səmədbəy Cəmillinskinin, Xəlilbəyin və Kəlbalı xan Naxçıvanskinin Haskelin nümayəndəsi general Robenzonla birgə müşavirəsi keçirildi. Müşavirədə Şərur və Naxçıvan ərazisində Amerika general-qubernatorluğu yaradılması məsələsi müzakirə edildi, onun yekunu kimi 12 maddədən ibarət bir cavab yazılı surətdə Robenzona təqdim olundu («Azərbaycan» qəzeti, 14 noyabr 1919-cu il, № 246). Həmin sənəddə bölgənin Azərbaycanın ayrılmaz hissəsi olduğu, həmin rayonların ADR-in qanunları ilə azərbaycanlılar tərəfindən idarə edildiyi, bu torpaqların xalqın iradəsinə zidd olaraq kiminsə vasitəsilə ermənilərə verilməsinin qeyri-mümkünlüyü, Amerikanın burada öz general-qubernatorunu yox, sadəcə nümayəndəsini saxlamağa razılıq və s. bildirilirdi.

Əvvəlcə şəraiti düzgün qiymətləndirə bilməyən C.Rey 1919-cu il oktyabrın 16-da Naxçıvan Müsəlman Milli Şurasına məktubunda bölgənin müttəfiqlərin idarəçiliyində qaldığı və ABŞ ordusunun mühəndisi, polkovnik Edmond Dellinin isə oraya qubernator təyin olunduğunu bəyan etdi. Lakin oktyabrın 24-də Naxçıvana gələn və səhərisi gün yerli əhali ilə görüşən C.Rey xalqın güclü müqaviməti nəticəsində öz mövqeyini dəyişərək Dellinin burada Amerikanın qubernatoru yox, nümayəndəsi kimi saxlandığını bildirdi. Bir az sonra Delli, onun ardınca isə 1920-ci ilin yanvarında bütün amerikalı zabitlər Naxçıvanı tərk etdilər (MDYTA, f. 970, siy. 1, iş 65, v. 121).

Erməni separatçılarının Naxçıvan iddiaları isə səngimir. 2004-2005-ci illər ərzində Ermənistan Naxçıvanla bağlı tarixi saxtalaşdıraraq 82 adda irili-xırdalı kitab buraxıb. Onlar bu iddiada yenə də Londonu, Vaşinqtonu axtarıb, tapıblar. Separatçılara belə qəyyumluğu isə, kimliyindən asılı olmayaraq, heç kəs bağışlamır.

## «DAİRƏ» - EKOLOJİ KƏŞFİYYAT PLANI
## (İşğal olunmuş ərazilərimizdə əsl Ekosid idi)

Elektron poçtu kəşfiyyatın tərkib hissəsi olduğundan ABŞ təhlükəsizlik xidməti bu istiqamətdə, ümumiyyətlə, internet şəbəkəsində ciddi rejimə keçdi. Çünki ölkədə baş verən son terror aktlarının törədilməsində Harvard Universitetinin Strateji Araşdırmalar və Tədqiqatlar Mərkəzinin məlumatına görə, dünyanın münaqişəli zonalarında, o cümlədən işğal olunmuş və nəzarətsiz qalan Dağlıq Qarabağ ərazisində fəaliyyət göstərən şirkətlərin demək olar ki, hamısı təbii sərvətlərin daşınması istiqamətində «Xüsusi Proqrama» malikdir.

Diplomat, Milli Təhlükəsizlik Agentliyinin analitiki cənab Styuart Beykerə

görə, elektron poçtları və eləcə də onun büroları ciddi nəzarətə götürülməlidir. Çünki elektron poçtları ekoloji sahədə fəaliyyət göstərən terrorçuların fəaliyyət dairələrinin genişləndirilməsi, qaçaqmalçılıq, silah və narkobiznes məsələlərində nüvə materiallarının çıxarılmasında və oğurlanmasında ən etibarlı mənbədir, daha dəqiq desək, «elektron xəritə»dir..

FTB (ABŞ) ölkənin əsasən strateji mərkəzində fəaliyyət dairələrini genişləndirən informasiya mərkəzlərinə və elektron poçtlarına nəzarət üçün «Garnivar» adlı kommunikasiya-nəzarət sisteminin tətbiqinə keçib.

Elektron poçtlarının büroları texniki sistemınə görə, əsasən regionun və yaxud ərazinin strateji nöqtələrinə görə bütün qütblərində yerləşdirilir.

2005-ci ilin dekabr ayının 13-də («İravunk» qəzeti, dekabr). Ermənistan MN-də elektron və telekommunikasiya məsələləri ilə bağlı yığıncaqda nazirliyin kəşfiyyat bölməsində aparıcı zabitlərdən olan polkovnik Artur Ağabekyan Azərbaycan və Türkiyə istiqamətində qurulacaq kəşfiyyat kommunikasiya sistemindən geniş danışır və bu istiqamətdə amerikalılardan öyrənməyə çağırırdı. Bu mexanizm ərazilərimizin təbii sərvətlərinin daşınması və talanı üçün ən sərfəli iş metodu idi.

Bu həm də ermənilərə ciddi məsələnin bir neçə mərhələdə həyata keçirilməsi üçün şərait yaratdı. Kəşfiyyat polkovnikinə görə, bu nazirlik elektron mərhələsini üç mərhələdə başa çatdırmalıdır:

1. «DQR»-də təbii sərvətləri nəzarətə götürmək;
2. Xarici şirkətlərin cəlb olunması;
3. Təbii sərvətlərlə bağlı elektron poçt yazışmalarını təşkil etmək.

Digər tərəfdən, Türkiyə və Azərbaycan, işğal olunmuş Dağlıq Qarabağ sərhədlərində hərbi mövqelərini möhkəmləndirən beşinci ordu korpusu komandanı, polkovnik Aykaz Bəhmənyana, birinci ordu korpusu komandanı, polkovnik Levon Eronosyana, ikinci ordu korpusu komandanı, polkovnik Sejran Saroyana təbii sərvətlərlə bağlı strateji informasiyaların toplanmasında və işlənməsində komandanlığın tərkibindəki elektron poçtlarının şəbəkəsinin genişləndirilməsi işi tapşırılır. Azərbaycan və Türkiyə istiqamətində qurulan elektron mərkəzlərinə də nəzarəti bilavasitə müdafiə naziri, general Serj Sarkisyan edir, Həmçinin bu məqsədlə, yəni elektron kəşfiyyat məsələlərinə dərindən bələd olmaq üçün bu ilin aprel-may aylarında Yerevandan və Xankəndidən ayrılmış 56 nəfərlik zabit qrupu RF-ə, Çin Xalq Rcspublikasına, İrana, Livan və Suriyaya gedib. İyun ayının 19-da (2004-cü il) isə Amerika Erməni Demokratik Şurası (Armenian-American Democratic Lcadersir Counsil) tərəfindən (cənab M.Axdesyanın qrupu) Dağlıq Qarabağın «özünümüdafiə dəstələrinə» (?) 30 adda müxtəlif kompüter və elektron avadanlığı «hədiyə» edilib» (?). Və səkkiz nəfər mühəndis qrupu da Ermənistanın Türkiyə və Azərbaycan sərhədləri istiqamətində həmin elektron avadanlıqlarının quraşdırılmasında, elektron poçtlarının qurulmasında iştirak ediblər.

Maraqlı faktlardan biri də budur ki, hələ 2000-ci il, sentyabr ayının 25-də Ermənistanda olan Roma papası II İohan da, qondarma Dağlıq Qarabağ respublikasının başçısı Arkadiy Qukasyana da ordunun «İnternet» şəbəkəsindən geniş istifadəsini, eləcə də dünyadakı erməni diasporları arasında qurulacaq elektron poçtlarının genişləndirilməsini tövsiyə edir. Bu barədə geniş şərh verən «Osservatore romano» («I Osservatorc Romano») qəzeti sentyabr ayının 28-də 2001-ci ildə nəşr etdiyi nömrəsində yazır: «Roma papası II İohanı Ermənistanı Türkiyə ilə həmsərhəd rayonu ərazisindəki Xor-Viran monastırına getdi. Və çıxışında bildirdi: «Vatikan hökmən erməni Qriqoryan kilsəsi ilə bütün əlaqələri genişləndirməli və möhkəmləndirməlidir».

Roma Papası həmçinin Dağlıq Qarabağ ərazisində missionerlərin geniş fəaliyyəti üçün internet elektron şəbəkələrindən geniş istifadə edilməsini tövsiyə etdi. Sonra Vatikanda erməni səfiri olan Edurd Nalbandyan Dağlıq Qarabağda - Şuşada və Xocalıda aparılan vuruşmalardan bəhs edən yeni kitabları hədiyyə verdi».(?)

Ermənistanın Azərbaycan istiqamətində planlaşdırdığı «elektron hücumu»da «Qütblərdə strateji məntəqələrin müəyyənləşdirilməsi və həmin dairələrdə elektron poçtların - büroların yaradılması» məsələsi əsas təşkil edir. Bu məqsədin planlı və ardıcıl surətdə həyata keçirilməsi üçün erməni kəşfiyyatı təkcə «daxili resurs»larla deyil, eləcə də xaricdəki erməni diaspor mərkəzləri ilə də əlaqələrini genişləndirirlər.

Məsələn, Fransa, Suriya, Yerevan və Xankəndidə güclü əlaqələri olan Tehranda (İran) kök salmış «Akopyan» erməni firmasının nəzdindəki internet şəbəkəsinin, elektron poçtu və rabitə-kommunikasiya mərkəzinin Təbrizdə, Ərdəbildə, Culfada, Biləsuvar və Parsabadda yaradılmış bürolarını araşdıraq. Bilavasitə İrandakı erməni diasporu ilə işbirliyi quran «Akopyan» firmasının geniş texniki imkanlara malik olması və bu imkanların Azərbaycan istiqamətində yönəlməsi araşdırılması vacib olan məsələ kimi diqqətdən yayınmamalıdır. Həmçinin bu bürolarda qurulan və Azərbaycanın sərhədləri istiqamətində «start» götürən güclü «Armenia» ötürücüləri, elektron poçtları Astara-Lənkəran, Biləsuvar-İmişli bölgələrini asanlıqla əhatə edir, Dağıstan ərazisində fəaliyyət göstərən və eləcə də öz emissar-müxbirlərini «Araz» erməni cəmiyyətində (Mahaçqala, Şamil küçəsi -14) təlimatlandırılıb şimal rayonlarına Şəki, Zaqatala, Balakən, Qusar ərazilərinə istiqamətləndirən ermənilər elektron poçtlarının bir qismini ayrı-ayrı şirkət və firmaların (neft şirkətləri həmçinin), insan hüquqlarının müdafiəsini «təmin edən» cəmiyyətlərin, beynəlxalq xeyriyyə təşkilatlarının, KİV-in nəzdində asanlıqla qura bilərlər.

Ermənilərin kəşfiyyat prinsipləri əsasında qurduqları «Azərbaycan ərazisindəki elektron poçtları»nın vəzifələrindən birini də, əsasən müxalifət mətbuatı vasitəsilə böhtan, tələb və təkid məzmunlu məktubların, xəbər və

məlumatların göndərilməsi təşkil edir.

Avqust ayının 9-da Xankəndidə ermənilərin lideri Arkadi Qukasyanın yanında keçirilən hərbi müşavirədə isə (2001-ci 11, VII-9, saat 18:00-da) Kaliforniya ştatının (ABŞ) keçmiş qubernatoru Edvard Ceresyanın məktubu oxunur. Milyonçu erməni Edvard Ceresyana görə, Kaliforniyada erməni diasporunun müstəqil «Artsax» (Xankəndi) bölməsi yaradılıb və bu bölmənin də fəaliyyəti Xankəndinin ordu quruculuğuna yardımdan ibarət olacaq (?)

Ermənistan avqust ayının 2-də (2001-ci il) RF-in FTX-nin nəzarətində olan «Qafqaz informasiya əməliyyatlarına qoşulmaq üçün müraciət edib. Avqust ayının 4-də isə (2001-ci il) Xankəndidə də belə bir müraciət eyni ünvana daxil olub. Rusiya Federasiyasının Təhlükəsizlik Şurasında müzakirəyə çıxarılmış və qəbul olunmuş (2001-IV-19) «İnformasiya Təhlükəsizliyi Konsepsiyası»ndan sonra onun xüsusi xidmət orqanlarında güclü texnoloji proqram təminatı sistemi yaradılıb. Hansı ki, bunun vasitəsilə ayrılmış kanalla «provayder»ə çıxış mümkündür.

Müstəqil Azərbaycana və onun ərazi bütövlüyünə qarşı erməni qadm terrorçuları da məsələdə aktiv fəaliyyət göstərirlər.

1994-cü il fevralın 16-da Yerevanda keçirilən Təhlükəsizlik Şurasında milli maraqlar naminə hazırldadıqlar sənədə yeni əlavələr edildi. Baş Qərargahın Yerevanda yerləşən «Milli Azadlıq Hərəkatı»nın liderlərindən olan O.Şahnazaryan və Q.Markarov (yan) həmin sənədi yeni bir adla çap etdirib yaydılar. Min beş yüz nüsxə ilə çap olunmuş bu kitabça belə adlandırıldı: «Azərbaycan millətinə qarşı erməni millətinin «Ekoloji proqramı» (Bax: Yerevan: Q.Markarov: «Ekologiya» 1994).

Araşdırmalarımıza görə, 1994-cü il mayın 21-də Parisin «Kontinental» hotelində akademik A.Aqanbekyanın başçılığı ilə «Azərbaycan millətinə qarşı erməni millətinin «Ekoloji proqramı». (Bax: Yerevan: Q.Markarov: «Ekologiya» 1994). Sənəd eyni adlı erməni icmasını üzvləri tərəfindən müzakirə edildi. Akademik-iqtisadçının əlavələrindən sonra sənəd çap olundu (Beləliklə, Azərbaycana qarşı ekoloji bir hücumun başlanğıcı qoyuldu).

Əldə etdiyimiz məlumata görə, Azərbaycanın mənəvi saflığına, zəngin təbiətinə qarşı yönəlmiş bu proqram kortəbii proqram deyildi. Artıq bu proqramın reallaşması üçün xeyli işlər görülüb və görülməkdədir.

## Xocalı soyqırımı zamanı qətlə yetirilmiş azyaşlı və yetkinlik yaşına çatmayan azərbaycanlıların siyahısı

| Sıra № | Adı, soyadı, atasının adı | Təvəll. | Ölümün səbəbi |
|---|---|---|---|
| 1 | Allahyarova Ayşım Raufqızı | 1990 | Xocalı soyqırımı zamanı yolda donub ölmüşdür |
| 2 | Aslanova Elnarə Tofiq qızı | 1978 | Xocalı soyqırımı zamanı yolda donub ölmüşdür |
| 3 | Ağayev Allahverdi Səttar oğlu | 1982 | güllə yaralanması |
| 4 | Vəliyev Ağasif Zakir oğlu | 1985 | qarın boşluğuna daxil olan iki ədəd, sağ bazunu deşib keçən bir ədəd odlu silah güllə yaraları |
| 5 | Qasımova Nərminə Nizam qızı | 1984 | güllə yaralanması |
| 6 | Quliyev Samir Taleh oğlu | 1989 | güllə yaralanması |
| 7 | Quliyev Vüqar Zahid oğlu | 1976 | güllə yaralanması |
| 8 | Quliyev Şükür Qaryağdı oğlu | 1985 | Xocalı soyqırımı zamanı yolda donub ölmüşdür |
| 9 | Quliycva Nurano Qaryağdı qızı | 1981 | Xocalı soyqırımı zamanı yolda donub ölmüşdür |
| 10 | Quliyeva Rəvanə Qaryağdı qızı | 1979 | Xocalı soyqırımı zamanı yolda donub ölmüşdür |
| 11 | Quliyeva Sevinc Əkbər qızı | 1984 | güllə yaralanması |
| 12 | Qümbərov Emin Səfər oğlu | 1988 | güllə yaralanması |
| 13 | Qəmbərova Esmira Səfər qızı | 1987 | güllə yaralanması |
| 14 | Zeynalova Aynur Tofiq qızı | 1985 | döş qəfəsinin deşib keçən iki ədəd güllə yaraları |
| 15 | İmani Ağayar Salman oğlu | 1989 | güllə yaralanması |
| 16 | Yusifova Natəvan Pənah qızı | 1988 | güllə yaralanması |
| 17 | Kupriyev Səyid Roman oğlu | 1986 | güllə yaralanması |
| 18 | Mehdiyeva Aysel Murad qızı | 1987 | döş qəfəsini deşib keçən 2 ədəd güllə yaraları |
| 19 | Mehdiycva Gülmirə Murad qızı | 1989 | döş qəfəsinin deşib keçən, ürəyin və sol ağ ciyrin yarası ilə müşayiət olunan bir ədəd, sol diz nahiyəsinin bir ədəd kor odlu silah - güllə |
| 20 | Muradova Ayşən Zöhrab qızı | 1991 | Xocalı soyqırımı zamanı yolda donub ölmüşdür |
| 21 | Məmmədov Zahir Ramiz oğlu | 1975 | işgəncə verilərək döyülüb öldürülmüşdür |
| 22 | Məmmədov Niyaməddin Vaqif | 1977 | güllə yaralanması |
| 23 | Məmmədov Ceyhun Vaqif oğlu | 1975 | güllə yaralanması |
| 24 | Məmmədov Əkbər Rəhman | 1991 | Xocalı soyqırımı zamanı yolda donub ölmüşdür |
| 25 | Nağıyev Asəf Füzuli oğlu | 1979 | güllə yaralanması |
| 26 | Orucova Məlahət Əli qızı | 1975 | gülk) yaralanması |
| 27 | Orucova Natəvan Nəbi qızı | 1989 | güllə yaralanması |

| | | | |
|---|---|---|---|
| 28 | Orucova Xəyalə Telman qızı | 1986 | baş, döş və sol bud nahiyələrinin 3 ədəd deşib keçən güllə yaraları |
| 29 | Səfiyev Sərvan Elxan oğlu | 1991 | Güllə yaralanması |
| 30 | Xəlilova Lalə Tahir qızı | 1988 | döş və qarın boşluqlarına keçən iki ədəd güllə yaraları |
| 31 | Çobanova Nəzakət Tapdıq qızı | 1984 | güllə yaralanması |
| 32 | Şirinov Elşən Eldar oğlu | 1990 | Güllə yaralanması |
| 33 | Şükürova Əntiqə Vaqif qızı | 1991 | güllə yaralanması |
| 34 | Hümbütova Nahidə Eldar qızı | | döş boşluğuna keçən bir ədəd kor odlu silah - güllə yaralanması hər iki göz alması kəsilib çıxarılmış, hər iki döş vəzisi kəsilmişdir |
| 35 | Hümbütova Simuzər Cəlil qızı | 1976 | güllə yaralanması |
| 36 | Hüseynova Maral Kamil qızı | 1985 | qarın boşluğundan deşib keçən bir ədəd güllə yarası |
| 37 | Hüseynova Səadət Qudim qızı | 1974 | güllə yaralanması |
| 38 | Əzimov Natiq Abbasqulu oğlu | 1986 | bütün bədənin 1- 2-ci dərəcəli yanığı, döş qəfəsinin deşib keçməyən bir ədəd odlu silah-güllə yaralanması, cinsiyyət üzvünün kəsilməsi ilə müşayiət olunan, həyatla bir araya sığmayan xəsarətlər |
| 39 | Əliyeva Yeganə Məhərrəm qızı | 1991 | Xocalı soyqırımı zamanı yolda donub ölmüşdür |
| 40 | Ələkbərov Səxavət Təvəkkül oğlu | 1981 | döş boşluğuna keçən 3 ədəd, sağ bud nahiyəsində iki ədəd, sol baldır nahiyəsində 2 ədəd odlu silah - güllə yaraları |
| 41 | Əsgərov Eldar Nizami oğlu | 1989 | güllə yaralanması |
| 42 | Şirinov Eldarın hələ adı qoyulmamış körpə qızı | 1991 | güllə yaralanması |
| 43 | naməlum azyaşlı qız | 4-6 yaş | güllə yaralanması |
| 44 | naməlum azyaşlı qız | 10-1 2yaş | güllə yaralanması |
| 45 | Nam'lum azyaşlı / Tapdıq / | 9-10 yaş | güllə yaralanması |
| 46 | naməlum azyaşlı qız | | güllə yaralanması |
| 47 | naməlum azyaşlı /Zeynalova Aynurə Tapdıq qızı/ | | güllə yaralanması |
| 48 | naməlum azyaşlı /Nəbiyeva Maral/ | 8-9 yaş | güllə yaralanması |
| 49 | naməlum azyaşlı qız /Taleh/ | 5yaş | güllə yaralanması |

| Sıra № | Adı, soyadı, atasının adı | Təvəl. | Ölümün səbəbi |
|---|---|---|---|
| 1 | Abbasov Taleh Umudvar oğlu | 1961 | diri-diri yandırılaraq öldürülmüş, bütün bədəninin 3-4-cü dərəcəli termiki yanığı |
| 2 | Abışov Mobil Mövsüm oğlu | 1968 | işgəncə verilərək döyülüb öldürülmüşdür |
| 3 | Aslanov İqbal Bahadur oğlu | 1970 | döş qəfəsinin çoxlu deşib keçən güllə yaraları, bədənin müxtəlif nahiyələrinin 2-ci dərəcəli termiki yanığı, hər iki gözün çıxarılması, cinsiyyət üzvünün kəsilməsi |
| 4 | Behbudova Sürəyya İbrahim qızı | 1932 | xarici cinsiyyət üzvləri nahiyəsinə yetirilmiş, boşluğa keçən iki ədəd güllə yaralanması |
| 5 | Butko Dmitri Nikolayeviç | 1927 | diri-diri yandırılaraq öldürülmüşdür |
| 6 | Bədəlov Tofiq | | bədəni üzərindən tırtıllı texnika keçməsindən döş qəfəsi və qarın boşluğunun, daxili üzvlərin əzilib dağılması, sümüklərin çox-saylı sınıqları /hər iki göz almaları kəsilib çıxarılmış, hər iki qulaq seyvanı kəsilmişdir/ |
| 7 | Quliyev Natiq Vəliyəddin oğlu | 1972 | işgəncə verilərək döyülüb öldürülmüşdür |
| 8 | Quliyev Əkbər Zəkara oğlu | 1961 | daxili orqanların zədələnməsi ilə müşayiət olunan döş qəfəsinin çoxsaylı deşib keçən güllə yaralanmaları, bütün bədən səthinin 1-2-ci dərəcəli termiki yanığı |
| 9 | Eyvazov Hidayət Əli oğlu | 1964 | Başa küt aiətlə yetirilmiş, kəllə qapağı sümüklərinin qəlpəli sınıqları, üz skeleti sümüklərinin sınıqları, sol gözün çıxarılması, qarın nahiyəsindən və sağ bud nahiyəsindən deşib keçən iki ədəd güllə yaralanmaları |
| 10 | İlyasov Əhməd Məmməd oğlu | 1968 | başı kəsilmiş |
| 11 | Kərimov Samran Soltan oğlu | 1924 | döş qəfəsinin boşluğa keçən bir ədəd kor güllə yaralanması (onun meyitində həmçinin hər iki göz almalarının çıxarılması, anus dəliyi nahiyəsinə butulka yeridilməsi müəyyən |
| 12 | Kərimov Firuz Samran oğlu | 1960 | diri-diri yandırılaraq öldürülmüşdür, bütün bədənin kömürləşənə qədər termiki yanması |
| 13 | Mustafayev Vidadi Şəfa oğlu | 1963 | başı kəsilmiş |
| 14 | Məmmədov Eldar Əmirxan oğlu | 1957 | başın kəllə boşluğuna keçən 3 ədəd, baş nahiyəsində) iki ədəd küt alətlə yetirilmiş, kəllə qapağı sümüklərinin sınıqları ilə müşayiət olunan yaralar, sol çiyin və döş qəfəsi nahiyələrində 4 ədəd kəsici-deşici alətlə yetirilmiş yaralar |

| | | | |
|---|---|---|---|
| 15 | Məmmədova Tamara Səlim qızı | | döş qəfəsinə keçən bir ədəd güllə yaralanması /hər iki gözü kəsilib çıxarılmış, hər iki döş vəzisi kəsilmişdir/ |
| 16 | Nağıyev Yusif Şirin oğlu | 1928 | işgəncə verilərək döyülüb öldürülmüşdür |
| 17 | Nuralıyeva Dilaru Oruc qızı | | kəskin qanitirmə ilə müşayiət olunan, döş qəfəsinin çoxsaylı deşib keçən güllə yaralanmaları /hər iki gözü və dişləri |
| 18 | Nuriyev Hafis Yusif oğlunun | 1962 | başı kəsilmiş |
| 19 | Orucov Telman Ənvər oğlu | 1956 | döş boşluğuna keçən bir ədəd güllə yaralanması, döş qəfəsində küt alət təsirindən əmələ gəlmiş qançırlar və qabırğaların sınıqları /başının dərisi soyulmuşdur/ |
| 20 | Rəcəbov Cəbrayıl Mehdi oğlu | | diri-diri yandırılaraq öldürülmüşdür, başın və bütün bədənin 3-cü « a» və «b» dərəcəli termiki |
| 21 | Salahov Məhəmməd Əbdül oğlu | 1931 | işgəncə verilərək döyülüb öldürülmüşdür |
| 22 | Seyidov Hüseyn İsmayıl oğlu | | işgəncə verilərək döyülüb öldürülmüşdür |
| 23 | Səlimov Araz Bahadur oğlu | 1960 | yaralı vəziyyətdə körpə uşağının gözü qarşısında armaturla döyülüb öldürülmüşdür |
| 24 | Səlimov Bahadur Mikayıl oğlu | 1928 | küt alətlə yetirilmiş kəllə sümüklərinin sınıqları, döş qəfəsinin 3 ədəd deşib keçən güllə yaralanması, bütün bədənin 3-4-cü dərəcəli termiki yanığı /cinsiyyət üzvləri kəsilmişdir/ |
| 25 | Səlimov Fəxrəddin Bahadur oğlu | 1958 | işgəncə verilərək döyülüb öldürülmüşdür |
| 26 | Səfiyev Elxan Nəsib oğlu | 1961 | işgəncə verilərək döyülüb öldürülmüşdür |
| 27 | Fərzəliyev Canan Binnət oğlu | 1-963 | diri-diri yandırılaraq öldürülmüşdür |
| 28 | Şəliyev Elçin Vəkil oğlu | 1965 | işgəncə verilərək döyülüb öldürülmüşdür |
| 29 | Hüseynov Allahverdi Qulu oğlu | 1904 | diri-diri yandırılaraq öldürülmüşdür, bütün bədənin 3-cü «a» və «b» dərəcəli termiki yanığı |
| 30 | Həsənov Elgün | | bədəni üzərindən tırtıllı texnikanın keçməsindən bütün skelet sümüklərinin qəlpəli sınıqları, başın və bütün daxili orqanların əzilib dağılması nəticəsində həlak olmuşlar |
| 31 | Həşimova Şövkət Şükür qızı | 1947 | diri-diri yandırılaraq öldürülmüşdür |
| 32 | Əzizov Hüseyn Nəriman oğlu | 1965 | işgəncə verilərək döyülüb öldürülmüşdür |
| 33 | Əliməmmədov Faiq Şahmalı oğlu | 1973 | işgəncə verilərək döyülüb öldürülmüşdür |
| 34 | Ələkbərov Təvəkkül Ələkblr oğlu | 1956 | döş boşluğuna keçən iki ədəd kor güllə yaralanmaları, döş və qarın boşluqlarına keçən on ədəd kəsilmiş deşilmiş yaralar |

| | | | |
|---|---|---|---|
| 35 | Əmirov Təvəkkül Baxış oğlu | 1955 | döş qəfəsinin bir ədəd boşluğa keçən güllə yaralanması, sol təpə ənsə nahiyəsinin əzilmiş yarası, döş qəfəsinin və hər iki baldırın 3-4-cü dərəcəli termiki yanığı |
| 36 | Əmirova Mahı Bəbir qızı | | qarın boşluğuna keçən bir ədəd güllə yaralanması /hər iki gözü kəsilib çıxarılmış, hər iki döş vəzisi kəsilmişdir/ |
| 37 | Əsədov Yalçın Asif oğlu | 1963 | İşgəncə verilərək döyülüb öldürülmüşdür |
| 38 | Əhmudova Surfiraz Müxət qızı | 1900 | diri-diri yandırılaraq öldürülmüşdür |
